AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

ISSN 2218-4783

ELMİ ƏSƏRLƏR

İctimai və humanitar elmlər seriyası

№ 3

Naxçıvan, “Tusi” – 2021, Cild 17

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN ELMİ ƏSƏRLƏRİ
SCIENTIFIC WORKS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
НАУЧНЫЕ ТРУДЫ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА

2005-ci ildə təsis edilmişdir • Established in 2005 • Основан в 2005 году

Jurnal AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin rəhbərliyi ilə nəşr olunur
The journal is published under auspices of the Presidium of ANAS Nakhchivan Branch Office
Журнал издается под руководством Президиума Нахчыванского Отделения НАНА

REDAKSİYA HEYƏTİ

Baş redaktor
İ.M.Hacıyev

İ.Ə.Həbibbəyli, Y.M.Mahmudov, N.M.Vəlixanlı, Ə.B.Ərcilasun, M.Z.Nağısoylu, M.K.İmanov, Ə.Ə.Salamzadə, C.Ə.Qiyasi, İ.E.Atnur, F.Y.Səfərli (*baş redaktorun müavini*), E.S.İsayev, Ə.X.Nuriyev, Ə.A.Quliyev (*baş redaktorun müavini*), V.B.Baxşəliyev (*məsul katib*), Z.Ə.Şahverdiyev, Ş.T.Bünyadova, N.H.Əhmədov, F.Y.Xəlilov, R.Z.Rəhimli

EDITORIAL BOARD

Chief editor
I.M.Hajiyev

I.A.Habibbeyli, Y.M.Mahmudov, N.M.Valikhanli, A.B.Argilasun, M.Z.Nagisoylu, M.K.Imanov, A.A.Salamzadeh, G.A.Giyasi, I.E.Atnur, F.Y.Safarli (*assistant editor*), E.S.Isayev, A.Kh.Nuriyev, A.A.Quliyev (*assistant editor*), V.B.Bakhshaliyev (*executive secretary*), Z.A.Shahverdiyev, Sh.T.Bunyadova, N.H.Ahmadov, F.Y.Khalilov, R.Z.Rahimli

РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

Главный редактор
И.М.Гаджиев

И.А.Габиббейли, Я.М.Махмудов, Н.М.Велиханлы, А.Б.Арджиласун, М.З.Нагисойлу, М.К.Иманов, Э.А.Саламзаде, Дж.А.Гияси, И.Э.Атнур, Ф.Я.Сафарли (*зам. главного редактора*), Е.С.Исаев, А.Х.Нуриев, А.А.Гулиев (*зам. главного редактора*), В.Б.Бахшалиев (*ответственный секретарь*), З.А.Шахвердиев, Ш.Т.Бунядова, Н.Х.Ахмедов, Ф.Ю.Халилов, Р.З.Рагимли

Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35, tel.: 544-69-84
Address: Nakhchivan, Haydar Aliyev av., 35, phone: 544-69-84
Адрес: Нахчыван, пр. Гейдар Алиева, 35, тел.: 544-69-84

© “Tusi” nəşriyyatı, 2021

MÜNDƏRİCAT

TARİX VƏ SİYASƏT

İsmayıl Hacıyev. Naxçıvanda hərbi-siyasi vəziyyət (1918-1920-ci illər).....9
Fəxrəddin Səfərli. Müsəlman intibahı dövründə Naxçıvan bölgəsində inşa edilmiş bəzi memarlıq abidələri haqqında.....18
Musa Quliyev. Cəsur sərkərdə – Şeyxəli bəy Naxçıvanski-Kəngərli.....30
İlhami Əliyev. Səfəvilər dövründə Naxçıvan bölgəsinin inzibati ərazi bölgüsü və sərhədləri.....37
Yaşar Rəhimov. 1901-1907-ci illərdə Naxçıvana erməni köçürülmələri, qırğın və talanlar...42
Aytək Babayeva. Davamlı inkişaf konsepsiyasının formalaşmasının nəzəri-tarixi aspektləri.....48
Nurlana Əliyeva. Azərbaycanın Rusiya tərəfindən işğalından sonra Naxçıvanın tarixi coğrafiyasında baş verən dəyişikliklər (XIX əsr).....57
Sevinc Abbasova. Naxçıvanda müstəqillik illərində təhsil sahəsində gender məsələsi.....62
Vasif İsmayılov. Azərbaycan Respublikasında dövlət idarəçilik sisteminin modernləşməsinin aktual məsələləri.....68

ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

Vəli Baxşəliyev. Naxçıvanda neolit mədəniyyətinin mənşəyi və formalaşması.....75
Toğrul Xəlilov. Maddi və mənəvi mədəniyyətimizin öyrənilməsində Tunc dövrü keramikalarının əhəmiyyəti.....82
Gökçen Acar. Son Eneolit dövrü abidələrinin xronologiyası.....88
Dürdanə Yusifova. Azərbaycanda dini inanclarla bağlı naxışların müxtəlif sənət sahələrində tətbiqi tarixindən.....96
Asəf Orucov. Naxçıvanda şəhər əhalisinin su təchizatı sistemində kəhrizlərin rolu.....101

AZƏRBAYCAN DİLİ

Əbülfəz Quliyev. Əhməd Cəfəroğlu və Azərbaycan dialektologiyası məsələləri.....107
Nuray Əliyeva. Naxçıvan dialektində sait səslərin variantları.....114
Firudin Rzayev. Naxçıvanın qədim oykonimlərində arxasıra və önsıra saitlərdə fonetik hadisələr.....120
Leyla Səfərova. Azərbaycan dilindəki neologizmlər və onların Naxçıvan dialekt və şivələrində əmələ gətirdiyi dəyişikliklər.....126
Kübra Vəliyeva. Azərbaycan və ərəb dillərində sümük (skelet) sisteminə məxsus bəzi tibbi terminlərin leksik-semantik xüsusiyyətləri.....133

ƏDƏBİYYAT VƏ FOLKLOR

Fərman Xəlilov. Müzəffər Nəsirlinin şəxsi arxivi.....141
Ramiz Qasımov. Cəlil Məmmədquluzadə realizminin poetikasındakı bəzi obrazların bədii-estetik xüsusiyyətləri haqqında.....149

Aygün Orucova. Müstəqillik dövrü hekayə janrında Xocalı dərdi və Qarabağ həsrətinin bədii əksi (Naxçıvan ədəbi mühitində).....156
Nərgiz İsmayılova. Şəmil Sadiqin "OdƏrlər" romanı postmodern kontekstdə.....164
Səbuhi İbrahimov. "Kəşkülün-nur" əsərində məntiqi yanaşma üsulları.....170
Fəxrəddin Eylazov. Orta əsr kitablarının bədii tərtibatı.....175
Zeynəb Məmmədova. Hafiz Şirazinin qəzəllərində bəzi təsəvvüf terminlərinin təhlili....181
Çinarə Rzayeva. Rus və Avropa toponimləri Naxçıvan folklor mətnlərində.....187
Mirsəlim Eminov. "Xosrov və Şirin" poemasında sənətkarlıq haqqında.....192
Aytən Cəfərova, Nuridə Muxtarzadə. XX əsr Naxçıvan aşıq mühitinin tanınmış siması – Aşıq Nabat.....196
Tehranə Xudaverdiyeva. Öz və yad məkan əksinəliyinin nağılların təşkilində rolu.....204
Arif Zeynalov. Puşkin dövrünə qədər rus poeziyasının qanadlı sətirləri.....213

İNCƏSƏNƏT

Ələkbər Qasımov. Azərbaycan dramaturgiyasında Gürcüstan və gürcü surətləri.....225
Əli Qəhrəmanov. Nizami Gəncəvinin əsərlərinin süjeti əsasında yazılan pyeslər Naxçıvan səhnəsində.....230
Gülnarə Qənbərova. Naxçıvan xalçaları mədəniyyət abidəsi kimi.....238
Fatma Məmmədova. Azərbaycan ədiblərinin Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyindəki portretlərin bərpa tarixi.....250
Xanım Məmmədova, Məmməd Rəcəbov. Qrafik təsvirin inkişaf yolu.....256
İlham Nəzərov. Müslim Maqomayev və Əli Haqverdiyevin təfsirində Aslan şahın ariyasının müqayisəli təhlili.....263

İQTİSADİYYAT

Eltun İbrahimov. Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin olunmasının başlıca istiqamətləri.....268
Həsən Məmmədov. Azərbaycanda sahibkarlığın innovasiya yönümlü inkişafında innovasiya sisteminin rolu.....274
Samir Allahverdiyev. Azərbaycanda innovasiya sahibkarlığının inkişaf mərhələləri.....280
Kazım Nağıyev. Naxçıvan Muxtar Respublikasında əhalinin təbii hərəkət göstəriciləri və onların dəyişilməsi dinamikası.....287
Kəmalə Təhməzbəyova. Beynəlxalq regional inteqrasiya və qlobal göstəricilər.....294

KİTABLAR, RƏYLƏR

Bibixanım Nağdəliyeva. İlk monoqrafiyanın uğuru.....300

CONTENTS

HISTORY AND POLITICS

Ismail Hajiyev. Military-political situation in Nakhchivan (in 1918-1920).....9
Fakhraddin Safarli. Some architectural monuments built in the Nakhchivan region during the Muslim Renaissance period.....18
Musa Guliyev. Brave commander – Sheykhali bey Nakhchivanski-Kangarli…….....30
Ilhami Aliyev. Administrative division and borders of the Nakhchivan region during the Safavids' period…….....37
Yashar Rahimov. Resettlement of Armenians to Nakhchivan in 1901-1907, massacres and robberies…….....42
Aytak Babayeva. Theoretical and historical aspects of the formation of the sustainable development concept.....48
Nurlana Aliyeva. Changes in the historical geography of Nakhchivan after the occupation of Azerbaijan by Russia (19th century).....57
Sevinj Abbasova. Gender issue in Nakhchivan in the field of education during the years of independence.....62
Vasif Ismayilov. Current ıssues of modernızatıon of the publıc admınıstratıon system ın the Republıc of Azerbaıjan.....68

ARCHAEOLOGY AND ETHNOGRAPHY

Veli Bakhshalyiev. Genesis and formation of Neolithic culture of Nakhchivan….....75
Togrul Khalilov. The importance of Bronze age ceramics in the study of our material and spiritual culture…….....82
Gokchen Acar. Periodization of monuments of the Late Chalcolithic age….....88
Durdana Yusifova. The history of the use of ornaments related to religious beliefs in various art spheres of Azerbaijan.....96
Asaf Orujov. The role of kahriz in the water supply system of urban population in Nakhchivan.....101

THE AZERBAIJANI LANGUAGE

Abulfaz Guliyev. Ahmad Jafaroglu and issues of Azerbaijani dialectology…….....107
Nuray Aliyeva. Variants of vowel sounds in Nakhchivan dialect…….....114
Firudin Rzayev. Phonetic phenomena in back and front vowels in ancient Nakhchivan oikonyms…….....120
Leyla Safarova. Neologisms ın the Azerbaijanian language and the changes they caused in Nakhchivan dialects and accents.....126
Kubra Valiyeva. Lexical-semantic features of some medical terms belonging to the skeletal system in Azerbaijani and Arabic…….....133

LITERATURE AND FOLKLORE

Farman Khalilov. Muzaffar Nasirli's archive….....141

Ramiz Qasimov. On the artistic and aesthetic features of some images in the realism poetic of Jalil Mammadguluzadeh…….....149
Aygun Orujova. Artistic reflection of the Khojaly misfortune and the grief for Karabakh in the genre of a story during the period of independence (in the Nakhchivan writer environment)….....156
Nargiz Ismayilova. Shamil Sadig's novel "OdErler" in postmodern context….....164
Sabuhi Ibrahimov. Means of logical approach in "Kashkulun-nur" work…….....170
Fakhraddin Eylazov. Actistic design of medieval books.....175
Zeynab Mammadova. Analysis of some Sufi terms in Hafiz Shirazi's ghazals…….....181
Chinara Rzayeva. Toponyms of Russian and European origin in the texts of Nakhchivan folklore…...…….....187
Mirselim Eminov. Craftsmanship in "Khosrov and Shirin" poem….....192
Aytan Jafarova, Nurıda Mukhtarzade Well-known image of Nakhchivan ashug environment of the 20th century: Ashug Nabat…….....196
Tehrane Khudaverdiyeva. The role of own and alien space opposition in the organization of folk tales…….....204
Arif Zeynalov. Winged phrases of the pre-Pushkin period's Russian poetry….....213

ART

Alakbar Gasimov. Georgia and Georgian images in Azerbaijani dramaturgy…….....225
Ali Gahramanov. Plays based on the plots of Nizami Ganjavi's works on the stage of the Nakhchivan theater…….....230
Gulnara Ganbarova. Nakhchivan's carpets like a cultural monument….....238
Fatma Mammadova. History of reconstruction of portraits of Azerbaijani writers in the National Museum of Azerbaijani Literature named after Nizami Ganjavi….....250
Khanım Mammadova, Mammad Rajabov. The development path of the graphic image....256
Ilham Nazarov. Comparative analysis of Aslan shah's aria performed by Muslim Magomayev and Ali Hakhverdiyev…….....263

ECONOMICS

Eltun İbrahimov. Main directions to ensure food security in the Nakhchivan Autonomous Republic…….....268
Hasan Mammadov. The role of the innovation system in the innovative development of entrepreneurship in Azerbaijan…….....274
Samir Allahverdiyev. Stages of development of innovative entrepreneurship in Azerbaijan….....280
Kazim Nagiyev. Natural population movement indicators and their dynamics in the Nakhchivan Autonomous Republic….....287
Kamala Tahmazbeyova. International regional integration and global indicators….....294

BOOKS, REVIEWS

Bibikhanim Nagdaliyeva. The success of the first monograph.....300

СОДЕРЖАНИЕ

ИСТОРИЯ И ПОЛИТИКА

Исмаил Гаджиев. Военно-политическое положение в Нахчыване (1918-1920-е годы).....9
Фахреддин Сафарли. О некоторых архитектурных памятниках, воздвигнутых в Нахчыванском регионе в период мусульманского ренессанса.....18
Муса Кулиев. Отважный полководец – Шейхали бек Нахчыванский-Кенгерли.....30
Ильхами Алиев. Административное деление и границы Нахчыванской области в сефевидский период.....37
Яшар Рагимов. Переселение армян в Нахчыван в 1901-1907 годах., массовые убийства и грабежи.....42
Айтак Бабаева. Теоретико-исторические аспекты формирования концепции устойчивого развития…….....48
Нурлана Алиева. Изменения в исторической географии Нахчывана после оккупации Азербайджана Российской империей (XIX век)….....57
Севиндж Аббасова. Гендерный вопрос в сфере образования в Нахчыване в годы независимости.....62
Васиф Исмаилов. Актуальные вопросы модернизации системы государственного управления в Азербайджанской Республике.....68

АРХЕОЛОГИЯ И ЭТНОГРАФИЯ

Вели Бахшалиев. Генезис и формирование неолитической культуры Нахчывана….75
Тогрул Халилов. Значение керамики эпохи бронзы в изучении нашей материальной и духовной культуры.....82
Гекчен Аджар. Периодизация памятников эпохи позднего энеолита….....88
Дурдана Юсифова. Из истории применения орнаментов, связанных с религиозными верованиями, в различных сферах искусства Азербайджана…….....96
Асеф Оруджев. Роль кяризов в системе водоснабжения населения города Нахчыван...101

АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК

Абульфаз Гулиев. Ахмед Джафароглу и вопросы азербайджанской диалектологии.....107
Нурай Алиева. Варианты гласных звуков в нахчыванском диалекте.....114
Фирудин Рзаев. Фонетические явления в гласных заднего и переднего ряда в древних нахчыванских ойконимах.....120
Лейла Сафарова. Неологизмы в азербайджанском языке и изменения, вызываемые ими в нахчыванских диалектах и говорах.....126
Кубра Велиева. Лексико-семантические особенности некоторых медицинских терминов, относящихся к костной (скелетной) системе в азербайджанском и арабском языках.....133

ЛИТЕРАТУРА И ФОЛЬКЛОР

Фарман Халилов. Личный архив Музаффара Насирли.....141

Рамиз Гасымов. О художественно-эстетических особенностях некоторых образов в поэтике реализма Джалила Мамедгулузаде.....149
Айгюн Оруджева. Художественное отражение ходжалинской беды и карабахской тоски в жанре повести в период независимости (в нахчыванской литературной среде).....156
Наргиз Исмаилова. Роман Шамиля Садига «Огненные воины» в постмодернистском контексте.....164
Сабухи Ибрагимов. Методы логического подхода в труде «Кашкулун-нур».....170
Фахреддин Эйлазов. Художественное оформление средневековых книг.....175
Зейнаб Мамедова. Анализ некоторых суфийских терминов в газелях Хафиза Ширази....181
Чинара Рзаева. Российские и европейские топонимы в фольклорных текстах Нахчывана.....187
Мирсалим Эминов. Об искусстве в поэме «Хосров и Ширин».....192
Айтен Джафарова, Нурида Мухтарзаде. Видный представитель ашугской среды Нахчывана XX века: Ашуг Набат.....196
Техране Худавердиева. Роль противопоставления своего и чужого пространства в организации народных сказок.....204
Ариф Зейналов. Крылатые строки русской поэзии допушкинской поры.....213

ИСКУССТВО

Алекбер Гасымов. Грузия и образы грузин в азербайджанской драматургии.....225
Али Гахраманов. Пьесы, созданные на основе сюжетов произведений Низами Гянджеви, на сцене Нахчыванского театра.....230
Гульнара Ганбарова. Нахчыванские ковры как памятник культуры.....238
Фатма Мамедова. История реконструкции портретов азербайджанских писателей в Национальном музее азербайджанской литературы имени Низами Гянджеви.....250
Ханум Мамедова, Мамед Раджабов. Путь развития графического изображения....256
Ильхам Назаров. Сравнительный анализ арии Аслан шаха в исполнении Муслима Магомаева и Али Хагвердиева.....263

ЭКОНОМИКА

Элтун Ибрагимов. Основные направления обеспечения продовольственной безопасности в Нахчыванской Автономной Республике.....268
Гасан Мамедов. Роль инновационной системы в инновационном развитии предпринимательства в Азербайджане.....274
Самир Аллахвердиев. Этапы развития инновационного предпринимательства в Азербайджане.....280
Казим Нагиев. Показатели естественного движения населения и их динамика в Нахчыванской Автономной Республике.....287
Камала Тахмазбекова. Международная региональная интеграция и глобальные индикаторы.....294

КНИГИ, РЕЦЕНЗИИ

Бибиханым Нагдалиева. Успех первой монографии.....300

TARİX VƏ SİYASƏT

UOT 94 (479.24)

İSMAYIL HACIYEV

NAXÇIVANDA HƏRBİ-SİYASİ VƏZİYYƏT (1918-1920-ci İLLƏR)

Məqalədə Fevral inqilabından sonra bolşeviklərin siyasi hakimiyyətə gəlməsi ilə Cənubi Qafqazda yaradılan idarəetmə qurumları və bunların Naxçıvan diyarındakı nümayəndələrinin fəaliyyətindən bəhs olunur. Araşdırmalar nəticəsində müəyyən edilir ki, 1918-1920-ci illər boyu ermənilər Naxçıvanda, Ordubadda, Vedibasarda, Zəngəzurda və başqa bölgələrimizdə türk-müsəlman əhaliyə qarşı kütləvi zorakılıqlara başlayaraq bu bölgələrin etnik vəziyyətini öz xeyirlərinə dəyişmək və milli dövlətlərini yaratmaq planlarını həyata keçirməyə başlamışlar. Müəyyən edilmişdir ki, erməni işğalçılarına qarşı mübarizənin əsas ağırlığı Naxçıvanın yerli könüllü müdafiə dəstələrinin və bu dəstələrə rəhbərlik edən qəhrəman oğullarımızın üzərinə düşmüşdür.

Naxçıvan bölgəsinin qorunmasında və onun Azərbaycanın tərkibində qalmasında Türk hökumətinin və onun dəstəyi ilə bağlanmış Moskva və Qars müqavilələrinin də mühüm rolu olmuşdur. Çar və Sovet Rusiyası, ingilis və amerikan qüvvələri də Naxçıvanı Ermənistana qatmaq siyasətləri və bu istiqamətdə əməli addımlar atsalar da Azərbaycan hökuməti və yerli qüvvələr buna imkan verməmişlər.

Açar sözlər: *Xüsusi Zaqafqaziya Komitəsi, Zaqafqaziya Komissarlığı, Azərbaycan, Naxçıvan, Milli Komitə, Ermənistan, siyasi mübarizə, hərbi mübarizə.*

1917-ci ilin Fevral inqilabı keçmiş Rusiya imperiyasının bütün ərazilərində olduğu kimi, Cənubi Qafqazda, o cümlədən Naxçıvanda da tamamilə yeni siyasi şərait yaratdı. Martın 3-də diyarda mülki hakimiyyət yeni yaradılmış Xüsusi Zaqafqaziya Komitəsinə – OZAKOMA verildi. Bu komitə regionun əsas millətlərini Dövlət Dumasında təmsil edən deputatlardan ibarət idi.

Həmin ilin aprel ayının sonlarından bu Komitə Naxçıvan bölgəsinə və onun ayrı-ayrı qəzalarına öz səlahiyyətli nümayəndələrini təyin edərək, burada bir sıra inzibati dəyişikliklər həyata keçirməyə başladı.

Xüsusi Zaqafqaziya Komitəsinin 1917-ci il 26 aprel tarixli qərarı ilə Burhan bəy Maqsudov Naxçıvan qəzası üzrə xüsusi müvəkkil təyin edildi. Sentyabrın 1-də onu Baxşəli ağa Şahtaxtinski əvəz etdi [6, s. 51]. Ordubad qəzası üzrə müvəkkil vəzifəsinə isə keçmiş pristav Bendukidze təyin edildi. Ermənilərin təhriki ilə Xüsusi Zaqafqaziya Komitəsi 1917-ci ilin iyulun 18-də Mxitaryantsı da Naxçıvan qəzası üzrə müvəkkil təyin etdi. Müvəkkillərin təyin edilməsi ilə 1917-ci ilin ortalarından başlayaraq Naxçıvanda yerli hakimiyyət orqanlarının – qəza və kənd ictimai təşkilatlarının icraiyyə komitələrinin təşkilinə başlandı.

1917-ci ilin yazında Naxçıvan və Culfa şəhərlərində, Şahtaxtı dəmiryolu stansiyasında əsgər deputatları sovetləri təşkil olunmağa başlandı.

Bu dövrdə Naxçıvanda siyasi təşkilatlar – Müsavat partiyasının, Daşnaksutyun partiyasının yerli təşkilatları, "Hümmət" qrupu, Məzlumları Müdafiə Komitəsi fəaliyyətlərini genişləndirirdilər.

1917-ci il Fevral inqilabından sonra Naxçıvan, Culfa, Ordubad şəhərlərində azərbaycanlı və erməni əhalisinin nüfuzlu şəxsləri tərəfindən Müsəlman və Erməni milli şuraları yaradılmağa başlandı. Tədricən bu şuralar əsas idarəetmə funksiyalarını öz əllərində cəmləşdirirdilər.

Ermənilər hələ 1917-ci ilin əvvəllərindən Naxçıvan bölgəsində separatçılıq hərəkətlərinə başlamışdılar. "Milli komitələr" adı altında Naxçıvanın ermənilər yaşayan kəndlərində hərbi dəstələr yaradılır və rusların köməyi ilə hərbi ləvazimatlar əldə edirdilər. Bu işdə onlara Qaregin Njde yaxından kömək edirdi [5, s. 16].

Oktyabr siyasi çevrilişindən sonra Gürcüstan menşevikləri, "Müsavat" nümayəndələri, "Daşnaksutyun" partiyasının və sağ eserlərin nümayəndələri noyabrın 15-də müstəqil Zaqafqaziya hökumətini – Zaqafqaziya Komissarlığını təşkil etdilər. Bu Komissarlığın əsas fəaliyyət istiqamətlərindən biri diyarı bolşeviklərin təsirindən qorumaq və Türkiyə ilə münasibətləri nizamlamaq məsələsi idi.

Zaqafqaziya Komissarlığı ilə Türkiyə hərbi komandanlığı arasında 1917-ci il dekabrın 5-də Ərzincan barışığı imzalandı. 1918-ci il yanvarın 14-də isə Türkiyə komandanlığı sülh danışıqlarına başlamaq təklifi ilə Komissarlığa müraciət etdi. Müəyyən səbəblərdən əvvəlcə buna reaksiya verilmədi. Lakin türk qoşunlarının irəlilədiyini görən Zaqafqaziya Komissarlığı 1918-ci il fevralın 6-da Qafqaz cəbhəsinin komandanı Vahib paşaya teleqram göndərərək Türkiyə ilə sülh danışıqlarına razı olduğunu bildirdi.

Cənubi Qafqazda olduğu kimi Naxçıvanda da ermənilər öz fəaliyyətlərini davam etdirirdilər. Onlar bölgədə olan rus qoşunlarının zabit heyəti ilə əlaqəyə girərək silah-sursat əldə edir, rus əsgər və kazaklarını müsəlmanların əleyhinə qaldırırdılar. Xüsusən İrandakı rus qoşunlarının təchizat bazası olan Culfada ermənilər külli miqdarda silah ələ keçirərək erməni kəndlərində təşkil edilmiş dəstələrə paylamışdılar [4, s. 27-28]. Müsəlman Milli Komitəsi ermənilərin silahlanmasının qarşısını almaq məqsədilə bəzi tədbirlər görsə də bunun elə də bir əhəmiyyəti olmadı.

Rusiyanın Qafqaz Cəbhəsi komandanının 13 dekabr 1917-ci il tarixli əmri ilə Erməni korpusunun yaradılmasına başlanıldı. General F.Nazarbəyovun başçılıq etdiyi korpus Qafqaz cəbhəsində Rus ordusunda vuruşan erməni könüllülərindən təşkil olunurdu. Artıq 1918-ci ilin yayına qədər erməni korpusunda 30 batalyon təşkil olunmuşdu, ki, onların tərkibində 10 mindən çox əsgər və zabit var idi. Rusiya ərazisində də erməni könüllü hərbi dəstələri yaradılaraq Cənubi Qafqaza göndərildi.

Bütün bunlar Cənubi Qafqazda erməni hərbi qüvvələrinin fəallaşmasına səbəb oldu. Nəticədə 1918-ci ilin fevral-mart ayları ərazində Naxçıvan ərazisində 30-a yaxın kənd məhv edildi. Həmin dövrdə təkcə İrəvan, Sürməli, Eçmiədzin və Yeni Bəyazid qəzalarında 199 müsəlman kəndi dağıdılmışdı [5, s. 20].

Rus qoşunları Naxçıvanı tərk etdikdən sonra Naxçıvan Milli Komitəsinin könüllüləri Cəfərqulu xanın göstərişi ilə Şahtaxtı və Dəmirçi stansiyaları arasındakı körpüləri və dəmiryolunu sıradan çıxarmağa, Şahtaxtı stansiyasında rus ordusunun hərbi anbarını partlatmağa nail oldular [12, s. 42-43].

Martın əvvəllərində Naxçıvan şəhərində və ətraf kəndlərdə ermənilərlə azərbaycanlılar arasında başlanan müharibə təqribən iki ay yarım davam etdi. Aprelin 14-də Naxçıvan şəhərində ermənilərlə azərbaycanlılar arasında sülh bağlandı. Razılaşmaya əsasən şəhərin iki komissarı – Rəhim xan və Harazyan tərəfindən idarə edilməsi nəzərdə tutulurdu.

1918-ci ilin fevralın 23-də Cənubi Qafqaz Komissarlığının əvəzinə yeni orqan – Cənubi Qafqaz seymi öz işinə başladı. 1918-ci ilin aprelin 28-də müsəlman fraksiyasının təzyiqi ilə Zaqafqaziya Seymi müstəqil Cənubi Qafqaz Federativ Respublikasının yaradılması haqqında qərar qəbul etdi və yeni hökumət yaradıldı. Hökumətin başçısı A.Çxenkeli idi.

Türk qoşunları bir sıra uğurlu əməliyyatlar həyata keçirdilər. Cəfərqulu xanın Maku xanlığına, Kərim xan İrəvanlının başçılığı ilə heyətin Mehmet Vahib paşanın yanına getmələri, Naxçıvan diyarına qoşun hissələrinin göndərmələri xahişi öz nəticələrini verməkdə idi. 1918-ci il mayın 17-də Xəlil bəyin başçılığı ilə ilk türk hərbi nümayəndə heyəti Naxçıvana gəldi. Müsəlman Milli Komitəsinin sədri Mirzə Nəsrullah bəy başda olmaqla naxçıvanlılar Xəlil bəyi böyük hərarət və sevinclə qarşıladılar. O bölgəyə gəldikdən sonra burada sabitliyi və əmin-amanlığı bərpa etmək məqsədi ilə bir sıra tədbirlər gördü. Yerlərdə asayişi təmin etmək üçün Şahtaxtında və Şərurda məhəlli hökuməti, lazımi miqdarda jandarm təşkilatı yaradıldı. Naxçıvan şəhərində gənclərdən ibarət könüllü qoşun hissələri təşkil edilməyə başlandı.

Şərur azad edildi. XI diviziyanın komandanlığı Andranikin Naxçıvana hücum etdiyini nəzərə alaraq iki alayı təcili Naxçıvana göndərdi. Andranik 8 min əsgər, 4 top, 6 pulemyot və s. qüvvə ilə iyun ayının 20-də Naxçıvan bölgəsinə soxuldu. Naxçıvanda uğradığı məğlubiyyətdən sonra Andranik geri çəkilərək Bakıya getmək istəyirdi. Onun quldur dəstəsi Ordubadın Bist və Nəsirvaz kəndlərindən keçərək, Oxçuçayı vadisi ilə Zəngəzura çəkildi və Gorusda məskən saldı.

Türkiyənin XI Qafqaz diviziyası 1918-ci il iyulun əvvəllərində Uluxanlı, Sədərək, Şərur, Şahtaxtı ətrafındakı erməni dəstələrini məğlub edərək Naxçıvan şəhərinə yaxınlaşmağa başladı. İyul ayının 20-21-də baş vermiş şiddətli döyüşlərdən sonra şəhər erməni qüvvələrindən təmizləndi. Az müddətdən sonra Culfa rayonu da ermənilərdən azad edildi [4, s. 53-55].

Naxçıvan bölgəsi türk qoşunlarının nəzarətinə keçdikdən sonra burada Osmanlı sisteminə uyğun inzibati idarəetmə sistemi yaradılmağa başlandı. XI diviziyanın alay komandiri Sürəyya bəy Naxçıvan hökuməti – məhəllə rəisi (qəza rəisi) təyin edildi. Sürəyya bəyin əmri ilə Naxçıvan Milli Komitəsi ləğv edilərək yerinə jandarm, ədliyyə və bələdiyyə idarələri yaradıldı. Ordunun Təbrizə getməsi ilə əlaqədar, Sürəyya bəyin yerinə mayor Əli Şəfiq bəy təyin edildi. Türk komandanlığı Naxçıvanda hərbi vəziyyət elan etmiş, yerli əhalidən özünümüdafiə dəstələri təşkil etmişdi.

Mudros sülhünə görə Türkiyə qoşunları 1918-ci il noyabrın 1-də Naxçıvanı tərk etməyə məcbur oldu. Naxçıvanı tərk edən Əli Şəfiq bəyin yerinə Mirzə Nəsrullah Əmirov yerli hökumətin başçısı təyin edildi [4, s. 43].

1918-ci il noyabrın 18-də Araz-Türk Cümhuriyyəti yaradıldı. Bu dövlət qurumunun parlamenti, hökumətxanası, xəzinədarlığı, milis idarəsi yaradıldı. Hökumətin rəisi Əmirbəy Nərimanbəyov idi. Taborlar yaradılmış, Naxçıvanın müdafiəsi üçün onlar səfərbər olunmuşdu. 1919-cu ilin əvvəlində Milli Şura, sonra isə "Naxçıvan Türk hökuməti" yaradıldı.

1919-cu il fevralın əvvəlində Qafqazdakı ingilis hərbi komandanlığının əmri ilə Lauten Naxçıvan rayonunun general qubernatoru təyin edildi. İngilislər Naxçıvanın Ermənistana qatılması ideyasını müdafiə edirdilər. 1919-cu ilin fevralın 26-da Cəfərqulu xan və Milli Şuranın digər üzvləri general-qubernator Lautenə məktub göndərərək bölgənin Ararat Respublikasına verilməsinə etirazını bildirdilər.

Azərbaycan Demokratik Respublikası bütün çətinliklərə baxmayaraq, Naxçıvan bölgəsi ilə, Araz-Türk hökuməti ilə əlaqələri möhkəmləndirməyə çalışırdı.

İngilislər ermənilərlə belə razılaşırdılar ki, əgər onlar Qarabağın və Zəngəzurun Azərbaycana verilməsini qəbul edərlərsə, Qars və Naxçıvanın onların nəzarəti altına keçməsinə kömək edəcəklər. İngilislərin bölgədə niyyətlərinə mane olmaq üçün Azərbaycan hökuməti 1919-cu il 28 fevralda Naxçıvan general-qubernatorluğu yaratdı. Bəhram xan Naxçıvanski

general-qubernator təyin edildi. Təqribən 20-gündən sonra onu Əliyar Haşımbəyov əvəz etdi [4, s. 59]. Martın 31-də Kəlbalı xan Naxçıvanski Cənub-Qərbi Azərbaycan-Naxçıvan general-qubernatorunun hərbi işlər üzrə köməkçisi təyin edildi [3, f. 894, siy. 1, iş 22, v. 80].

Naxçıvan bölgəsinin Ermənistan Respublikasının müvəqqəti idarəçiliyinə verilməsi barədə mayın 3-də Devi və Dro tərəfindən birgə əmr imzalandı [6, s. 156]. Azərbaycan hökuməti və naxçıvanlılar buna qəti etirazlarını bildirdilər. Cəfərqulu xanın başçılığı ilə naxçıvanlılar Varşamyan "hökuməti"ni boykot edirdilər. Varşamyan özü etiraf edirdi ki, faktik olaraq Naxçıvanda onların hakimiyyəti yoxdur.

1919-cu il iyunun sonu-iyulun əvvəllərində ingilis qoşunları Naxçıvanı və Ermənistanı tərk etməyə başladılar. Bundan istifadə edən Naxçıvan əhalisi erməni işğalçılarına qarşı tədricən əsil müharibəyə çevrilən azadlıq mübarizəsinə başladı. Ermənilərə qarşı vuruşan könüllülərin sayı 10 minə çatırdı. Ermənilərin bölgədəki ağalığına son qoyulması ilə nəticələnən əsas hərbi hadisələr iyul ayının ikinci yarısında baş verdi [6, s. 180].

Naxçıvan bölgəsində ingilislərin himayəçiliyi ilə yaradılmış erməni idarəçiliyi iflasa uğradı. Azərbaycanın baş naziri N.Yusifbəylinin parlamentdə çıxışında (1919, 28 avqust) qeyd etdiyi kimi, İrəvan quberniyasının bütün türk rayonu, o cümlədən Naxçıvan istilaçıları devirərək... Azərbaycanla birləşməyə hazır olduğunu bildirdi.

Qarabağ general-qubernatorluğunda Naxçıvan bölgəsinə aid müvəkkil olan Səməd bəy Cəmillinski Naxçıvanın general-qubernatoru təyin edildi. 1919-cu ilin avqustunda az bir müddətdə Ordubadda olduqdan sonra qubernatorluq Naxçıvan şəhərinə köçərək öz səlahiyyətlərinə başladı.

Erməni ağalığına son qoyulduqdan sonra bölgənin idarə edilməsində çox mürəkkəb vəziyyət yaranmışdı. Əslində hakimiyyət üç qüvvənin əlində idi. Bu isə kəskin fikir ayrılığının ortaya çıxmasına səbəb olurdu.

Fikir ayrılığını aradan qaldırmaq üçün S.Cəmillinski Xəlil bəyi Naxçıvan qoşunlarının baş komandanı, Kəlbalı xanı isə onun köməkçisi təyin etmişdi.

Paris sülh konfransı polkovnik V.Haskeli Ermənistanın, sonra Azərbaycanın və Gürcüstanın Ali Komissarı təyin etmişdi. Haskel ilə 1919-cu il 29 avqustda Azərbaycan hökuməti arasında Naxçıvan və Şərur-Dərələyəz qəzalarının idarə olunması məsələsinə dair saziş razılaşdırıldı. 12 maddədən ibarət olan həmin layihədə bir sıra məsələlər nəzərdə tutulurdu. Haskel ermənilərlə görüşdən sonra həmin layihəni 21 maddəyə qaldırdı və Azərbaycan, Ermənistan hökumətlərinə göndərdi. Yeni layihədə Azərbaycanın maraqlarına zidd olan maddələr yer almışdı. Azərbaycan hökuməti etirazını bildirsə də, Haskel bunu qəbul etmədi. Bölgənin yenidən itirilməsi təhlükəsi Naxçıvan rəhbərliyini müdafiə səciyyəli bir sıra əlavə tədbirlər görməyə vadar etdi.

1919-cu il oktyabrın 24-də Naxçıvana gələn C.Rey burada 13 bəndlik bəyanatını elan etdi. Naxçıvan liderləri öz mövqelərində qalaraq C.Reyin təkliflərini qətiyyətlə rədd etdilər. Naxçıvan əhalisinin inadlı mübarizəsi və Azərbaycan hökumətinin ciddi səyləri nəticəsində ermənilərin bölgəni bitərəf rayona çevirmək və orada Amerika general-qubernatorluğu yaratmaq yolu ilə Naxçıvanı Azərbaycandan ayırmaq cəhdləri boşa çıxdı.

1919-cu ilin sonu – 1920-ci ilin əvvəllərində Naxçıvan bölgəsində hərbi-siyasi vəziyyət yenidən gərginləşməyə başladı. Naxçıvan mahalını işğal etmək üçün ermənilər Vedibasardan Ordubada qədər bütün sərhəd boyu və Zəngəzur qəzasının sərhəd boyu ərazilərində silahlı qüvvələr yerləşdirirdi. Erməni silahlıları Zəngəzur mahalında 120 müsəlman kəndini dağıtmış, 70 kəndin əhalisini isə tamamilə məhv etmişdi. Qafan və Mehri bölgələrində, Oxçu dərəsi və

Gığıdərəsi ərazilərində, Ordubada yaxın kəndlərdə vəhşiliklər törədilmiş, yalnız 216 nəfər azərbaycanlı Ordubadın kəndlərində sığınacaq tapa bilmişdi [6, s. 240-242]. Ordubadın bir sıra kəndlərində yaşayan ermənilər də sakit qalmır, aranı qarışdırırdılar.

1920-ci ilin martında ermənilərin Naxçıvan sərhədlərinə hücumları daha intensiv xarakter almışdı. Naxçıvanda real hakimiyyət əvvəlki kimi Milli Komitənin əlində idi. Xəlil bəyin başçılığı ilə türk qoşunlarının bir hissəsi hələ də burada idi. Belə bir şəraitdə Şərurun azərbaycanlı əhalisi daşnak dəstələrinin cinayətkar əməllərinə etiraz əlaməti olaraq üsyan qaldırmışdı. Üsyançıların köməyinə Naxçıvan Milli Komitəsi tərəfindən Kəlbalı xan və Xəlil bəy başda olmaqla silahlı dəstələr gəldi. Şərur qəzasından ermənilər qovuldular.

Naxçıvanda baş verən hərbi-siyasi proseslərə Türkiyədə aparılan milli-azadlıq hərəkatının da mühüm təsiri var idi. Ermənilər Naxçıvanı ələ keçirməklə həm Naxçıvanın təbii ehtiyatlarına yiyələnmək, həm də Türkiyənin Azərbaycan ilə əlaqəsini təmin edən yeganə koridoru bağlamaq istəyirdilər.

Bunu bilən Türk hökuməti buraya daha səriştəli bir şəxsi – XI diviziyanın qərargah rəisi mayor Veysəl bəyi və Əli Teymur bəyi göndərdi. Onlar yerli silahlı qüvvələrin başçıları ilə bölgənin daha etibarlı müdafiəsi üçün bir sıra tədbirlər gördülər [13, s. 31-33].

Yeni Türk hakimiyyəti Sovet Rusiyası ilə əlaqələr yaratmaqda maraqlı idi və bunun Naxçıvan-Zəngəzur yolu ilə mümkün olacağını başa düşürdü. Sovet Rusiyası 1920-ci il aprelin 27-də Azərbaycan Cümhuriyyətini devirdikdən sonra Naxçıvan bölgəsində gərgin vəziyyət yaranmışdı. Belə ki, Çiçerin ermənilərin mübahisəli ərazilərlə bağlı mövqeyini dəstəkləyərək, Qarabağ və Zəngəzurun mübahisəli ərazilər kimi tanınmasını, Şərur-Dərələyəz, Naxçıvan, Culfa və Ordubadın Ermənistana verilməsini təkid edirdi. Orconikidze isə iyulun 16-da Lenin və Çiçerinə göndərdiyi teleqramda Azərbaycanın iştirakı olmadan Ermənistanla sülh bağlamağın düzgün olmadığını qeyd edirdi.

1920-ci il iyulun 11-də Vedibasarı ələ keçirən erməni nizami hissələri Naxçıvan istiqamətində hücuma keçdilər. İyulun 14-də Dəhnə boğazını ermənilər tutdular və hücumlarına davam edərək Şərur qəzasını da işğal etdilər [10, s. 34]. İyulun 27-də Ermənistan hökuməti Naxçıvan Milli Şurasına ultimatum göndərdi. Ultimatumda 2 sutka ərzində şəhərin təhvil verilməsi, Naxçıvan və Şərur qəzalarının əhalisi adından bu qəzaların Ermənistan hakimiyyətinə tabe etdirilməsi, türklərin, müsəlman qaçqınların və Azərbaycandan gəlmiş təşviqatçıların bölgədən çıxarılması..., dəmir yolunun Ermənistana verilməsi tələb olunurdu [12, s. 82-83]. Lakin bu ultimatum Naxçıvana çatdırıldığı zaman burada artıq Sovet hakimiyyəti qurulmuşdu və ermənilərə cavab Naxçıvan Hərbi İnqilab Komitəsi tərəfindən verilmişdi.

İyulun 27-də XI Qırmızı Ordunun dəstələri Naxçıvana daxil oldu. İyulun 28-də isə Xəlil paşanın 200 nəfərlik süvari dəstəsi də Naxçıvan gəldi.

1920-ci il iyulun 28-də M.Bektaşov (sədr), A.Qədimov, F.Mahmudbəyov, Q.Səlimov, A.Kazımov, Q.Babayev – həmin gün, iyulun 28-də Naxçıvan HİK Azərbaycan SSR XKS-in sədri N.Nərimanova məktub göndərdi. Həmin məktubda deyilirdi: "Naxçıvan xalqının böyük əksəriyyətinin qərarı ilə Naxçıvan diyarı özünü Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi kimi tanıyıb" [9, s. 152]. N.Nərimanov Naxçıvanda Sovet hakimiyyətinin qurulması məsələsinə toxunaraq demişdir: "Naxçıvan rayonu daşnakların bütün zülmünü yaşamış Qafqaz rayonudur... Bu rayon həqiqətən də bir tərəfdən özünü daşnaksakanların, digər tərəfdən isə qəzəbli farsların hücumundan müdafiə edirdi. Naxçıvan rayonunun yalnız bir arzusu var idi: ... Qırmızı Azərbaycanın vasitəsi ilə mümkün qədər tez xilas olmaq" [13, s. 72].

Ermənistan hökuməti ilə münasibətlərin tənzimlənməsi məqsədi ilə Naxçıvan HİK 29 iyul 1920-ci il tarixində daşnak hökumətinə sülh danışıqlarına başlamaq və qan tökülməsinə son qoymaq təklifi ilə müraciət etdi. Lakin daşnaklar bu təklifi rədd etmiş və tələb etmişdir ki, "Naxçıvan və Şərur qəzalarının bütün əhalisi bəyan etməlidirlər ki, onların yaşadıqları qəzalar Ermənistan Respublikasının ayrılmaz hissəsidir".

Naxçıvan diyar əhalisinin daşnak hökuməti tərəfindən verilmiş ultimatumla bağlı Naxçıvan İnqilab Komitəsi 1920-ci il 1 avqustda Şahtaxtında erməni dəstəsinin komandanına belə yazırdı: "... Naxçıvan rayonunun zəhmətkeşləri boyunlarından monarxiya idarəçiliyini devirmiş, hətta nə vaxtsa daşnak əsarətinin boyunlarına taxılması imkanını belə rədd etmişdir. Naxçıvan rayonunun əməkçi xalqı özünü RSFSR ilə ittifaqda olan Azərbaycan Sovet Respublikasının ayrılmaz hissəsi elan etmişdir. Bu xalq heç vaxt Ermənistanın zəhmətkeş əhalisinə qarşı düşmənçilik etməyib və bundan sonra da etməyəcək və yalnız daşnakların əsarətçilərinə qarşı mübarizə aparacaq" [13, s. 73].

1920-ci ilin oktyabrında Gəraf Əsgərov Naxçıvan İnqilab Komitəsinin sədri təyin edildi. Azərbaycan İnqilab Komitəsinin 5 oktyabr tarixli qərarı ilə Bahadur Vəlibəyov isə fövqəladə komissar təyin edildi [5, s. 145]. B.Vəlibəyovun fəaliyyəti, əslində bölgəni Ermənistana verməyə yönəlmişdi.

RSFSR-lə Ermənistan arasında 1920-ci il avqustun 10-da müqavilə bağlanıldı. Müqavilənin bağlanılması ərəfəsində Sovet Rusiyası daşnak hökumətinin Naxçıvana qarşı hərəkətlərini açıq şəkildə dəstəkləyərək bu məsələdə güzəştə getməyə hazır idi.

Bolşeviklərin Naxçıvanla bağlı planları yerli əhalidə də narahatlıq yaratmışdı. B.Şahtaxtinski V.Leninə 13 avqust 1920-ci il tarixli məktubunda bildirirdi ki, Naxçıvan əhalisi Sovet Rusiyasının Naxçıvanı daşnaklara verməsini qəbul etmir. B.Şahtaxtinski V.Leninə 20 sentyabr məktubunda da yazırdı ki, Naxçıvanın Ermənistana güzəştə gedilməsi Türkiyə ilə əlaqələrin bilərəkdən pozulması deməkdir.

Naxçıvan bölgəsində hərbi-siyasi vəziyyəti Orconikidze, Çiçerin, Leqran bilərəkdən, məqsədli şəkildə mürəkkəbləşdirir və bu əraziləri Ermənistana vermək üçün canfəşanlıq edirdilər. Leqranın Çiçerin və Leninə göndərdiyi teleqramlarda məsələnin mahiyyəti açıq-aşkar bildirilir: "Naxçıvan vilayətinin Ermənistana, Qarabağın isə Azərbaycana məxsus olmasını tanımağı, Zəngəzur məsələsinin isə Naxçıvanla sıx əlaqəli olduğunu, Naxçıvanın Ermənistana məxsusluğunun qəbul ediləcəyi təqdirdə, Zəngəzurdan da əl çəkməyi (Ermənistana verməyi – İ.H.) təklif edirdi" [5, s. 156]. 23 sentyabr teleqramında da Leqran Ermənistan ərazisi ilə Türkiyəyə tranziti təmin etmək üçün Zəngəzurun və Naxçıvanın ermənilərə verilməsinə təkid edirdi.

Ermənilər Zəngəzur və Naxçıvanda vəziyyəti öz xeyirlərinə dəyişmək üçün ciddi-cəhdlə çalışırdılar. 1920-ci il sentyabrın 6-da Ermənistan hökuməti Naxçıvan İnqilab Komitəsinə məktub göndərərək, Sovet Rusiyası ilə bağlanmış sazişə əsasən Şahtaxtı-Culfa dəmiryolunun onlara verilməsini tələb etdi.

Türk və sovet qoşunları bu dövrdə ilk dəfə olaraq ermənilərə qarşı birgə döyüşə girdilər. Birinci Qafqaz alayı və türk süvari batalyonu sentyabrın 18-də Ordubad şəhərini, oktyabrın əvvəllərində isə bütün Ordubad qəzasını daşnaklardan azad etdilər. Türklərin Ermənistan ordusuna qarşı keçirdiyi uğurlu əməliyyatlar daşnakların Naxçıvanı işğal etməsinə mane oldu.

Bu zaman əsas məqsəd Şahtaxtını və Şəruru ermənilərdən geri almaq və Türkiyə ilə Naxçıvan arasında əlaqəni bərpa etmək idi. Hücum əməliyyatlarının keçirilməsi Türk ordusuna həvalə olundu və Veysəl bəyin sədrliyi ilə Naxçıvan Müdafiə Komitəsi yaradıldı. Bölgədə hərbi səfərbərlik elan olunmuş, kəndlərdə könüllü dəstələr yaradılmışdı. Noyabrın 7-də baş-

lanan hücum nəticəsində Xok, Qarabağlar və Şahtaxtı ermənilərdən azad edildi. Noyabrın sonu-dekabrın əvvəllərində bütün Şərur qəzası ermənilərdən təmizləndi.

Çiçerin, Leqran, Qaraxan yenə də Türkiyənin şərq vilayətlərindən Ermənistana ərazi ayrılmasına, Naxçıvanın Ermənistana verilməsinə israr edirdilər. B.Şahtaxtinskinin Çiçerinə geniş məktubunda Naxçıvan, İrəvan-Culfa dəmir yolu və digər ərazilər barədə Azərbaycanın mövqeyi çatdırılırdı. Bununla belə, bolşevik hökuməti Ermənistanı öz tərəfinə çəkmək üçün Naxçıvan və Zəngəzuru onlara vermək istəyirdi. Bolşeviklərin bununla bağlı planlarını Stalinin 1920-ci il noyabrın 9-da Bakıda səsləndirdiyi fikir də təsdiq edirdi: "Əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olmasını bilmək istəyirlərsə, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, orada Sovet hökuməti yaranarsa vermək olar".

Stalin Leninə yazdığı bir məktubda bildirdi ki, əgər Türkiyə Ermənistanda möhkəmlənərsə onda Azərbaycanla ümumi sərhədə malik olacaqdır. Bu təhlükənin qarşısını almaq üçün indiki vəziyyətdən istifadə edərək Ermənistanı sovetləşdirmək lazımdır, erməni sovet çivi ilə Türkiyə ilə Azərbaycan arasına girmək lazımdır.

1920-ci il dekabrın 2-də Türkiyə ilə daşnak Ermənistanı, Sovet Rusiyası ilə Sovet Ermənistanı arasında müqavilə imzalandı. Müqavilənin II və XII maddələri bilavasitə Naxçıvanla bağlı idi. İkinci maddəyə görə Naxçıvanın sərhədləri aşağıdakı şəkildə müəyyənləşdirilirdi: Kükü dağı – Həməsür dağı – Qurdqulaq kəndi – Saat dağı – Arpaçay evləri – Gömürlü dağı – Saraybulağı. Ermənistan hökumətinin bu sərhədlər daxilində yerləşən Naxçıvan bölgəsinin ərazisinə, daha sonra referendumla təyin olunacaq idarə formasına və bu idarənin əhatə edəcəyi torpaqlara müdaxilə etməyəcəyi, bu ərazidə hələlik Türkiyənin himayəsində yerli idarəçilik forması yaradılması nəzərdə tutulmuşdu. On ikinci maddəyə görə isə Türkiyə Şərur – Şahtaxtı – Naxçıvan – Culfa yolu və İran – Maku – Ermənistan tranzit yolunun təhlükəsizliyinə təminat verirdi [f. 28, siy. 1, iş 55, v. 86; 6, s. 337].

1920-ci il noyabrın 29-da Ermənistan İnqilab Komitəsi Ermənistanda Sovet hakimiyyətinin qurulduğunu elan etdi. Noyabrın 30-da Azərbaycan KP MK Siyasi və Təşkilat bürolarının birgə iclasında Ermənistanda Sovet hakimiyyətinin qurulması müzakirə edildi və geniş qərar qəbul edildi. Həmin qərarda Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında artıq heç bir sərhədin olmaması, Zəngəzurun isə Ermənistana verilməsi barədə xüsusi bəndlər var idi. Naxçıvanın adı çəkilməsə də sonradan artırılmışdı. Bununla belə, 1920-ci il dekabrın 2-də RSFSR ilə Sovet Ermənistanı arasında bağlanmış hərbi-siyasi sazişlə daha da möhkəmləndirilirdi. Həmin sazişin 3-cü maddəsinə görə Rusiya Sovet hökuməti Naxçıvan və Zəngəzurun Ermənistan SSR tərkibinə daxil olduğunu rəsmən tanıdı.

Türkiyənin yeni hökumətinin Sovet hökumətinə 27 dekabr 1920-ci il tarixli notasında Naxçıvanın və Qarabağın əhalisinin bu rayonların Ermənistana verilməsinə qəti etiraz etdiyi bildirilirdi.

Naxçıvanın Ermənistana verilməsi haqqında xəbərlər bölgə əhalisinin kəskin etirazına səbəb oldu. Naxçıvanlılar yalnız Azərbaycanın tərkibində qalacaqlarını Ermənistan hökumətinə və Sovet Rusiyasının nümayəndəsi Leqranın nəzərinə çatdırırdılar [8, s. 44-45].

Dekabrın 28-də Ermənistan Sovet hökuməti Naxçıvanı müstəqil Sovet Respublikası kimi tanıdığını və daşnakların ona qarşı ərazi iddialarından imtina etdiyini rəsmən elan etdi. Burada da erməni hiyləsi əks olunmuşdu. Ermənilər Naxçıvanı Azərbaycanın tərkibində yox, müstəqil respublika kimi tanımışdı. Bu Ermənistanın gələcək ilhaq siyasətindən xəbər verirdi.

Naxçıvan bölgə əhalisinin qətiyyətli mübarizəsi, Türkiyə hökumətinin ədalətli mövqeyi

və keçirilmiş rəy sorğusu nəticəsi Naxçıvanın Azərbaycanın tərkibində qalmasını şərtləndirdi. Moskva və Qars müqavilələri isə bunu əbədi etdi.

Göründüyü kimi, Naxçıvan diyarının əhalisinin mübarizliyi nəticəsində ermənilər məqsədlərinə nail ola bilmədilər. Bu mübarizə təkcə 1918-1920-ci illərdə deyil, sonrakı illərdə də davam etdirildi.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA): f. 28, siy. 1, iş 3.
2. ARDA: f. 28, siy. 1, iş 68.
3. ARDA: f. 410, siy. 1, iş 148.
4. İbrahim Ethem Atnur. Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921). Naxçıvan: Əcəmi, 2013, 496 s.
5. İsmayılov K. Azərbaycanın Naxçıvan bölgəsi regional hərbi-siyasi proseslərdə (1917-1920). Bakı: Turxan, 2019, 200 s.
6. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: BDU, 1996, 328 s.
7. Rəhimov K.N., Sadıqov S.H. Naxçıvan 1920-ci illərin burulğanında // Dirçəliş, 1992, № 1, s. 40-46.
8. Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı: Elm, 1995, 142 s.
9. Zeynalova T.M. Azərbaycanda dövlət quruculuğu tarixindən (1920-1930). Bakı: Elm, 2004, 176 s.
10. Ünüvar V. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). Naxçıvan: Əcəmi, 2006, 104 s.
11. Гулиев Дж.Б. К истории образования второй республики Азербайджана. Баку: Азернешр, 1997, 163 с.
12. Мадатов Т.А. Победа Советской власти в Нахичевани и образование Нахичеванской АССР. Баку: АН Азерб. ССР, 142 с.
13. Нифталиев И. Азербайджанская ССР в экспансионистских планах армян (20-е годы XX века). Баку: Təhsil, 2009, 256 s.

AMEA Naxçıvan Bölməsi
E-mail: ***haciyev.i1951@gmail.com***

Ismail Hajiyev

MILITARY-POLITICAL SITUATION IN NAKHCHIVAN (in 1918-1920)

The paper provided information about the activities of the governing bodies established in the South Caucasus and their representatives in the Nakhchivan region after the February Revolution when the Bolsheviks came to power. As a result of the research, it is determined that, during 1918-1920, the Armenians started mass violence against the Turkic-Muslim population in Nakhchivan, Ordubad, Vedibasar, Zangezur, and other regions, and began to implement plans to change the ethnic situation of these regions for their benefit and create their national state.

It was found that the main burden of the struggle against the Armenian aggressors fell on the local volunteer defense groups of Nakhchivan and our heroic sons leading these groups.

The Turkish government and the treaties of Moscow and Kars signed with its support also played an essential role in protecting the Nakhchivan region and keeping it part of Azerbaijan. Although Tsarist and Soviet Russia, British and American forces also pursued policies to annex Nakhchivan to Armenia and took practical steps in this direction, the Azerbaijani government and local forces did not allow it.

Keywords: *Special Transcaucasian Committee, Transcaucasian Commissariat, Azerbaijan, Nakhchivan, National Committee, Armenia, political struggle, military struggle.*

Исмаил Гаджиев

ВОЕННО-ПОЛИТИЧЕСКОЕ ПОЛОЖЕНИЕ В НАХЧЫВАНЕ (1918-1920-е ГОДЫ)

В статье рассказывается об управленческих структурах, созданных на Южном Кавказе после Февральской революции с приходом большевиков к политической власти, и о деятельности их представителей в Нахчыванском крае. В результате исследований установлено, что в течение 1918-1920 гг. армяне, начав массовое насилие против тюрко-мусульманского населения в Нахчыване, Ордубаде, Ведибасаре, Зангезуре и других регионах, приступили к осуществлению плана по изменению этнического положения этих регионов в свою пользу и созданию своего национального государства. Было установлено, что основная тяжесть борьбы с армянскими захватчиками легла на местные отряды добровольческой обороны Нахчывана и наших героических сыновей, возглавляющих эти отряды.

Правительство Турции и подписанные при его поддержке Московское и Карсское соглашения также сыграли важную роль в защите Нахчыванского региона и сохранении его в составе Азербайджана. Несмотря на то, что царская и Советская Россия, английские и американские силы проводили политику присоединения Нахчывана к Армении и предпринимали практические шаги в этом направлении, правительство Азербайджана и местные силы не допустили этого.

Ключевые слова: *Особый закавказский Комитет, Закавказский Комиссариат, Азербайджан, Нахчыван, Национальный комитет, Армения, политическая борьба, военное сражение.*

Daxilolma tarixi: İlkin variant 02.07.2021
Son variant 06.08. 2021

UOT 94(479.24)

FƏXRƏDDİN SƏFƏRLİ

MÜSƏLMAN İNTİBAHI DÖVRÜNDƏ NAXÇIVAN BÖLGƏSİNDƏ İNŞA EDİLMİŞ BƏZİ MEMARLIQ ABİDƏLƏRİ HAQQINDA

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan bölgəsində indiyədək müsəlman intibahı dövründə inşa olunmuş çoxlu abidə bu günümüzədək gəlib çatmışdır. Məqalədə Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində, Culfa, Ordubad, Kəngərli və Şərur rayonlarının ərazisində indiyədək qalan ümumislam mədəniyyətinin möhtəşəm nümunələrindən sayılan bir neçə memarlıq abidəsindən qısa şəkildə bəhs olunmuşdur. Bu sıradan Yusif Küseyir oğlu türbəsi, Möminə xatın türbəsi, Naxçıvan şəhər buzxanası, Qarabağlar Türbə Kompleksi, Xanəgah Memarlıq Kompleksi, Əmirxan türbəsi, Piri Süleyman xanəgahı, Darkənd günbəzi, Qırxkimsənə məscidi və s. haqqında ümumi məlumat verilmişdir.

Açar sözlər: *Naxçıvan, Culfa, Ordubad, Şərur, Kəngərli, türbə, məscid, buzxana.*

Ərəblərin yürüşləri ilə əlaqədar VII yüzilliyin ortalarından başlayaraq islamlaşan Azərbaycanda yaradılan memarlıq abidələri özündə yerli türk ənənələrini saxlamaqla bərabər həm də islami xarakter daşımağa başlamışdır. Bu cəhət özünü VIII əsrdən başlayan və XII əsrə, bəzi fikirlərə görə XIV-XV əsrlərə qədər davam edən, görkəmli İsveçrə şərqşünası A.Metsin dediyi kimi Avropa intibahına zəmin yaradan müsəlman intibahı [16] dövründə daha yüksək səviyyəyə çatmışdır. Müsəlman intibahı özünü Naxçıvanda daha qabarıq şəkildə büruzə vermişdir. Bu da təsadüfi olmamışdır. Çünki, ərəblər Azərbaycana yürüşlərinin başlandığı vaxtlardan – ilk orta əsrlərdən Azərbaycanın mühüm ictimai-siyasi mərkəzlərindən birinə çevrilən Naxçıvanı özləri üçün inzibati-siyasi mərkəz seçmiş, ətraf yerlərin idarəsini buradan həyata keçirmişdilər. Bu da öz növbəsində Naxçıvanın hərtərəfli inkişafına, o cümlədən islami baxımdan tərəqqisinə gətirib çıxarmışdır. Ona görə də, bölgə, xüsusilə Naxçıvan şəhəri intibah dövrünün yüksək səviyyədə inkişaf etmiş elm, təhsil və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir. Bu özünü memarlıqda da göstərmişdir. Orta əsr Naxçıvan sənətkarları yaranmış yeni şəraitdə memarlıqda yerli ənənələri ümumislam mədəniyyətinə xas çalarlarla bacarıqla zənginləşdirmiş, onların sintezinə nail olmuş, nəticədə Azərbaycan memarlığının möhtəşəm nümunələri kimi yaradılmış bu irs həm də ümumislam mədəniyyətinin tərkib hissəsinə çevrilmişdir.

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvanda həmin vaxt yaradılmış, bir qismi zəmanəmizədək salamat və ya yarımdağılmış vəziyyətdə gəlib çatan bu irs Azərbaycan 18 oktyabr 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra yüksək dövlət qayğısı ilə əhatə olunmuşdur. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında xüsusilə çox böyük işlər görülmüş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə 70-dən artıq müxtəlif təyinatlı tarix-mədəniyyət abidəsi (məscidlər, türbələr, xanəgahlar, imamzadələr, hamamlar, körpülər, buzxanalar və s.) bərpa olunaraq əvvəlki görkəminə salınmış, onlara yeni həyat verilmiş, tədqiqi və təbliği sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Yusif Küseyir oğlu türbəsi. Yaşayış məskəni kimi əsası daha əvvəllər qoyulan, təxminən beş min il bundan əvvəl şəhər kimi formalaşan Naxçıvan çox böyük inkişaf yolu keçmiş, XII əsrdə Azərbaycan intibah mədəniyyətinin mərkəzlərindən birinə çevrilmiş, burada

Azərbaycan memarlığının ən möhtəşəm qollarından olan Naxçıvan məktəbi formalaşmış, çoxlu tarix-memarlıq abidələri yaradılmışdır. Belə abidələrdən biri Naxçıvanın türk-islam mədəniyyətinin ən dəyərli nümunələrindən sayılan, Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən Naxçıvan şəhərinin cənub-şərq tərəfində inşa edilən Yusif Küseyir oğlu türbəsidir. Yusif Küseyir oğlu türbəsi, yaxud da el arasında adlandırıldığı kimi "Atababa günbəzi" Naxçıvan şəhərinin cənub hissəsində yerləşir. Yeraltı sərdabədən və yerüstü türbədən ibarət, Azərbaycan qülləvarı türbələri içərisində xronoloji cəhətdən ən qədimi olan abidə zəmanəmizədək əsasən salamat vəziyyətdə gəlib çatmışdır. Daxildən və xaricdən səkkizguşəli şəkildə ucaldılan türbə piramida şəkilli günbəzlə örtülmüşdür. Yüksək memarlıq həllinin nəticəsidir ki, Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Naxçıvaninin əməyinin məhsulu olan bu türbə Azərbaycanın qülləvarı türbələri içərisində yeganə abidədir ki, üst piramida örtüyü yaradılmasından 858 il keçməsinə baxmayaraq zəmanəmizədək tamamilə salamat vəziyyətdə gəlib çatmışdır.

Türbə inşa edilərkən onun üzərində çoxlu kitabələr yazılmışdır. Türbənin qərbdən çatmatağ şəkilli giriş qapısının baş tərəfində 4 sətirdə kitabə vardır. Kitabənin mətninin tərcüməsi belədir: "Bu məqbərə xacə, adlı-sanlı rəis, dinin zəkası, islamın gözəlliyi, şeyxlərin öncülü Yusif bin Küseyir ən-Niyazındır. Tarix: Şəvval, beş yüz əlli yeddinci il (13.09-11.10.1162-ci il)" [10, s. 371].

Məqbərənin qurşaq hissəsində yerləşdirilmiş kitabənin mətni müqəddəs kitab Quran-Kərimin III ("Ali-İmran") surəsindən götürülmüş 17, 18-ci ayələrdən və 19-cu ayənin kiçik bir hissəsindən və 112-ci surədən ibarətdir. Kitabənin axırında isə "Ya Allah!" sözü yazılmışdır.

Məqbərənin giriş qapısının sol tərəfindəki üzünün baş tərəfində yazılan kitabədə memar öz adını qeyd etmişdir: "Bənna Əcəmi Əbubəkr oğlu Nəşəvinin əməlidir".

Memar Əcəmi Əbubəkr oğlu kitabədə adını "Nəşəvi" nisbəsi ilə təqdim etmişdir. Nəşəva, Nəşəvi orta əsrlər zamanı Naxçıvan şəhərinin adlarından biri olmuşdur. Orta əsr coğrafiyaşünası Yaqut əl-Həməvi XIII əsrin əvvəllərində qələmə aldığı "Mücəm əl-Buldən" ("Ölkələrin əlifba sırası ilə sıralanması") əsərində Naxçıvan şəhəri haqqında iki dəfə bəhs edir. O, Naxçıvan şəhərinin adını birinci dəfə Naxcuvan, Nakcuvan, ikinci dəfə isə Nəşəva kimi qeyd etmişdir. Yaqut əl-Həməvi şəhər haqqında birinci dəfə yazır: "Naxcuvan və yaxud bəzilərinin dediyi kimi Nakcuvan Azərbaycanda şəhərdir, hansı ki, biz onun haqqında yenə danışacağıq" (11, s. 32). Müəllif ikinci dəfə isə şəhər haqqında belə yazır: "Nəşəva Azərbaycanda şəhərdir. ... Xalq arasında Naxcuvan, yaxud Nakcuvan kimi məşhurdur" [11, s. 32].

Müəllifin fikrindən aydın olur ki, şəhər XIII əsrin əvvəllərində Nəşəva adlansa da, xalq arasında Naxcuvan, yaxud da Nakcuvan kimi məşhur olmuşdur. Deməli XII əsrdə olduğu kimi şəhər XIII əsrin əvvəllərində də Nəşəva adlanmış, bununla belə həm də Naxcuvan, Nakcuvan kimi də adlanmışdır. Məhz bu səbəbdəndir ki, memar Əcəmi Əbubəkr oğlu Yusif Küseyir oğlu türbəsindən 24 il sonra, 1186-cı ildə inşasını başa çatdırdığı Möminə Xatın türbəsinin kitabəsində özünü "Naxçıvani" nisbəsi ilə təqdim etmişdir [10, s. 53].

Türbə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi ilə 2019-cu ildə bərpa olunmuşdur.

Möminə xatın türbəsi. Nəinki Naxçıvan, bütövlükdə Azərbaycanın türk-islam mədəniyyəti abidələrinin ən möhtəşəm nümunələrindən biri də Naxçıvan şəhərinin mərkəzində, "Əcəmi seyrəngahı"nda yerləşən, görkəmli memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa olunan Möminə xatın türbəsidir. Tikintisi 1186-cı ildə başa çatan türbə yeraltı sərdabə və yerüstü türbədən ibarətdir. Daxildən dairəvi olan abidə xaricdən on üzlüdür. Yarandığı

zaman hündürlüyü təxminən 35 metr olan türbənin yuxarı hissəsi aşınaraq uçub dağılmış, indiyədək yalnız 25 metr hündürlüyündə gövdə qalmışdır. Türbəni Azərbaycan Atabəyləri dövlətinin banisi Atabəy Şəmsəddin Eldəniz 1175-ci ildə vəfat etmiş arvadı Möminə xatının xatirəsinə tikilməsini əmr etmişdir. Ancaq, o özü də arvadından az sonra vəfat etdiyi üçün bu işi oğlu Atabəy Məhəmməd Cahan Pəhləvan həyata keçirmişdir. Türbənin sərdabəsində Möminə xatından sonra əri Atabəy Şəmsəddin Eldənizin və oğlu Atabəy Məhəmməd Cahan Pəhləvanın da dəfn olunması haqqında fikirlər vardır.

Türbə inşa olunarkən üzərində inşaat materialı kimi istifadə olunan bişmiş kərpiclə ərəb əlifbasının kufi xətti ilə çoxlu kitabələr yazılmışdır. Möminə xatın türbəsinin frizində (qurşağında) göy kaşılı kərpiclərlə, hündürlüyü 90 santimetrdən artıq olan kufi xətlə yazılan əsas kitabənin bir hissəsi aşınaraq məhv olsa da, çox hissəsi salamat vəziyyətdə gəlib çatmışdır. Kitabənin mətninin tərcüməsi belədir: "Mərhəmətli və rəhmli Allahın adı ilə! Bu məqbərənin tikilməsini müdrik hökmdar, ədalətli, qalibiyyətli, möhkəmlənmiş, böyük Şəmsəddin Nüsrət əl-islam vəl-müslimin Cahan Pəhləvan Atabəy Əbu Cəfər Məhəmməd ibn Atabəy Eldəniz dünyanın və dinin şöhrəti, islamın və müsəlmanların şərəfi Möminə xatının [xatirinə] – uca Allah ona rəhm etsin! – əmr etdi. Biz gedirik ancaq qalır ruzigar, Biz ölürük, əsər qalır yadigar! İlahi, bəd nəzərdən uzaq elə! [10, s. 373].

Türbə üzərində yazılan digər kitabələrdən aydın olur ki, abidə Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən 582-ci ilin məhərrəm ayında (aprel, 1186-cı il) inşa edilmişdir [10, s. 376-377].

Azərbaycan xatirə tikintiləri içərisində öz möhtəşəmliyi, gözəlliyi, kompozisiya xüsusiyyətləri, dekorativ bəzək ünsürləri və prinsipləri ilə seçilən, yüksək sənət əsəri və orta əsr Azərbaycan memarlığının şah əsəri olan Möminə xatın türbəsi dünyanın möhtəşəm memarlıq abidələri sırasında özünəməxsus yer tutur. Məhz buna görə də, görkəmli sənətşünas, V.Alpatov türbə haqqında yazır ki, belə yüksək forma duyğusuna, kompozisiyanın klassik kamilliyinə və icra mükəmməlliyinə həmin dövrdə Avropa memarlığında təsadüf olunmur. Naxçıvan türbəsindən klassik Şərq ədəbiyyatının ən yaxşı əsərləri – Firdovsinin ölməz "Şahnamə" poeması, yaxud Nizaminin "Leyli və Məcnun" əsərində olduğu kimi insanpərvərlik nəfəsi gəlir [6, s. 125-127].

On tağlı məqbərənin tağları boyunca Qurani-Kərimin Yasin surəsi haşiyə şəklində iki dəfə, məqbərənin tağlarının hamısının baş tərəfində Qurani-Kərimdən "Hakimiyyət vahid, qadir Allaha məxsusdur" ayəsi yazılmışdır.

İnşa olunarkən türbənin daxilində çoxlu kitabələr yazılıbmış. Ancaq, onların bir hissəsi zaman keçdikcə məhv olaraq sıradan çıxmışdır. Daxili günbəzin səthində diametri təxminən 1,5 metr olan 4 ədəd dairəvi medalyon (qönçə) vardır. Birinci medalyonda 8 dəfə "Məhəmməd", ikinci medalyonda "Məhəmməd, Əbu Bəkr, Ömər, Osman, Əli", üçüncü medalyonda "Məhəmməd, Əbu Bəkr, Ömər, Osman, Əli, Fatimə, Həsən, Hüseyn", dördüncü medalyonda isə "Məhəmməd, Əbu Bəkr, Ömər, Osman, Əli", medalyonların hamısının mərkəzində isə "Allah" sözü yerləşdirilmişdir [1, s. 83-88; 12, s. 54-56].

Türbədə beynəlxalq təşkilatlar tərəfindən 2003-cü ildə bərpa işləri aparılmışdır.

Qoşa minarəli baştağ. İslam intibahı dövründə, XII əsrdə Naxçıvan şəhərində Əcəmi Naxçıvani tərəfindən Atabəylər memarlıq kompleksinə giriş rolunu oynayan qoşa minarəli baştağ da inşa olunmuşdur. XIX əsrin sonlarınadək qalan abidənin üstündə olan kitabələri X.M.Fren və N.V.Xanıkov tədqiq etmişdir. Ancaq bu kitabələr bizədək gəlib çatmamışdır. Ona görə də, X.Frenin və N.Xanıkovun həmin kitabələr haqqında tədqiqatı onlar haqqında

məlumat verən yeganə mənbələr kimi çox qiymətlidir. N.V.Xanıkovun məlumatından aydın olur ki, qoşa minarəli baştağın inşası 1187-ci ildə, Möminə xatın türbəsinin inşasından 1 il sonra başa çatmışdır. Abidənin portalının yuxarı hissəsində belə bir kitabə olmuşdur: "Böyük, adil, alim, hökmdar Əbu Cəfər Məhəmməd ibn Atabəy Eldəniz – Allah onun qəbrini nurlandırsın" [10, s. 378].

Bu kitabədə Atabəy Məhəmməd Cahan Pəhləvanın ölümü haqqında konkret söz deyilməsə də, orada yazılan "Allah onun qəbrini nurlandırsın" fikrinə əsasən Atabəy Məhəmməd Cahan Pəhləvanın qoşa minarəli baştağın inşası başa çatarkən öldüyü bəlli olur. Məhz buna görə də, Ə.Ələsgərzadə qoşa minarəli baştağın kitabələrini təhlil edərkən onun özünün də Möminə xatın türbəsinin sərdabəsində dəfn edilməsi fikrinə gəlmişdir [10, s. 376].

Baştağın üzərində olan başqa bir kitabənin mətni isə belə olmuşdur: "...əl-mütəvəlli, əmir əl-üməra, əmir Nurəddin, atlı qoşunların başçısı və Atabəy dövlətinin vergi yığanı..." [10, s. 378-379).

Kitabənin məlumatına görə, qoşa minarəli baştağı inşa etdirən Əmir Nurəddin Azərbaycan Atabəyləri dövlətinin görkəmli məmurlarından olmuşdur. Kitabədə o "əl-mütəvəlli", "əmir" titulları, "atlı qoşunların başçısı və Atabəy dövlətinin vergi yığanı" vəzifələrini icra edən bir adam kimi təqdim olunmuşdur. Bütün orta əsrlər boyu olduğu kimi XII yüzillikdədə, Azərbaycan Atabəylərinin hakimiyyəti zamanında da mütəvəllilər vəqf əmlakını idarə edir, vəqf gəlirlərindən aylıq əmək haqqı alırdılar. Həmin vaxt yetərincə nüfuzlu olan "mütəvəlli" vəzifəsini icra edən Nurəddin, kitabədən göründüyü kimi "əmir" titulu daşımaqla dövlətin süvari qoşunlarına və vergilərin toplanmasına da rəhbərlik etmişdir.

Baştağın üzərində olan bir kitabədən isə məlum olur ki, bu abidəni də Əcəmi Əbubəkr oğlu Naxçıvani inşa etmişdir. Memar kitabədə özünü belə təqdim etmişdir: "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir".

Nuh peyğəmbərin türbəsi. İslamın intibah dövründə Naxçıvan şəhərində inşa olunan memarlıq nümunələrindən biri də Nuh peyğəmbərin türbəsidir. Türbənin qalıqları və onun içərisindəki məzar Naxçıvanda sovet hakimiyyəti qurulanadək bölgənin məşhur ziyarətgahlarından biri olmuşdur. Yeraltı və yerüstü hissədən ibarət olan abidə keçən yüzillikdə dağıdılmış, yeri də unudulmuşdu. 2005-ci ildə bu məzarın və türbənin yeri müəyyənləşdirilmiş, ətrafı təmizlənmiş, bünövrəsi aşkara çıxarılmışdır.

Türbənin inşa tarixi məlum deyildir. Mənbələrin şahidliyinə görə türbənin əsası VIII əsrdə qoyulmuş, XII əsrdə bərpa olunmuşdur. Abidə ətrafında aşkar olunan maddi-mədəniyyət nümunələrinə, azsaylı epiqrafik materiallara əsasən qalıqları XX yüzilliyə qədər gəlib çatan abidənin inşa tarixi barədə müəyyən fikir yürütmək olar. Burada aşkar edilən üzləmə blokları üzərindəki ornament qalıqları, az miqdarda epiqrafik materiallar Yusif Küseyir oğlu və Möminə xatın türbəsinin ornamentləri və kitabələri ilə çox oxşardır. Tapıntılar göstərir ki, Nuh türbəsinin üzlənməsində də şəhərin XII əsr abidələrində olduğu kimi gəc məhlulu və bişmiş kərpiclə hazırlanmış bloklardan və kufi xətli kitabələrdən istifadə olunmuşdur.

Bu türbənin ornamentlərini Yusif Küseyir oğlu və Möminə xatın türbələrinin ornamentləri ilə müqayisə edərkən aydın olur ki, bu ornamentlər sadədən mürəkkəbə doğru inkişaf yolu keçmişdir. Belə ki, Nuh türbəsinin ornamentləri Yusif Küseyir oğlu türbəsində olduğu kimi nisbətən sadə, bəzi hallarda müəyyən qədər inkişaf etmiş, Möminə xatın türbəsinin ornamentləri isə daha mürəkkəb və çox mükəmməldir.

Türbənin ətrafından aşkar olunmuş epiqrafik materiallar təsdiq edir ki, Nuh türbəsinin kitabələri də Naxçıvanın XII əsr abidələrində olduğu kimi bişmiş kərpic və gəc məhlulu ilə

yerinə yetirilmişdir. Bu kitabə fraqmentləri ilə Yusif Küseyir oğlu və Möminə xatın türbəsinin kitabələrini müqayisə edərək deyə bilərik ki, Möminə xatın türbəsinin kitabələri daha mükəmməldir və kufi xəttin inkişaf etmiş mərhələsinə aiddir. Nuh türbəsinin kitabələri Möminə xatın türbəsinə nisbətən sadədir. Abidənin inşasında istifadə olunan inşaat materiallarına, üzlərinin bəzədilməsində tətbiq edilən ornamentlərə, kaşı nümunələrinə və kitabələrin təhlilinə əsasən demək olar ki, türbə Naxçıvan memarlıq məktəbinə məxsusdur və bu məktəbin çiçəklənmə prosesi keçirdiyi XII yüzilliyin ortalarında inşa edilmişdir.

Türbə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 28 iyun 2006-cı ildə imzaladığı Sərəncama əsasən 2008-ci ildə bərpa olunmuşdur.

Naxçıvan şəhər buzxanası. Naxçıvanın türk-islam mədəniyyəti abidələri içərisində orta əsr Azərbaycan memarlığının nadir nümunələrindən sayılan buzxanaların xüsusi yeri vardır. Özünəməxsus memarlıq xüsusiyyətləri ilə seçilən belə abidələrdən biri Naxçıvan şəhərinin cənub tərəfində, İmamzadə kompleksinin yaxınlığında yerləşən XII-XIV əsrlərə aid buzxanadır. İnşa olunduğu zamandan etibarən Naxçıvan şəhəri əhalisinin yay mövsümündə rahatlığına və sərinlənməsinə xidmət edən, Azərbaycan ərazisində ən böyük buzxanalardan biri olan abidə planda düzbucaqlı formada inşa olunmuşdur. Uzunluğu 20 metr, eni 9 metr, hazırkı vəziyyətdə hündürlüyü 9,6 metrdir. Yüksək texniki səviyyədə kərpicdən qurulmuş örtük konstruksiyasının mükəmməl həlli, naturada tikilməsi, bina örtüyünün uzununa, yüngül və dinamik konstruksiya sxemi tərzində yaradılması Naxçıvan buzxanasının səciyyəvi cəhətlərindəndir [4, s. 336].

Naxçıvan buzxanasının yüksək səviyyəli, mükəmməl həlli bu abidənin Naxçıvan memarlıq məktəbinin inkişafı dövründə, XII-XIV əsrlərdə tikildiyini göstərir. Burada qış fəslində hazırlanan buzla, Naxçıvan şəhəri əhalisi isti vaxtlarda buzla təmin olunurmuş. Müasir soyuducuları əvəz edən buzxanalar, o cümlədən Naxçıvan şəhərindəki buzxana ötən əsrdə soyuduculardan istifadənin genişlənməsi ilə fəaliyyətini dayandırmış, sıradan çıxmışdır.

Buzxana Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə 2001-ci ildə bərpa olunmuşdur.

Qarabağlar Türbə Kompleksi. Naxçıvan ərazisində orta əsrlər zamanı yaradılan türk-islam mədəniyyətinin möhtəşəm nümunələrindən biri, nəinki Azərbaycan, ümumiyyətlə Şərq memarlığının incilərindən sayılan, XII-XIV əsrlərə aid Qarabağlar Türbə Kompleksidir. Kompleks Kəngərli rayonunun Qarabağlar kəndində yerləşir. Bir türbə və qoşa minarəli baştağdan ibarətdir. XII əsrə aid qoşa minarələr zaman keçdikcə dağıntıya məruz qalmış, yuxarı hissələri uçmuş, orada olan kitabələr ovulub tökülmüşdür.

Aparılan son tədqiqatlar zamanı qalıqlarına əsasən müəyyən edilmişdir ki, həmin kitabələrin mətni Qurani-Kərimin "Həcc" surəsinin 28-29-cu ayələrindən ibarət olmuşdur. Qoşa minarələri birləşdirən baştağın üzərində çox hissəsi dağılmış kitabənin mətnindən aydın olur ki, bu kompleksin tikilməsini Cahan Qudi xatın əmr etmişdir [12, s. 60]. Hülakülər (Elxanilər) dövlətinin banisi Hülakü xanın arvadlarından birinin adı Qutuy xatın olmuşdur. Sarayda böyük nüfuza malik olan Qutuy xatın ağlı və bacarığı sayəsində dövlətin idarə olunmasında iştirak etmişdir. Kitabədə adı çəkilən Qudi xatın mənbələrdə Quti və ya Qutuy xatın şəklində xatırlanan qadınla eyni adamdır [9, s. 85].

Kitabədə tarix qalmamışdır. Minarələri tədqiq edən memarlar onların XII əsrdə, bu minarələri birləşdirən baştağın isə XIV əsrdə tikilməsi fikrindədirlər [6, s. 140].

Kompleksin əsasını təşkil edən, Azərbaycanın qülləvarı türbələri tipinə aid olan, on iki

yarımsilindrin birləşdirilməsindən əmələ gətirilən, diametri 10 metrə yaxın, hazırkı vəziyyətdə hündürlüyü 16 metrə çatan Qarabağlar türbəsinin 4 baştağı vardır. Baştağların dördünün də baş tərəfində Qurani-Kərimin "əl-Mumin" surəsindən 16-cı ayənin son hissəsi yazılmışdır.

Türbənin səthi bütünlüklə həndəsi ornamenti xatırladan kufi və nəsx xətli kitabələr ilə bəzədilmişdir. Bu kitabələrin hamısı Quran ayələri və dini xarakterli kəlamlardır. Abidənin gövdəsində yaradılan irihəcmli rombların içərisində kufi xəttilə yerinə yetirilmiş və dəfələrlə təkrarlanan kitabələrin mətni belədir: "Allahdan başqa Allah yoxdur. Məhəmməd – Allahın ona salavatı olsun – Allahın elçisidir". Türbənin frizində isə Qurani-Kərimin "əl-Mülk" surəsinin 1-6-cı ayələri yazılmışdır.

Türbənin memarlıq xüsusiyyətləri, kitabələrinin yerinə yetirilməsi texnikası, oxşarlığı və digər əlamətləri göstərir ki, bu abidə Bərdə türbəsinin memarı Əhməd Əyyub oğlu əl-Hafiz Naxçıvani tərəfindən XIV əsrin 30-cu illərində inşa edilmişdir [2, s. 77].

Qarabağlar Türbə Kompleksi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 4 iyul 2016-cı il tarixli Sərəncamına əsasən bərpa olunmuşdur.

Gülüstan türbəsi. Naxçıvanın türk-islam mədəniyyəti abidələri içərisində memarlıq quruluşu, inşaat texnikası, özünəməxsus xüsusiyyətləri ilə diqqəti cəlb edən xatirə abidələrindən biri də Gülüstan türbəsidir. Gülüstan türbəsi Culfa rayonunun Gülüstan kəndindən təxminən bir kilometr şərqdə, Araz çayının sol sahilində inşa edilmişdir. Əcəmi Əbubəkr oğlu Naxçıvani yaradıcılığının ənənələrini özündə əks etdirən, Naxçıvan memarlıq məktəbinin ən gözəl və özünəməxsus nümunələrindən sayılan, tünd qırmızı tufdan inşa edilən nadir sənət incisi olan Gülüstan türbəsi orijinallığı, tikinti texnikası, gövdəsindəki naxış bəzəyi, zahiri görünüşü, həcm həllinin səciyyəsi ilə diqqəti cəlb edir və bu baxımdan seyr edənləri heyrətə gətirir.

Memarlıq ədəbiyyatında "daş sənəti incisi" kimi xarakterizə edilən, Gülüstan türbəsi orta əsr mənbələrində bəzən "Kəsik günbəz" kimi xatırlanır [6, s. 127; 9, s. 80]. Türbə iki hissədən – sərdabə və türbədən ibarətdir. Sərdabənin divarları dörd cərgə düzülmüş daşlardan hörülmüş və quruluşu etibarilə düzgün olmayan çoxbucaqlı əmələ gətirmişdir. Digər türbələrdə sərdabə yerin altında yerləşdirildiyi halda, burada yerin səthindən yuxarıda inşa olunmuşdur. Türbənin aşağı hissəsini təşkil edən, yonulmuş daşdan tikilmiş kürsülük xaricdən kəsik piramida, daxildən silindrik quruluşa malikdir. Yuxarı hissə isə on iki üzlü qüllədən ibarətdir. Türbənin yuxarı kamerası planda diametri 4,6 m olan düzgün çevrədir. Onun divarları gəclə suvanmışdır, yuxarı getdikcə tədricən ellips şəkilli günbəzə çevrilir.

Türbənin üzlərində yaradılan tağçaların içərisi incə naxış və ornamentlərlə doldurulmuşdur. Memar ornamentləri tağçalarda elə yerləşdirmişdir ki, onu seyr edənlər həmişə qonşu səthlərdə müxtəlif biçimli ornamentlər görür. Ornamentlərin tağçalarda təkrarı ancaq yaxından baxarkən hiss edilir. Bu naxış və ornamentlər 1186-cı ildə Naxçıvan şəhərində inşa edilmiş Möminə xatın türbəsinin ornamentləri ilə oxşardır. Həndəsi naxışlarının təhlilinə əsaslanaraq türbənin XII əsrdə inşa olunmasını söyləmək olar.

Gülüstan türbəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 7 oktyabr 2015-ci il tarixli Sərəncamı ilə 2015-2016-cı illərdə bərpa olunmuşdur.

Xanəgah Memarlıq Kompleksi. Naxçıvan ərazisində orta əsrlər zamanı yaradılan dini-memarlıq abidələri sırasında sufiliklə bağlı mərkəzlər – xanəgah kompleksləri xüsusi yer tutur. Belə komplekslərdən biri XII-XV əsrlərdə inşa olunan və zəmanəmizədək əsasən salamat vəziyyətdə gəlib çatan Xanəgah Memarlıq Kompleksidir. Xanəgah Memarlıq Kompleksi Culfa rayonunun Xanəgah kəndindən təxminən bir kilometr şimal-şərq tərəfdə yerləşir.

Kompleks türbə, məscid və digər tikililərdən ibarətdir. Kitabəsindən məlum olur ki, kompleksin əsasını təşkil edən türbə Uluğ Qutluğ Lələ bəyin əmrilə Xacə Cəmələddin tərəfindən inşa edilmişdir [10, s. 163; 12, s. 60-61]. Türbə memarlıq quruluşuna görə XII əsrə aid edilir.

Türbənin daxilində bir qəbir vardır. Əhali arasında belə bir fikir vardır ki, həmin qəbirdə XIV əsrdən etibarən Azərbaycanda geniş yayılan Hürufilik təliminin banisi, görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin müəllimi Fəzlullah Nəimi dəfn edilmişdir. Xanəgah kompleksinə bitişik, cənub tərəfdə inşa edilmiş türbə-məscidin kitabəsindən aydın olur ki, türbə-məscid Şeyx Hacı Lələ Məlikin xatirəsinə Həvva Bədr Bikə xatının səyi ilə 901-ci ildə (21.9.1495-8.9.1496-cı il) inşa olunmuşdur [13, s. 95].

Burada orta əsrlər zamanı Naxçıvan bölgəsində fəaliyyət göstərən müxtəlif sufi təriqətlərinə mənsub adamlar yaşamış və fəaliyyət göstərmişlər. Orta əsrlər zamanı əhalinin müxtəlif təbəqələri arasında böyük təsir gücünə malik olan, şərq ölkələrində mövcud olan sufiliklə bağlı mərkəzlərlə bir sırada duran bu xanəgahda yaşayan sufi təriqəti mənsubları bölgənin ictimai-siyasi həyatında mühüm rol oynamış, xüsusi ilə xarici müdaxilələr zamanı ərazinin işğalçılardan qorunması üçün əhalinin təşkilatlanmasında xüsusi rol oynamış, ön sırada dayanmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə kompleks 2005-ci ildə yüksək səviyyədə bərpa olunmuş, ətrafı abadlaşdırılmış, oraya gedən yol asfaltlanmış və əhalinin, bölgəyə gələn qonaqların ziyarət yerinə çevrilmişdir. 2016-cı ildə ətrafı yenidən bərpa olunmuşdur.

Əmirxan türbəsi. Culfa rayonun Xanəgah kəndində zəmanəmizədək gəlib çatan Əmirxan türbəsi Əlincəqalanın yerləşdiyi Əlincə dağının şərq yamacında inşa edilmişdir. Türbə zaman keçdikcə yağış və qar sularının yuyub gətirdiyi lillə dolmuş və demək olar ki, torpağın altında qalmışdı. Abidə 1978-ci ildə ərazidə təsərrüfat işləri aparılarkən təsadüfən aşkar olunmuşdur. Demək olar ki, tamamilə salamat vəziyyətdə olan bina planda dördbucaqlı formasındadır. Üstü iri həcmli günbəzlə örtülmüşdür. Abidənin əhəmiyyətli hissəsi də qırmızımtıl rəngli bişmiş kərpicdən inşa edilmiş birgünbəzli örtmədir. Azərbaycan memarlığının Naxçıvan məktəbinə mənsub usta tərəfindən inşa edilmiş abidənin kvadrat əsasdan günbəzə keçid sistemi çox yüksək səviyyədə həll olunmuş, bu zaman memarın yüksək sənətkarlığı və məharəti özünü qabarıq şəkildə göstərmişdir. Memar bunu künc trompları vasitəsi ilə həll etməklə, bu adi künc trompların daxili quruluşunun mükəmməl formasına nail ola bilmişdir. Trompları birləşdirən yelkənlər müəllif tərəfindən olduqca orijinal halda – stalaktitə bənzər həll olunmuşdur. Abidəni memarlıq baxımından tədqiq edən akademik Ə.Salamzadə və sənətşünaslıq doktoru K.Məmmədzadə onu dərvişlərin yaşayış binası – təkyə adlandırmış və XIV əsrdə inşa edilməsi qənaətinə gəlmişlər [6, s. 203-204].

Kompleksin ətrafı təmizlənərkən bir ədəd kitabə (83×41×7 santimetr) də aşkar olunmuşdur. Süls elementli nəsx xətti ilə həkk edilmiş kitabənin mətninin tərcüməsi belədir: "Bu şərəfli günbəzin bina olunmasına mərhum, xoşbəxt şəhid, Əmir Seyyid Əhməd əl-Oğulşaminin oğlu, sahib əl-əzəm Hacı Məhəmməd vəfat etmiş oğlu Əmirxan üçün ən böyük sultan, Sultan Cahanşah Bahadur xan zamanında – Allah onun hökmranlığını əbədi etsin – əmr etmişdir. Adı qeyd edilən bani (günbəzi tikdirən Hacı Məhəmməd – H.S.) dəvət edən məqbərəyə üç vəqf etmişdir: əkilmiş yer ... bu dəfn yeri olan günbəzə ildə ..." [12, s. 66].

Kitabənin tarix yazılan hissəsi sınıb itdiyi üçün onun nə vaxt yazıldığını və abidənin inşa tarixini dəqiq təyin etmək mümkün olmamışdır. Ancaq, mətndə əks olunan faktlara əsasən onun dövrünü təxmini də olsa müəyyənləşdirmək mümkündür. Kitabədən aydın olur ki, gün-

bəz "ən böyük sultan, Sultan Cahanşah Bahadur xan zamanında" inşa edilmişdir. Məlumdur ki, Qaraqoyunlu hökmdarı, "Həqiqi" təxəllüsü ilə şeirlər yazan Cahanşah 1435-1467-ci illərdə hakimiyyətdə olmuşdur. Deməli günbəz onun hakimiyyəti zamanı, qeyd olunan illər arasında inşa edilmişdir [8, s. 23-25].

Pir-i Süleyman xanəgahı. Bu xanəgah Şərur rayonunun Tənənəm kəndində yerləşir. El arasında "Pir-i Süleyman" kimi tanınan xanəgah-ziyarətgah bir binadan ibarətdir. Binanın günbəzi tacvarı formalı olub, dairəvi planlıdır. Vaxtı ilə abidənin giriş qapısı üzərində kitabə olsa da, həmin epiqrafik sənəd zaman keçdikcə sıradan çıxmışdır. Binanın içərisində ziyarət obyekti olan qəbir vardır. Ancaq, qəbrin və binanın üstündə epiqrafik sənəd – kitabə olmadığı üçün onların tarixi, mənsubiyyəti və təyinatı haqqında sanballı elmi fikir söyləmək mümkün deyildir.

Haqqında yerli əhali arasında müxtəlif rəvayətlər söylənilən pir-ziyarətgahın nə üçün "Pir-i Süleyman" adlanması haqqında dəqiq məlumat yoxdur. Fikrimizcə, ziyarətgahın adındakı "Pir" sözü sufi təriqəti rəhbərlərinə verilən ən yüksək tituldur. Görünür, Süleyman sufilikdə ən yüksək məqam olan "Pir" səviyyəsinə qədər yüksəlmiş bir şəxsiyyət olmuşdur. Sufi təriqəti pirlərinə məxsus bütün keyfiyyətlər Pir Süleymana da aid olmuş və o, Tənənəm kəndi ərazisində fəaliyyət göstərən xanəgahın rəhbər şeyxi olmuş, fəaliyyəti ilə müridləri və yerli əhali arasında böyük nüfuz qazanmışdır.

Tənənəm kəndindəki bu xanəgah zəmanəsinin nüfuzlu sufi mərkəzlərindən olmuşdur. O, nəinki təkcə Tənənəm kəndində, bütövlükdə Şərur bölgəsində böyük nüfuz qazanmış, zəmanəsinin sosial-siyasi və ideoloji həyatında mühüm rol oynamışdır [8, s. 173-176]. Abidənin ətrafında orta əsrlər dövrünə, xüsusilə XIV əsrə aid saxsı qab qırıqları və kaşı parçalarına əsasən demək olar ki, bu sufi məskəni XIV-XV əsrlərdən etibarən fəaliyyət göstərmiş, Pir-i Süleyman isə onun rəhbər şeyxlərindən olmuşdur [4, s. 399].

Qaynaqların və tədqiqatçıların da təsdiq etdiyi kimi orta əsrlər zamanı xanəgahlara rəhbərlik edən şeyxlər adətən öz xanəgahında yaşadıqlarından və öldükdən sonra xanəgahda və yaxud xanəgahın ətrafında dəfn edildiklərindən, fikrimizcə Pir Süleyman da vəfat etdikdən sonra öz xanəgahında torpağa tapşırılmışdır. Bundan sonra onun qəbri müridləri və yerli əhali tərəfindən ziyarətgaha çevrilmişdir. Pirdə ziyarət obyekti olan qəbir də Pir Süleymana məxsusdur. Kənd əhalisi ziyarətgahı yaşayış məskəninin adı ilə "Tənənəm piri" və yaxud da şeyxin adı ilə "Pir-i Süleyman" adlandırır.

Ordubad şəhər buzxanası. Naxçıvanda orta əsrlər zamanı yaradılmış türk-islam mədəniyyətinin nadir nümunələrindən sayılan abidələrdən biri də Ordubad şəhərində XIV əsrdə inşa edilən buzxanadır. Naxçıvan ərazisində zəmanəmizədək gəlib çatan xronoloji cəhətdən ikinci qədim buzxana olan bu abidə Ordubad şəhərinin mərkəzində yerləşir. Came məscidinin yaxınlığında inşa edilən buzxananın hazırkı vəziyyətdə ümumi sahəsi 166 kvadratmetr, zirzəmisinin daxili sahəsi 89,4 kvadratmetrdir. Buzxananın tikintisi bişmiş kərpic (20x20x50 santimetr) və əhəng məhlulu ilə aparılmışdır. Bina daxili girişdə böyük otaqdan, 36 pilləli pilləkəndən, buz hazırlanan və saxlanılan zirzəmidən ibarətdir.

Tədqiqatçılar özünəməxsus memarlıq xüsusiyyətləri ilə seçilən Ordubad şəhərindəki buzxananın XIV yüzillikdə inşa olunması, XVIII əsrdə bərpa edilməsi fikrindədir [4, s. 50].

Buzxana Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi ilə 2014-cü ildə yüksək səviyyədə bərpa olunmuşdur.

Vənənd kənd Came məscidi. Orta əsrlər zamanı Naxçıvan ərazisində əhalinin sosial-siyasi və ideoloji həyatında mühüm yeri olan məscid-mərkəzlərdən biri də Ordubad bölgəsinin

Vənənd kəndindəki Came məscididir. Zəmanəmizədək nisbətən salamat vəziyyətdə gəlib çatan Came məscidi düzbucaqlı formada inşa edilmişdir. Hazırkı vəziyyətdə giriş qapısı şimal tərəfdən olan məscidin hündürlüyü 7 metrə, sahəsi 400 kvadratmetrə yaxındır. Məscidin daxili ağac və taxtalardan istifadə olunmaqla düzəldilən balkon vasitəsilə iki mərtəbəli şəklə salınmış və ikinci mərtəbə, yəni balkon qadınların ibadət etməsi üçün nəzərdə tutulmuşdur. Balkonun mehraba baxan taxtalarından birinin üzərində qara rənglə geniş həcmli bir kitabə yazılmışdır. Süls elementli nəsx və şikəstə xətti ilə yazılan, mətnində Azərbaycanın XVIII yüzilliyin I yarısının siyasi və iqtisadi tarixi ilə əlaqədar bir sıra əhəmiyyətli məlumatlar əks etdirən kitabənin məzmunundan aydın olur ki, hicri 1145-ci (miladi 1732-ci) ildə məscidin binası yenidən bərpa edilmişdir.

Bəzi tədqiqatçılar bu kitabəyə əsaslanaraq, yanlış olaraq onun tarixini məscidin inşa tarixinə aid edirlər. Ancaq, kitabənin məlumatından da aydın olur ki, məscid 1732-ci ildə inşa deyil, bərpa olunmuşdur. Əslində məscidin inşa tarixi daha əvvəlki dövrlərə aiddir. Məscidin vaxtilə qərbdən giriş qapısı olmuş və həmin giriş qapısının baş tərəfində qırmızımtıl rəngli daşa həkk olunmuş bir kitabə qoyulmuşdur. Həmin kitabə indiyədək salamat vəziyyətdə qalmışdır. Ancaq, XVIII əsrin 30-cu illərində məscid bərpa olunarkən məscidin qərb divarından təxminən 2 metr aralı – qərb tərəfdə, məscidi genişləndirmək üçün başqa bir divar çəkilmiş və kitabə olan divar məscidin içərisində qalmışdır. Məscidə giriş qapısı isə bərpa zamanı şimal divardan qoyulduğu üçün daha qərbdəki qapıdan istifadə olunmamış və zaman keçdikcə orada olan kitabə də unudulmuşdur. Kitabənin mətnindən aydın olur ki, məscid hicri-qəməri təqvimi ilə 725-ci ildə (miladi ilə 1325-ci ildə) inşa edilmişdir. Bu məscid Ordubad bölgəsinin daha bir kəndində – Nüs-nüsdə bu günə qədər gəlib çatan pir-məscidlə eyni vaxtda (1326-cı ildə) inşa edilmişdir. Vənənd kəndində bu gün də əsas məscid funksiyasını yerinə yetirən bu məscid bölgədə bizə məlum olan üçüncü ən qədim məscid nümunəsidir.

Müstəqilliyin ilk illərində məsciddə təmir-bərpa işləri aparılmışdır.

Qırx kimsənə pir-məscidi. Naxçıvan ərazisində orta əsrlər zamanı yaradılmış türk-islam mədəniyyəti nümunələrindən biri də XIV əsrə aid "Qırx kimsənə" pir-məscididir. Ordubad rayonunun Nüs-nüs kəndində yerləşən və yerli əhali arasında "Qırx kimsənə" adlanan bu abidənin birinci mərtəbəsi ziyarətgah, ikinci mərtəbəsi isə məsciddir. Binanın ortasında birinci mərtəbədən, yəni ziyarətgahdan başlayaraq ikinci mərtəbədə də tavana qədər qalxan daş sütun vardır. Kənd əhalisinin inamına görə bu sütun orada qeybə çəkilənləri tapmaq üçün gələn adamlar tərəfindən bir neçə dəfə dağıdılsa da yenidən bərpa olmuşdur. Ziyarətgahda əsas ziyarət obyekti hündürlüyü təxminən 5 metr olan bu sütundur [9, s. 2].

Pir-məscidin birinci mərtəbəsində yerləşən ziyarətgahın giriş qapısı üzərində ərəb dilində doqquz sətirdə həkk edilmiş kitabənin mətnindən aydın olur ki, bu məscid islam padşahı Əbu Səid Bahadur xanın səltənəti dövründə Atabəyin candarı Sədr bin Sarim bin Səncər bin Aytəkinin əli ilə inşa edilmişdir. Kitabə çərşənbə axşamı, 4 ramazan, 726-cı ildə (4.08.1326) yazılmışdır [12, s. 63].

Kitabədə verilən məlumatdan aydın olur ki, pir-məscid Elxanilərin sonuncu hökmdarlarından olan Əbu Səid Bahadur xanın zamanında (1316-1335-ci illər) inşa edilmişdir. Kitabədə qeyd olunan məlumatlar göstərir ki, Naxçıvan ərazisi Hülakülər dövlətinin son dövrlərində də həmin dövlətin tərkibində olmuşdur [9, s. 26-27].

Pir-məscidin binası 1992-1993-cü illərdə bərpa edilmişdir.

Darkənd günbəzi. Ordubad rayonunun Darkənd kəndində indiyədək yarımçıq vəziyyətdə gəlib çatan günbəz (türbə) çox da geniş tədqiq olunmamışdır. 1974-1979-cu illərdə Xa-

raba Gilan şəhər yerində və onun çevrəsində tədqiqatlar zamanı bu türbə də memarlıq baxımından tədqiq olunmuş, onun ətrafında isə arxeoloji kəşfiyyat və qismən qazıntı işləri aparılmışdır. Tədqiqatlar zamanı türbənin ətrafında yeni abidələr də aşkar olunmuşdur. Tipoloji xüsusiyyətlərinə görə böyük maraq doğuran, konstruksiya quruluşu etibarilə üç yaruslu tikili formasında həll edilmiş yeganə abidə hesab olunan Darkənd türbəsi kompozisiyası və dekorativ elementləri ilə fərqlənir.

Türbə bişmiş kərpicdən hörülmüş, orta hissəsi bürcvari türbələr biçimində olub, yuxarı hissədən günbəzlə tamamlanmışdır. Abidənin dörd tərəfində yerləşən portallar qülləvarı türbələrə xas olsa da, mərkəzi özəyə söykənən, bir növ, dayaq divarlarını xatırladan quruluşa malikdir. Türbənin üzərindəki tünd-bənövşəyi rəngli kaşı və adi bişmiş kərpicdən hörülmüş sadə naxışlar yeganə bəzək elementidir. Türbənin yeraltı sərdabə hissəsi hazırda dolmuşdur. Sərdabə səkkizbucaqlı formada olmuş, çaydaşı ilə hörülmüş, divarları içəri tərəfdən kvadrat formalı kərpiclərlə üzlənmişdir. Sərdabənin kürsülük rolunu oynayan yerüstü hissəsi iri daşlarla üzlənmişdir. Türbənin yerüstü kamerası bütün tikintini tamamlayan boyundan yastı günbəzlə ayrılmış səkkizüzlü prizmanı xatırladır. Bu türbəni Azərbaycanın həmdövr abidələrindən fərqləndirən orijinal xüsusiyyətləri vardır. Belə ki, türbənin üzləmə işində qırmızı kərpiclə yanaşı, qara kaşılı kərpiclərdən istifadə olunması, xarici günbəzin ayrı-ayrı bölmələr təşkil edən diaqonal düzümlü cərgələr formasında üzlənməsi onu başqa abidələrdən fərqləndirən mühüm cəhətlərdir [6, s. 165].

Türbə XIV əsrin sonu-XV əsrin əvvəllərində inşa olunmuşdur [4, s. 73].

Hacı Hüseynqulu məscidi. Ordubad rayonunun Gənzə kəndinin mərkəzində inşa edilən Hacı Hüseynqulu məscidi geniş tədqiq olunmamışdır. Onun haqqında yalnız 1927-ci ildə Ordubadda olan Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin elmi katibi V.Sısoyev qısa məlumat vermişdir [15, s. 151]. Daxildən ölçüsü 23x14 metr olan məscidin üzərində kitabə olmadığı üçün onun sifarişçisi, inşa tarixi, memarı və s. haqqında konkret və dəqiq fikir söyləmək mümkün deyildir. Ancaq, yerli camaatın dediyinə görə, onu Hacı Hüseynqulu adlı nüfuzlu və imkanlı bir adam tikdirmişdir. Hacı Hüseynqulu öldükdən sonra məscidin cənub divarının qarşısında dəfn olunmuşdur. Onun qəbri hazırda məscidin qabağında qalmaqdadır. Məsciddə olduğu kimi qəbrin üstündə də heç bir epiqrafik sənəd-kitabə yoxdur. Ancaq son zamanlar məscid bərpa edilərkən qəbrin üstü də götürülmüş, üzərində mərmər başdaşı və sinədaşı qoyulmuşdur. Başdaşının üstündə ərəb əlifbası ilə "Mərhum Hacı Hüseynqulu, XVI əsr" sözləri həkk edilmişdir. Ancaq, bu tarix heç bir qaynağa söykənmir və yaşlı sakinlərin dediyinə görə təxmini bir tarix olaraq başdaşında həkk edilmişdir.

Naxçıvan bölgəsində ən qədim məscid nümunələrindən olan abidənin daxili böyük salondan ibarətdir. XX əsrin əvvəllərində məscidin qərb tərəfindən əlavə bina tikilərək kişilərə aid salona birləşdirilmiş və məscidin sahəsi genişləndirilmişdir. Məscidin əsas, qədim hissəsi daşdan hörülmüş, tavanı üç böyük sütunun və divarların üstündə dayanıb. Sütunların arası və sütunlarla divarların arası tağvarı hörülərək birləşdirilmişdir. Divarların qalınlığı 1 metrdir. Məscidin içərisində, divarlarda 5 divariçi taxça düzəldilmişdir. Məscidə girişin önündə eyvan vardır. Eyvanın fasadı 12 tağdan ibarətdir. Məscidin yanında qonaq otağı vardır.

Məscid təmir olunarkən divarlarında gəc üzərində rənglə dini xarakterli kəlamlar yazılmışdır. Təmir zamanı cənub-qərb tərəfində gözəl bir minarə ucaldılıb. Kənddə yas mərasimləri bu məsciddə keçirilir, həmçinin məhərrəmlikdə və orucluqda burada dini mərasimlər icra olunur.

Məscidin cənubunda olan qəbiristanlıq da vaxtı ilə Hacı Hüseynqulunun torpaq sahəsi olmuş, onu qəbiristanlıq üçün bağışlamışdır. Orada olan məzar kitabələrinin üzərində olan

tarixlərə əsasən demək olar ki, Hacı Hüseynqulu XV əsrdə yaşamış, məscidi də həmin vaxt inşa etdirmişdir [9, s. 40-41; 4, s. 151].

İslamın intibah dövründə Naxçıvan bölgəsində inşa edilən memarlıq abidələri bəhs olunan bu abidələrlə məhdudlaşmır. Orta əsr müəllifləri təsdiq edirlər ki, bəhs olunan dövrdə bölgədə çoxlu sayda müxtəlif təyinatlı memarlıq abidələri ucaldılmışdır. Həmin abidələrin bir hissəsi zaman keçdikcə təbii qüvvələrin təsirindən məhv olaraq sıradan çıxsalar da, müəyyən hissəsi yarımdağılmış vəziyyətdə olsa da zəmanəmizədək gəlib çatmışdır.

ƏDƏBİYYAT

1. Kərimzadə S. Möminə xatın türbəsinin öyrənilməmiş kitabələri // Azərbaycan SSR EA Məruzələri, c 23, № 8, 1967, s. 83-88.
2. Kərimzadə S. Qarabağlar türbəsinin kitabələri haqqında bəzi mülahizələr // Azərbaycan EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1969, № 2, s. 69-78.
3. Gülüstan türbəsi. Naxçıvan: Əcəmi, 2016, 152 s.
4. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008, 521 s.
5. Nemətova M. Azərbaycanın epiqrafik abidələri. Bakı: Azərbaycan EA nəşriyyatı, 1963, 157 s.
6. Salamzadə Ə., Məmmədzadə K. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. Bakı: Elm, 1985, 268 s.
7. Səfərli F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. Bakı: Nurlan, 2003, 392 s.
8. Səfərli F. Əmirxan türbəsinin kitabəsi. Naxçıvan Regional Elm Mərkəzinin əsərləri. Bakı: Elm, 2003, s. 23-27.
9. Səfərli H. Naxçıvanın türk-islam mədəniyyəti abidələri. Naxçıvan: Əcəmi NPB, 2017, 216 s.
10. Алескерзаде А. Надписи архитектурных памятников Азербайджана эпохи Низами / Архитектура Азербайджана эпохи Низами. Москва-Баку, 1947, с. 369-390.
11. Йакут Ал-Хамави. Муджам ал-Булдан / Перевод с арабского З.М.Буниятова и П.К.Жузе. Баку: Элм, 1983, 34 с.
12. Неймат М. Корпус эпиграфических памятников Азербайджана. Т. III, Баку: XXI – Yeni nəşrlər evi, 2001, 216 с.
13. Сафарли Г. Эпиграфичиские памятники Нахчывана. Нахчыван: Аджеми, 2017, 200 с.
14. Сафаров Ф. Арабо-персоязычные надписи Нахичеванской АССР (XVI-XIX вв) как историко-культурные памятники. Дисс. ... канд. ист. наук. Баку, 1987, 179 с. НАИИ НАН Азербайджана. Инв. № 8383.
15. Сысоев В.М. Нахичевань на Араксе и древности Нах. ССР (отчет о поездке летом 1926 г.) // Известия «Азкомстарис»а, вып. 4 (тетрадь 2), Баку, 1929, с. 87-121.
16. https://az.wikipedia.org/wiki/%C4%B0ntibah_d%C3%B6vr%C3%BC

AMEA Naxçıvan Bölməsi
E-mail: ***seferli949@mail.ru***

Fakhraddin Safarli

SOME ARCHITECTURAL MONUMENTS BUILT IN THE NAKHCHIVAN REGION DURING THE MUSLIM RENAISSANCE PERIOD

In the Nakhchivan region, one of the ancient cultural centers of Azerbaijan, many monuments built during the Muslim Renaissance survived. The paper briefly discusses several architectural monuments that are still considered excellent examples of pan-Islamic culture in Nakhchivan, the capital of the Nakhchivan Autonomous Republic, and in the Julfa, Ordubad, Kangarli, and Sharur districts. General information was given about the tomb of Yusif Kuseyir oglu, the tomb of Momuna Khatun, Nakhchivan City ice house, Karabakh Tomb Complex, Khanagah Architectural Complex, Amirkhan tomb, Pir-i Suleyman khanagah, Darkand dome, Kirkhkimsana mosque, and others.

Keywords: *Nakhchivan, Julfa, Ordubad, Sharur, Kangarli, tomb, mosque, ice house.*

Фахреддин Сафарли

О НЕКОТОРЫХ АРХИТЕКТУРНЫХ ПАМЯТНИКАХ, ВОЗДВИГНУТЫХ В НАХЧЫВАНСКОМ РЕГИОНЕ В ПЕРИОД МУСУЛЬМАНСКОГО РЕНЕССАНСА

На территории Нахчывана, являющегося древним культурным центром Азербайджана, до наших дней сохранилось много памятников, построенных в эпоху мусульманского ренессанса. В статье коротко рассказывается о памятниках, сохранившихся до наших дней в столице Нахчыванской Автономной Республики городе Нахчыван, на территориях Ордубадского, Джулфинского, Шарурского и Кенгерлинского районов. Даются общие сведения о мавзолее Юсуфа Кусейир оглы, Мавзолее Момине хатун, льдохранилище в городе Нахчыван, комплексе мавзолеев в Карабагларе, архитектурном комплексе в Ханегяхе, мавзолее Амирхана, ханегяхе Пир-и Сулеймана, мавзолее в Дарканде, пир-мечети Кырхкимсене и т.д.

Ключевые слова: *Нахчыван, Джульфа, Ордубад, Шарур, Кенгерли, мавзолей, мечеть, льдохранилище.*

Daxilolma tarixi: İlkin variant 18.06.2021
Son variant 14.07.2021

UOT 94 (479.24)

MUSA QULİYEV

CƏSUR SƏRKƏRDƏ – ŞEYXƏLİ BƏY NAXÇIVANSKİ-KƏNGƏRLİ

Məqalədə Naxçıvan xanı Kalbalı xanın oğlu Şeyxəli bəyin həyatından və hərbi fəaliyyətindən, onun İran şahının zülmündən ailəlikcə qaçaraq Qarabağda Rusiya təbəəliyini qəbul etməsindən, 1808-ci ildə general P.F.Nebolsinin dəstəsində Naxçıvana gəlməsindən, atasının İran zindanlarından xilas olması üçün 1809-cu ildə İrana qaçmasından ətraflı danışılır. Şeyxəli bəyin İran ordusunun sərhəngi (polkovniki) kimi 1812-ci ildə 19-20 oktyabrda Aslandüz döyüşündə iştirakından, Rusiya ordusuna əsir düşməsindən, sonralar təkrarən Rusiya təbəəliyini qəbul etməsindən və 1839-cu ildə birdəfəlik İrana qaçmasından söhbət açılır. Məqalə yeni arxiv sənədləri və çap olunmuş monoqrafiyalar əsasında hazırlanmışdır.

Açar sözlər: *Qarabağ, Qarababa, Darvaza kəndi, Aslandüz döyüşü, qraf Qudoviç, Naxçıvan qalası.*

Azərbaycanın, Rusiyanın və İranın hərb tarixində öz yeri olan Şeyxəli bəy Naxçıvanskinin hərbi fəaliyyəti haqqında Naxçıvan, Tiflis və Moskva arxivlərində sənədlər vardır. Bu arxiv sənədlərinin əksəriyyəti Qafqaz Aktlarına daxil edilmiş və Naxçıvan xanlığına aid yazılan kitablarda da istifadə edilmişdir. Amma Şeyxəli bəy müəyyən qədər ziddiyyətli bir ömür yaşadığından onun fəaliyyəti tamamilə öyrənilməmişdir. Bunu nəzərə alaraq Şeyxəli bəyə aid Tiflis və Moskva arxivlərindən tapılan sənədlər əsasında cəsur sərkərdənin həyatını və fəaliyyətini 1839-cu ilədək (yəni birdəfəlik İrana mühacirət edənə kimi) yenidən araşdırdıq.

Şeyxəli bəy I Kalbalı xan oğlu Naxçıvanski-Kəngərli Naxçıvan şəhərində doğulmuşdur. Onun doğum tarixini Ordubad şəhərinin 1832-ci ildə tərtib edilmiş kameral siyahıya görə təyin etdik. Çünki həmin ildə Şeyxəli bəy Ordubadın naibi olduğundan o, Ordubad şəhərində qeydə alınmışdır. Həmin təsvirlərdə yazılıb: "Mayor Hacı Şeyxəli bəy Kalbalı xan oğlu 50 yaşındadır". Bu arxiv sənədinə görə demək olar ki, Şeyxəli bəy 1782-ci ildə doğulmuşdur. İndiyədək Şeyxəli bəy I Kalbalı xanın 3-cü oğlu kimi yazılırdı. Amma Naxçıvan şəhərinin 1832-ci il üçün kameral siyahısında I Ehsan xanın 40 yaşı qeyd olunub. Onda belə çıxır ki, I Ehsan xan da 1792-ci ildə anadan olub. Bu araşdırmalara əsasən demək olar ki, Şeyxəli xan qardaşı Ehsan xandan yaşca böyükdür. Başqa sözlə, Şeyxəli xan I Kalbalı xanın ikinci oğludur. Son illərdə aparılan araşdırmalardan aydın oldu ki, I Kalbalı xanın Cahanbanu və Nazlıbəyim adında qızları da olmuşdur. Həmin sənəddə əlavə olaraq qeyd edilib ki, mayor Hacı Şayxəli bəyin iki həyat yoldaşı vardır: Tutubəyim (45 yaşında) və Nisəbəyim (20 yaşında). 1 yaşında olan oğlu və 65 yaşında olan anası Tükəzban xanım haqqında da məlumat yazılıb [8, s. 2]. Şeyxəli bəyin adı arxiv sənədlərində 1807-ci il mart ayının əvvəllərində baş vermiş siyasi hadisələrdə çəkilir. 1806-cı ilin sonunda Rusiya-Türkiyə müharibəsi başlandı və Rusiya hökuməti ordunun bir hissəsini türk cəbhəsinə göndərdi. Vəziyyəti belə görən Fətəli şah Naxçıvan xanlığını tutmağı fəallaşdırdı. Oğlu Abbas Mirzəyə tapşırdı ki, Naxçıvan xanlığını işğal etsin. Lakin o, Naxçıvan xanı I Kalbalı xanı məğlub edə bilmədi. Abbas Mirzə diplomatik hiyləyə əl atdı. O, yaxın qohumu İrəvan xanı Hüseynqulu xana tapşırdı ki, qonaq adı ilə I Kalbalı xanı İrəvana çağırsın və həbs edib Tehrana göndərsin. Bu hadisənin şahidinin yazdıqlarını arxiv sənədində olduğu kimi veririk: "...Şahzadənin (Abbas Mirzənin – müəllif) Naxçıvanı təslim etmək haqqında Kalbalı xana verdiyi tələb uğur qazanmadı. Hüseynqulu xanın hiyləsi nəticəsində Kalbalı xan İrəvanda tutuldu, deyilənlərə görə şahzadənin yanına aparılacaq".

I Kalbalı xan Hüseynqulu xanın satqınlığı sayəsində əsir edildi. 1807-ci ilin dekabr ayına kimi I Kalbalı xan öz ailəsi ilə birlikdə İrəvanda saxlanıldı və sonra Təbrizə Abbas Mirzənin sarayına göndərildi [9, s. 594, 599]. Şahzadə Abbas Mirzə Kalbalı xanı əsir etsə də, Naxçıvan üzərinə qoşun göndərməyə ehtiyat etdi. Çünki Naxçıvanın Kəngərli süvariləri ilə döyüşüb qalib gəlmək elə də asan məsələ deyildi. Kalbalı xanın həbsini gizlin saxlayan Abbas Mirzə yenə də Hüseynqulu xanın xəyanətindən istifadə etdi. Abbas Mirzə Hüseynqulu xana məsləhət bildi ki, Naxçıvana getsin. Onun Kalbalı xanla səmimi münasibətlərini bilən naxçıvanlılar qala qapısını Hüseynqulu xanın üzünə açacaqlar. O, 300 atlı və 200 piyada ilə Naxçıvana gəldi. Naxçıvanlılar Hüseynqulu xanı qalaya buraxdılar və Naxçıvan qalası onun satqınlığının qurbanı oldu [2, s. 79]. Qeyd edək ki, Hüseynqulu xanın satqınlığını Naxçıvan kəngərliləri heç vaxt unutmadılar və Abbasabad döyüşlərində bu satqınlığın cavabını verdilər. Naxçıvan xanlığına isə Abbasqulu xan hakim təyin edildi. Bu hadisələrin baş verdiyi ərəfədə I Kalbalı xanın oğlu Şeyxəli bəy öz adamları ilə birlikdə Qarabağ xanlığına gedə bildi. Qarabağ xanlığı 1805-ci ildə Rusiya dövləti tərəfindən işğal edilmişdi. İran I Kalbalı xanı "Rusiyaya sədaqətli olmaqda" təqsirləndirirdi və onun varislərini də təqib edirdi. Ona görə də Şeyxəli bəy İranın təqibindən birdəfəlik yaxa qurtarmaq üçün Rusiya hakimiyyət orqanlarına müraciətlə "Ümumrusiya imperiyasının təbəəliyinə" qəbul olunmasını xahiş etmişdi. Qarabağda olan rus ordusunun komandanı polkovnik Afanasi Fyodroviç Aseyev idi. O, 1807-1811-ci illərdə Qarabağda Rusiya ordusunun 17-ci yeger polkuna komandirlik etmişdir. Qeyd edək ki "yeger" Rusiya ordusunda xüsusi nişançı kimi xidmət edən əsgərlərə deyilirdi. Yeger polku 19-cu piyada diviziyasının tərkibində 1804-1813 və 1826-1829 illərdə Rusiya-İran, həmçinin 1806-1812 və 1828-1829-cu illərdə Rusiya-Türkiyə müharibələrində iştirak etmişdir. A.F.Aseyev Şeyxəli bəyin "əlahəzrət imperatora əbədi sadiq olacağına" andiçmə mərasimində iştirak etmişdi. Aseyev Şeyxəli bəyə çox böyük hörmətlə yanaşırdı. 1806-1809-cu illərdə Rusiya qoşunlarının Qafqazda baş sərdarı olan qraf İ.V.Qudoviç Qarabağ xanı Mehdiqulu xana tapşırdı ki, Şeyxəli bəyə "yaşamaq üçün kənd ayırsın və ona kömək etsin". Mehdiqulu xan Şeyxəli bəyə Darvaza kəndini hədiyyə etdi [9, s. 267-268].

Naxçıvan xanlığında hakimlik edən Abbasqulu xan Kəngərlinin iştirakı ilə Abbas Mirzə I Kalbalı xanın yaxın adamlarına və rus ordusunun Qafqaza gəlişinə müsbət münasibət bəsləyənlərə elə divan tutdu ki, Naxçıvanın dörd nəfər adlı-sanlı adamı Şuşaya qaçdı. İran ordusunun Naxçıvanda olması çox təhlükəli idi. Çünki Rusiya ilə döyüşdə məğlub olan İran komandanlığı hər an naxçıvanlıları Arazın cənub sahilinə köçürə bilərdi. Ona görə də Rusiya ordusunun baş sərdarı İ.V.Qudoviç general-mayor Nebolsini ətraflı məlumatlandırmışdı. İ.V.Qudoviç Nebolsinə çox tələsik Naxçıvana getməyi təkidlə tələb edirdi. Ona ciddi tapşırıq vermişdi ki, naxçıvanlıların iranlılar tərəfindən Naxçıvandan Arazın o tayına köçürülməsinə imkan verməsin [2, s. 80].

Naxçıvan yürüşündən əvvəl qraf Qudoviçin general-mayor Nebolsinə verdiyi təlimatda bu məsələyə xüsusi diqqət verilirdi. Şeyxəli bəy 1808-ci ildə general-mayor P.F.Nebolsinin dəstəsində Naxçıvan yürüşündə iştirak edib. Bu yürüşdə Rusiyanın 78 zabiti, 3052 əsgəri və 9 topu vardı. Qarabağdan Naxçıvana gedən Rusiya qoşunlarına bələdçiliyi Şeyxəli bəy Kəngərli edirdi. Rusların Naxçıvan tərəfə yürüşündən xəbər tutan Abbas Mirzə Naxçıvana 1000 piyada sərbazı göndərmişdi. Naxçıvana tərəf sürətlə yürüş edən rus qoşunlarına qarşı döyüşmək üçün Abbas Mirzə öz ətrafındakı 4000 döyüşçü ilə Naxçıvana gəldi [12, s. 43].

Rusiya qoşunları Qarababa kəndində olanda, Abbas Mirzə başda olmaqla İran qoşunu

hücuma keçdi. Arxiv sənədlərində yazılıb ki, Şeyxəli bəy içdiyi anda sədaqətli qalıb persiyalılarla (iranlılarla) igidliklə döyüşürdü. Rusiyanın əfsanəvi döyüşçüsü polkovnik Kotlyarevski də qələbənin Rusiya tərəfində olması üçün əlindən gələni əsirgəmirdi. Qeyd edək ki, Naxçıvan yürüşündə Şeyxəli bəyin atlılarının ardınca Mehdiqulu xanın komandanlığı ilə Qarabağ və Şəki qoşunları gəlirdilər. Şəki xanlığına hakimliyi Cəfərqulu xan Şəkinski (keçmiş Xoyski) etdiyindən o da Şəki qoşunlarını bu yürüşə göndərmişdi. Rusiya ordusunda könüllü gürcü dəstələri də var idi. Rusiya ordusu ilə İran ordusunun Naxçıvan uğrunda Qarababa kəndində olan döyüşü Abbas Mirzənin məğlubiyyəti ilə başa çatdı. Baxmayaraq ki, Abbas Mirzənin qoşunları general-mayor Nebolsinin dəstəsindən sayca 4 dəfə çox idi. Bu döyüşdə İran tərəfində 12 adi top və 60 ədəd qədim top da var idi. Naxçıvan xanlığının hakimi Abbasqulu xan Kəngərli də İran ordusu tabeliyində qoşun rəisi idi [2, s. 81].

Qarababa döyüşündə İran qoşunları əlverişli mövqe tutub birinci olaraq hücuma keçsələr də uğur qazana bilmədilər. Çünki Rusiyanın apardığı döyüşlərdə təcrübə qazanmış və bacarıqlı sərkərdə olan Nebolsin komandan idi. Həm də onun komandanlıq etdiyi qoşun dəstələrinə təcrübəli polkovniklər Lisaneviç, Kotlyarevski və naxçıvanlı Şeyxəli bəy başçılıq edirdilər. Qarababa döyüşündə məğlub olan Abbas Mirzə sürətlə geriyə – Naxçıvana tərəf qoşunlarını çəkdi. Nebolsinin rəhbərliyi altında rus qoşunlarının Naxçıvana tərəf gəldiyini öyrənən şahzadə Naxçıvanda qalmayıb Xoy şəhərinə getdi. Noyabr ayının 1-də Nebolsin Şeyxəli xanın köməkliyi ilə Naxçıvana daxil oldu. Naxçıvanlılar başda naxçıvanlı Şeyxəli bəy öz dəstəsi ilə gəldiyinə görə rus ordusuna müqavimət göstərmədilər [9, s. 508].

Naxçıvan qalası rus qoşunları tərəfindən tutulduqdan sonra general mayor Nebolsin ali baş komandan Qudoviçin adından Naxçıvan ağsaqqallarına, ruhanilərinə və naxçıvanlıların hamısına müraciət etdi: "Siz böyük şöhrətə malik ordunun Naxçıvan vilayətinə gəldiyini bilirsiniz. Rusiya ordusunun qalib silahının gücü ilə Abbas Mirzə Baba xan oğlu (Fətəli xan - müəllif) öz ordusu ilə birlikdə məğlub edilərək böyük itki hesabına Arazın o tayına Xoy yolu ilə qayıtmağa məcbur oldu. Naxçıvan bizim ordumuz tərəfindən tutuldu və Ümumrusiya imperiyasının himayəsinə keçdi. Hörmətli ağsaqqallar, ali ruhanilər və bütün Naxçıvan xalqı! Mən böyük və humanist imperator adından sizi Ümumrusiya imperiyasının yeni sədaqətli adamları kimi qorxmamağa və inandırmağa çalışıram ki, öz yerlərinizə qayıdasınız və qalib rus ordusunun himayəsi altında əmlakımız toxunulmaz qalacaqdır. Mən sizdən tələb edirəm ki, həmişə Ümumrusiya taxt-tacına sədaqətli olasınız, həmişəlik olaraq Naxçıvan vilayətində qalacaqsınız. Sizin verdiyiniz ərzağın, mal-qaranın və digər məhsulların dəyəri ödəniləcəkdir. Əgər siz qayda-qanunu sədaqətlə yerinə yetirsəniz, o halda mən imperator həzrətlərindən hər cür güzəşt etməyi xahiş edəcəyəm" [2, s. 83]. Qudoviçin Naxçıvan əhalisinə müraciətindən sonra yerli əhali Arazın o tayından Naxçıvana qayıtdı. Bu işdə Şeyxəli bəyin Naxçıvanda olması çox müsbət nəticə verdi. Qeyd edək ki, Şeyxəli bəyin bu məsələdə oynadığı böyük rol arxiv sənədlərində ətraflı yazılıb. Şeyxəli bəyin çox cəsur sərkərdə olduğu Rusiya komandanlığının rəsmi sənədlərində qeyd olunub. General-feldmarşal Qudoviç Qarababa döyüşü haqqında raportunda Şeyxəli bəyin igidliyini xüsusilə qeyd edərək yazırdı:"...Şeyxəli bəy general-mayor Nebolsinin bölgəsində Naxçıvana qədər sədaqətli müşayiətçi olmuş, Qarababa kəndi yaxınlığında Abbas Mirzə Baba xan oğlunun qoşunları darmadağın edilərkən iranlılara qarşı cəsarətlə vuruşmuş və sədaqətli olduğunu göstərmişdir" [12, s. 44].

Rusiya imperiyasının Cənubi Qafqazda olan ordusunun ali baş komandanı general-feldmarşal V.İ.Qudoviç 1809-cu il fevral ayının 14-də qraf A.H.Saltıkova yazırdı: "Onun (Şeyxəli bəyin – müəllif) xidməti naminə göstərdiyi sədaqət bir də bundan ibarət idi ki, Naxçıvan

əhalisi arasındakı nüfuzdan istifadə edərək general-mayor Nebolsinin ekspedisiyasını zəruri olan ərzaq və başqa sursatla təmin etmişdir. Bir neçə dəfə İran qoşunları tərəfindən verilmiş həyəcan siqnalına Şeyxəli bəy öz atlılarını cəm edib bizim sərəncamımıza vermişdir. Onun dəstəsi Qarabağa qayıtdıqdan sonra Ümumrusiya dövlətinə hər cür xidmət göstərmiş və sədaqətli olduğunu nümayiş etdirmişdir". Məktubun sonunda V.İ.Qudoviç qrafa yazır ki, "... onun (Şeyxəli bəyin – müəllif) yüksək xidmətlərinə qiymət verərək xahiş edirəm ki, imperator həzrətlərindən mükafat olaraq ona polkovnik rütbəsi verilməsi üçün əlahəzrət imperatordan acizanə xahiş edəsiniz". Məktubu alan qraf A.N.Saltıkov Şeyxəli bəyin hünərini yüksək qiymətləndirir və Rusiya çarı I Aleksandra bu haqda məlumat vermişdi. 1809-cu ilin 5 aprel tarixində naxçıvanlı sərkərdə Şeyxəli bəy imperator I Aleksandrdan məktub almışdı: "Allahın adı ilə... Bizim polkovnik Şeyxəli bəyə! Siz tərəfdən bizim imperator taxt-tacına göstərdiyiniz sədaqət və canfəşanlıq bizim diqqətimizi cəlb etdi. Bu münasibətlə sizin göstərdiyiniz xidmətə görə sizə rus ordusunun polkovniki rütbəsi və dövlət gəliri hesabına gümüş pulla maaş verilir. Güman edirik ki, bizim bu xeyirxahlığımız sizin olacaqdır" [13, s. 890].

I Kalbalı xanın oğlu Şeyxəli bəyin polkovnik rütbəsi alması haqda bir çox mənbələr xəbər verir [13]. Araşdırmalar göstərir ki, Kəngərli süvarilərindən ilkin hərbi rütbə alan Şeyxəli bəy olmuşdur. Bu rütbə ona I Aleksandrın arvadı Yelizavetanın ad günü münasibətilə birbaşa Rusiya çarı tərəfindən verilmişdir [1, s. 38].

Qeyd edək ki, bu təltif 1809-cu ildə olub. Amma Rusiya arxivlərində, Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində Şeyxəli bəyə aid qovluqlarda onun İrana birdəfəlik çıxıb getməsi zamanı hərbi rütbəsi podpolkovnik kimi göstərilib. Aparılan araşdırmalar göstərir ki, Fətəli şah I Kalbalı xanın və onun oğlanlarının Rusiya ilə yaxın əlaqələri olmasını heç vaxt qəbul edə bilməyib, daha doğrusu, barışmaq istəməyib. Buna görə I Kalbalı xanın böyük oğlu Nəzərəli xanı Tehranda girov kimi saxlayırdı. İran şahı Fətəli Qacarı qorxudan əsas səbəb isə I Kalbalı xanın, onun oğlanlarının və onların mənsub olduqları Kəngərli tayfasının süvari dəstəsinin çox mahir və sürətli döyüşçülər olması idi. General Nebolsinin 1808-ci il yürüşü uğursuz qurtardığından qraf Qudoviç Rusiya çarına istefa ərizəsi ilə müraciət edir. Elə bu zaman öz məktublarında Şeyxəli bəyin Rusiya imperiyasına böyük xidmətləri haqqında söhbət açıb. Çünki Rusiya qoşunları həmin ildə Naxçıvandan Qarabağa qayıdanda Şeyxəli bəy də onlarla geri dönməyə məcbur olmuşdu. O, yenidən Qarabağın Darvaza kəndində yaşamalı olmuşdu. Qraf Qudoviç Kalbalı xanın oğlunun çox kasıb yaşadığını qraf Saltıkova bildirmişdi: "O, (Şeyxəli bəy – müəllif) öz adamları ilə Qarabağa gələndə heç nə gətirə bilməyiblər və çətin vəziyyətdə yaşayırlar. Ona görə də onu polkovnik hərbi rütbəsi ilə təltif edib gümüşlə maaşını vermək lazımdır". Aparılan araşdırmalar zamanı məlum oldu ki, həmin illərdə Naxçıvan xanlığına Abbasqulu xan və Kərim xan başçılıq etmişlər. İran şahı Fətəli Mirzə Qacarın tapşırığı ilə 1809-cu ilin aprelində I Kalbalı xanın böyük oğlu Nəzərəli xanı Qarabağa, qardaşı Şeyxəli bəyin yanına göndərirlər. Nəzərəli xanın vasitəsilə Şeyxəli bəyə çatdırdılar ki, əgər İrana gəlməsə atasını öldürəcəklər. Ona görə də, Şeyxəli bəy atasının sağ qalması naminə, Rusiya təbəəliyinə and içsə də, qardaşı Nəzərəli xanla birlikdə mayın 5-də gizlicə Darvaza kəndini tərk edir. Bir neçə gündən sonra qardaşlar artıq Təbrizdə idilər. Bəzi mənbələrə görə, İranda onu tutub həbsxanaya salırlar [2, s. 84].

İranla Rusiya arasında qızğın müharibə gedirdi. Artıq Naxçıvanda Kərim xan taxtda idi. Abbasqulu xanı isə İranda edam etmişdilər. Rusiya ilə müharibədə məğlubiyyətini görən İran hökuməti məcbur olur ki, I Kalbalı xanı həbsdən azad edib Naxçıvana qaytarsın. Şeyxəli bəyin də atası ilə qayıtmasına icazə verilir. Bəzi sənədlərdə Şeyxəli bəyin İran ordusunda qalıb

sərhəng (polkovnik) rütbəsində xidmət etməsi haqda məlumat da var. Kərim xan Mehri döyüşlərində çətin vəziyyətə düşdüyündən, Abbas Mirzə I Kalbalı xana müraciət edir ki, o köməyini əsirgəməsin. General Nebolsinin qoşunlarının Mehridə olan polkovnik Kotlyarevskinin qarnizonuna köməyə gəlməsinə imkan verməsin. I Kalbalı xan Abbas Mirzənin bu əmrini çox uğurla yerinə yetirdiyindən, onun böyük oğlu Nəzərəli xanı Abbas Mirzə Naxçıvan xanlığına hakim təyin edir. Kərim xanı isə Tehrana göndərir. Nəzərəli xan 1810-cu ilin ortalarından 1813-cü ilədək Naxçıvan xanlığına başçılıq edib. Cəsur sərkərdə Şeyxəli bəylə bağlı məsələlərdən biri onun Aslandüz qalası yaxınlığındakı döyüşlərlə bağlıdır. Arxiv sənədlərindən məlumdur ki, 1812-ci ilin 19-20 oktyabrında Aslandüz qalasının yaxınlığında rus və İran qoşunları arasında qızğın döyüşlər gedib. Bu döyüşlərdə general P.S.Kotlyarevski Abbas Mirzəyə qalib gəlir. Artıq I Rusiya-İran müharibəsinin sonları idi. Mənbələrdə yazılan məlumatlara görə, P.S.Kotlyarevski sübh çağı Araz çayına tərəf irəliləyir. Onun dəstəsində 1500 piyada əsgər, 500 kazak döyüşçü, 6 top var idi. O, öz dəstəsi ilə 70 verst getdikdən sonra qəfildən hücuma keçir. Abbas Mirzənin 36 topu olsa da, onun qoşunu geri çəkilib qalada özlərinə sığınacaq tapırlar. Amma oktyabrın 20-də gecə rus qoşunları Aslandüz qalasını da tuturlar. 1200-dən çox İran sərbazı öldürülmüş və yaralanmışdı. 537 nəfər döyüşçü və 14 nəfər hərbi rəis isə Rusiya ordusuna əsir düşür. Hərbi qənimətlər içərisində döyüş bayraqları, İngiltərə kralının Fətəli şaha hədiyyə etdiyi tökmə toplar – 36 falkonet (üzərində yazılmışdı "Krallardan üstün kraldan şahlardan üstün şaha hədiyyə") və s. Abbas Mirzənin piyada qoşunlarına başçılıq edən ingilis zabiti Kristi də öldürülənlər arasında idi [11, s. 86-87]. Həmin əsirlərdən biri də sərhəng Şeyxəli bəy idi. Əsirlər Tiflisə aparılır. Burada indiyədək öz dəqiq həllini tapmayan bir məsələ də var. Polkovnik Şeyxəli xan Tehranda qalıb İran ordusunun tərkibində vuruşurdu, ya Abbas Mirzəyə köməyə gələn Naxçıvan xanlığının qoşunlarının başçısı idi? Çünki Qafqaz Hərbi Muzeyinin sənədlərində qeyd olunub ki, Aslandüz döyüşlərində Rusiya tərəfi 2 ştandartı (hərbi döyüş bayrağını) qənimət kimi götürüb. Həmin sənəddə qeyd edilib ki, əsir götürülən bayraqların ikisi də ancaq Abbas Mirzənin özünə məxsusdur [14, s. 45]. Rusiyanın hərb tarixçisi V.A.Potto isə rusların 5 bayrağı qənimət götürdüklərini yazır. Bəzi tədqiqatçılar isə rusların əsir götürdükləri bayrağın birinin Naxçıvan xanlığına aid olduğunu yazsalar da, hələ ki axtarışlar bunu sənədlərlə təsdiqləmir. Ona görə də Aslandüz döyüşünün ciddi tədqiqata ehtiyacı vardır. Şeyxəli bəyi Tiflisdə Rusiya qoşunlarının baş komandanı general N.F.Rtişev əsirlikdən azad edir və İrana yola salır. General Rtişev özü bu haqda Peterburqa məlumat verir ki, Naxçıvanın keçmiş xanı kor Kalbalı xanın əsir düşən İran polkovniki Şeyxəli bəyi mənə təmiz qəlblə söz verdiyindən əsirlikdən azad etdim. O, söz verdi ki, onun mənsub olduğu nəsil və onun özü İranda özlərini təhlükəsiz hiss edə bilməzlər. Söz verdi ki, öz ailəsini və tabeliyində olan insanları götürüb, Qarabağa gedəcək və orada yaşayacaq, həmişəlik Rusiyanın təbəəsi olacaqdır" [10, s. 694-695].

1813-cü ilin 1 yanvarında general Kotlyarevski hücum edib Lənkəran qalasını tutdu və həmin ilin 12 oktyabrında Rusiya ilə İran arasında Qarabağda, Zeyvə çayının sahilindəki Gülüstan kəndində "Əbədi sülh və dostluq" müqaviləsini – Gülüstan sülh müqaviləsi bağlandı. Qacarlar Azərbaycanının böyük bir ərazisini, Naxçıvan və İrəvan xanlıqlarından başqa. Rusiya imperiyasına verdilər [11, s. 123-124]. Naxçıvan və İrəvan isə yadellilərə qarşı mərdliklə döyüşürdülər. Onlar istəyirdilər ki, tarixi müstəqillikləri qorunsun və super gücə malik olan Rusiya ilə dostluq münasibətləri saxlanılsın. Aparılan uğursuz diplomatik danışıqlar, 1826-1828-ci illərdə ikinci rus-iran müharibəsinin başlanmasına səbəb oldu. Aparılan araşdırmalar göstərir ki, Ehsan xan və qardaşları, xüsusilə Şeyxəli bəy qraf Paskeviçlə razılaşaraq ona kö-

mək edirlər. İranla Rusiya arasındakı gərgin diplomatik danışıqlardan sonra Türkmənçay müqaviləsi bağlanır [10]. Amma Rusiya sarı Naxçıvanskilərə Paskeviç vasitəsilə verdiyi vədi yerinə yetirmir. Rusiya çarı 11 mart 1828-ci il manifestindən sonra İrəvan və Azərbaycan xanlıqlarının ərazisində qondarma "Erməni vilayəti" yaradır. Ehsan xan Naxçıvan xanlığına naib, qardaşı Şeyxəli bəy isə Ordubad şəhərinə naib təyin edilir [12, s. 64].

Rusiya hökuməti onların hər ikisinə köməkçi olaraq ruslardan köməkçilər təyin edir. Bunlar bir növ xanlığı və Ordubad dairəsini idarə etmək üçün təyin edilmişdilər. Yəni iki hakimiyyətlilik yaranmışdı. Bu isə xanları razı salmırdı. Kəngərli süvariləri 1828-ci ildən sonra Rusiyanın apardığı bütün döyüşlərdə iştirak etmişlər. Sonralar Ordubadın Nürgüt kəndində rus qoşunları ilə vuruşan qaçaqlara görə Şeyxəli bəyi günahlandırırlar. Hətta iş o yerə çatır ki, onu Sibirə sürgünə göndərmək planı da hazırlanır. Amma bir rus kazak əsgər dostu bu haqda Şeyxəli bəyə xəbər verir və o, Şərur mahalının Baş Noraşendən (Cəlilkənddən) Arazın o tayına keçir və bir daha Naxçıvana qayıtmır [11]. Sonralar qardaşı Ehsan xan Rusiya çarına məktublar yazaraq xahiş edir ki, Şeyxəli bəyin əvvəlki xidmətləri nəzərə alınsın və onun Naxçıvana qayıtmasına icazə versin. Çox təəssüf ki, Ehsan xan buna nail ola bilmir. Çünki rus xəfiyyələri mərkəzə xəbər verirdilər ki, Şeyxəli bəy gizli olaraq Abbas Mirzə ilə yazışır və s. Şeyxəli bəylə bağlı (bu məsələ ilə əlaqədar) arxiv sənədlərindən məlum olur ki, 1839-cu ildə Naxçıvanı tərk edib. Onun ailəsi və övladları Naxçıvanda qalırlar. Şeyxəli bəyin Naxçıvandakı və Ordubaddakı əmlakını, malikanələrini həbs edirlər. Torpaqlarını isə dövlət xəzinəsinə verirlər [7].

Şeyxəli bəy 1827-ci ildə mayor, 1837-ci ildə isə podpolkovnik hərbi rütbələrini almışdır. Şeyxəli bəy Naxçıvanda və Ordubadda böyük nüfuz sahibi olub. Xalq I Kalbalı xanın oğlu Şeyxəli bəyin işindən, yeritdiyi ədalətli siyasətdən çox razı idi. Şeyxəli bəy xanlıq titulu almasa da hamı ona ehtiramla Şeyxəli xan deyə müraciət edirdi. Aparılan axtarışlar göstərir ki, XIX əsrin görkəmli hərbçilərindən biri Şeyxəli bəy Rusiya ordusunun polkovniki olmuşdur.

ƏDƏBİYYAT

1. Bağırov İ. Kəngərlilər və Naxçıvan xanlığı. Azərbaycan tarixində Naxçıvan: Tarixi oçerklər. Bakı, 1996, 141 s.
2. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı: Azərnəşr, 1996, 106 s.
3. Gürcüstan Milli Arxivi: f. 2, siy. 1, sənəd 3833, 48 v.
4. Gürcüstan Milli Arxivi: f. 11, siy. 1, sənəd 11, 142 v.
5. Gürcüstan Milli Arxivi: f. 11, siy. 1, sənəd 3477, 89 v.
6. Gürcüstan Milli Arxivi: f. 16, siy. 1, sənəd 6117, 69 v.
7. Gürcüstan Milli Arxivi: f. 2, siy. 1, sənəd 6019, 16 v.
8. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA): F. 314, siy. 6, iş 11.
9. АКАК (Акты, собранные Кавказской Археографической Комиссией): в 12-и томах. Т. III, Тифлис: Типография Глав. Управления Наместника Кавказа, 1869, 760 с.
10. АКАК. Т. V, Тифлис,1874, 1170 с.
11. Ибрагимбейли Х.М. Россия и Азербайджан первой трети века (Из военно-политической истории). Москва, 1969, 151 s.
12. Нагдалиев Ф.Ф. Ханы Нахичеванские в Российской империи. Москва: Новый Аргумент, 2006, 432 с.

13. Шопен И. Исторический памятник состояния армянской области в эпоху присоединения к Российской империи. СПб., 1852, 1231 с.
14. Указатель по Кавказскому военно-историческому музею. Тифлис, 1907, 304 s.

AMEA Naxçıvan Bölməsi
E-mail: ***kuliyevm@yandex.ru***

Musa Guliyev

BRAVE COMMANDER – SHEYKHALI BEY NAKHCHIVANSKI-KANGARLI

The paper deals with the life and military activity of Sheykhali bey, the son of Nakhchivan khan I Kalbali khan, his family's escape from the oppression of the Shah of Iran, and his acceptance of Russian citizenship in Karabakh. Mentioned in detail about his arrival in Nakhchivan in 1808 with the detachment of General P.F.Nebolsin, he escapes to Iran in 1809 to rescue his father from Iranian prisons. Also noted that Sheikhali Bey's participation in the Battle of Aslanduz on 19-20 October of 1812 as a sergeant (colonel) of the Iranian army, and then he was captured by the Russian army, and later he accepted Russian citizenship. He participated in the Russo-Iranian war in 1826-1828, and fled to Iran once and for all in 1839. The paper is based on archival documents and printed monographs.

Keywords: *Karabakh, Garababa, Darvaza village, battle of Aslanduz, count Gudovich, Nakhchivan fortress.*

Муса Кулиев

ОТВАЖНЫЙ ПОЛКОВОДЕЦ – ШЕЙХАЛИ БЕК НАХЧЫВАНСКИЙ-КЕНГЕРЛИ

В статье рассказывается о жизни и военной деятельности отважного полководца, сына Калбалы хана I Кенгерлинского Шейхали бека.Также рассказывается о принятии им подданства России после бегства с семьей от угнетений персидского шаха в Карабах, о выступлении в Нахчыван в составе отряда П.Ф.Небольсина в 1808 году. Сообщается об участии Шейхали бека как персидского полковника в 1812 году 19-20 октября в сражении при Асландузе, об участии в русско-персидской войне 1826-1828 годов и о том, как он в последний раз бежал в Персию в 1839 году. Статья подготовлена на основе новых архивных материалов и изданных монографий.

Ключевые слова: *Карабах, Гарабаба, деревня Дарваза, Асландузское сражение, граф Гудович, крепость Нахчыван.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 24.06.2021
Son variant 06.07.2021

UOT 94(479.24)

İLHAMİ ƏLİYEV

SƏFƏVİLƏR DÖVRÜNDƏ NAXÇIVAN BÖLGƏSİNİN İNZİBATİ ƏRAZİ BÖLGÜSÜ VƏ SƏRHƏDLƏRİ

Məqalədə XVI-XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin tərkibində Naxçıvan bölgəsinin tarixi coğrafiyasından – inzibati ərazi bölgüsü və sərhədlərindən bəhs olunur. Qeyd edilir ki, bu zaman Naxçıvan bölgəsi Səfəvilər dövlətinin bölündüyü bəylərbəyiliklərdən əvvəlcə Azərbaycan, XVII əsrin əvvəllərindən isə Çuxursəd bəylərbəyiliyinin tərkibində ölkə inzibati ərazi vahidi statusu daşımışdır. Məqalədə həmçinin, Naxçıvan ölkəsinin bölündüyü nahiyələr və onun qonşu olduğu müəyyən Azərbaycan bölgələri araşdırılmışdır. Aparılan araşdırmalardan məlum olmuşdur ki, bəhs edilən dövrdə bölgə ərazisinin müəyyən hissəsi olmuş Dərələyəz və Sisyan kimi böyük, tarixi Azərbaycan torpaqları XX əsrin 20-ci illərində bolşevik Rusiyasının dəstəyi ilə ermənilər tərəfindən işğal olunmuşdur.

Açar sözlər: *Səfəvilər, Naxçıvan bölgəsi, inzibati bölgü, tarixi coğrafiya, ölkə, nahiyə.*

XVI əsrin başlanğıcında yaranan Səfəvilər dövləti mövcud olduğu dövrdə çox geniş ərazilərə sahib olmuşdur. 13 bəylərbəyiliyə – şimal-qərbdə Azərbaycan, Çuxursəd, Gəncə-Qarabağ və Şirvan, şimalda Astarabad, şərqdə Məşhəd, Mərv, Herat, Qəndəhar, cənubda Kirman, Küh-Gilüyə, mərkəzdə Qəzvin və Həmədan bəylərbəyilikləri və 4 valiliyə (Ərəbistan, Gürcüstan, Luristan və Kürdüstan) bölünmüş [15, s. 163; 1, s. 101] bu dövlətin şimal-qərb hissəsini Azərbaycan torpaqları əhatə etmişdir. Mərkəzi Təbriz şəhəri olduğu üçün Təbriz bəylərbəyiliyi də adlandırılan Azərbaycan bəylərbəyiliyinin əksər hissəsini Cənubi Azərbaycan torpaqları, az bir qismini isə Şimali Azərbaycanın cənub bölgələri əhatə etmişdir. Çuxursəd, Gəncə-Qarabağ və Şirvan bəylərbəyilikləri isə Arazdan şimaldakı tarixi Azərbaycan torpaqlarında mövcud olmuşdur.

Bu zaman bəylərbəyiliklər hər biri ayrı-ayrı vilayət, ölkə, mahal və nahiyələrdən ibarət idi. Naxçıvan ölkə inzibati ərazi vahidi statusunu daşımışdır. Səfəvilər dövründə "ölkə" (türkcə "ulka") ümumi termin kimi müxtəlif əsaslarla bağışlanmış ərazini ifadə edirdi. Bu zaman şahın hədiyyə etdiyi irsi ölkələrdən biri də Naxçıvan olmuşdur [13, s. 102-103]. Bəhs edilən dövrdə İrəvan, Şurəgəl və Qapanat da eyni statusu daşımışdır [16]. Səfəvilər dövrünə aid bəzi mənbələrdə [15, s. 101] və tarixi sənədlərdə [11, s. 177-180; 12, s. 323, 327, 337] bölgə ərazisi "Naxçıvan tüməni" kimi verilmişdir. Lakin bu dövrdə Naxçıvan üçün tümən inzibati bölgünü deyil, sadəcə əvvəlki yüzilliklərdəki adı ifadə etmişdir.

Naxçıvan ölkəsi XVI-XVII əsrin əvvəllərinədək olan dövrdə Təbriz (Azərbaycan) bəylərbəyiliyinin, XVII əsrin birinci yarısından isə Çuxursəd bəylərbəyiliyinin tərkibində idarə olunmuşdur. Sovet dövrü tarixşünaslığında bölgənin XVII əsrin ikinci yarısından Çuxursəd bəylərbəyiliyinin tabeliyinə verildiyi yazılsa da [13, s. 117; 4, s. 113], lakin bu yerdəyişmə hələ həmin əsrin birinci yarısında baş vermişdi. Belə ki, I Şah Abbasın ölümündən sonra hakimiyyətə gələn I Şah Səfi (1629-1642) tərəfindən Çuxursəd bəylərbəyiliyin inzibati ərazi quruluşuna dəyişiklik edilmişdir. O, 1629-1634-cü illər arasında bir sıra vilayətlərin sərhədlərinə etdiyi dəyişiklik zamanı Naxçıvan və Makunu Çuxursəd bəylərbəyiliyinin tərkibinə keçirmiş, Pəmbək və Borçalını isə onun tərkibindən çıxararaq Qarabağ bəylərbəyiliyinin tərkibinə daxil etmişdir [3, s. 42]. Lakin bu tarixdən əvvəl də Naxçıvan müəyyən müddətə Çuxursəd

bəylərbəyiliyinin tabeliyində olmuşdu. Belə ki, XVI əsrin sonu XVII əsrin başlanğıcında burada mövcud olmuş Osmanlı idarəçiliyi zamanı da bölgə İrəvan əyalətinə tabe idi ki, bu da elə Çuxursəd bəylərbəyiliyi sayılırdı. Türk tarixçisi İ.Peçevi də 1605-ci il siyasi hadisələrində Naxçıvandan bəhs edərkən onun İrəvan əyalətinə daxil olduğunu göstərmişdir [14, s. 79].

Qeyd edildiyi kimi, qədim Naxçıvan diyarı Səfəvilər dövlətinin tərkibində olduğu zaman ölkə inzibati ərazi vahidi statusunu daşımış, geniş sərhədləri daxilində ayrı-ayrı nahiyələrə bölünmüşdür. Həmin nahiyələr bir çox tarixi Azərbaycan torpaqlarını əhatə etmişdir. Bunu bir sıra arxiv sənədləri və orta əsr mənbələri sübut edir [2, s. 164-183; 6, s. 24-36; 7, s. 24]. Belə mənbələri dərindən və ətraflı şəkildə araşdırdıqda məlum olur ki, Naxçıvan ölkəsi Səfəvilər dövlətinin tərkibində olduğu zaman şərqdə Ordubad nahiyəsi, qərbdə Şərur nahiyəsi, şimalda Dərələyəz, Zar, Zəbil nahiyələri, şimal-şərqdə Sisyan nahiyəsi, cənubda və cənub qərbdə Araz çayı, müəyyən vaxtlarda isə Arazın sağ sahilindəki torpaqların bir qismini özündə birləşdirən Qışlağat nahiyəsi daxil olmaqla böyük tarixi bir əraziyə malik olmuşdur. Bəzi Səfəvi hökmdarları və Osmanlı hakim dairələri tərəfindən bölgənin tutulması zamanı (1588-1603; 1724-1736-cı illər) dövlətin inzibati ərazi bölgüsünə edilən müəyyən dəyişikliklər Naxçıvan ölkəsinin sərhədlərinə də təsir etmişdir. Belə ki, Şərur, Dərələyəz, Zar, Zəbil və Qışlağat kimi nahiyələr bəzi hallarda bölgənin tərkibindən müəyyən müddətə çıxarıldığından və ya daxil edildiyindən onun sərhədləri dəyişməli olmuşdur.

Dövrün ayrı-ayrı Səfəvi hökmdarlarının imzaladığı fərmanlar və əmrlərdən bəhs edən sənədlər Naxçıvan ölkəsinin nahiyələri haqqında ətraflı məlumat verir. E.Seyidbəylinin "Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədləri" əsərində 1717-ci ilə aid 3 saylı, 1693-ci ilə aid 5 saylı, 1700-cü ilə aid 6 saylı sənədlər bəhs edilən illərdə Dərələyəz mahalının Naxçıvan ölkəsinin tərkibində olduğunu sübut edir [7, s. 22-33, 38-44]. Bu sənədlərdə göstərilmiş qeydlər və XVIII əsrin 20-30-cu illərinə aid Osmanlı mənbələrindən biri olan "Naxçıvan sancağının müfəssəl dəftəri" [6] də XVII əsrin sonu XVIII əsrin əvvəllərində Dərələyəzin Naxçıvan ölkəsinə tabe olduğunu birmənalı şəkildə təsdiq edir.

1956, 1959 və 1968-ci illərdə A.D.Papazyanın İrəvanda çapdan çıxmış "Matenadaranın fars dilli sənədləri" adlı tərcümə əsərlərindəki bir sıra sənədlərdə tədqiq edilən dövrdə Naxçıvan ölkəsinin bir neçə nahiyəsi haqqında məlumat verilmişdir. Onun 1956-cı ildə buraxdırdığı məcmuədə 1510-cu ilə aid 11 saylı sənəddə Naxçıvan tüməninin Sisəcan (Sisyan – İ.Ə.), 1544-cü ilə aid 12 saylı sənəddə Azadciran, 1557-ci ilə aid 15 saylı sənəddə və 1562-ci ilə aid 17 saylı sənəddə yenə Sisəcan [11, s. 177, 178, 180, 184], 1959-cu ildə buraxdığı məcmuədə 1604-cü ilə aid 2 saylı sənəddə Dərəşam, 1604-cü ilə aid sənəddə Şorlut, 1621-ci ilə aid 17 saylı sənəddə yenə Azadciran, 1631-ci ilə aid 20 saylı sənəddə yenə Dərəşam [12, s. 310-311, 313, 333, 337] nahiyələrinin Naxçıvan ölkəsinə tabe olduğu göstərilmişdir. Bu sənədlər təsdiq edir ki, XVI-XVII əsrin birinci yarısında bölgə ərazisində Azadciran, Şorlut, Dərəşam və Sisyan nahiyələri olmuşdur.

Bölgənin şimal-qərb hissəsində yerləşən nahiyələrdən biri də Qarabağlar idi. Bu haqda XVII əsr türk səyyahı E.Çələbi də məlumat vermişdir [8, s. 565]. "Naxçıvan Qarabağı"ndan F.Kırzıoğlu da 1514-cü il siyasi hadisələrində bəhs etmişdir [9, s. 108]. Yəni qeyd edilən nahiyələrin sırasına Qarabağlar da daxil idi.

Səfəvilər dövründə Naxçıvan ölkəsinin tarixi coğrafiyası ilə bağlı obyektiv və dəyərli məlumat verən mənbələrdən biri Osmanlı mənbələridir. Bunlar "İrəvan əyalətinin icmal dəftəri" [2] və "Naxçıvan sancağının müfəssəl dəftəri" [6] adlı Osmanlı hakim dairələri tərəfindən tərtib edilmiş dövlət sənədləridir. Həmin sənədlərdə XVI əsrin sonu-XVII əsrin başlanğıcı və

XVIII əsrin 20-30-cu illərində Naxçıvan sancağının iqtisadi həyatı ilə yanaşı bölgənin o zamankı sərhədləri və inzibati ərazi bölgüsü haqqında da geniş bəhs edilmişdir.

"İrəvan əyalətinin icmal dəftəri"nə əsasən XVI əsrin sonunda mövcud olmuş İrəvan əyalətinə tabe olan Naxçıvan sancağı Naxçıvan, Məvaziyi-Xatun, Mülki-Arslan, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı, Şərur, Zar, Zəbil, Əlincə, Sisyan, Azadciran, Ordubad, Şorlut və Dərənürgüt adlı 16 nahiyə və 2 qəzanı (Naxçıvan və Ordubad) özündə birləşdirmişdir [2, s. 159-183]. 1590-1595-ci illər arasında hazırlanmış "İrəvan əyalətinin icmal dəftəri"nə əsasən XVI əsrin sonu XVII əsrin başlanğıcında Naxçıvan sancağında 2 şəhər, 281 kənd, 27 məzrə, 3 dizə, 28 yaylaq, 4 qışlaq olmuşdur. Bu isə ümumilikdə 345 yaşayış məntəqəsi edir.

XVIII yüzilliyin əvvəllərində Naxçıvan bölgəsi ərazisinin çox hissəsi Çuxursəd bəylərbəyiliyinin tərkibində olmuşdur. Yalnız Ordubad Azərbaycan (Təbriz) bəylərbəyiliyinə tabe idi [5, s. 38]. 1724-cü ildə digər Azərbaycan torpaqları kimi Naxçıvan bölgəsi də osmanlılar tərəfindən tutulduqdan sonra yeni yaradılan Naxçıvan sancağı inzibati-ərazi bölgüsü ilə 1736-ci ilədək idarə olundu. Başqa sözlə desək, osmanlılar Naxçıvan sancağının inzibati ərazi bölgüsünü yenidən bərpa etdilər. Bu zaman tərtib edilən "Naxçıvan sancağının müfəssəl dəftəri" 1727-ci ildə qüvvəyə minmişdir [6, s. 24]. Lakin XVI əsrin sonunda hazırlanmış "İrəvan əyalətinin icmal dəftəri"ndəkindən fərqli olaraq burada inzibati sərhədlər və onların daxilindəki nahiyələr müəyyən qədər dəyişdirilmişdir. Həmin vaxt Naxçıvan sancağı aşağıda adı çəkilən 14 nahiyədən ibarət olmuşdur: Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi-Xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Sisyan və Dərələyəz [6, s. 24-36]. Buradan görünür ki, tətbiq olunan yeni inzibati-ərazi bölgüsünə görə əvvəlki 16 nahiyənin yerində 14-ü saxlanılmışdır. Ordubad və Bazarçayı nahiyələri ləğv edilmiş, Sair Məvazi və Qışlağat adlı yeni nahiyələr yaradılaraq, sancaq təsis edilməmişdən əvvəl də Naxçıvan ölkəsinin tərkibində olan Dərələyəz nahiyəsi ilə birlikdə bu inzibati ərazi bölgüsünə daxil edilmişdir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, osmanlılar 1724-1726-cı illər ərəfəsində Naxçıvan sancağı ilə yanaşı bu bölgədə Ordubad sancağını da təşkil etmiş, lakin dəftər qüvvəyə minən vaxt onun saxlanılmasını lazım bilməmişlər [6, s. 11]. 97 kəndi və 9 məzrəəni özündə birləşdirən Dərələyəz nahiyəsi bu zaman Naxçıvan sancağının ən iri inzibati ərazi bölgüsü olmuşdur.

"Naxçıvan sancağının müfəssəl dəftəri" əsəri üzrə aparılan hesablamaların nəticəsindən məlum olmuşdur ki, 1727-ci ildən qüvvəyə minən bu sənəd üzrə sancaq ərazisində 331 şəhər, qəsəbə, kənd və s. yaşayış yeri qeydə alınmışdır [6, s. 37-360]. "İrəvan əyalətinin icmal dəftəri"nə əsasən XVI əsrin sonu XVII əsrin başlanğıcında Naxçıvan sancağında yaşayış yerlərinin ümumi sayı (345) XVIII əsrin 20-30-cu illərindəkindən (331) çox olmuşdur.

Bu dövrdə Naxçıvan ölkəsi müəyyən Azərbaycan bölgələri ilə qonşu olmuşdur. O, şərq tərəfdən Bərgüşad, şimal-şərqdən Qafan, qərbdən Aralıq və Maku, şimal-qərbdən Vedi, şimaldan Vedi, Göyçə və Məzrəə, cənubdan Zunuz, cənub-qərbdən Maku kimi ölkə, mahal və ya nahiyələrlə əhatə olunmuşdu. Göyçə və Məzrəə Zar-Zəbilin şimalında, Qafan Ordubadın şimalında Bərgüşad isə şimal şərqində, Zunuz Dərəşamın cənubunda, Maku Şərurun cənub-qərbində yerləşmiş, yəni adları çəkilən coğrafi ərazilər Naxçıvan ölkəsinin göstərilən istiqamətlərdə sərhəddəki qonşuları olmuşlar.

Beləliklə, Səfəvilər dövründə Naxçıvan ölkəsinin tarixi coğrafiyasını araşdırdıqda məlum olur ki, o zaman Naxçıvan bölgəsi bugünkü ərazisi ilə yanaşı Dərələyəz və Sisyan kimi böyük, tarixi Azərbaycan torpaqlarını da əhatə etmişdir. Həmçinin buradan bu gün Naxçıvan MR-ın hansı ərazilərinin ermənilər tərəfindən işğal edildiyinin aydın şahidi oluruq. Bu dövrə

aid bir çox mənbə və tarixi arxiv sənədlərinin təsdiq etdiyi kimi, indiki Ermənistan Respublikasının Ararat rayonunun cənub-şərq hissəsi, Yexeqnadzor rayonu bütünlüklə, Cermuk rayonunun yarısı, Sisyan rayonunun böyük bir hissəsi və Mehri daxil olmaqla rayonun bir neçə yaşayış məntəqəsi Səfəvilər dövründə Naxçıvan ölkəsinə daxil olmuşdur [5, s. 40; 6, s. 11]. Bunu erməni alimi A.D.Papazyan hələ 1972-ci ildə çap etdirdiyi əsərində təsdiq etmişdir. Onun gəldiyi nəticə hər şeyə bir daha aydınlıq gətirir: "Naxçıvanın "Naxçıvan tüməni" adlanması Səfəvilər dövründə də davam edirdi və o özündə Naxçıvan, Şahbuz, Əlincə, Azadciran, Dərələyəz, Sisyan nahiyələrini birləşdirirdi" [10, s. 50]. Bütün bunlar onu göstərir ki, indiki Ermənistan Respublikası Azərbaycanın tarixi torpaqları o, cümlədən də vaxtilə Naxçıvanın inzibati-ərazi bölgüsünə daxil olan müəyyən nahiyələr hesabına yaradılmışdır.

ƏDƏBİYYAT

1. Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi. Bakı: ADPU, 2006, 258 s.
2. İrəvan əyalətinin icmal dəftəri / Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Z.Bünyadov və t.e.n. H.Məmmədov. Bakı: Elm, 1996, 184 s.
3. Mahmudov Y.M., Mustafazadə T.T., Məmmədov S.A. və b. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: CBS, 2010, 620 s.
4. Məmmədov R.A. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı: Elm, 1977, 158 s.
5. Mustafazadə T.T. Naxçıvan vilayəti XVIII yüzillikdə / Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı: Elm, 1999, s. 38-62.
6. Naxçıvan sancağının müfəssəl dəftəri / Araşdırma, qeyd və şərhlərin müəllifi t.e.n. H.Məmmədov. Tərcümə edənlər akademik Z.Bünyadov və t.e.n. H.Məmmədov. Bakı: Elm, 2001, 376 s.
7. Seyidbəyli E.M. Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədləri. Bakı: Elm, 2000, 229 s.
8. Evliya Çelebi. Seyahatnamesi / Sadeleştiren, tevsik temel kuran Necati Aktaş, baskıya hazırlayan Mumin Çevik: 10 ciltte. I-II c., İstanbul: Üçdal Neşriyat, 1985, 767 s.
9. Kırzıoğlu F. Osmanlıların Kafkaz ellerini fethi (1451-1590). Ankara: Türk Tarih Kurumu Basımevi, 1993, 550 s.
10. Папазян А.Д. Аграрные отношения в Восточной Армении в XVI-XVII вв. Ереван: Изд-во АН Армянской ССР, 1972, 303 с.
11. Персидские документы Матенадарана. Указы. Выпуск I (XV-XVI вв.) / Составитель А.Д.Папазян. Ереван: Изд-во АН Армянской ССР, 1956, 315 с.
12. Персидские документы Матенадарана. Указы. Выпуск II (1601-1650 гг.) / Составитель А.Д.Папазян. Ереван: Изд-во АН Армянской ССР, 1959, 593 с.
13. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв. Ленинград: Изд-во ЛГУ, 1949, 384 с.
14. Печеви И.Э. История. (Извлечения по истории Азербайджана и сопредельных стран и областей периода 1520-1640 гг.) / Перевод с турецкого языка и примечания акад. АН Азербайджанской ССР З.М.Буниятова. Баку: Элм, 1988, 100 с.
15. Tadhkirat al-Muluk. A manual of Safavid administration (circa 1137/1725), Persian text in facsimile (B.M. Or. 9496) / Translated and explained by V.Minorsky. London: Luzac and Co., 46 Great Russelt street, 1943, 218 p.

16. Сафаров Р. Некоторые вопросы исторической географии Чухурсаада (XV-XVII вв.) http://www.myazerbaijan.org/index.php?p=history/49

AMEA Naxçıvan Bölməsi
E-mail: ***ilhamialiyev@yahoo.com.tr***

Ilhami Aliyev

ADMINISTRATIVE DIVISION AND BORDERS OF THE NAKHCHIVAN REGION DURING THE SAFAVIDS' PERIOD

The paper considers the historical geography of the Nakhchivan region as part of the Safavid state at the beginning of the XVI-XVIII centuries – administrative divisions and borders. At that time, the Nakhchivan region had the status of an administrative-territorial unit of the country, first of Azerbaijan, and then from the beginning of the 17th century as part of the Chukhursad principality after the partition of the Safavid state. The paper also explores the division of Nakhchivan and some neighboring regions of Azerbaijan. Research has shown that extensive historical Azerbaijani lands such as Daralaz and Sisian, which were part of the region historically, were occupied by Armenians in the 1920s with the support of Bolshevik Russia.

Keywords: *Safavids, Nakhchivan region, administrative division, historical geography, country, district.*

Ильхами Алиев

АДМИНИСТРАТИВНОЕ ДЕЛЕНИЕ И ГРАНИЦЫ НАХЧЫВАНСКОЙ ОБЛАСТИ В СЕФЕВИДСКИЙ ПЕРИОД

В статье рассматривается историческая география Нахчыванской области в составе Сефевидского государства в начале XVI-XVIII веков – административное деление и границы. Отмечается, что в то время Нахчыванский район имел статус административно-территориальной единицы страны, сначала Азербайджана, а затем с начала XVII века в составе Чухурсадского княжества после раздела Сефевидского государства. В статье также исследуется деление Нахчывана и некоторых соседних регионов Азербайджана. Исследования показали, что большие исторические азербайджанские земли, такие как Дараляз и Сисиан, которые в то время были частью региона, были оккупированы армянами в 1920-х годах при поддержке большевистской России.

Ключевые слова: *Сефевиды, Нахчыванский край, административное деление, историческая география, страна, район.*

(AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 21.06.2021
Son variant 05.07.2021

UOT 94 (479.24)

YAŞAR RƏHİMOV

1901-1907-Cİ İLLƏRDƏ NAXÇIVANA ERMƏNİ KÖÇÜRÜLMƏLƏRİ, QIRĞIN VƏ TALANLAR

Məqalədə Naxçıvanın 1901-1907-ci illər tarixinə aid müəyyən məsələlər, həmin illərdə mənfur ermənilərin bölgədə törətdikləri qırğın və talanlar, Naxçıvana erməni köçürülmələrinin davam etməsi, köçkünlərin köçürüldükləri yerlərdə istədikləri şəraitlə təmin olunmaları, onlara hərtərəfli diqqət və qayğı göstərilməsi, bu köçürülmələrin nəticələri və b. məsələlər tədqiq edilmişdir. Həmçinin daşnaklar tərəfindən 1905-1907-ci illərdə Naxçıvan şəhərində və bölgənin digər ərazilərində törədilən qarşıdurmalar və qırğınlar, yerli əhaliyə-azərbaycanlılara qarşı törədilən qanlı hadisələr, bu hadisələrdə kazakların ermənilərə yaxından kömək göstərmələri, kilsənin və terrorçu siyasi partiyaların Naxçıvandakı qanlı hadisələrdə iştirakı məsələləri də araşdırılmışdır. Məqalənin sonunda belə bir nəticəyə gəlinmişdir ki, Naxçıvan xülyaları ilə yaşayan erməni millətçilərinin bu arzuları gözlərində qalacaqdır.

Açar sözlər: *Naxçıvan, 1901-1907-ci illər, qırğın, talan, erməni, köçürülmə, kilsə, siyasi partiyalar.*

Naxçıvanın 1901-1907-ci illər tarixindən bəhs edərkən bu dövrdə Naxçıvanda törədilən erməni vəhşiliklərindən, soyqırım və qurbanlardan yan keçmək olmaz. Xüsusilə 1905-1907-ci illərdə Rusiyada gedən inqilabi proseslərdən istifadə edən ermənilər 1905-1907-ci illərdə məqsədyönlü qırğın aktlarını, İrəvan, Ordubad, Naxçıvanda azərilərin yurd-yuvalarından çıxarılmasını həyata keçiriblər. Təəssüf ki, tarixi mənbələrdə o illərin hadisələrini özündə əks etdirən çox az sayda sənəd qorunub saxlanılıb. Ermənilərin Azərbaycanda və Naxçıvan qəzasında yerləşdirilməsi 1905-1907-ci illərin soyqırımına, azərbaycanlıların öz yurdlarından qovulmasına və kəndlərimizin yandırılıb dağıdılmasına doğru atılan ilk siyasi addım idi. Araşdırılan rus mənbələrindən və arxiv sənədlərindən məlum olur ki, 1905-1906-cı illərdə ilk erməni-müsəlman toqquşması Bakıda baş vermişdir. Bakıdan sonra 1905-ci ilin may-iyun aylarında azərbaycanlıların qırğını İrəvan, Naxçıvan, Ordubad, Cəbrayıl və Füzulini əhatə etmişdir. 1905-ci ilin may ayından başlayaraq Naxçıvan qəzasında ermənilərin azərbaycanlılara qarşı qırğınları başladı. 1905-ci ilin may ayında erməni quldur dəstələri Naxçıvanda dinc əhaliyə qarşı qanlı hadisə törətdilər. Ölənlər içərisində çoxlu qadın, qoca və uşaq olmuşdur. Ermənilərin Naxçıvanda törətdikləri qırğınlar Ordubad, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Tivi, Tumbul və onlarla başqa yaşayış yerlərini əhatə etmişdi. Kazakların köməyindən istifadə edən ermənilər 1905-ci il noyabrın 26-da Naxçıvan şəhərindəki müsəlman bazarını tamam qarət etdikdən sonra od vurmuşlar. Yanğın nəticəsində bazarda 85 dükan, 75 anbar və başqa tikililər yanıb məhv olmuşdur [15, v. 78-84]. Rus kazakları ermənilərə kömək məqsədilə göndərilmiş və onlar ermənilərlə birlikdə müsəlmanları qırmışlar.

Rus mənbələrinin təhlilindən və araşdırılan arxiv sənədlərindən məlum olur ki, 1905-1907-ci illərdə Naxçıvan, Şərur-Dərələyəz və Ordubad bölgələrində rus imperiyası və Tiflis daşnak şurasının rəhbərləri başda olmaqla yerli erməni daşnakları tərəfindən ermənilərlə müsəlmanlar arasında dəfələrlə nifaq salaraq böyük qırğınlar törətmişdilər. Təxminən iki ilə qədər davam edən qanlı toqquşmalar nəticəsində Azərbaycanın şəhər və kəndlərinə böyük zərər dəymiş, 300-dən çox müsəlman kəndi dağıdılmış, yandırılmış və əhali qılıncdan keçirilmişdir.

Birinci rus inqilabı illərində Azərbaycanda, o cümlədən Naxçıvanda və onun bölgələrində törədilən qırğınlar çar ordusunun və rəsmi dövlət adamlarının gözləri önündə baş verirdi.

Erməni quldurlar Naxçıvana 1905-ci ilin noyabr ayında qəflətən hücum etməklə, azərilər içərisində vahimə salmağa çalışırdılar. Naxçıvan əhalisi ermənilərin cinayət əməllərindən İrəvan qubernatorunun müavini Baranovskiyə şikayət etsələr də, buna məhəl qoyulmadı. Bu, ermənilərin əl-qol açmasına imkan verdi. Onlar şəhərin müsəlmanlar yaşayan məhəllələrini atəşə tutmuş, dükanlar yandırılaraq qarət edilmiş, adamlar öldürülmüşdür. Döyüşü müşahidə edən polis rəisi Angil qırğına mane olmamışdı. Bir qədər sonra Cəhri kəndində dəhşətli faciə baş verdi. Noyabrın 26-da kazaklarla birləşən erməni caniləri bir neçə ailəni qətlə yetirdikdən sonra kəndi xarabazarlığa çevirdilər. Camaata bir daha aydın oldu ki, ermənilər qızışdıran və qırğına rəvac verən Rusiya hökumətidir. Ermənilər Naxçıvan və Ordubaddan sonra öz məkrli niyyətlərini digər ərazilərdə də həyata keçirməyə başladılar.

Rus mənbələrində erməni qırğınları, talanları barədə olan bir neçə fakta müraciət edək. Rusiya ordusunun baş qərargahının zabiti podpolkovnik Tomilovun 1904-cü ildə yazdığı bir hesabatda deyilir: "...qırğını erməni inqilabçıları təşkil edirdilər. Onlar başıpozuqluq salmaqla öz can qardaşlarının qanı bahasına xristianları üsyana təhrik edir və bu yolla Avropa dövlətlərinin diqqətini erməni məsələsinin həllinə yönəltmək istəyirdilər. Bu yolla muxtariyyət əldə etməyə can atırdılar" [6, s. 292].

Ermənilərin quldurluq hərəkətləri barəsində Rusiya imperiyasının Ərzurumdakı baş konsulu general Mayevskinin fransız və rus dillərində nəşr olunmuş qeydlərində zəngin məlumatlar vardır. O yazırdı: "Ümumiyyətlə, deyə bilərəm ki, mətbuatda heç vaxt keçmiş erməni hərəkatı barəsində az-çox vicdanla yazılmış məlumata rast gəlməmişəm. Bu barədə yazılmış məqalələr adi qeybət və yalanlarla doludur" [4, s. 27]. Rus konsulu qeyd edirdi ki, "ermənilərə kömək və yaxud onların qisasını almaq adı ilə müxtəlif yerlərdən silahlı dəstələr göndərilirdi. Məndə sübutlar, dəlillər var ki, onlar necə soyuqqanlıqla yerli əhalini-müsəlmanları qırmışlar" [4, s. 28].

Cənubi Qafqaz valisi İ.İ.Vorontsov-Daşkov çar Nikolay Romanova yazdığı 10 oktyabr 1912-ci il tarixli məktubunda I Pyotr dövründə təməli qoyulmuş siyasətə bir daha geri dönməyin gərəkliyini xatırladaraq "əvvəlki rus siyasətinə geri dönərək Türkiyə ermənilərinə hamilik etmənin zamanı gəlmişdir" [5, s. 118-120]. 1905-1907-ci illərdə Naxçıvan bölgəsində azərbaycanlı əhali rus məmurlarının hər yerdə himayə etdiyi ermənilərin özbaşınalıqlarına dözə bilmirdi. Bütövlükdə müsəlman türklərin və bölgədəki qeyri-ermənilərin rus hakimiyyətinə qarşı niyyətlərinin kökündə bu amil də dururdu. Bu cəhəti çox incəliklə sezən rus knyazı N.S.Trubetskoy "Qafqaz xalqları" adlı məqaləsində ermənilərin törətdiyi əməllərin çar hakimiyyətinə üzüqaralıq gətirməsini belə qələmə almışdı: "Ermənilərlə həmişə asanlıqla dil tapmaq olar. Ancaq ermənilərə arxalanmaq səhv olardı. İqtisadi cəhətdən güclü olan Zaqafqaziyanın bütün iqtisadi həyatına rəhbərliyi öz əlində cəmləmiş ermənilər eyni zamanda parazit xalqın və qulun bütün xüsusiyyətlərinə malikdirlər və öz qonşularına nifrətədək gedib çıxan ümumi antipatiyadan istifadə edirlər. Özünü onunla həmrəy etmək bu antipatiyanı və nifrəti öz üzərinə götürmək deməkdir" [11, s. 22].

1905-1907-ci illərdə erməni qoşunları eyni zamanda İrəvan, Naxçıvan və Qarabağ bölgələrində ayrı-ayrı erməni silahlı dəstələrinin fəal köməkliyi ilə müsəlman əhalinin qırğınlarını törətdilər.

Mənbələrdə erməni təşkilatlarının istər kilsənin, istər də terrorçu siyasi partiyaların Naxçıvandakı qanlı hadisələrdə iştirakına dair çoxlu tarixi faktlara rast gəlinir. Bəzi hallarda erməni iğtişaşlarında bu təşkilatlar təkbaşına fəaliyyət göstərsələr də, bir çox qanlı cinayətlər onların əlbir fəaliyyəti nəticəsində törədilmişdi. Belə ki, 1905-1907-ci illərdə Azərbaycanda, o cümlədən Naxçıvanda törədilən soyqırımında hnçaqlar daşnaklarla əlbir hərəkət etmişdilər.

Hər iki terrorçu təşkilatın Naxçıvandakı qırğınlarda təşkilatçılıq fəaliyyəti faktlarla isbat edilir. Bir fakt – 1905-ci il may ayının 11-12-də Naxçıvan şəhərində ermənilərin törətdikləri qırğınları əks etdirən "Hnçaq" qəzeti özünün 26 may tarixli sayında yazırdı: "Dünən axşam saat 6-dək biz azərbaycanlılarla atışdıq. Bizə bunun üçün əlavə olaraq 166 müxtəlif tüfənglər paylanıldı, böyük sayda patronlar verildi, biz təmiz vicdanla şəhərimizi (yəni Naxçıvanı) müdafiə etdik, türkləri layiqincə qırdıq. Hnçaqçılar 2, daşnaklar isə 1 bombadan da istifadə etdilər. Çoxlu türk evləri qarət edildi. Bizə silah paylayan adam yenə silah dalınca getdi" [14, s. 39]. XX əsrin ilk illərindən başlayaraq Naxçıvanda həyata keçirilən qırğınlarda erməni terrorçu təşkilatlarının, xüsusən Daşnaksutyunun və Hnçaqın terrorçu fəaliyyəti özünü açıq şəkildə göstərirdi. Bu qurumlar həmin cinayətlərin təşkilatçısı olduğunu gizlətmir və çox hallarda bunu erməni xalqı uğrunda qəhrəmanlıq mübarizəsi hesab edir və indi də belə qələmə verirlər.

XX əsrin əvvəllərində, xüsusilə 1901-1907-ci illərdə baş vermiş mühüm proseslər sübut edir ki, Rusiya üçün yeni ələ keçirilmiş bölgələrdə möhkəmlənmək və bu torpaqları əldə saxlamaq daha çox qüvvə tələb edən mürəkkəb və uzunmüddətli bir vəzifə olmuşdur. Belə bir vəzifənin öhdəsindən gəlmək üçün çarizm ən kəsərli vasitə və yollardan birini – köçürmə siyasətini davam etdirməyə başladı. Naxçıvan bölgəsi Rusiya tərəfindən işğal edildikdən (1828) sonra əraziyə ermənilərin kütləvi şəkildə köçürülməsi prosesi 1901-1907-ci illərdə də davam etmişdir. Rusiyanın işğalçı və müstəmləkəçi siyasətinin həyata keçirilməsində ermənilər başqalarına nisbətən daha gərəkli və lazımlı idilər. Əvvələn, ermənilərin sayı digər şərq xristianlarının bütövlükdə sayından bir neçə dəfə çox idi. İkincisi, onlar Rusiya imperiyasının Qafqaz uğrunda apardığı mübarizəsində əsas rəqibləri olan İran və Osmanlı dövlətlərində də say cəhətdən xeyli üstün idilər. Üçüncüsü, ermənilər gələcəkdə də Rusiya ilə müttəfiq olmaqla ona xeyir verə bilərdilər. Nəhayət, dördüncüsü, ermənilər İran və Türkiyə dövlətlərinin daxili zəif və güclü tərəflərini yaxşı bilirdilər [3, s. 31]. Maraqları və mənafeləri naminə dövlətləri bir-birinə qarşı qoymaq, şərqə irəliləmək, "isti dənizlərə" çıxmaq, Asiyadan Avropaya gedən ticarət yollarını ələ keçirmək, dini münaqişələrdən yararlanaraq, bəzi müsəlman dövlətləri arasına nifaq salmaq əsrlər boyu Rusiyanın xarici siyasətinin əsasını təşkil etmişdir. Belə bir müstəmləkəçi siyasət hələ I Pyotrun Qafqaza səfəri və Azərbaycana yürüşü zamanı daha da reallaşmışdır. I Pyotrdan sonrakı dövrdə də rus çarları imperialist siyasətlərini davam etdirərək ermənilərlə birlikdə Azərbaycana, o cümlədən Naxçıvana yürüşlər təşkil etmişlər. Əvvəlki dövrlərdə olduğu kimi, 1901-1907-ci illərdə də çarizmin Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsində siyasətini artıran amillərdən biri də ermənilərin Rusiyanın hakim dairələri ilə əlbir olması idi. Erməni maarifçilərinin utopik dövlətçilik düşüncələrinin gerçəkləşdirilməsində diplomatik missiyanı kilsə yerinə yetirirdi. Ermənilər arasında millətçiliyin yayılmasında erməni din adamlarının və erməni qriqoryan kilsəsinin xüsusi rol oynadığını qeyd edən rus məmuru V.Mayevski belə yazırdı: "Onların dinlə bağlı fəaliyyəti çox məhduddur. Ancaq bunun əvəzində onlar hər zaman millətçilik ideyalarını himayə etmək uğrunda əllərindən gələni edərək səylə çalışırlar. Ermənilər arasında millətçilik ideyaları yüzillər boyunca bir-birindən uzaq, saysız monastırların himayəsi altında olmuşdur..." [4, s. 8]. Qeyd etmək yerinə düşər ki, milliyyətcə rus olan V.Mayevski Rusiyanın Van və Ərzurumdakı baş konsulu olmuşdur. Nəriman Həsənəliyevin tərcüməsi ilə 1994-cü ildə Bakıda nəşr edilmiş və 35 səhifədən ibarət olan bu kitab erməni yalanlarına və uydurmalarına cavab vermək baxımından çox sanballı bir rus mənbəsidir.

Tanınmış qafqazşünas V.Veliçko da yazırdı ki, bu dövrdə rus ordusunda xidmət edən

rus generalı Loris Melikov ermənilərin kütləvi şəkildə Türkiyədən Qafqaza, o cümlədən Azərbaycana köçürülməsində yaxından iştirak etmişdi [2, s. 200]. Veliçko daha sonra qeyd edirdi ki, ermənilər müsəlmanları çar hakimiyyəti qarşısında etibardan, gözdən salmaq siyasəti yeridirdilər. Onlar yaxşı bilirdilər ki, çar hökumət dairələri etibardan düşmüş müsəlmanlar sürgün edildikdən sonra onların torpaqlarını ələ keçirmək mümkündür. Rus tarixçisi o dövrdə də ermənilərin bu məkrli siyasətinin əsl mahiyyətini açıb göstərərək düzgün nəticə çıxarmış və qeyd etmişdi ki, "on illər boyu bu məqsədi həyata keçirməyə çalışan erməni milyonçuları bütün müsəlman Qafqazını erməni toruna salmışdılar. Onlar hətta ən pis torpaqları belə pul ilə satın alırdılar" [2, s. 113].

Bu dövrdə ermənilərin Naxçıvana köçürmə siyasəti ilə bağlı məlumatlara O.N.Popovanın [7], K.N.Smirnovun [9] əsərində də rast gəlirik. Həmin əsərlərin, kameral təsvir və xülasələrin verdikləri məlumatlara əsasən deyə bilərik ki, köçkünlər köçürüldükləri yerlərdə istədikləri şəraitlə təmin olunur, onlara hərtərəfli diqqət və qayğı göstərilirdi. Çarizmin ermənləri Qafqazda məskunlaşdırmaq sahəsindəki fəaliyyətinin tədqiqatçısı A.Şepotyevin məruzəsində yazılırdı ki, "rus hökuməti ermənləri Cənubi Qafqazda müsəlmanların çoxluq təşkil etdiyi kəndlərdə və vilayətlərdə yerləşməsinə rəvac verirdi" [13, s. 44]. Ermənilərin müsəlmanların sıx yaşadıqları torpaqlarda məskunlaşdırılması fikrini Nikolay Şavrov da təsdiq edir [12, s. 63].

Özgə əraziləri və torpaqlarında yerləşdirilən və tarix boyu xalqımıza qarşı məkrli siyasət yeridən ermənilər "Böyük Ermənistan" yaratmaq yolunda son vaxtlarda öz fəaliyyətlərini daha da artırmışlar. İddia edilən "Böyük Ermənistan" dövlətinin gerçəkləşməsi üçün başlanğıc olaraq Naxçıvan hədəf seçilmişdir. Bunun üçün onlar saxta tarix yaratmış, bu ərazinin erməni torpağı olduğunu, əhalinin milli tərkibində ermənilərin "üstünlük" təşkil etdiyini sübuta yetirməyə çalışmışlar (1, 15 mart 2006). Erməni millətçiləri real həqiqətləri və gerçək vəziyyəti dünya ictimaiyyətinə təhrif olunmuş halda təqdim edərək onları Naxçıvanın erməni ərazisi olmasına inandırmaqdan ötrü dəridən-qabıqdan çıxırlar. Güclü maliyyə qaynaqlarına malik olan diasporla əlbir fəaliyyət göstərən erməni qurumları tarixi fakt və həqiqətləri saxtalaşdırmaqla ərazi iddialarını əsaslandırmağa çalışırlar. Müasir dünyada separatçılığa üstünlük verən ermənilər Naxçıvanın Ermənistana birləşdirilməsi üçün müxtəlif fitnəyə və fəsadlara, saxtakarlığa əl atır, imzalar toplayaraq mitinq və nümayişlər keçirirlər.

Bu gün də Naxçıvan məsələsini öz gündəliklərində saxlayan ermənilər dünya kütləvi vasitələrində həqiqətlərdən uzaq olan qeyri-real və əsassız təbliğat kampaniyasına üstünlük veriblər. Qonşu olmağa məhkum edildiyimiz bədnam ermənilər Naxçıvan həsrətindədirlər. Ermənistanın baş planlarında Naxçıvanın işğalı məsələsi əsas yer tutur. İşğalçı ermənilər sərhədlərin toxunulmazlığı və inteqrasiya proseslərinin dönməz xarakter aldığı bu günlərdə Naxçıvanı Ermənistanla birləşdirməyi bir vəzifə kimi qarşıya qoyub geniş kampaniya başladıblar. Ermənistan 1921-ci ildə Rusiya ilə Türkiyə arasında imzalanmış müqavilələrin ləğv edilməsini tələb edir. İqtisadi, strateji və mədəni cəhətdən böyük əhəmiyyətə malik olan Naxçıvanın mübahisəli əraziyə çevrilməsi böyük dövlətlərin maraqlarına da uyğundur. Lakin bir həqiqət aydındır ki, Naxçıvan xülyaları ilə yaşayan erməni millətçilərinin bu arzuları gözlərində qalacaqdır.

ƏDƏBİYYAT

1. "Azərbaycan" qəz., 2006, 15 mart.

2. Величко В.Л. Кавказ. Русское дело и межплеменные вопросы. Баку: Элм, 1990, 224 с.
3. Вердиева Х., Гусейнзаде Р. «Родословная» армян и их миграция на Кавказ с Балкан. Баку: Элм, 2003, 168 с.
4. Записка генерального консула России в Эрзеруме Маевского. Баку, 1994, 35 с.
5. Из писем Воронцова-Дашкова Николаю Романовичу // История Азербайджана по документам и публикациям. Баку: Элм, 1990, с. 118-120.
6. Отчет о поездке по Азиатской Турции генерального штаба подполковника Томилова в 1904 г. Ч. 1, СПб., 1907, с. 292-294.
7. Попова О.И. Грибоедов-дипломат. Москва, 1964, 132 с.
8. Революционный Восток. 1936, № 2-3.
9. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 156 с.
10. Соколски Н.А. Материалы по изучению Нахичеванской ССР. Тифлис: Зак ГИЗ, 1933, 184 с.
11. Трубецкой Н.С. О народах Кавказа. Москва: Наследие, 2003, № 7.
12. Шавров Н.И. Новая угроза русскому делу в Закавказье. История Азербайджана по документам и публикациям. Баку: Элм, 1990.
13. Шепотьев А. Доклад о спорных Кавказских территориях, на которые имеют права самоопределившиеся Азербайджанские тюрки // Известия Азерб. АН, 1990, № 2.
14. Hacıyev İ. Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasəti // “Naxçıvan” jurnalı, Naxçıvan, 2001, № 5, s. 39.
15. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi: f. 26 m., siy. 1, iş 25.

AMEA Naxçıvan Bölməsi
E-mail: ***yasarrahimov@yahoo.com.tr***

Yashar Rahimov

RESETTLEMENT OF ARMENIANS TO NAKHCHIVAN IN 1901-1907, MASSACRES AND ROBBERIES

The paper discusses some issues related to the history of Nakhchivan in 1901-1907. Problems such as massacres and robberies committed in those years by despicable Armenians in the region, continued resettlement of Armenians to Nakhchivan, providing the settlers with the desired living conditions, comprehensive attention and care, the result of these resettlements, etc. were studied. Furthermore, clashes and massacres committed by the Dashnaks in Nakhchivan and other parts of the region in 1905-1907, the bloody events against the local population - Azerbaijanis, the direct assistance of the Cossacks to the Armenians in these events, the participation of the church and terrorist political parties in the bloody events in Nakhchivan were also investigated. The author concludes that the dreams of Armenian nationalists about Nakhchivan have no chance to come true.

Keywords: *Nakhchivan, 1901-1907, massacre, looting, Armenians, resettlement, church, political parties.*

Яшар Рагимов

ПЕРЕСЕЛЕНИЕ АРМЯН В НАХЧЫВАН В 1901-1907 ГОДАХ, МАССОВЫЕ УБИЙСТВА И ГРАБЕЖИ

В статье рассматриваются некоторые вопросы, связанные с историей Нахчывана в 1901-1907 гг. Изучены такие проблемы, как массовые убийства и грабежи, совершенные в те годы презренными армянами в регионе, продолжение переселения армян в Нахчыван, обеспечение поселенцев желаемыми условиями проживания, комплексные внимание и забота, результат этих переселений и т. д. Также исследованы столкновения и массовые убийства, совершенные дашнаками в Нахчыване и других частях региона в 1905-1907 годах, кровавые события против местного населения – азербайджанцев, непосредственная помощь казаков армянам в этих событиях, участие церкви и террористических политических партий в кровавых событиях в Нахчыване. В заключении статьи сделан вывод, что мечтаниям армянских националистов о Нахчыване не суждено осуществиться.

Ключевые слова: *Нахчыван, 1901-1907 гг., резня, мародерство, армяне, переселение, церковь, политические партии.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 16.06.2021
Son variant 13.07.2021

UOT 32

AYTƏK BABAYEVA

DAVAMLI İNKİŞAF KONSEPSİYASININ FORMALAŞMASININ NƏZƏRİ-TARİXİ ASPEKTLƏRİ

Ümumi inkişaf strategiyası müəyyənləşdirilərkən nəzərə alınmalı olan əsas amil iqtisadi artımla insan inkişafı arasında balanslaşdırılmış əlaqənin qurulması və gücləndirilməsidir. Bu əlaqələrin hər ikisinin səmərəli və effektiv işləməsindən əmin olmaq üçün inkişaf strategiyasını müəyyənləşdirənlərin həmin əlaqələrin necə formalaşmasını və necə işləməsini bilməsi olduqca vacibdir. Ən vacib məsələlərdən biri də iqtisadi artımın insan inkişafına necə təsir etməsidir. Müasir anlamda davamlı inkişaf anlayışı və onunla bağlı nəzəriyyələr XX əsrin sonunda formalaşmışdır. Müxtəlif inkişaf konsepsiyaları arasında ən müasiri və gələcək nəsillərin maraqlarına cavab verəni davamlı inkişaf konsepsiyasıdır. Bu konsepsiyanın formalaşmasında 1987-ci ildə BMT-nin təklifi ilə beynəlxalq ekspert qrupu tərəfindən məruzə şəklində hazırlanmış "Bizim ümumi gələcəyimiz" adlı sənədin xüsusi əhəmiyyəti olmuşdur. Belə bir sənədin hazırlanması zərurəti dünya əhalisinin sayının artması fonunda təbii ehtiyatların, xüsusən bəzi bərpa olunmayan ehtiyatların tükənməsi və ətraf mühitin çirklənməsindən irəli gəlirdi.

Açar sözlər: *davamlı inkişaf, strategiya, konsepsiya, konfrans, ümumi gələcək, Rio Bəyannaməsi, dünya sammiti, Minilliyin İnkişaf Məqsədləri, zirvə toplantısı.*

İnkişaf anlayışının müxtəlif tərifləri məlumdur. Ümumiləşdirilmiş şəkildə qeyd etmək olar ki, inkişaf mahiyyət etibarilə dinamik bir prosesdir və bir vəziyyətdən digərinə keçid kimi də səciyyələndirilə bilər. Çox zaman inkişaf müsbət bir proses kimi dəyərləndirilir. İnkişaf etmiş ölkə və yaxud inkişaf etmiş bir şəxsiyyət anlayışlarının mövcudluğu bunu sübut edir. Lakin, əslində inkişaf prosesi həm müsbət, həm də mənfi istiqamətə yönələ bilər. Bu səbəbdən inkişafın müxtəlif istiqamətləri və formaları mövcuddur [10, s. 1].

İnkişafın mənfi istiqamətə yönəlməsinin bir təzahürü gələcəksiz inkişafdır. Bu anlayış ilk dəfə BMT tərəfindən təklif edilmişdir və inkişaf prosesində müşahidə edilə bilən mənfi tendensiyaları xarakterizə edir. Gələcəksiz inkişafın təbiəti haqda biliklər eyni zamanda bu mənfi prosesin qarşısının alınmasına xidmət edir. Davamlı inkişafdan fərqli olaraq gələcəksiz inkişaf planlaşdırma və idarəetmənin elə bir üsuludur ki, o, əsasən çağdaş nəsillərin maraqlarına xidmət edir, onların tələblərinin təmin edilməsini nəzərdə tutur.

Bu arada gələcəksiz inkişaf gələcək nəsillərin imkanlarını məhdudlaşdırır [9, s. 187]. Belə qüsurlu planlaşdırma və idarəetmə prinsipləri bir çox hallarda nəinki gələcək nəsilləri, hətta çağdaş nəsillərin inkişaf perspektivlərini də nəzərə almır. Məsələn, dəmir, sink, mis, qurğuşun, alüminium kimi müxtəlif minerallarının və enerji resurslarının səmərəsiz istifadəsi, kənd təsərrüfatı ərazilərinin məhsuldarlığın qorunmaması nəticəsində ərazidə səmərəsiz istifadə olunan torpaq sahələrin artması, meşələrin qırılmasının qarşısının alınmaması və s. gələcək inkişafın mümkünlüyünü böyük risk altına qoyur [10, s. 2]. Gələcəksiz inkişaf uşaqlarımız, gələcək nəsillərimiz və canlı aləmə lazım olan su, meşələr, balıqçılıq, əkin sahələri kimi resursları məhv edir. Bundan əlavə, biz bu inkişafı mənəvi və insani dəyərlərin düşməsi, ailə və cəmiyyət həyatının parçalanmasına görə Sanskarhin Vikas (mədəniyyətsiz inkişaf) adlandıra bilərik [2, s. 71].

Bir sıra hallarda iqtisadi inkişafın düzgün planlaşdırılmaması da gələcəksiz inkişafa təkan verə bilər. Belə hadisələrə "texnoloji geriləmə ilə inkişaf" aiddir. Bu zaman hər hansı

bir ölkə və ya region üçün yeni texnologiyalar tətbiq edilir, həmin texnologiyalar bu məkan üçün yenidir, lakin perspektivdə yüksək rəqabət qabiliyyətinə malik deyillər. Texnoloji geriləmə ilə inkişaf yüksək nəticələr əldə etmiş ölkələr və inkişaf etməkdə olan ölkələr arasında fərqlərin aradan qaldırılmasını əngəlləyən amillərdəndir [10, s. 1-3].

İnkişafı bir sıra fərqli prizmalardan araşdırmaq olar [8]. İqtisadi artım prizmasında inkişaf çox vaxt insanlara nisbətdə əmtəə istehsalının ümummilli məhsulda artımının nəzərə çarpan ölçüləridir. Burada ixrac sektorunda az işçi heyəti ilə yüksək texnoloji yeniliklərdən istifadə edərək yüksək nəticələr əldə edilən sistemlə çoxsaylı işçi heyəti və zəif texnologiyalar vasitəsilə aşağı effektivliyi olan ikitərəfli iqtisadiyyatın davamlılığının qeyd edilməsi vacibdir.

Modernləşmə prizmasında inkişaf – iqtisadiyyatın inkişafı üçün tələb olunan sosial dəyişiklik prosesini vurğulayaraq sosial, psixoloji və siyasi proseslərdə dəyişiklikləri nəzərdən keçirir. İnsanlarda rifah yönümlü davranış və dəyərlərin inkişaf etdirilməsi həmçinin, mənfəət axtarmaqdan daha çox yaşamaq və özünə inamın təbliğini, əmtəədən insan kapitalına keçid yanaşmasını, eləcə də təhsil və elmə investisiyanı ehtiva edir.

Ədalətin yayılması prizmasında inkişaf – sosial ədalətdəki əsas ehtiyaclar üzrə dövlətlərin məhsul və xidmətləri təmin etməsi, həmin ictimai məhsul və xidmətlərin müxtəlif sosial siniflərə çıxışı və inkişaf yükünün həmin siniflər arasında bölüşdürülməsi maraqlarının inkişafını nəzərdə tutur.

Marksist prizmasında inkişaf – istehsal yolunun vurğulanması (real və maddi həyatın istehsal və reproduksiyası üçün lazım olan elementlər və fəaliyyətlər) və kapitalist (bazar iqtisadiyyatı) rejimində əmək gücünün işəgötürən tərəfindən yığılmış və mənimsənmiş izafi dəyərə çevrilməsi ilə siniflər arasında qarşıdurma və genişlənən iqtisadi konflikt kimi şərh olunur.

Neokolonial Asılılıq Modeli prizmasında inkişaf Marksist inkişaf konsepsiyasının daha da zənginləşdirilmiş formasıdır. Belə ki, burada qeyri-bərabər beynəlxalq kapitalist sistemində "varlı ölkə-kasıb ölkə" əlaqələrinin tarixi inkişafı səbəbindən aşağı səviyyəli inkişafın mövcudluğu, mərkəzin (inkişaf etmiş ölkələr) ətraflara (inkişaf etməkdə olan ölkələr) nisbətdə daha çox seçim kontrastlılığı, inkişaf etməkdə olan dünyada yüksək gəlirləri, sosial statusları və siyasi hakimiyyətdən istifadə etməyi bacaran bəzi elitaların (məsələn, sahibkarlar, tacirlər) qeyri-bərabərlik yaratması və hakimiyyət əldə etməsi, həmçinin çoxmillətli təşkilatlar formasında beynəlxalq güc qrupları, vasitəçi (məsələn, Dünya Bankı) və digər bu kimi agentliklərin yaradılması fonunda inkişafın yeni formasının yaranması nəzərdən keçirilir [14, s. 58-64].

1940-50-ci illərin Keynsin inkişaf nəzəriyyəsinə görə kapitallaşma prosesi əmanət və investisiya ilə müəyyən edilir. Daxili əmanətlər istehsal kimi məhsuldar investisiyalara çevrilir, nəticədə yüksək məhsuldarlıq qazanır. İnkişaf, gəlir səviyyəsinin yüksəlməsi, alternativ investisiyalar üçün əmanətlərin və sərmayənin artması və kapitalın sərbəstləşməsi ilə özünü göstərən bir bazardır [5, s. 1-5].

Modernləşmə nəzəriyyəsi iqtisadi ölçülərin ayrılıqda əhəmiyyətsiz olduğunu və yalnız institusional və sosial dəyişim nəzəriyyələri ilə (məsələn, sosial təcrübə kimi qeyri-iqtisadi elementlər, inanclar, dəyərlər, adət-ənənələr və s. birləşdiyi nəzəriyyələr) birgə əhəmiyyətə malik olduğunu vurğulayır. Burada müxtəlif mədəni və sosial maneələrin aradan qaldırılmasında yayılma və sürətli dəyişiklik olduqca vacibdir. Təkmilləşən xarici faktorlara nisbətdə geridə qalmış daxili faktorlar tədricən inkişafdan qalmaya gətirib çıxarır [4, s. 96-107].

Neoliberal İnkişaf nəzəriyyəsi 1970-ci illərdə yaranmışdı və Keynsianizmə qarşı çıxırdı. Burada inkişafın iqtisadi tədarükün şəxsi təşəbbüslər və inkişaf etmiş bazar zəminində mövcud olması vurğulanırdı. Bu nəzəriyyədə tələbin stimullaşdırılması (faiz dərəcələrində manipul-

yasiya), idxal əvəzedilməsi, dövlət müdaxiləsi və mərkəzləşmiş planlamadan kənarlaşmağa ehtiyac olduğu bildirilərək, bütün sosial siniflərə fayda verməklə "yavaşca aşağı" üsulu ilə tədricən sənayeləşmə təklif olunurdu [3].

Bununla yanaşı "məşhur inkişaf" nəzəriyyəsi də vardır ki, bu nəzəriyyə "böyük nəzəriyyə"ləri rədd edərək inkişafı tarixi prosesin bir hissəsi kimi vurğulayır [9, s. 187-188]. Qeyd olunur ki, inkişaf konteksti zamanda və məkanda sabit olaraq dəyişir, coğrafi və tarixi müxtəlifliyi əhatə edir, lokal müxtəlifliyi, insan yaradıcılığını, sosial dəyişim proseslərini praqmatizm, dəyişkənlik, situasiyalar və faktorlar baxımından araşdırır. Burada dövlət müdaxiləsinin sıfıra endirilməsi ilə dövlət və özəl sektorun müqayisəli üstünlükləri və tamamlayıcılığı xüsusi vurğulanır. Bu nəzəriyyədə ətraf mühit barədə müxtəlif fikirlər öz əksini tapır.

Ətraf mühitdə qarşısıalınmaz ekoloji fəlakətlərlə əlaqədar yüksək "xərclər"in olması, ətraf mühit problemlərindən bəhs edərkən lokal, sosial və ekoloji problemlərin olduqca həssas həll yolları tələb etməsi, siniflər, cinslər və etnoslararası fərqliliklərdən təsirlənən cəmiyyət və ətraf mühit münasibətlərinin formalaşması, "reproduktiv təzyiq"in kəndliləri daha kövrək təbii mühitlərdə istehsalın aparılmasının gücləndirilməsinə vadar etməsi kimi geniş spektrli fikirlər çoxluq təşkil edir. Burada insanların iştirakının əhəmiyyəti xüsusi vurğulanaraq onların davranışlarının araşdırılmasına "aşağıdan yuxarıya", həmçinin tərsinə olaraq "yuxarıdan aşağıya" yanaşmaları kimi müxtəlif yanaşmalar qeyd olunur ki, bu yanaşmalarla müxtəlif sosial qrup və siniflərarası münasibətlərin "kənd-şəhər", "mərkəz-ətraf" prizmasında qarşılıqlı təsirinin formaları, eləcə də qərar qəbul etmə prosesinin "desentralizasiyası" və hakimiyyətin "mərkəzdən-ətraflara" doğru hərəkəti inkişafın mövcudluğunun ayrılmaz tərkib hissələri kimi müəyyən olunur.

Bundan əlavə, gücün mövcudluğunun strukturu da inkişafa ciddi təsir göstərən amildir. Gücün mərkəzləşməsi ilə qeyri-bərabərlik və diskriminasiyanın artırılması əvəzinə gücün bölüşdürülməsi və insanlarda iştirakçılığı vurğulayan "daha çox insan" mərkəzli yanaşmaların hazırlanmasına ehtiyac vardır. Bu baxımdan gücləndirilmiş iştirakçılığın inkişafı kollektiv effektiv idarəetmənin və qərar qəbuletmənin də inkişafına səbəb olur.

Bütövlükdə, davamlı inkişaf konsepsiyası 1980-ci illərdən başlayaraq öz normativ-hüquqi təsbitini tapmağa başlamışdır. 1983-cü ildə BMT Baş Assambleyası daha sonra Brundtland Komissiyası kimi tanınan Ətraf Mühit və İnkişaf üzrə Dünya Komissiyasını yaratdı. Komissiyanın adı sonradan onun sədri olan, daha sonralar isə Norveçin Baş naziri və Dünya Sağlamlıq Təşkilatının rəhbəri Gro Harlem Brundtlandın şərəfinə adlandırılmışdır. 1987-ci ildə Komissiya "Bizim ortaq gələcəyimiz" adlı Brundtland Hesabatını nəşr etdirdi. Bu hesabat Stokholmda əldə edilənlər əsasında hazırlanmışdı və davamlı inkişafın tərifləri arasında siyasi cəhətdən daha əhəmiyyətli birini qeyd etmişdir: "Davamlı inkişaf gələcək nəsillərin ehtiyaclarını ödəməsinə mane olmadan hazırkı nəsillərin ehtiyaclarını ödəyən inkişaf"dır. Tərif iki əsas anlayışdan ibarətdir: birincisi, "ehtiyaclar" anlayışı, xüsusilə dünya yoxsullarının ehtiyacları prioritetlik təşkil etməlidir, ikincisi isə, mövcud və gələcək ehtiyacları qarşılayan ətraf mühitin üzərinə texnoloji dövlət və sosial təşkilatlar tərəfindən qoyulan məhdudiyyətlərdir.

O dövrdə davamlı inkişaf konsepsiyası siyasi təkan qazandı: "inkişaf etmiş ölkələrdə yeni və həyəcanverici fenomen olan qlobal ətraf mühit dəyişikliklərinin üzərində narahatlığın artması və 1980-ci illərin əvvəllərində baş verən nüvə müharibəsi qorxularını əvəz etdi". Bəzi tənqidçilər sübut edir ki, Brundtland Komissiyası Hesabatında davamlı inkişafın müzakirəsi optimist və qeyri-müəyyəndir.

1984-cü ildə Birləşmiş Millətlər inkişaf etmiş və inkişaf etməkdə olan üzv ölkələrdən 22 nəfərdən ibarət müstəqil qrup yaratdı və onlara beynəlxalq cəmiyyət üçün uzunmüddətli ətraf mühit strategiyasını müəyyənləşdirməyi həvalə etdi. 1987-ci ildə Ətraf Mühit və İnkişafa dair Dünya Konfransı iqtisadi inkişaf və ətraf mühitin stabilliyi məsələlərini əlaqələndirmək məqsədilə "Brutland məruzəsi" kimi də tanınan "Bizim ümumi gələcəyimiz" adlı məruzəsini nəşr etdirdi. Bununla da, bu məruzə davamlı inkişafın tərifini "gələcək nəsillərin ehtiyaclarını ödəməsinə mane olmadan hazırkı nəsillərin ehtiyaclarını ödəyən inkişaf" kimi müəyyənləşdirmişdir [6, s. 41]. Məruzədə davamlı inkişafı beynəlxalq inkişaf anlayışının siyasi meydanına daxil etmək tövsiyə olunurdu.

Sonrakı addım 1992-ci ilin yayında Braziliyanın Rio de Janeyro şəhərində 114 dövlət başçısının toplandığı, 178 ölkədən 10000 nümayəndə və 1400 qeyri hökumət təşkilatının iştirak etdiyi ən böyük tarixi hadisə sayılan BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Konfransıdır (UNCED). Konfrans, öz növbəsində, hökumət başçılarının Rio Dünya Sammiti adlandırdıqlarına müvafiq olaraq misilsiz miqyasda beynəlxalq bir hadisə olduğunu sübut etdi. Sammitin adlandırılmasındakı birləşmə (Rio Earth Summit) Ətraf mühit və İnkişafın əlaqələndirilməsi üzrə BMT-də beynəlxalq tədbirlərin həyata keçirilməsini tələb edən və əlavə inkişaf yardımı ilə texnoloji köçürmə təşəbbüslərini ehtiva edən Şimal-Cənub Sazişinin göstəricisi idi.

Konfransın əsas nəticələri Rio Bəyannaməsi, Gündəm 21 və Davamlı İnkişaf üzrə Komissiyanın sənədlərində öz əksini tapmışdır. Bütün bunlar olduqca açıq şəkildə davamlı inkişafa aid olan Dünya Sammitinin yekun Konsepsiyasının beynəlxalq səhnəyə gəlməsi idi. Dünyadakı liderlərin davamlı inkişafa dair öhdəliyi zirvə toplantısının əsas sənədində – yer üzündə demək olar ki, istənilən sahədə davamlı inkişafa nail olmaq üçün razılaşdırılmış sağlam təcrübə və məsləhətlərin 500 səhifəlik toplusunun gündəliyində açıq şəkildə ifadə olunmuşdur. Tədbirin gündəliyi ətraf mühit və inkişaf mövzuları altında həyata keçirilirdi: həyat keyfiyyəti, təbii resursların səmərəli istifadəsi, qlobal bazarların qorunması, insan məskənlərinin idarə edilməsi və davamlı iqtisadi artım. Bu göstərirdi ki, dünyanın bir çox yerlərində ağır yoxsulluq ilə yanaşı digər hissələrində sərf olunan resursların istifadəsinə əsaslanan həyat standartlarının mövcudluğu davamlı bir model deyildir.

Ətraf mühitin idarə edilməsi həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan və sənaye ölkələrində də tətbiq edilməlidir. 1992-ci il Konfransı zamanı Gündəm 21-i icra etmək üçün ölkələr milli davamlı inkişaf strategiyasını hazırlamalı idilər. Davamlı inkişaf bütün Rio konfransında vahid prinsip olsa da, onun mənası və nəticələri barədə fikir ayrılığı var idi. UNCED konsepsiyaya əsaslanan bir sıra prinsiplər və fəaliyyət planı hazırlamaqla davamlı inkişafın həyata keçirilməsində rəhbərlik etməyə çalışırdı. Həqiqətən də, Rio davamlı inkişafın tərifini müzakirə etməkdən daha çox onun həyata keçirilməsini təmin etmək üçün yanaşmalar inkişaf etdirdi. Bəzi tənqidçilər sübut edir ki, "bərabərlik prinsiplərinin tətbiq edilməsi və ekoloji məhdudiyyətlər çərçivəsində yaşamaq yalnız sosial, siyasi və iqtisadi sistemlərin davamlılığa yönəldilməsi, həmçinin bir-biri ilə və ətraf mühitlə inteqrasiya ediləcəyi təqdirində həyata keçirilə bilər".

İqlim dəyişikliyi ilə bağlı 1997-ci ildə Kioto konfransında inkişaf etmiş ölkələr istixana qazlarının emissiyasının azaldılması üçün xüsusi hədəflər üzərində razılığa gəldilər. Bu, gələcək bir neçə il ərzində detallı xüsusiyyətləri ilə Kioto Protokolu kimi tanınan ümumi bir çərçivə sənədinin yaranmasına gətirib çıxardı. Avropa Birliyi 15% azaldılma təşəbbüsünü irəli sürsə də, ABŞ yalnız emissiyaları stabilləşdirməyi və tam kəsməməyi təklif edirdi. Sonda kompromisə gəlinərək sənayeləşmiş ölkələrdə istixana qazlarının emissiyasının 2008-2012-

ci illər üçün 1990-cı illərin səviyyəsinə 5,2%-ə dək aşağı salınması razılaşdırıldı. Lakin, danışıqların mürəkkəbliyi, hətta Kioto Protokolunun özü qəbul olunduqdan sonra razılaşma üçün ciddi maneələr yaratdı. Çünki, bu yalnız razılaşma üçün əsas xüsusiyyətləri özündə əks etdirirdi və onların necə həyata keçirilməsi barədə digər bütün vacib qaydaları açıqlamırdı. Protokolu 84 ölkənin imzalamasına baxmayaraq, onu ratifikasiya etmək niyyətində olduğunu bildirən bir çoxları bu addımı atmağa həvəssiz idilər.

Təəssüf ki, ABŞ Kioto Protokolunu ratifikasiya etməkdən imtina etdi. Avropa Birliyi Kioto Protokolunu ratifikasiya etdi, lakin bu kifayət deyildi. İttifaq CO2 emissiyasını azalda bilmədi. 2030-cu ildə vəziyyətin ümumi görünüşü pessimistdir. 1990-cı illə müqayisədə, ABŞ-ın CO2 emissiyasına verdiyi qatqı 50%, AB-də isə 18% olacaqdır. Kioto Protokolu hələ də "yaşıllar" və "neoliberallar" arasında ən çox müzakirə olunan beynəlxalq müqavilələrdən biri olaraq qalır [1, s. 578].

2000-ci ilin sentyabrında Nyu-Yorkda keçirilən Minilliyin Zirvə toplantısında dünya liderləri Minilliyin İnkişaf Məqsədləri barədə razılığa gəldilər. Onların əksəriyyəti 2015-ci ilə qədərki vaxtı çərçivə müddəti kimi və 1990-cı ildən etibarən olan müddəti isə standart ölçü müddəti kimi qəbul etdilər. Minilliyin İnkişaf Məqsədləri göstərmişdir ki, hazırda dünya kasıblarının həyat səviyyələri və rifahı lazımi imkanlara sahib olmaqla, həmçinin təhlükə və həssaslığın olmaması ilə konseptuallaşdırılır. Onlar davamlı inkişafın iqtisadi, sosial və ekoloji əsasları arasında tarazlıq prinsipini daha praktik ifadə edirlər. Bunlara aşağıdakılar daxildir: günə 1 dollardan az yaşayan insanların və aclıqdan əziyyət çəkən insanların nisbətini yarıbayarı azaltmaq; ümumi ibtidai təhsilə nail olmaq və gender bərabərliyini təbliğ etmək; uşaq ölümünün azaldılması və ana sağlamlığının yaxşılaşdırılması; HIV/AIDS yayılmasının qarşısının alınması; davamlı inkişaf prinsiplərini ölkələrin siyasətinə inteqrasiya etmək; təhlükəsiz içməli suya çatmaq imkanı olmayan insanların yarıbayarı azaldılması.

Təəssüf ki, dünya hələ də etinasızlıq və ört-basdır etmə ilə mübarizə aparır və nəticədə insanlar Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq üçün yoxsulluq, xəstəlik və məhrumiyyətlərlə mübarizə aparmağa davam edir. 2002-ci ildə Yohannesburqda Davamlı İnkişaf üzrə Dünya Sammiti (The World Summit on Sustainable Development) (DIDS) Birləşmiş Millətlər, hökumətlər, biznes və QHT-lər arasında qlobal ətraf mühit, sağlamlıq və yoxsulluq problemləri üzrə əməkdaşlıq etmək üçün dönüş nöqtəsi idi. Yohannesburq Sammiti Minilliyin məqsədlərini təsdiqlədi və onları əsas sanitariya imkanlarından məhrum olan insanların nisbətini yarıya endirmək, kimyəvi maddələrin zərərli təsirlərini minimuma endirmək və bioloji müxtəlifliyin itkisini dayandırmaq kimi bir sıra əlavələr etməklə tamamladı.

Bəzi müəlliflər bu sammiti davamlı inkişaf konsepsiyasının iqtisadi inkişaf və ətraf mühitin keyfiyyəti arasındakı əlaqənin daha məhsuldar araşdırılması istiqamətində olan inkişaf kimi qiymətləndirirlər. DİDS Gündəm 21-dəki və Minilliyin İnkişaf Məqsədlərindəki bəzi boşluqları doldurur və 2015-ci ilə qədər təməl sanitariya imkanlarına malik olmayan insanların nisbətini iki dəfə azaltmaq üçün yeni ortaya çıxan bəzi məsələlərə müraciət etmək, 2020-ci ilə qədər insan sağlamlığına və ətraf mühitə mənfi təsirlərə gətirib çıxarmayan kimyəvi maddələrdən istifadə etmək və istehsal etmək, tükənmiş balıq ehtiyatlarını maksimum davamlı, təcili əsasda və mümkün olduğu təqdirdə 2015-ci ilə qədər çıxara biləcək səviyyələrdə saxlamaq və bərpa etmək, 2010-cu ilə qədər bioloji müxtəlifliyin mövcud zərər dərəcəsini əhəmiyyətli dərəcədə azaltmaq, davamlı inkişafın sosial-iqtisadi əsaslarının əhəmiyyətini artırmaq kimi ciddi məsələlərə hədəflənmişdir.

Yohannesburq Konfransı, 1992-ci il Konfransından bəri ortaya çıxan davamlı inkişafın

sosial-iqtisadi əsaslarının əhəmiyyətini artırmaq kimi bir tendensiyanı təsdiqlədi. BMT-nin keçmiş iki konfransında ətraf mühitin gündəliyi ictimaiyyətin diqqət mərkəzində olan əsas inkişaf etmiş ölkələrə yönəldi. DİDS müzakirələr zamanı davamlı inkişaf konsepsiyasını özündə birləşdirdi və əvvəlcədən "icra sammiti" adlandırıldı. Əlavə maliyyə resursları və texnologiya köçürmələrinə olan tələblər qaçılmaz olsa da, müzakirələrin çoxunun əsası artıq 2000-ci ildə Minilliyin İnkişaf Məqsədlərinin yaradılması ilə qoyulmuşdu.

Davamlı inkişafın bugünkü çərçivələri kifayət qədər güclü olsa da, hələlik görüləsi çox işlər vardır. İqlim Dəyişikliyi üzrə Dövlətlərarası Panelin sonuncu, yəni 2020-ci il hesabatı göstərdi ki, Yerin temperaturunu 2ºC-dən aşağı saxlamaq və dağıdıcı təsirlərin qarşısını almaq üçün CO^2 tullantılarının azaldılması baxımından böyük dəyişikliklər tez bir zamanda baş verməlidir [16].

Davamlı inkişafın müxtəlif sahələrində fərqli auditoriya ilə işləyən çoxlu sayda iştirakçısı vardır. Onların bir məqsədi vardır ki, bu da mövzu barədə məlumatlılığı artırmaq, onun genişlənməsi və inkişafı üçün şərait yaratmaqdır. Bu sferada əsas oyunçulardan biri, müxtəlif komandaların dünya liderləri arasında görüşlər təşkil etməklə yanaşı "plastik çirkliliyi məğlub etmək" və ya "fərqli problemləri həll etmək" kimi bir neçə kampaniyada fəal şəkildə çalışan BMT-dir.

Məhz BMT çərçivəsində və onun qurumlarının təşəbbüsü ilə Minilliyin İnkişaf Məqsədləri işlənib hazırlanmış və hazırda da icra olunmaqdadır. 2000-ci ildə BMT Baş Məclisi tərəfindən qəbul edilən Minilliyin İnkişaf Məqsədləri 2015-ci ili hədəf il olaraq təyin etmişdi. Minilliyin İnkişaf Məqsədləri Proqramını qəbul edən ölkələr müvəffəqiyyətini və 2015-ci ildən sonra yeni bir gündəliyin qəbul edilməsinin vacibliyini tanıdığından, 2012-ci ildə BMT-nin Davamlı İnkişaf Konfransında (Rio+20) davamlı inkişaf hədəflərini genişləndirmək və müasir qlobal problemlərə uyğun şəkildə formalaşdırmaq üçün açıq bir işçi qrupu yaratmağa qərar verdilər [7, s. 41].

Bir ildən çox davam edən danışıqlardan sonra Açıq İşçi Qrup 17 Dayanıqlı İnkişaf Məqsədlərinin müəyyənləşdirilməsi üçün tövsiyələrini təqdim etdi. 2015-ci ilin avqust ayında 193 Birləşmiş Millətlər Təşkilatı üzv-dövləti yeni gündəmin son sənədi olan "Dünyamızı Dəyişdirmə: 2030-cu ilədək davamlı inkişaf üçün gündəm" adlı sənədin qəbulunda konsensus əldə etdilər. Üzv-dövlətlər, BMT-nin 17 Məqsədli Davamlı İnkişaf üçün Yeni Gündəmin qəbul edilməsinə dair Zirvə toplantısının 25-27 sentyabr 2015-ci il tarixlərində Nyu-Yorkda keçirilməsinə qərar verdilər və BMT Baş Məclisinin yüksək səviyyəli plenar iclasını çağırdılar. 25 sentyabr 2015-ci il tarixində BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında dövlət və hökumət başçıları da daxil olmaqla dünya liderləri 2015-ci ildən sonrakı İnkişaf Gündəmini təsdiqlədilər [13, s. 161].

Yeni hədəflər və məqsədlər hərtərəfli və bölünməzdir və davamlı inkişafın hər üç komponentinin (iqtisadi, sosial və ekoloji) tarazlığını təmin edir. 25 sentyabr 2015-ci ildə 193 ölkə aşağıdakı 17 qlobal hədəfləri təsdiqlədilər:

Hər yerdə yoxsulluğun bütün formalarına son qoymaq;

Aclığa son qoymaq, ərzaq təhlükəsizliyinə və daha yaxşı qidalanmaya nail olmaq və davamlı kənd təsərrüfatını təşviq etmək;

Yaşından asılı olmayaraq hər kəsin sağlam yaşamasını təmin etmək və rifah halını yaxşılaşdırmaq;

Hər kəs üçün inklüziv və keyfiyyətli təhsili təmin etmək və ömür boyu təhsili təşviq etmək;

Gender bərabərliyinə nail olmaq, bütün qız və qadınları səlahiyyətləndirmək;

Hamıya suyun və kanalizasiya xidmətlərinin əlçatanlığını təmin etmək;

Hamının sərfəli, etibarlı, davamlı və müasir enerji mənbələrinə çıxışını təmin etmək;

İnklüziv və davamlı iqtisadi artımı, hamı üçün məşğulluğu və layiqli əməyi təşviq etmək;

Möhkəm infrastruktur yaratmaq, inklüziv və dayanıqlı sənayeləşməni təşviq etmək və innovasiyaların inkişafına dəstək vermək;

Ölkədaxili və ölkələrarası bərabərsizliyi azaltmaq;

Şəhər və yaşayış məntəqələrinin açıqlığını, təhlükəsizliyini, davamlılığını və ekoloji davamlılığını təmin etmək;

Davamlı istehlak və istehsal modellərinə keçidi təmin etmək;

İqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə aparmaq üçün təxirəsalınmaz tədbirlər görmək;

Okeanları, dənizləri və dəniz ehtiyatlarını qorumaq və onlardan səmərəli istifadə etmək;

Meşələri davamlı şəkildə idarə etmək, səhralaşmaya qarşı mübarizə aparmaq, torpaqların deqradasiyasına son qoyaraq onları bərpa etmək üçün tədbirlər görmək və bioloji müxtəlifliyin itirilməsinin qarşısını almaq;

Ədalətli, sülhsevər və açıq cəmiyyətləri təşviq etmək;

Davamlı inkişaf üçün qlobal əməkdaşlığı canlandırmaq [11].

Yuxarıda sadalanan 17 qlobal hədəflər inteqrasiya olunmuşdur – yəni bir sahədəki fəaliyyətin digər sahələrdə nəticələrə təsir edəcəyini və inkişafın sosial, iqtisadi və ekoloji davamlılığı tarazlaşdırmasının vacibliyi təsdiq edilmişdir [15]. Minilliyin İnkişaf Məqsədləri proqramının uğurlu olduğunu nəzərə alaraq qlobal problemlərin həllində kifayət qədər böyük rol oynayacağını güman etmək olar. Son iyirmi ildə yoxsulluq həddinin altında yaşayan insanların faiz nisbətinin enməsi, uşaq və ana ölümü hallarının demək olar ki, yarıya qədər enməsi, HİV və digər xəstəliklərə qarşı mübarizədə əhəmiyyətli bir irəliləyiş əldə edildiyi rəsmi olaraq elan edilmişdir.

ƏDƏBİYYAT

1. Dorin P.B. A history of the concept of sustainable development: Literature review // The Annals of the University of Oradea, Economic Sciences Series, 2008, No 17.2, p. 578.
2. Gupta B.L. A New Paradigm of Development. 2010, p. 71.
3. Palley T.I. From Keynesianism to Neoliberalism: Shifting Paradigms in Economics. 2004.
4. Delanty G., Isin E.F. Handbook of Historical Sociology. 2003, p. 96-107.
5. Berr E. Keynes and the Post Keynesians on Sustainable Development. 2008, p. 1-5.
6. Our Common Future, Report of the World Commission on Environment and Development. Transmitted to the General Assembly as an Annex to document A/42/427 – Development and International Cooperation: Environment, p. 41.
7. Burcu O., Ozturk I. Environmental Kuznets Curve (EKC): A Manual. London: Elsevier, 2019, p. 41.
8. Liodakis G. Political Economy, Capitalism and Sustainable Development. Department of Sciences, Technical University of Crete, 2010.
9. Singh S.R. Poverty Alleviation in the Third World. 2005, p. 187-188.

10. The World Economic and Social Survey, United Nations publication, 2013, p. 1-2.
11. United Nations (2015) Resolution adopted by the General Assembly on 25 September 2015, Transforming our world: the 2030 Agenda for Sustainable Development (A/RES/70/1).
12. United Nations Development Programme, New York, 1996, p. 1-3.
13. Venkatramanan V., Shachi Sh., Prasad R. Exploring Synergies and Trade-offs between Climate Change and the Sustainable Development Goals. Springer Nature, 2020, p. 161.
14. Ferraro V. Dependency Theory: An Introduction / The Development Economics Reader / Ed. Giorgio Second. London: Routledge, 2008, pp. 58-64.
15. https://www.undp.org/content/undp/en/home/sustainable-development-goals.html
16. https://youmatter.world/en/definition/definitions-sustainable-development-sustainability/#

Azərbaycan Respublikasının Prezidentu yanında
Dövlət İdarəçilik Akademiyası
E-mail: ***babayeva.aytek@gmail.com***

Aytak Babayeva

THEORETICAL AND HISTORICAL ASPECTS OF THE FORMATION OF THE SUSTAINABLE DEVELOPMENT CONCEPT

A key factor to be considered in determining the overall development strategy should be establishing and strengthening a balanced link between economic growth and human development. For both of these relationships to work effectively and efficiently, the managers of these development strategies must know how these relationships are formed, and how they work. One of the most critical questions is how economic growth affects human development. The concept of sustainable development in the modern sense and its theories were introduced in the late twentieth century. Among the various development concepts, sustainable development is the most modern and meets the interests of future generations. Of particular importance in the formation of this concept was the document entitled "Our Common Future", prepared in 1987 in the form of a report by an international expert group at the proposal of the UN. The need to develop such a document arose due to the depletion of natural resources, particularly some non-renewable ones, and environmental pollution against the background of the planet's growing population.

Keywords: *sustainable development, strategy, concept, conference, common future, Rio Declaration, World summit, Millennium Development Goals, summit.*

Айтак Бабаева

ТЕОРЕТИКО-ИСТОРИЧЕСКИЕ АСПЕКТЫ ФОРМИРОВАНИЯ КОНЦЕПЦИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ

Ключевым фактором, который следует учитывать при определении общей стратегии развития, должно быть установление и укрепление сбалансированной связи

между экономическим ростом и человеческим развитием. Чтобы обе эти связи работали эффективно и результативно, важно, чтобы руководители данных стратегий развития знали, как эти отношения формируются, и как они работают. Одним из наиболее важных вопросов является то, как экономический рост влияет на человеческое развитие. Концепция устойчивого развития в современном понимании и теории, связанные с ней, были введены в оборот в конце XX века. Среди различных концепций развития наиболее современной и отвечающей интересам будущих поколений является концепция устойчивого развития. Особое значение в формировании этой концепции имел документ под названием «Наше общее будущее», подготовленный в 1987 году в форме доклада международной экспертной группой по предложению ООН. Необходимость разработки такого документа возникла из-за истощения природных ресурсов, в частности некоторых невозобновляемых, и загрязнения окружающей среды на фоне роста численности населения планеты.

Ключевые слова: *устойчивое развитие, стратегия, концепция, конференция, общее будущее, Декларация Рио, Всемирный саммит, цели развития тысячелетия, саммит.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 04.08.2021
Son variant 01.09.2021

UOT 94 (479.24)

NURLANA ƏLİYEVA

AZƏRBAYCANIN RUSİYA TƏRƏFİNDƏN İŞĞALINDAN SONRA NAXÇIVANIN TARİXİ COĞRAFİYASINDA BAŞ VERƏN DƏYİŞİKLİKLƏR (XIX ƏSR)

Məqalədə XIX yüzilliyin əvvəllərindən etibarən Azərbaycan torpaqlarının Rusiya imperiyası tərəfindən işğalından və işğaldan sonra Azərbaycanın qədim diyarı Naxçıvanın tarixi coğrafiyasında baş verən dəyişikliklərdən bəhs olunur. Qeyd edilir ki, işğaldan sonra Naxçıvanın tarixi coğrafiyasında dəyişikliklərin əsası qoyuldu. 1828-ci il mart ayının 20-də Rusiya imperatorunun fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının əsasında "Erməni vilayəti" yaradıldı. Ancaq bu qondarma vilayət uzun müddət yaşamadı. 1840-ci ildə "Erməni vilayəti" ləğv edilərək əvəzində 1841-ci ildə Gürcüstan-İmeretiya quberniyası, 1849-cu ildə isə İrəvan quberniyası yaradıldı. Naxçıvan ərazisi isə süni olaraq bu inzibati ərazi vahidlərinin tərkibinə qatılırdı. Məqalədə bu məsələlər təhlil olunur.

Açar sözlər: *Türkmənçay müqaviləsi, "Erməni vilayəti", İrəvan, Naxçıvan, Ordubad, qəza.*

1801-ci ildə Azərbaycanın qədim torpaqlarının (Qazax, Şəmşəddil, Borçalı, Pəmbək) Gürcüstanın tərkibində Rusiya imperiyasına birləşdirilməsi ilə Azərbaycanın da işğalının əsası qoyuldu. Sonrakı illərdə baş verən Birinci Rusiya-İran müharibəsinin (1804-1813-cü illər) yekunu olan Gülüstan müqaviləsinin şərtlərinə əsasən Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla Azərbaycanın şimal torpaqları Rusiya hakimiyyəti altına keçdi. 1826-1828-ci illərdə baş verən İkinci Rusiya-İran müharibəsinin yekunu olan Türkmənçay müqaviləsinin şərtlərinə əsasən Naxçıvan və İrəvan xanlıqları Rusiyaya ilhaq olundu. Beləliklə, Azərbaycanın şimal hissəsinin işğalı başa çatdırıldı. Bununla da XIX əsrdə Naxçıvanın tarixi coğrafiyasına dəyişikliklərin əsası qoyuldu. Belə ki, 1828-ci il mart ayının 20-də Rusiya imperatorunun fərmanı ilə "Erməni vilayəti" yaradıldı. "Erməni vilayəti" İrəvan və Naxçıvan əyalətlərinə və Ordubad dairəsinə bölünmüşdü. İrəvan əyalətinə keçmiş İrəvan xanlığının 15 mahalı, Naxçıvan əyalətinə 5 mahal və Ordubad dairəsinə 5 mahal daxil idi. Bu vilayət 26,9 min km^2 ərazini əhatə edirdi. Naxçıvan qəzasının tərkibinə 5 mahal – Əlincəçay, Naxçıvan, Məvazixatun, Xok və Dərələyəz daxil idi. Ordubad dairəsinə isə Ordubad, Əylis, Dəstə, Çalanaq və Biləv mahalları daxil idi.

Çar hökuməti Cənubi Qafqazın işğalını və burada möhkəmlənməklə bağlı siyasətini həyata keçirdikdən sonra qondarma "Erməni vilayəti" inzibati ərazi bölgüsü özünü doğrultmadığından 1840-cı il 10 aprel qanunu ilə "Erməni vilayəti"ni ləğv etdi. Cənubi Qafqazın ərazisi müəyyənləşdirildi və onun idarə edilməsi üçün Gürcüstan-İmeretiya quberniyası və Xəzər vilayəti yaradıldı. Quberniya və vilayət qəzalara, qəzalar sahələrə bölünürdü. İrəvan və Naxçıvan ərazisi çar Rusiyasının inzibati bölgüsünə əsasən "qəza" statusu ilə 1841-ci il yanvarın 1-də Gürcüstan-İmeretiya quberniyasının tərkibinə qatıldı. Gürcüstan-İmeretiya quberniyasının inzibati mərkəzi Tiflis şəhəri idi. Quberniya və vilayət qəzalara, qəzalar sahələrə bölünürdü. Gürcüstan-İmeretiya quberniyası on bir qəzaya – Tiflis, Qori, Telav, Balakən, Kutais, Yelizavetpol, Aleksandropol, İrəvan, Naxçıvan, Axalsıx və Quriyaya bölünürdü. Xəzər vilayəti isə yeddi qəzaya – Şirvan, Qarabağ, Şəki, Talış, Bakı və hərbi dairəyə daxil olan Dərbənd və Quba qəzaları.

Aparılan araşdırmalara görə Duşet, Siqnax və Ordubad zaştat şəhərləri, yəni qəzaya daxil olub, lakin qəza mərkəzi olmayan şəhər kimi qalırdı. Zaqafqaziya diyarını təşkil edən 1 quberniya və 1 vilayətin bütün on səkkiz qəzası yetmiş iki sahəyə bölünürdü [10, s. 24]. 1843-cü ilə olan məlumata əsasən Gürcüstan-İmeretiya quberniyası inzibati cəhətdən 10 qəzaya (Tiflis, Telavi, Qori, Kutaisi, Quri, Axalsıx, Aleksandropol, Yelizavetpol, İrəvan və Naxçıvan) və 4 dairəyə (Balakən, Tuş-Pşav-Xevsur, Dağ və Osetin) bölünürdü. Bu quberniya 10 aprel 1840-cı ildə təşkil edilmiş, 14 dekabr 1846-cı ildə ləğv edilmişdir. Ordubad vilayəti Naxçıvanla birlikdə Naxçıvan qəzasını əmələ gətirirdi. Naxçıvan qəzası aşağıdakı ərazilərdən ibarət idi: Naxçıvan, Ordubad və Dərələyəz nahiyəsi.

Çar Rusiyası bununla Naxçıvanın tarixi coğrafi ərazisinə dəyişiklik etdi. Təkcə ərazi baxımdan deyil idarə sisteminə də dəyişiklik edildi. 1840-cı il 10 aprel qanunu ilə yeni idarə sistemi yaradıldı, bu idarə sistemi ilə yerli məmurlar vəzifələrindən kənarlaşdırıldı. Bu dəyişikliklər Naxçıvanda da tətbiq edildi. Ehsan xanın xahişi də nəzərə alınaraq Ehsan xan Naxçıvanda, Şıxəli bəy isə Ordubadda vəzifəsindən çıxarıldı. Ehsan xan naiblikdən azad olunduqdan sonra kəngərlilərdən ibarət süvari dəstəsinin komandiri təyin olundu [3, s. 27].

Çarizmin Cənubi Qafqazın idarə edilməsi ilə bağlı həyata keçirdiyi islahat özünü doğrultmadı. Əhali bu idarəetmə formasından ciddi narazı idi. 1846-cı il 14 dekabrında verilmiş fərmanla Cənubi Qafqazın inzibati-idarə sistemində dəyişiklik edildi. Dörd quberniya – Tiflis, Kutais, Şamaxı və Dərbənd quberniyaları yaradıldı. İrəvan və Naxçıvan qəzalarının tərkibinə daxil olan Naxçıvan bölgəsi də Tiflis quberniyasına verildi. Yenə Naxçıvanın tarixi coğrafiyası kobud şəkildə pozuldu. Lakin bu qəzalar Tiflis quberniyası tərkibində uzun müddət qalmadı. Həm məsafə, həm də yerli etno-psixoloji durum, eləcə də tarixi-coğrafi ənənələr Tiflisdən Naxçıvanın və İrəvanın idarə edilməsini çətinləşdirirdi. Bu səbəbdən də 1849-cu il iyunun 9-da isə İrəvan quberniyası yaradıldı. Quberniyanın təşkilində 5 qəza müəyyən edildi: İrəvan, Aleksandropol, Novo-Bayazid, Naxçıvan və Ordubad.

Göründüyü kimi, İrəvan quberniyası tərkibində Ordubad xüsusi qəza kimi ayrılmışdı. Bütün keçmiş "Erməni vilayəti", o cümlədən Aleksandropol qəzası (Axalkalaki sahəsi olmadan) və Mehri sahəsinin bir hissəsi yeni yaradılmış İrəvan quberniyasına daxil edilmişdi. Yeni quberniya və quberniya orqanları 1850-ci il yanvarın 1-dən fəaliyyətə başladı. Bəzi qəzalar sahələrə bölünmüşdü. İrəvan quberniyasında Zəngibasar, Sürməli, Şərur və Sərdarabad sahələri var idi. Naxçıvan qəzası isə Naxçıvan və Dərələyəz sahələrinə bölünmüşdü. Ordubad qəzasında sahələr yox idi. Şərur bölgəsi Naxçıvan qəzasının tərkibində deyildi. Şərur sahəsinin inzibati mərkəzi Baş Noraşen (indiki Cəlilkənd) kəndi, Dərələyəz üçün Keşişkənd, Naxçıvan üçün Naxçıvan şəhəri idi. Digər sahə inzibati mərkəzləri iri kəndlərdə (Qəmərli, Qazıqışlaq, Zeyvə və b.) idi.

İrəvan quberniyasının ərazisi 23194,79 kv. verst (1 kv. verst = 24748840,93 km^2) idi. 1917-ci il Qafqaz təqviminin məlumatına görə, quberniyada 1120242 nəfər əhali yaşayırdı. Hər kv. verstə 48,3 nəfər düşürdü. Quberniya əhalisinin 589125 nəfəri (52,6%) kişi, 531117 nəfəri (47,4%) qadın, 1014868 nəfəri (90,6%) yerli sakinlər, 105374 nəfəri (9,4%) müvəqqəti yaşayanlar idi [1, s. 17]. Naxçıvan qəzasına gəldikdə isə qəzasının sahəsi 1917-ci il Qafqaz təqviminin məlumatına görə 3939 kv verst, yəni 4202 km^2 müəyyənləşdirilmişdi [7, s. 89]. Naxçıvan xanlığının ərazisindən 561 kv. verst az idi. Akademik İ.Hacıyev yazır ki, Rusiya işğalı ərəfəsində Naxçıvan xanlığının ərazisi 4500 kv. verst olduğu halda, sonralar onun torpaqları xüsusi məqsədlə digər inzibati vahidlər arasında bölüşdürülmüşdür. Bu dövrdə qəzada

122208 nəfər əhali yaşayırdı. Qəza əhalisinin 119272 nəfər yerli sakin, 2936 nəfər müvəqqəti yaşayanlar idi [4, s. 224].

Bəzi araşdırmaçılar İrəvan quberniyasının yaradılmasının əsl məqsədinin idarəçiliyin asanlaşdırılması ilə deyil, daha çox ermənilər üçün dövlət yaradılması yolunda yeni addım olduğunu yazırlar [6, s. 26].

İrəvan quberniyası təşkil edildikdən sonra da onun xarici hüdudları və tərkibi müəyyən dəyişikliklərlə müşahidə edilmişdi. 1862-ci ildə yeni təyin olunmuş canişin Mixail Nikolayeviçin təqdimatı ilə çar II Aleksandr 1867-ci il dekabrın 9-da Qafqaz və Zaqafqaziya diyarının idarəsinin dəyişdirilməsi haqqında fərman verdi. Bu fərman üzrə Ordubad qəzası on yeddi ilədək mövcud olduqdan sonra ləğv edilərək, Naxçıvan qəzası ilə birləşdirildi. S.P.Zelinskinin məlumatına görə, bu dövrdə Naxçıvan qəzasının tərkibində üç sahə – Naxçıvan, Ordubad və Dərələyəz sahələri yaradılmışdı [10, s. 209]. Ordubad qəzasının yerinə Eçmiədzin qəzası təşkil edildi. Mehri sahəsi isə yeni yaradılmış Yelizavetpol quberniyasına birləşdirildi. İrəvan quberniyası yenə də beş qəzadan (İrəvan, Aleksadropol, Novobayazet, Naxçıvan, Eçmiədzin) ibarət oldu. Fərman İrəvan quberniyasının qəzaları arasında sərhədlərin dəyişdirilməsi işini canişinə həvalə etdi [9, s. 38].

Canişin bu hüquqdan istifadə edərək 1870-ci ilin əvvəllərində qəzaların hüdudlarında dəyişiklik etdi. Sürməli və Eçmiədzin qəzalarının bir hissəsi İrəvan qəzasına birləşdirildi. Şərur sahəsi isə İrəvan qəzasından alınaraq Naxçıvan qəzasına birləşdirildi [3, s. 27]. Lakin İrəvan quberniyasının qəzalarında, xüsusən Naxçıvan qəzasında ərazinin dəyişdirilməsi bununla başa çatmadı. Dövlət Şurasının təsdiq edilmiş rəyinə əsasən 1874-cü ildə Şərur-Dərələyəz və Sürməli qəzaları yaradıldı [9, s. 38]. İ.Kazımbəyli isə Sürməli qəzasının 1875-ci ildə yarandığını qeyd edir. 1918-ci ilə qədər İrəvan quberniyasının tərkibinə 7 qəza – İrəvan, Aleksandropol, Naxçıvan, Novo-Bəyazid, Sürməli, Şərur-Dərələyəz və Eçmiədzin qəzaları daxil idi [5, s. 105]. Şərur-Dərələyəz qəzası Naxçıvanın iki sahəsi – Şərur və Dərələyəz əsasında təşkil edilmişdi. Bununla da Rusiya imperiyası tərkibində Naxçıvanın tarixi ərazisinin inzibati-ərazi bölgüsü üzrə çoxsaylı dəyişiklər, əsasən, başa çatmışdı [9, s. 38].

Qeyd etmək lazımdır ki, Azərbaycanın XX əsrin ilk illərindəki tarixi-siyasi coğrafiyasının ümumi mənzərəsini təsəvvür etmək üçün 1903-cü ildə çəkilmiş və 1993-cü ildə Bakıda nəşr olunan "1903-cü il Qafqaz hərbi dairəsinin xəritəsi" ("Карта Кавказского военного округа 1903 года") mühüm əhəmiyyət kəsb edir. Xəritədən də aydın olur ki, İrəvan quberniyası 7 qəzaya bölünmüşdür. Azərbaycanın tarixi əraziləri olan İrəvan, Naxçıvan, Göynük mahalı, Şərur, Dərələyəz, Yeni Bəyazid əraziləri İrəvan quberniyasının tərkibində idi [8, s. 54].

Bununla belə, 1840-cı ildən yaradılan 1841-ci ildən tətbiq edilən quberniya və qəza inzibati-ərazi bölgüsü müxtəlif dəyişikliklərə məruz qalsa da, XX yüzilliyin əvvəllərinə qədər qalmışdır.

Çar Rusiyası Qafqazı, eləcə də Cənubi Qafqazı işğal etmək üçün müəyyən vasitələrdən istifadə etdi. Belə vasitələrdən biri də ermənilər idi. Çarizm ermənilərin "xidmətləri"ni qiymətləndirdi, onlara güzəştlər edildi, dövlətlərini yaratmaq üçün şərait yaratdı, lakin XIX əsrdə bunu reallaşdıra bilmədi. "Erməni vilayəti"ni yaratmaqla qondarma inzibati-ərazi vahidi formalaşdırdı. Bu isə gələcəkdə erməni dövlətinin yaradılmasına hesablanmış bir addım idi [2]. Ermənilərin bu ərazilərdə yerləşdirilməsi, onlara yüksək səviyyədə şərait yaradılması da bu planın başqa bir parçası idi. Tarixi coğrafiyaya edilən dəyişikliklər isə əhalini vahid mərkəzdən uzaqlaşdırmaq, yurd, torpaq sevgisini azaltmaq və s. məqsədlər güdürdü.

ƏDƏBİYYAT

1. Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı: Şərq-Qərb, 2007, 144 s.
2. Hacıyev İ. Azərbaycan ərazilərində yaradılan "erməni vilayəti". "Xalq" qəz., 2011, 3 aprel.
3. Hacıyev İ., Şıxəliyev E., Cəfərli E., Şabanov M. Böyük güclərin Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri. Bakı: Mütərcim, 2017, 300 s.
4. Hacıyev İ. Naxçıvan qəzası // Axtarışlar, 2019, c. 9, № 1, s. 221-228.
5. Kazımbəyli İ. Naxçıvan və İrəvan qalalarının çar Rusiyasına qarşı müqavimət hərəkatı // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2017, № 1, s. 103-110.
6. Mahmudov Y., Mustafazadə T., Məmmədov S., İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: CBS, 2010, 620 s.
7. Naxçıvan ensiklopediyası: 2 cilddə, II c., Naxçıvan, 2005, 376 s.
8. Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: Müəllim nəşriyyatı, 2006, 148 s.
9. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 264 s.
10. Зелинский С.П. Три магала: Нахичеванский, Ордубадский и Даралагезский: Географическо-статистическое и сельскохозяйственное описание // Сборник сведений о Кавказе. Т. VII, Тифлис, 1880, с. 209-227.

AMEA Naxçıvan Bölməsi
E-mail: ***nurlana_aliyeva@yahoo.com***

Nurlana Aliyeva

CHANGES IN THE HISTORICAL GEOGRAPHY OF NAKHCHIVAN AFTER THE OCCUPATION OF AZERBAIJAN BY RUSSIA (19th century)

The paper discusses the occupation of Azerbaijani lands by the Russian Empire since the beginning of the 19th century and changes in the Nakhchivan's, ancient Azerbaijan's land, historical geography after occupation. It is noted that after the occupation, the foundation was laid for changes in the historical geography of Nakhchivan. On March 20, 1828, by the decree of the Russian emperor, the "Armenian province" was established based on the Iravan and Nakhchivan khanates. In 1840, the "Armenian province" was abolished and replaced by the Georgian-Imereti province in 1841 and the Iravan province in 1849. The territory of Nakhchivan was artificially included in these administrative-territorial units. The paper analyzes these issues.

Keywords: *treaty of Turkmenchay, "Armenian province", Iravan, Nakhchivan, Ordubad, uyezd.*

Нурлана Алиева

ИЗМЕНЕНИЯ В ИСТОРИЧЕСКОЙ-ГЕОГРАФИИ НАХЧЫВАНА ПОСЛЕ ОККУПАЦИИ АЗЕРБАЙДЖАНА РОССИЙСКОЙ ИМПЕРИЕЙ (XIX ВЕК)

В статье рассматривается оккупация азербайджанских земель Российской империей с начала XIX века и изменения в исторической географии древней азербайджанской земли Нахчывана после оккупации. Отмечается, что после оккупации была заложена основа для изменений в исторической географии Нахчывана. 20 марта 1828 года указом российского императора на базе Иреванского и Нахчыванского ханств была образована «Армянская провинция». Однако просуществовала эта так называемая провинция недолго. В 1840 году «Армянская провинция» была упразднена и заменена Грузино-Имеретинской провинцией в 1841 году и Иреванской провинцией в 1849 году. Территория Нахчывана была искусственно включена в эти административно-территориальные единицы. В статье анализируются данные вопросы.

Ключевые слова: *Туркменчайский договор, «Армянская провинция», Ереван, Нахчыван, Ордубад, уезд.*

(AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 25.06.2021
Son variant 26.07.2021

UOT 94 (479.24)

SEVİNC ABBASOVA

NAXÇIVANDA MÜSTƏQİLLİK İLLƏRİNDƏ TƏHSİL SAHƏSİNDƏ GENDER MƏSƏLƏSİ

Məqalədə müstəqillik illərində, əsasən XXI əsrin ikinci on illiyində Naxçıvanda təhsil sahəsində gender bərabərliyi araşdırılmışdır. Araşdırmalardan məlum olmuşdur ki, muxtar respublika ərazisində gender bərabərliyi mövcuddur. Hətta Naxçıvan şəhərində bəzi ümumtəhsil məktəblərində, qadınların rəhbər vəzifələrdə işləmələri kişilərə nisbətən daha çox olduğunun şahidi oluruq. Aparılan tədqiqatlar nəticəsində bəzi statistik məlumatlar da çıxardıb ortalığa qoyulmuşdur. Alınan statistik məlumatlardan aydın olur ki, Naxçıvanda gender bərabərliyi özünü qoruyub saxlamışdır. Bundan əlavə "Xanım qızlar" liseyi haqqında məlumatlar da tədqiqata cəlb edilmişdir.

Açar sözlər: *Naxçıvan, təhsil, məktəb, gender, qadın, kişi.*

Son əsrlərin texnoloji nailiyyətləri qadınların həm məişətdə, həm də istehsalatda oynadığı rolu dəyişdirmişdir. XX əsrin sonunda "gender" anlayışı formalaşmışdır ki, bunu da "sosial cins" kimi səciyyələndirmək olar. Qadın və kişilər arasında sosial bərabərlik "gender bərabərliyi" kimi qəbul edilir. Elmi-texniki tərəqqi bəşəriyyətə bir sıra yeni texnoloji nailiyyətlər bəxş edib ki, bu da müxtəlif proseslərin həyata keçirilməsində qadın və kişilərin fiziki imkanları arasında mövcud olan təbii fərqlərin aradan qaldırılmasına, yaxud kəskin surətdə azalmasına şərait yaradır. Yeni texnoloji nailiyyətlər, eyni zamanda, qadınların ev işlərinə sərf etdiyi vaxtın qənaətini də təmin edir. Belə bir şəraitdə gender problemlərinin həllinə, yəni qadın və kişilərin cəmiyyətdəki vəziyyətində mövcud olan fərqlərin aradan götürülməsinə xidmət edir.

Bəzi hallarda gender problemlərini qadınların vəziyyətinin qiymətləndirilməsi və yaxşılaşdırılması kimi qələmə verirlər. Lakin gender problemlərinin təkcə qadın problemləri kimi qiymətləndirilməsi düzgün deyil. Gender problemlərinin öyrənilməsi və bu sahədə olan problemlərin həlli həm kişilər, həm də qadınlar üçün vacibdir. Bu problemlərin həlli qadın və kişi arasında əmək bölgüsü münasibətlərinin yaxşılaşmasına və insan potensialının inkişaf göstəricilərinin yüksəlməsinə xidmət edir [3].

Müasir dövrdə gender bərabərliyi aktual olduğundan onun tarixi inkişaf yolunun öyrənilməsi olduqca zəruridir. Müstəqillik dövrü tariximizin ən önəmli səhifələrindən biri olduğu üçün bu dövrdə qeyd edilən problemi araşdırmaq, elmi-pedaqoji cəhətdən olduqca əhəmiyyətlidir.

Təhsil sahəsində gender bərabərliyi olduqca aktual məsələlərdəndir. Gender təhsili, xüsusilə də həm qızlara, həm də oğlanlara ünvanlanmışdırsa, müasir cəmiyyətdə gender bərabərliyinin yaranmasına imkan verən müsbət qüvvə sayıla bilər. Gender stereotiplərini məhdudlaşdıran gender təhsili kişi və qadınların əməkdaşlıq, hörmət ruhunda birgə yaşadığı əsl vətəndaş bərabərliyinə nail olmaqda uşaqlara kömək edir. Gender təhsili cinslərin rollarına diqqətin cəlb edilməsindən başlanır. Bu, gender stereotiplərinin mənfi təsirinin tanınması və onunla əlaqəli bərabərsizliyin aradan qaldırılmasıdır. Qızlar üçün gender təhsilinin nəticəsi özünə qarşı böyük inam, təkid, müstəqillik və ictimai fəaliyyətdə iştirakdır. Oğlanlar üçün gender təhsilinin nəticəsi isə uğursuzluq qorxusunun aradan qaldırılması, aqressiyaya ilə mübarizə bacarığı, sosiallaşma və məsuliyyət səviyyəsinin yüksəlməsi, şəxsi sferaya daha çox diqqətdir. Gender təhsilinin mühüm funksiyası faktların rəylərdən ayrılmasıdır. Hadisələrin və ya şəxsi davranışın təhlili ilə uşaqlar bu faktı norma kimi qəbul edərlər ki, qızlar özlərini oğlanlar kimi apara bilər, oğlanlar isə həssas və kövrək ola bilər. Bütün uşaqlar özlərini

müxtəlif keyfiyyətlərə malik olan unikal və ali quruluşlu şəxsiyyət kimi qəbul etməlidirlər. Cinsi rollarla bağlı stereotiplər və ənənəvi gözləntilər qızlarda olduğu kimi, oğlanlarda da potensialın reallaşmasına, şəxsiyyətin inkişafına maneçilik törədə bilər.

Gender təhsilinin digər mühüm məqsədi ənənəvi qadın fəaliyyəti olan analığın və eləcə də qayğı, diqqət, əməkdaşlıq və dözümlülük kimi keyfiyyətlərin sosial dəyərlərinin tanınmasında uşaqlara yardım etməkdir. Bu tanınma kişilər və qadınlar arasında həqiqi partnyorluğa gətirib çıxarır ki, bu da gender təhsilinin əsas və başlıca məqsədi sayılır. Beləliklə, uşaqlar öyrənir ki, kişi və qadınların ailəyə və cəmiyyətə töhfəsi eyni qədər vacib olduğu kimi, qadınlar və kişilər bərabərhüquqludur və eyni məsuliyyəti daşıyırlar. Gender təhsilinin səmərəli olması üçün pedaqoqlar şəxsi gender stereotiplərini tanımalı və öz tədris metodikalarının, qız və oğlanlarla ünsiyyət və əməkdaşlıqlarının gender bərabərliyi ideyalarını hansı dərəcədə əks etdirməsi haqqında düşünməlidirlər [11].

İstər Azərbaycanın digər bölgələrində, istərsə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında qadınların təhsil məsələsi əsas məsələlərdən, diqqət yetirilməsi vacib işlərdən biri olmuşdur. Düzdür, Orta əsrlərdə qadınların təhsil almasına o qədər də doğru-düzgün baxılmamışdır. Ancaq XX əsrdən başlayaraq bu məsələ özünün aktuallığını qoruyub saxlamağa başlamışdır. Belə ki, qadın azadlığı və maarifi məsələsinin dövlət səviyyəsində qaldırılması XX əsrin əvvəllərində çarizmin müstəmləkəsi altında olan müsəlman xalqlarının 1917-ci il aprel ayının 16-dan 22-ə qədər Daşkənddə keçirilən Türküstan müsəlmanlarının ilk qurultayında da prioritet məsələ kimi diqqət mərkəzində saxlanılmışdı.

AXC dövründə də qadın təhsilinə böyük diqqət verilmiş və milli hökumət qadınların kişilərlə bərabər təhsil almasına geniş imkanlar yaradaraq istər qadınlar üçün pedaqoji kurslarda, istərsə də qadın gimnaziyalarında azərbaycanlı qızların təhsili üçün hər cür şərait yaratmışdı. Maarif Nazirliyi qadın təhsili sahəsində həlli vacib olan bir sıra vəzifələrin həyata keçirilməsi işinə başlamışdı. Təhsil sisteminin milliləşdirilməsi ilə əlaqədar Bakı Marinski Qadın gimnaziyası, Bakı Qadın Seminariyası, I, II, III Müqəddəs Nina Gimnaziyalarını milli qadın məktəbləri ilə əvəz edilmişdir. Maarif Nazirliyi Balaxanı Real məktəbini Qadın Gimnaziyası ilə birləşdirməklə hər iki cinsdən olanların birgə maariflənməsinə şərait yaratmaqla gender bərabərsizliyinin aradan götürülməsi sahəsində əhəmiyyətli addım atdı. Yeni tipli humanitar şöbədən ibarət qadın məktəbi yarandı [8, s. 172].

Naxçıvanda qadınlar arasında maarif işinin inkişafında kişilərlə yanaşı, ziyalı qadınların da mühüm xidmətləri olmuşdur. Görkəmli xeyriyyəçi H.Z.Tağıyevin qız məktəbini bitirmiş Nazlı xanım Tahirova 1912-ci ildə Naxçıvan şəhərində qız məktəbi açmışdır. Bununla bərabər görkəmli pedaqoq və yazıçı Rəşid bəy Əfəndiyevin 1910-cu ildə Naxçıvan şəhərində türk-qız məktəbini açaraq özünün də orada dərs deməsi, 1917-ci ildə N.Nəcəfovanın həmin məktəbə müdir təyin edilməsi və 1920-ci ilədək orada işləməsi artıq məktəb işinin mütərəqqi yolla inkişf etdiyini göstərir [7, s. 26].

Naxçıvanda 1920-1930-cu illərdə maarif sahəsində əldə edilən mühüm nailiyyətlərdən biri də qadınlar arasında savadsızlığın ləğv edilməsi məsələsi idi. Həmin dövrdə kənd qadınları ilə şəhərdə yaşayan qadınların təhsil səviyyəsində ciddi fərqlər var idi. Qadınların və qızların təhsil səviyyəsinin artırılması sahəsində öz həllini gözləyən bir sıra vacib problemlər var idi. Təlim-tədris prosesinə ciddi nəzarət edilmədiyindən şagirdlərin dərs buraxma, məktəbi tərk etmə halları çoxalmışdı. Qız uşaqlarının bır çoxu orta təhsillərini başa vurmaqdan və həmçinin yuxarı siniflərdə oxumaqdan imtina edirdilər. Bəzi kəndlərdə qızların ali və orta

ixtisas məktəblərində təhsillərini davam etdirmələri məsələsi ilə əlaqədar mövhumatçı münasibətlər və düşüncələr yenə də qalmaqda idi. Bu kimi məsələlərin əksəriyyəti Ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu dövrlərdə, 70-80-ci illərdə öz həllini tapmış oldu [6, s. 30].

Ümumiyyətlə, muxtar respublikada 1970-ci ildə 10 illik orta ümumtəhsilə keçidlə əlaqədar olaraq ibtidai və səkkizillik məktəblərin sayı azalmış, orta məktəblərin sayı isə artmışdı. Həmin illərdə qızların orta ümumi təhsilə cəlb edilməsi sahəsində əsl inqilab baş verdi. Məktəbyaşlı qızların hamısı məktəbə gedirdi ki, bu da şagirdlərin ümumi sayında onların üstünlük təşkil etməsinə gətirib çıxarmışdı [2, s. 74].

Müstəqillik əldə etdikdən sonra bu məsələ, yəni təhsildə gender bərabərliyi əsas prioritet məsələlərdən birinə çevrildi. Ümummilli liderimiz təhsilə üstün istiqamət verərək "Təhsil millətin gələcəyidir" deyirdisə, bu yolu davam etdirən ölkə rəhbəri cənab İlham Əliyev təhsilə "Azərbaycanın gələcəyini müəyyən edən prioritet sahə" kimi yüksək dəyər verərək iqtisadi potensialın insan kapitalına çevrilməsini bir vəzifə olaraq qarşıya qoymuşdur. Bütün bunlar təhsilə yeni yanaşma tələb edir. Təhsil elə səviyyədə olmalıdır ki, o, insanlara yeni texnologiyaları çevik mənimsəmək, əmək bazarında və şəxsi həyatda layiqli yer tutmaq, sağlam həyat tərzi, ətraf mühitə və cəmiyyətdə gedən proseslərə münasibətdə düzgün mövqe seçmək imkanı yaratsın.

Görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin inkişaf və tərəqqi strategiyasının layiqli davamçısı İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildiyi ilk gündən ölkəmizdə təhsilin inkişafına böyük önəm vermiş, onun müasir dünya standartları səviyyəsinə çatması üçün bütün imkanları səfərbər etmişdir. Naxçıvan Muxtar Respublikasının rəhbəri də diyarı irəli aparmaq, modernləşdirmək üçün məqsədyönlü, irimiqyaslı, ardıcıl təhsil siyasəti aparır [4, s. 277]. Bu gün Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda həyata keçirilən irimiqyaslı layihələrin və proqramların reallaşması birinci növbədə ölkənin kadr potensialından asılıdır. Bu potensialın formalaşmağında başlıca sahə isə təhsildir. Müasir dövrdə təhsilin rolu və əhəmiyyəti getdikcə artmaqdadır. Təhsil sahəsində əldə olunan uğurlar təkcə məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə məhdudlaşmır. Təhsil islahatlarının həyata keçirilməsi istiqamətində atılan addımlar təhsillə bağlı dəyərlərin yeniləşdirilməsi, müasirləşdirilməsi və son nəticədə Azərbaycan cəmiyyətinin yeni keyfiyyətinə nail olunması üçün təhsil faktorundan istifadə edilməsinə şərait yaradır.

Günümüzdə muxtar respublika əhalisinin 50 faizi, yəni 230 min 32-si qadındır. Ölkəmiz müstəqillik əldə etdikdən sonra Naxçıvan qadınlarının ictimai-siyasi fəaliyyəti ildən-ilə artır. Bunu statistik rəqəmlər də təsdiq edir. Eyni zamanda Naxçıvan qadınları muxtar respublikanın ictimai-siyasi və mədəni həyatında fəal iştirak edirlər. Belə ki, muxtar respublikada təhsil sahəsində işləyənlərin 9 min 987 nəfəri yaxud 68%-i, qadınlardır [9]. Təhsilin ilk pilləsi sayılan məktəbəqədər müəssisələrin demək olar ki, hamısında qadınlar çalışır və rəhbər vəzifədə çalışanların da hamısı qadınlardır. Muxtar respublikada elmlər doktorlarının 3-ü, fəlsəfə doktorlarının isə 100-ü qadınlardır.

Naxçıvan Muxtar Respublika Dövlət Statistika Komitəsinin 2020-ci ilin statistik məlumatlarının təhlili göstərir ki, hazırda muxtar respublikanın rayonlarında təhsil sahəsində muzdla işləyən qadınların sayı Şərur rayonunda 2110, Babək rayonunda 1607, Ordubad rayonunda 971, Culfa rayonunda 950, Kəngərli rayonunda 537, Şahbuz rayonunda 667, Sədərək rayonunda 72 nəfərdən ibarət olmaqla beləliklə, muxtar respublikanın rayonları üzrə muzdla işləyən qadınların sayı təhsil üzrə 6914 nəfərdir.

Qadın müəllimlərin sayı Şərur rayonunda 1285 nəfər, bunlardan 1229-u ali təhsilli, 56-ı isə orta ixtisas təhsillidir. Babək rayonunda 964 nəfər, bunlardan 951-i ali təhsilli, 12 orta ixtisas

təhsilli, 1-i tam orta təhsillidir. Ordubad rayonunda 488 nəfər, bunlardan ali təhsillilərin sayı 444 nəfər, orta ixtisas təhsillilərinin sayı 43 nəfər, ali təhsil müəssisələrini bitirməyənlərin sayı isə 1 nəfərdir. Culfa rayonunda 456 nəfər, bunlardan ali təhsillilərin sayı 526 nəfər, orta ixtisas təhsillilərinin sayı 18 nəfər, tam orta təhsillilər 2 nəfərdir. Kəngərli rayonunda 326 nəfər, bunlardan ali təhsillilərin sayı 309 nəfər, orta ixtisas təhsillilərinin sayı 17 nəfərdir. Şahbuz rayonunda 338 nəfər, bunlardan ali təhsillilərin sayı 332 nəfər, orta ixtisas təhsillilərinin sayı 17 nəfərdir. Sədərək rayonunda 50 nəfər, bunlardan ali təhsillilərin sayı 50 nəfərdir [10, s. 107].

2007-2018-ci illərdə muxtar respublikada müəllimlərdən 112-si "Azərbaycan Respublikasının Əməkdar müəllimi", 181-i isə "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adlarına layıq görülüb, 104 müəllim isə "Tərəqqi" medalı ilə təltif olunublar [5, s. 141]. Bir məsələni qeyd etmək istərdik ki, təltif olunanlardan demək olar ki, əksəriyyətini qadınlar təşkil edib.

2015-ci ildə ali təhsil müəssisələrinə Naxçıvan Dövlət Universitetinə və Naxçıvan Müəllimlər İnstitutuna daxil olanların böyük hissəsi qız abituriyentlər olmuşdur. Naxçıvan Universitetində isə qız oğlan nisbəti bir birinə yaxın olmuşdur.

2018-2019-cu tədris ilində ali təhsil müəssisələrinə daxil olan abituriyentlərin 819 nəfərini qızlar təşkil edib. Həmçinin 500-700 intervalında bal toplayanların 172 nəfəri, yaxud 61,2 faizini qızlar olub. 2020-2021 tədris ilində isə 600-dən yüksək bal toplayan tələbələrin 11 nəfəri qız, 1-i isə oğlan olmuşdur.

2019-2020-ci tədris ilində Naxçıvan Dövlət Universitetinin əyani təhsilində 4423 nəfər oxumuş, bunlardan 2159-u qız olmuşdur. Həmin ildə universitetin 921 məzunu olmuşdur ki, bunlardan 422-i qız olmuşdur. 2019-2020-ci tədris ilində Naxçıvan Dövlət Universitetinin qiyabi təhsildə 912 nəfər oxumuş, bunlardan 323 nəfəri qadın olmuşdur. Həmin tədris ilində 454 nəfər məzun olmuşdur ki, bunlardan da 143 nəfəri qadın olmuşdur.

Burda belə müqayisə göstərir ki, qadınlar ali təhsil müəssisəsində kişilərdən heç də geri qalmamışdır. Bir məsələni də xüsusilə qeyd etmək istərdim ki, universitetdə elə ixtisaslar vardır ki, bu ixtisaslarda vaxtilə qızların oxuması yaxşı qarşılanmırdı. 2019-2020-ci tədris ilində "Fiziki tərbiyə və çağrışaqədər hərbi hazırlıq müəllimliyi" ixtisasında 2 qız, "Bədən tərbiyəsi və idman" ixtisasında isə 196 tələbədən 7-i qız olmuşdur.

Ali təhsil ocaqlarında oxuyanların gender tərkibindən söz düşmüşkən belə bir məqama toxunmaq istərdik. Özəl təhsil müəssisələrində oxumaq böyük maddi vəsait tələb edir. Dövlətin təhsil müəssisələrində də ödənişli təhsil almaq heç də ucuz başa gəlmir. Çox zaman valideynlər seçim qarşısında qaldıqda, oğlan uşaqlarının təhsilinə pul ayırmağa üstünlük verdiklərindən qızlar ikinci planda qalırlar. Həm bu hal, həm də oğlan və qız abituriyentlərin peşə seçimlərindəki fərqlər, əmək bazarında mövcud olan gender seqreqasiyasını gücləndirir [1, s. 188]. Əvvəlki dövrlərə nəzər saldıqda görürük ki, qız uşaqlarının oxudulmasına valideynlər biganə yanaşırdılar. Çox yaxşı haldır ki, artıq valideynlərin bu cür yanaşmaları aradan qalxmışdır.

Naxçıvan Muxtar respublikada 1992-ci ildən "Xanım Qızlar Pansionu" yaradılıb. 2004-cü ildən "Naxçıvan Qızlar Liseyi" adı ilə fəaliyyətini davam etdirən bu lisey Azərbaycanda yeganə qızlar məktəbidir. Naxçıvan Qızlar Liseyi nümunəvi təlim-tədris prosesi ilə seçilir. 2011-ci ildə 608 şagird yerlik Naxçıvan Qızlar Liseyinin binası yenidən əsaslı təmir olunaraq tədris üçün müasir infrastrukturla zənginləşdirilib. Hazırda Muxtar respublikanın 60 qabaqcıl müəllimi burada təhsil alan 380 şagirdin təlim-tərbiyəsi ilə məşğul olur. Müəllimlərdən 4-ü "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi fəxri adına layiq görülüb, 1-i "Tərəqqi" medalı ilə təltif olunub, 2-si isə "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibi olub. Son 5 il ərzində məktəbin məzunlarından 49 nəfəri 500-700 intervalında bal toplayıb. Lisey fəaliy-

yətə başlayandan bu tədris ilinədək məzunlardan 5-i qızıl, 3-ü gümüş medala, 16-sı isə fərqlənmə attestatına layiq görülüb [12].

Qadının yetişdirdiyi uşağın cəmiyyətin həyatında hansı mövqeyi qazanması, dövlətimizin inkişafında necə iştirak etməsi ailənin, ən əsas da qadının – ananın onu necə tərbiyə etməsindən çox asılıdır. Uşaqların təlim və tərbiyəsində ananın oynadığı rol danılmazdır. Ana bu baxımdan rəhbərlik və bələdçilik məsuliyyəti daşıyır. O, övladını aydın düşünməyə, saf əqidəyə və düzgün ədəb-ərkana yiyələndirir. Aydındır ki, bütün bu ağır məsuliyyətin öhdəsindən gəlmək üçün ilk növbədə ana özü təhsilli olmalı, maariflənməlidir. Buna görə də ölkədə təhsil sahəsində gender bərabərliyinin təmin olunmasına çalışmaq, daha çox qızların təhsil almasına şərait yaratmaq lazımdır.

Dövlətimiz, cəmiyyətimiz gələcək nəsillərin əlində olduğu üçün ölkənin, cəmiyyətin gələcək taleyi də məhz qadının təhsilli olmasından çox asılıdır. Deməli, qadınların savadlı olması və bu istiqamətdə inkişafı millətin inkişafı deməkdir. Belə ki, qadın nə qədər savadlı, elm və təhsil baxımından mükəmməl olarsa bir o qədər tərbiyəli övlad yetişdirə bilər. Nəticədə isə ölkənin gələcəyi etibarlı əllərdə olar.

Dünya praktikası ilə əlaqədar ədəbiyyatlara nəzər saldıqda, qadınların rəhbərlik etdikləri məktəblərdə nəticələrin daha yüksək olduğunu görmək mümkündür. Azərbaycandakı statistik məlumatlara əsasən isə müəllimlərin əksəriyyətinin qadınlardan ibarət olmasına baxmayaraq, məktəb idarəetməsində kişilər üstünlük təşkil edirlər. Ancaq bir məsələni xüsusilə vurğulamaq istərdik ki, Naxçıvan şəhər məktəblərində vəzifə tutan direktorların bir çoxu qadınlardır. Belə ki, Naxçıvan şəhərində fəaliyyət göstərən 20 məktəbdən 4-nün direktoru kişi 17 məktəbin direktoru isə qadındır. Qadın direktorları da ötən dövrlər ərzində idarəetmə sistemində yüksək nəticələr əldə etmişdirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: "Azərbaycan qadınının ictimai həyatımızdakı mövqeyi dilimizə, vətənimizə, torpağımıza, dövlətimizə, milli dəyərlərimizə və azərbaycançılıq məfkurəsinə sədaqət nümunəsi olmuşdur və gələcəkdə də olacaqdır".

ƏDƏBİYYAT

1. Abbasova S. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi və mədəni həyatında qadınların iştirakı / Naxçıvan müstəqillik illərində: hədəflər, inkişaf, nəticələr (3-4 dekabr 2015-ci ildə keçirilmiş elmi konfransın materialları). Naxçıvan: Əcəmi, 2016, s. 182-194.
2. Cəfərov H. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları. Bakı: Elm və təhsil, 2011, 544 s.
3. Gender bərabərliyi uğrunda mübarizə. https: kayzen.az/blog/qadin/25793/gender-bərabərliyi-uğrunda-mübarizə.html.
4. Hacıyev İ. Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında. Bakı: Elm və təhsil, 2016, 360 s.
5. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı. Naxçıvan: Əcəmi, 2020, 224 s.
6. Məmmədova Y. Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəblərinin inkişaf tarixi (1991-2015-ci illər). Tarix üzrə fəls. dokt. ... diss. Naxçıvan, 2017, 137 s.
7. Mollayev İ. Naxçıvan MSSR-də xalq maarifinin inkişafı. Bakı: Bilik, 1983, 31 s.
8. Mollayeva Ə. Azərbaycan Demokratik Respublikasının dövlət siyasətində gender probleminin həlli yolları // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Əsərləri, 2018, c. 85, № 6, s. 171-176.

9. Naxçıvan qadını bu gün. "Şərq qapısı" qəz., 2020, 06 mart.
10. Qəhrəmanova A. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikası kənd qadınlarının ictimai fəallığının ailə məişətinə təsiri // AMEA Naxçivan Bölməsinin Elmi Əsərləri, 2021, c. 17, № 1, s. 106-115.
11. Компасито: Пособие по обучению детей правам человека. http://www.tipii.edu.az/nodupload/editor/files/Gender%20bərabərliyi%20%20Kompasit.pdf.
12. https://ntv.az/news/cemiyyet/46079-yaradilan-imkanlar-neticesinde-muxtar-respublikada-yuksek-nufuz-qazanan-naxcivan-qizlar liseyi

Naxçıvan Dövlət Universiteti
E-mail: ***abbasova.s.z@mail.ru***

Sevinj Abbasova

GENDER ISSUE IN NAKHCHIVAN IN THE FIELD OF EDUCATION DURING THE YEARS OF INDEPENDENCE

The paper examines gender equality in education in Nakhchivan during the independence years, mainly in the second decade of the 21st century. Research has shown that there is gender equality in the Autonomous Republic. Even in some secondary schools in Nakhchivan, women are more likely than men to occupy leadership positions. As a result of the study, some statistical data were identified and presented. The obtained statistics show that gender equality is preserved in Nakhchivan. In addition, the study included information about the "Khanum Gyzlar" lyceum for girls.

Keywords: *Nakhchivan, education, school, gender, woman, man.*

Севиндж Аббасова

ГЕНДЕРНЫЙ ВОПРОС В СФЕРЕ ОБРАЗОВАНИЯ В НАХЧЫВАНЕ В ГОДЫ НЕЗАВИСИМОСТИ

В статье исследуется гендерное равенство в образовании в Нахчыване в годы независимости, в основном, во втором десятилетии XXI века. Исследования показали, что в автономной республике существует гендерное равенство. Даже в некоторых средних школах Нахчывана мы видим, что женщины чаще, чем мужчины, занимают руководящие должности. В результате исследования были выявлены и представлены некоторые статистические данные. Из полученной статистики видно, что в Нахчыване сохраняется гендерное равенство. Кроме того, в исследование была включена информация о лицее для девочек «Ханум гызлар».

Ключевые слова: *Нахчыван, образование, школа, пол, женщина, мужчина.*

Daxilolma tarixi: İlkin variant 29.06.2021
Son variant 26.07.2021

(Akademik İsmayıl Hacıyev tərfindən təqdim edilmişdir)

UOT 33

VASİF İSMAYILOV

AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT İDARƏÇİLİK SİSTEMİNİN MODERNLƏŞMƏSİNİN AKTUAL MƏSƏLƏLƏRİ

Məqalədə Azərbaycanın dövlət idarəçilik sisteminin modernləşməsinin mühüm istiqamətlərinin aktual məsələləri araşdırılmışdır. Məqalədə həmçinin demokratik dövlətlərdə dövlət idarəçilik sisteminin modernləşdirilməsini zəruri edən şərtlər göstərilmiş və Azərbaycanın dövlət idarəçilik sisteminin modernləşdirilməsinin özünəməxsus milli xüsusiyyətləri verilmişdir. İşdə dövlət idarəçilik sisteminin müxtəlif sahələrinin ñ siyasi, iqtisadi, sosial və s. sahələrinin modernləşdirilməsinin nəzəri və praktik tərəfləri təhlil edilmişdir. Azərbaycanın dövlət idarəçilik sistemində modernləşmə istiqamətində aparılan uğurlu islahatların müsbət nəticələri qeyd olunmuşdur. Xüsusilə dövlət idarəçilik sisteminin keyfiyyətinin yüksəldilməsi və effektivliyi məsələlərinə toxunulmuşdur.

Açar sözlər*: modernləşmə, dövlət idarəçilik sisteminin modernləşməsi, siyasi modernləşmə, iqtisadi modernləşmə, sosial modernləşmə.*

XX əsrin sonları və XXI əsrin əvvəllərində ölkələrin ictimai-siyasi həyatında yeni tendensiyalar meydana gəlməyə başladı. Yaranan bu yeni tendensiyalar mahiyyət etibarı ilə ümumbəşəri xarakter daşıyır. Dünyada baş verən sosial, iqtisadi, siyasi və digər proseslər açıq şəkildə görünməyə başladı. Bəzi cəmiyyətlər tradisionalizmi və elmi-texniki inqilabları, qlobalizmi və separatizmi, maarifçiliyi və dini fanatizmi, tərəqqi və tənəzzülü özlərinə cəlb etdilər, bəzi sosial qrupların cəmiyyətin siyasi həyatında iştirakı fəallaşdı, cəmiyyətin bəzi sahələri geri qaldı. Hazırda dünyanın və keçmiş SSRİ-nin müxtəlif ölkələrinin ictimai-siyasi həyatında mürəkkəbliklər və ziddiyyətlər davam edir. Həmin ölkələrin dövlət idarəçilik sistemləri ənənəvi qayda-qanunları saxlamaqla bərabər, həm demokratik, həm də qeyri-demokratik idarəetmə sistemlərinin əlamətlərinə uyğunlaşır və uyğunlaşmaqda davam edirlər.

Bu baxımdan dünya siyasi sistemində baş verən keyfiyyət dəyişikliklərinin ardıcıl şəkildə elmi araşdırılmasına ehtiyac vardır. Bu problemlərin içərisində daha çox dövlət idarəçilik sisteminin və cəmiyyətin modernləşməsi problemlərinin tədqiq edilməsi xüsusilə əhəmiyyətlidir. Çünki, həm dövlət idarəçilik sisteminin modernləşməsinin tədqiqinə, həm baş verən münaqişə və ziddiyyətlərin həllinə, həm də müxtəlif sosial, iqtisadi və siyasi böhranların aradan qaldırılmasına bəşəriyyətin böyük ehtiyacı var.

Ümumiyyətlə, dünyanın inkişaf etmiş dövlətlərinin tarixi təcrübəsi göstərir ki, ənənəvi və müasir cəmiyyətlərin modernləşməsi ilə bərabər, onların dövlət idarəçilik sistemləri də modernləşir. Dövlət idarəçiliyi sistemində baş verən modernləşmə əbədi və tarixi bir prosesdir. Buna görə də dövlət idarəçilik sistemində modernləşmə prosesi təkamül və inqilab yolu ilə (keyfiyyət sıçrayışları vasitəsi ilə) baş verir. Dövlət idarəçilik sisteminin modernləşməsinin qanunauyğunluqları hansılardır? Dövlət idarəçilik sisteminin qanunauyğunluqları ölkəmizin konkret tarixi şəraitinə necə uyğunlaşır? Ölkəmiz başqa dövlətlərin dövlət idarəçilik sisteminin modernləşməsi təcrübəsindən nələri götürə bilər? Azərbaycanın müasir siyasi elminin cavab verə biləcəyi bu cür suallar dövlət idarəçilik sisteminin modernləşməsi nəzəriyyəsi üçün olduqca aktualdır.

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının dövlət idarəçiliyi sistemində keyfiyyət sıçrayışları baş verdi. Köhnə totalitar

idarəçilik sisteminin yerində demokratik, hüquqi, dünyəvi və unitar dövlət idarəçilik sistemi yaradıldı. Demokratik dövlət idarəçilik sistemləri isə modernləşmə, yeniləşmə əsasında baş verir. Müasir Azərbaycanın demokratik dövlət idarəçiliyindəki modernləşmənin prinsipləri Ümummilli lider Heydər Əliyev tərəfindən yaradılan müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapdı. Heydər Əliyev qeyd edirdi ki, "Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır və hər bir hakimiyyət ancaq xalqın iradəsi əsasında əldə oluna bilər. Hakimiyyətin təşkil olunması konstitusiyada hakimiyyətin səlahiyyət bölgüləri əsasında nəzərdə tutulubdur: qanunvericilik hakimiyyəti, icra hakimiyyəti, məhkəmə hakimiyyəti. Bu prinsip XVIII əsrdə fransız filosofları Jan Jak Russo, Monteskye, Didro və digərləri tərəfindən sübut olunub, əsrlərin sınağından keçib, dünyanın demokratiya sahəsində inkişaf etmiş ölkələrində hökm sürür və biz də bu prinsipi demokratik hüquqi dövlət yaratmaq üçün və respublikamızda demokratiyanı inkişaf etdirmək üçün, vətəndaşların, insanların hüquqlarını qoruyub təmin etmək üçün əsas götürmüşük" [1, c. 5, s. 7].

Heydər Əliyev dövlət idarəçiliyində modernləşmənin Qərb demokratik dəyərləri ilə milli-mənəvi dəyərlərin sintezi əsasında möhkəm bünövrəsini qoydu. Heydər Əliyevin müasir Azərbaycanın demokratik dövlət idarəçiliyində modernləşmənin müəyyən etdiyi başlıca istiqamətlər Prezident İlham Əliyev tərəfindən uğurla və yaradıcı şəkildə davam etdirilir. İlham Əliyev modernləşmə prinsiplərinin reallaşdırılması ilə bağlı qeyd edir ki, "Şübhəsiz ki, regionumuzun gələcəyi cəmiyyətimizin nə dərəcə uğurla müasirləşdirilməsindən asılı olacaqdır. Yəni demokratik islahatların inkişaf etdirilməsi siyasi sistemin, cəmiyyətimizin müasirləşdirilməsi siyasətində daha fəal olmağımızdan asılı olacaqdır" [2, c. 10, s. 245].

Azərbaycanın müstəqillik illəri ərzində ölkə qarşısında yeni perspektivlər açıldı. Ancaq bütün bunlara baxmayaraq bu gün dünyada qlobal miqyasda iqtisadi böhranlar baş verir, kasıb ölkələrdə aclıq hökm sürür, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sosial təlatümlər baş verir. Müasir dünya isə bütün müsbət və mənfi cəhətləri ilə bir-biri ilə sıx surətdə bağlıdır. Bütün bu reallıqlarla böyüklüyündən, kiçikliyindən asılı olmayaraq hamı hesablaşmalıdır. Ölkəni iqtisadi böhrandan və digər fəlakətlərdən yalnız səmərəli və effektli dövlət idarəçiliyi vasitəsi ilə xilas etmək olar. Prezident İlham Əliyev səmərəli, keyfiyyətli və effektli dövlət idarəçiliyi nəticəsində Azərbaycanı dünyanın inkişaf etmiş ölkələri sırasına çıxarmışdır. Bu baxımdan müasir Azərbaycanın dövlət idarəçiliyinin modernləşdirilməsinin elmi cəhətdən araşdırılması mühüm əhəmiyyət kəsb edir.

Müasir Azərbaycanda aparılan sosial, iqtisadi, siyasi, hərbi islahatlar və mütərəqqi dəyişikliklər nəticəsində Azərbaycanın sosial-iqtisadi cəhətdən dünyanın inkişaf etmiş aparıcı dövlətləri sırasına çıxması dövlət idarəçiliyində uğurlu modernləşmənin nəticəsidir. Azərbaycanın dövlət idarəçiliyində hərbi modernləşmənin uğurları nəticəsində olduqca güclü olan və xristian dünyası tərəfindən müdafiə olunan Ermənistan üzərində qələbə çalındı. Düşmən üzərindəki 44 günlük bu şanlı qələbənin əsasında səmərəli dövlət idarəçiliyi, xalq, müzəffər ali baş komandan və müzəffər ordunun vəhdəti dayanır. Vətən müharibəsindəki qələbənin başlıca səbəblərindən biri də hərbidəki texnoloji və idarəçiliklə bağlı olan modernləşmə idi. Dövlət idarəçiliyinin modernləşdirilməsinin mühüm istiqamətlərindən biri də hərbi-texniki modernləşmə oldu. Hərbi-texniki modernləşmənin uğurları nəticəsində güclü Azərbaycan ordusu yaradıldı.

Azərbaycanda demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin bərqərar edilməsi nəticəsində dövlət idarəçiliyinin modernləşdirilməsi prosesinin ilkin mərhələsi başa çatmışdır.

Artıq Azərbaycan dövlət idarəçiliyində modernləşmə prosesinin yeni mərhələsinə postmodern mərhələsinə daxil olmuş və davamlı inkişafa əsaslanan inklüziv cəmiyyətin əsası qoyulmuşdur. Azərbaycanın dövlət idarəçiliyində modernləşmənin başlıca istiqamətləri – hüquqi, sosial, iqtisadi, aqrar və hərbi modernləşmə paralel olaraq aparılır. Hər bir sahədə aparılan islahatlar bir-birini tamamlayaraq dövlətin və cəmiyyətin gələcək inkişafına səbəb olur, modernləşmə prosesinə yeni impuls verir. Cəmiyyətin sosial, iqtisadi, siyasi və dövlət idarəçiliyindəki modernləşmə müasir Azərbaycan cəmiyyətinin ümumi transformasiyası üçün stimul olur. Bütün bunlar dövlətə, cəmiyyətə və insana münasibətdə müasir dünyanın qlobal proseslərində daha da aktual olur. Həmçinin mühüm bir məsələni qeyd etmək lazımdır ki, modernləşmə istiqamətində qəbul edilən hər bir qərar Azərbaycanın dinamik, sosial, iqtisadi və demokratik inkişafına səbəb olur. Buna görə də hazırda dövlət idarəçiliyinin modernləşdirilməsinin başlıca istiqamətləri azad vətəndaşın, təhlükəsiz və etibarlı həyatın, dövlətin sosial, iqtisadi və hüquqi institutlarının intensiv inkişafıdır. Dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi ümumilikdə Azərbaycanın modernləşdirilməsi strategiyasının tərkib hissəsidir.

Azərbaycanın dövlət idarəçiliyində modernləşmənin elmi-nəzəri cəhətdən araşdırılması siyasi elmlərin tədqiqat predmetinə çevrilib. Həmçinin, Azərbaycan Respublikasında demokratik, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşdığı bir şəraitdə dövlət idarəçiliyində modernləşmənin dinamikasının tədqiq edilməsi hazırda bir sıra humanitar və sosial elmlər üçün aktualdır. Son illərdə sosial, iqtisadi, siyasi hüquqi və dövlət idarəçiliyi sahələrində aparılan əsaslı islahatlar humanitar və sosial elmlər sahəsində bu problemə diqqəti daha çox artırıb. Son nəticədə problemin aktuallığı ondan ibarətdir ki, həm dövlət idarəçiliyi sisteminin, həm də cəmiyyətin ayrı-ayrı sahələrinin inkişafı ilə bağlı aparılan dövlət siyasəti, xüsusilə də sosial, iqtisadi inkişafla bağlı dövlət proqramlarının, Milli Prioritetlərin, Milli İnkişaf Strategiyalarının və İstiqamətlərin qəbul edilməsi, Azərbaycanın beynəlxalq siyasətdəki və İkinci Qarabağ müharibəsindəki uğurları və s. yaranmış obyektiv zərurətlə müəyyən edilir.

Bu baxımdan dövlət idarəçiliyinin modernləşməsi problemi müasir Azərbaycan üçün olduqca əhəmiyyətlidir. Bu problem həm siyasətşünas alimlər, həm siyasi elitalar, həm də dövlət xadimləri tərəfindən ardıcıl olaraq həmişə müzakirə edilir. Qloballaşan dünya, iqtisad və siyasi çağırışların permanent təzahürü şəraitində dövlət idarəçiliyinin keyfiyyətindən, vətəndaşların rifah halı, ölkənin gələcəyi və beynəlxalq aləmdəki nüfuzu daha çox asılıdır.

Dövlət idarəçilik sisteminin yeni formalarının bərqərar olmasını ifadə edən modernləşmə prosesləri kifayət qədər tədqiq edilməmişdir. Siyasi elmin başlıca vəzifələrindən biri təkcə dünya siyasətində baş verən keçmiş və müasir hadisələrin təhlilini vermək deyil, həm də gələcək ictimai-siyasi inkişafın ehtimal olunan proqnozlarını verməkdir. Dövlət idarəçiliyi sahəsində baş verən mümkün dəyişikliklər və sosial proqnozlaşdırma problemləri siyasi modernləşmənin ən aktual vəzifələrindən biridir. Çünki istənilən modernləşmə və ya cəmiyyətin müasirləşməsi hər şeydən əvvəl müasirliyin gələcəklə əlaqəsini də nəzərdə tutur.

Modernləşmə problemləri ilə bağlı həm Qərb tədqiqatçıları, həm də rus tədqiqatçıları kifayət dərəcədə tədqiqat işləri aparmışlar və hazırda da aparırlar.

"Modernləşmə" anlayışı elmə XX əsrin 50-60-cı illərində İsrail tədqiqatçısı Şmuel Eyzenştadt tərəfindən gətirilmişdir [3]. Alman filosofu Y.Xabermas "modern" sözünün mənşəyi ilə bağlı qeyd edir ki, o, ilk dəfə Avropada V əsrin sonlarında xristianlığın rəsmi status alması ilə onun keçmiş Roma bütpərəstliyindən fərqləndirilməsi məqsədi ilə işlədilmişdir, sonrakı dövrlərdə müasir mənasına gəlmişdir [4]. Modernləşmə nəzəriyyəsi iki başlıca istiqamətə

ayrılır: liberal və konservativ istiqamətlər. Modernləşmənin liberal istiqamətinin nümayəndəsi Q.Almond [5] ictimai inkişafın universal mənzərəsindən çıxış edərək qeyd edir ki, bütün ölkələr vahid bir sxem və nümunə üzrə inkişaf edirlər. Onun başlıca əlamətləri bazar iqtisadiyyatı, açıq cəmiyyət, yeni informasiya texnologiyaları, kommunikasiya şəbəkələrinin inkişafı, sosial mobillik, rasionallıq, plüralizm, demokratiya və azadlıq olmalıdır.

Modernləşmə nəzəriyyəsinin mühafizəkar istiqamətinin nümayəndələri, xüsusilə də S.Hantinqton [6] modernləşmə prosesinin daxili ziddiyyətlərinə siyasi iştirakla bağlı münaqişələrə və institusionallaşmaya, siyasi stabilliyin və qayda-qanunun qorunmasına, inkişaf etməkdə olan ölkələrin, o cümlədən MDB ölkələrinin milli və tarixi inkişaf xüsusiyyətlərinin uyğun xarakterinə və istiqamət proseslərinə daha çox diqqət yetirirlər.

Rus tədqiqatçılarından Q.V.Atamançuk [7] və O.M.Roy [8] Rusiya dövlət idarəçiliyinin modernləşdirilməsinin müxtəlif aspektlərini tədqiq etmişlər.

Müasir Azərbaycanın dövlət idarəçilik sisteminin modernləşməsinin elmi araşdırması hələ kifayət dərəcədə aparılmamışdır və iri həcmli tədqiqat əsərləri yazılmayıb. Problemlə bağlı elmi ədəbiyyatları təhlil edərkən qeyd etmək lazımdır ki, məqalə yazılarkən Ümummilli lider Heydər Əliyevin nitqləri, çıxışları, bəyanatları, müsahibələri, imzaladığı qərarlar və sərəncamların toplusu olan "Müstəqilliyimiz əbədidir" çoxcildliyindən, həmçinin Prezident İlham Əliyevin "İnkişafımız məqsədimizdir" çoxcildliyində irəli sürdüyü konsepsiyalardan və imzalayıb təsdiq etdiyi inkişaf strategiyalarından istifadə olunmuşdur.

13 yanvar 2010-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunda "Prezident İlham Əliyevin modernləşmə xətti və fəlsəfənin, sosiologiyanın və hüququn əsas prioritetləri" mövzusunda dəyirmi masa" keçirilmişdir. "Dəyirmi masada" ictimai və hümanitar elmlərin modernləşməsi problemləri müzakirə edilmişdir.

21 dekabr 2011-ci ildə Bakı şəhərində dünyanın 30-dan artıq ölkəsindən gəlmiş siyasətçilər, alimlər, ictimai xadimlərin iştirakı ilə "Modernləşmə siyasəti: yeni iqtisadi və sosial çağırışlar" mövzusunda keçirilən beynəlxalq konfransda bəşəriyyətin üzləşdiyi qlobal problemlər, ənənəvi iqtisadi və sosial inkişaf modelinə yenidən baxılmasını tələb edən məsələlər müzakirə obyekti olmuşdur. Prezident İlham Əliyev həmin beynəlxalq konfrans iştirakçılarına müraciətində demişdir ki, "Müasirləşmək, yeniləşmək siyasətimizin əsas mənasını, bizi inkişafa aparan yolun baş xəttini təşkil edir" [9].

Azərbaycan tədqiqatçılarından U.Ələkbərov [10], Ə.Nuriyev [11], R.Mehdiyev [12], V.Qasımlı [13], R.Rəhimli [14] və digər müəlliflər Azərbaycanda modernləşmə prosesinin müxtəlif aspektlərinə əsər, monoqrafiya, dərslik və məqalələr həsr etmişlər. Qeyd olunan tədqiqatçılar dövlət idarəçilik sisteminin və cəmiyyətin ayrı-ayrı sahələrinin modernləşməsi məsələlərini tədqiq etmişlər.

Azərbaycanda dövlət idarəçilik sisteminin effektli modernləşməsi nəticəsində inklüziv inkişafa əsaslanan cəmiyyətin əsası qoyulmuşdur. U.Ələkbərov "İnklüziv inkişafın idarə edilməsinin əsasları" adlı əsərində qeyd edir ki, inklüziv inkişaf dedikdə, dövlətin tərəqqisinin elə yolu başa düşülür ki, ölkənin hərtərəfli inkişafı həyata keçirilir və bu prosesin müsbət nəticələrini bütün vətəndaşlar hiss edir. Dövlətin hərtərəfli inkişafını və bütün ölkə vətəndaşlarının rifahının yüksəldilməsini təmin edən inklüziv inkişaf müasir dövlət idarəçiliyinin başlıca prioritetlərindəndir. 2018-ci ildə Davosda keçirilən Ümumdünya İqtisadi Forumu dünya ölkələrinin İnklüziv İnkişaf İndekslərini dərc etmişdir. Həmin sənədə əsasən Azərbaycanın inklüziv inkişaf indeksi 4,69-a bərabərdir və ölkəmiz keçid iqtisadiyyatına malik

ölkələr arasında dünyada üçüncü yeri tutur. Azərbaycanda inklüziv inkişaf indeksləri iqtisadi cəhətdən daha çox inkişaf etmiş ABŞ, Yaponiya, İtaliya, İsrail, İspaniya, Portuqaliya, həmçinin Türkiyə, Rusiya və başqa ölkələrin inklüziv inkişaf indekslərini geridə qoymuşdur [10, s. 3]. V.Qasımlı "İqtisadi modernizasiya" adlı tədqiqat əsərində Azərbaycanda iqtisadi modernləşmə problemlərini, xüsusilə aqrar sahənin modernləşdirilməsinin xüsusiyyətlərini təhlil etmişdir [13], Ə.Nuriyev "Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları" adlı monoqrafiyasında iqtisadi modernləşmənin xüsusiyyətlərini və başlıca istiqamətləri məsələlərini araşdırmışdır [11]. R.Mehdiyev Azərbaycanda modernləşmənin səciyyəvi xüsusiyyətlərini "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti" əsərində təhlil etmişdir [12].

Dövlət İdarəçilik sisteminin modernləşməsi prosesinin tərkib hissəsi olan mədəni modernləşmə problemi F.Məmmədov, "İdarəetmə mədəniyyəti: xarici ölkələrin təcrübəsi" monoqrafiyasında [15], təhsilin modernləşməsi problemi H.Əhmədovun "Qloballaşma, modernləşmə və innovasiyalı təhsil sisteminin paradiqması" məqaləsində [15] təhlil edilmişdir.

Azərbaycanda dövlət idarəçilik sisteminin modernləşməsi probleminin müxtəlif aspektləri U.Ələkbərov, R.Rəhimli, Ə.Z.Həbibova və M.Həsənovun birgə hazırladıqları "İnsan potensialına əsaslanan sosial müəssisələr Azərbaycanda davamlı innovativ inkişaf texnologiyası kimi" [17] adlı tədqiqat əsərində, R.Rəhimlinin "Dövlət qulluğunda innovasiyaların yeni mərhələsi" [14] adlı elmi məqaləsində, N.Hüseynovanın "Dövlət qulluğu və idarəetmə" [18] əsərində, S.Qayıblının "Azərbaycanın dövlət idarəçiliyinin modernləşməsi Avropaya inteqrasiya fonunda" [19] elmi məqaləsində işlənmişdir.

Ümumilikdə isə, problemlə bağlı qeyd olunan elmi ədəbiyyatların təhlili göstərir ki, dövlət idarəçilik sisteminin modernləşməsi problemi həm xarici müəlliflərin, həm də Azərbaycan müəlliflərinin əsərlərində xüsusi yer tutur. Ancaq, problemin müxtəlif aspektləri öyrənilsə də, Azərbaycanın dövlət idarəçilik sistemində modernləşmənin başlıca istiqamətləri siyasi elmdə kifayət dərəcədə tədqiq edilməmişdir.

Beləliklə, müstəqil Azərbaycan dövləti Qərb modernizasiyası əsasında dünyanın demokratik dövlətlərinə nümunə ola biləcək demokratik-hüquq dövlət və vətəndaş cəmiyyəti bərqərar edildi. Azərbaycanın dövlət idarəçiliyində modernləşmənin vacib və başlıca şərti kimi ictimai-siyasi sabitlik yaradıldı. Dövlət idarəçiliyində modernləşmənin başlıca hüquqi bazası kimi Azərbaycan Respublikasının Konstitusiyası referendum yolu ilə qəbul edildi. Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi sosial, iqtisadi, siyasi və hüquqi islahatların aparılması üçün ciddi və möhkəm hüquqi baza yaratdı.

ƏDƏBİYYAT

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: (46 cilddə) / H.Əliyev. Bakı: Azərnəşr, c. 5, 1998, 500 s.
2. Prezident İlham Əliyevin "Fövqəladə Ukrayna dəyirmi masası" beynəlxalq investisiya forumunun geniş iclasının açılışındakı nitqi: Əliyev İ.H. İnkişaf məqsədimizdir (108 cilddə) / İ.Əliyev. Bakı: Azərnəşr, 2012, s. 10, 408 s.
3. Эйзенштад Ш. Революция и преобразование обществ: Сравнительное изучение цивилизаций / Ш.Эйзенштад. Москва: Аспект Пресс, 1999, 415 с.
4. Хабермас Ю. Модерн-незавершенный проект / Пер. с нем. А.Б.Григорьева // Вопросы философии. Москва, 1992, № 4, с. 40-58.

5. Алмонд Г., Пауэлл, Дж. Сравнительная политология сегодня. Мировой обзор / Г.Алмонд, Дж. Пауэлл. Москва: Аспект Пресс, 2002, 537 с. ISBN.
6. Хантингтон С.Ф. Политический порядок в меняющихся обществах / С.Ф.Хантингтон. Москва: Прогресс-Традиция, 2004, 480 с.
7. Атаманчук Г.В. Теория государственного управления: учебник / Г.В.Атаманчук. 4-е изд., стер. Москва: Омега-Л., 2014, 525 с.
8. Рой О.М. Система государственного и муниципального управления: учебное пособие / О.М.Рой. 3-е изд. Санкт Петербург: Питер, 2018, 369 с.
9. Əliyev İlham. "Modernləşmə siyasəti: yeni iqtisadi və sosial çağırışlar" mövzusunda beynəlxalq konfransın iştirakçılarına 21 dekabr 2011-ci il tarixli müraciəti: (Elektron resurs). Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. Bakı, 2011. president.az/nnovati/3835/print
10. Ələkbərov U.K. İnklüziv inkişafının idarə edilməsinin əsasları. Ali məktəblər üçün dərslik / U.K.Ələkbərov. Bakı: Təhsil, 2018, 216 s.
11. Nuriyev Ə.X. Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları / Ə.X.Nuriyev. Bakı: Avropa, 2013, 422 s.
12. Mehdiyev R.Ə. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti / R.Mehdiyev, Bakı: Şərq-Qərb, 2008, 216 s.
13. Qasımlı V.Ə. İqtisadi modernizasiya / V.Ə.Qasımlı, Bakı, 2014, 311 s.
14. Rəhimli R.Z. Dövlət qulluğunda innovasiyaların yeni mərhələsi // Azərbaycan, 2019, 23 iyun.
15. Məmmədov F.T. İdarəetmə mədəniyyəti: xarici ölkələrin təcrübəsi / F.T.Məmmədov. Bakı: Apostrof Çap Evi, 2013, 672 s.
16. Əhmədov H. Qloballaşma, modernləşmə və innovasiyalı təhsil sisteminin paradiqması // Azərbaycan müəllimi, 2020, 31 iyul.
17. Ələkbərov U.K., Rəhimli R.Z., Həbibova Z.Z., Həsənov M.İ. İnsan potensialına əsaslanan sosial müəssisələr Azərbaycanda davamlı innovativ inkişaf texnologiyası kimi / U.K.Ələkbərov, R.Z.Rəhimli, Z.Z.Həbibova, M.İ.Həsənov. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2018, 184 s.
18. Hüseynova N.Ş. Dövlət qulluğu və kadr siyasəti / N.Ş.Hüseynova, Bakı: Adiloğlu, 2013, 476 s.
19. Гаиблы С. Модернизация государственного управления Азербайджана на фоне Европейской интеграция (Elektron resurs). Киев, 2015. Pi.iod.gov.ia/images/pdf/2015-2/12.pdf.

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
E-mail: ***vasif-ismayilov@mail.ru***

Vasif Ismayilov

CURRENT ISSUES OF MODERNIZATION OF THE PUBLIC ADMINISTRATION SYSTEM IN THE REPUBLIC OF AZERBAIJAN

The paper examines topical issues of important areas of modernization of the public administration system in Azerbaijan. The article also shows the conditions necessary for the modernization of public administration in democracies and the specific national characteristics

of the modernization of public administration in Azerbaijan. The study analyzes the theoretical and practical aspects of the modernization of various areas of public administration – political, economic, social, etc. The positive results of the successful reforms carried out to modernize the public administration system in Azerbaijan were noted. In particular, the issues of improving the quality and efficiency of the public administration system were touched upon.

Keywords: *modernization, modernization of public administration, political modernization, economic modernization, social modernization.*

Васиф Исмаилов

АКТУАЛЬНЫЕ ВОПРОСЫ МОДЕРНИЗАЦИИ СИСТЕМЫ ГОСУДАРСТЕННОГО УПРАВЛЕНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

В статье рассматриваются актуальные вопросы важных направлений модернизации системы государственного управления в Азербайджане. Здесь также показаны условия, необходимые для модернизации государственного управления в демократических странах, и своеобразные национальные особенности модернизации государственного управления в Азербайджане. В статье также исследуются теоретические и практические аспекты модернизации различных областей системы государственного управления – политической, экономической, социальной и т.д. Отмечены положительные результаты проведенных успешных реформ по модернизации системы государственного управления в Азербайджане. В частности, были затронуты вопросы повышения качества и эффективности системы государственного управления.

Ключевые слова: *модернизация, модернизация системы государственного управления, политическая модернизация, экономическая модернизация, социальная модернизация*.

(Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Rəcəb Rəhimli tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variat 30.08.2021
Son variant 09.09.2021

ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

UOT 902

VƏLİ BAXŞƏLİYEV

NAXÇIVANDA NEOLİT MƏDƏNİYYƏTİNİN MƏNŞƏYİ VƏ FORMALAŞMASI

Azərbaycanın, o cümlədən Naxçıvanın Neolit mədəniyyətinin mənşəyi ilə bağlı məsələlər tam şəkildə həll olunmamışdır. Bunun başlıca səbəbi Neolit dövrünün erkən mərhələsinə, keramikasız Neolit dövrünə aid abidələrin aşkar olunmamasıdır. Hazırda bəzi tədqiqatçılar Neolit mədəniyyətinin gəlmə olduğunu, digərləri isə yerli zəmində inkişaf etdiyini qeyd edirlər. Neolit yaşayış yerlərinin araşdırılması göstərir ki, Naxçıvanın abidələri özünəməxsus arxitektura və keramika məmulatı ilə Yaxın Şərq ölkələrinin Neolit mədəniyyətindən fərqlənir. Yerli obsidian yataqlarından istifadə, fauna və floranın əsas tərkibinin Cənubi Qafqaz üçün xarakterik olması təsdiq edir ki, Azərbaycanın, o cümlədən Naxçıvanın Neolit mədəniyyəti idxal olunmamışdır. Belə hesab edirik ki, Osmantəpə yaşayış yerinin materialları Neolit mədəniyyətinin Mezolit mədəniyyəti əsasında formalaşdığını deməyə imkan verir. Buna əsasən demək olar ki, Azərbaycanın Neolit mədəniyyəti yerli zəmində yaranmış və Yaxın Şərq ölkələri ilə sıx iqtisadi-mədəni əlaqələr şəraitində inkişaf etmişdir.

Açar sözlər: *Azərbaycan, Cənubi Qafqaz, Naxçıvan, Neolit, keramika, obsidian.*

Azərbaycanda aparılan araşdırmalar nəticəsində Neolit dövrünə aid xeyli yaşayış yerinin aşkar olunmasına baxmayaraq Neolit mədəniyyətinin mənşəyi ilə bağlı məsələlər tam şəkildə həll olunmamışdır. Bunun başlıca səbəbi Neolit dövrünün erkən mərhələsinə, keramikasız Neolit dövrünə aid abidələrin aşkar olunmamasıdır. Buna görə də Neolit mədəniyyətinin mənşəyi ilə bağlı qafqazşünas tədqiqatçılar arasında müxtəlif fikirlər yaranmışdır. Hələ Sovet dövründə Cənubi Qafqazın əkinçi-maldar tayfalarının Şimali Mesopotamiyadan gəlməsi ilə bağlı fikirlər söylənmişdi [7, s. 407]. Bunun başlıca səbəbi Cənubi Qafqaz abidələrində, o cümlədən I Kültəpədə Mesopotamiya mənşəli boyalı keramikanın aşkar olunması idi. Hazırda bəzi tədqiqatçılar yenə də bu fikri davam etdirərək Cənubi Qafqazın, o cümlədən Azərbaycanın Neolit mədəniyyətinin Yaxın Şərq ölkələrindən gəlmə olduğunu iddia edirlər [3, s. 98]. Onlar öz fikirlərini Neolit mədəniyyətinin hazır şəkildə ortaya çıxması ilə əsaslandırırlar. Hazırda Cənubi Qafqazda keramikalı Neolit dövrünün ən qədim yaşayış yeri I Kültəpə yaşayış yeridir. Karbon analizlər bu yaşayış yerində insanların e.ə. VII minilliyin ikinci yarısında məskunlaşdığını göstərir. I Kültəpədən aşkar olunan fauna və flora qalıqlarının analizi bu dövrdə əkinçilik və maldarlığın artıq formalaşdığını təsdiq edir. Digər tədqiqatçılar isə Neolit mədəniyyətinin yerli Mezolit mədəniyyəti ilə bağlı olması haqqında müəyyən fikirlər irəli sürmüşlər [11, s. 279-294]. Məsələ burasındadır ki, Cənubi Qafqazla yanaşı Urmiya hövzəsi və Şərqi Anadolunun bir qismində də indiyədək Neolit dövrünün erkən mərhələsinə aid yaşayış yerləri aşkar olunmamışdır. Məlum olduğu kimi, Azərbaycanda Daş dövrünün bütün mərhələləri Paleolit dövründən başlayaraq Mezolit dövrünə qədər ardıcıl şəkildə izlənmişdir. Tədqiqatçıların müəyyən bir qismi belə hesab edir ki, Mezolit dövründə havalar soyuq olduğu üçün insanlar bu bölgəni tərk edərək başqa yerlərə köç etmişlər. Ancaq 2020-ci ildə aparılan araşdırmalar zamanı Naxçıvanda, Şahbuz rayonunun Kükü kəndi yaxınlığında, dəniz səviyyəsindən 2400 m yüksəklikdə yerləşən Osmantəpə abidəsinin aşkar

olunması insanların soyuq iqlimlə mübarizə aparmaq imkanlarının olduğunu göstərir. Belə hesab edirik ki, Neolit mədəniyyətinin erkən mərhələsinin aşkar olunmaması abidələrin kifayət qədər yaxşı tədqiq edilməməsi ilə bağlıdır. Çünki son illər aparılan araşdırmalar zamanı aşkar olunan yeni abidələr Neolit və Eneolit mədəniyyətinin müxtəlif mərhələlərini ardıcıl izləməyə imkan vermişdir. Fikrimizə görə, Yalnız Yaxın Şərq mənşəli boyalı keramika, soyuq iqlim və Neolit mədəniyyətinin hazır şəkildə ortaya çıxması əsasında söylənən fikirlər kifayət qədər tutarlı deyil.

Arxitektura və keramika. Naxçıvanın Neolit yaşayış yerləri arasında I Kültəpə daha geniş tədqiq edilmişdir. I Kültəpənin birinci təbəqəsi üçün yarımqazma tipli evlər, ikinci təbəqəsi üçün isə dairəvi formalı evlər xarakterikdir. Qeyd etmək lazımdır ki, dairəvi arxitektura həmçinin bütün Cənubi Qafqazın yaşayış yerləri üçün xarakterikdir. Məlum olduğu kimi, Yaxın Şərq ölkələrinin Neolit mədəniyyəti üçün düzbucaqlı arxitektura xarakterik olmuşdur. I Kültəpədən aşkar olunmuş keramika məmulatının təhlili də onların Yaxın Şərqin qədim mədəniyyət mərkəzləri ilə çox az bağlı olduğunu göstərir. I Kültəpədən aşkar olunan boyalı keramika məmulatı da istər formasına, istərsə də naxış motivinə görə Yaxın Şərq nümunələrindən fərqlidir [5, s. 26-41]. Lakin tədqiqatçılar boyalı keramikanın müəyyən hissəsinin Yaxın Şərq ölkələrindən gətirildiyini söyləmişdir. Qeyd etmək istəyirik ki, Azərbaycanın, o cümlədən Naxçıvanın keramika məmulatının çox az bir qismi Yaxın Şərq mənşəlidir. Yaxın Şərq ölkələrindən idxal olunan mallar Naxçıvanın qədim sakinləri ilə Yaxın Şərq ölkələri arasında iqtisadi-mədəni əlaqələrin qədim tarixə malik olduğunu göstərir.



Şəkil 1. I Kültəpə yaşayış yerinin keramikası.

Fauna və flora qalıqları. Azərbaycanda, o cümlədən Naxçıvanda Neolit mədəniyyətinin yerli zəmində formalaşdığını təsdiq edən faktlardan biri yaşayış yerlərindən aşkar olunan fauna və flora qalıqlarının yerli olmasıdır. Belə ki, I Kültəpədən aşkar olunan heyvan sümüklərinin analizi xırdabuynuzlu heyvanların maldarlıqda birinci yeri tutduğunu göstərir. Birinci təbəqədəki sümüklərin 85%-i xırdabuynuzlu heyvanlara, 5%-i isə iribuynuzlu heyvanlara aid olmuşdur. İkinci təbəqədə iribuynuzlu heyvanlar sayı 15%-ə çatmış, xırdabuynuzlu heyvanlar isə 80%-ə qədər azalmışdır [12, s. 105]. Göründüyü kimi, azacıq dəyişiklik olmasına baxmayaraq xırdabuynuzlu heyvanlar heyvandarlıqda əsas yer tutmuşdur. Ehtimal ki, bu I Kültəpə sakinlərinin maldarlıqla məşğul olması və həyat tərzinin xüsusiyyətləri ilə bağlı olmuşdur. Xırdabuynuzlu heyvanlar başlıca olaraq keçi (*Capra hircus) və* qoyun (*Ovis aries*) cinslərindən ibarət olmuşdur ki, bu cinslər də yerli fauna üçün xarakterikdir. İribuynuzlu heyvandarlıqda üstünlük təşkil edən Bos taurus cinsi də yerli faunada, xüsusilə də Cənubi Azərbaycan ərazisində geniş yayılmışdır. Yabanı heyvan sümükləri arasında aşkar olunan ceyran (*Gazella sp.*), vəhşi keçi (*Capra aegagrus*), boz ayı (*Ursus arctos*) və digər vəhşi heyvan cinsləri də yerli fauna üçün xarakterikdir.

Əkinçilikdə əsasən çılpaq buğda (*Triticum aestivum/durum)*, arpa (*Hordeum vulgare)*, əmmər (*Triticum turgidum* subsp. *dicoccon)* və mərcimək (*Lens culinaris)* becərilmişdir. Tədqiqatların nəticəsi bu taxıl növlərinin ev şəraitinə uyğunlaşdırıldığını göstərir [12, s. 104-105]. Beləliklə, deyə bilərik ki, qədim Kültəpə sakinlərinin təsərrüfatında əsas yer tutan heyvan və bitki qalıqları yerli olmuşdur.

Obsidian qaynaqları. Arxeoloji araşdırmalar e.ə. VII-VI minillikdə Naxçıvanda köçmə maldarlığın mənimsənildiyini göstərir. Köçmə maldarlığın inkişafı, məhsuldarlığı artırmaq məqsədi ilə yeni otlaqların axtarılması bu dövrdə qədim insanların uzaq məsafələr qət etməsinə və xammal mənbələrini kəşf etməsinə səbəb olmuşdur. E.ə. VII-VI minilliklərdən başlayaraq Göyçə (indiki Sevan) hövzəsinin və Zəngəzur obsidianlarının istifadə olunması da bunu təsdiq edir (şəkil 2). Naxçıvanda və Şimal-Qərbi İranda obsidian yataqları olmadığından I Kültəpə sakinləri başlıca olaraq Zəngəzur (60%) və Göyçə hövzəsində yerləşən Göyhasar (39%) obsidianından istifadə etmişdir (şəkil 2). Digər yataqların obsidianları olduqca azdır [1, s. 17-19]. Osmantəpə yaşayış yeri obsidianlarının əksəriyyəti (97,8%) Zəngəzur yataqlarındandır. Göyhasar obsidianı, həmçinin Qarabağda Çalağantəpə və Töyrətəpə yaşayış yerlərində üstünlük təşkil etmişdir. Qeyd etmək lazımdır ki, I Kültəpə yaşayış yeri Göyçə obsidianından istifadəyə görə Cənubi Qafqazda dominant mövqeyə malikdir, bu isə Kültəpə sakinlərinin yataqlarla birbaşa əlaqə saxladığını göstərir. Zəngəzur və Göyhasarın obsidian yataqları Eneolit dövründə də geniş istifadə olunmuşdur. Belə ki, Naxçıvantəpədə Zəngəzur obsidianı 42%, Göyhasar obsidianı isə 37%-dir (şəkil 3). Ovçulartəpəsi yaşayış yerində isə obsidianın 74% Göyhasardan, 13%-i isə Zəngəzurdan gətirilmişdir. Urmiya hövzəsinin yaşayış yerləri başlıca olaraq (95%) Zəngəzur obsidianından istifadə etmişdir [10, s. 1956-1965]. Şübhəsiz ki, obsidian mənbələrinin istismar edilməsi regionlararası əlaqələrin yaranmasında müəyyən rol oynamışdır. Qeyd etmək istəyirik ki, Yaxın Şərq, o cümlədən Mesopotamiya ölkələrində başlıca olaraq Şərqi Anadolu obsidianı istifadə olunmuşdur [9, s. 301]. Urmiya hövzəsində yalnız e.ə. VI minillikdən başlayaraq Cənubi Qafqaz obsidianı istifadə olunmağa başlamışdır [9, s. 310]. Ancaq Naxçıvan yaşayış yerlərində başlıca olaraq Cənubi Qafqaz obsidianı istifadə olunmuşdur.



Şəkil 2. Kültəpə, Kolanı və Uçan Ağıl obsidianlarının analizinin nəticələri.

Dağ-mədən işi və metalişləmə. I Kültəpə yaşayış yerinin ikinci təbəqəsində dağ-mədən alətlərinin və metal əşyaların aşkar olunması bu təsərrüfat sahəsinin qədim Kültəpə sakinlərinin həyatında müəyyən yer tutduğunu göstərir [2, s. 58-78]. Duzdağdan da aşkar olunan dağ-mədən alətləri [13, s. 229-244] də mədənçiliyin Naxçıvanda qədim tarixə malik olduğunu təsdiq edir. Məlum olduğu kimi, I Kültəpə yaşayış yerinin ikinci təbəqəsində yeddi metal əşyanın qalığı aşkar olunmuşdur [2, s. 78]. Bu metal əşyaların əksəriyyəti mislə digər metalların qarışığından hazırlanmışdır. Lakin, forması məlum olmayan metal əşyalardan birinin tərkibində 0,4% mərgümüş vardır [4, s. 31]. Digər əşya, mis burğu, mis-mışyak-nikel qarışığından hazırlanmışdır [4, s. 32]. Tədqiqatçıların fikrinə görə mis-nikel ərintisindən hazırlanmış əşyalar cənub ölkələri üçün xarakterikdir. Onlar ya idxal olunmuş, ya da idxal olunmuş xammal əsasında hazırlanmışdır [6, s. 23].



Şəkil 3. Naxçıvantəpə obsidianlarının analizinin nəticələri.

İ.R.Səlimxanovun fikrinə görə, o dövrdə insanlar nikellə hələ tanış deyildilər, lakin nikelli metalın bəzi xüsusiyyətləri onlara məlum idi. Ehtimal ki, qədim metallurq əritmə ocağına nikel filizini də əlavə etmişdir [8, s. 58]. I Kültəpənin mis-arsen ərintisindən hazırlanmış əşyaların idxal malı olaraq inkişaf etmiş Yaxın Şərq ölkələrdən gətirildiyini güman etmək olmaz. Çünki, mis-arsen ərintisindən hazırlanmış əşyalar Yaxın Şərq ölkələri üçün xarakterik deyil.

Osmantəpə yaşayış yeri. Yaşayış yerindən aşkar olunan alətlərin tədqiqi göstərir ki, bəzi alətlər çoxfunksiyalı olmuşdur. Əmək alətlərinin bənzərləri Mezolit və Erkən Neolit dövrü abidələrindən məlumdur. Qeyd etmək lazımdır ki, qısa saplaqlı ərsinlərin bənzərləri Cənubi Qafqazın Son Neolit dövrü abidələrindən məlum deyil. Əmək alətlərinin tipoloji analizinə əsasən demək olar ki, Osmantəpənin qədim sakinləri başlıca olaraq maldarlıq və yığıcılıqla məşğul olmuşlar. Lakin oraq dişləri və keramika məmulatı istehsal təsərrüfatının mövcud olduğunu təsdiq edir.

Osmantəpə yaşayış yerinin tədqiqi Naxçıvanın qədim sakinlərinin hansı yollarla obsidian yataqlarına doğru getdiyini də dəqiqləşdirməyə imkan verir. Obsidian alətlərin mikroskopik tədqiqi bu yaşayış yerinin obsidianın daşınmasında keçici yaşayış yeri kimi deyil, həmçinin insanların burada müəyyən müddət yaşadığını göstərir. Demək olar ki, Osmantəpə yaşayış yerinin materialları Mezolitdən Neolitə keçid dövrünü əks etdirir. Araşdırmalar obsidian alətlərin hazırlanmasında başlıca olaraq Göyçə və Zəngəzur obsidianından istifadə olunduğunu göstərir ki, bu da Cənubi Qafqazda, o cümlədən Azərbaycanda keramikalı Neolitin yerli zəmində inkişaf etdiyini təsdiq edir. Osmantəpədə keramika məmulatının azlığı keramikalı Neolit dövrünün yeni başlandığını göstərir. Yaşayış yerinin üst təbəqəsindən götürülən ağac kömürünün analizi e.ə. 5735-5600-ci ili göstərmişdir (şəkil 4). Lakin arxeoloji materialların təhlilinə əsaslanaraq yaşayış yerini e. ə. 9500-7500-cü illərə aid etmək olar.



Şəkil 4. Osmantəpədən götürülən kömür analizinin nəticəsi.

Nəticə. Neolit yaşayış yerlərinin araşdırılması göstərir ki, Naxçıvanın abidələri özünəməxsus arxitektura və keramika məmulatı ilə Yaxın Şərq ölkələrinin Neolit mədəniyyətindən fərqlənir. Yerli obsidian yataqlarından istifadə, fauna və floranın əsas tərkibinin Cənubi Qafqaz üçün xarakterik olması təsdiq edir ki, Azərbaycanın, o cümlədən Naxçıvanın Neolit mədəniyyəti idxal olunmamışdır. Belə hesab edirik ki, Osmantəpə yaşayış yerinin materialları Neolit mədəniyyətinin Mezolit mədəniyyəti əsasında formalaşdığını deməyə imkan verir. Buna əsasən demək olar ki, Azərbaycanın Neolit mədəniyyəti yerli zəmində yaranmış və Yaxın Şərq ölkələri ilə sıx iqtisadi-mədəni əlaqələr şəraitində inkişaf etmişdir. Şübhə etmirik ki, gələcək tədqiqatlar zamanı Azərbaycanın Neolit mədəniyyətinin yerli zəmində inkişafını təsdiq edən yeni faktlar aşkar olunacaqdır.

ƏDƏBİYYAT

1. Baxşəliyev V. Naxçıvanda 2018-ci ilin arxeoloji tədqiqatları. Naxçıvan: Əcəmi, 2019, 104 s.
2. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с.
3. Ахундов Т.И. Неолит Южного Кавказа // Antiquities of East Europe, South Asia and South Siberia in the Context of Connections and Interactions within the Eurasian Cultural Space (new data and concepts), proceedings of the international conference (St. Petersburg, november 18-22, 2019). St. Petersburg, 2019, c. 97-100.
4. Бахшалиев В. Древняя металлургия и металлообработка на территории Нахчывани. Баку: Элм, 2005, 120 с.
5. Бахшалиев В.Б., Маро К., Реми Б., Кулиева З. Археологические раскопки на поселении Кюльтепе / Problems of the Archaeology of the Caucasus and Near East. Neolithic - Late Bronze Age. Baku: Институт археологии и этнографии, 2017, с. 26-41.
6. Махмудов Ф.А., Мунчаев Р.М., Нариманов И.Г. К древней металлургии Кавказа // Советская археология, 1968, № 4, с. 16-26.
7. Массон В.М. Средняя Азия и Древний Восток. Москва-Ленинград: Наука, 1964, 468 с.
8. Селимханов И.Р. Разгаданные секреты древней бронзы. Москва: Наука, 1970, 78 с.
9. Khademi N.F., Abedi A., Glascock M.D., Eskandari N., Khazaee M. Provenance of prehistoric obsidian artifacts from Kul Tepe, Northwestern Iran using X-ray fluorescence (XRF) analysis // Journal of Archaeological Science, 2013, No. 40/4, p. 1956-1965.
10. Nishiaki Y., Guliyev F., Kadowaki S. Chronological contexts of the Earliest Pottery Neolithic in the South Caucasus: Radiocarbon dates for Göytepe and Hacı Elemxanlı Tepe, Azerbaijan // American Journal of Archaeology, 2015, No. 119/3, p. 279-294.
11. Marro C., Bakhshaliyev V., Berthon R., Thomalsky J. New light on the Late Prehistory of the South Caucasus: Data from the recent excavation campaigns at Kültepe I in Nakhchivan, Azerbaijan (2012-2018) // Paléorient, 2019, v. 45/1, p. 81-113.
12. Marro C., Bakhshaliyev V., Severine S., Alıyev N. Archaeological Investigations on the Salt Minebof Duzdagi (Nakhchivan, Azerbaijan) // TUBA-AR, 2010, v. 13, p. 229-245.

AMEA Naxçıvan Bölməsi
E-mail: ***velibahshaliyev@mail.ru***

Veli Bakhshalyiev

GENESIS AND FORMATION OF NEOLITHIC CULTURE OF NAKHCHIVAN

Issues related to the genesis of the Neolithic culture of Azerbaijan, including Nakhchivan, are not adequately resolved. The main reason for this is that monuments of the early period, a ceramic Neolithic, still have not been identified. Some researchers suggest that Neolithic culture is brought in, while others believe it is developed on local soil. A study of the Neolithic monuments of Nakhchivan shows that they differ in their peculiar architecture and ceramic products from the cultures of Middle Eastern countries. The use of local obsidian, the main composition of fauna and flora, which are characteristic of the South Caucasus, claims that the Neolithic culture of Azerbaijan, including Nakhchivan, has not been brought. We believe that the settlement materials allow us to conclude that Neolithic culture was formed based on Mesolithic culture. On this basis, it can be said that the Neolithic culture of Azerbaijan appeared on local soil and developed with close cultural and economic contacts with Middle Eastern countries.

Keywords: *Azerbaijan, South Caucasus, Nakhchivan, Neolithic, ceramics, obsidian.*

Вели Бахшалиев

ГЕНЕЗИС И ФОРМИРОВАНИЕ НЕОЛИТИЧЕСКОЙ КУЛЬТУРЫ НАХЧЫВАНА

Вопросы, связанные с генезисом неолитической культуры Азербайджана, в том числе и Нахчывана, не разрешены должным образом. Основной причиной этого является то, что памятники раннего периода, некерамического неолита, до сих пор не выявлены. В настоящее время некоторые исследователи предполагают, что неолитическая культура была импортирована, а другие считают, что она развивалась на местной почве. Исследование неолитических памятников Нахчывана показывает, что они отличаются от культур ближневосточных стран своеобразной архитектурой и керамическими изделиями. Использование местного обсидиана, основной состав фауны и флоры, которые характерны для Южного Кавказа утверждают, что неолитическая культура Азербайджана, в том числе и Нахчывана, не импортирована. Считаем, что материалы поселения позволяют сделать вывод, что неолитическая культура формировалась на базе мезолитической культуры. На этой основе можно сказать, что неолитическая культура Азербайджана появилась на местной почве и развивалась в тесном культурно-экономическом контакте с ближневосточными странами.

Ключевые слова: *Азербайджан, Южный Кавказ, Нахчыван, неолит, керамика, обсидиан.*

Daxilolma tarixi: İlkin variant 25.08.2021
Son variant 16.09.2021

UOT 902

TOĞRUL XƏLİLOV

MADDİ VƏ MƏNƏVİ MƏDƏNİYYƏTİMİZİN ÖYRƏNİLMƏSİNDƏ TUNC DÖVRÜ KERAMİKALARININ ƏHƏMİYYƏTİ

Hər bir xalq maddi-mənəvi dəyərlər sisteminə malikdir. Xalqın mövcudluğunun əsas göstəricisi olan maddi-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Maddi-mənəvi dəyərlər bizim abidələrimiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir. Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvanda da dövlət tərəfindən tariximizin, maddi və mənəvi mədəniyyətimizin daha dərindən öyrənilməsinə göstərilən diqqət və qayğı nəticəsində muxtar respublikanın ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı maddi-mənəvi mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi özündə əks etdirən çoxlu arxeoloji materiallar aşkar olunmuşdur. Belə arxeoloji materiallardan bir qrupunu keramika məmulatları təşkil edir. Onlar gil qablardan, insan, heyvan fiqurlarından və digər arxeoloji materiallardan ibarətdir. Məqalədə həmin keramika məmulatlarından bir qrupu öyrənilmiş, onların milli-mənəvi dəyərlərimizin, maddi-mənəvi mədəniyyətimizin öyrənilməsində mühüm elmi əhəmiyyət daşıdığı müəyyən edilmişdir.

Açar sözlər: *Naxçıvan, gil qablar, mənəvi mədəniyyət.*

Hər bir xalqın tarixdə mövcud olmasının əsas göstəricisi onun maddi-mənəvi mədəniyyətidir. Maddi-mənəvi mədəniyyətlə bağlı olan artefaktlar dəyərlər sistemini təşkil edir. Dəyərlər sisteminə abidələrimiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, ədəbiyyatımız və incəsənətimiz daxildir. Azərbaycan xalqının ümummilli lideri H.Əliyev milli-mənəvi dəyərlərimizin dəqiq elmi və mənəvi-əxlaqi mahiyyətini bildirərək deyirdi: "*Milli ideologiyamızın əsas tərkib hissəsi bizim milli-mənəvi dəyərlərimizdir. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz".*

Xalqımızın əsrlər boyu yaratdığı zəngin milli-mənəvi dəyərlərə və maddi irsə yüksək qiymət verən ulu öndər arxeoloji və etnoqrafik tədqiqatları daim diqqət mərkəzində saxlamış, bu sahəyə qayğı göstərmişdir. Ümummilli lider hələ keçmiş sovetlər dönəmində tariximizin qədimliyi və zənginliyinin mühüm göstəricisi olan tarixi abidə və eksponatların qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi məqsədi ilə Azərbaycanın bütün bölgələrində tarix-diyarşünaslıq muzeylərinin yaradılması haqqında sərəncam imzalamışdır. Ulu öndərin milli-mənəvi dəyərlərin qorunması ilə bağlı 2001-ci il avqustun 13-də verdiyi "Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir" adlı bəyanatı problemə təkcə dövlət rəhbərinin yox, həm də müdrik bir el ağsaqqalının münasibəti idi. *"Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik"*-deyən ümummilli liderimizin işıqlı ideyaları bu gün də yaşayır və həyata keçirilir. Ulu öndərin zəngin dövlətçilik ənənələrini davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov tərəfindən milli-mənəvi dəyərlərimizin dərindən öyrənilməsi, onun qorunub saxlanılması istiqamətində bir çox mühüm işlər görülür. Arxeoloji və etnoqrafik tədqiqatlar daim diqqət mərkəzində saxlanılır, tarixi abidə və eksponatlar qorunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov cənabları tərəfindən 2012-ci ilin Naxçıvanda milli dəyərlər ili elan edilməsi milli-mənəvi dəyərlərimizin dərindən öyrənilməsi, onun qorunub saxlanılması və gənc nəsillərə çatdırılmasında mühüm yer tutur.

Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvanda da, maddi və mənəvi mədəniyyətimizin daha dərindən öyrənilməsinə dövlət tərəfindən göstərilən diqqət və qayğının nəticəsində muxtar respublikanın ərazisində sistemli şəkildə arxeoloji tədqiqatlar aparılır. Aparılan arxeoloji tədqiqatlar zamanı maddi-mənəvi mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi özündə əks etdirən çoxlu arxeoloji materiallar aşkar olunmuşdur. Belə arxeoloji materiallardan bir qrupunu keramika məmulatları təşkil edir. Naxçıvan diyarının Tunc dövrü abidələrində müxtəlif formalı belə keramika məmulatları aşkar olunmuşdur. Gil qabları, insan və heyvan fiqurlarını və s. buna nümunə göstərmək olar.

Heyvan fiqurları I Kültəpə yaşayış yerinin Erkən Tunc dövrü təbəqəsində [5, s. 141], Erkən Tunc dövrünə aid Maxta [1, s. 66], Ovçulartəpəsi [3, s. 348] yaşayış yerlərində aşkar olunmuşdur şəkil (1, 5,6, 8, 9) Onlar it, at, keçi, öküz fiqurlarından ibarətdir. Bu keramika məmulatlarının əksəriyyəti qırılmış halda qeydə alınmışdır. Naxçıvanla yanaşı Cənubi Qafqazdakı Böyük Kəsik, II Poylu [6, s. 25], Baba Dərviş [9, s. 95-97], III Yarımtəpə [11, s. 148], Ur, Tell Xəzinə [13, s. 5-24], Göytəpə, Təpə-Hisar, Təpə-Gavur abidələrində [12, s. 15-18] və digər yerlərdə belə keramika məmulatı aşkar edilmişdir. Bu keramika məmulatının elmi əhəmiyyəti ondan ibarətdir ki, onlar Erkən Tunc dövrünün inanclar sistemini, dini-ideoloji görüşlərini öyrənməklə yanaşı Naxçıvanda ibtidai heykəltəraşlığın, bədii plastika sənətinin tarixini öyrənmək sahəsində də özünəməxsus yer tutur və mühüm elmi əhəmiyyət daşıyır.

Qızılburun yaşayış yerindən aşkar olunmuş kişi fiquru orijinallığına görə qədim Azərbaycan heykəltəraşlığının ən gözəl nümunələrindəndir (şəkil 1, 2). Bu fiqurun bənzəri hələlik həm Cənubi Qafqazın, həm də Yaxın Şərqin digər abidələrində qeydə alınmamışdır. Heykəlin orijinallığı ondan ibarətdir ki, onun üzərində heç bir naxış vurulmadan ağ, qara və qırmızı rənglərdən istifadə olunaraq maddi və mənəvi mədəniyyətimizin öyrənilməsində özünəməxsus yer tutan maraqlı təsviri sənət nümunəsi yaradılmışdır. Orada kişinin bədəni qara və qəhvəyi rəngli incə xətlərlə naxışlanmışdır. Üzü yastı, alnı bir az qabarıq, baş və bədən üzvləri çox mütənasib şəkildə, paltarlı, çəkməli və papaqlı, sol əli kəmərinin üzərinə qoyulmuş formada, realist üslubda verilmişdir. Bu keramika məmulatının orijinallığı ondan ibarətdir ki, orada Orta Tunc dövrü insanlarının geyim mədəniyyəti əks olunmuşdur. Geyimin milli-mənəvi dəyərlərimizi öyrənmək sahəsində elmi əhəmiyyəti ondan ibarətdir ki, orada maddi milli xüsusiyyət əks olunur, xalqın tarixi ilə bağlılıq təşkil edir, sabit etnik əlamətlərdən hesab edilir. Xalq yaradıcılığının tarixi, etnoqrafik və bədii xüsusiyyətləri hər zaman öz əksini geyimlərdə tapır. Etnogenez məsələlərini aydınlaşdırmaq, xalqlar arasında mədəni-tarixi əlaqə və qarşılıqlı təsir məsələlərini müəyyənləşdirmək işində yardımçı material rolunu oynayır.

Tunc dövrü insanlarının maddi və mənəvi mədəniyyətini öyrənmək sahəsində özünəməxsus yer tutan keramika məmulatları içərisində üzərində müxtəlif rəsmlər çəkilmiş gil qablar çoxluq təşkil edir. Onlar boyalı və boyasız olmaqla iki qrupa bölünür. Qızılburundan, I Kültəpədən, II Kültəpədən, Nəhəcirdən, Şahtaxtıdan və digər abidələrdən belə artefaktlar aşkar edilmişdir. Qızılburun abidəsində aşkar olunmuş boyalı küpələrdən birinin üzərində içərisində torvari naxışlar olan, əsası yuxarı olan bucaq formalı rəsmin arasında yan-yana, ayaqları dizdən bir qədər bükülmüş iki insan qarşı-qarşıya çəkilmişdir. Rəsmlərdən biri qara rənglə, digəri qırmızı rənglə verilmişdir. Qırmızı rəngli rəsm qara rənglidən fərqli olaraq döymə formasında nöqtələrlə çiyinləri bir qədər çıxıntılı formada əks olunmuşdur. O hər iki qollarını dirsəkdən bükərək yuxarı qaldırmışdır. Onun qolunun biri qarşısındakı insanın çiyninə doğru yönəlmişdir. Qara rənglə çəkilmiş kişinin əynində arxalığa bənzər paltar, belində

qırmızı qurşaq, başında qırmızı papaq verilmişdir. Onun bir qolu dirsəkdən bükülərək yuxarı qalxmışdır. Yuxarı qaldırdığı qolundakı əlində yaylıq formasında qırmızı əşya tutmuşdur. Digər əlini yanındakı insanın dizinin üstünə qoymuşdur. Qırmızı rəngli insanın hər iki qolu dirsəkdən bükülü formada yuxarıya qalxmışdır (şəkil 1, 1). Tədqiqatçı V. Əliyev bu təsvirdə qara rəngli rəsmin kişiyə, qırmızı rəngli rəsmin qadına aid olduğunu, orada rəqs süjetinin verildiyini qeyd etsə də, onun hansı rəqs növü olduğunu göstərməmişdir [4, s. 58]. Bu təsvirə diqqət yetirdikdə məlum olur ki, orada da geyim mədəniyyəti ilə bağlı xüsusiyyətlər vardır. Həmin xüsusiyyətlərdən biri ondan ibarətdir ki, kişiyə aid olduğu ehtimal edilən rəsmlə, qadına aid olduğu ehtimal edilən rəsmin geyimi eyni deyil, bir-birindən fərqlənir. Bu xüsusiyyətə əsasən Orta Tunc dövründə Naxçıvanın qadın və kişi geyimləri haqqında da müəyyən məlumat əldə etmək mümkündür.

Bu qabın üzərində olan digər maraqlı xüsusiyyət, hər iki insanın rəqs edən vəziyyətdə çəkilməsi musiqi mədəniyyətimizlə bağlılıq təşkil edir. Musiqinin milli-mənəvi dəyərlərimizin əsasını təşkil etməsi haqqında ümummilli liderimiz Heydər Əliyev demişdir: "*Musiqi ayrı-ayrı dillərdə danışan, müxtəlif inkişaf yolları keçmiş, bir-birindən fərqlənən mənəvi və maddi dəyərlərə malik xalqların ən gözəl qarşılıqlı anlaşma və ünsiyyət vasitəsidir*". Yallı rəqsi oynayan zaman insanların əlində yaylıq və ya dəsmal tutmasını, bir əlini dizi üzərinə qoymasını nəzərə alsaq ehtimal etmək olar ki, rəsmdə qədim yallı rəqsi əks olunmuşdur.

Şəkil. 1, 2 – Qızılburun (Əliyev, 1977); 3, 4 – Şahtaxtı (Агаев, 2002); 5, 6 – I Kültəpə (Абибуллаев, 1982); 7 – Kültəpə (Baxşəliyev, 200)], 8 – I Maxta (Aşurov, Hüseynova, Əliyeva, 2015); 9 – Ovçulartəpəsi (Baxşəliyev, Marro, Aşurov, 2010).

II Kültəpə yaşayış yerindən əldə edilmiş polixrom boyalı keramika parçasının üzərindəki təsvirdə maddi və mənəvi mədəniyyətimizlə bağlı süjet bir qədər fərqli formada əks olunmuşdur. Onun üzərində qara rənglə dama taxtasını xatırladan naxış, hərəkət vəziyyətində iki insan və qırmızı rənglə heyvan rəsmi çəkilmişdir. İnsanların biri qabaqda, digəri onun arxasında verilmişdir. Qabaqda gedən adamın başında lələkdən çələng, belində yaya bənzər əşya göstərilmişdir. Onun çiyinləri arxadakına nisbətən enli verilmişdir. Bir əli qabağa, digər əli isə arxadakı yoldaşına tərəf istiqamətlənmişdir (şəkil 1,7). Arxadakı insan əlini dirsəkdən

bükərək yuxarı qaldırmışdır [2, s. 76] (şəkil 1, 7). Tədqiqatçı alim V.Əliyevin fikrinə görə orada insanların müəyyən bir iş dalınca getməsi əks olunmuşdur [5, s. 71]. Tədqiqatçının fikri müəyyən qədər məntiqə uyğun olsa da, oradakı bəzi elementləri dərindən tədqiq edərkən ehtimal etmək olar ki, təsvirdə qabaqdakı insan əlini arxaya tərəf uzatmaqla sanki yoldaşına təhlükə olduğunu bildirir. Arxadakı insan isə əlini yuxarı qaldırmaqla ona başa düşdüyünü söyləyir.

Şahtaxtı nekropolunda aşkar edilmiş küpə tipli qabların üzərindəki təsvirdə maddi-mənəvi mədəniyyətimizlə bağlı süjet müxtəlif heyvan rəsmlərinin, həndəsi ornamentlərin birlikdə verilməsi ilə əks olunmuşdur [8, tab. XII, 1, 2]. Qablardan birinin boğazında şaquli xətt, xətdən aşağıda keçi, vəhşi eşşək və ya at, onlardan aşağıda isə kəsişən xətlərin kombinasiyasından ibarət kəmərvarı naxış verilmişdir. Keçi düz durmuş vəziyyətdə, vəhşi at və ya eşşək isə arxa hissəyə baxan vəziyyətdə çəkilmişdir. Onların arasında bir qədər iri və fərqli şəkildə kəsişən xətlərdən ibarət başqa bir naxış, keçinin başı üzərində quş, quşun yanında isə iki vəhşi canavar əks olunmuşdur. Canavarlardan biri arxa hissədən keçini boynundan tutmuşdur. İkinci canavar isə ona qabaqdan hücum etmişdir. Oradan tapılmış digər qabın üzəri şaquli xətlərlə üç hissəyə ayrılmışdır. Birinci və üçüncü zolaq ensiz olsa da, ikinci zolaq nisbətən enli çəkilmişdir. Üst zolaqda bir-birinin arxasınca quşlar sadə motivdə verilmişdir. Orta zolaqda keçilər, keçilərə hücum edən canavar və digər vəhşi heyvanlar çəkilmişdir. Üçüncü zolaqda isə kəsişən xətlərdən ibarət kəmərvarı naxış verilmişdir (şəkil 1, 3, 4). Bu qablar forma və xüsusiyyətlərinə görə bir-birlərindən fərqlənsələr də, naxışlanma motivinə, yəni ornamentlərinə görə oxşarlıq təşkil edir. Hər iki tip qablarda həndəsi ornamentlərin fonunda çəkilmiş quş, canavar, keçi rəsmləri ilə heyvanların mübarizəsi səhnəsi əks olunmuşdur. Bu tip təsvirlərin semantikası hər zaman müzakirə obyekti olmuş, bununla bağlı L.Vulli, A.Qraç, E.Kuzmin, M.Hartner və digər tədqiqatçılar müxtəlif fikirlər irəli sürmüşlər. L.Vulliye görə yırtıcı heyvanların dırnaqlılara hücum etməsi qələbəni simvolizə etmişdir [14, s. 81]. A.Qraç belə rəsmlərdə iki etnik qrupa aid totemlərin mübarizəsinin verildiyini, gücün nümayiş olunduğunu qeyd etmişdir [10, s. 31]. M.Hartnerə görə bu tip rəsmlər astral hadisələrlə bağlı olmuşdur [15, s. 12]. Fikirlər müxtəlif olsa da, onların hamısını birləşdirən əsas xüsusiyyət ondan ibarətdir ki, belə təsvirlər mifoloji xarakter daşıyır. Tunc dövründə bir çox heyvanların insanlarının dini-ideoloji görüşlərində, mifik düşüncə tərzində özünəməxsus yer tutduğunu əks etdirir.

Aparılan araşdırma sonda belə bir nəticəyə əsas verir ki, Naxçıvan diyarının Tunc dövrü abidələrində qeydə alınmış hər bir keramika məmulatı maddi və mənəvi mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi öyrənmək üçün əvəzsiz mənbədir. Onlar Azərbaycan arxeologiyasında özünəməxsus yer tutur, mühüm elmi əhəmiyyət daşıyır. Naxçıvanın qədim sivilizasiya mərkəzlərindən biri olduğunu, bu ərazidə məskunlaşmış qədim əkinçi-maldar tayfaların özünəməxsus zəngin mədəniyyətinin olduğunu göstərir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin sözləri ilə desək *"biz tarixi köklərimizi həmişə iftixar hissi ilə qiymətləndirməliyik və tarixi köklərimizin mənasını dünyaya bəyan etməliyik, yaymalıyıq, təbliğ etməliyik, onunla fəxr etməliyik. Ölkəmiz keçmişdəki kimi, xüsusən də bu gün bəşəri dəyərləri xüsusilə bərqərar edərək, onları öz milli ənənələri ilə, milli-mənəvi dəyərləri ilə birləşdirir*".

ƏDƏBİYYAT

1. Aşurov S.H. Naxçıvan İlk Tunc dövrü keramikası. Bakı: Nafta-Press, 2002, 158 s.
2. Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
3. Baxşəliyev V.B., Marro C., Aşurov S.H. Ovçulartəpəsində arxeoloji tədqiqatlar / Azərbaycanda arxeoloji tədqiqatlar-2012. Bakı, 2013, s. 343-349.
4. Əliyev V.H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 163 s.
5. Əliyev V.H. Gəmiqaya. Bakı: Əbilov, Zeynalov və oğulları, 2005, 147 s.
6. Müseyibli N.E. Qədim Azərbaycanda itlərdən istifadə və it kultu / Azərbaycan arxeologiyası və etnoqrafiyası. Bakı: Nafta-Press, 2008, s. 5-30.
7. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 314 с.
8. Агаев Г.Г. Шахтахты в эпохи поздней бронзы и раннего железа. Баку-Москва: Агрыдаг, 2002, 200 с.
9. Исмайылов Г.С. Глиняные фигурки поселения Баба-Дервиш близ города Казаха // Док. АН. Аз. ССР, 1962, с. 95-97.
10. Грач А.Д. Произведение скифо-сибирского искуства в переделах этнокультурных зона Азиатиских степей / Тезисы докладов III Всесоюзной конференции по вопросам скифо-сарматской археологии. Москва: Наука, 1972, с. 30-32.
11. Мерперт Н.Я., Мунчаев Р.М. Поселения Убейдской культуры Уарымтепе III в Север ной Месопотамии // Советская археология, Москва: Наука, 1982, № 4, с. 144-150.
12. Мунчаев Р.М. Памятники Майкопской культуры в Чечено-Ингушетии // Советская Археология, Москва: Наука, 1962, № 3, с. 15-25.
13. Мунчаев Р.М., Мерперт Н.Я., Бадер Н.О. Телль Xazna I // Советская археология, Москва: Наука, 1990, № 3, с. 5-24.
14. Вулли Л. Ур Халдеев. Москва: Восточная литература, 1961, 254 с.
15. Hartner W. The earliest of the constellation in the Near East and the motif of the Lion-Ball combat // JNES, 1965, v. 24, № 1, 1965, pp. 1-16.

AMEA Naxçıvan Bölməsi
E-mail: ***x.toqrul@gmail.com***

Togrul Khalilov

THE IMPORTANCE OF BRONZE AGE CERAMICS IN THE STUDY OF OUR MATERIAL AND SPIRITUAL CULTURE

Every nation has a system of national and spiritual values. National and spiritual values, the primary indicator of a nation's existence, are its most valuable asset. Our monuments, language, religion, traditions, mentality, culture, literature, and art are national and spiritual values. We have many material and cultural examples reflecting our national and spiritual values. A group of such material and cultural samples are ceramics. As a result of the state's attention and care for the deeper study of our history, material and spiritual culture in Nakhchivan, as in all regions of Azerbaijan, many archeological materials reflecting our material and spiritual

culture, national and spiritual values were found during archeological researches in the autonomous republic. One of such archaeological materials is ceramic products. They consist of clay pots, human and animal figures, and other artifacts. In the article, a group of these ceramic products was studied, and it was determined that they are of great scientific importance in studying our national and spiritual values, material and spiritual culture.

Keywords: *Nakhchivan, clay pottery, spiritual culture.*

Тогрул Халилов

ЗНАЧЕНИЕ КЕРАМИКИ ЭПОХИ БРОНЗЫ В ИЗУЧЕНИИ НАШЕЙ МАТЕРИАЛЬНОЙ И ДУХОВНОЙ КУЛЬТУРЫ

У каждого народа есть система материальных и духовных ценностей. Материальные и духовные ценности, как главный показатель существования нации, являются ее самым ценным достоянием. Национальные и духовные ценности – это наши памятники, язык, религия, традиции, менталитет, культура, литература и искусство. Как и во всех регионах Азербайджана, в Нахчыване в результате внимания и заботы государства о более глубоком изучении нашей истории, материальной и духовной культуры, в ходе археологических исследований, проводимых на территории автономной республики, было обнаружено множество археологических материалов, отражающих нашу материально-духовную культуру, национально-духовные ценности. Одним из таких археологических материалов являются керамические изделия. Они состоят из глиняных горшков, фигур человека и животных и других артефактов. В статье отмечается, что изучение группы этих керамических изделий имеет большое научное значение в изучении наших национальных и духовных ценностей, материальной и духовной культуры.

Ключевые слова: *Нахчыван, глияная посуда, духовная культура.*

(Tarix elmləri doktoru, professor Abbas Seyidov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 12.07.2021
Son variant 05.08.2021

UOT 902

GÖKÇEN ACAR

SON ENEOLİT DÖVRÜ ABİDƏLƏRİNİN XRONOLOGİYASI

Eneolit dövrü abidələrinin dövrləşdirilməsi ilə bağlı müxtəlif fikirlər söylənmişdir. Naxçıvan və Şərqi Anadolunun Son Eneolit dövrü abidələri də fərqli şəkildə tarixləndirilmişdir. Aparılan araşdırmalar göstərir ki, Ovçulartəpə keramikasının bənzərləri Mil düzündən Keçili yaşayış yerinə qədər yayılmışdır. Buna əsasən deyə bilərik ki, Mil düzü, Naxçıvan, Urmiya gölünün şimalı və Şərqi Anadolunun müəyyən hissəsi e.ə. V minilliyin sonunda eyni mədəniyyətin yayılma arealına daxil olmuşdur.

Açar sözlər: *Naxçıvan, Urmiya hövzəsi, Şərqi Anadolu, Mil düzü, keramika.*

Eneolit dövrü abidələrinin dövrləşdirilməsi ilə bağlı müxtəlif fikirlər söylənmişdir. Naxçıvan və Şərqi Anadolunun Son Eneolit dövrü abidələri də fərqli şəkildə tarixləndirilmişdir.

Naxçıvan Muxtar Respublikası ərazisində XX əsrin 50-ci illərində O.H.Həbibullayev tərəfindən aşkar edilən Kültəpə yaşayış yerinin "1a" təbəqəsi tədqiqatçı tərəfindən Neolit dövrünə, "1b" təbəqəsi isə Eneolit dövrünə aid edilmişdir [4, s. 14]. Lakin, tədqiqatçı sonrakı əsərlərində Kültəpənin hər iki təbəqəsini Eneolit dövrünə aid etmişdir [9, s. 24]. Kültəpənin hər iki təbəqəsi arxeoloji ədəbiyyatda Eneolit dövrünə aid mədəniyyət kimi xarakterizə edilmişdir [9, s. 24]. Hazırda abidənin "1a" təbəqəsi bəzi tədqiqatçılar tərəfindən Neolit dövrünə aid I Kültəpə abidəsinin Neolit və Eneolit təbəqələrinin tarixini dəqiqləşdirmək, həmçinin bu abidənin Cənubi Qafqaz abidələri arasındakı mövqeyini müəyyən etmək məqsədilə yaşayış yerində 2013-cü ildə iki sahədə yoxlama qazıntısı qoyulmuş, daha sonra isə yaşayış yeri 2018-ci ilədək tədqiq olunmuşdur. Tədqiqatlar I Kültəpənin "1a" və "1b" təbəqələrinin Neolit dövrünə aid olduğunu göstərmişdir. I Kültəpənin Neolit təbəqəsi hazırda e.ə. VII minilliyin ikinci yarısı və VI minilliklə tarixləndirilməkdədir.

Qeyd etdiyimiz kimi, Neolit abidələri Eneolit dövrünə aid edildiyindən bəzi tədqiqatçılar xronoloji boşluğu doldurmaq üçün Ovçulartəpə kimi Son Eneolit abidələrini Orta və Son Eneolit kimi tarixləndirməyə cəhd etmişlər [2, s. 6]. Halbuki, I Kültəpənin keramika məmulatı ilə Ovçulartəpənin keramikası arasında tipoloji baxımdan müəyyən fərqlər var idi. Kültəpə keramikası başlıca olaraq qırmızı rəngdə saman qarışığı çox olan gildən bişirilmişdir. Qablar əldə hazırlanmış qeyri-bərabər bişirilmişdir. Bəzi parçaların üzərində həsir izləri qalmışdır. Qabların oturacağı yastı olmaqla bir qədər xaricə doğru çıxıntılıdır. Bu tip oturacaqlar başlıca olaraq Neolit dövrü və Eneolit dövrünün əvvəlləri üçün xarakterikdir. Bu Ovçulartəpənin yuvarlaq oturacaqlı qabları ilə kontrast təşkil edir. Ehtimal ki, bu fərq xronoloji fərqdir. Kültəpənin keramika məmulatının hazırlanmasında Neolit dövrü üçün xarakterik xüsusiyyətlər izlənir. Bəzi keramika məmulatında yuvarlaq, yaxud yastı qabarıq bəzəmələr vardır. Bu tip bəzəmələr başlıca olaraq Neolit keramikası üçün xarakterikdir. Bu tip qablar O.H.Həbibullayevin qazıntıları zamanı "1a" və "1b" təbəqələrində aşkar olunmuşdur [4, s. 19-25].

Beləliklə, I Kültəpə Son Neolit dövrünə, Ovçulartəpə isə Son Eneolit dövrünə aid edildikdən sonra, bu dövrlər arasında müəyyən boşluq yaranmışdı. Bu boşluq V.B.Baxşəliyevin 2010-2017-ci illərdə aşkar etdiyi yeni abidələrin tədqiqi ilə dolduruldu. Belə ki, Naxçıvançay vadisində aşkar olunan Naxçıvantəpə yaşayış yerinin tədqiqi bu yaşayış yerinin e.ə. VI minilliyin sonu və V minillikdə məskunlaşdırıldığını göstərmişdir. V.B.Baxşəliyev bu yaşayış

yerində Son Neolit, Erkən Eneolit və Orta Eneolit dövründə məskunlaşdığını qeyd etmişdir [6, s. 1-18]. Naxçıvantəpənin Son Neolit dövrünə aid sadə keramikası I Kültəpə keramikası ilə əlaqələndirilmiş, basmanaxışlıların isə Qarabağ abidələri ilə bağlı olduğu qeyd olunmuşdur [6, s. 6-9]. Naxçıvanın Erkən Eneolit mədəniyyətinin Dalma Təpə tipli basmanaxışlı və boyalı keramika ilə xarakterizə edildiyi müəyyənləşdirilmişdir. Dalma Təpə boyalı keramikasının özünəməxsus xüsusiyyətləri ilə fərqlənməsinə baxmayaraq bu tip keramikanın formalaşmasına Xalaf və Ubeyd mədəniyyətinin təsir etdiyi söylənmişdir [6, s. 4-14].



Şəkil 1. Ovçulartəpənin yarımqazma tipli evləri [Baxşəliyev vd. 2010].

Sirabçay vadisində aparılan araşdırmalar zamanı Orta Eneolit dövrünə aid Uçan Ağıl, Uzunoba və Bülövqaya yaşayış yerləri aşkar edilmişdir. Bu abidələrin keramikası Sirabçay vadisinin Son Eneolit abidələrindən müəyyən tipoloji xüsusiyyətləri ilə fərqlənirlər. Lakin, bu mədəniyyətlərin ardıcıl inkişafı və bir-birinin davamı olması heç bir şübhə doğurmur. Orta Eneolit dövrü başlıca olaraq e.ə. 4600- 4400-cü illərə aid edilir. Sirabçay vadisində aşkar olunan Son Eneolit abidələri isə Ovçulartəpə mədəniyyətinin son mərhələsi ilə həmdövrdür və daraqlanmış keramikanın azalması ilə xarakterizə olunur [8, s. 29-52]. Sirabçay abidələrinin keramikasında meydana gələn dəyişikliyi tədqiqatçılar yeni mərhələ kimi xarakterizə etmişdir [5, s. 35-60].

Ovçulartəpədə aparılan araşdırmalar burada insanların e.ə. V minilliyin ortalarından başlayaraq məskunlaşdığını göstərir. İ.H.Nərimanovun fikrinə görə, Ovçulartəpənin keramikası Eneolit mədəniyyətinin yeni mərhələsini əks etdirir. Arxeoloji qazıntılar zamanı arxitek-

tura baxımından bir-birindən tamamilə fərqlənən iki tikinti dövrü aşkar edilmişdir. Birinci dövr üçün yarımqazma tipli evlər (şəkil 1), ikinci dövr üçün isə dördkünc formalı təkotaqlı və çoxotaqlı evlər xarakterikdir (şəkil 2). Birinci dövrə aid evlər təpənin yamacı düzəldilərək yer səviyyəsindən 20-40 sm dərinlikdə dördkünc formada inşa edilmişdir. Onlar tam qalmadığından yerüstü hissələri ilə bağlı müəyyən fikir demək çətindir. Bu dövr karbon analizlər əsasında e.ə. 4350-4200-cü illərə aid edilmişdir [2, s. 7]. İkinci dövrə aid evlər daş təməl üzərində inşa edilmiş kərpic evlərdən ibarət olmuşdur. Onların bəzisi (12-ci və 14-cü sahələr) təpənin yamacında inşa edildiyindən uçqunun qarşısını almaq üçün dəstək divarlar inşa edilmişdir. Ümumiyyətlə, bu dövrə aid binalar dəstək divarlara birləşik şəkildə inşa edilmişdir. Evlərin dördkünc formalı olması və dəstək divarların inşası hər iki dövr üçün xarakterikdir. 2011-ci ilin araşdırmaları göstərir ki, bu dövrün evləri geniş həyətlərin ətrafında toplanan məişət-təsərrüfat komplekslərindən ibarət olmuşdur. Həyətlərdə anbarlar, ocaqlar, iş yerləri və təsərrüfatla bağlı digər maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. İkinci dövrün evləri mükəmməl arxitekturası ilə birincidən fərqlənir.

Şəkil 2. Ovçulartəpənin çoxotaqlı evləri [Vəli Baxşəliyev].

Ovçulartəpənin dördkünc arxitekturası Cənubi Qafqazın, o cümlədən Naxçıvanın Neolit dövrünün son mərhələsinə aid dairəvi evlərdən tamamilə fərqlənir. Lakin, onlar Naxçıvantəpənin Erkən Eneolit dövrünün, həmçinin Əliköməktəpənin arxitekturası ilə uyğundur. Dördkünc formalı arxitektura I Kültəpə yaşayış yerinin Neolit təbəqəsində də qeydə alınmışdır. Lakin araşdırmalar göstərir ki, bu tip arxitektura Erkən Eneolit dövründə Naxçıvanda geniş istifadə olunmuşdur [1, s. 34]. Bu tip arxitektura, həmçinin Naxçıvantəpənin Orta Eneolit təbəqəsindən məlumdur. Dördkünc formalı arxitektura Naxçıvanda Son Eneolit dövrünə aid Yeniyol yaşayış yerindən [3, s. 49-56] və Şərqi Anadolunun həmdövr abidələrindən məlumdur. Ovçulartəpə yaşayış yerinin bu dövrü karbon analizlər əsasında e.ə. 4200-4000-ci illərə aid edilir [14, s. 62]. Bu yaşayış yerində həm texnoloji, həm də morfoloji baxımdan fasiləsizliyin olduğu keramika məmulatında izlənilir. Ovçulartəpənin saman qarışıq sarı, ya da qırmızı rəngli

keramikası Cənubi Qafqaz və Naxçıvanda Neolit və Eneolit dövrünün erkən mərhələsindən mövcud olmuşdur. Ovçulartəpədə az miqdarda olsa da boyalı keramika məmulatı aşkar olunmuşdur. Ehtimal ki, bu tip keramika yaşayış yerinin Cənubla, xüsusilə Ubeyd mədəniyyəti ilə əlaqələrini göstərir. 2011-ci ildə Ovçulartəpədən aşkar edilən keramika parçası qırmızı rənglə naxışlanmışdır. Naxışlar birbaşa qabın boyanmamış səthinə çəkilmişdir. Onlar şaquli xətlər arasına alınmış düz xətlər və birləşik üçbucaqlardan ibarətdir. Araşdırmalar bu keramika parçasının Ubeyd mədəniyyətinə aid idxal olunmuş gil qaba aid olduğunu göstərir. Lakin, qeyd etməliyik ki, Erkən və Orta Eneolit dövrü ilə müqayisədə boyalı keramika məmulatı xeyli azdır. Əgər nəzərə alsaq ki, Ovçulartəpədə qazıntılar çox geniş bir sahədə aparılmışdır, deyə bilərik ki, bu dövrdə boyalı keramika məmulatının istehsalı azalmışdır.

Yeniyol yaşayış yerinin alt qatlarından götürülən karbon analizin nəticələri e.ə. 4038-4018-ci illəri göstərmişdir. Bu yaşayış yerinin üst təbəqəsindən götürülən kömürün analizi e. ə. 3712-3622-ci illəri göstərmişdir (şəkil 3). Yeniyol yaşayış yerinin keramika məmulatı arasında ağzının kənarı yuvarlaq deşiklər sırası ilə naxışlanmış, vertikal və horizontal qulpları olan keramika məmulatı diqqəti cəlb edir. Bu tip keramika məmulatı tipoloji baxımdan Araz vadisində, İran Azərbaycanında yerləşən Köhnə Pasqah yaşayış yerinin keramikası ilə uyğundur. Məlum olduğu kimi, bu tip qablar e.ə. IV minilliyin birinci yarısı ilə tarixlənən Son Eneolit dövrü abidələrində də vardır. Köhnə Pasqah yaşayış yerində isə onlar e.ə. IV minilliyin əvvəli ilə, daha doğrusu, 3955-ci illə dövrləşdirilmişdir [15, s. 171]. Bu Yeniyol yaşayış yerinin dövrü ilə tamamilə uyğunluq təşkil edir. Yeniyol yaşayış yerində boyalı keramika nümunələri azdır. Boyalı keramika iki parça ilə təmsil olunmuşdur. Qum qarışıq gildən hazırlanan bu keramika nümunələri qırmızı rənglə paralel zolaqlardan ibarət ornamentlə naxışlanmışdır. Bu tip naxış motivinə Son Eneolit abidələrində indiyədək rast gəlinməmişdir.



Şəkil 3. Yeniyol yaşayış yerinin dördkünc formalı evləri
[Guillaume Gadebois. CNRS, Lyon].

Konusvarı gövdəli ağzının kənarı bir, bəzən isə iki sıra dairəvi deşiklərlə əhatə edilmiş kasalar Sirabçay vadisinin digər abidələrindən, xüsusilə Sərin Bulaq, Yeniyol, Şorsu, Zirinclidən də aşkar olunmuşdur. Bu tip deşiklər dekorativ xarakter daşımış və qabların estetik görüntüsünü yüksəltmişdir. Eneolit dövründə qabların ağız kənarında açılan deşiklər Neolit dövründən fərqli olaraq qablar bişirilmədən əvvəl icra edilmişdir. Deşiklər bəzən tam açılmamış yarımçıq qalmışdır. Ümumiyyətlə, Son Eneolit dövrü qablarında açılan deşiklər səliqəsizliyi ilə fərqlənir və demək olar ki, tam açılmamış deşiklər keramika ustalarının tələskənliyi ilə bağlı olmuşdur. Sirabçay vadisində Sərinbulaq yaşayış yerindən götürülən kömürün analizi e.ə. 3902-3880-cı illəri, Şorsudan götürülən kömürün analizi e.ə. 3910-3870-ci illəri, Dəyirman yeri yaşayış yerindən götürülən kömürün analizi e.ə. 3946-3701-ci illəri göstərmişdir.

Ovçulartəpə və Sirabçay hövzəsinin abidələrindən aşkar olunan keramika məmulatının bənzərləri, həmçinin Culfa Kültəpəsindən məlumdur. Culfa Kültəpəsində bu keramika nümunələri VII-VI təbəqələrdən məlumdur. Culfa Kültəpəsinin VII təbəqəsi kömür analizləri əsasında e.ə. 4200-4050-ci illərə VI təbəqəsi 4180-3960-cı illərə aid edilmişdir [11, s. 55-57]. V.Baxşəliyevin fikrinə görə, keramika məmulatında bu üsulla deşik açılması e.ə. V minillikdən əvvələ aid olmamışdır [10, s. 17-24].

Naxçıvanın Son Eneolit abidələri Gürcüstanda aşkar olunan Sioni mədəniyyəti ilə həmdövrdür. Lakin yuxarıda da qeyd etdiyimiz kimi Cənubi Qafqazın Son Eneolit abidələrinin "Late Sioni Ware site" [12, s. 321-325] adlandırılması düzgün deyildir. Sioni yaşayış yerindən aşkar olunan tipik "Sioni keramikası" Cənubi Qafqazın yaşayış yerlərində olduqca az rastlanır. Qara rəngli və qum qarışığı olan Sioni keramikasından fərqli olaraq Cənubi Qafqazın, o cümlədən Sirabçay vadisinin keramika məmulatı saman qarışıq olması, qırmızı və sarı rəngdə bişirilməsi ilə fərqlənir.

Arpaçay, Naxçıvançay və Sirabçay vadisinin Son Eneolit dövrü arxeoloji abidələrindən Berikldibi və Leylatəpə mədəniyyəti üçün xarakterik olan keramika məmulatı aşkar edilməmişdir. Bu baxımdan deyə bilərik ki, Naxçıvanın Son Eneolit abidələri Cənubi Qafqazın Berikldibi və Leylatəpə abidələrinin təmsil etdiyi mədəniyyətlərindən əvvəlki dövrə aiddir [8, s. 29]. Lakin Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının Şorsu yaşayış yerində apardığı araşdırmalar zamanı Leylatəpə mədəniyyəti ilə həmdövr materiallar da aşkar edilmişdir. Lakin, bu materiallar nəşr edilmədiyindən tədqiqata cəlb edilməmişdir.

Araşdırmalar göstərir ki, Naxçıvanın Son Eneolit mədəniyyəti başlıca olaraq e.ə. V minilliyin ikinci yarısı və e.ə. IV minilliyin əvvəllərini əhatə etmişdir. Ancaq, qeyd etmək lazımdır ki, Naxçıvanda Son Eneolit dövrünə aid ən qədim yaşayış yeri hazırda Ovçulartəpədir. Korucutəpə, Dəyirmantəpə, Tülintəpə kimi yaşayış yerlərinin Son Eneolit keramikası Ovçulartəpə keramikası ilə həmdövrdür.

Şərqi Anadolunun arxeoloji abidələri də təqribən bu zaman kəsiyinə, yəni e.ə. V minilliyin ikinci yarısı və e.ə. IV minilliyin birinci yarısına aid edilməkdədir. Bu baxımdan Ovçulartəpənin ən qədim layları e.ə. 4350-4200-cü illərə aid edildiyi halda, Norşuntəpənin alt layları e.ə. 4500-cü ilə aid edilməkdədir. Norşuntəpənin alt laylarından Ubeyd tipli boyalı keramika aşkar olunduğundan bu təbəqələr də bəzən Orta və Son Eneolit dövrü kimi dəyərləndirilmişdir. Lakin, yuxarıda qeyd etdiyimiz kimi Ubeyd tipli boyalı keramika Son Eneolit dövründə həm Şərqi Anadoluda, həm də Naxçıvan abidələrində aşkar olunmuşdur. Bu baxımdan Van yaxınlığında yerləşən Tülkütəpə abidəsi xüsusilə diqqəti cəlb edir. Tülkütəpə yaşayış yeri üçün xarakterik olan boyalı keramika indiyədək Cənubi Qafqaz abidələrində qeydə alınmamışdır. Şərqi

Anadoluda yerləşən Tülkütəpə və İlandaş kimi yaşayış yerləri tədqiqatçıların fikrinə görə, Şimali Mesopotamiya tayfalarına aid olmuşdur [7, s. 1-20]. Ağzının kənarı yuvarlaq deşiklərlə əhatə olunan kasa və manqal tipli keramika məmulatı Texut yaşayış yerindən də aşkar olunmuşdur. Texut yaşayış yerində rast gəlinən keramika məmulatının bir qismi boyalıdır. Bu yaşayış yerində, həmçinin İlandaş və Tülkütəpə keramikasında olan şaquli dalğalı xətlərlə bəzəmə motivinə rast gəlinmişdir. Lakin, qeyd etmək lazımdır ki, Texut keramikasının bəzi bəzəmə motivi Dalma Təpə keramikası ilə də yaxından bənzərlik təşkil edir. Texut yaşayış yerində rast gəlinən Ubeyd tipli boyalı keramika məmulatı da diqqəti cəlb edir. Munçayev Texut üçün xarakterik olan ornamentin Şimali Ubeydlə bağlı olduğunu söyləmişdir [10, s. 120].

Son Eneolit dövrünün ən son mərhələsi Sos Höyük və Arslantəpədə aşkar edilmişdir. Sos Höyükdə Son Eneolit dövrü e.ə. 3500-3300-cü illərə aid edilmişdir.

Son Eneolit dövrünə aid keramika məmulatı Cənubi Qafqazda Texut, Xatunarx, Çopi və Qinçi yaşayış yerlərindən də məlumdur. Qinçi keramikasının qabarıq kəmər üzərindən barmaq basqısı ilə naxışlanan keramikası xüsusilə Ovçulartəpə və Norşuntəpənin bənzər keramika məmulatı ilə yaxından səsləşir. R.Munçayevin fikrinə görə, bu tip keramika İran ərazisindən Cənubi Qafqazdan keçməklə Qinçi yaşayış yerinə daxil olmuşdur [10, s. 128]. R.Munçayev, həmçinin Qinçi yaşayış yerinin boyalı keramikasının bəzi tədqiqatçıların iddia etdiyi kimi Xalaf mədəniyyəti ilə deyil, Dalma Təpə mədəniyyəti ilə bağlı olduğunu söyləmişdir [10, s. 128]. Xatunarxın Son Eneolit dövrü keramikasının bir qismi ağız kənarında yuvarlaq deşiklər açılmış keramika məmulatından ibarətdir. Xatunarxın bu tip keramikası saman qarışıq gildən hazırlanmışdır. Xatunarx yaşayış yerinin Son Eneolit dövrü təbəqəsi e.ə. 4085-4083 illərə aid edilir.

Cənubi Qafqazın Son Eneolit mədəniyyətinə Xalaf və Ubeyd mədəniyyətlərinin təsirindən bəhs edilsə də, Xalaf mədəniyyətinin təsiri Son Neolit və Erkən Eneolitdə izlənir. R. Munçayevin fikrinə görə, Xalaf tipli keramika Cənubi Qafqaza Van gölü hövzəsindən daxil olmuşdur [10, s. 130]. Orta və Son Eneolit dövründə başlıca olaraq Ubeyd mədəniyyətinin təsirinə rast gəlinir. Ubeyd mədəniyyətinin təsiri Şərqi Anadolunun Norşuntəpə, Tülintəpə və Tülkütəpə kimi abidələrində də izlənilir. Qeyd etmək lazımdır ki, Son Eneolit dövrünün son mərhələsində boyalı keramika məmulatı çox azdır. Keramika məmulatının əsasını sadə, yaxud məməcik və qabarıq kəmərlə naxışlanmış keramika təşkil edir. Eneolit dövrünün son mərhələsində bu tip ornamentasiya da azalır.

Ovçulartəpə keramikası ilə bənzər olan keramika nümunələri, həmçinin Menteştəpədən məlumdur. Menteştəpənin Son Eneolit dövrünə aid birinci mərhələ e. ə. 4350-4200-cü illərə, ikinci mərhələ isə 4000-ci ildən əvvələ aid edilir [13, s. 91-92]. Bu təbəqədən aşkar edilən kərpic tikintilər də Ovçulartəpə ilə bənzərdir [13, şək. 132]. Hər iki mərhələ üçün dairəvi formalı ocaqlar xarakterikdir. Müəyyən fərqlər istisna olmaqla Menteştəpənin keramikası forma və naxışlama motivinə görə Ovçulartəpə ilə bənzərdir. Bu baxımdan ağzı yana əyilmiş küpələr, yuvarlaq gövdəli çölməklər qabarıq-konusvarı kasalar xüsusilə diqqətəlayiqdir. Yuxarıda qeyd etdiyimiz kimi Ovçulartəpə mədəniyyətinin keramikası Mil düzündə Keçili yaşayış yerinə qədər yayılmışdır. Buna əsasən deyə bilərik ki, Mil düzü, Naxçıvan, Urmiya gölünün şimalı və Şərqi Anadolunun müəyyən hissəsi e. ə. V minilliyin sonunda eyni mədəniyyətin yayılma arealına daxil olmuşdur.

ƏDƏBİYYAT

1. Baxşəliyev V. Naxçıvantəpədə 2018-ci ilin arxeoloji tədqiqatları. Naxçıvan: Əcəmi, 2019, 136 s.
2.Baxşəliyev V., Marro C., Aşurov S. Ovçulartəpəsi. Bakı: Elm, 2010, 154 s.
3. Baxşəliyev V., Marro C., Aşurov S. Son Eneolit və Erkən Tunc dövrünə aid Ovçulartəpəsi yaşayış yeri / Azərbaycanın erkən əkinçilik dövrü abidələri. Bakı, 2012, s. 78-87.
4. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1959, 134 s.
5. Quliyeva Z.K. Naxçıvanın Eneolit dövrü abidələri. Naxçıvan: Əcəmi, 2020, 184 s.
6. Bahşeliyev V. Azerbaycan'ın Son Neolitik ve İlk Kalkolitik Çağ Kültürlerinin Kuzeybatı İran ile [İran Azerbaycanı] İlişkileri // TUBA-AR, 2020, № 27, s. 1-18.
7. Özfırat A., Marro C. 2004 Yılı Van, Ağrı ve Iğdır İlleri Yüzey Araştırması // Türk Arkeoloji ve Etnografi Dergisi, 2007, № 7, s. 1-20.
8. Kuliyeva Z., Bahşeliyev V. Nahçıvan'ın Kalkolitik Çağ Kültürü [Azerbaycan] // TUBA-AR, 2018, № 23, s. 29-52.
9. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 s.
10. Мунчаев Р.М. Кавказ на заре бронзового века. Москва: Наука, 1975, 414 с.
11. Abadi A., Shahidi H.K., Chataigner Ch., Niknami K., Eskandari N., Kazempour M., Pirmohammadi A., Hoseinzadeh J., Ebrahimi G. Excavations at Kultepe [Hadishahr] North-Western Iran, 2010. First Preliminary Report // ANES, 2014, v. 51, pp. 33-165.
12. Kiguradze T. The Chalcolithic – Early Bronze Age transition in the eastern Caucasus / Chronologie des Pays du Caushape et de l'Euphrate aux IVème-IIIème Millénaires. Actes du Colloque d'Istanbul, 16-19 décembre 1998, Varia Anatolica XI. Paris, 2000, pp. 321-325.
13. Lyonnet B., Guliyev F., Helwing B., Aliyev T., Hansen S., Mirtskhulava G. Ancient Kura 2010-2011: the first two seasons of joint field work in the southern Caucasus // Archaeologische Mitteilungen aus Iran und Turan, 2012, v. 44, pp. 1-190.
14. Marro C., Bakhchaliyev V. Ashurov S. Excavation at Ovçulartepesi [Nakhchivan, Azerbaijan]. Second Preliminary Report: The 2009-2010 Seasons // Anatolia Antiqua, 2011, v. 19, pp. 53-100.
15. Sepideh M. Excavations at Kohne Pasgah Tepesi, the Araxes Valley, the Northwest Iran: First Preliminary Report // ANES, 2010, v. 47, pp. 165-193.

AMEA Naxçıvan Bölməsi
E-mail: ***acargkcn20@gmail.com***

Gokchen Acar

PERIODIZATION OF MONUMENTS OF THE LATE CHALCOLITHIC AGE

Various opinions were expressed on the periodization of monuments Chalcolithic Age. Monuments of the Chalcolithic Age of Nakhchivan and Eastern Anatolia are also dated in different ways. Studies show that ceramics of the Ovçular tepe culture type were distributed before the settlement of Keçili in the Mil steppe. On this basis, it can be deduced that the Mil

steppes, Nakhchivan, the north of Lake Urmia, and Eastern Anatolia at the end of the 5th millennium shared one culture.

Keywords: *Nakhchivan, Urmia basin, Eastern Anatolia, Mil steppes, ceramics.*

Гекчен Аджар

ПЕРИОДИЗАЦИЯ ПАМЯТНИКОВ ЭПОХИ ПОЗДНЕГО ЭНЕОЛИТА

О периодизации памятников эпохи энеолита высказаны различные мнения. Памятники эпохи энеолита Нахчывана и Восточной Анатолии также датированы поразному. Исследования показывают, что керамика типа культуры Овчулартепе была распространена до поселения Кечили в Мильской степи. На этой основе можно выводить, что Мильские степи, Нахчыван, север озера Урмия и Восточная Анатолия в конце V тысячелетия разделяли одну культуру.

Ключевые слова: *Нахчыван, Урмийский бассейн, Восточная Анатолия, Мильские степи, керамика.*

(*AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir*)

Daxilolma tarixi: İlkin variant 11.06.2021
Son variant 01.07.2021

UOT: 902

DÜRDANƏ YUSİFOVA

AZƏRBAYCANDA DİNİ İNANCLARLA BAĞLI NAXIŞLARIN MÜXTƏLİF SƏNƏT SAHƏLƏRİNDƏ TƏTBİQİ TARİXİNDƏN

Məqalədə qarşıya qoyulan məqsəd, təsvir və naxışların tətbiqi tarixini araşdırmaqdan həmçinin, müxtəlif sənət sahələrinə qarşılıqlı təsirini müəyyən etməkdən ibarətdir. Tədqiqatlar göstərir ki, ornament və naxışlar (xalça, parça, daş, metal, taxta, saxsı) o cümlədən, bəzi naxışlar dekorativ-tətbiqi sənətdə (xaç, dairə və ya medalyon) simvollar kimi xarakterizə olunur. Hansı ki, bu naxış ünsürləri məna çalarlarına görə canlı həyatda gözlə görmək mümkün olmayan mücərrəd xarakter daşımışdır. Mücərrəd xarakter daşıyan məxəzlər (piktoqram, ornament, təsvir, simvollar) uzaq keçmişə nəzər saldıqda insanların dünyagörüşündə real varlığı və fövqəl gücü təmsil etmişdir. Bu simvollar xaç, svastika, dairə, nöqtələr, günəşi təmsil edən dairələr, çərxi-fələk və .s. ibarət olmuşdur.

Açar sözlər: *dini inanclar, həyat tərzi, simvollar, nəbati naxışlar, sənətkarlıq nümunələri.*

Əsrlərin müxtəlif mərhələlərində qədim, antik və ilk orta əsrlərdə insan yaradıcılığına təsir edən amillər; sosial düşüncə, bədii-obraz reallıq nümunəsi kimi deyil, mənəvi xarakter daşımışdır. Müxtəlif mənalı işarələr insan hisslərinin dini-fəlsəfi dünyagörüşünü nümayiş etdirmişdir. Məqalədə qarşıya qoyulan məqsəd naxışların tətbiqi tarixini araşdırmaqdan və müxtəlif sənət sahələrinə qarşılıqlı təsirini aydınlaşdırmaqdan ibarətdir. Araşdırmalar sübut edir ki, ornament və naxışlar (xalça, parça, daş, metal, taxta, saxsı) o cümlədən, bəzi naxışlar dekorativ-tətbiqi sənətdə (xaç, dairə və ya medalyon) simvollar kimi xarakterizə olunur. Hansı ki, bu naxış ünsürləri məna çalarlarına görə canlı həyatda gözlə görmək mümkün olmayan mücərrəd xarakter daşımışdır. Mücərrəd xarakter daşıyan məxəzlər (piktoqram, ornament, təsvir, simvollar) uzaq keçmişə nəzər saldıqda insanların dünyagörüşündə real varlığı və fövqəl gücü təmsil etmişdir. Bu simvollar xaç, svastika, dairə, nöqtələr, günəşi təmsil edən dairələr, çərxi-fələk və s. ibarət olmuşdur.

Dini təsəvvürlərin təsviri sənət obrazına çevrilməsi üçün bu dini ideyalar ibtidai cəmiyyətin dini ideologiyasına təsir göstərməli idi. Dini ideologiyanın, ümumən qəbul edilmiş ehkamların – ideyaların qədim insanların bədii təfəkkürünə köçürülməsi tarixin sonrakı mərhələlərinin üzərinə düşmüşdü. Hələ e.ə. IV-III minilliyin birinci yarısında Naxçıvanın Kültəpə və Qazax rayonu Babadərviş yaşayış yerlərindən təsvirli gil qablar aşkar edilmişdir [11, s. 15]. Cızma üsulu ilə yaradılmış bu piktoqramların məzmununun xeyir və bərəkət ayinlərinə və ovçuluğa həsr edildiyi qeyd olunur.

Simvolların ana qaynağı Azərbaycan incəsənətinin ən qədim abidələri – mağara və qaya (Qobustan) [11, s. 10] təsvirləri hesab edilir. İbtidai icma quruluşundan başlayaraq ibtidai incəsənətdə mifoloji təsəvvürlər və kultlar sisteminə çevrilən sehrkarlıq antik və ilk orta əsrlər dövründə qeyri-real qaranlıqlar dünyasını təmsil edən, "müqəddəs" hesab edilən bəzi heyvanların – totemləri, sirli qüvvələrin rəmzi olaraq sxematikləşdirilmişdir. Bədii işləmədə qazıma, cızma, yapma, möhürləmə, kəsmə, oyma, üsullarından, o cümlədən həndəsi nəbati naxışlardan təsvir motivi kimi istifadə edilmişdir.

Qobustan və Gəmiqaya petroqlifləri – işarə və damğalarla bağlı fikirlərdə bu işarələrin semantikasının müxtəlif mövzularla əlaqəli olduğu qeyd edilir. Bu işarələrin – Səma cisimləri, totemizmlə, təbiət kultu, təsərrüfat, məişətlə bağlılığı, dünya haqqında ibtidai təsəvvürlər, əcdadların ruhuna inam və say komponentlərindən ibarət olduğu fikri əsaslandırılır [9, s. 26-27].

Əski çağlardan xalqların etiqadında bəzi heyvanlar totem olmuş və rəmzi məna daşıyaraq müxtəlif sənət nümunələrində təsvir edilmişdir. Məharətlə nəqş edilmiş (öküz, şir, keçi, əjdaha, ilan) təsvirlərinə istər, keramika, istər bəzək əşyalarında, istərsə də xalça nümunələrimiz və memarlıq abidələrimizdə də rast gəlinməkdədir.

Arxeoloji abidələr göstərir ki, Avesta ehkamları e.ə. I minilliyin başlanğıcından yeni eranın VII əsrinə qədər olan dövrdə, incəsənətimizin müxtəlif sahələrinə təsir göstərmişdir [11, s. 34-41]. Xüsusilə, Azərbaycanın qərbində aparılan tədqiqatlarda, günəşin müxtəlif heyvanların təsvirləri fonunda fövqəltəbiləşdirilməsi amillərinə daha çox təsadüf edilir. Gədəbəy rayonu ərazisində əldə edilmiş, tunc kəmərin üzərindəki piktoqramda, bir-birini izləyən beş heyvan rəsmi verilmişdi. Sol tərəfdən birinci, üçüncü və beşinci yerdə üstündə günəşin svastika şəklində simvolik təsviri verilmiş şir rəsmi bu dövrdə günəş və od rəmzi kimi işlənmişdi. Kəmərin üzərində işıqlı dünyanın yaradıcısı olan Hörmüzd svastika nişanı və şir fiquru fonunda rəmzi mənada təsvir edilir. Yeraltı ölüm dünyasının padşahı Əhrimanın simvolları isə, ilan və tək buynuzlu heyvan obrazında verilmişdir. İnanclara görə, ilan axirət dünyasının, tək buynuzlu heyvan isə yeraltı dünyanın simvollarıdır. Fetişist və animalistik anlayışın vəhdətini özündə əks etdirən piktoqramda əsasən günəş – işıq və həyat təmsil edilir. Odur ki, yazıda işıqla qaranlığın, həyatla ölümün mübarizəsi təsvir edilmişdir [11; 14, s. 329].

Ayrılıqda naxış kompozisiyaları əsasən fikrin, düşüncənin və mənanın ifadə dilinin vahid element forması olaraq verilənlərin kodlaşdırılması kimi başa düşülür. Qafqaz Albaniyasının ilk orta əsr yaşayış yeri və qəbir abidələrində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən, unikallığı ilə seçilən zinət əşyalarında xüsusilə bilərzik və sırğaların bəzədilməsində bədxah ruhlara və bədnəzərə qarşı "qoruyucu" təsir vasitəsi olaraq simvolik təsvirlərdən istifadə edilirdi. Qeyd edildiyi kimi bilərziklər tunc dövründən ortaya çıxan vaxtdan bəri həmişə maqik-apotropik (sehrkar) mahiyyət daşımışdır [5, s. 75-76]. Əsasən bilərziklərdə (qolbaqlar) ilan təsvirinə üstünlük verilmişdi. Qəbir abidələrində təsadüf olunan belə bilərziklərə, Mingəçevir daş qutu qəbirlərdə [10, s. 29-30], o cümlədən Xınıslı qəbir abidələrində [8, s. 239] və son dövr müxtəlif bölgələrindəki qəbir abidələrində aparılan arxeoloji qazıntılar zamanı da təsadüf edilmişdir.

Tədqiqatlarda dini-ideoloji obraz kimi türk xalqlarının mifologiyasında hələ əski çağlardan başlayaraq keçi kultu qayaüstü təsvirlərdə, bədii keramika nümunələrində günəş obrazına və Anahit kultuna, xeyir və bərəkət ideyalarına xidmət etdiyi qeyd olunur [12, s. 47]. Onlardan qədim Albaniyanın zoomorf gil qablarını, Mingəçevirin ilan və qoyun təsvirli gümüş bilərziklərini, qızıl sırğalarını və s. maddi mədəniyyət nümunələrini misal göstərmək olar [11, s. 41]. Bədii tərtibatında xətli cızma naxışlar, qabartma və yapma bəzəklərdən geniş istifadə edilmişdir. İslamın yayılmasından sonra da incəsənətdə tətbiq edilən həndəsi, çiçək və ya xətti ornamentlər ənənə və inancların ahəngdar sintezinin rəmzinə çevrilmişdir.

Bu sənət Altayda və Sibirdə tam müstəqil inkişaf etmiş, sonralar qonşu dövlətlərin incəsənəti ilə qarşılıqlı təmasda olmuşdur. Şərq ölkələri xalqlarının dekorativ sənətində geniş yayılan öküz və şir fiqurları bu xalqların ümumi sitayiş totemi və vahid təsvir motivlərindəndir [12, s. 75-76].

Tədqiqatlar sübut edir ki, müxtəlif sənət sahələrində tətbiq edilən simvolik naxışların bir çoxu (əjdaha, ilan, buynuz, xaç, çərxi-fələk və s) tarixi inkişaf yolu keçmişdir. Tətbiqi, e.ə. qədim qayaüstü təsvirlərə söykənən, məzar daşlarında, eləcə də digər arxeoloji materiallar üzərində təsadüf edilən "Həyat ağacı" və uclarında tayfa damğaları olan Tenqri xan nişanlarının xristianlığa aidiyyəti olmadığı vurğulanır [7, s. 20].

İlk orta əsrlər dövrünə aid olan totemistik inanclarla bağlı naxış nümunələrinə Qafqaz Albaniyasının keçmiş paytaxtı olan Qəbələ şəhəri, həmçinin Mingəçevirdən tapılmış III-VI əsrlərə aid daşların üzərində rast gəlinir. "Həyat ağacı"nın üç və ya beş yarpaqlı təsvirli "buta" ornament motivi, [13] xalq yaradıcılığı sənətinə daxil olan, alban mis qablarında, Lahıc misgərlərinin əsərlərində habelə xalça və bədii tikmələrdə tətbiq edilirdi. Diqqəti cəlb edən faktlardan biri də ilk orta əsrlər dövründə Azərbaycanda xristian simvolikalarında özündən əvvəlki dini görüşlərlə bağlı elementlərə rast gəlinməsidir. Buna Azərbaycanın şimal-qərb və qərb bölgələrində yerləşən ilk orta əsrlər dövrünə aid, Alban xristian dini abidələrinin stellarında təsadüf edilir [14, s. 329].

Araşdırmalar insanların canlı təbiət dünyasından bitkisəl naxışları mənimsəyərək, budaqlar, çiçəklər və yarpaqlar formasında memarlıq əsərlərinin üzərinə nəqş olunduğunu sübut edir [1, s. 252]. Mingəçevirdə aparılan arxeoloji qazıntılar zamanı küp qəbirlərində üzərində boya ilə sərv ağacı təsvir edilmiş gil küpə tapılmışdır.

İ.İ.Meşaninov gil qablar üzərindəki ağac təsvirlərinin izahını verərkən, bu təsvirlərin işıqla hərəkətin, həyatla dirçəlişin, əbədi ölməzliyin bir işarəsi olduğunu bildirmişdir [15, s. 54]. Analoji olaraq bu cür qrafik təsvirli ağ maddə ilə bəzədilmiş, günəş simvolu olan, iki svastika nişanı arasında həyat ağacının təsviri verilmiş cilalı keramika nümunəsi Göygöl rayonu ərazisində arxeoloji qazıntılar zamanı aşkar edilmişdir [9]. Gəncə-Qazax bölgəsində müxtəlif dövrlərdə aparılan arxeoloji qazıntılar nəticəsində antropomorf və zoomorf təsvirlərlə yanaşı, nəbati təsvirlər içərisində müxtəlif formada ağac təsvirləri ilə naxışlanmış şirli qab nümunələrinin qalıqlarına da təsadüf edilmişdir. Şəmkirçay hövzəsində, Gəncə və ətraf ərazilər, Samux, Göygöl rayonlarında aparılan arxeoloji qazıntılar sübut etmişdir ki, Arran keramika məktəbi, xüsusilə, onun mərkəzi üçün qırmızı boyalı, üzərində möhürlə ornamental qurşaqlar salınmış küplər səciyyəvi olmuşdur. Ornamental qurşaqlarda heyvan, quş təsvirlərinə və həyat ağacına rast gəlinir [3, s. 190-197].

Azərbaycanda sinfi cəmiyyətin ilk dinlərindən biri "astral" din idi. Astral dinlər, günəş-işıq ayini ilə bağlı olmuşdur. Əski Asiya inamlarında da "həyat ağacı", yer, göy planetlərlə təmsil edilirdi [6, s. 52-55]. Sonsuzluğu, ölümsüzlüyü, əbədiliyi simvolizə etdiyi qeyd olunur.

Emblem mahiyyətli bəzəklər (heyvan, quş, ağac, gül təsvirləri) köbələrin, haşiyələrin həllində istifadə edilən həndəsi və nəbati naxışların hakim naxışlar kimi incəsənətdə təbiətin canlı və cansız əşyaları haqqında aydın təsəvvür yaratdığı halda, rəmzlər (simvollar) dairə üçbucaq, xaç və s. əşyalar haqqında real təsəvvür yaratmayıb, ancaq onların mənasını göstərmək xarakteri daşımışdı [4, s. 6]. Üstəgəl işarəsi ulu başlanğıcda hərəkət edən odu, xaçı həm şəkilcə, həm də məzmunca əks etdirib. Üstəgəl kultu Avropaya türk qıpçaqları tərəfindən yayılıb, müxtəlif tərəfli (+) Tenqrinin simvolu idi [2, s. 93].

Son dövr araşdırmalar göstərir ki, əski türk-qam şaman inanclarından, ibtidai kosmoqonik təsəvvürlərdən tanrıçılıq dinindən bəhrələnən bu işarələr nəzərlik funksiyasına malik olan Tenqri xan və Humay ana simvollarıdır. Onlar etnik ornamentlər kimi tətbiqi sənətdə istifadə edilməkdədir. Türk xalqlarının islam və xristianlıq dinlərini qəbul etməsi nəticəsində bu rəmzlərin ilkin semantikası dəyişsə də qoruyucu funksiyaları xalq yaddaşından silinməmişdir [7, s. 20]. Qəbilə damğa obrazlı işarələr də müəyyən dərəcədə qorunub saxlanmış və sonralar bişmiş kərpic bəzəyində özünü göstərmişdir.

Araşdırmalar göstərir ki, hörmə inşaat texnikasının meydana gəlməsi nəticəsində daşyonma, şəbəkəçilik, həkkaklıq sahələri yarandı. Ümum Şərq mədəniyyətindən qaynaqlanan Azərbaycan memarlığı Naxçıvan, Aran, Şirvan-Abşeron, Təbriz məktəblərinə bölünmüşdü.

Tarixi və arxeoloji araşdırmalar bu məktəblərin özünəməxsusluğu və ümumi cəhətlərinin olduğunu göstərir. Tədqiq etdiyimiz çöl materiallarında kərpic daş, gəc, kaşı, ağac, materiallardan istifadə etməklə naxış texniki üsullarından olan yapışdırma, qabartma, şəbəkəli cızıqlama və oyma texnikasına memarlıq sənətimizdə geniş yer verilmişdir ki, bu da divarlarda naxış zənginliyi yaratmışdır. Memarlıq və xalça naxışlarını bir-birinə yaxınlaşdıran təkcə onlar üzərində salınmış elementlər, naxışlar, süjetli kompozisiyalar deyil, xalqın varlığı, etik və mənəvi dəyərləri ilə bağlı olmuşdur. Xalqın milli təfəkkürünün göstəricilərindən biri olan sənət sahələri mücərrəd fəlsəfi kateqoriyaların ifadəçisidir. Qeyd edək ki, həndəsi naxışların birləşməsindən yaranan kompozisiyaların əsasında ulduz naxışları durur. Bu naxışlar altı, səkkiz, on iki, on altı, iyirmi dördbucaqlı formada olub, sənət nümunələri üzərinə köçürülmüşdür. Orta əsr qəbiristanlıqlarında sənduqə tipli qəbir daşları üzərində qədim türk və İslam dini dünyagörüşünü əks etdirən yazılar, ulduz, ay, çıraq, Quran ayələri və digər təsvirlərin həkk olması bu abidələrin türk və müsəlman əhaliyə məxsusluğunu özündə əks etdirir.

Tədqiqatın nəticəsi olaraq deyə bilərik ki, Ay, günəş, mənalarını ifadə edən rəmzlər İslam dinindən əvvəlki dövrə təsadüf etmişdir. Azərbaycanda Aya və Günəşə sitayişlə bağlı inancların, təsəvvürlərin təsviri sənət obrazına çevrilməsi, incəsənətdə öz əksini tapması, eləcə də dekorativ tətbiqi incəsənətimizə və digər sənət sahələrinə qarşılıqlı təsiri, uzun bir tarixi prosesin məhsulu hesab edilə bilər. Arxeoloji qazıntılar zamanı aşkar edilən materiallardan da aydın olur ki, təsvir və simvollar, naxışların yaranması tarixi, semantikası insanların mifoloji təsəvvürləri ilə paralellik təşkil etməsi təsadüfi xarakter daşımamışdır. Aparılmış elmi araşdırmalar göstərir ki, özünəməxsusluğu ilə seçilən ümumtürk dəyərlərinin mədəni-mənəvi birliyin təmsilçisi olan simvol, naxışlarımız tarixi inkişaf mərhələsi keçmiş, müasir dövrədək tətbiqi sənət növlərimizin ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

ƏDƏBİYYAT

1. Arseven C.E. Sanat Ansiklopedisi. II c., Istanbul: Milli Eğitim Basımevi, 1965, 640 s.
2. Аджи М. Европа, тюрки, великая Степь. Москва: Мысль, 1998, 334 с.
3. Dostiyev T.M., Bəşirov R.Y. Orta əsr Şəmkir şəhəri. Arxeoloji qazıntılar və artefaktlar. Bakı, 2013, 515 s.
4. Əfəndi R., Əfəndi T. Azərbaycan bəzək sənəti. Bakı, 2002, 80 s.
5. Əfəndiyev F. Dekorativ sənətdə öküz və şir təsvirlərinin bəzi motivləri haqqında / Qobustan İncəsənət toplusu. Bakı, 1978, s. 75-76.
6. Gülensoy T. Orhundan Anadoluya Türk damğaları. Damğalar, imler, enler. İstanbul, 1989, 179 s.
7. Qurbanov A. Damğalar, rəmzlər, mənimsəmələr. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, 2013.
8. Məmmədov A.M. Samux mahalının tarixi arxeoloji tədqiqinə dair. Bakı, 2000, 95 s.
9. Müseyibli N.Ə. Gəmiqaya. Bakı: Çaşıoğlu, 2004, 320 s.
10. Rəcəbov B.Ə. Azərbaycanın orta əsr qadın bəzəkləri (IV-XIII əsrlər). Arxeoloji və Etnoqrafik materiallar əsasında. Bakı: Elm, 2000.
11. Rzayev N.İ. Möcüzəli qərinələr. Bakı: Azərnəşr, 1984, 120 s.
12. Rzayev N.İ. Qayalar danışır. Bakı: Elm, 1985, 93 s.
13. Seyidov M.M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983, 326 s.
14. Yusifova D.S. Gəncə-Qazax bölgəsinin ilk orta əsr bəzi ay məbədləri və xristian abidələri haqqında // Tarix və onun problemləri jurnalı, Bakı, 2015, № 1, s. 329-334.

15. Мещанинов И.И. Пиры Азербайджана. Известия Государственной Академии материальной культуры. Т. IX, вып. 4, л., 1931, 96 с.

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu
E-mail: ***durdaneyusifova 57@gmail.com***

Durdana Yusifova

THE HISTORY OF THE USE OF ORNAMENTS RELATED TO RELIGIOUS BELIEFS IN VARIOUS ART SPHERES OF AZERBAIJAN

The paper examines the origin and semantics of patterns, ornaments related to religious beliefs, totemistic and fetishistic images in different crafts examples in the territory of Azerbaijan in the Early Middle Ages. The results of archaeological research show that the patterns have had various symbolic meanings related to people's lifestyles and religious beliefs for centuries and have been applied in crafts fields (pottery, jewelry, architecture, carpet weaving, et cetera) as a product of artistic and philosophical thinking. For example, in the belief of nations, the depiction of some animals as totems (bull, lion, goat, dragon, snake), as well as emblematic ornaments (images of animals, birds, trees, flowers), geometric and floral patterns used in the solution of borders, symbols circle triangle, cross. Examples are found in ceramics, decoration items, and our carpet patterns and architectural monuments.

Keywords: *religious beliefs, lifestyle, symbols, floral patterns, craft examples.*

Дурдана Юсифова

ИЗ ИСТОРИИ ПРИМЕНЕНИЯ ОРНАМЕНТОВ, СВЯЗАННЫХ С РЕЛИГИОЗНЫМИ ВЕРОВАНИЯМИ, В РАЗЛИЧНЫХ СФЕРАХ ИСКУССТВА АЗЕРБАЙДЖАНА

В статье рассматриваются вопросы происхождения и семантики орнаментов, связанных с религиозными верованиями, а также изображений, связанных с тотемизмом, фетишизмом, в различных образцах ремесла в эпоху раннего средневековья на территории Азербайджана. Археологические исследования показывают, что орнаменты испокон веков имели различные символические значения, отражающие образ жизни и религиозные верования, и как результат художественно-философского мышления применялись в различных отраслях ремесла (гончарное дело, ювелирное искусство, зодчество, ковроткачество и др.). На образцах керамики, предметах украшений, коврах, архитектурных памятниках Азербайджана часто встречаются изображения некоторых животных, имеющих тотемное значение для различных народов (бык, лев, коза, дракон, змея), узоры эмблемного характера (животное, птица, изображения цветов), а также геометрический и растительный орнамент, символы (круг, треугольник, крест) и т.д.

Ключевые слова: *религиозные верования, образ жизни, символы, растительный орнамент, образцы ремесла.*

(Tarix elmləri doktoru Arif Məmmədov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 30.08.2021
Son variant 20.09.2021

UOT 39

ASƏF ORUCOV

NAXÇIVANDA ŞƏHƏR ƏHALİSİNİN SU TƏCHİZATI SİSTEMİNDƏ KƏHRİZLƏRİN ROLU

Məqalədə Naxçıvanda şəhər əhalisinin su təchizat sistemində kəhrizlərin rolu araşdırılmışdır. Araşdırmalar zamanı məlum olmuşdur ki, şəhər əhalisi kəhriz sularından həm suvarma sistemindən, həm də içməli su kimi istifadə etmişdilər. Belə kəhrizlərdən Kazım Qarabəkir, Mirzə Bədəl, Əliabad, Ağamalı, Hacıniyyət, Məşətahir, Çuxur, Kalba Musa, Sərşəhər, Mədrəsə və s. qeyd edə bilərik. Bəzi kəhrizlərdə var ki, ondan soyuducu kimi istifadə etmiş, yay zamanı içərisində üzüm, yemiş, qarpız, ət-süd məhsulları və s. saxlamışlar. Tədqiqat nəticəsində məlum olmuşdur ki, kəhrizlər şəhərsalma mədəniyyətinin formalaşmasında və inkişafında mühüm rol oynamışdır.

"Kəhriz" və yaxud "kehriz" yeraltı suvarma kanalı mənasını verir. Naxçıvanda və Ordubadda kəhriz həm də "çeşmə" (hərfən, "bulaq") adlandırılır.

Açar sözlər: *Naxçıvan, Ordubad, kəhriz, suvarma sistemi, çeşmə.*

Şəhərsalma mədəniyyətinin inkişafında kəhriz sistemlərinin rolu əvəzedilməzdir. Eyni zamanda şəhərlərin genişlənməsi və abadlaşdırılmasında da kəhrizlər xüsusi rol oynamışdır. Əhali ta qədimdən su mənbəyi kimi kəhriz suyundan həm məişətdə, həm də həyətyanı sahələrin suvarılması üçün istifadə etmişdir. Bu barədə müxtəlif dövrlərin səyyah və coğrafiyaşünasları dəfələrlə yazmışlar. Təkcə Naxçıvan və Ordubad şəhərlərində 100-lərlə kəhrizin mövcudluğu yazılı və şifahi mənbələrdən bizə məlumdur. S.Babayev keçən əsrin sonlarında yazırdı ki, hesablamalara görə, muxtar respublikada bir neçə on il bundan qabaq 407 kəhriz sistemi mövcud olmuşdur [1, s. 85]. Aparılan tədqiqatlardan məlum olmuşdur ki, kəhriz-çeşmələrin adları ya məhəllə adları, ya da sahiblərinin, yəni onları çəkdirənlərin adları ilə bağlı olmuşdur. Bunlardan Lülə, Xan, Ağamalı, Kiçik, Kazım Qarabəkir, Mirzə Bədəl, Qızdırma, Əliabad, Ağamalı, Hacıniyyət, Məşətahir, Çuxur, Kalba Musa, Sərşəhər, Mədrəsə, Peçi, Töyənək, Bilal, Hacı Tağı, Ambaras, Hüseyn bəy, Qızlar, Hamam, Qırxayaq, Şıxəli xan, Meyrəmçə, Hacı Fəttah, Nəhər, Hacı Yusif, Qara hovuz (Qara oğuzda deyilir – A.O.) və sair çeşmə və ya kəhrizləri qeyd edə bilərik. Bu kəhriz və çeşmələrdən, yeraltı sərvətlərdən xalqımız bu gün də yararlanır. Dünyanın bir sıra yerlərində içməli su qıtlığı olduğu halda, qorunub saxlanan su abidələrimiz bizə bu problemi yaşatmır. Akademik T.Bünyadov e.ə. I minillikdə kəhriz sisteminin inkişaf etdiyini, onun suvarmada böyük rol oynadığını göstərir [2, s. 24-25].

"Kəhriz" və yaxud "kehriz" yeraltı suvarma kanalı mənasını verən fars sözüdür. Bu sözün kökü "quyu", "axın" kimi tərcümə olunur. Kəhrizlər qrunt sularının öz axını ilə yer səthinə çıxarılması üçün nəzərdə tutulmuş yeraltı hidrotexniki qurğulardır. Onlar dünyanın 40-a yaxın ölkəsində, əsasən də Yaxın Şərqdə geniş yayılmışdır. Kəhriz sözü Azərbaycanda və İranın Şərqi Azərbaycan ostanlarında "kəhriz", Orta Asiya Cümhuriyyətlərində "kyoriz", Türkiyədə "korcz" Çinin Uyğurstan vilayətində "koriz" kimi işlənilir. Bu halda kəhriz sözünün mənasının farscadan olması şübhə doğurur. Araşdırmalar onu göstərir ki, kəhriz sözü fars dilində olsa da, kəhrizlə bağlı terminlərin əksəriyyəti türk dilindədir [5, s. 14]. Tarix üzrə elmlər doktoru İ.Məmmədova qeyd edir ki, xilafət dövründən etibarən Azərbaycanda kəhriz sözünün sinonimi olan "qənat" və "qənavat" sözləri də işlənmişdir [6, s. 228]. Azərbaycanın bir çox yerlərində, xüsusilə də Naxçıvanda və Ordubadda kəhriz həm də "çeşmə" (hərfən, "bulaq") adlandırılır. Təbrizdə də kəhrizin çeşmə kimi adlandırıldığına rast gəlirik [6, s. 229].

Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Naxçıvan şəhəri daxil olmaqla Naxçıvan maili düzənliyində təqribən 25 yaşayış məntəqəsində kəhriz sistemi mövcud olmuşdur. XX yüzilliyin əvvəllərində bu ərazidə kəhrizlərin sayı 80-ə, kürələrinin uzunluğu 44804 metrə, quyularının sayı 1586 ədədə çatmışdı. Burada böyük sərfə malik olan çoxlu kəhrizlər vardır. Qeyd etmək lazımdır ki, ötən əsrdə Naxçıvan şəhərində fəaliyyət göstərən Kalba Musa, Qızdırma, Əliabad kəhrizlərinin su sərfi şəhərə borular vasitəsi ilə daxil olan sudan çox olmuşdur [1, s. 86].

Kəhrizlərin tikintisi, qazıntısı ilə məşğul olan insanları "kənkan" adlandırmışlar. Kənkan sənəti şərəfli sənət sayılmış və nəsildən-nəslə ötürülmüşdür. Naxçıvanda kəhrizlərin tikintisi ilə həm yerli sakinlər, həm də İrandan (Cənubi Azərbaycandan) olan kənkanlar məşğul olurdular. Buna görə də, bir çox kəhriz terminləri mənşəcə fars mənşəlidir: "lağım" (Naxçıvanda "kürə" – yeraltı su aparıcı kanal və yaxud tunel), "lağımbar" (tunel qazan usta), "dol" (qazılmış qruntun yer səthinə çıxarılması üçün istifadə olunan dəri qab), "dolçu" (dol daşıyan), "çarx" (cığrıq), "tey" (tunelin alt hissəsi), "asmana" (tunelin ən hündür hissələri), "abkar" (kəhrizdə su axınının kəsilməsi), "saybənd" və ya "səngbənd" (mümkün uçqunlardan qorunmaq üçün daş qurğular) və digər sözlər vardır ki, indi də kəhrizlərin istismarı və təmiri zamanı onlardan istifadə olunur [7].

Kəhrizin qazılması üçün ilk növbədə su yatağını, mənbəyini aşkar etmək lazımdır. Toplanmış etnoqrafik materiallardan aydın olur ki, rütubətli yerlər və bitkilərin üzərinə şehin düşməsi, həmçinin həmin sahədə ağaclar həmişə yaşıl qalarsa və yaxud qar torpaqda qalmırsa kəhrizin qazılması üçün əlverişli olduğunu göstərir. Yaşayış məskənlərinin coğrafi şəraitinə uyğun olaraq kəhrizlərin qazılması müxtəlif üsullarla icra olunur. Düzən zonalarda və yumşaq torpaqlı ərazilərdə çəkilən kəhrizlər yerin altından lağım atmaq yolu ilə qazılırdı. Baş quyular həmişə yuxarıda olardı. Kəhrizin baş quyusu ilə son quyunun arası dümdüz olardı. Məlumatçılar qeyd edir ki, əgər əyri olarsa suyun qarşısını şor, ərp bağlayar və su itər, el dili ilə desək, azar. Kəhriz qazmaq üçün işçi qrupu yaradılırdı ki, bu qrup kənkanbaşı adlanan usta və onun köməkçilərindən ibarət olurdu. Kəhrizin qazılması zamanı kənkanbaşı, lağımçı, çarxçı, dolkeş adlı 3-5 nəfərlik xüsusi kənkan dəstələri fəaliyyət göstərirdi. Ə.Quliyev yazır ki, Naxçıvanda kənkanbaşına sərxeyr də deyərmişlər [5, s. 15]. Kəhrizlər qazılarkən əvvəlcə baş quyu (buna güman quyusu da deyilir), daha sonra isə digər quyular qazılır. Quyudan qazılmış torpağı inək və öküz dərisindən hazırlanmış dolun arasına yığıb, çarx vasitəsi ilə yuxarı dartıb quyunun kənarına tökərlər. Kəhrizlərin qazılmış lağımları daşla və ya bişmiş kərpiclə tağvarı hörülür. Quyularda lağımların hündürlüyü 1, 1,5, bəzi hallarda isə 2 metr olur.

Kəhriz quyularının dərinliyi suyun keçdiyi ərazinin relyefindən asılı olaraq müxtəlif ölçülərdə olur. Aparılan tədqiqatlar nəticəsindən məlum olur ki, Naxçıvanda şəhər ərazilərində yerləşən kəhriz quyularının ən dərini 45 metr, ən dayaz quyu 1 metrdir. Ordubad şəhərində kəhrizlərin başlanğıcı ilə qurtaracağının arasındakı məsafə 500-800 metrdir. Bir kəhrizdə ən azı 15-20 quyu, ən çox isə 43-45 quyu vardır. Quyuların arasındakı məsafə əsasən 25-30, bəzi hallarda isə 6-7 metr təşkil edir. Ordubadda Hacı Fəttah çeşməsinin 42 quyusu, Haştağı çeşməsinin 40 quyusu, Hacı Sadıq çeşməsinin isə 20 quyusu vardır. Quyu qazarkən suyun axımını saman çöpü ilə yoxlayarlar, belə ki, saman çöpünü suya salardılar, saman çöpü bir az geri, sonra irəli gedərsə demək suyun axımı yaxşıdır. Hazırda Ordubad şəhər sakinlərinin içməli suya olan tələbatının bir qismini kəhriz suları təmin edir. Kəhriz suları yerin altında qurulmuş tunellərin daxilindən axaraq həyətlərdə inşa edilən kürələrdə üzə çıxarılıb. Bu kürələr əhali tərəfindən "qırxpillələr" də adlandırılır. Ancaq bu pillələrin qırx pillə adlanması formal

xarakterik daşıyır. İ.Məmmədova yazır ki, Təbriz şəhərində də bu cür çeşmələr "qırxayaq" adlanır [6, s. 229]. Ordubad şəhəri ərazisində yerləşən kəhrizlər həyətlərdən keçərək küçələrin keçdiyi ərazilərdə yer səthinə çıxarılıb. Hazırda Ordubad şəhərində və bölgələrində kəhriz suyundan içməli su kimi, həmçinin həyətlərin, bağların suvarılmasında da geniş istifadə olunur. Həyətlərdə qurulmuş kürələrin əksəriyyəti bir tarixi memarlıq abidəsi kimi qorunaraq saxlanılır [10].

Naxçıvan şəhərinin Şahab məhəlləsinin kəhriz sistemi yeraltı tunellər və həyətlərdə kəhriz kürələrindən ibarət olduğu halda, Sarbanlar məhəlləsində kəhrizlər bəzi həyətlərdə və dalanlarda relyefdən asılı olaraq yerüstünə çıxarılmışdır. Bu su sistemləri vaxtilə şəhər ərazisində bir neçə funksiyanı yerinə yetirirdi. Yay günlərində insanların sərin suya olan tələbatını ödəməklə, küçə və həyətlərdə mikroiqlim yaradır, həyətdəki ağacların, əkin sahələrin suvarılmasına xidmət edirdi [4, s. 187]. Kəhrizin kürəsində qab-qacaq, paltar yumaq olmaz. Topladığımız etnoqrafik materiallara görə, Naxçıvan şəhərində ən təhlükəli kəhriz Köhnə qala kəhrizidir. Çünki, bu kəhrizin yuxarısına heç bir çıxış yoxdur.

Bəzi kəhrizlərin haqqında bir neçə söz qeyd etmək istərdik.

Kalba Musa çeşməsi. Kalba Musa çeşməsi öz başlanğıcını Şıxmahmud kəndinin yanından, Naxçıvançayın sağ yatağından götürür. Çeşmənin qazılmasına 1901-ci ildə Kalba Musa adlı bir xeyriyəçinin vəsaiti hesabına başlanılmışdı. Çeşmənin Naxçıvan şəhərinə gəlib çatması üçün 130-140 quyu qazdırıb, hər quyu arasında lağım atılıb və hər quyu arasındakı məsafə 60-80 metrdir. Bu kəhriz 1909-cu ildə başa çatmışdır. Göz yaşı kimi dupduru, yayda buz kimi, qışda ilıq suyu olan bu kəhriz həmin vaxtdan Kalba Musa çeşməsi adlanır. Bu məşhur kəhriz ətrafında yerləşən əkin sahələrinin suvarılmasında, eləcə də əhalinin içməli suya olan tələbatının ödənilməsində mənbə rolunu oynayıb. Sovetlər dövründə bütün qədim abidələrimiz kimi, Kalba Musa kəhrizindən Naxçıvan şəhərinin bağlarının suvarılmasında, eləcə də uzaq yaşayış massivlərinə su vurulmasında istifadə edilib. Ancaq, bütün bunlara baxmayaraq, kəhrizə o qədər də diqqət edilməyib, elə bunun da nəticəsində su sərfiyyatı azalmışdı. Ölkəmiz dövlət müstəqilliyi əldə etdikdən sonra bütün sahələr kimi, dəyərli sərvətlərimiz sayılan kəhrizlərə də diqqət artırıldı. Kalba Musa çeşməsi də təmir olunaraq əvvəlki görkəminə qaytarıldı. Belə ki, 2006-cı ilin avqustunda Kalba Musa kəhrizinin bərpası məqsədilə çeşmə Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin tabeliyindəki Kəhrizlər İdarəsinə həvalə edildi. Uzunluğu 2388 metr olan kəhrizin 830 metrlik hissəsi qatılaşmış lildən təmizləndi. Beləliklə, uçub-sökülmüş kəhriz quyuları bərpa olundu. Ötən müddət ərzində kəhrizin axarı üzərində 14 yeni baxış quyusu qazılıb, 13 quyuda isə təmir işləri görülüb. Torpaq uçqunu ehtimalı böyük olan 7 quyuda dəmir-beton bərkitmə işləri aparılıb. Gələcəkdə uçqunların dağıdıcı təsirini azaltmaq məqsədilə saybənd-tağ şəklində hörgü sistemindən istifadə edilib. Bir sözlə, təmir-bərpa işlərindən sonra çeşmənin su sərfi də xeyli artıb [3].

Xan və yaxud Kazım Qara Bəkir kəhrizi. Xan və yaxud Kazım Qara Bəkir kəhrizi Naxçıvan şəhərinin şimal-şərqindən Naxçıvan çayın qədim məcraaltı sularından qidalanan Xan (Ağamalı) kəhrizi şəhərin cənubunda məşhur "Xan diki"-nin yamacında yer səthinə çıxır. Kəhrizin qazılması I Kalbalı xan tərəfindən həyata keçirilmişdir. Kəhrizin uzunluğu 1370 m, quyularının sayı 38-dir. Ən dərin quyusu 21 m-dir. Kəhrizin adı 1918-ci ilədək "Xan", 1930-cu ilədək "Kazım Qara Bəkir Paşa" adını daşımışdır. O dövrdə indiki "Xan diki"-nin yamacından aşağı sahələri I Kalbalı xanın üzümlükləri bu kəhrizin suyu ilə suvarılırdı [5, s. 23].

Cananbəy kəhrizi. Naxçıvan şəhərində mövcud olan Cananbəy kəhrizi Şıxmahmud

kəndinin cənubundan başlayaraq böyük bir məsafə qət edir və Xətai qəsəbəsi yaxınlığında yerin səthinə çıxır. El arasında "Cananbər kəhrizi" adı ilə tanınan kəhrizi Canan bəy adlı adam qazdırmışdır. Canan bəy (ad zaman keçdikcə təhrif olunaraq Cananbər şəklinə düşmüşdür) kəhrizi Naxçıvan şəhər əhalisinin içməli və təsərrüfat suyuna olan tələbatını ödəmək üçün Səfəvilər dövründə inşa etdirilmişdir. Ancaq, zaman keçdikcə uçub dağılmış, məhv olmaq təhlükəsi yarandığından onu qazdıran Canan bəyin nəslindən olan və onun adını daşıyan Canan bəy kəhrizi təmizlətdirmiş və bərpa etdirmişdir. Qədim və orta əsrlər zamanı kəhrizlər onu qazdıran adamın mülkiyyəti olduğundan, həmin şəxs öldükdən sonra mülkiyyət hüququ övladlarına keçirdi. XIX əsrdə də bu kəhriz onun xələflərinin nəzarətində olmuş, nəslin nümayəndəsi, ulu babasının adını daşıyan Canan bəy kəhrizdə bərpa işləri apartdırmışdır. Bəktaşilər kəhriz qazıldıqdan sonra şəhərin şimal-şərqində indiyədək qalan və el arasında "Bəktaş arxı" deyilən kanal da çəkdirmişlər. Canan bəy kəhrizindən başlayaraq çəkilən və Bazarçaydan da su götürən kanalın da tarixi Səfəvilər dövrünə gedib çıxır [9, s. 87].

***Hacı Yusif* çeşməsi.** Hacı Yusif çeşməsi Ordubad şəhərində yerləşən qədim çeşmələrdən biridir. Şəhərin Qafar Babayev küçəsində yerləşir. Hacı Yusif çeşməsinin quyularından biri 35 pillədən ibarətdir. Şəxsi həyətdədir. 1750-ci ildə tikilib. Hacı Yusifin bu gün adını daşıdığı nəvə Hacı Yusif deyir ki, bütün məhəllənin üzünə açıq olan bu kəhriz suyunun təmiz və sərinliyi ilə hamını heyran qoyur. Bu su sistemləri min illər boyu məişət və təsərrüfatda istifadə edilib, qədim zamanlarda dəyirmanların işlədilməsində də böyük əhəmiyyət daşıyıb. Bundan əlavə, yay ayları zamanı müxtəlif meyvələri, ət-süd məhsullarını saxlamaq üçün kəhrizlərdən soyuducu kimi də istifadə olunub. Əksər həyətlərdə kəhrizlər çoxpilləlidir. Bişmiş kərpicdən inşa olunan qırxpillələr kəhriz sistemləri üzərində yeraltı abidə sayılır [8].

Hacı Fəttah çeşməsi. Hacı Fəttah çeşməsi başlanğıcını Usta Haşim küçəsindən götürür, Qafar Babayev küçəsində isə bitir. Bu çeşmənin Hacı Fəttah adlı bir xeyriyyəçi tərəfindən çəkildiyi məlumdur. Xalq arasından toplanmış məlumata görə, Hacı Fəttah Ordubad şəhərində qadınların Ordubad çayında paltar yumasından xoşlanmadığına görə bir çeşmə çəkdirmişdi. Deyilənə görə, baş kankan artıq bu hissədən su çıxmayacağı qənaətinə gəlib və bunu Hacı Fəttaha bildirmişdi. Hacı Fəttah isə qeyd edib bildirmişdi ki, Hacıya su çıxmır, ancaq sizə onluq qızıl çıxır ki... Bunu eşidən kankanlar qazma işini davam etdirirlər. Və nəhayət qazıntı zamanı su çıxmağa başlayır.

Bir məsələni də vurğulamaq istərdik ki, 2004-cü ildə Naxçıvanda Kəhrizlər İdarəsi yaradılmış və bu idarə 40-a yaxın kəhrizi bərpa etdirmişdir. Bu istiqamətdə işlər hal-hazırda davam etdirilməkdədir.

Nəticə. Aparılan tədqiqatlardan məlum oldu ki, Naxçıvan şəhərlərində kəhriz sistemi əsasən Ordubad və Naxçıvan şəhərlərində mövcud olmuşdur. Ordubad şəhərinin bu sahədə özünəməxsusluğu vardır. Ordubadda əhali arasında belə bir söz var ki, hər məhəllənin öz kəhrizi vardır. Demək olar ki, Ordubad şəhərinin su təchizat sisteminin əsas hissəsini kəhrizlər təşkil edir. Naxçıvan şəhərində su təchizat sistemində Ordubada nisbətən kəhrizlər nisbətən az rol oynayır. Kəhriz sistemi həm tarixi abidə kimi, həm də su təchizat sistemi kimi qorunub saxlanılmalıdır.

ƏDƏBİYYAT

1. Babayev S. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı: Elm, 1999, 298 s.
2. Bünyadov T. Azərbaycanda əkinçiliyin inkişafı tarixinə dair. Bakı, 1964, 154 s.

3. Xeyirxahlığın və xalqa xidmət etməyin bəhrəsi – Kalba Musa çeşməsi. "Şərq qapısı" qəz., 2017, 29 sentyabr.
4. Qənbərova G. Naxçıvanda məskunlaşma və şəhərsalmanın inkişafı. Bakı: Afpoliqraf, 2018, 304 s.
5. Quliyev Ə. Naxçıvan kəhrizləri. Bakı: Nurlan, 2008, 164 s.
6. Məmmədova İ. Təbriz şəhərinin maddi mədəniyyəti: Tarixi-etnoqrafik tədqiqat. Bakı, Çaşıoğlu, 2016, 500 s.
7. Naxçıvan kəhrizləri Azərbaycanın milli sərvətidir. "Şərq qapısı" qəz., 2015, 11 fevral.
8. Ordubad kəhrizləri. "Şərq qapısı" qəz., 2016, 30 iyun.
9. Səfərli H. Naxçıvanda kəhrizlər: yaranması və inkişaf yolu // Azərbaycan arxeologiyası, 2010, v. 13, № 2, s. 84-90.
10. http://naxcivantv.az/index.php/news/20987-ordubad-şəhərinin-inciləri.html

AMEA Naxçıvan Bölməsi
E-mail: ***aseforucov@yahoo.com.tr***

Asaf Orujov

THE ROLE OF KAHRIZ IN THE WATER SUPPLY SYSTEM OF URBAN POPULATION IN NAKHCHIVAN

The paper examines the role of kahrizes in the water supply system of the urban population in Nakhchivan. During the research, it was found that the urban population used the water of kahriz both as an irrigation system and drinking water. Among such kahrizs we can mention Kazim Garabakir, Mirza Badal, Aliabad, Agamali, Hajiniyat, Mashatahir, Chukhur, Kalba Musa, Sharshahar, Madrasa and others. Some kahrizes were used as refrigerators to keep grapes, berries, watermelons, meat, and dairy products inside during the summer. As a result of the research, we have ascertained that the kahrizes played an essential role in the formation and development of urban culture.

"Kahriz" or "kariz" means underground irrigation canal. In Nakhchivan and Ordubad, the kahriz is also called a "source" (literally "spring").

Keywords: *Nakhchivan, Ordubad, kahriz, irrigation system, source.*

Асеф Оруджев

РОЛЬ КЯРИЗОВ В СИСТЕМЕ ВОДОСНАБЖЕНИЯ НАСЕЛЕНИЯ ГОРОДА НАХЧЫВАНА

В статье изучена роль кяризов в системе водоснабжения городского населения Нахчывана. В ходе исследований выяснилось, что жители города использовали кяризную воду как в оросительной системе, так и в качестве питьевой. К таким кяризам относятся Кязым Карабекир, Мирза Бадал, Алиабад, Агамалы, Хаджинят, Машатахир, Чухур, Калба Муса, Шаршехер, Медресе и др. Существовали и такие кяризы, которые использовали в качестве холодильника. В летний сезон они служили хранилищем для

винограда, дыни, арбузов, мясомолочных продуктов и т.д. В результате исследований было установлено, что кяризы сыграли важную роль в формировании и развитии градостроительной культуры.

«Кяриз» или «Кехриз» означает подземный оросительный канал. В Нахчыване и Ордубаде кяриз также называют фонтаном (родником).

Ключевые слова: *Нахчыван, Ордубад, кяриз, оросительная система, родник.*

(AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 22.06.2021
Son variant 15.07.2021

AZƏRBAYCAN DİLİ

UOT 81`1-027.21

ƏBÜLFƏZ QULİYEV

ƏHMƏD CƏFƏROĞLU VƏ AZƏRBAYCAN DİALEKTOLOGİYASI MƏSƏLƏLƏRİ

Azərbaycan xalqının mühacirətdə yaşamış görkəmli elm xadimlərindən biri də İstanbul universitetinin professoru tanınmış türkoloq Əhməd Cəfəroğludur (1899-1975). Ə.Cəfəroğlunun Türkiyə dialektologiyasına verdiyi misilsiz töhfələr içərisində Qafqaz, Azərbaycan şivələrinin də öz payı vardır. O Anadolu ellərini qarış-qarış dolaşıb dialekt və şivə materialları toplarkən bir mühacir həsrəti ilə bu geniş xəzinədə daim Azərbaycan mədəniyyətinin, Azərbaycan dilinin izlərini axtarıb üzə çıxarmaq üçün böyük qüvvə sərf etmişdir. Onun Anadolu dialekt və şivələrinə aid araşdırmalarında məhz buna görə Azərbaycan sahəsi ilə qarşılaşdırma və müqayisələrə geniş yer verilmişdir. Bu araşdırmaların dərindən tədqiqi Azərbaycan dilaektologiyası elminin daha dərindən öyrənilməsinə, üfüqlərinin genişlənməsinə böyük kömək göstərə bilər. Ona görə də bu məqalədə görkəmli türkoloqun, dialektoloqun Azərbaycan dialekt və şivələri ilə əlaqədar düşüncə, mülahizə və araşdırmalarını ümumiləşdirib dəyərləndirmək istədik. Məhz bu məqsədlə məqalədə böyük alimin Azərbaycan dialektologiyası ilə bağlı araşdırmaları ilk dəfə ümumiləşdirilmiş şəkildə təhlil və tədqiq etdik.

Açar sözlər: *Əhməd Cəfəroğlu, dilçilik, dialektologiya, Azərbaycan dialekt və şivələri.*

Azərbaycan xalqının mühacirətdə yaşamış görkəmli elm adamlarından biri də İstanbul universitetinin professoru tanınmış türkoloq Əhməd Cəfəroğludur.

Ə.Cəfəroğlunun sevimli yetirmələrindən olan prof. dr. O.F.Sərtqaya böyük alimin zəngin elmi irsinin toplanmasına gərgin əmək sərf etmişdir. Belə ki, bu sədaqətli tələbə onun əsərlərinin 9 cildini Türk Dil Qurumunda nəşr etdirmiş, eyni zamanda 2008-ci ildə yenə eyni nəşriyyatda 1932-1934-cü illərdə Əhməd Cəfəroğlunun nəşr etdirdiyi "Azərbaycan yurtbilgisi" dərgisinin bütün materiallarını toplu şəkildə oxucuların istifadəsinə təqdim etmişdir [4]. 1995-ci ildə O.F.Sərtqaya qeyd edirdi ki, böyük alimin elmi məqalələrini toplayıb nəşr edəcəyik. Bunun bir cildi "Azərbaycan" adlanacaq [17, s. 254-261]. Həqiqətən də Türkiyədə türkologiyanın inkişafına böyük töhfələr vermiş Ə.Cəfəroğlunun elmi yaradıcılığında Azərbaycan mövzusu mühüm yer tutur.

Ə.Cəfəroğlunun zəngin elmi yaradıcılığının mühüm bir hissəsini Anadolu dialektologiyasına aid araşdırmaları təşkil edir. Onu da qeyd edək ki, o, Türkiyədə dialektologiya elminin əsasını qoymuş ilk görkəmli alim kimi tanınır.

Ə.Cəfəroğlu Türkiyə dialektologiyasına verdiyi misilsiz töhfələr içərisində Qafqaz, Azərbaycan ağızlarının da öz payı vardır. O, Anadolu ellərini qarış-qarış dolaşıb dialekt və şivə materialları toplarkən bir mühacir həsrəti ilə bu geniş xəzinədə daim Azərbaycan mədəniyyətinin, Azərbaycan dilinin izlərini axtarıb üzə çıxarmaq üçün böyük qüvvə sərf etmişdir [16, s. 29]. Belə ki, hələ 1937-1939-cu illərdə topladığı materiallarda Afyonkarahisarda vaxtilə gəlib yerləşmiş və kompakt şəkildə yaşayan Azərbaycan türkləri, onların mədəniyyəti, adət-ənənələri, şivə xüsusiyyətlərinə dair xeyli məlumat vermişdir (6). O daha sonra nəşr etdirdiyi "Anadolu dialektolojisi üzerine malzeme, Balıkesir, Manisa, Afyonkarahisar, Isparta, Aydın, Burdur, Antalya, Muğla, Denizli, Kütahya illeri ağızları" adlı əsərinin I cildinin ön sözündə

digər məsələlərin izahı ilə yanaşı bu bölgədəki azərilər, onların şivə xüsusiyyətləri haqqında qısaca da olsa bəhs etməyi yaddan çıxarmamışdır. Tədqiqatçı həmin məsələ haqqında bu kitabda belə yazır: "Təsbit etdiyim 400 illik mühacirətə rağmən bu köçəri əhali əski azəri şivə xüsusiyyətlərini olduqca bariz bir şəkildə mühafizə etmişdir. Təxminən on beş kənddən ibarət olan bu gəlmə azərilər arasında öz mənşələri haqqında müxtəlif rəvayətlər dolaşmaqdadır. Bir qismi gəncəli olduğu halda, digər bir qismini Azərbaycanın Qarabağ əhalisi təşkil etməkdədir. Mən ancaq gəncəlilər arasında olaraq şivələrini, xalq mahnılarını, soy və qəbilə, tayfa adlarını və s. topladım. Onların söylədiyi rəvayətlərə baxılarsa hicri 1055-ci ildə gələrək buraya yerləşmişlər. Afyon ədliyyə idarəsində nüfuz kötüklərini axtarmaq imkanım olmadığı üçün indilik bu barədə qəti bir şey söyləmək imkanım xaricindədir. Yaşayış tərzi, tələffüz, şivə fərqi bu gəlmələri əsl yerli Afyon əhalisindən bariz bir şəkildə ayırmaqdadır. Məsələn, Afyon vilayəti şivələri qeyd-şərtsiz x səsinə təhəmmül etmədikləri halda, əksinə, mühacir gəncəlilər, bu gün belə Azərbaycanın Gəncə şivəsində hakim olduğu kimi bu səsə sadiq qalmışlar. Bu bariz fərq digər xüsusiyyətlərdə də gözə çarpmaqdadır" [7, s. XI].

Müəllif həmin ekspedisiya zamanı İsparta vilayətində rast gəldiyi *doyğa* və *bozbaş* kimi yemək adlarının mənşəyini izah edərkən onun bilavasitə Azərbaycan mətbəx mədəniyyəti ilə bağlı olduğunu və vaxtilə Bərdədən köçmüş şeyxülislam Bərdəi tərəfindən gətirildiyini göstərir [7, s. X]. Həmin mənbəyin lüğət qismində də müəllif Afyonkarahisar vilayətindəki azərilərin şivə xüsusiyyətlərinə aid verdiyi leksik dialektizmlər günümüz azəri türkcəsi ilə çox aydın şəkildə səsləşməkdədir. Məs., alaçıq – toprak ev; bardax – su testisi, testi; bilərzik – bilezik; can qoşması-kadar; çörək – ekmeğin ufağı; dal – arka, sonra; dam – hapishane, küçük ev; dizbezi – şalvar; dolanmaq – dolaşmak; ətmək – ekmek; qanqal – dikenli ve vahşi bir nebat; qaraqul – karakol; qoca – ihtiyar; qoçax – yiğit, cesur, kahraman; göyərti – yeşillik, bostan, sebze; Xanım – kadın adı; indi – şimdi; ırbıx – bardak; köynək – gömlek; maşara – maaşer; piseniyi – kedi yavrusu; pisi – kedi; komba – yuvarlak ve kabarık fırın ekmeği; soyxa – metruke; yuxa – yufka; yorqa – tiris yürüyen at və s.

Ə.Cəfəroğlunun topladığı dialekt materiallarının bir qismi yuxarıda da qeyd etdiyimiz kimi, folklor mətnlərindən ibarətdir. O bu materialları çox zaman türk dünyası materialları ilə müqayisə etmişdir. Məs. Türkiyənin şimal-şərq bölgələrindən material toplayarkən günəş duası motivi müəllifin diqqətini cəlb etmiş və onu ancaq Trabzon və Rizə yaylaqlarının əhalisi arasında müşahidə etmiş və bunu təhlil edərək göstərmişdir ki, xarakter və şəkil etibarilə tamamilə Azərbaycandakının eyni olduğundan bu da vaxtilə təsbit etdiyim şamanizm dini bakiyəsindən başqa bir şey olmasa gərəkdir [8, s. XVI].

Məlumdur ki, XIX əsrdə Şimali Azərbaycandan bir sıra ailələr Anadoluya köçmüş, bir qismi də Amasiya vilayətində yerləşmişdi. Hələ XX əsrin 30-cu illərində Ə.Cəfəroğlu Qarabağdan bu vilayətə köçmüş, ədəbi yaradıcılıqla məşğul olmuş, təriqət şeirinin məşhur nümayəndələrindən biri olan Seyid Mirhəmzə Nigari, eləcə də onun oğlu şair Siraci haqqında ayrıca tədqiqat aparmış və bu araşdırmaları kitab şəklində nəşr etdirmişdi (5). Yorulmaz tədqiqatçı "Anadolu ağızlarından toplamalar" (1943) kitabında da Amasiya vilayətində yaşayan azərilərdən xeyli miqdarda dialekt materialı toplamış, lüğət qismində (VIII bölüm) buradakı leksik vahidlərin mənasını bir-bir izah etmişdir [bax: 10].

Ə.Cəfəroğlu Şərqi Anadolu dialekt və şivələrini (Van, Bitlis, Muş, Ağrı) müşahidə edərkən bunların digər bölgələrdən fərqli xüsusiyyətlər kəsb etməsinə diqqəti cəlb etmiş və onları dar çərçivədə izah etməyin doğru olmayacağını göstərmişdir. Müəllif fikrinə davam edərək yazır: "Çünki bura digər həmsərhəd ölkələr, qonşu ölkələr şivələri ilə bir küll təşkil edən şərq

türkcəmizin bir mərkəzi məsabəsindədir. Və coğrafi linqvistik xəritədə bura heç şübhə yoxdur ki, hər iki Azərbaycan şivələri ilə bərabər cənubdakı İraq türk əşirət şivələri ilə ayarlanmaq məcburiyyətindədir. Bu qədər geniş sahəyə yayılmış olan şərq şivələri arasındakı qohumluq və bənzərlik o qədər bariz və məhfuzdur ki, bunları bir-birindən fərqləndirmək çox çətindir. Eyni yaxınlıq və birlik adət-ənənədə də gözə çarpmaqdadır. Müəyyən bir hüdud içərisinə alınmaq və ya dairəsi çizilmək istənirsə doğu türkcəmizin başlanğıc nöqtəsini Şimali Qafqaz hüdudları, şərqini Urmiyə gölü və ətrafı, cənubunu İraq türkləri, qərbini isə Malatya və Sivas bölgələri təşkil edər. Bu surətlə şərq türkcəmiz dialektoloji baxımdan türk şivələrinin bəlkə də ən zəngini olmuş olur" [11, s. XV-XVI].

Ə.Cəfəroğlu həmin kitaba Muş vilayətindəki azərbaycanlılardan tərəkəmə şivəsi adı ilə xeyli miqdarda dialekt materialı toplayaraq kitaba daxil etmişdir. Bu materiallar XVI əsrdə yaşamış məşhur Azərbaycan şairi və aşığı Qurbani və XVII əsr şairimiz Xəstə Qasımın şeirlərinin dialekt variantlarını təşkil edir [11, s. 87-107].

"Doğu illerimiz ağızlarından toplamalar" (Kars, Erzurum, Çoruh ilbaylıkları ağzı) kitabı bu baxımdan daha çox diqqəti cəlb edir. Ərzurum azərlərinin daha çox Cənubi Azərbaycandan gəldiklərinə əsaslanıb onların dialekt xüsusiyyətlərini cənub dialektlərimizlə müqayisə edir. Bu cilddə Qars, Ərzurum, Çoruh dialektlərini ələ alan Cəfəroğlu toplamanın on bölməsindən yeddisini Qars vilayəti şivələrinə ayırmışdır. Mətnlər Qaraqoyunlu, Qarapapaq, Tərəkəmə, Dünbüllü, Çarıxçı, Qacar, Türkmən, Ayrım, Əfşar və Qars şivə fərqlərinə görə sıralanmışdır. Əsərin müqəddiməsində toplamaların aid olduğu üç vilayətin şivələri haqqında ətraflı məlumat verilmişdir. Burada müəllif bu əsərin "Doğu illerimiz ağızlarından toplamalar" adlansa da, "Anadolu dialektolojisi üzerine malzeme" adlı əsərinin bir davamı olduğunu xatırladaraq qeyd edir ki, ancaq bu bölgədəki dialekt və şivələrin Anadolu ellərinin digər şivələrinə nisbətən Azərbaycan dialekt və şivələrinə böyük yaxınlıq göstərməsi və çoxdan bəri bu vilayətimizin "Şərq vilayətləri" adı ilə adlanmasından dolayı əsərə "Doğu illerimiz ağızlarından toplamalar" adı verilməsi uyğun görülmüşdür [9, s. XI]. Həmin kitabda Qarsın bir bölgə olaraq dialektoloji cəhətdən, demək olar ki, tədqiq edilmədiyi nəzərə alınaraq onun şivə zənginliyinin öyrənilməsinə bir qədər geniş yer ayrılmış və şivə xüsusiyyətləri etnik tərkiblə əlaqəli şəkildə araşdırılmışdır. Belə ki, 1920-ci ildə qurtuluş savaşı dövründə rus işğalından azad edilib yenidən Türkiyə Cümhuriyyətinə bağlanan Qars vilayəti sərhəd bölgəsi kimi bir tərəfdən Azərbaycan, digər tərəfdən də Gürcüstan və Ermənistan türkləri üçün bir mərkəz vəzifəsi görmüşdür. Həm bölgənin coğrafi vəziyyəti, yaylaq yeri olması ilə əlaqədar erməni zülmündən qaçan türklər (xüsusilə Azərbaycan türkləri) buraya sığınmış, yerli əhali ilə qaynayıb-qarışmışlar. Müəllif bu zənginliyi, eyni zamanda şivə müxtəlifliyini nəzərə alaraq bölgədəki şivələri leksik və fonetik xüsusiyyətlərinə görə aşağıdakı 2 qrupa ayırıb onlar haqqında qısa bilgilər vermişdir:

a) yerləşmiş türk uruqları şivələri: 1. Qaraqoyunlu uruğu şivəsi. 2. Qarapapaq yaxud tərəkəmə uruğu şivəsi. 3. Dünbüllü yaxud çarıxçı uruğu şivəsi. 4. Qacar uruğu şivəsi. 5. Türkmən uruğu şivəsi. 6. Ayrım uruğu şivəsi. 7. Əfşar uruğu şivəsi. 8. Bayat uruğu şivəsi. 9. Qarsın əsl yerli əhalisinin şivəsi. 10. Muğan türkləri şivəsi.

b) yeni gəlmiş türk qruplarının şivələri: 1. Axısqa şivəsi. 2. Axalkələk şivəsi. 3. Qazaxlı şivəsi. 4. Qarabağlı şivəsi. 5. İrəvanlı şivəsi. 6. Borçalı şivəsi. 7. Gəncəli şivəsi. 8. Göyçaylı şivəsi. 9. Makulu şivəsi. 10. Naxçıvanlı şivəsi (9, s. XII-XXI).

Bu mənzərəni təsvir etdikdən sonra müəllif Qars vilayətinin bu şivələri üzərində Azərbaycan türkcəsinin ciddi təsiri olduğunu göstərmişdir.

Ə.Cəfəroğlu Qars vilayətində 114 kənddə qarapapaq və ya tərəkəmələrin yerləşdiklərini nəzərə alaraq bu uruq və onun şivə xüsusiyyətləri haqqında qismən ətraflı məlumat vermişdir. Müəllif bu uruğun etnik baxımdan Azərbaycan türklərinin bir qolu olduğunu və şivə etibarilə Gəncə dialektinə çox yaxın olduğunu müəyyən etmişdir. Belə ki, tərəkəmə şivəsində də Gəncə dialektində olduğu kimi bir hecalı sözlərin sonundakı *b səsi v* və ya *f* səsinə, -...*ıb* feli bağlama şəkilçisi ...-*ıf* formasına və söz ortasındakı *c* səsi *j*-yə çevirilməkdədir [9, s. XV].

Bunlara Ə.Cəfəroğlunun lüğət tərkibi ilə əlaqədar olan və hələ XX əsrin 30-cu illərinin əvvələrində nəşr etdirdiyi "Azerbaycan yurtbilgisi" dərgisində [4, s. 604-632] nəşr olunmuş "Azəri ləhcəsində bəzi monqol ünsürləri" adlı silsilə məqalələrini də əlavə edə bilərik. Daha sonra bu məqalələr əsasında 50-ci illərdə "Azerbaycan ve Anadolu ağızlarında Moğolca unsurlar" [13, s. 1-10] adlı məqaləsi meydana çıxmışdır. Bu məqalələrdə Ə.Cəfəroğlu həm ədəbi dilimizdə, həm də dialekt və şivələrimizdə təsadüf edilən monqol dilindən alınmış leksik vahidlərdən, onların leksik-semantik və etimoloji xüsusiyyətlərindən bəhs edir. Burada ədəbi dildəki kürəkən, tonqal, nökər, darğa, qadağan, yekə, qayçı leksik vahidləri ilə yanaşı dialekt və şivələrdəki cida, şilə, qantarğa, noxta, nəmər, keşik və s. monqol ünsürlərindən bəhs edir.

Qeyd etmək lazımdır ki, Ə.Cəfəroğlu Azərbaycan dialektologiyası ilə hələ Almaniyada doktoranturada oxuduğu illərdə məşğul olmağa başlamışdı. O, Almaniyada yerinə yetirdiyi doktorluq dissertasiyasında Azərbaycan dilinin Gəncə dialektindəki 75 bayatının fonetik xüsusiyyətlərini araşdırmağa çalışmışdır. Bu əsər həm ayrıca kitabça şəklində, həm də Berlin Şərq İnstitutunun məcmuəsində nəşr olunmuşdur [4, s. 940-950].

Həmin silsilə məqaləsində Azərbaycan dilinin şimal və cənubunun bir bütün şəklində tədqiq olunmasından, dilimizin dialekt və şivələrinin tədqiqi tarixindən bəhs etmişdir. Burada o, 1920-ci illərdə professor Aşmarinin Azərbaycanda dialektoloji tədqiqat aparmasından, Şəki dialektini tədqiq etməsindən, 1926-cı ildə nəşr etdirdiyi əsərdən, burada Şəki şəhərinin daxilindəki 16 müxtəlif şivənin mövcudluğu haqqında məlumat verməsindən bəhs edir. Daha sonra Sürəyya Talıbxanbəylinin Şuşa şivəsi haqqında, İdris Həsənovun Gəncə dialekti haqqında araşdırmalarından bəhs edir [4, s. 1271-1272].

Ə.Cəfəroğlu "Orta Anadolu ağızlarından dərləmələr" adlı kitabında Yozqat vilayəti şivələrindən toplanan materiallarla yanaşı, bölgənin söz varlığının durumunu əks etdirən lüğətcə də vermişdir [12]. Bu lüğətcədə Yozqat vilayəti şivə xüsusiyyətlərini göstərən çox sayıda dil vahidinə də yer verilmişdir. Bu lüğətcədə müəllifin Yozqat vilayətinin şivələrində rast gəldiyi Azərbaycan dialekt leksikası ilə üst-üstə düşən sözlərin qeyd olunması da diqqəti cəlb edir. Bu lüğətçədəki bəzi leksik vahidlər haqqında təsəvvür yaratmaq üçün həmin kitabdakı bəzi nümunələri verməyi məqsədəuyğun hesab etdik: goynek – gömlek; sini – büyük tepsi; eme – hala; döş – göğüs; golük – eşek; alenmek – durdurmak; balak – manda yavrusu; bıldır – geçen yıl; ağca – beyaz ;camış – erkek manda; culuk – hindi; cırnaklamak – tırmalamak; çimmek – yıkanmak; çitlek – çekirdek; depik – tekme; dene – tane; dibek – buğday ezmek için kullanılan taş; dingildemek – hoplayıp zıplamak; dombalah aşmak – takla atmak; dulda – rüzgar değmeyen kuytu yer; duluğ – kulak altı (favori); düve – bir yaşındaki dişi dana; ellaham – sanırım, sanki; ellik – eldiven; bi elçim – bir avuç; essahtan – sahiden, gerçekten; enik – köpek yavrusu; eyce – çok güzel; gatık – ayran; goruğ – olgunlaşmamış üzüm; godek – kısa olan; herslenmek – sinirlenmek; kelem – lahana; Mazarat – yaramaz; pahla – fasulye; tavatır – çok güzel; toplu – pencere; toygaşı – bir tür ayranlı orba; urelüün – önceki gün; qırmızı – domates; goğalamaç – bir çocuk oyununun adı; garabaş – koyunun bir cinsi; gada – bela manasında; elekçi – çingene; dirçelmek – canlanmak, kuvvetlenmek; direşmek – dayanmak; desde –

demet; cüt – çift, ekinde kullanılan çift; cütçü – çifçi; cüce – piliç; bibi – babanın kız kardeşi; kerme – tezek; koten – tarlayı sürmek için uzunca kalın tahta; şişek – bir yaşını geçmiş dişi koyun; uşah – çocuk, hizmetçi, uşak; yapıncı – çobanın kullandığı kepenek; zoğal – kızılcık; zerze – kapıyı kilitlemek için arkasından takılan sürgü; sağmal – sağılan davar; herg ermek – tarlayı sürmek.

Səs dəyişməsi ilə işlənən sözlər

Yuxa – yufka; yunmax – yıkanmak; alma – elma; yoxarı – yukarı; yesir – esir; verane – virane; uruh – ruh; töbe – tövbe; tiken – diken; tosbaa – kaplumbağa; suvamak – sıvamak; kölge – gölge; pendir – peynir; öşmek – ölçmek; mahana – behane; kekil – kakül; höbere (heyvere) – iri ve kaba yapılı olan her şey; halallaşmak – helallaşmak; guleşmek – güreşmek; gılçık – kılçık; gavuşmak – kavuşmak; davşan – tavşan; cuvap – cevap; barsığ – bağırsak; babalı – vebalı; eer – eger (eğer) və s.

Ə.Cəfəroğlu "Azerbaycan türkçesinde -ıban-iben eki" məqaləsində bu şəkilçinin Azərbaycan ədəbi dilinin tarixində və aşıq ədəbiyyatının dilində işlənməsindən bəhs edir, eyni zamanda bu şəkilçinin izlərinin Quba dialektində qaldığını qeyd edir [15, s. 43-50].

Ə.Cəfəroğlunun İstanbulda nəşr etdirdiyi "Azerbaycan Yurtbilgisi" dərgisində Azərbaycan dilinin dialekt və şivələri geniş şəkildə tədqiq olunur. Burada etnoqrafiyaya aid Səlim Refiqin "Azərbaycan dəyələrinə dair" məqaləsində Azərbaycandakı tərəkəmə çadırlarından, onların xüsusiyyətlərindən bəhs edilir. Bu məqalədə Qarabağ, Gəncə və Qazaxda alaçıq, dəyə terminlərinin dialekt sözü kimi işlədilməsindən bəhs olunur.

Göründüyü kimi, Ə.Cəfəroğlu Anadolu dialekt və şivələri sahəsindəki tədqiqatları ilə çox məhsuldar bir elm adamı olduğunu sübut etmiş, bu sahədəki birinci adam olmaq missiyasını müvəffəqiyyətlə yerinə yetirə bilmişdir.

Alim "Türkçede v morfemi" adlı məqaləsində bu fonemin türk dillərində tarix boyu inkişaf səviyyəsini izləyir. Hətta türk dillərinin dialekt və şivə materiallarına da müraciət edir. Bu morfemin xüsusilə söz ortasında düşməsini, diftonq əmələ gətirməsini gözə çarpdırır. Bununla əlaqədar Azərbaycan dilinin dialekt və şivələrdəki qovurma-qourma; qovqa-qouğa; sovxa-sooxa və s. kimi faktları nümunə göstərir. Eyni zamanda qərb qrupu dialekt və şivələrimizdə b–v əvəzlənməsini də yada salır. Məsələn, göstərir ki, Gəncə dialektində bütün b ilə bitən birhecalı leksik vahidlərdə b samiti v samitinə keçir: cib-civ; dib-div; qab-qav və s.

Elə bu məqaləsində Almaniyada nəşr olunmuş (PHTF,1959, I c.) fundamental kitabda Azərbaycan dili və onun dialekt və şivələrinə aid G.Dorferlə bərabər yazdığı əsərdə bəzi yanlışlıqlara yol verildiyini qeyd etməyi vacib hesab etmişdir [Türkçede v morfemi TM, XVI c. 1971, s. 32).

Həqiqətən də bu sahədə Ə.Cəfəroğlunun 1959-cu ildə "Philologishe Türkische Fundamente" çoxcildliyinin I cildində G.Dörferlə birlikdə yazdığı "Das Azerbaidjanishe" [14] adlı məqaləsini xüsusilə qeyd etmək lazımdır (Bundan əvvəl müəllifin İtaliyanın paytaxtı Romada "İslam ensiklopediyası" çoxcildliyinin II cildində nəşr olunmuş "Adhari (azeri) dialecte turque (Türk azəri dialekti), Eİ, II, 1955" əsərini də göstərməyi zəruri hesab edirik.

Almaniyada nəşr olunan bu geniş məqalənin bir üstün cəhəti ondan ibarət idi ki, burada Azərbaycan türklərinin yayılma arealı ilk dəfə dəqiq şəkildə sayları ilə birlikdə göstərilməklə yanaşı, otaylı, butaylı böyük Azərbaycanın (İraq azərbaycanlıları da daxil) dialekt və şivələri kompleks şəkildə ələ alınmış və tədqiq edilmişdir. Bundan sonra müəlliflər Azərbaycan dilinin dialekt və şivələrinin təsnifi məsələsini şərh etmişlər. Onlar bu məsələdə akademik M.Şirəliyevin təsnifini əsas götürmüş, lakin buraya cənubdakı Təbriz və Urmiyadan əlavə, eynallı,

qaşqay şivələrini, eyni zamanda Türkiyədəki özlərini tərəkəmə adlandıran (əslində azərbaycanlıdırlar) qrupu da daxil etmişlər.

Bu qısa qeydlərimiz bir daha onu göstərir ki, İstanbul universitetinin professoru, tanınmış türkoloq həmyerlimiz Əhməd Cəfəroğlunun Azərbaycanşünaslıqda, Azərbaycan dialektologiyasının inkişafında mühüm xidmətləri olmuşdur.

ƏDƏBİYYAT

1. Guliyev E.A. Ahmet Caferoğlu ve Türkoloji / Türkiye Cumhuriyeti Devletinin kuruluş ve gelişmesine hizmeti geçen Türk Dünyası Aydınları Sempozyumu bildiri kitabı. Kayseri, 1996.
2. Guliyev E.A. Ahmed Caferoğlu, türk dialektolojisi ve Yozgat ili ağızları / Uluslararası Bozok sempozyumu (5-7 may 2016) bildiri kitabı. Türkiye: Yozgat, 2016, 530 s.
3. Guliyev E.A. "Azerbaycan yurt bilgisi" dergisinde amasyalı Azerbaycan mutasavvıfları hakkında araştırmalar // Amasya Üniversitesi Sosyal bilimler dergisi, c. 2, sayı 4, aralık 2019, s. 1-10.
4. Azerbaycan Yurtbilgisi dergisi. Ankara: TDK yayınları, 2008, 1300 s.
5. Caferoğlu A. XIX asırda Azeri şairi Siraci (AYB tetkikleri). İstanbul, 1932, 23 s.
6. Caferoğlu A. Afyonkarahisar azerileri // Türklük, Ankara, 1939, №1, s. 23-29.
7. Caferoğlu A. Anadolu dialektolojisi üzerine malzeme, I, Balıkesir, Manisa, Afyonkarahisar, Isparta, Aydın, Burdur, Antalya, Muğla, Denizli, Kütahya illeri ağızları. Ankara: TDK yayınları, 1995, XIII c., 216 s.
8. Caferoğlu A. Kuzey doğu illerimiz ağızlarından derlemeler. Ordu, Giresun, Trabzon, Rize ve çevresi ağızları. Ankara: TDK yayınları, 1995, XXII c., 355 s.
9. Caferoğlu A. Doğu illerimiz ağızlarından derlemeler. Kars, Erzurum ve Çoruh illeri ağızları. Ankara: TDK yayınları, 1995, XXV c., 296 s.
10. Caferoğlu A. Anadolu ağızlarından toplamalar. Kastamonu, Çankırı, Çorum, Amasya, Niğde ağızları. İstanbul, 1943, XXV c., 272 s.
11. Caferoğlu A. Orta Anadolu ağızlarından derlemeler: Niğde, Kayseri, Kırşehir, Yozgat, Ankara illeri ağızları. Ankara: TDK yayınları,1995, XII c., 264 s.
12. Caferoğlu A. Anadolu illeri ağızlarından derlemeler. Van, Bitlis, Muş, Karaköse, Eskişehir, Bolu ve Zonguldak illeri. Ankara: TDK yayınları,1995, XXIII c., 288 s.
13. Caferoğlu A. Azerbaycan ve Anadolu ağızlarında moğolca unsurlar // TDAYB, 1954. Ankara: TDK yayınları,1988, s. 1-10.
14. Caferoglu A., Dorfer G. Das Azerbaidjanische. PHTF, I b., Deutschland, Wiesbaden, 1959, s. 280-307.
15. Caferoğlu A. Azeri lehçesinde ıban-iben eki-Yan Deni armağanı. İstanbul, 1952, 320 s.
16. Quliyeva M. Professor Əhməd Cəfəroğlunun dilçilik görüşləri. Bakı: Zərdabi LTD MMC, 2009, 200 s.
17. Sertkaya O.F. Ölümünün 20 yıl dönümünde hocam Prof. Dr. Ahmet Caferoğlu // Türk dili dergisi, 1996, №1, sayı 530, s. 254-261.

AMEA Naxçıvan Bölməsi
E-mail: ***ebulfazamanoglu@yahoo.com***

Abulfaz Guliyev

AHMAD JAFAROGLU AND ISSUES OF AZERBAIJANI DIALECTOLOGY

One of the prominent scientists of the Azerbaijani people who lived in exile is Ahmad Jafaroglu, a professor at Istanbul University and a well-known turkologist. There are also notable contributions of A.Jafaroglu to the Turkish dialectology made by Caucasian and Azerbaijani dialects. He was always striving to find Azerbaijani culture and language while wandering in Anatolia and collecting dialect materials. As a result, he has extensively compared the Azerbaijani language in his research on Anatolian dialects. Studying these researches in depth will greatly benefit Azerbaijani dialectology, expanding its horizons and enabling it to achieve more outstanding scientific qualifications. Therefore, this article seeks to summarize and assess the thoughts, opinions, and research of a prominent Azerbaijani dialectologist, turkologist. Having attained this purpose, we have for the first time researched and analyzed the research of the tremendous Azerbaijani dialectologist in a generalized way in this paper.

Keywords: *Ahmad Jafaroglu, linguistics, dialectology, Azerbaijani dialects.*

Абульфаз Гулиев

АХМЕД ДЖАФАРОГЛУ И ВОПРОСЫ АЗЕРБАЙДЖАНСКОЙ ДИАЛЕКТОЛОГИИ

Одним из видных деятелей науки Азербайджана, живших в эмиграции, является профессор Стамбульского университета, известный тюрколог Ахмед Джафароглу.

Среди уникального вклада А.Джафароглу в тюркскую диалектологию есть какая-то часть кавказских, азербайджанских диалектов и говоров. Путешествуя по Анатолии, собирая диалектические материалы, эмигрант с тоской искал и находил в этой обширной сокровищнице следы азербайджанской культуры, азербайджанского языка. Именно поэтому в его исследованиях, касающихся анатолийских диалектов и говоров, было уделено большое место сопоставлению и сравнениям со сферой Азербайджана. Углубленное изучение этих исследований может внести большой вклад в более глубокое изучение азербайджанской диалектологии и расширение ее кругозора. Поэтому в этой статье мы хотели обобщить и оценить мысли, суждения и исследования выдающегося тюрколога, диалектолога об азербайджанском диалекте и говорах. Именно с этой целью в статье мы впервые обобщенно проанализировали и изучили исследования великого ученого по азербайджанской диалектологии.

Ключевые слова: *Ахмед Джафароглу, лингвистика, диалектология, азербайджанские диалекты и говоры.*

Daxilolma tarixi: İlkin variant 23.06.2021
Son variant 16.07.2021

UOT 81'28;81'286

NURAY ƏLİYEVA

NAXÇIVAN DİALEKTİNDƏ SAİT SƏSLƏRİN VARİANTLARI

Məqalə üçün Naxçıvan dialekt və şivələrinin mühüm fonetik xüsusiyyətlərindən biri olan saitlərin variantları – qısa saitlər və burun saitləri tədqiqat obyekti kimi seçilmişdir. Naxçıvan dialekt və şivələri fonetik cəhətdən daha çox özünəməxsus regional xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər onu dilimizin digər dialekt və şivələrindən fərqləndirir. Burada göstərilir ki, yerli əhalinin dilində tələffüz zamanı sait səslərin müxtəlif variantları meydana gəlir ki, onlar dilimizin qədim keçmişindən xəbər verir və onların tədqiqi dil tariximiz üçün də olduqca mühüm əhəmiyyətə malikdir. Saitlərin qısa variantları qapalı səslərdə müşahidə olunur. Yəni burada ı, i, u, ü səslərinin qısa variantları var. Onlar həm söz köklərində, həm də şəkilçilərdə özünü göstərir. Naxçıvan dialektinin mühüm fonetik xüsusiyyətlərindən biri də burun saitləridir. Burun saitlərinin əmələ gəlməsinin əsas səbəbi velyar n səsinin aradan çıxması və onun özündən əvvəl və ya sonra gələn saitə burun xüsusiyyəti verməsidir. Naxçıvan dialektində burun saitləri o qədər də geniş işlənməsə də, burada a, ı və u saitlərinin burun variantına rast gəlirik ki, bu da şəkilçilərdə özünü göstərir. Bunlar əsasən uzanaraq burunda tələffüz olunan səslər şəklində təzahür edir. Bölgə şivələrində sait səslərin burun variantı daha çox Culfa, Naxçıvan, Ordubad, Şahbuz və Şərur şivələrində müxtəlif fonetik şəraitlərdə əmələ gəlir.

Açar sözlər: *dialekt, fonetika, saitlərin variantları, qısa saitlər, burun saitləri.*

Naxçıvan dialekt və şivələrinin fonetikasında müşahidə etdiyimiz xarakterik xüsusiyyətləri dilimizin digər dialekt və şivələrində olduğu kimi bir neçə başlıq altında qruplaşdırmaq mümkündür: "1. Şivələrdə danışıq səsləri ədəbi dildən çoxdur; 2. Şivələrdə sait və samit səslərin variantları var; 3. Şivələrdə uzun, qısa, burun saitləri və diftonqlar mövcuddur; 4. Şivələrdə səs əvəzlənmələri ədəbi dildən fərqlənir" [1, s. 6]. Ədəbi dillə şivələr arasında özünü göstərən fonetik fərqlər hər hansı bir dialekt və şivənin tarixən necə formalaşması, digər xalqların dialekt və şivələri ilə əlaqəsinin öyrənilməsi baxımından çox faydalıdır. Bu zaman dialekt materiallarının yazılı abidələrimizlə, qohum dillərin ədəbi dil və şivə materialları ilə, qədim lüğətlərlə müqayisəli tədqiqi çox maraqlı məqamların üzə çıxarılmasına imkan verir və Azərbaycan dilinin tarixi fonetikasının bəzi mürəkkəb məsələlərinin aydınlaşdırılmasına da kömək edir.

Azərbaycan dilinin digər dialekt və şivələrində olduğu kimi, Naxçıvan dialektində də uzun, qısa və burun saitləri vardır. Saitlərin qısa variantı qapalı saitlərdə özünü göstərir. Yəni burada da ı, i, u, ü saitlərinin qısa variantı vardır. Qısa saitləri həm söz köklərində, həm də şəkilçilərlə müşahidə etmək olur. Qısa saitlər ədəbi dildə də özünü göstərir. "Qısa saitin əmələ gəlməsi vurğusuzluqla izah olunur. Belə ki, a) qısa sait kökün vurğusuz birinci hecasında; b) vurğu əsasdan şəkilçiyə keçdikdən sonra qısa sait şəkilçidən əvvəlki hecada özünü göstərir" [10, s. 31]. Beləliklə, "sözün axırı müstəsna olmaqla bütün hallarda – sözün əvvəlində və ortasında qısalma vurğudan əvvəl müşahidə olunur" [5, s. 12]. Naxçıvan dialektində qısa saitlər aşağıdakı fonetik şəraitlərdə yaranır:

Qısa ı səsi. Qısa ı saiti söz köklərində iki kar səs, kar səslə sonor səs və ya cingiltili səslə sonor səs arasında vurğusuz hecada özünü göstərir: xĭna "xına", sĭrıyırdı "sarıyırdı", qĭzıl "qızıl", fĭlan "filan", qĭrıx "qırıq", bĭra "bura", qĭrım "qırım", bĭlama "bulama", qĭmıl "qaç", yĭxammadı "yıxa bilmədi", çĭxammadı "çıxa bilmədi", qĭşda "qışda".

İkihecalı sözlər şəkilçi qəbul edən zaman sözün ikinci hecasındakı ı saiti qısa tələffüz

olunur: tanĭdım “tanıdım”, yarĭsı “yarısı”, almĭya “almaya”, dayĭya “dayıya”, qapĭya “qapıya”, bacĭya “bacaya”, mahnĭya “bəhanəyə”. Bu hadisə isimlərdə daha çox yönlük hal şəkilçisi qəbul edən zaman özünü göstərir.

Qısa ı səsi söz köklərində olduğu kimi, şəkilçilərdə də işlənə bilir: baxmĭyım “baxmayım”, balalarĭma “balalarıma”, yazdĭğım “yazdığım”, axdardĭğım “axtardığım”, axırĭna “axırına”, yaşĭna “yaşına”, başdĭyax “başlayaq”, duzdĭyax “duzlayaq”, papağĭna “papağına”.

Qısa i səsi. Qısa i saitinə Naxçıvan dialektində daha çox rast gəlmək olur. Bu səs söz köklərində iki kar səs, kar samitlə sonor samit və yaxud da kar samitlə cingiltili samit arasındakı vurğusuz saitdə özünü göstərir: kiˇsə, kiˇlim, tiˇkan, piˇşir, kiˇşmiş, şiˇkil, kiˇlit, şiˇrin, tiˇfar//diˇfar “divar”, liliˇmar. Bu səs İraq-türkman ləhcəsində də geniş yayılmışdır və i saitinin qısa variantının əmələ gəlmə fonetik şəraiti Naxçıvan dialekt və şivələri ilə demək olar ki, eynidir [4, s. 52].

Qısa i səsi də eynilə ı səsində olduğu kimi, şəkilçi qəbul edən ikihecalı sözlərin şəkilçidən əvvəlki hecasında müşahidə olunur: gətiˇrip, biriˇsi, əmiˇcanı, Əliˇnin, kişiˇyə, gəbiˇyə, pişiˇyin, gəliˇnə.

Qısa i səsi mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərdə də yaranır: eviˇnə, beliˇmiz, yeriˇviz “yeriniz”, bibiˇsi, dəriˇsi, beliˇmə.

i səsinin qısa variantı söz köklərində olduğu kimi şəkilçilərdə də işlənir: yeyiˇrix’, deyiˇrix’, yeriˇyir, isdəmiˇr “istəmir”, siliˇnir.

Qısa i saiti bəzi şəxs adlarında və soyadlarında, əsasən samitlərdən əvvəl və ya sonra işlənir: Rəfiˇqə, Lətiˇfə, Səfiˇyəddin, Siˇtarə, Miˇnayə, Mədiˇnə, Əliˇyef, Əziˇzof, Seyiˇdof.

Qısa u səsi. Qısa u səsi Naxçıvan dialektində müxtəlif fonetik şəraitlərdə özünü göstərir. Bu səsə söz köklərində daha çox kar samitlə sonor səs, cingiltili samitlə sonor səs və ya iki samit arasında rast gəlirik: pŭtağ, qŭyu, bŭlax, qumŭru, yumŭru, otŭrax, qŭcax, dŭvax.

Sözlər şəkilçi qəbul edən zaman vurğunun şəkilçiyə keçməsi ilə kökdəki son sait – u saiti qısa tələffüz olunur. Bu hal daha çox isimlərə hal, mənsubiyyət, feillərə zaman şəkilçilərinin əlavəsində müşahidə olunur: oyŭnu, oğlŭna, quyŭya, yurdŭna, qoyŭnun, oxŭyuram, toxŭyurux, qudŭrur, yoxlŭyacax, qoxlŭyur, boğŭlur.

Qısa ü səsi. Naxçıvan dialektində ü səsinin qısa variantı o qədər də geniş yayılmamışdır. Lakin buna baxmayaraq müəyyən məqamlarda bu səsə rast gəlirik. Qısa ü səsi söz köklərində iki samit səs arasında yaranır: dŭyə, kŭpə, dŭyü, tŭfəx’, böyŭx’, görŭş, tŭkan, sŭməx “sumaq”, kŭləx’, Yüsŭp “Yusif”.

Qısa ü səsi söz köklərində olduğu kimi şəkilçilərdə də özünü göstərir: gölŭmüz, ötŭşür, görŭşdü, büzŭşür, züvŭşür “sürüşür”.

Naxçıvan dialektində bəzi isimlər yönlük halın şəkilçisini qəbul edən zaman sözün sonundakı ə səsi ü səsinə çevrilir. Bu zaman həmin ü səsi qısa tələffüz olunur: küçŭyə “küçəyə”, körpŭyə “körpəyə”, Fürzŭyə “Firuzəyə”, tövlŭyə “tövləyə”, köhnŭyə “köhnəyə”, cücŭyə “cücəyə”, gözdüyŭrəm “gözləyirəm”.

Burun saitləri. Azərbaycan dilinin dialekt və şivələrini ədəbi dildən fərqləndirən özünəməxsus xüsusiyyətlərdən biri də sait səslərin burun variantının olmasıdır. “Tələffüz zamanı yumşaq damağın aşağı enməsi və burun boşluğunun açıq qalması nəticəsində əmələ gələn saitlərə burun saitləri deyilir. Burun saitləri burunda formalaşır, yəni hava axınının burundan çıxması nəticəsində yaranır” [1, s. 35]. Burun saitlərinin əmələ gəlməsinin əsas səbəbi velyar n səsinin aradan çıxması və onun özündən əvvəl və ya sonra gələn saitə burun xüsusiyyəti verməsidir.

Məlum olduğu kimi velyar n səsinin işlənib-işlənməməsinə görə Azərbaycan dili dialekt və şivələrini üç qrupa bölmək mümkündür:

Birinci qrupa velyar n səsi işlənən dialektlər aiddir ki, buraya qərb qrupu dialekt və şivələri daxildir.

İkinci qrupa velyar n səsi işlənməyən dialekt və şivələr aiddir ki, buraya Azərbaycan dilinin şərq qrupu dialekt və şivələri daxildir.

Üçüncü qrupa velyar n səsi meydandan çıxmaqla öz xüsusiyyətini, yəni burun və qalınlaşma xüsusiyyətlərini özündən əvvəl və ya sonra gələn səsliyə – saitə verən dialekt və şivələr daxildir. Buraya Nuxa (Şəki), Zaqatala, Qax, Ağdaş, Naxçıvan, Ordubad dialekt və şivələri daxildir [8, s. 18].

Naxçıvan dialekt və şivələrində burun saitləri o qədər də geniş işlənməsə də, burada a, ı və u saitlərinin burun variantına rast gəlirik ki, bu da şəkilçilərdə özünü göstərir. Prof. N.İ.Aşmarin 1926-cı ildə yazdığı "Общий обзор народных тюркских говоров гор. Нухи" adlı əsərində Nuxa (Şəki) dialektində e, ö saitlərindən başqa qalan saitlərin burun variantının olduğunu qeyd edir. Akademik M.Şirəliyev Zaqatala, Qax şivələrində, Ordubad və Naxçıvan dialektlərində ancaq a, ı, u saitlərinin burun variantının olduğunu göstərir [10, s. 32]. İ.Məmmədov Qarabağ dialektinin Qaryagin (Fizuli) şivəsində [7, s. 176] a, ı, u saitlərinin burun variantının olduğunu göstərir. Cəbrayıl rayonu şivələrinin fonetik xüsusiyyətlərindən bəhs edən prof. T.Hacıyev yazır: "Cəbrayıl rayonu şivələrində səslərin (saitlərin) geniş yayılmış variantlarından biri də burun variantlarıdır. Burun səsləri qovuşuq nq və sagır n səslərinin tarixi inkişafı nəticəsində yaranmışdır. Qədim qıpçaq ünsürü olan bu səslərin tarixən zəifləməsi ikinci şəxs sonluqlarında, bəzən isə söz köklərində burun səslərinin əmələ gəlməsinə səbəb olmuşdur. Cəbrayıl rayonu şivələrində a, ı, ə, u, o səslilərinin (saitlərinin) burun variantı vardır ki, bunlar da həm normal vəziyyətdə, həm də uzanaraq tələffüz edilir" [3, s. 5].

Akademik M.Şirəliyev Şahbuz şivələrində burun saitlərindən bəhs edərkən göstərirdi: "Şahbuz şivələrində xalis burun saiti deyil, uzanan burun saitləri özünü göstərir" [11, s. 9]. Müəllif Şahbuz şivələrində a, ı və u saitlərinin burun variantı olduğunu qeyd edir.

Burun saitlərinin ən geniş işləndiyi şivələr isə Şəki rayonunun şivələridir. "Nuxa dialektinin mövqeyini müəyyən edən ən səciyyəvi xüsusiyyətlərdən biri burada burun səslilərinin geniş yayılmasıdır. Nuxa dialektində bütün səslilərin burun variantı vardır. Digər tərəfdən, burun səsliləri burada həm söz köklərində, həm də şəkilçilərdə özünü göstərir" [5, s. 13].

Dilimizin Meğri şivələrində də burun saitləri səciyyəvi hal kimi qeyd olunur. "Meğri şivələrində saitlərin əksəriyyətinin həm burunda deyilən (ã, ĩ, ə˜, ẽ, õ, i˜, ũ), həm də uzanaraq burunda deyilən (ã:, ĩ:, ẽ:, õ:, i˜:, ũ:) variantları müşahidə olunur ki, bunlardan burunda tələffüz edilənlər söz köklərində, uzanaraq burunda tələffüz edilənlər isə, əsasən, şəkilçilərdə özünü göstərir" [2, s. 75].

Naxçıvan dialektində burun saitləri, demək olar ki, uzanaraq burunda deyilən səslər şəklində təzahür edir. Ümumiyyətlə, dilimizin bütün dialekt və şivələrində söz köklərində işlənən bu cür səslilər burunda, şəkilçilərdə işlənən belə səslilər isə uzanaraq burunda deyilən saitlərdir.

Bölgə şivələrində sait səslərin burun variantı aşağıdakı fonetik şəraitdə əmələ gəlir:

ã: Uzanıb burunda deyilən a səsi II şəxs tək və cəmində mənsubiyyət şəkilçili isimlərin yönlük və təsirlik halında özünü göstərir: mã: "mənə", sã: "sənə", əlã://əluã: "əlinə", əvã: "evinə", yadã: "yadına", dəã:za "atanıza, dədənizə", balã: "balanı", xəlçã: "xalçanı", nəvã: "nəvəni", anã:zı "ananızı", köhnã:zı "köhnənizi". Bu hal Naxçıvanda özünü o qədər də göstərməsə də, digər rayonların şivələrində, xüsusən Ordubad və Culfa rayonu şivələrində qeydə

alınmışdır. Eyni hal dilimizin Təbriz dialektində də dəduã:, qaşığuã:, başuã: [6, s. 24] sözlərində baş verir.

Uzanaraq burunda deyilən a səsi şərt şəklinin şəkilçisini qəbul etmiş feillərdə tələffüz zamanı II şəxs cəmin xəbərlik şəkilçilərində velyar n səsinin meydandan çıxması nəticəsində əmələ gəlir. Məsələn: gəlməsã:z "gəlməsəniz", işdəsã:z "işləsəniz", eşələsã:z "eşələsəniz", idələşsã:z "idələşsəniz".

a səsinin bu cür tələffüzü Azərbaycan dilinin Cəbrayıl şivəsində dədã:, bajıã: [3, s. 5], Füzuli şivələrində daxlıã:, yerıã:, başıã:, mã:, sã: [7, s. 176] sözlərində də özünü göstərir. Bunlardan əlavə Şəki dialektində [5, s. 26] və Azərbaycan dilinin əksər dialekt və şivələrində bu xüsusiyyət qeydə alınmışdır.

ĩ: Naxçıvan dialektində digər burun saitləri kimi uzanaraq burunda deyilən ı səsi də velyar n səsinin düşməsi nəticəsində yaranır və əsasən şəkilçilərdə özünü göstərir.

Bu səs müxtəlif fonetik şəraitdə, qrammatik şəkilçilərdə velyar n səsinin düşməsi nəticəsində yaranır, Naxçıvan dialektində digər uzun saitlərə nisbətən daha çox müşahidə olunur.

Uzanaraq burunda deyilən ı səsi mənsubiyyət şəkilçili isimlərin yiyəlik və təsirlik hallarda işlənməsi zamanı özünü göstərir: qapĩ:n "qapının", ağzĩ:n "ağzının", başĩ: "başını", qadaĩ: "qadanı", əvĩ: "evini", qızĩ: "qızını".

Uzanaraq burunda deyilən ı səsi II şəxs tək və cəmin mənsubiyyət və II şəxs cəmin xəbərlik şəkilçilərində də meydana gəlir: hardansĩ:z "haradansınız", kəndĩ:z "kəndiniz", bağĩ:z "bağınız", gəlmisĩ:z "gəlmisiniz", əkirsĩ:z "əkirsiniz", alıpsĩ:z "almısınız", taxıpsĩ:z "taxmısınız", diyəcaxsĩ:z "deyəcəksiniz", pişirəcaxsĩ:z "bişirəcəksiniz".

ũ: Uzanaraq burunda deyilən u səsi də velyar n səsinin düşməsi nəticəsində mənsubiyyət şəkilçili isimlərin yiyəlik, yönlük və təsirlik hallarında əmələ gəlir: özũ:n "özünün", boğazũ:n "boğazının", qızũ:n "qızının", əlũ:a "əlinə", pulũ:a "puluna", yolũ: "yolunu", bağũ: "bağını", ağzũ: "ağzını".

Uzanaraq burunda deyilən u səsi II şəxsin cəmində feilin xəbər şəklinin şəkilçilərində də qeydə alınır: oxudũ:z "oxudunuz", gəlmiyipsũ:z "gəlməmisiniz", tapbadũ:z "tapmadınız", qoymadũ:z "qoymadınız".

L.Səfərova Culfa şivələrində söz köklərində ə və u səsinin uzanması faktını da müşahidə edərək yazır: "Culfa şivələrində çox az sayda nümunələrdə söz köklərində n səsinin düşməsi nəticəsində ə və u səslərinin burun variantı yaranır: ə˜x' "əng", qə˜t "qənd", rə˜x' "rəng", tüfə˜x' "tüfəng", qorxũş "qorxunc", qulũş "qulunc" və s." [9, s. 23].

Dilimizin bir çox dialekt və şivələrində də u səsinin burun variantı mövcuddur. "Şəki rayonu şivələrində o şəxs əvəzliyi ismin yiyəlik və təsirlik hallarında işlənən zaman uzanaraq burunda deyilən u səsi hũ: "onun", ũ: "onun//onu" şəklində özünü göstərir" [1, s. 45].

Naxçıvan dialektinin ədəbi dildən, dilimizin digər dialekt və şivələrindən fərqli xüsusiyyətləri daha çox fonetikada təzahür edir. Burada fonetik fərqlər şivələrin özünəməxsusluğunu səciyyələndirir ki, bunlar həm də sait səslərin variantlarında qabarıq şəkildə özünü göstərir. Yerli şivələrdə saitlər uzun, qısa və burun saitləri olmaqla qruplaşdırılır. Saitlərin belə variantlarının meydana gəlməsi müxtəlif dil hadisələri ilə bağlıdır və burada elə faktlarla qarşılaşırıq ki, onlar dil tariximizin əvvəlki dövrlərinə məxsusdur və günümüzdə ədəbi dil üçün arxaikləşərək şivələrdə yaşayır. Bu baxımdan şivələrin fonetik cəhətdən tədqiqi olduqca aktualdır.

ƏDƏBİYYAT

1. Bayramov İ.M. Azərbaycan dili şivələrinin fonetikası. Bakı: Elm və təhsil, 2016, 252 s.
2. Əliyev Ə.İ. Azərbaycan dilinin Meğri şivələri. Bakı: Elm, 2003, 580 s.
3. Hacıyev T.İ. Cəbrayıl şivələrinin fonetikası // ADU-nun Elmi əsərləri, 1960, № 5, s. 3-16.
4. İraq-türkman ləhcəsi. Bakı: Elm, 2004, 422 s.
5. İslamov M. Azərbaycan dilinin Nuxa dialekti. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1968, 271 s.
6. Məmmədli M.Ə. Azərbaycan dilinin Təbriz dialekti. Bakı: Zərdabi LTD MMC, 2007, 240 s.
7. Məmmədov İ.M. Qaryagin şivələrinin fonetik xüsusiyyətləri // Azərb. SSR EA-nın Xəbərləri, 1957, № 6, s. 171-199.
8. Naxçıvan MSSR-in dialekt və şivələri / M.Ş.Şirəliyevin redaktorluğu ilə. Bakı: Azərb.SSR EA nəşriyyatı, 1962, 325 s.
9. Səfərova L. Azərbaycan dilinin Culfa şivələrinin fonetikası. Bakı: Elm və təhsil, 2019, 116 s.
10. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı: Şərq-Qərb, 2008, 416 s.
11. Şirəliyev M.Ş. Şahbuz şivələrinin fonetikası // Ədəbiyyat və Dil İnstitutunun əsərləri, 1957, 8 c., s. 5-22.

AMEA Naxçıvan Bölməsi
E-mail: ***naliyeva22@mail.ru***

Nuray Aliyeva

VARIANTS OF VOWEL SOUNDS IN NAKHCHIVAN DIALECT

Variants of vowels are selected as the object of research for this paper – short vowels and nasal vowels, which are among the essential phonetic features of Nakhchivan dialects and accents. Nakhchivan dialects and accents have more phonetically specific regional features. These features distinguish it from other dialects and accents of our language. We show here that during the pronunciation of the local language, different variants of vowels appear that tell of the ancient past of our language, and their study is of great importance for the history of our language. Short variants of vowels are observed in closed sounds. That is, there are short variants of the sounds *ı*, *i*, *u*, *ü*. They manifest themselves both in the roots of words and in suffixes. One of the essential phonetic features of the Nakhchivan dialect is nasal vowels. The main reason for the formation of the nasal voice is the disappearance of the velyar n sound and the fact that it gives nasal character to a vowel before or after it. Although nasal vowels are not widely used in Nakhchivan dialects, we come across the nasal variants of vowels *a*, *i*, and *u* that manifest themselves in suffixes. These are mainly manifested in the form of sounds pronounced in the nose, stretching. In the region's dialects, the nasal variant of vowels occurs mainly in Julfa, Nakhchivan, Ordubad, Shahbuz, and Sharur dialects in different phonetic conditions.

Keywords: *dialect, phonetics, variants of vowels, short vowels, nasal vowels.*

Нурай Алиева

ВАРИАНТЫ ГЛАСНЫХ ЗВУКОВ В НАХЧЫВАНСКОМ ДИАЛЕКТЕ

В качестве объекта исследования для статьи были выбраны варианты гласных – краткие гласные и носовые гласные, которые являются одной из важных фонетических особенностей Нахчыванских диалектов и говоров. Нахчыванские диалекты и говоры имеют более фонетически специфические региональные особенности. Эти особенности отличают их от других диалектов и говоров нашего языка. Здесь показано, что при произношении в местном языке появляются разные варианты гласных, что они свидетельствуют о древнем прошлом нашего языка, и их изучение имеет большое значение для истории нашего языка. В закрытых звуках наблюдаются короткие варианты гласных звуков *ı, i, u, ü*. Они проявляются как в корнях слов, так и в суффиксах. Одной из важных фонетических особенностей нахчыванского диалекта являются носовые гласные. Основная причина образования носовых гласных – исчезновение велярного звука н и передача им носового характера предшествующему или последующему гласному звуку. Хотя носовые гласные не получили широкого распространения в нахчыванских диалектах, здесь мы сталкиваемся с носовыми вариантами гласных *a, i* и *u*, это проявляется в суффиксах. В основном они проявляются в виде долгих звуков, произносимых в нос. В региональных диалектах носовой вариант гласных образуется в основном в диалектах Джульфы, Нахчывана, Ордубада, Шахбуза и Шарура при различных фонетических условиях.

Ключевые слова: *диалект, фонетика, варианты гласных, краткие гласные, носовые гласные.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 19.08.2021
Son variant 17.09.2021

UOT 81 41; 801. 7

FİRUDİN RZAYEV

NAXÇIVANIN QƏDİM OYKONİMLƏRİNDƏ ARXASIRA VƏ ÖNSIRA SAİTLƏRDƏ FONETİK HADİSƏLƏR

Məqalədə m.ö. minilliklərə aid qədim Naxçıvan oykonimlərində öz izlərini saxlamış qədim dövr arxasıra və önsıra saitlərin yerdəyişməsindən bəhs olunur. Bu mövzu dövrümüzə qədər tədqiq olunmamış, bəzi tədqiqatlarda səthi yer almışdır. Məqalədə yer alan bu qədim səsəvəzlənmələr xeyli sayda türk dili dialektlərində bu gün də işlənməkdədir. Burada dilimizin tarixi təkamülünün izləri, adlardakı söz köklərində ilkin **a≈ə, e≈i, a≈o, o≈u** *kimi saitlərin fonem-səs yerdəyişmələri müqayisəli təhlil olunur. Bu qədim səs yerdəyişmələri əsasən prototürk tayfalarının dialekt fərqləri ilə bağlı olmuşdur. Tədqiqat zamanı bu quruluşda olan fonem-səs və hərflərin leksik mənalarının ümumtürk arealında təkrarı da nümunələrlə əsaslandırılır.*

Məqalədə Naxçıvan toponimik sistemindəki bu qədim səsəvəzlənmə formalarının müasir türk dialektlərində də təkrarı elmi faktlarla sübut olunur. Müqayisəli təhlillər zamanı yeni elmi nəticələr də əldə edilir.

Açar sözlər: *Naxçıvan, oykonimlər, arxasıra və önsıra saitlər, a≈ə, e≈i, a≈o, o≈u kimi səsəvəzlənmələr.*

Qədim sivilizasiya mərkəzlərindən və türklərin ana yurdlarından biri olmuş Naxçıvan ərazisi, burada qədim mədəniyyət nümunələri ilə yanaşı, m.ö. VI-I minilliklərə aid olan türk tayfa adlı məntəqə adlarında – etnooykonimlərdə, eləcə də digər adlarda fonetik hadisələri günümüzə qədər yaşatmış, öz izlərini o dövr yazılı abidə mətnlərində də qorumuşdur. Biz müasir türk dillərinə diqqət etdikdə eyni halların ümumtürk dillərində bu gün də davamını, təkrarını müşahidə edirik.

Ümumtürk dialektlərində danışıqlar və yazılarda bu istiqamətdə xarakterik olan səsəvəzlənmələr-paralelliklər, A.Axundov, A.Qurbanov, A.Babayev, N.Məmmədov, T.Hacıyev, M.Şirəliyev və başqalarının tədqiqatlarında geniş araşdırılmış, bu tipli fonetik hadisələr haqqında geniş məlumatlar verilməklə, xeyli nümunələr göstərilmiş, lakin burada m.ö. minilliklərə dair bu fonetik hadisələr mövzusuna toxunulmamışdır. Bu araşdırmalarda əsasən **arxasıra** və **önsıra** saitlərin, bir-birini əvəzləməsi hadisələrinin şərhləri və dialektlərdən nümunələr geniş yer almışdır ki, onların ilkin formaları qədim Naxçıvan oykonimərində də müşahidə edilir.

Diqqət etsək, Azərbaycan, eləcə də türkmən, başqırd, tatar, qazax, qırğız, uyğur, altay və s. dillərdə fonetik təzahürlərdən biri sait, samit, eləcə də bunlar arasında sonor samitlərin əvəzlənmə hadisələridir. Biz ümumiyyətlə sait səslərdəki yerdəyişmələri ümumtürk dil quruluşlarında da izləyirik [3, s. 124-129; 8, s. 41-8] ki, bu dillər arasındakı fonetik dəyişmələrin eyniliklə təkrarları ümumilikdə türk dillərinin eyni mənşədən və kökdən gəldiyini sübut edir.

Naxçıvan oykonimlərində sait səslərdə arxasıra və önsıra saitlərin, bir-birini əvəzləməsi m.ö. VI-I minilliklər as, türükkü, kuti, hürrü, kassi, kəngər, sak, manq, oğuz, skif və s. tayfalarla bağlı etnooykonimlərdə müşahidə olunur. Fikrimizcə, bunun tayfa dillərindəki dialekt variantlarından irəli gəldiyini ehtimal etmək olar. Fonetik hadisələrdəki bu əlamətlər dilimizin qədim bir dövrdə formalaşdığını sübut edir ki, bu da Strabonun Asər-Azər tüklərinin m.ö. VI minillikdə əlifbaya sahib olduğu haqqındakı məlumatını tam olaraq təsdiq edir [7, s. 137]. Naxçıvanın qədim etnooykonimlərində təkrarlanan bu fonetik hadisələrin ümumtürk fonetikasında bu gün də müşahidə olunması, bu dilin və səslərin-hərflərin As türklərindən digər türklərin dilinə adladığının da göstəriciləri kimi təsdiq oluna bilər. Bu baxımdan biz Naxçıvan əhalisinin etnogenezində iştirakçı olmuş m.ö. V-I minilliklərə aid tayfa adlı oykonimlərdəki saitlərlə bağlı səsəvəzlənmələrə elmi baxımdan diqqət etmək istərdik.

Qeyd edək ki, türk dillərində arxasıra və önsıra saitlərin bir-birini əvəzləməsi fonetik hadisəsinə geniş arealda rast gəlirik. Adlarda qeydə alınan **a≈ə, a»e, a≈i** kimi fonetik hadisələr Naxçıvanda yaşamış qədim As, Kas, Tal, Maq kimi türklərə aid məntəqə adlarında **Asni-*Əsni*, Kasil-*Keçil*, Kasak-*Kisək*, Talsan-*Telsin,* Talyak-*Tılyak*, Maquru-*Meqri*** kimi məntəqə adlarında təsadüf edilir. Bu adlardakı fonetik hadisələrdə həm də **i≈ə, u»i** kimi arxasıra və önsıra saitlərlə yanaşı, qalın və incə saitlərin də bir-birini əvəzləməsi müşahidə olunur. Azərbaycan, o cümlədən də Naxçıvan ərazisində bu səsdəyişimi Culfa və Ordubad dialektlərində *xalça-xəlçə, qəmiş-qamış-kamış, qamçı-qəmçi, şarıf-şərif* və s. şəkillərdə rast gəlinir [5, s. 181]. Ümumtürk arealında isə bu səsəvəzlənmələr əsasən türkmən, başqırd, tatar qazax, qırğız türklərinin dillərindəki *vətən-vatan, zərər-zarar, ədalət-adalat, adam-ədam, xalça-xəlçə, saç-səs-çəç, yardım-yərdəm-jirdem-yardəm* kimi sözlərdə də bu fonetik hadisəni izləyirik [3, s. 728-729, 940-941, 968-969, 1008-1009].

Eyni arxasıra saitlərin önsıra saitlərin əvəzləməsi fonetik hadisəsində təsadüf edilən **ə»a, e≈a, a≈o, o≈a, a≈ə, a≈e, i≈a** səsəvəzlənmələri ilə qədim türk boyları Kəngər, Gel, Sak, Kol, Arizant, Partagen, Kimmer tayfalarının adını daşıyan etnooykonimlərdə də izləyirik. Burada qədim türklərinin adını daşıyan **Kəngər-*Kanagir,* Gel-*Gal,* Sak-*Zoq*, Kolkənd-*Kalkənd*, Arizni-*Ərəzin,* Partaq-*Bertaq,* Kimmera-*Kamura*** məntəqə adlarında bu səsəvəzləməsi hadisələri müşahidə edilir [6, s. 528, 531]. Qeyd edək ki, uyğur, özbək, yakut və digər türk dillərində *darğa-dorğa, araba-orba, ol-al, bar-bor* kimi sözlərdə, türklərdə **aşk** sözü türkmən, uyğur dillərində "işk" kimi işlənir [3, s. 30-33, 42, 421-422], eləcə də Azərbaycanın Bakı, Naxçıvan, Masallı, Qazax bölgələri dialektlərində də *"darğa-dorğa", naxoş-noxoş, camış-comuş, hava-hova* kimi dialekt variantlarında müşahidə olunur [8, s. 40-41]. Yeri gəlmişkən qeyd edək ki, biz adlarda yer alan **O** saitini təkcə sait səs kimi deyil, həm də qədim yazılı salnamələrdə bir leksik vahid olduğunu da nəzərə almalıyıq ki, əski dövr yazılarında **O** saiti ayrıca olaraq "binə, yurd yeri" mənasında da izah olunurdu [9, s. 122].

Qeyd edək ki, **a»i** kimi arxasıra saitlərin önsıra saitlərini əvəzləməsi fonetik hadisəsinə biz həm də m.ö. II-I minilliyə aid qədim Sak və Midiya tayfası Partagen türklərinin adı ilə bağlı **Sakəm-*Şikəm*** və **Paragen-*Pirəgen*** məntəqə adlarında rast gəlirik. Bu fonetik hadisə ümumilikdə müasir türk arealı dialektlərində az müşahidə olunur. Azərbaycanın yalnız Qazax, Muğan dialektlərində bu hadisəyə *alaq-alık, yalaq-yalık,* formasında rast gəlirik [8, s. 41]. Ümumtürk dialektlərinə gəldikdə isə, göstərilən fonetik hadisə Orta Asiya türklərindən türkmən və uyğur dillərində dialekt variantı ilə işlənən *aşk-işk, ata-əti* kimi sözlərdə, eləcə də əsasən qazax, başqırd türklərində *atılmaq-atılıv, aldanmaq-aldanıv, ağarmaq-ağarıv* kimi ifadələrində təsadüf olunur [3, s. 8-9, 30-33].

Türk dilləri üçün xarakterik olan önsıra və arxasıra saitlərin bir-birini əvəzləməsi hadisəsi, Naxçıvan etnooykonimləri içərisində **a≈u, a≈ə, u≈a, a≈ü** fonetik səsəvəzlənmələr ilə müşahidə olunur və bu hal ümumtürk dialektlərində də yer alan bir fonetik hadisədir. Bu səsəvəzlənmə hadisəsi m.ö. V-II minilliklər tarix səhnəsində olmuş Kas, Şu, Kəngər, Pal, Tal, türkləri ilə bağlı etnooykonimlərdə özünü göstərir. Naxçıvan oykonimlərində **Ankas-*Əngus*, Şuta-*Şada,* Kanqlı-*Künlü*, Pal-*Pul,* Palasub-*Püləsuv,* Talud-*Tulud*** kimi xeyli sayda adlarda bu fonetik hadisəyə təsadüf edirik ki, burada dilin ilkin çağlarında fonetik hadisələrin qədim türklərdən öz varislərinə adlaması versiyası da özünü təsdiq etmiş olar [5, s. 181-183]. Onu da qeyd edək ki, 1350-1780-ci illər arası arxiv sənədlərində yer alan adlar, ola bilsin ki çar və sovetlər Rusiyası dövrü sənədlərin üzlərinin köçürülməsi zamanı da təhrif olunmuşlar.

Əgər yuxarıdakı fonetik hadisələrə diqqət etsək, bəzi məntəqə adlarında biz dodaqlan-

mayan önsıra saitin dodaqlanan arxasıra saiti **a≈ü** şəklində əvəzləməsi ilə də rastlaşırıq. Bu cür fonetik əvəzlənmə hadisəsinə mənbələrdə kəngərlərlə bağlı **Kanqlı-*Künlü*,** maqlarla bağlı **Ərmaq-*Ərmük,*** şiraklarla bağlı **Şaranab-*Şürənab*** məntəqə adlarında rast gəlirik. Biz şirakların **Şar** tanrı adının Şirak tayfa adında da təkrarını qeyd etmişik və burada ***Şürənab*** məntəqə adında sözün **Şür** formasındakı yazılışı təbii ki, dialekt fərqi olmuşdur. Az təsadüf olunan bu cür fonetik hadisə başqırd, tatar dialektlərində *axsamaq-akhaü-aksaü* kimi dialekt fərqləri ilə müşahidə olunur [3, s. 12-13].

Ümumilikdə yuxarıdakı bütün adlarda qeydə alınan səslərin əvəzlənməsi hallarına diqqət etdikdə, burada həm də dodaqlanan və dodaqlanmayan saitlərin bir-birini əvəzləməsi hadisəsi ilə də qarşılaşırıq ki, bu hal təkcə oykonimlərdə deyil, eyni zamanda ümumtürk dialektlərində də təkrarlanır. Bu səsəvəzlənmə dialektologiyayla bağlı elmi əsərlərə müqayisəli yanaşdıqda, ümumtürk arealında "yuvan-yavan", "Cuvad-Cavad", "açmaq-aşuv", "axmaq-aşuv" şəkillərində həm qazax, tatar, türkmənlərdə, həm də Azərbaycanın Qazax, Göyçə, Corat ləhcələrində müşahidə olunur [3, s. 4; 8, s. 41-43, 80]. Bu hala biz m.ö. II-I minilliklər Naxçıvan əhalisinin etnogenezində iştirakçı olmuş maqlarla bağlı **Muğanlı, Muğan** etnooykonimlərinə də təsadüf edirik. Azərbaycanın Göyçə, Qazax, Saray, Corat və s. bölgələrində də biz eyni olaraq *yavan-yuvan, Cavad-Cuad* kimi sözlərdə bu səsəvəzlənmənin təkrarını izləyirik ki, eyni hal ümumtürk fonetikasında da yer alır [8, s. 40-41].

Naxçıvanın m.ö. minilliklərə aid etnooykonimlərində biz arxasıra **e, ə, i, ü** saitlərinin də **ə≈e, ə≈i, ə≈ü** variantlarında bir-birini əvəzləməsi halları ilə qarşılaşırıq. Bu fonetik əvəzlənmələrə m.ö. VI-I minilliklərlə bağlı etnooykonim və oykonimik adlarda da təsadüf edirik. Adların quruluş formalarına diqqət etdikdə, burada as, türükkü, kəngər, kimmer, gel, şirak və s. türklərlə bağlı **Ərbilas-*Ervilas,* Türükki-*Tərəkə,* Kənqər-*Kanager,* Kimmer-*Qəmərli*, Gelkənd-*Gəlkənd,* Sakər-*Çaker*** kimi xeyli sayda məntəqə adları bu tipli fonetik hadisələri özündə əks etdirir. Burda biz **E** və **İ** saitlərinin qədim türk dili sözlüklərində həm də leksik mənalı söz olaraq **E-**"olmaq" və "ev", **İ**-"iç" və "nail olmaq" mənalarında isim, fel və yer zərfi kimi işlənməsi ilə də qarşılaşırıq [6, s, 515; 4, s.167, 223].

Naxçıvan Muxtar Respublikası ərazisinin Şərur, Culfa, Ordubad kimi bölgələrinin dialektlərində bu cür səs əvəzlənmələrinə *fələk-feleh, ərik-erik, şəkil-şikil-şükül, cəviz-ceviz* kimi variantlarda təsadüf edirik [8, s. 40-45]. Ümumilikdə türk dillərinin dialektlərinə müqayisəli nəzər saldıqda isə, bu səsəvəzlənmələr – fonetik hadisələr əsasən türkmən, özbək, tatar, uyğur və b. türklərin dialektlərində *çəkic-çekiç, dəlil-delil, gecə-gece-gice, yəşik-yeşik-yişik* kimi sözlərdə izlənilir [3, s.120-121, 158-159, 258-259]. Bu fonetik hadisə demək olar ki, ümumtürk dilləri üçün xarakterik olan fonetik hadisələrdəndir ki, bu da türk dillərinin eyni kökdən gəlməklə sonrakı dövrlər dialekt variantları ilə fərqləndiyini ortaya qoyur.

Biz Naxçıvan oykonimlərində göstərilən fonetik hallardan fərqli olaraq **i≈ə** səsdəyişimi ilə də qarşılaşırıq ki, bu oykonimlərdə az təsadüf edilən bir səsəvəzlənmədir. Bu fonetik hadisə əsasən kuti, uti, şirak türklərinin adını daşıyan **Kuti-*Keytə*, Utilizi-*İtilicə,* Şirak-*Şərək*** kimi məntəqə adları etnooykonimlərdə müşahidə olunur. Bu cür səsəvəzlənmə Naxçıvanın demək olar ki, bütün dialektlərində Şərur, Sədərək, Şahbuz, Culfa, Ordubad kimi ərazilərin *xingəl-xəngəl, xinə-xənə* kimi az-az sözlərində günümüzdə də işlənməkdədir. Belə fonetik hadisələr ümumtürk dilləri üçün də xarakterik olan dil hadisəsidir. Biz buna başqırd, tatar dialektində *icad-əcəd-ecad, için-için-iştən-iştən,iydə-əydə* kimi sözlərdə təsadüf edirik [3, s. 367-368, 370-371].

Türk dillərində **ü≈ə, ə≈ü, ö≈ü** dil önü və dil arxası saitlərin, o cümlədən də dodaqlanan və dodaqlanmayan saitlərin bir-birini əvəzlənməsi fonetik hadisələrinə də təsadüf edirik. Bu hal oğuzların **Dügər** tayfa adı ilə bağlı **Dügər-*Dəyirli*** və **Ürəkir-*Ərəkur*** kimi məntəqə adlarında təsadüf olunur. Naxçıvanın Şahbuz bölgəsinin Biçənək, Nursu, Culfa bölgəsinin Əbrəqunus, Bənəniyar, Xanağa Xoşkeşin, Əlincə və s. kəndlərinin dialektlərində *küçəyə-küçüyə, küpəyə-küpüyə, cücəyə-cücüyə* kimi sözlərdə, bununla bərabər Şərur, Culfa, Ordubad, eləcə də Qazax, Muğan dialektlərində *kürəmək-kürümək, ölkəyə-ölküyə* kimi ifadələrdə bu səsəvəzlənmə hadisəsini izləyirik [2, s. 39; 8, s. 41]). Yalnız qazax, qırğız, türkmən şivələrində biz bu fonetik hadisəni *örtü-örtə-ortə, yürümək-yorümək,* kimi işlənməsinə təsadüf edirik [3, s. 664-665]. Ümumtürk dialektlərində bu fonetik hadisə başqırd, tatar, uyğur dillərində tam fərqli şəkildə olaraq, ölçəv-ölçəm-ülsəv, *öküz-üküz* kimi tələffüz edilir ki, bu da dialekt fərqlərindən irəli gəlir [3, s. 676-677]. Ümumən bu fonetik hadisə ümumtürk dilləri üçün az xarakterik olan dil hadisələrdir.

Maraqlı fonetik hadisələrdən biri də **o≈ö, o≈u, o≈ü, u≈ü** kimi dodaqlanan saitlərin bir-birini əvəzləməsi hadisəsidir. Türk dialektlərində az təsadüf olunan bu fonetik hadisə Naxçıvan ərazisində mövcud olmuş Şu, Koman, Dor, Oğuz, Budi türkləri ilə bağlı **Şulaq-*Solaq,* Şukar-*Şükar,* Şusut-*Süzüt* Komanbulaq-*Kümanbulaq,* Doranlı-*Dürənli,* Oğuzbatur-*Öküzbatır,* Oğuzlu-*Öküzlü***, **Budili-*Büdülü,*** kimi etnooykonimlərdə müşahidə edilir. Qeyd edək ki, Ümumən ümumtürk, eləcə də Azərbaycan dilində qeydə alınan bu səsəvəzlənmə hadisəsi Azərbaycanın Muğan, Qax, İsmayıllı, Qazax, o cümlədən də Naxçıvanın Şərur, Babək, Ordubad və Culfa dialektlərində xeyli sayda *oynamaq-öynəməx-öynəmək, soyuq-söyux-söyüx*, *huş-hüş, hinduşqa-hündüşqa-hundüşqa, tuman-toman, qaymaq-quymax-qoymax, yovşan-yuvşan* kimi ifadələrdə müşahidə olunur [8, s. 41]. Bu hal eyni zamanda Türkiyədə Anadolunun şimal-şərq bölgələrində *golge-gölge, dokmek-dökmek* kimi müşahidə olunur [8, s. 41-42]. Bu fonetik hadisə Ərzurum dialektlərində də *öküz-ökuz, ortü-örti* kimi ifadələrdə təkrarlanır [1, s. 247, 249]. Biz qırğız, özbək, qazax, uyğur, tatar, türkmən dillərində bu fonetik hadisələri *orak-urak-ürak, orman-urman-ürman-örmən, uyumaq-övmaq-uvkalav-uvötmaq* yazılışlarında rast gəlirik [3, s. 663-667].

Bura qədər olan istər arxasıra və önsıra, istərsə də dodaqlanan və dodaqlanmayan saitlərlə bağlı bütün bu fonetik əvəzlənmələrə diqqət etdikdə, bu fonetik hadisələrin dilimizin hələ qədim dövrlərdə dialekt və fonetik variantlarında müşahidəsi qədim dil quruluşumuzun tarixi prosesləri adlayaraq təkmilləşdiyinin sübutudur. İstər etnooykonimlərin yaranma formaları və bunlardakı tayfa adları, istərsə də etnooykonimlərin quruluşundakı kök və şəkilçi sabitliyi, eləcə də ümumtürklərlə eyniliyi dilin bir tayfa ittifaqında formalaşdığının danılmaz faktlarıdır. Bütün bu elmi göstəricilər Azərbaycan prototürk və müasir dilinin kök və flektiv dillərdən daha öncə tarix səhnəsində olduğunu sübut edir. Bununla bərabər m.ö. VI-III və II-I minilliklərdə qədim Naxçıvan ərazilərində tarix səhnəsində olmuş göstərilən prototürklərin dil quruluşlarındakı fonetik hadisələrin ümumtürk arealında da təkrarının zaman nəzərə alınmaqla deyə bilərik ki, ilk tarixi köçlər cənubdan, bu qədim ərazilərdən şimala doğru olmuş, tədricən tayfa dilləri arasında dialekt fərqləri meydana gəlmişdir.

ƏDƏBİYYAT

1. Gemalmaz E. Erzurum ili ağızları. III c., Ankara: Ankara Universitesi Basımevi, 1995, 381 s.
2. Əliyeva N. Azərbaycan dilinin Şahbuz şivələri. Bakı: Elm və təhsi, 2012, 192 s.

3. Karşılaştırmalı Türk Lehceleri Sözlüğü. I c., Ankara: Kültür Bakanlığı, 1992, 1183 s.
4. Kaşğari M. Divanü lüğat-it-türk. Dizini "ENDEKS", Ankara: Basımevi, 1985, 887 s.
5. Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən (miladdan öncə VI-III minilliklər). I c., Bakı: ADPU-nun mətbəəsi, 2013, 528 s.
6. Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən (miladdan öncə VI-III minilliklər). II c., Bakı: ADPU-nun mətbəəsi, 2017, 588 s.
7. Страбон. География в 17 книгах / Пер. статья и комментарий Г.А.Стратановского. Москва: Наука, 1964, 941 с.
8. Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları. Bakı: Maarif, 1967, 420 s.
9. Oğuz Y., Tuncay B. Türkün gizli tarixi. Bakı: Apostrof, 2009, 496 s.

AMEA Naxçıvan Bölməsi
E-mail: ***firudinrzayev@gmail. com***

Firudin Rzayev

PHONETIC PHENOMENA IN BACK AND FRONT VOWELS IN ANCIENT NAKHCHIVAN OIKONYMS

The paper discusses the alternation of the ancient vowels of the back and front row, which has preserved its traces in the Nakhchivan oikonyms dating back to millennia BC. This topic has not yet been fully studied, and it is superficial in some studies. However, these ancient alternations of sounds discussed in the article are still found in many Turkish dialects. It analyzes the traces of the historical evolution of our language, makes a comparative analysis of the phonemic-sound alternations of initial vowels, such as *a≈e*, *e≈i*, *a≈o*, *o≈u* in the roots of proper names. These ancient alternations occurred mainly due to the dialectal differences of the proto-Turkic tribes. Examples revealed during the study also confirm the commonality of the lexical meanings of phonemes-sounds and letters in this structure for the common Türkic space.

In the paper, the coommonality of these ancient sound forms in the toponymic system of Nakhchivan in modern Turkic dialects is confirmed by scientific facts. Furthermore, the comparative analysis yielded new scientific results.

Keywords: *Nakhchivan, oikonyms, front and back vowels, phonetic changes a≈ə, e≈i, a≈o, o≈u.*

Фирудин Рзаев

ФОНЕТИЧЕСКИЕ ЯВЛЕНИЯ В ГЛАСНЫХ ЗАДНЕГО И ПЕРЕДНЕГО РЯДА В ДРЕВНИХ НАХЧЫВАНСКИХ ОЙКОНИМАХ

В статье рассмотрено чередование древних гласных заднего и переднего ряда, сохранившее свои следы в нахчыванских ойконимах, датируемых тысячелетиями до н.э. Данная тема до сих пор не изучена полностью, а в некоторых исследованиях она носит поверхностный характер. Эти древние чередования звуков, рассмотренные в статье, до сих пор встречаются во многих турецких диалектах. Здесь анализируются следы исторической эволюции нашего языка, сделан сравнительный анализ фонемно-звуковых че-

редований начальных гласных, таких как *a≈e*, *e≈i*, *a≈o*, *o≈u* в корнях имен собственных. Данные древние чередования произошли в основном из-за диалектных различий прототюркских племен. Повторение лексических значений фонем-звуков и букв в этой структуре на общетюркском пространстве в ходе исследования также подтверждается примерами.

В статье повторение этих древних звуковых форм в топонимической системе Нахчывана в современных тюркских диалектах подтверждается научными фактами. При сравнительном анализе получены новые научные результаты.

Ключевые слова: *Нахчыван, ойконимы, гласные переднего и заднего ряда, фонетические изменения a≈ə, e≈i, a≈o, o≈u.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 29.06.2021
Son variant 27.07.2021

UOT 81'28; 81'286

LEYLA SƏFƏROVA

AZƏRBAYCAN DİLİNDƏKİ NEOLOGİZMLƏR VƏ ONLARIN NAXÇIVAN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ ƏMƏLƏ GƏTİRDİYİ DƏYİŞİKLİKLƏR

Məqalədə yeni əsrin gətirdiyi yeniliklərlə bağlı olaraq müasir Azərbaycan dilinə daxil olan neologizmlər, onların dialekt və şivələrimizə təsiri, o cümlədən əmələ gətirdiyi dəyişikliklərdən bəhs olunmuşdur. Məqalədə göstərilmişdir ki, hər hansı bir ictimai, siyasi, iqtisadi, sosial quruluşla, eyni zamanda texnologiyanın inkişafı səbəbindən nəinki dilimizin lüğət tərkibinə, eləcə də məhəlli danışığına saysız-hesabsız yeni əşya və məfhumları ifadə edən söz və söz birləşmələri daxil olmuşdur. Yeni sözlərə dilimizin bütün sahələrində - məişət dilində, elmi dilidə, mətbuat, idarəetmə, iqtisadiyyat, kənd təsərrüfatı və başqa sahələrdə istifadə olunan leksikada, hətta ədəbi dilidə, dialekt və şivələrdə də rast gəlmək mümkündür. Neologizmlərin dilimizə daxilolma səbəbləri ilə yanaşı, daxilolma yolları da nəzərdən keçirilmişdir. Bildirilmişdir ki, neologizmlər dilimizə leksik, morfoloji, sintaktik və kalka (yamsılama) yolu ilə keçir. Ana dilimizə və onun məhəlli danışığına daxil olan yeni söz və ifadələrin müsbət tərəfi kimi qeyd olunmuşdur ki, neologizmlər dilimizin lüğət tərkibinin zənginləşməsində böyük rola malikdir. Mənfi cəhət isə ondan ibarətdir ki, yenilik deyib, hər sözü və ya ifadəni də lüzumsuz yerə danışığımıza gətirməklə dilimizi korlaya bilərik. Bu baxımdan neologizmlərin alınma sözlər olması mütləq şərt deyildir. Ana dilimizin daxili imkanları hesabına da yeni sözlərin yaranması mümkündür. Məqalədə o da qeyd olunmuşdur ki, bu gün yeni hesab olunan bir sıra söz və ifadələr hər hansı bir formasiyanın dəyişməsi, yaxud inkişafı nəticəsində sabah istifadədən qalaraq passiv leksik fonda keçə, arxaizmlərə çevrilə bilirlər.

Açar sözlər: *neologizm, fəal söz fondu, passiv leksika, kalka yolu, ad sistemi, ümumxalq dili.*

Dilin lüğət tərkibini təşkil edən sözün əmələ gəlməsi və inkişafı insan təfəkkürünün inkişafı ilə bilavasitə bağlıdır. Dil insanın hər bir fəaliyyət sahəsi ilə əlaqədar olduğu üçün müxtəlif faktorların təsirindən bir sıra dəyişikliklərə uğrayır. Dövr, zaman dəyişdikcə dilimizin aktiv leksikasına yeni söz və ifadələr daxil olur və işləklik qazanaraq bir çoxları lüğət tərkibinə belə daxil olurlar. Ana dilimizin lüğət tərkibinə olduğu kimi, dialekt və şivələrimizin də tərkibinə yeni kəlmələr, yeni məfhumlar daxil olur. Dilçilik ədəbiyyatlarında neologizmlər (yunanca *neos* –yeni, *logos* – söz deməkdir) [2, s. 69] adlanan yeni sözlər dilə daxil olarkən bir qrup sözü istifadədən çıxarır ki, nəticədə həmin sözlər dilin lüğət tərkibini tərk edərək köhnəlmiş sözlər, yəni arxaikləşmiş sözlərə çevrilir. Yeni sözlərin dilin lüğət tərkibinə keçməsinin əsas səbəblərindən biri yeni yaranmış əşya və məfhumların meydana gəlməməsi ilə əlaqədardır. Nəticə olaraq köhnəlmiş, istifadə olunmayan əşya və məfhumları ifadə edən leksik vahidlər istifadədən qalaraq passiv leksikanın fonduna daxil olmaqla bəzən müxtəlif bölgələrin dialekt və şivələrində qorunub saxlanılaraq gələcək nəsillərə çatdırılır.

Neologizmlər yeni ictimai, siyasi, iqtisadi quruluşla, eyni zamanda, elm və texnologiyanın inkişafı səbəbindən də yarana bilir. Bu məqamda ümumxalq dili ilə məhəlli dialektlər arasında sıx əlaqəni görmək mümkündür. Belə ki, tarixi inkişafın müxtəlif dövrlərində insanların əldə etdiyi nailiyyətlərlə bağlı söz və söz birləşmələri ədəbi dilə daxil olur, dilin lüğət tərkibində qeyd olunur. Lakin ictimai formasiya dəyişdikdə həmin neologizmlər dildə, xüsusilə də dialekt və şivələrdə işlənmə fəallığını itirir. Məsələn, XX əsrin əvvəllərində Sovet hakimiyyəti qurulduqdan sonra kolxoz və sovxozların yaranması, sosializmin qurulması özü ilə bərabər dilimizə *kolxoz, sovxoz, sosializm, beşillik plan, anbardar, aqronom, partkom, hektar, sentner, kommunist, traktor* kimi yeni söz və ifadələr gətirmişdisə, bu quruluş dağıldıqdan

sonra *çevriliş, demokratiya, xalq cəbhəsi, müstəqillik, kommersiya, bazar iqtisadiyyatına keçid, keçid dövrü, iqtisadi çətinlik, ticarət, ticarətçi, alış-veriş* kimi yeni söz və ifadələr sürətlə ana dilimizə daxil olmağa başladı. Köhnə quruluş dialekt və şivələrimizə *qalxoz, safxoz, beşillix' plan, ambarçı/ambardar, ağranom, hekdar, sentiner, qamunis, traxdur/tıraxdor* kimi yeni sözlər gətirmişdisə, dəyişən formasiya öz təsirini dialekt və şivələrimizdə *demakratya, xalq cəbhəsi, cəbhəçilər, alver, alverçi, kammersiya, kamisyonnu/qəmsiyonnu (kommersiya mağazası)* kimi yeni sözlərin dilimizin aktiv leksikasında işlənməyə başlamasına səbəb oldu. Təbii ki, yeni yaranan quruluş inkişaf etdikcə dilimizin aktiv leksikasına daxil olan bir çox sözlər yenə də öz fəallığını itirərək yeni sözlərlə əvəzlənməyə başladı. Bu özünü həyatın bütün sahələrində göstərir. Ədəbi dilimizin lüğət tərkibinə daxil olan neologizmlər həyatımızın bütün sahələrinə – məişətinə, iqtisadiyyatına, kənd təsərrüfatına, idarəetmə strukturlarına, hətta mətbuatına, o cümlədən ədəbiyyatına, dialekt və şivələrinə də nüfuz edir.

Məişət neologizmləri – yeni yaranmış məişət əşyalarının və məfhumlarının adlarını ifadə edən sözlərdir. Dilimizin tərkibinə daxil olmuş *mikrodalğalı soba, paltaryuyan, aspirator, ventilyator, qabyuyan, rəqəmsal soyuducu, split kondisioner, digital kamera, rəqəmsal antena, hd televizor, plazma televizor, uzaqdan idarə olunan telefon, pult, işıq kartı, qaz kartı, kontur, limit* və s. kimi yeni əşyaları və məfhumları ifadə edən sözlər yeni sözlərdir. Baxmayaraq ki, soba, paltaryuyan, televizor, telefon, antena kəlmələr dilimizdə XX əsrin ortalarından bəri mövcud olmuşdur, lakin yeni kəşflər əsasında təkmilləşdirilmiş bu əşyaların adları da yeni formatda neologizmlər kimi qəbul olunmalıdır. Bu əşyaların adlarına dialekt və şivələrimizdə *mikrovalnofka/mikrodalqa fırın, hava təmizləyici* mənasında *asbirator,* yaxud *vintilyator,* rəqəmsal soyuducu anlamında *digital xaladelnik/xaladennik, digital kamera, digital antina, eytş di televzor, plazma televzor, distançyonnu telefon, punt* şəklində rast gəlməkdəyik.

İdarəetmə sistemi ilə bağlı neologizmlər – yeni idarə sisteminin və bu sistemdə tutulan vəzifələrin yaranması ilə bağlı olan sözlərdir. Məsələn, *Prezident Aparatı, Milli Məclis, Ali Məclis, İcra hakimiyyəti, Ombutsmanlıq, Qeyri Hökumət Təşkilatı, Asan xidmət Təhsil Nazirliyi, Təhsil Şöbəsi, Asan xidmət, Texniki kollec, Tibb kolleci, Musiqi kolleci, lisey, öndər, prezident, icra nümayəndəsi, icra başçısı, aparat rəhbəri, ombutsman, millət vəkili, deputat, rektor, dəstək, dəstəkləmək* kimi nümunələri göstərmək mümkündür. İdarə və vəzifə adları ilə bağlı dilimizin aktiv leksik fonduna daxil olan bu sözlər dialekt və şivələrimizdə *prezdent aparatı, milli məclis, icra hakimyəti, ambusmanlıx, qeyri hökümət təşgilatı, asant/hasan/hasant xidmət, texniki kallec, tibb kalleci/metexnikom, uçiliş, liççey/lissey, prezdent, icra nümäəndəsi, icra başcısı, ambusman, depdat, rekdor* şəklində təzahür etməkdədir. Bəzən isə müəssisələrin adları nitqi asanlaşdırmaq üçün qısalmalara uğrayır. Məsələn:

Mən kimliyimi asannan aldım. (Mən kimliyimi Asan Xidmətdən aldım.)
Dayısı icrada işdiyir. (Dayısı İcra Hakimiyyətində işləyir.)
Rasim hərbidə oxuyur. (Rasim Hərbi Liseydə oxuyur.)

Kənd təsərrüfatı ilə bağlı yeni sözlər – kənd həyatına, təsərrüfata aid yeni sözlərdir ki, bunlara dialekt və şivələrimizdə *otdorğuyan<otdoğrayan,* sıxılmış ot bağlamı anlamında işlədilən *pres*, *şəxsi təsəərüfat<şəxsi təsərrüfat, pay torpağı, süni mayalanma, süni mayalanmış mal<süni mayalanmış inək, soyuducu ambar<anbar, topdançı, susəpən, parnik<istixana* kimi nümunələri göstərmək olar. Bəzi əşyalar da vardır ki, onları ifadə edən sözlər XX əsrdə yaranan dilçilik ədəbiyyatlarında neologizm kimi göstərilmişdir və bu gün həmin əşyalar istifadədən çıxmadığı, kənd təsərrüfatında çox sıx istifadə olunduğu üçün həmin sözləri

neologizmlər kimi qeyd edə bilərik. Bunu *kombayn* sözünün misalında görmək mümkündür. Ən son dövrlərə aid, xüsusilə Naxçıvan Muxtar Respublikasında ənənə halını almış festivallardan biri olan "Ailə Təsərrüfatı Festivalı" ilə əlaqədar olaraq yeni söz birləşməsi, *"ailə təsərrüfatı"* ifadəsi yaranmışdır. Bir ailənin öz təsərrüfat imkanlarından istifadə edərək hazırladığı məhsulları danışıq dilində "aylə təsəərüfatı" adlandırırlar. Məsələn, mağazada gördüyümüz mürəbbəyə baxıb satıcıdan soruşduqda ki, "Bu hara istehsalıdır?", "Aylə təsəərüfatıdır" cavabını ala bilirik.

İqtisadiyyatla bağlı yeni sözlər – İqtisadi tərəqqi ilə bağlı dilimizə daxil olan yeni sözlərdir. *Şirkət, firma, MMC (Məhdud Məsuliyyətli Cəmiyyət), menecer, biznesmen, ekologiya, spiker, investisiya, birja, özəlləşdirmə, barel, unsiya, kredit götürmək<dövlətdən pul götürmək, səhm/pay, əmanət, qaranti<zəmanət, kart, ödəmə kartı, maaş kartı, bonus, aksiyon<auksion, barter, pul köçürmələri pul transferi, bazar iqtisadiyyatı, inhisarçı* kimi söz və ifadələr buna misal ola bilər.

Mətbuatla və sosial şəbəkələrlə bağlı yeni sözlər – son dövrlərdə mətbuatda yaranan və istifadə olunan, o cümlədən sosial şəbəkələrlə bağlı istifadə olunan söz və ifadələrdir. Bu baxımdan *canlı yayım, gündəm, şou prqram, şoumen, sənətçi, bloqqer, admin, durum/hekayə/stori, paylaşım, status,* sözləri ifa olunmayan hazır mahnı musiqisi mənasında işlədilən *minus*, canlı ifa olunmayan musiqi anlamında *fonoqramma<fanaqram, mətbuat toplantısı, teleməkan, idman kanalı, mədəniyyət kanalı, uşaq kanalı, TV/televiziya<tivi, pop musiqisi, anons* kimi nümunələri göstərə bilərik.

Yeni sözlərlə əlaqədar müşahidələr göstərir ki, müxtəlif sahələrə aid əşya və hadisələrin yeni sözlərlə adlandırılması öz əksini daha geniş və sistematik şəkildə mətbuatda tapır [3, s. 265].

Elm və təhsillə bağlı yeni sözlər – Dünya tələblərinə uyğunlaşdırılmış innovativ təhsil sisteminə keçidlə və məlum koronavirus pandemiyasının yaratdığı çətinliklərlə əlaqədar olaraq çox böyük sürətlə dilimizə yeni sözlərin axınını müşahidə etmək mümkündür ki, *bolonya sistemi>baloniya, kurrikulumk>uriklum, lisey>liççey, gimnaziya, bakalaviatura, magistratura, doktorantura, fəlsəfə doktoru, test, lisininq (listening)<dinləmə, rayting (writing)<yazma, ridinq (reading)<oxu/oxuma, spikinq (speaking)<danışıq, mik<MİQ/Müəllimlərin işə qəbulu, sertifikasiya, sınaq imtahanları, imtahan nəzarətçisi, summativ qiymətləndirmə, böyük summativ qiymətləndirmə, kiçik summativ qiymətləndirmə, elektron lövhə, elektron körpü, filologiya>filalogya, geologiya>gialogıya, qrammatika>qramatika, apostrofa>pasdrof, dialekt>diyalek, onlayn dərs, distant təhsil tivi>disdant təhsil, yoxlama işi* mənasında *kolloquium>kallequm* kimi söz və ifadələr bu qəbildəndir.

Sağlamlıq və gözəlliklə bağlı yeni sözlər – tibbin və texnologiyanın sürətli və davamlı inkişafı ilə əlaqədar olaraq dilimizə daxil olmaqdadır. Nümunə olaraq, *tibbi sığorta, fizioterapiya, spirometriya, KT (Kompüter Tomoqrafiyası)<kate, MRT (Maqnit Rezonans Tomoqrafiyası), Rentgen, USM (Ultra Səs Müayinəsi), botoks, keratin, qel, şellak, epilyasiya, estetik əməliyyat, korona, covid 19, infeksiya, dezinfeksiya, dezenfektan, tibbi maska, vaksin/peyvənd, analiz vermək* kimi sözlər gündəlik istifadəmizdə olduğu üçün dialekt və şivələrimizdə *sığorta, fizoterapiya, kate, emerte, uzi, rengen, estetik əməlyat/aperasiya/apres, karona, dizinfeksiya, vaksin, test elətdirməx'* şəklində təzahür etməkdədir.

Texniki avadanlıqlarla bağlı yeni sözlər – dilimizdə kifayət qədər çoxdur: *monitor<manitor, adapter<adapdor/adapdır, modem<madem, fayl, printer, skaner, noutbuk<notbuk, disket, CD (Kompakt Disk)<sidi, fləş kart<fləşqa, vayfay (wifi), parol/şifrə, zəmanət<qarantiya/qaranti, smart telefon<smarfon, meqabayt, sayt, fayl, internet* və s. Son

zamanlarda dilimizə bir sıra yeni əşya və məfhumları ifadə edən maraqlı sözlər daxil olmuşdur. Misal olaraq həm elektriklə, həm də yanacaqla işləyə bilən avtomobillərin icadı dilimizə *hibrid maşın* birləşməsinin daxil olmasına səbəb olmuşdur. Bununla yanaşı, bir ildən artıq müddətdə məlum koronavirus pandemiyası səbəbindən respublikamızın bir sıra müəssisələrində keçirilən iclaslar onlayn formada təşkil olunmaqdadır. Bu zaman tədbirin onlayn təşkil olunması, istifadəçilərin tədbirə qoşulması, eyni zamanda uzaqlaşdırılması, məlumatların redaktəsi hüququna malik olan şəxs – bir sözlə, tədbirin onlayn təşkilatçısı mənasında yeni kəlmə, *moderator* sözü dilimizə daxil olmuşdur.

Müharibə ilə bağlı yeni sözlər – Hər kəsə məlum olduğu kimi, 30 ilə yaxın idi ki, mənfur düşmənlərimiz vətənimizə qarşı ərazi iddiaları irəli sürərək, tarixi torpaqlarımız olan qərbi Azərbaycandan azərbaycanlıların köçürülməsini həyata keçirmiş, zaman-zaman strateji marağı olan bəzi dövlətlərin dəstəyi ilə ölkəmizin ərazisinin 20%-dən çoxunu zəbt etmiş, bir çox dəhşətli qırğınlar törədərək həmin ərazilərdə yaşayan əhalini öz yurd-yuvalarından didərgin salmışdı. Bu hadisələrlə əlaqədar olaraq dilimizə saysız-hesabsız sözlər daxil olmuşdur. Qeyd etmək lazımdır ki, həmin sözlər bizim leksikonumuzda mövcud idi, lakin qeyd etdiyimiz nüanslarla əlaqədar olaraq həmin sözlər dilimizdə daha fəal işləklik qazanaraq dildə yeni ahəng və çalar əmələ gətirmişdir. *Şəhid, qurban, düşmən həmləsinə tuş gəlmək, qaçqın<qaşqın, köçkün<köçgün, didərgin, müvəqqəti köçkün, müvəqqəti yaşayış yeri, qaçqınlıq statusu<qaşqınnıx sdatusu, deportasiya<departasya, qırğın, soyqırımı, faciə, işğal<işqal, vandallıq/vandalizm, əliyalın, vətən həsrəti, atəşkəs, atəşkəsi pozmaq, düşmən tərəfi susdurmaq* kimi işlənmə fəallığı qazanmış sözlər mətbuatı, efiri və gündəlik həyatımızı tamamilə zəbt etmişdi.

Lakin 2020-ci ildə bu müharibəyə ölkə başçısının apardığı ağıllı siyasət nəticəsində, Ali baş komandan və yenilməz ordumuzun sayəsində son qoyulması, zəfərlə nəticələnən 44 gün davam edən qızğın müharibə və nəticədə əldə olunan sülh ana dilimizə yeni terminlər və şüarlar gətirdi. *44 günlük müharibə, müzəffər, şücaət, əzm, qüdrətli, ədalət, zəfər, qələbə, dron, pua, informasiya müharibəsi, siyasət meydanı, dəmir yumruq, iti qovan kimi, Azərbaycan ordusu, müzəffər Ali baş komandan, rəşadətli Azərbaycan ordusu, mübariz əskərlər, delimitasiya* kimi söz və ifadələr, *o cümlədən Qarabağ Azərbaycandır! Qarabağ bizimdir, bizim olacaq! Ən böyük əskər bizim əskər! Biz Şuşaya qayıtdıq! Şuşa, biz gəlirik! Vətən sağ olsun!* kimi şüarlar da gətirdi.

Hərbi ilə əlaqədar yeni sözlər – əsasən dilimizə sovet rejimi süqut etdikdən və ölkəmiz müstəqillik qazandıqdan sonra daxil olmağa başlamışdır. Çavuş, zvaniya<rütbə, baş çavuş sözləri bu qəbildəndir

Göründüyü kimi, müxtəlif səbəblərdən dilimizə daxil olan neologizmlər həyatımızın bütün sahələrində özünü qabarıq şəkildə büruzə verməkdədir. Gətirilən nümunələrə diqqət edərkən məlum olur ki, neologizmlər istər dilimizin lüğət tərkibinə, istərsə də dialekt leksikasına daxil olmuşdur. Bundan əlavə qeyd etmək lazımdır ki, neologizmlər təkcə ümumxalq dilinə, yaxud dialekt və şivələrə deyil, eyni zamanda ədəbi dilimizə də daxil olmuşdur. Modernizm və postmodernizm cərəyanlarının sürətlə ölkəmizdə yayılması və inkişafı özü ilə bərabər dilimizə bir sıra yeni sözlər gətirmişdir. Misal olaraq, naxçıvanlı yazar Nargisin (Nərgiz İsmayılova) əsərlərindəki *itirilmişliklər, ulduz-ulduz ağlayır, üst-başımdan "kaş"lar tökülə-tökülə* [4] və s. ifadələr fərdi neologizmlərdir. Bununla bərabər, hər bir şair, yaxud yazıçı öz tərzini yaradarkən əsərlərində özünəməxsus söz və ifadələr işlədir ki, bunlar

da neologizm kimi ədəbi dilimizə daxil olur. Naxçıvanlı şair Elxan Yurdoğlunun əsərlərindəki *dostlar yarpaq-yarpaq töküldü məndən, həsrətimdən öpərsən, payız kimi sevirəm* [5, s. 25, 40, 66] tipli nümunələri də fərdi neologizm kimi qəbul etmək olar.

Yeni sözlərin ümumxalq dilimizə, ədəbi dilimizə və eləcə də, dialekt və şivələrimizə müəyyən səbəblərdən daxil olduğunu qeyd etdik. Vurğulamaq lazımdır ki, neologizmlərin dilimizə daxil olması müxtəlif yollarla baş verir: dilin daxili imkanları hesabına dilə daxil olan yeni sözlər və alınma sözlər hesabına. Dosent Nuray Əliyevanın da qeyd etdiyi kimi, müasir Azərbaycan dilinə alınma sözlər hesabına keçən neologizmlərin böyük bir qismi Türkiyə türkcəsindən gəlir [1, s. 25].

Dildə onun öz materialı zəminində yaranan və lüğət tərkibinin zənginləşməsinə səbəb olan sözdüzəltmə qaydaları dilin daxili inkişaf qanunları ilə bağlıdır. Hər bir nitq hissəsinə daxil olan söz qruplarının konkret məzmunu, qrammatik forması, sintaktik quruluşu və bunların hər biri ilə əlaqədar olan sözdüzəltmə qaydaları da vardır [6, s. 114]. Dilin daxili imkanları hesabına daxil olan yeni sözlər 4 yolla yaranır:

Leksik yolla – qaçqın, qırğın, işğalçı, sələmçi, rəşadətli, əzəmətli, zərərverici

Morfoloji yolla – avantürist, vandallıq, ombutsmanlıq, texniki, seçki

Sintaktik yolla – yanğınsöndürən, atəşkəs, işğalçılıq siyasəti, əliyalın, dəftərxana, hündürmərtəbəli, seçki marafonu, ümummilli, ümumbəşəri, uzaqgörən, məqsədyönlü, çoxbilmiş, paltaryuyan, qabyuyan, çoxmədəniyyətli, Yeni Azərbaycan Partiyası, Xalq Cəbhəsi, Vətən Müharibəsi, Milli Qəhrəman, Şərəf Ordeni, Tərəqqi Medalı.

Kalka (yamsılama) yolu ilə – medsestra/tibb bacısı, novosroyka/yenitikili, probka/tıxac, ministr/nazir.

XX əsrdə kitaba və ədəbiyyata maraqla əlaqədar olaraq da dilimizə bir çox yeni sözlər daxil olmuşdur. Bu sözlər sırasında insan adları xüsusi çəkiyə malikdir. Belə ki, Cəfər Cabbarlının yazmış olduğu əsərlərdən təsirlənərək Azərbaycanda çoxsaylı ailələr öz övladlarına *Oqtay, Aydın, Sevil, Yaşar, Gülüş, Elxan, Gültəkin, Solmaz, Gündüz* kimi adlar qoymuşdur. Lakin bu dəb artıq XX əsrdə qalmışdır. Texnika əsri olan XXI əsrdə isə insanlar övladlarına ad seçimi edərkən, əsasən, seyr etdikləri əcnəbi ölkələrin telekanallarında efirə gedən verilişlərdən və filmlərdən təsirlənərək müxtəlif film obrazlarının, yaxud televiziya ulduzlarının adlarına müraciət edirlər. Milli özümüzün əsasını təşkil edən ad sistemimizi qorumaq məqsədilə dövlət strukturları müəyyən qədər iş aparsa da, *Ayla, Aylin, Cansu, Elina, Selenay, Serenay, İzabel, Janna, Raul, Diana, Sabrina, Alper, Işılay, Elton, Tuqay, Eif, Esma* kimi əcnəbi adlar ad sistemimizə daxil olmuşdur.

Bununla yanaşı, Sovet rejiminin dinlə bağlı yaratdığı məhdudiyyətlər müstəqillik illərində tamamilə aradan qaldırıldığı üçün, ölkədə din azadlığı geniş vüsət almışdır. Gənc ailələr övladlarına dini adlar verərək köhnəlmiş hesab olunan *Yusif, Zəhra, Məhəmməd, Fatimə, Əli, Hüseyn* kimi bir çox adlara yenidən fəal işləklik qazandırmışlar.

Bu baxımdan qalibiyyətlə nəticələnən Vətən Müharibəsindən sonra övladlarımıza Mübariz, Qəhrəman, Qalib, Rəşadət, Müzəffər, Qüdrət, Ədalət kimi adların qoyulması daha məqsədəuyğun olardı.

Ədəbi dillə məhəlli danışıq dilinin neologizmləri qəbul etmə prosesi bir-biri ilə o qədər sıx bağlıdır ki, bəzi hallarda yeni sözlər ədəbi dilə daxil olub, müəyyən tarixi dövr keçdikdən sonra dialekt və şivələrdə yaşadılır, bəzən isə bu əksinə baş verir. Yəni neologizm kimi həm ədəbi dilimizdə, həm də dialekt və şivələrimizdə işlədilərək, müəyyən bir müddət sonra

arxaikləşib dialekt və şivələrimizi tərk edən sözlər ədəbi dilimizin lüğət tərkibində qalmış olur. Neologizmlərin dilimizə, eləcə də dialekt və şivələrimizə axınının mənfi və müsbət tərəfləri mövcuddur. Bununla bərabər, qeyd etmək lazımdır ki, yeni sözlərin dilə daxil olması həm də onun lüğət tərkibinin zənginləşməsində əhəmiyyətə malikdir. Gətirilmiş faktlardan da göründüyü kimi, neologizmlərin əksəriyyəti çağdaş dilimizə əcnəbi dillərdən keçmişdir və əsasən olduğu kimi də işlədilməkdədir. Lakin bir çox əşya və məfhumlar vardır ki, biz onları öz dilimizin imkanları hesabına söz yaratmaqla ifadə edə bilərik. Buna misal olaraq, ingilis dilindəki *roller skate* sözü bu əşyanı istifadə edən insanlar tərəfindən türkiyə türkcəsində işlədilən *paten* kimi ifadə edilir. Halbuki bu əşyaya öz dilimizin imkanları daxilində *təkərli ayaqqabı,* yaxud *təkərli çəkmə* də deyə bilərik ki, nəhayətində həm dilimizin lüğət tərkibini zənginləşdirmiş olarıq, həm də dilimizə yad kəlmələrin axınının qarşısını almış olarıq. Bundan başqa, bəzi sözlər də vardır ki, onların Azərbaycan dilində qarşılığı ola-ola biz həmin sözlərin əcnəbi dildəki qarşılığından istifadə etməklə dilimizi lazımsız sözlərlə doldururuq. Məsələn, ana dilimizdə *"saxta"* sözü var ikən ingilis sözü olan *"feyk"*, *"amal, əqidə"* sözü mövcud ikən *"kredo"* kəlməsinin işlənməsi *"dəbli görünmək"* məqsədi daşısa da, dilimizi ağırlaşdırır.

ƏDƏBİYYAT

1. Aliyeva N.Y. Nahçıvan ağızlarının sözcük bilimi. Ankara: Gece Akademi, 2019, 178 s.
2. Cəfərov S.Ə. Müasir Azərbaycan dili – Leksika. Bakı: Şərq-qərb, 2007, 192 s.
3. Həsənov H.Ə. Müasir azərbaycan dilinin leksikası. Bakı, "Nurlan" nəşriyyatı, 2005, 452 s.
4. Nargis (Nərgiz İsmayılova). Qardələn. Bakı: Xan, 2016, 213 s.
5. Yurdoğlu (Məmmədov) E. Ulduz çoxluğu qədər təklik. Naxçıvan: Əcəmi, 2018, 96 s.
6. Məmmədov N., Axundov A. Dilçiliyə giriş. Bakı: Maarif, 1980, 315 s.

Leyla Safarova

NEOLOGISMS IN THE AZERBAIJANIAN LANGUAGE AND THE CHANGES THEY CAUSED IN NAKHCHIVAN DIALECTS AND ACCENTS

Connected with the innovations of the new era the neologisms the Azerbaijan Language includes, their influences to our dialects and accents, also the changes they cause are touched dealt with the paper. The paper touches upon in consideration of any public, political, economic, social system and development of technology as well; tremendous number of words and expressions reflecting new things and notions came not only in the word stock but also in the local dialects. New words can be come across in all fields of the language – in the language of daily speech, science, media, ruling, economy, agriculture and other fields, and in the literary language, dialects and accents as well. Besides the coming reason of the neologisms in our language the coming ways were looked through. It was noted that the neologisms are included the language in lexical, morphological, syntactical and calque way. As the upright of new words coming in our mother tongue and its local dialects the great role of neologisms enriching the word stock of our language is stated. And the downside is that if we excessively enter any word or expression to our language considering it innovation we can spoil it. In this point of view, it is not of something the neologisms to be borrowings. The new words can be

created according to the inner possibilities of our mother tongue. It is also noted in the paper that a number of words and expressions considered new today can leave out to the passive lexical fund and can become archaisms as a result of any formation change or development in the next period.

Keywords: *neologism, active word stock, passive vocabulary, calque way, public language.*

Лейла Сафарова

НЕОЛОГИЗМЫ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ И ИЗМЕНЕНИЯ, ВЫЗЫВАЕМЫЕ ИМИ В НАХЧЫВАНСКИХ ДИАЛЕКТАХ И ГОВОРАХ

В статье рассматриваются неологизмы современного азербайджанского языка в связи с нововведениями нового века, их влияние на наши диалекты и говоры, а также вызываемые ими изменения. В статье показывается, что в связи с изменением социальных, политических, экономических структур, а также с развитием технологий не только в словарный состав нашего языка, но и в местную речь вошло бесчисленное количество новых слов и словосочетаний, выражающих новые вещи и явления. Новые слова можно встретить во всех областях нашего языка – в повседневном языке, в научном языке, в лексике, используемой в прессе, управлении, экономике, сельском хозяйстве и в других областях, даже в литературном языке, диалектах и говорах. Наряду с причинами появления неологизмов в нашем языке рассматриваются также пути их образования. Утверждается, что неологизмы приходят в наш язык лексическим, морфологическим, синтаксическим путями и путём калькирования (подражания). Отмечено, что положительным аспектом включения новых слов и выражений в наш родной язык и в его местный диалект является то, что неологизмы играют большую роль в обогащении словарного запаса нашего языка. Отрицательной стороной является то, что мы можем испортить свой язык, считая новые слова или выражения нововведением и добавляя их без необходимости в нашу речь. С этой точки зрения для образования неологизмов заимствование не является единственным способом. Создание новых слов возможно также благодаря внутренним возможностям нашего родного языка. В статье также отмечается, что ряд слов и выражений, которые сегодня считаются новыми, в результате любого изменения формации или в результате развития, завтра могут выйти из употребления, превратиться в пассивный лексический фонд или стать архаизмами.

Ключевые слова: *неологизм, активный словарный фонд, пассивная лексика, путь калькирования, общенародный язык.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 29.06.2021
Son variant 27.07.2021

UOT 81:002

KÜBRA VƏLİYEVA

AZƏRBAYCAN VƏ ƏRƏB DİLLƏRİNDƏ SÜMÜK (SKELET) SİSTEMİNƏ MƏXSUS BƏZİ TİBBİ TERMİNLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Vücudun ən mühüm xüsusiyyətlərindən biri də hərəkətdir. Orqanizmdə hərəkətin yaranması üçün hərəkət sistemini meydana gətirən sümük, oynaq və əzələlərin qarşılıqlı şəkildə fəaliyyət göstərməsi əsasdır.

Dayaq-hərəkət aparatı (əzələ və skelet sistemi) bədənin forma və quruluşunun əmələ gəlməsini, daxili və xarici orqanların qorunmasını, eləcə də hərəkət edə bilməyimizi təmin edir. Bu sistem içərisində başlıca olaraq əzələlər, sümüklər və oynaqlar yer alır.

Dayaq funksiyasını sümük sistemi, hərəkət funksiyasını isə əzələ sistemi icra edir. Sümük sistemi dayaq-hərəkət aparatının bir hissəsi olaraq orqanizmdə dayaq, qoruyucu, qanyaradıcı, metabolik kimi bir sıra mühüm funksiyaları yerinə yetirir.

Tibbi terminologiya tibbi terminləri tədqiq edib öyrənən və daima inkişafda olan dilçiliyin ən aktual elm sahəsidir. Azərbaycan və ərəb dillərinin lüğət fondu bu baxımdan öz milli tibbi terminləri ilə zəngindir.

Məqalədə sümük (skelet) sistemi haqqında məlumat verilmiş, Azərbaycan və ərəb dillərinin bu sahəyə xas olan bir neçə tibbi termin şərh olunmuşdur.

Hər iki dilin sümük sistemi tibbi terminlərini milli sözlər əhatə etməkdədir.

Açar sözlər: *termin, tibbi terminologiya, sümük, onurğa, oynaq, Azərbaycan dili, ərəb dili.*

Sümük (skelet) sistemi orqanizmin dayaq funksiyasını icra edərək, vücuda forma verərək onun bütöv qalmasını təmin edir. Həmçinin oynaq və əzələlər ilə birgə orqanizmin hərəkətini və yerdəyişməsini yerinə yetirir. Sümük sistemi sümükləri, oynaqları və bağları (liqament) əhatə edir. Sümük sistemi orqanizmdə bir çox mühüm vəzifələr icra edir: bədənə kömək edərək qamətin dik durmağına səbəb olur, əzələlərin köməyi ilə hərəkəti meydana gətirir, daxili orqanları qoruyaraq əzələ və bu orqanlar üçün dayaq funksiyasını həyata keçirir, kalsium, fosfat, maqnezium, potasium minerallarını özündə depolayır, eritrosit və leykosit kimi qan hüceyrələrini yaradır.

Sümük sistemi insan bədəninin 17 faiz kütləsini əhatə edərək 206-210 sümükdən meydana gəlmişdir. Sümüklərin bir-birinə bağlanan yerləri oynaqlardır. Bu yerlər skeletin hərəkət bölgələridir.

Sümük sistemi baş, gövdə, yuxarı və aşağı ətraf olaraq dörd hissəyə bölünür. Skelet və əzələ sistemi anatomik və fizioloji cəhətdən bir-biri ilə qarşılıqlı şəkildə işləyir.

Sümük sisteminə məxsus tibbi terminlər tibbi terminologiyanın bir şöbəsini təşkil etməkdədir. Bunlara aşağıdakı terminləri nümunə göstərmək olar:

Azərbaycan dilində: sümük sistemi, skelet, sümük, qığırdaq, sümük hüceyrəsi, **baş skeleti:** kəllə, alın sümüyü, gicgah sümüyü və s.; **gövdə skeleti:** döş qəfəsi, onurğa sütunu, onurğa beyni, fəqərələr, qabırğa və s.; **yuxarı ətrafın skeleti:** çiyin, qol, bazu, dirsək, said, qol biləyi, qol biləyi sümükləri, əl, əl darağı sümükləri; **aşağı ətrafın skeleti:** çanaq, qıç, bud, epifiz, metafiz, diafiz, diz, baldır, ayaq biləyi, topuq, daban, ayaq, ayaq barmaqları, ayaq pəncəsi; **bağ**, diz bağı: arxa çarpaz bağ, topuq bağı; **oynaq**, diz oynağı, oynaq zəri, oynaq iltihabı (artrit), revmatizm və s.

Ərəb dilində: الجهَازُ العَظْمي، الهيكل، العَظْمُ، العُضْرُوف، الخَلية العَظْمية، الهيكل الرأس:الجُمْجُمَةُ، العظم الجبهي، العَظْمُ الصُدْغِيُّ و غيرها؛ الهيكل الصدري: القفص الصدري، العَمُود الفِقْرِيُّ (الصُّلبُ)، النُّخَاعُ، الفِقرَاتُ، الأضْلاعُ و غيرها؛ هيكل الطرفان العُلويان: الكتْفان، الذِّرَاعَان، العَضُدَان، المَرْفِقان، السَّاعِدَان، المِعْصَمَان، الرُّسْغان، اليَدَان، المُشْطُ اليَد؛ هيكل الطرفان السفليان: العَظْمُ الحَوْض، الرجْلان، الفَخْذَان، الجِسْمُ الصنوبري (المشاشة العظم)، الكُرْدُوس، الجَدْلُ، الرُكْبَتَان، السَّاقان، الكَاحِلان، الكَعْبَان، العَقْبَان، القَدَمَان، أصَابعُ الأقْدَام، أخَامِص (قدم)؛ الربَاط، الرباطان الركبتان: الرباط الصليبي الخلفي، الربَاطُ الكاحِلي؛ المَفْصِل، المَفْصِلُ الرُكْبَةِ، المفاصِل الزُلالِيَّة (المفاصل المَصْلِيَّة)، التهاب المَفْصِل، الرُوماتِزم (الرَثْيَة، ألم المفاصل) و غيرها.

Bu terminlərin ən mühümlərindən bir neçəsinə hər iki dildə nəzər salaq.

Sümük *(lat. os).* Orta yaşlı insanlarda vücud kütləsinin 1/5-1/7-ni təşkil edən sümüklərin tərkibində lifli birləşdirici toxuma, sinirlər və qan damarları, sümük iliyi, qan və s. elementlərdən ibarətdir. Sümüklər kimyəvi tərkibinə görə üzvi və qeyri-üzvi maddələrdən təşkil olunmuşdur. A və D vitaminləri sümüklərin inkişafı üçün mühüm əhəmiyyət kəsb etməkdədir. Bütün sümüklər xaricdən periost – sümüküstlüyü ilə örtülür. Sümük hüceyrələri osteosit adlanır. Sümüküstlüyünü yaradan hüceyrələrin çoxalıb artması ilə sümük inkişaf edib uzanır, qalınlaşır həm də çatlaq və qırıqların sağalmasını həyata keçirir. Sümüklər sümük toxumasından əmələ gəlir. Sümük toxuması sərt və süngəri maddədən ibarətdir. Sümüyə sərtliyi kalsium və fosfor maddələri verir. Süngəri maddənin boşluqlarında qırmızı və sarı sümük iliyi vardır. İnsanın yaşı və iliyin funksiyalarına görə sümük iliyinin rəngi dəyişilir.

Həmçinin sümüklərin oynaq səthi yumşaq və şəffaf qığırdaq (gəmircək) toxuması ilə əhatə olunmuşdur. Bütün onurğalılar sinfinin ilkin doğuşu zamanı sümükləri qığırdaqdan ibarət olur.

Sümüklərin orqanizmdə qoruma, dayaq, hərəkət, mineral toplamaq, qan hüceyrəsinin yaranması kimi vəzifələri vardır.

Forması cəhətdən 4 tip sümük vardır. Borulu – uzun (bazu, said, bud, baldır sümükləri) və qısa (əl-ayaq darağı, falanqa sümükləri) sümüklər; Süngəri – uzun (qabırğalar, döş, kürək, çanaq sümükləri), qısa (fəqərə, bilək sümükləri), sesamoid (noxudabənzər – diz qapağı, aypara, aşıq və digər noxudabənzər sümüklər; küncütvarı – oynaq ətrafında, vətərlərin içərisində, iri sümüklərin arasında yerləşən sümüklər) sümüklər; Yastı sümüklər (döş, alın, təpə sümükləri); Qarışıq sümüklər (onurğa, üz sümükləri).

Sümük sözünə linqvistik aspektdən yanaşdıqda isə o qədim türk mənşəli sözdür. Dilçi alim Bəşir Əhmədov yazır ki, *"*termin *sümürmək* sözü ilə qohumdur, "içi (iliyi) sümürmək" deməkdir*"* [3, s. 234].

"Asiya türkcəsində *sünüg//süngüğ* deyilir. Kəmik daha çox Anadolu türkcəsində işlənir. Xalq dilində *gömuk//kömuk//kemuk//kemug//gimuk* və s. deyilişləri vardır." [4, s. 196]. Morfem türk ləhcələrdə çeşidli tarixi inkişaf dövrü keçirmişdir. Belə ki, *sünüg//süngüğ//sümük* şəklində müxtəlif fonetik dəyişikliyə məruz qalan termin müasir dövr Azərbaycan dilinin leksikasında "sümük" sözü formasında işlənməkdədir.

Sadə ismin Azərbaycan dilinin izahlı lüğətində aşağıdakı mənaları fərqləndirilir [2, s. 168-169]:

1. İnsan və onurğalı heyvan skeletinin ayrı-ayrı tərkib hissəsi. *Qol sümüyü. Baldır sümüyü.* [İmanqulunun] *bədəni elə tərpənirdi ki, elə bil heç sümüyü yox idi.* (Çəmənzəminli). [Məsmə] özünü bərkə verən kimi kürəklərindən ağrı qopur, damarları gizildəyir, sümükləri sancırdı (Mir Cəlal). 2. Müxtəlif şeylər qayırmaq üçün istifadə edilən bəzi heyvanların (fil, suiti) dişi, yaxud buna oxşar başqa bərk cisim. *Qarmona sümük dil salmaq. Fil sümüyündən hazırlanan sancaq. – Tahir sümük çərçivəli eynək taxmış ucaboy, buğdayısifət, qıvrımsaç*

alimi yaxşı xatırlayırdı. (M.Hüseyn). [Fərrux] *siqareti ağ sümük müştüyə keçirib yandırdı və tüstülətməyə başladı.* (B.Bayramov). // Sümükdən qayrılmış. *Sümük daraq. Sümük dəstək.* 3. Zər (nərd və s. oyunlarda). Sümük atmaq – nərd oynamaq. *Bəzən də yuxudan yarımçıq qalxıb; Aylı gecələrdə sümük atardıq.* (S.Vurğun) və s.

Azərbaycan dilinin leksikasında sümük morfemi ilə bağlı nitqə ifadəlilik gətirən sabit söz birləşmələri də işlənməkdədir. Məsələn, *sümük sındırmaq* – çox əziyyət çəkmək, çalışmaq, can qoymaq; *sümük sındırmış* – təcrübəli, can qoymuş; *sümükləri çıxmaq* – çox arıqlamaq; *sümükləri çürümək* – tamamilə məhv olmaq, nişanı, izi – tozu qalmamaq; *sümüklərini qırmaq (sındırmaq)* – bərk döymək, əzişdirmək; *sümüyünə (sümüklərinə) düşmək (oyun havashaqqında)* – xoşu gəlmək, oynamağa həvəsləndirmək, sövq etmək; *sümüyünə qədər işləmək* – çox dərin təsir etmək; *ağzına sümük atmaq* – susdurmaq üçün bir şey vermək; *bir dəri bir sümük* – son dərəcə arıq, sısqa, zəif adam haqqında və s.

Ərəb dilində sümük sözü عظم termini ilə ifadə olunur. Sadə quruluşlu isim ərəb mənbələrində aşağıdakı kimi təhlil olunur [6, s. 3005; 7, s. 1519-1520; 8, s. 555-556; 9, s. 1111; 10, s. 636; 11, s. 514]:

عظم الشيء عظما : كبر – *böyük* olmaq, ulu olmaq.العُظْم، العِظْم: الكبيرَ، خلاف الصِّغر – *böyük* olmaq, balaca olmağın əksi;*والرجل : فخم فهو عظيم والجمع: عظام وعظماء* – *insan: böyük və əzəmətli şəxs (cəm forması عظام və عظماء).* عَظُمَ الشيء: مُعظمه، أكثره – nəhəng şey: böyük hissə, çoxluq. عَظُمَ – ulu olmaq; qüdrətli olmaq; nəhəng olmaq;

العَظْمُ [مفرد]، [جمع]: أعظمٌ و عِظامٌ و عِظْمَةٌ: ١ – قصَبُ الحيوان و الإنسان الذي عليه اللحم.

Sözün təki العَظْمُ, cəmi isə أعظمٌ, عِظامٌ və عِظامَةٌ olaraq üç formadadır. 1. Ətlə örtülü insan və heyvanın sümüyü.

عَظْمُ الجبهة – alın sümüyü, عَظْمُ الرُّقْوَة – körpücük sümüyü, عَظْمُ الزَّنْد – dirsək sümüyü; الصدر عَظْمُ – döş sümüyü; عَظْمُ الكتف – çiyin sümüyü, عِلْم العِظام – osteologiya, التهاب العظام – sümük iltihabı, لِينُ العِظام، هَشَاشَةُ العِظام – sümük əriməsi (Osteoporoz), فحْمُ العِظام – sümük kömürləşməsi (karbonlaşması). "الهيكل العَظْميّ": نسبة إلي العَظْم–العَظْميّ–sümüklə bağlantılı olan: "skelet", والعَظْمُ السّبعانيّ (في علم الأحياء): عَظْمٌ صَغِيْرٌ على شكل – Yeddinci sümük: (Bio.) formaca kiçik bir sümük və s.

(فَخَلَقْنَا الْمُضْغَةَ عِظَامًا فَكَسَوْنَا الْعِظَامَ لَحْمًا) (سورة المؤمنون، الآية ١٤).

Bir parça ətdən sümüklər yaratdıq, sonra da sümükləri ət ilə örtdük". (Əl-Muminun surəsi, 14-cü ayə).

٢ (شر) كُلّ قطعة صلبة أو جزء صلب من هيكل حيوان فقاريّ. عظمة الظّهر: العمود الفِقْري.

2. (Anat.) onurğalıların skeletinin hər bərk parçası və ya sərt hissəsidir. Kürək sümüyü: onurğa.

Sümük sözü ilə bağlı ərəb dilində məcazi söz birləşmələri və ifadələrə misal olaraq: جِلْدٌ على عَظْمٍ: هزيل، نحيف–Sümük üzərindəki dəri: cılız, zəif; دقّ العظمَ: كسره – sümük ovalamaq (üyütmək): onu sındırmaq; رقّت عظماه: كبر في السِّنّ – sümükləri yumşaldı (inceldi): Yaşca böyümək, yaşlanmaq; مَنْ جعل نفسه عَظْمًا أكلته الكِلابُ: تُقَالُ لِمَنْ كان متساهلا لئلاّ يغدو فرسةً الأشرار – kim özünü sümük etsə onu itlər yeyər: pislərin ovuna çevrilməməsi üçün xoşgörülü olana deyilir; نخِر العَظْمُ: بلي و تفتّت – sümüyü gəmirilmək: xarab olmaq və parçalanmaq; أكل اللّحمَ، و ترك العظمَ – Əti ye, sümüyü at və s.

Onurğa (*lat. columna vertebralis*). Onurğa – fəqərə sütunu fəqərələrin üst-üstə düzülməsi ilə ənsədən gövdənin arxa ortasına (aralığa) qədər uzanan sümük sütunudur. Onurğa insanda və bütün onurğalılarda skeletin əsas hissəsini təşkil etməklə baş, boyun və gövdənin ağırlığını daşıyır, həmçinin onların hərəkət etmələrini təmin edir. Onurğa fəqərələrdən, ön və arxa bağlardan, fəqərəarası diskdən ibarət olmaqla 33 və 34 fəqərənin üst-üstə düzülməsi ilə yaranır.

Fəqərələr sürtünərək bir-birlərini aşındırmaması üçün fəqərəarası disk adlanan elastik qığırdaq yastıqlarla bir-birlərinə bağlanmışdır. Fəqərələr cisim, çıxıntılardan və qövslərdən

ibarətdir. Üst-üstə yığılan fəqərə boşluqları, içərisində onurğa beyni yerləşən onurğa kanalını meydana gətirir. Fəqərələr onurğa kanalında yerləşən onurğa beynini zərbələrdən qoruyur. Onurğa boyun, döş, bel, oma və büzdüm fəqərələrindən ibarət olaraq 5 hissədən ibarətdir: boyun fəqərələri 7 ədəddir, birinci boyun fəqərəsi atlant, ikinci isə ox (aksis) adlanır. Döş fəqərələri 12, bel fəqərələri 5, oma fəqərələri 5, büzdüm sümüyü isə 3-5 ədəd fəqərədən ibarətdir. Onurğa orta yaşlı qadınlarda 65 sm, kişilərdə isə 75 sm-ə bərabər olur.

Onurğa ön və arxa hissədən baxıldığında düz bir sütun şəklindədir. Yan tərəfdən baxıldığında isə S hərfinə bənzər əyrilik aydın şəkildə görünür. Onurğanın boyun və bel hissəsindəki önə doğru qabaran fizioloji əyrilik lordoz, döş və omada isə arxaya qabaran fizioloji əyrilik isə kifoz adlanır. Bu əyriliklər onurğaya elastiklik və müvazinətdə davamlılıq verir. Skolioz isə müəyyən xəstəlik, anadangəlmə meyllik və bəzi zərərli vərdişlər nəticəsində onurğanın yanlara əyilməsidir.

Türkoloq İ.Z.Əyyuboğlunun qeyd etdiyinə görə, "sözün kökü *on* – sağlamlıq, inkişaf, yaxşılaşma, dayanıqlılıq, güclülük, sağlıq və s. mənaları bildirir. *Onmak//onulmak//onarmak//onartmak//onultmak* və s. fellər həmin kökdən törəmişdir. Terminin belə adlanma səbəblərindən biri onun gövdəni ayaqda tutması, sağlamlığı, güclülüyü və dayanıqlığıdır. Onurğa sözü XIV əsrdən Anadolu türkcəsində işlənir, qədim türk dilində yoxdur. *Onurha, onurqa kemiyi, onurqa sünüğü, onurka* kimi tələffüz edilən sözlər yazılı mənbələrdə qeyd edilmişdir" [4, s. 239].

"Onurğa – *(is. anat.)* Bel sümüyü. *Onurğa beyni* – onurğa kanalının içərisindəki ilik; haram ilik; *Onurğalı* – (sif.) Onurğası olan. *Onurğalılar* – onurğalı heyvanlara verilən ümumi ad; onurğalı heyvanlar. *Onurğasız* – (sif.) onurğası olmayan. Onurğasız heyvan. *Onurğasızlar*– onurğasız heyvanlara verilən ümumi ad; onurğasız heyvanlar" [1, s. 524].

Sözün ərəb dilində ekvivalenti الفَقَارِيّ) العُمُودُ الفَقَرِيّ), السَّلْسِلَةُ الفِقَرِيَّةُ və الصُّلْبُ sözləridir. Qeyd olunan tibbi terminlər ərəb mənbələrində [6, s. 3447, 2475; 7, s. 1730, 1310-1311; 8, s. 605, 498; 9, s. 1258, 938; 10, s. 697, 519; 11, s. 590, 431] aşağıdakı kimi təhlil olunur:

السَّلْسِلَةُ الفِقَرِيَّةُ, (الفَقَارِيّ) العُمُودُ الفَقَرِيّ:

عمد الشيء بفتح الأحرف كلها: أقامه بعماد ودعمه–dəstək olmaq: arxasında olmaq və qaldırmaq. عَمَدَ – dəstək olmaq, dəstəkləmək, عَمُود (c. عُمُد، أَعْمِدَة) – sütun, dirək.الظهر : وعمود البطن – kürək, وعمود الشعر: طريقته الموروثة عن العرب في وزنه وقافيته وأسلوبه – şeir sütunu: vəzni, qafiyəsi və üslubu ilə ərəblərdən miras qalan şeir yöntəmi. والمفعول مُسلسَل ، فهو مُسلسِل ، سلسلةً ، سلسلَ يُسلسل –əlavə etmək, ard-arda gətirmək.

فقر الأرض فقرا : حفرها–yer qazmaq, فقر البئر : استنبط ماءها–ويقال : quyu qazmaq: suyunu tapmaq, فقَرَ – qazmaq, dəlmək; möhtac olmaq, fəqir olmaq.

الفَقَرَةُ الفُقَرَةُ. ج فِقَر و فُقَرات. ١ – الحفرة التي تُغرس فيها الغرسة. ٢ – مدخل الرأس من القميص. –1. *çuxur (cəm forması فِقَر و فُقَرات), 2.* köynəkdən baş girişi və s;

الفِقَرَةُ. ج فِقَر و فِقَرات و فِقَرَات.١ – الخرزة من خرزات سلسلة الظهر، ٢ – أجود بيت في القصيدة. ٣- الجملة المختارة من الكلام. ٤ – النُّكْتَةُ في الكلام و هَلُمَّ جَرًّا.

– الفِقَرَةُ Onurğa. Cəm forması فِقَر و فِقَرات و فِقَرَات olaraq üç cürdür.

1. Onurğa sümüyünün halqalarından (muncuqlarından) biri. 2. Qəsidə şeirində ən yaxşı beyt. 3. Seçilmiş nitq (danışıq) cümləsi. 4.Danışıqda (nitqdə) lətifə, anekdot və s.

فِقْرِيّ [مفرد]: اسم منسوب إلى فقَرَة/ فِقْرة.

– الحيوانات الفِقْرِيَّة: الفقاريات,onurğa siniri– "حيوان/ عصب فِقْرِيّ" sözlərindən, فقَرَة/ فِقْرة – فِقْرِيّ onurğalılar, اللافقاريّات–onurğasızlar, علم الفقاريّات –osteologiya.

العمود الفِقْريّ/ السّلسلة الفِقْريّة: السّلسلة العظميّة الظهريّة، السّلسلة الفقاريّة، و التي تمتد من القِحْف إلى العُصْعُص و تغطّي النّخاع الشّوكيّ و تشكل الدّعامة الرّئيسية للجسد.

Onurğa sütunu: kəllə əsasından büzdüm sümüyünədək uzanır, onurğa beyni örtür və bədənin qamətinə dəstək və forma verən kürək sümüyü.

الفَقَارَةُ (ج) فَقَارٌ: واحدة من عظام السلسلة العَظْمة الظهريّة الممتدة من الرأس إلى العُصعص، و عِدّتُها في الإنسان ثلاثٌ و ثلاثون فقارة: سَبْعٌ في العُنُق، و اثنتا عشرة في الظهر بين الأضلاع، و خمس في البطن، و خمسٌ في العَجُز، و أربع في العُصْعُص.

Fəqərə (cəm forması فَقَارٌ): Baş hissədən büzdüm sümüyünədək uzanan onurğa sütununun sümüklərindən biri. İnsanda onurğa sütunu 33 ədəd fəqərədən ibarətdir. Bunlar 12 ədədi kürəkdə qabırğaların arasında, 5 ədədi qarında (beldə), 5 ədədi ombada və 4 ədədi isə büzdüm sümüyündədir.

الصُّلْبُ :

-صَلُبَت الحمى على فلان : اشتدت وطالت الصُّلْبُ. ج أصْلاب و أصْلُب و صلبَةٌ. صَلُبَ يَصلُب، صُلْبٌ، فهو صلِب، و المفعول مَصْلوب.

الصُّلْبُ وطالت اشتدت : الحمى على فلان صَلُبَت- hərarət filankəsə sərt oldu: çətin oldu, uzun çəkdi, Sözün təki الصُّلْبُ, cəm formaları isə أصْلاب, أصْلُب və صلبَةٌ-dur. صَلُبَ يَصلُب، صُلْبٌ، فهو صلِب، و المفعول مَصْلوب –sərt olmaq, sərt davranmaq, möhkəm olmaq feli (feli mazi və muzari, məsdər, ismi-fail və ismi-məful üzrə).

١ – عظم الظّهر من الكاهل إلى أسفل الظّهر. ٢ – الشديد: شديد قويّ "رجلٌ صُلْب: ذو صلابة – إرادة صُلْبة".

1.Kürəyin üst hissəsindən ən aşağı hissəsinə kimi olan kürək sümüyü, onurğa. 2. Şiddətli: çox güclü "möhkəm kişi: möhkəmlik sahibi-möhkəm iradə".

هو صُلْب العود: قويّ شديد يقف على أرض صُلْبة. – inadçı, dikbaşlı: çox güclü-yer üzərində möhkəm duran. ٣ – الحسب، النّسَب. *3. Hesab, nisbət mənasında.* والصليب : الخالص النسب فلان : من ذريته – sağlam: təmiz soy: atasının oğlu: onun soyundan olan, يقال: هو عربي صليب *–deyilir: o təmiz ərəbdir;* القُرْصُ الصُّلْب –sərt disk, hard disk.

٤ – القوّة. ٥ – المكان الغليظ ذو الحجارة. ٦ – الفولاذ.

4. Qüvvət. 5. Daşlı və kələ-kötürlü məkan. 6. Polad və s. mənalarından ibarətdir.

وصلب على المال وغيره : بخل وتشدد–pula görə bərk olmaq: cimri olmaq, bərk olmaq, وصلب الشيء : قواه ومتنه–sərt olmaq, sərt davranmaq, تصلب الشريان– *arterioskleroz (damar sərtləşməsi).*

و في التنزيل العزيز: "يَخْرُجُ مِنْ بَيْنِ الصُّلْبِ وَالتَّرَائِبِ" (سورة الطارق/٧).

Qurani Kərim: "O maye bel və sinə sümükləri arasından çıxar" (Tariq surəsi, ayə 7).

و في التنزيل العزيز: "وَ حَلائِلُ أَبْنائِكُمُ الَّذِينَ مِنْ أَصْلابِكُمْ" (سورة النساء/ ٢٣).

Qurani Kərim: Öz belinizdən gələn oğullarınızın arvadları ilə evlənmək sizə haramdır (Nisa surəsi, ayə 23).

انحنى صُلْبه: تقوّس– onurğası kələ-kötür olmaq: əyilmək, الموضوع: دخل في جوهره. دخل في صُلْب – qatı mövzuya daxil olmaq: onun mahiyyətinə daxil olmaq kimi sabit və məcazi söz birləşmələri də mövcuddur

Oynaq *(lat. Articulatio-art).* Sümük sistemində ən az iki və ya daha çox sümüyün birləşdikləri yerlər oynaq adlanır. Oynaqlar hərəkətli (baş-boyun, çiyin, qol və ayaq oynaqları), yarı hərəkətli (kürək və bel oynaqları) və hərəkətsiz (kəllə və pelvis oynaqları) olaraq üç qrupa bölünür. "Oynaqlar sümüklərin oynaq səthləri, oynaq kisəsi, boşluğu və köməkçi elementlərdən təşkil olunur. Sümüyün qabarıq səthi oynaq başı, batıq səthi oynaq çuxuru adlanır. Oynağın əlavə elementlərinə oynaqdaxili qığırdaqlar, oynaqdaxili və oynaqətrafı bağlar, sinovial kisələr, küncütvarı sümüklər və s. aiddir." [5, s. 168]. Sinovial zər qan və limfa damarları ilə sinovial mayeni süzməklə oynaqların sürüşkən olmasını şərait yaradır. Oynaqlar formalarına görə "kürəvi (çiyin oynağı), vintşəkilli (dirsək oynağı), kasayabənzər (bud-çanaq oynağı), blokabənzər (aşıq-baldır oynağı), çarxabənzər (proksimal mil-dirsək oynağı), ellipsşəkilli (mil-bilək oynağı), yəhərvarı (baş barmağın bilək-əl darağı oynağı)" olur. [5, s. 169].

Oynaq sözü *oynamaq* felindən törəyən milli tibbi termindir. Terminin izahlı lüğətdə aşağıdakı mənaları vardır [1, s. 539-540]: 1. Mühərrik, oynar, oynayan, daim hərəkətdə olan. *O baxışlarda dalğadan oynaq; Bir şəfəq var ki, nurdan şəffaf!* (A.Şaiq). [Elxan:] .. *Qaldıracağım azadlıq bayrağının oynaq dalğaları* [Solmazın] *gülgün çöhrəsini öpəcəkdir.* (C.Cabbarlı). 2. Oynağan, şux. *Sən mənim köhlənim, oynaq atımsan; Mənim yaman gündə ehtiyatımsan.* (M.Müşfiq).// məc. Cilvəli, işvəkar, şux. *Oynaq qız.* 3. *məc.* İfadəli, təsirli canlı; danışığa, sözə, üsluba yüngüllük, oynaqlıq, gözəllik verən. *Oynaq dil, oynaq ifadələr* . 4. is. anat. Buğum, məfsəl. 5. Oylaq. *Tərpətdi düzlərlə Qanığa tərəf; Qaçaqlar oynağı Samuxa tərəf* (H.K.Sanılı).

Sözün sinonimi olan "buğum" termini də ümumişlək sözdür. Dilçi alim Bəşir Əhmədovun qeyd etdiyinə görə, "söz qədim *bo* felindən əmələ gəlib. *Bo* (boğmaq) və ya *ba* (bağlamaq) fellərindən də *boğ* feli, *bağ* ismi törəyib (ehtimal ki, *bo* və *ba* felləri tarixən eyni söz olub). *Boğmaq* feli sonradan *buğ* formasına düşüb, *buğ-um* ismi də *gey-im* qəlibi üzrə həmin feldən əmələ gəlib. *Bağ-anaq* sözünün qəlibi göstərir ki, *bo* felindən *boğmaq* yarandığı kimi, *ba* felindən də *bağmaq* feli əmələ gəlmişdir. Onda düşünmək olar ki, *boyun* ismi *boğ-un* formasında olub və *boğ* felindən törəyib ("bədənin boğuq yeri" mənasında). *Boğaz* (boğ-uz) ismi də bununla bağlı ola bilər [3, s. 53].

Sözün ərəb dilində ekvivalenti مَفْصِل terminidir. Qeyd olunan tibbi terminlər ərəb mənbələrində [6, s. 3422; 7, s. 1712-1715; 8, s. 602; 9, s. 1250; 10, s. 691-692; 11, s. 585] aşağıdakı kimi şərh olunur:

فصَلَ يَفْصِلُ: فُصُوْلاً. ١ – الرجلُ عن البلد: خرج منه. ٢ـ الكَرْمُ: خرج حَبه صغيرًا.

فصَلَ يَفْصِلُ: فُصُوْلاً–tərk etmək. 1.Şəxsin ölkəni tərk etməsi: oradan çıxması. 2.Cömərtliyi tərk etmək: sevgisinin az büruzə verməsi.

وفي التنزيل العزيز: " فلمَّا فصَلَ طَالُوتُ بالجُنُودِ قَالَ إنَّ اللّه مُبْتَلِيكُمْ بِنَهَرٍ (سورة البقرة/ ٢٤٩).

Qurani Kərim: "Talut qoşunla birlikdə ayrılıb səfərə çıxdıqda əsgərlərinə dedi: Allah sizi bir çayla imtahan edəcək. (Bəqərə surəsi, ayə 249)".

فصَلَ يَفْصِلُ: فصْلاً –ayırmaq, kəsmək. الفصل: الحاجز بين الشيئين–iki şey arasında əngəl, maneə; وملتقى كل عظمين في الجسد –bədəndə bütün sümüklərin görüşmə nöqtəsi, oynaq. والفصل : واحد فصول السنة الشمسية وهي الربيع والصيف والخريف والشتاء –Fəsil: günəş ilinin fəsillərindən biri, bunlar bahar, yay, payız və qış. وأحد أجزاء الكتاب مما يندرج تحت الباب –Bölmə üzrə qruplanan kitabın hissələrindən biri. ويوم الفصل : يوم القيامة –Ayrılıq günü: qiyamət günü. والفصلة : علامة من علامات الترقيم –vergül: nöqtələmə işarəsi, والفصيل : ولد الناقة أو البقرة بعد فطامه وفصله عن أمه –süddən kəsilmiş inək və ya dəvə balası, والفصيلة –buğum, المفصليات (مفصلية كالحشرات والعناكب والعقارب) –buğumayaqlılar (hörümçək və əqrəb kimi həşəratlar sinfi).

مَفْصِلٌ/ مِفْصَل [مفرد]: ج مَفاصِلُ: ١ موضع ارتباط عظمين في الجسد أو أكثر، وتتمّ الحركة عادة به "مفصل الرُّكْبَةِ/الفخذ/الكتف".

Terminin təki مَفْصِلٌ/ مِفْصَل olaraq iki formadan və cəmi isə مَفاصِلُ-dir. 1.Bədəndə iki və daha çox sümüyün əlaqə yeri, oynaq. Hərəkət adətən "diz oynağı, bud oynağı və çiyin oynağı" tərəfindən yerinə yetirilir.

داء المفاصل: (طب): الرَّثْيَة، الرُّوماتيزم، ألم يحدث في مفاصل الجسم. –Artrit: (Tib.) Revmatizm, Bədənin oynaqlarında baş verən ağrı. "أحسّ بألم في مفاصل"–"oynaqlarında ağrı hiss etdi".

Beləliklə, sümük (skelet) sistemi tibb terminlərinin Azərbaycan və ərəb dillərində müqayisəli formada tədqiqi bir daha belə qənaətə gəlməyə əsas verir ki, həm Azərbaycan dilçiliyində, həm də ərəb dilçiliyində bu sistemə məxsus terminlərin əsasını fel köklərindən yaranan sözlər təşkil edir.

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə, III c., Bakı: Şərq-Qərb, 2006, 672 s.
2. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə, IV c., Bakı: Şərq-Qərb, 2006, 712 s.
3. Əhmədov B. Etimologiya lüğəti: Araşdırmalar, mülahizələr. Bakı: Altun kitab, 2015, 288 s.
4. Əyyuboğlu İ.Z. Türk dilinin etimoloji lüğəti. İstanbul: Sosyal yayınlar, 1988, 406 s.
5. Məmmədov A.Q. Tibbi biliklərin əsasları: Dərslik. Bakı: Təknur, 2012, 608 s.
6. ابن منظور، لسان العرب، بيروت: دار صادر، 4980 ص
7. أحمد مختار عمر. مُعجَمُ اللغةِ العربيةِ المعاصِرَةِ. ط 1، القاهرةُ: عَالمُ الكتب، 3368 ص.
8. جُبْرَان مَسْعُود. الرائد مُعْجَمٌ لُغَوِيٌّ عَصْرِيٌّ. بَيْرُوت: دارُ العلم للملايين، 1992 م، 912 ص.
9. مجيد الدين محمد بن يعقوب الفيروز آبادي. القاموسُ المُحِيطُ، القاهرةُ: دَارُ الحديث، 2008 م، 1800 ص.
10. المعجم الوسيطُ. القاهرةُ: مكتبةُ الشروق الدولية، 1093 ص.
11. المُنْجِدُ في اللغةِ و الأدَبِ وَ العُلُوم، ط 17، بيروت: المطبعة الكاثوليكية، 1908 م، 1016 ص.

AMEA Naxçıvan Bölməsi
E-mail: ***kubra.valiyeva@yahoo.com***

Kubra Valiyeva

LEXICAL-SEMANTIC FEATURES OF SOME MEDICAL TERMS BELONGING TO THE SKELETAL SYSTEM IN AZERBAIJANI AND ARABIC

One of the essential features of the body is movement. The interaction of the bones, joints, and muscles that make up the locomotor system is the basis for movement in the body.

The musculoskeletal system ensures the formation of the body's shape and structure, the protection of internal and external organs, as well as our ability to move. This system consists mainly of muscles, bones, and joints.

The skeletal system performs the support function, and the muscular system performs the motor function. As part of the musculoskeletal system, the skeletal system performs some crucial functions in the body, such as support, protection, hematopoiesis, and metabolism.

Medical terminology is the most relevant branch of linguistics that studies medical terms and is constantly evolving. In this regard, the dictionary of Azerbaijani and Arabic is rich in its national medical terms.

The article provides information about the skeletal system and explains several medical terms that belong to this field in Azerbaijani and Arabic.

The skeletal system of both languages includes medical terms in national lexemes.

Keywords: *term, medical terminology, bone, spine, joint, Azerbaijani, Arabic.*

Кубра Велиева

ЛЕКСИКО-СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ НЕКОТОРЫХ МЕДИЦИНСКИХ ТЕРМИНОВ, ОТНОСЯЩИХСЯ К КОСТНОЙ (СКЕЛЕТНОЙ) СИТЕМЕ В АЗЕРБАЙДЖАНСКОМ И АРАБСКОМ ЯЗЫКАХ

Одной из важнейших характеристик организма является движение. Для создания движения в организме ключевым является взаимодействие костей, суставов и мышц, которые образуют двигательную систему.

Опорно-двигательный аппарат (скелетно-мышечная система) обеспечивает формирование формы и строения тела, защиту внутренних и внешних органов, а также нашей способности двигаться. В этой системе в основном задействованы мышцы, кости и суставы.

Функцию опоры выполняет костная система, а функцию движения – мышечная система. Костная система в составе опорно-двигательного аппарата выполняет в организме ряд важных функций, таких как опорная, защитная, кроветворная, метаболическая.

Медицинская терминология – наиболее актуальная область науки лингвистики, изучающая медицинские термины и постоянно развивающаяся. В этом отношении словарный фонд азербайджанского и арабского языков богат своими национальными медицинскими терминами.

В статье представлена информация о костной (скелетной) системе, интерпретированы несколько медицинских терминов азербайджанского и арабского языков. Скелетная система обоих языков включает медицинские термины в национальных лексемах.

Ключевые слова: *термин, медицинская терминология, кость, позвоночник, сустав, азербайджанский, арабский.*

(AMEA-nın həqiqi üzvü Möhsün Nağısoylu tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 17.06.2021
Son variant 09.07.2021

ƏDƏBİYYAT VƏ FOLKLOR

UOT: 930.2

FƏRMAN XƏLİLOV

MÜZƏFFƏR NƏSİRLİNİN ŞƏXSİ ARXİVİ

XX əsrin 20-80-ci illərində Naxçıvan ədəbi mühitində öz dəst-xətti ilə tanınan və uzun illər Azərbaycan Yazıçılar İttifaqının Naxçıvan şöbəsinə rəhbərlik edən şair Müzəffər Nəsirlinin (1911-1980) zəngin şəxsi arxivi olmuşdur.

Vəfatından sonra oğlu və nəvəsi tərəfindən Naxçıvan MR Dövlət Arxivi və AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fonduna təhvil verilən həmin şəxsi arxivdə şairin tərcümeyi-hal sənədləri, elmi və bədii əsərlərinin əlyazma və makina variantları, əsərləri dərc olunan qəzet və jurnallar, göndərdiyi və aldığı məktublar, haqqında olan yazılar, fərdi və kollektiv fotoşəkilləri və digər materiallar saxlanılmaqdadır.

Məqalədə ilk dəfə olaraq M.Nəsirlinin şəxsi arxivinin təsviri verilir, burada qorunan müxtəlif sənəd və materialların özünə məxsus dəyərə və əhəmiyyətə malik olması əsaslandırılır.

Nəticə olaraq müəllif belə qənaətə gəlir ki, M.Nəsirlinin şəxsi arxivində qorunan materiallar təkcə şairin ömür yolu, ədəbi-ictimai fəaliyyəti, elmi və bədii irsinin öyrənilməsi üçün yox, həm də keçən əsrin 20-80-cı illərində Naxçıvanda ədəbi mühitin ümumi mənzərəsi haqqında müəyyən məlumatlar almaq üçün dəyərli mənbələrdir.

Açar sözlər: *Naxçıvan ədəbi mühiti, Müzəffər Nəsirli, şəxsi arxiv, Naxçıvan MR Dövlət Arxivi, AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu.*

Naxçıvan ədəbi mühitində hələ yeniyetmə yaşlarında imzası görünməyə başlayan şair Müzəffər Nəsirli 50 ildən artıq bir müddət ərzində Naxçıvanda ədəbiyyat, mədəniyyət və təhsil sahəsində səmərəli fəaliyyət göstərmişdir. Onun şəxsi arxivinin bir hissəsi vəfatından sonra keçən əsrin 80-ci illərində oğlu Namiq Nəsirli tərəfindən Naxçıvan Dövlət Arxivinə verilmişdir. 2021-ci ilin fevral ayında isə nəvəsi Anara Azər qızı Nəsirli şairin arxivinin qalan hissəsini AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fonduna hədiyyə etmişdir.

M.Nəsirlinin Naxçıvan Dövlət Arxivində və AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda qorunan şəxsi arxivindəki sənəd və materialları belə qruplaşdırmaq olar:

1. Tərcümeyi-hal sənədləri;
2. Elmi və bədii əsərlərinin makina variantları;
3. Şeirləri və məqalələri dərc olunan qəzet və jurnallar;
4. Göndərdiyi və aldığı məktublar;
5. Əlyazmaları;
6. Haqqında olan yazılar;
7. Fotoşəkillər;
8. Arxivində saxlanılan digər materiallar;

İndiyədək M.Nəsirlinin tərcümeyi-halı və bəzi əsrlərinin siyahısı müxtəlif biblioqrafiya və ensiklopediyalara daxil edilmişdir [1, s. 520-521; 2, s. 312, 320, 378, 422 541; 3, s. 677-678; 5, s. 193; 8, s. 10-12; 9, s. 282]. Şairin AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondundakı şəxsi arxivində saxlanılan bir sıra sənəd və materiallar həmin mənbələrdə verilən tərcümeyi-haldakı məlumatları təsdiq etmək baxımından müəyyən əhəmiyyətə malikdir. Onun 1937-ci ilin sentyabr ayından 1938-ci ilin fevral ayınadək Ermənistan K(b)P MK-nin yanında Kom-

munist Universitetində Azərbaycan dili müəllimi, 1938-ci ildən 23 iyun 1941-ci ilədək İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan sektorunda ədəbiyyat kabinetinin laborantı, müəllimi, 1945-ci ilin may ayından 1953-cü ilin sentyabr ayınadək C.Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutunda baş müəllim, qiyabi şöbə üzrə direktor müavini, dil-ədəbiyyat fakültəsinin dekanı, rus dili və ədəbiyyatı kafedrasının müdiri və elmi işlər üzrə direktor müavini işləməsinə və 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirakına və yaralanmasına aid müvafiq təşkilatlar tərəfindən verilən rəsmi arayış və əmrlərdən çıxarışlar bu qəbildəndir. Həmin arayış və əmrlər içərisində elələri də vardır ki, məhz onların vasitəsilə M.Nəsirlinin indiyədək mətbu yolla təqdim olunmuş tərcümeyi-halına düşməyən faktlar haqqında məlumat ala bilirik. Məsələn, bir arayışda qeyd olunur ki, M.Nəsirli 1928-1931-ci illərdə Naxçıvan məktəblərində müəllim işləmişdir. Müxtəlif illərdə Naxçıvan Şəhər Xalq Maarif Şöbəsinin müdiri olmuş P.Quliyev, Y.Ələkbərov və məktəb direktoru B.Zeynalovun imzaladığı əmr və arayışlardan isə aydın olur ki, o, 1954-1962-ci illərdə Naxçıvan şəhər 4 nömrəli məktəbdə tədris işləri üzrə direktor müavini və ədəbiyyat müəllimi, 1963-1964-cü dərs ilində isə Naxçıvan şəhər 1 nömrəli məktəbdə müəllim işləmişdir [10, qutu 3, qovluq 18, v. 10-11].

Naxçıvan Dövlət Arxivində M.Nəsirliyə aid şairin öz sağlığında yazılan və tərtib olunan başqa sənədlərə də rast gəlinir. Müxtəlif illərdə yazılan təqdimat və xasiyyətnamələr, 1971 və 1975-ci illərdə səkkizinci və doqquzuncu çağırış Naxçıvan MSSR Ali Sovetinin deputatı olarkən [9, s. 282] göstərdiyi fəaliyyətlə bağlı rəsmi məktub və arayışlar belə sənədlərdəndir.

Şairin şəxsi arxivində onun 1961-1979-cu illərdə məsul katib olduğu Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan şöbəsinin fəaliyyətinə dair də bir sıra sənədlər saxlanılmaqdadır.

M.Nəsirlinin şöbə adından "Şərq qapısı" qəzeti və "Ulduz" jurnalının redaksiyalarına, Azərbaycan KP Mərkəzi Komitəsi, Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin Təbliğat və Təşviqat Şöbəsi, Naxçıvan Şəhər Zəhmətkeş Deputatlar Soveti, Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyəti, Azərbaycan Yazıçılar İttifaqının Ədəbiyyat Fondu və Azərbaycan Radiosu Bədii Verilişlər redaksiyasına göndərdiyi, "Правда", "Молодёжь Азербайджана", "Литературный Азербайджан", "Литературная газета", "Kirpi" kimi qəzet və jurnalların redaksiyalarından, "Azərbaycan Dövlət Nəşriyyatı", "Gənclik", "Советский писатель" nəşriyyatlarından, Azərbaycan Yazıçılar İttifaqı, Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutu, İrəvan Dövlət Pedaqoji İnstitutu kimi elm və təhsil müəssisələrindən aldığı rəsmi məktublardan aydın olur ki, o, Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan şöbəsinin məsul katibi olduğu illərdə şöbə Naxçıvan şair və yazıçılarının əsərlərinin müxtəlif qəzet, jurnal, almanax və ayrıca kitab şəklində çap olunması, gənc ədəbi qüvvələrin yaradıcılığının istiqamətləndirilməsi, Naxçıvan ədəbi mühitində müxtəlif janrlarda meydana çıxan əsərlərin müzakirə edilməsi, Naxçıvan və Azərbaycanın ayrı-ayrı regionlarından dəvət olunmuş şair və yazıçılarla oxucuların görüşlərinin təşkil edilməsi, Azərbaycan və dünya yazıçılarının yubileylərinin keçirilməsi istiqamətində xeyli işlər görmüşdür.

Müxtəlif illərdə Naxçıvan şair və yazıçılarının əsərləri toplanan "Araz üzərində şəfəq" (1964), "Заря над Араксом" (1964), "Əlvan çiçəklər" (1966), "Naxçıvan nəğmələri" (1968), "Odlu ürəklər", (1972), "Arazın işıqları" (1974), "Огни над Араксом" (1974) kimi almanaxların hazırlanıb çapına nail olması da şöbənin uğurlu addımlarına misal göstərilə bilər.

M.Nəsirlinin şəxsi arxivində ayrı-ayrı şəxslərə yazdığı və onlardan aldığı məktublar və müxtəlif illərə aid teleqramların bir qismindən də onun rəhbərlik etdiyi şöbənin fəaliyyəti haqqında məlumatlar almaq mümkündür. Məsələn, götürək ədəbiyyatşünas Yəhya Seyidovun M.Nəsirliyə yazdığı və ondan aldığı məktubları. Y.Seyidov öz məktubunda yazır: "Bu gün

aldığım məlumata görə, may ayında (1972-ci ilin may ayı nəzərdə tutulur – F.X) Naxçıvan Yazıçılar İttifaqının səyyar plenumu keçiriləcəkdir. Bir sıra məsələlərlə yanaşı "Naxçıvan yazıçılarının yaradıcılığı" mövzusunda məruzə də olacaqdır və bu işi çox böyük etimad göstərərək mənə həvalə etmişlər. Düzü, sizin köməyiniz olmadan bu vəzifənin öhdəsindən layiqli gələ bilmərəm... Fikirləşirəm ki, məruzədə son beş ilin, daha dürüstü, 1967-1971-ci illərin məhsulunu əhatə etmək yaxşı olardı...

Müzəffər müəllim, ümid edirəm ki, mənim məktubumu cavabsız qoymaz və öz məsləhətlərinizlə mənə kömək edərsiniz" [7, iş 32, v. 1-2].

M.Nəsirli cavab məktubunda yazır: "Sizin arzunuzu yerinə yetirərək 1965-ci ildən bu günədək Naxçıvan yazıçılarının və şairlərinin yaratdıqları və dərc olunmuş şeir, hekayələrini, oynanılmış dram əsərlərini sizə təqdim edirəm" [7, iş, 32, v. 3].

Naxçıvan şair və yazıçılarının 5 il ərzində yazdığı əsərləri toplayıb bir yerə yığmaq çox vaxt aparan və çətin bir iş olsa da, göründüyü kimi M.Nəsirli belə bir ağır işin öhdəsindən layiqincə gələ bilmişdir. Bunun nəticəsidir ki, təxminən bir il sonra, yəni 1973-cü ilin iyun ayında Azərbaycan Yazıçılar İttifaqının Naxçıvanda keçirilən səyyar plenumunda Naxçıvan yazıçılarının yaradıcılığı haqqında Y.Seyidovun "Axtarış və yüksəliş yollarında" adlı məruzəsi çox uğurlu alınmışdır. Plenumun materialları "Ədəbiyyat və incəsənət" qəzetinin 16 iyun 1973-cü il tarixli nömrəsində çap olunmuşdur.

M.Nəsirlinin SSRİ və Azərbaycan Yazıçılar İttifaqının plenum və qurultaylarında iştirak etməsinə dair məlumatları da ona göndərilən məktub və teleqramlardan ala bilirik. M.Nəsirlinin şəxsi arxivində Süleyman Rüstəm, Osman Sarıvəlli, Əhməd Cəmil, Əli Vəliyev, Hüseyn Razi, Hüseyn Əzim, Ənvər Yusifoğlu, Nağı Nağıyev, Əli Tudə, Süleyman Vəliyev, Hüseyn İbrahimov, Kəmalə Ağayeva, Əbülfəz Naxçıvanlı, Seda Qədimova, İvan Tretyakov, Əli Səbri, Anatoli Yani, Məmməd Arif, Abbas Zamanov, Bəkir Nəbiyev, Lətif Hüseynzadə, Əli Xəlilov, Cəmşid Tağızadə, Nəcibə Hüseynova, Bayram Mehdiyev, Diana Nikolayevna kimi şair, yazıçı, jurnalist, tərcüməçi, alim və adi oxucuların, eyni zamanda SSRİ Yazıçılar İttifaqı, Azərbaycan, Türkmənistan, Tatarıstan, Özbəkistan, Gürcüstan Yazıçılar İttifaqı, Azərbaycan Dövlət Mətbuat Komitəsi, Naxçıvan Kənd Təsərrüfatı Texnikumu kimi təşkilat və təhsil müəssisələrinin əməkdaşlarının məktub, açıqca və teleqramları da qorunur.

Müxtəlif şəxslər tərəfindən M.Nəsirliyə göndərilən məktublar haqqında ətraflı şəkildə bəhs etməyə ehtiyac duymadığımız üçün onların bəzilərinin ümumi məzmunundan söz açmağı məqsədəuyğun hesab edirik. Məsələn, tanınmış Azərbaycan aktyoru Ə.Xəlilov 1922-ci ildə fəaliyyətə başlayan Naxçıvan Pedaqoji Texnikumu haqqında yazdığı məqalənin dərc etdirilməsinə kömək istəyir. L.Hüseynzadə anadan olmasının 70 illiyini təbrik edən şairə minnətdarlığını bildirir, Anatoli Yani şairə həsr etdiyi şeirini və onun "Araz üstə şəfəq" şerinin rus dilinə tərcümə etdiyi variantından bəhs edir və həmin şeirləri ona göndərir, professor B.Nəbiyev Nizami adına Ədəbiyyat İnstitutunun hazırladığı "Azərbaycan sovet ədəbiyyatı" kitabına daxil edilmək üçün şairdən tərcümeyi-halını və fotoşəklini istəyir, B.Mehdiyev şairdən "Azərbaycan dilinin orfoqrafiya lüğəti" və bir neçə bədii kitabı ona göndərməsini xahiş edir, C.Tağızadə hekayəsinin hazırlanan almanaxda görmək arzusunu ifadə edir, H.Razi və O.Sarıvəlli şairin çapa təqdim etdiyi şeirlərinin üzərində bir qədər işləməyə ehtiyac olduğunu onun diqqətinə çatdırır, S.Qədimova İrəvanda azərbaycanlıların ədəbi mühiti haqqında məlumat verir və bu ədəbi mühiti canlandırmaq üçün şairin köməyinə ehtiyac hiss olunduğunu dilə gətirir, oxucu N.Hüseynova yazır: "Mən indi Qubada yaşayıram. Ancaq sizi heç vaxt unutmuram. Sizin şerlərinizə harada rast gəlirəmsə, kəsib götürürəm" [7, iş 29, v. 6].

M.Nəsirliyə yazılan müxtəlif məzmunlu məktublar onun ədəbi və ictimai fəaliyyəti, yaradıcılıq qayğıları, diqqəti çəkən insani keyfiyyətləri, işinə məsuliyyəti, oxucularda yaratdığı təəssüratlar haqqında təsəvvür əldə etmək üçün dəyərli mənbələrdir.

M.Nəsirliyə göndərilən təbrik məktubları, açıqca və xüsusilə teleqramların (bunların sayı 70-ə çatır) sayı daha çoxdur. Sovet dövründə keçirilən müxtəlif dövlət səviyyəli bayramlar, yeni il və şairin 1971-ci ildə qeyd olunan 60 illik yubileyi münasibətilə göndərilən bu məktub, açıqca və teleqramlarda müəlliflərin ona ehtiramı və səmimi münasibəti öz əksini tapmışdır.

M.Nəsirlinin fəaliyyətini əhatə edən 1920-1980-ci illərdə Bakı, Naxçıvan və Azərbaycanın digər regionlarında sovet ideologiyasının tələblərinə cavab verən mərasimlərlə yanaşı, bu gün belə öz aktuallığını itirməyən və milli maraqlara uyğun gələn tədbirlər də keçirilirdi. M.Nəsirlinin adına yazılan və şəxsi arxivində saxlanılan xeyli dəvətnamə, proqram, mandat, vəsiqə və buraxılış vərəqələri bu tədbirlər haqqındakı məlumatları özündə hifz etməkdədir. Bunlar həm o dövrdəki Naxçıvanın elmi, ədəbi, mədəni və ictimai-siyasi ab-havası haqqında təsəvvür əldə etməyə, həm də M.Nəsirlinin yaradıcı bir şəxs və ictimai xadim kimi fəaliyyətini izləməyə imkan verir.

Həmin dəvətnamə, proqram, mandat, vəsiqə və buraxılış vərəqlərindən aydın olur ki, müxtəlif illərdə Bakıda Azərbaycan sovet yazıçılarının II (1954), III (1958), IV (1965), VI (1976) qurultayları, Məhəmməd Füzulinin vəfatının 400 illiyinə həsr edilmiş elmi sessiya (1958), Muxtar respublika təbliğatçılarının I toplanışı (1968), "Yazıçı, jurnalist, beşillik" mövzusuna həsr olunan plenum (1973), xalq yazıçıları Mehdi Hüseyn və Mirzə İbrahimovun anadan olmasının 60 (1969, 1971) İmadəddin Nəsiminin 600 (1973), C.Cabbarlı, S.Vurğun, S.Rüstəmin 70 (1969, 1976), Naxçıvanda Taras Şevçenkonun 150 (1954), Hüseyn Cavidin 80, (1963), Şota Rustavelinin 800, (1966), C.Məmmədquluzadənin 100 (1967), xalq artistləri Zəroş Həmzəyevanın 50 (1973), İ.Həmzəyevin 70 (1979) illiyi münasibəti ilə keçirilən təntənəli yubiley gecələri, Təbliğatçıların II respublika toplanışı (1969), muxtar respublika yaradıcı ziyalılarının müşavirəsi (1969), Naxçıvanda Ordubad günləri (1969), Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialı məzunlarının birinci buraxılış gecəsi (1971), "Şərq qapısı" qəzetinin birinci nömrəsinin çapdan çıxmasının 50 illiyinə həsr olunmuş təntənəli iclas (1972), Mətbuat günü (1973), Əmək qəhrəmanları ilə yaradıcı ziyalıların görüşü (1974), Naxçıvan sərhədçilərinin 50 illiyinə həsr edilmiş təntənəli gecə (1974), Naxçıvan Muxtar Respublikasının təşkil edilməsinin 50 illik yubileyi (1974), Zəhmətkeşlərin Azərbaycan sovet ədəbiyyatı günləri iştirakçıları nümayəndələri ilə görüşü (1975), Faşizm üzərində qələbənin 30 illiyi (1975), Xankəndində Naxçıvan günləri (1974), Moskvada keçirilmiş SSRİ yazıçılarının V qurultayı (1971), Respublika, vilayət Yazıçılar ittifaqlarının və SSRİ Yazıçılar İttifaqı ədəbi jurnalları baş redaktorlarının ümumittifaq müşavirəsi (1977) kimi tədbirlər keçirilmiş və M.Nəsirli bu tədbirlərdə iştirak etmişdir.

O, fəaliyyəti dövründə sovet ideologiyasının tələblərinə cavab verən tədbirlərə də dəvət olunmuşdur.

M.Nəsirlinin sağlığında aşağıdakı kitabları çap olunmuşdur: "Həyat haqqında mahnı" (İrəvan: Hayrethrat, 1938, 24 s.), "İşıq" (Naxçıvan mətbəəsi, 1940, 19 s.), "And" (Naxçıvan mətbəəsi, 1943, 16 s.), "Sivas sahillərində" (Naxçıvan mətbəəsi, 1945, 75 s.), "Qafqaz yollarında" (Naxçıvan mətbəəsi, 1952, 102 s.), "Mənim respublikam (Naxçıvan mətbəəsi, 1958, 32 s.), "Araz sahilində" (Bakı: Azərnəşr, 1962, 68 s.), "Laləli dağlar" (Bakı: Azərnəşr, 1965,

74 s.), "Yanar üfüqlər" (Bakı: Gənclik, 1968, 36 s.), Əsgər toqqası (Bakı: Gənclik, 1973, 33 s.), "İki ürək" (Bakı: Gənclik, 1974, 184 s.), "Qaynar bulaq" (Bakı: Yazıçı, 1978, 76 s.).

Bu kitablara şairin lirik, həmçinin bir sıra ictimai-siyasi mündəricəli şeirləri və müxtəlif poemaları daxil edilmişdir. Bundan başqa Naxçıvan Dövlət Arxivində onun şəxsi arxivindəki bəzi qovluqlarda "Biz gedirik", "Salam, Qız qalası", "Sadə vətəndaşdan", "Keşiyində dayanmışıq", "Sülh", "Müəllim düşüncələri", "Bahar duyğusu", "Ellər bayramı", "Xəncan", "Pambıqçı qızlar", "Alqış sənə doğma vətən", "Arpaçayı", "Dünyanı dəyişən əllər", "Vətən torpağı", "Əcəmi yadigarı", "Bir ovuc torpaq" və digər adlı şeirləri dərc olunan "Ədəbiyyat və incəsənət", "Kommunist", "Azərbaycan müəllimi", "Şərq qapısı" kimi qəzetlər də saxlanılır [6, iş 1-2].

Onun şəxsi arxivində həmin kitablarda və qəzetlərdə çap olunan şeirlərin və poemaların, eyni zamanda "Qönçabəyimin nəğməsi", "Dürdanə", "Ürək sevməyəndə" adlı dram əsərlərinin, "Məhəbbət təcəssümü" telepyesinin, həmçinin rus dilinə tərcümə olunan şeirlərinin demək olar ki, hamısının cildlənmiş və ayrıca qovluqlarda toplanan makina variantları saxlanılır. Bu variantların iki mühüm əhəmiyyəti vardır. Birincisi, burada müəllifin üzərində müəyyən düzəlişlər apardığı əsərlər vardır ki, onlar şairin yaradıcılıq prosesi ilə daha yaxından tanış olmağa imkan verir. İkincisi, makina variantlarında şairin elə əsərlərinə rast gəlmək olar ki, onlar yuxarıda adını çəkdiyimiz qəzet və kitabların heç birində yoxdur. Şübhəsiz ki, belə əsərlər M.Nəsirli tədqiqatçıları üçün istinad ediləcək ilk yeni mənbə ola bilər.

M.Nəsirli tərcümeyi-hal xarakterli bir yazısında qeyd edir: "Mən həm də ədəbiyyatşünas kimi fəaliyyət göstərirəm" [7, iş 33, v. 8]. "Kommunist", "Ədəbiyyat və incəsənət", "Azərbaycan gəncləri", "Azərbaycan müəllimi", "Şərq qapısı", "Yeni Ordubad" qəzetlərində, "Ədəbi Ermənistan", "Azərbaycan" jurnallarında, M.F.Axundov, Aşıq Ələsgər, C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Səhhət, Mirzə Cəlil Şürbi S.Ağamalıoğlu, H.Cavid, S.S.Axundov, M.Hüseyn, Qönçəbəyim, H.Razi, Musa Cəlil, A.S.Puşkin, M.Y.Lermantov, M.Qorki, V.Mayakovski, A.İ.Kuprin, V.V.Vişneviski, K.F.Rıleyev, İ.A.Bunin, L.N.Tolstoy, T.Şevçenko kimi şair və yazıçılar haqqında məqalələri dərc olunan qəzet və jurnalların, yaxud onların makina variantlarının şairin şəxsi arxivində mühafizə edilməsi bu fikri tam təsdiq edir.

M.Nəsirlinin 1973-1974-cü illərdə qələmə aldığı 150 makina səhifəsindən ibarət olan "Sovet hakimiyyəti illərində Naxçıvanda ədəbi həyat" adlı əsərini isə ədəbiyyatşünas səriştəsi ilə yazılmış dəyərli bir kitab hesab etmək olar. Bu əsərdə Naxçıvanda ədəbi mühitin 50 illik (1924-1974) inkişaf yolu araşdırılır. Əsərdə müəllif yaddaşına, həmçinin konkret fakt və məlumatlara əsaslanaraq geniş təhlillər aparmış və ilk dəfə olaraq Naxçıvanda yarım əsri əhatə edən bir dövrün ədəbi həyatını mühüm parametrləri ilə birlikdə sistemli şəkildə tədqiq etməyə nail olmuşdur.

M.Nəsirlinin şəxsi arxivində ona məxsus olan əlyazmalar da saxlanılır. Bu əlyazmaların əksəriyyəti ərəb, az qismi isə kiril əlifbasındadır. Onlar tək-tək vərəqlərdə və kiçik qeyd dəftərçələrindədir. Bu əlyazmalarının bir qismi şairin şeirlərindən, bəzisi müxtəlif şairlərin həyat və yaradıcılığı haqqında icmallardan, digərləri isə yaddaş qeydlərindən ibarətdir. Şairin şeirlərinin əlyazmaları əsərlərinin gələcək nəşrlərinin hazırlanmasında tərtibçilər üçün tekstoloji baxımdan dəyərli mənbə ola bilər.

M.Nəsirlinin sağlığında və vəfatından sonra həyatı, yaradıcılığı, ədəbi-ictimai fəaliyyəti haqqında bir sıra məqalələr yazılmış, kitab və müxtəlif yazılarının adları ayrı-ayrı biblioqrafiyalarda öz əksini tapmışdır. Şəxsi arxivindəki materiallardan aydın olur ki, 1977-ci ilədək onun haqqında Yavuz Axundovun "Şairin həyat yolu", Murtuz Bağırovun "Ürəklərdə məşəl",

Həsən Elsevərin "Yanar ürəklər", İzzət Maqsudovun "Araz sahilində", İbrahim Mollayevin "Əlvan çiçəklər", Malik Muradovun "Naxçıvan torpağının töhfələri", Bəkir Nəbiyevin "Sənətkarlıq məsələlərinə diqqəi artırmalı", Yəhya Seyidovun "Axtarış və yüksəliş yollarında", Cavad Cavadlının "Sən həmişə müəllimsən" məqalələri, müstəqillik illərində isə professor H.Həşimlinin "Vətənimizin tarixini, təbii gözəlliklərini, vəsf edən ədib – Müzəffər Nəsirli", filologiya üzrə fəlsəfə doktoru S.Surənin "Naxçıvanda mətbuat və ədəbi mühit: "Şərq qapısı" qəzeti mədəni inkişafın güzgüsü kimi", jurnalist S.Canbaxşiyevin "Naxçıvan ədəbi mühitinin Müzəffər Nəsrlisi", arxiv işçisi Z.İsmayılovanın "Ədəbiyyatımızda böyük xidmətlər olan şəxs" adlı yazıları oxuculara təqdim olunmuşdur.

M.Nəsirlinin şəxsi arxivində Naxçıvanda və Bakıda çəkilən fotoşəkillər də saxlanılır. Onun hərbi formada, tribunadan çıxış edərkən və adi halda tək, qələm dostları Hüseyn Əzim, Hüseyn Razi, Hüseyn İbrahimov, Əhməd Mahmud, Əlyar Yusifli, Həsən Elsevər Adil Qasımov, Kəmalə Ağayeva, vaxtilə Naxçıvanda fəaliyyət göstərən ədəbiyyat cəmiyyətinin üzvlərindən Əsgər Kəngərli, Səkinə Rzalı, Əyyub Abbasov, Vahab Həsənzadə, Məşədi Babayev, Molla Mahmud Çakər, Abbas Gülməmmədov, Nemət Nəim ilə birlikdə və müxtəlif tədbirlərdə, Bakıda Neft Daşlarında, Azərbaycan yazıçılarının III qurultayı nümayəndələrinin bir qrupu, həmçinin Süleyman Rüstəm və Hüseyn Razi ilə birlikdə çəkilmiş fotoşəkilləri müəyyən tarixi əhəmiyyətə malikdir.

M.Nəsirlinin şəxsi arxivində saxlanılan digər materiallar da dəyərli və əhəmiyyətlidir. Bunlardan biri C.Məmmədquluzadənin müasiri və dostu, dövrünün tanınmış pedaqoqu, şair Mirzə Cəlil Şürbinin (1874-1915) ərəb əlifbası ilə 20×30 ölçülü tək-tək vərəqlərə yazılmış 16 qəzəlidir. Hər vərəqin aşağıdan sağ küncündə yazılan "Köçürən Ağayev Ağa Rza oğlu. Naxçıvan şəhəri" sözlərindən aydın olur ki, bunlar avtoqraf deyil. Hələlik tam mətni heç yerdə çap olunmayan həmin qəzəllərin bəzi beytlərindən M.Nəsirlinin [11, s. 84-90] və akademik İ.Həbibbəylinin [4, s. 311-312] Mirzə Cəlil Şürbiyə həsr etdikləri məqalələrində istifadə olunmuşdur.

M.Nəsirlinin şəxsi arxivində saxlanılan dəyərli materiallardan biri də Tağı Nağıyevin naşirliyi, Cəfər Bünyadzadənin mühərrirliyi ilə Bakıda Azərbaycan dilində çıxan həftəlik "Tuti" jurnalının 1915-1917-ci illərə aid olan 30 nömrəsidir.

"Kommunist" qəzetinin Əbülqasım Firdovsinin 1000 illik yubileyinə həsr olunan 28 sentyabr 1934-cü il nömrəsi və "Советский Азербайджан" qəzetinin RSFSR-in Azərbaycanda keçirilən ədəbiyyat və incəsənət günlərinə həsr olunmuş 28 sentyabr 1934-cü il tarixli xüsusi nömrəsi də şairin arxivində saxlanılır.

M.Nəsirlinin şəxsi arxivində qorunan materiallar təkcə şairin ömür yolu, ədəbi-ictimai fəaliyyəti, elmi və bədii irsinin öyrənilməsi üçün yox, həm də keçən əsrin 20-80-cı illərində Naxçıvanda ədəbi mühitin ümumi mənzərəsi haqqında müəyyən məlumatlar almaq üçün dəyərli mənbələrdir.

ƏDƏBİYYAT

1. Axundov N., Tağıyev R. Azərbaycan sovet ədəbiyyatşünaslığı. Biblioqrafiya (1920-1975). Bakı: Elm, 1983, 944 s.
2. Бабаев Г. Межнациональные связи Азербайджанской литературы. Библиография. Баку: Элм, 1978, 640 s.

3. Əhmədov T. Azərbaycan Yazıçıları (XIX-XX yüzilliklərdə): Ensiklopedik məlumat kitabı. Bakı: Nurlar, 2011, 1056 s.
4. Həbibbəyli İ. Mirzə Cəlil Şürbi və ya lkinci Mirzə Cəlil / Həbibbəyli İ. Nuhçıxandan Naxçıvana. Bakı: Elm və təhsil, 2015, 846 s.
5. Müzəffər Nəsirli / Naxçıvan ensiklopediyası: 2 cilddə. II c., Naxçıvan, 2005, 379 s.
6. Naxçivan MRDA: f. 578, siy. 1, iş 1-205.
7. Naxçivan MRDA: f. 578, siy. 11.
8. Naxçıvan yazıçıları: Biblioqrafiya / Tərtib edəni M.Bağırov. Bakı, 1977, 74 s.
9. Naxçıvanda seçkilərin tarixi (1937-2002): Ensiklopedik toplu. Bakı: Qanun, 2003, 564 s., s. 282.
10. Naxçıvanın elm, mədəniyyət, ədəbiyyat və maarif xadimlərinin şəxsi arxivi. Müzəffər Nəsirli. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu: qutu 2-3, qovluq 1-31.
11. Nəsirli M. Mirzə Cəlil Şürbi / Cəlil Məmmədquluzadənin naxçıvanlı müasirləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1967, s. 84-90.

AMEA Naxçıvan Bölməsi
E-mail: ***fermanhalilov@yahoo.com***

Farman Khalilov

MUZAFFAR NASIRLI'S ARCHIVE

In the 20-80s of 20th century, the poet Muzaffar Nasirli (1911-1980), known in the writer environment of Nakhchivan by his autograph and headed the Nakhchivan Branch of the Union of Writers of Azerbaijan for many years, had a rich personal archive.

After his death, documents of the poet's biography, manuscripts and machine versions of scientific and artistic works, newspapers and magazines which published his works, letters sent and received, articles about him, individual and collective photos, and other materials are kept in this personal archive handed over by his son and grandson to the Nakhchivan State Archive and the Manuscripts Fund of Nakhchivan.

For the first time, the paper describes M.Nasirli's archive, arguing that the various documents and materials preserved are valuable and essential.

As a result, the author concludes that the materials preserved in M. Nasirli's archive are not only for the study of the poet's life, literary and social activities, scientific and artistic heritage, but also valuable sources for obtaining information on the general picture of the writer environment in Nakhchivan in 20-the 80s of the last century.

Keywords: *Nakhchivan writer environment, Muzaffar Nasirli, personal archive, State Archive of Nakhchivan AR, Manuscripts Fund of Nakhchivan Branch of ANAS.*

Фарман Халилов

ЛИЧНЫЙ АРХИВ МУЗАФФАРА НАСИРЛИ

В 20-80-х годах XX века в литературной среде Нахчывана был богатейший личный архив поэта Музаффара Насирли (1911-1980), который был известен своим творчеством и долгие годы возглавлял Нахчыванское отделение Союза писателей Азербайджана.

В этом личном архиве, переданном после его смерти сыном и внуком в Государственный архив Нахчыванской АР и Фонд рукописей Нахчыванского отделения НАНА, хранятся биографические документы поэта, рукописные и машинописные варианты его научных и художественных произведений, газеты и журналы, в которых были опубликованы его произведения, присланные и полученные им письма, личные и коллективные фотографии и другие материалы.

Впервые в статье дается описание личного архива М.Насирли, обосновывается, что различные сохранившиеся документы и материалы имеют свою ценность и значение.

В заключение автор приходит к выводу, что материалы, хранящиеся в личном архиве М. Насирли, являются ценными источниками не только для изучения жизненного пути поэта, его литературно-общественной деятельности, научного и литературного наследия, но и для получения определенных сведений об общей картине литературной среды в Нахчыване в 20-80-е годы прошлого века.

Ключевые слова: *нахчыванская литературная среда, Музаффар Насирли, личный архив, Государственный архив Нахчыванской АР, Фонд рукописей Нахчыванского отделения НАНА.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant: 23.07.2021
Son variant: 18.08.2021

UOT 82.02

RAMİZ QASIMOV

CƏLİL MƏMMƏDQULUZADƏ REALİZMİNİN POETİKASINDAKI BƏZİ OBRAZLARIN BƏDİİ-ESTETİK XÜSUSİYYƏTLƏRİ HAQQINDA

Məqalədə Azərbaycan tənqidi realizminin banisi Cəlil Məmmədquluzadənin yaradıcılığında yer almış xarakterlər və metaforik obrazlardan bəhs olunur. Qeyd edilir ki, bu cür obrazlar tənqidi realist əsərlərdə xüsusi bədii-estetik məna daşıyır. Azərbaycan tənqidi realizminin poetikasında bədii dil xüsusi struktural, ideya-estetik əhəmiyyət kəsb etmişdir. Məcazi və simvolik əhəmiyyət kəsb edən bədii obrazların yaradılması da əhəmiyyətli idi. Görkəmli tənqidi realist əsərlər ustadı C.Məmmədquluzadə çox maraqlı obrazlar yaratmışdır. "Danabaş kəndinin əhvalatları" əsərində uzunqulaq, dəyənək, digər əsərlərində yer alan şallaq, "Usta Zeynal" əsərindəki axur, "Yan tütəyi" əsərindəki yan tütəyi, "Xanın təsbehi" əsərindəki təsbeh, "İranda hürriyyət" əsərində qarpız, "Şeytana cavab" felyetonunda şeytan və başqaları metaforik-simvolik obrazlar etibarilə çox orijinaldırlar. Bu obrazların hər birinin də daşıdığı xüsusi məna yükü, bədii-estetik məqsədi və mahiyyəti var.

Açar sözlər: *Cəlil Məmmədquluzadə, poetika, tənqidi realizm, metaforik obrazlar.*

Məlum olduğu kimi, tənqidi realizmin poetikasında başqa ədəbi cərəyanlardan fərqli olaraq bədii əsərin strukturuna özünəməxsus yanaşma və həssas münasibət mövcud olmuşdur. Romantizmdən fərqli olaraq tənqidi realizm bədii əsərin struktur və detallarına həssaslıqla yanaşır, konkret məqsəd və ideya üçün məna yükü verir. Bədii əsərə ideoloji-tərbiyəvi tezisdən yanaşan tənqidi realistlər üçün əsərin hər bir hissəsi bədii-estetik əhəmiyyət daşıyırdı. Vaxtilə Cəlil Məmmədquluzadə özü də bu barədə bəhs edərkən yazırdı ki: "Amma biz bilmirik ki, o bir para mətləbləri yazmasaq, dəxi biz nə yazaq?! Hər yazıçının bir mətləbi var, yoxsa bu işlər bihudə deyil..." [7, s. 511]. Çünki milli azadlıq və oyanış illərində xalqı oyanışa dəvət edən Cəlil Məmmədquluzadə "müasir ədəbiyyatı da eyni istiqamətdə inkişaf etdirməyi, ona inqilabi-demokratik məzmun verməyi irəli sürür və ədəbiyyatın ideyalılığı məsələsini bu mövqedən həll edirdi" [10, s. 176]. İnsanların oyanışı, haqq-hüquq bərabərliyinə sahib olması, əsrin tələblərinə uyğun inkişaf xüsusiyyətlərinə, elmə, maarifə sahiblənməsi və s. uğrunda tənqidi realizm mücadilə aparırdı və bədii ədəbiyyatı da öz mübarizə vasitəsinə çevirirdi.

Tənqidi realizm "ədəbiyyata ...həyatdan, müəyyən təbəqənin həyatından, məişətindən, canlı insan, tip və obrazlarının içərisindən çıxıb yüksəlir..." [9, s. 163]. Tənqidi realizmin poetikasında, bədii əsərlərin strukturunda müxtəlif tipikləşdirilmiş, simvolik, hətta metaforik obrazlardan istifadə edilməsi geniş hal alan bir məsələ idi. Tənqidi realist əsərlərdə nəinki insan obrazları, mükəmməl xarakterlər yaradılır, həmçinin tarixi, lokal şəraiti daha konkret və canlı təsvir üçün həyat və məişət şəraiti, konkret əşyalar təsvir edilir, ictimai mühitin konkret vəziyyətini təsvir etməyə imkan verən tənqidi-simvolik və metaforik obrazlar yer alırdı. Bu məsələdə tənqidi realizmin banisi və bayraqdarı Cəlil Məmmədquluzadənin özünəməxsus və daha kamil yaradıcılıq tərzi var idi. Bəzi mənbələrdə yer aldığı və həmçinin bizim tədqiqatlarımıza görə, böyük ədibin "Danabaş kəndinin əhvalatları" povestində uzunqulaq, dəyənək, o cümlədən bir sıra pyes və əsərlərində yer alan şallaq, "Xanın təsbehi" əsərində təsbeh, "Yan tütəyi" əsərində yan tütəyi, "Anamın kitabı" əsərində kitab, "İranda hürriyyət" əsərində Pərinisənin yuxusu və orada yer alan qarpız, "Qurbanəli bəy" hekayəsində at axuru, "Poçt qutusu"nda poçt qutusu və b. özünün fikir-məna ifadəliliyi baxımından olduqca böyük əhə-

miyyət kəsb edir. Bu mənada tənqidi realizm məhz onunla fərqlənir və səciyyələnirdi ki, xüsusilə Azərbaycan tənqidi realistləri məhz milli oyanış dövrü kimi səciyyələndirilən bir mərhələdə xalqın milli oyanışı və inkişafı naminə bədii əsərlər qarşısında ciddi tələblər qoyur, əsərdən yüksək ideyalılıq, konkret məqsədlər tələb edirdilər. Tənqidi realistlər üçün "mövcud quruluşu dəyişmək, xalqı milli istiqlala çatdırmaq əsas strateji məqsəd idi" [1, s. 264]. Bu mənada Azərbaycan tənqidi realizmində bədii əsərin strukturu, detalları, dili və sairəyə həssas və ciddi yanaşma mövcud idi. Bu baxımdan əsərdə bədii dil, o cümlədən cümlə sintaksisi, leksik-semantik tərkib olduqca əhəmiyyətli rol oynayır, hətta əsərdəki bir sıra əşya obrazları və hadisələrə də bədii-estetik don, əhəmiyyət geydirirdilər. Tənqidi realist əsərlərdə obrazlar və ya bədii detallar adından tutmuş mahiyyətinə qədər ciddi tənqidi mahiyyət kəsb edir, əsərin ideya-fikir qaynağına güc qatırdı. Fikrimizcə, tənqidi realist əsərlərdə rast gəldiyimiz uzunqulaq, dəyənək, şallaq, təsbeh, yantütəyi, Danabaş kəndi, Veyilabad və b. bədii detallar ciddi ədəbi-estetik səciyyə qazanırdı. Mirzə Cəlil bu kimi detallarla təkcə mövcud inzibati-siyasi sistemin tarixi taleyinin həll olunma zamanını deyil, həm də artıq çoxdan yolunu azmış, xalq kütləsini ən mənfur köləliyə və istismara məcbur edən, bu azmış kimi özü də olmazın alçaqlıqlara əl atan, insanları inamından sui-istifadə edib onları müxtəlif "pul tələsinə" salan dini-şəri idarə üsulu və ruhani hakimiyyətinin tarixi taleyinin həll olunma zamanını da elan edirdi. Çünki bu hadisələrdə hər iki ictimai təsisatın iç üzü ifşa olunaraq tənqid olunurdu. Ədib ən incə detallarla hər bir məmuru və yardımçı əşyanı ictimai müəssisənin, diktatura şəraiti, zorakı idarəçilik və cəhalət mühitinin simvoluna çevirir və tənqid atəşinə tuturdu. Ədibin böyük ustalıqla təsvir etdiyi Qazı obrazı da belə obrazlardan biri idi. "Danabaş kəndinin əhvalatları" povestindəki Qazı obrazı öz səciyyəsilə diqqəti cəlb edir. Çünki tənqidi realistlər avam, sadə insanların geridə, köləlik və hər cür əsarət içərisində qalmalarının səbəblərinə xüsusi həssaslıqla yanaşırdılar. Din xadimləri və şəriət idarəçiliyi bu mənəvi əsarətin ən ağır səbəbi kimi təqdim edilirdi. Dini-şəri əyinti və idarəçilikdəki nöqsanları təsvir və təqdim etmək, yazıçı məqsədini ifadə etmək baxımından Qazı obrazı böyük məna kəsb edirdi. Fikrimizcə, görkəmli ədib Qazı obrazının təsvirinə xüsusi yanaşma və məqsəd göstərərək onun təsvirindən tutmuş davranışına qədər böyük tənqidi məna vermişdir: "Bir az keçdi, bir qoca kişi beli bükülmüş haman dar yoldan çıxıb sol əli cibində və sağ əli gözlərinin üstə..." [6, s. 54]. Göründüyü kimi, ədibin təsviri olduqca maraqlı təsir bağışlayır və hər işarəsində bir mətnaltı məna, bir eyham yer alır. Fikrimizcə, "beli bükülmüş" ifadəsindən anlamaq olar ki, qoca Şərqi monolit həyat tərzi içərisində çürütmüş, öz ehkam və doğmaları ilə fərdi düşüncə və şüurları məhv etmiş din və şəriətin hökmranlığının sütunlarının yıxılmasına, artıq vaxtının keçməsinə olan bir işarə və eyham kəsb edir. Bu obraz Allaha lənət qazandırılan bir dövrdə dini-şəri idarəçiliyin ölüm fərmanının elan olunması mənasını ifadə edir. Qazının "sol əlinin cibində olması" "pulunu ver, nə istəyirsən eləyim" xarakterinə malik olmasını işarələndirir. Əlin cibdə olması dövrə uyğun olaraq rüşvətxorluq və pulgirliyə nişanədir ki, qazının vərdiş olunmuş davranışına çevrilib və ədib də məhz bunu təqdim etmək məqsədi daşıyıb. "Sağ əli gözünün üstə" olması isə qazının hər cür işi görməyə, istənilən təklifi qəbul etməyə hazır olduğuna, xidmətkar və "üzüyolalığa" sahib olmasına eyhamdır. Bu davranışlar bir vərdiş olaraq qazının simasında verilməklə onun xarakteri - necə adam, necə din xadimi olması haqqında kifayət qədər tanışlıq məlumatı verir ki, buna da ədib böyük ustalıqla nail ola bilib. Boşuna deyil ki, Xudayar da onun haqqında "pəs görükən budur ki, qazı lotudu və yaxşı adamdı. Görükür ki, dərdmənddi" [6, s. 85], - deyə təsdiq verir və bütün bunlar qazının

timsalında şəriət qismində haqq müdafiəçisi və Allah adamının hansı əmələ sahib olmasının təəssüratını yaratmağa kifayət edir. Doğrudan da, Qazı ilə Xudayar şəriətlə inzibatçılığın timsalında "az-az ittifaq düşən" çətin işlərin həlli yolunda maraqlar və tamahlar çərçivəsində işbirliyinə girirlər. Çünki Qazı ağa elə bir "lotu adamdı" ki, şəriəti barmağına dolamaqda aciz deyil. Qazı ağa həm də yüksək peşə hissiyyatı ilə "Xeymənin altındakı nədir, qadan alım" [I c., s. 54] deyəndə, anlaşılır ki, "çox dərdmənd və arif adamdı" [I c., s. 85]. O, yaxşı bilir ki, onun qapısını döyən hər kəs hər halda "ittifaq düşən" bir iş üçün gəlibdir, özü də əliboş – şirinliksiz gəlməyibdir, ona görə də xeymənin altı dikdirsə, altında bir şey var deməkdir. "Qazının otağı yekə, uca və ağ otaqdı. Bir otağın otuz yeddi taxça və tağı var və heç birisi də boş deyil" [I c., s. 54], – deyən ədib bu cür "arif və aqil" olan Qazının hansı yolla var-dövlət sahibi olmasının səbəblərini göstərmişdir. Qazı ilə Xudayar katdanın "alçaq səslə" danışmasını ədib bir ədəbi-bədii detal olaraq xalqın başının üstündən, daldada qanını soran iki sosial müəssisənin gizli vədləşməsinin ifşa detalı kimi təqdim edir. Qeyd edilən kimi, xalqdan uzaq, daldalarda əyri, yalan, xain sövdələşmələri təqdim edən ədib bu tiplərin iyrənc içlərini də açıb tökmüş, xüsusilə, xalqın inam bəslədiyi dini təsisat nümayəndələrinin lənətə gəlmiş əməllərini açıq göstərməklə oyanış siqnalı vermək istəmişdir. Xudayarla Qazının daldada alçaq səslə sövdələşməsini görkəmli ədib onların xalqdan uzaq, gizlin şəkildə xalqa qurulan xain, alçaq niyyətinin, işbirliyi və xəyanətinin göstəricisi kimi təqdim etmişdir. Qazının bu detaldakı ikinci vəziyyəti də elə bil bu sirrin məxfi qalmasına bir işarədir. Bu iki "mikrob" bütün Danabaşdakı faciələri yaradan "parazit" və "həşəratlar" kimi təqdim edilmişdir. Ədib özünün bir çox felyetonlarında belə qazı, din xadimi obrazları yaratmışdır.

Böyük ustad C.Məmmədquluzadənin bədii yaradıcılığında müşahidə etdiyimiz və öz mahiyyəti, məna yükü ilə diqqətimizi cəlb edən metaforik-məcazi obrazlar sistemində yer alan ən vacib detallardan biri, fikrimizcə, uzunqulaqdır. "Əhvalatlar"ın poetikasına nəzər salan prof. K.Əliyev haqlı olaraq yazırdı: ""*...Əhvalatlar"ın bədii mətni ilə cəmiyyət və gerçəklik, eyni zamanda mətndaxili struktur vahidlər arasında gözlənilməz və gözəgörünməz harmoniya var. Əsərdə mövcud cəmiyyətin eybəcərliklərini göstərmək, insan taleyinin gizli tərəflərini aşkara çıxarmaq, əzab və işgəncənin qurtaracağını səbirlə gözləmək, haqq və ədalətin intizarında olmaq, eyni zamanda mətnin zəncirvarı əlaqələrini təmin etmək, mətnin ifadə mənzərəsi ilə fikir və ideya arasındakı incə bağları qurmaq – hər şey, hər şey eşşəkdən və eşşəklə başlayır"* [5].. Əsərdə "eşşəyin itməkliyi" süjetinin də vacib, başlıca əhəmiyyət kəsb etməsi dəfələrlə qeyd edilmişdir [2; 3]. Bir çox tədqiqatlarda [11; 13] gördüyümüz kimi, uzunqulaq və ya eşşək obrazı klassik Azərbaycan və ümumən Şərq ədəbiyyatında, xüsusilə folklorumuzda və başlıca olaraq lətifə yaradıcılığında xüsusi bir məna yükü ilə yer almışdır. Bu mənbələrdə uzunqulaq bir obraz olaraq bədii-estetik cəhətdən "müdriklik, səbir" mənalarını ifadə etmişdir. Molla Nəsrəddin lətifələrində də baş qəhrəman xalq müdriki Molla Nəsrəddinin bəzi hallarda müdrikliyi, bəzi hallarda avamlığı mənalandıran uzunqulağı hər zaman ona yoldaşlıq etmişdir. Maraqlıdır ki, lətifələrdə Molla Nəsrəddin hər zaman sevimli heyvanı eşşəyin üzərində də tərs oturmaqla simvollaşmışdır. Əlbəttə, bunun da ciddi tənqidi düşüncə ifadə edən mənası mövcuddur. Bu obraz sonrakı dönəmlərdə daha çox tənqidi realizmin poetikasında rast gəlinmiş və fikrimizcə, səbri, təvəkkülü, avamlığı və köhnəliyi, daha çox isə köləliyi mənalandırmışdır. "Danabaş kəndinin əhvalatları" əsərinin ilk variantında "Eşşəyin itməkliyi" də əslində, bizim fikrimizcə, bu cəhətdən xüsusi bədii-estetik məna, məzmun kəsb etmişdir. Çünki əsərdə zülm və sitəm etibarilə fərqli bir məkan təşkil edən Danabaşda Məhəmmədhəsən əmi kimi kişilər səbir və təvəkküllə davranır, hər cür zülm, zorakılıq

və fərmayişə boyun əyirlər. Əsərdə başlıca məqsəd Məhəmmədhəsən əmi kimi xalqın və mübarizənin hərəkətverici qüvvəsi olaraq təsvir tapan "kiçik" adamın səbir və təvəkküldən yaxa qurtararaq ictimai fəallığa gəlməsi və şəxsiyyətini, haqq və hüququnu tapması məqsədi, idealı yer alıb. Məhəmmədhəsən əmi isə həm eşşəyinin itməsi və tapılması hadisəsini, həm də ciyərparası – oğlu Əhmədin və həyat yoldaşı İzzətin ölümünü Allahın işi qəbul edərək yenə də səbir və təvəkküllə həyatına davam edir.

Böyük ədibin əsərlərində yer alan və xüsusi tənqidi-simvolik məna ifadə edən metaforik obrazlar arasında təsbeh də yer alır ("Xanın təsbehi"). O təsbeh ki, Nəzərəli xanın təsbehi idi, bu təsbeh o təsbeh idi ki, "... iki il bundan qabaq xanın fərmayişinə ağ olan dəyirmançı Mehdini ... qayadan dərəyə elə tulladı ki, uşaqları heç ölüsünü də tapmadılar. Bu haman təsbehdir ki, Orucəlinin evini yandırdı, uşaqlarını çölə dağıtdı" [6, s. 235]. Zülmün, zorbazorluğun, hakim idarəçiliyin simvolu olaraq çıxış edən metaforik obrazlardan biri kimi dəyənək və şallaqdan sonra təsbeh gəlir. "Pəri arvad astanada ağzını yaşmaqla büküb dəxi dinməz-söyləməz qulaq asırdı" [6, s. 235]. Beləliklə də, Pəri arvad istibdad zülmünün nələr törətməyə qabil olduğunu təxmin edərək öz inadını qırmış, "Allahın tələb etdiyi yol ilə" Mirzə Sadıq Münşinin təklifini qəbul etmək məcburiyyətində qalmışdı. Allahdan başqa bir kimsənəsi olmayan Pəri arvad ayaq altında əzilib canını tapşırmaqdan, rüsvay-caiz olmaqdan, uşaqlarını başsız qoymaqdan qorxmuşdu. Namusu, könlü istəməsə də, siğə edilməyə məcbur edilmişdi. Bu mənada, fikrimizcə, görkəmli ədib təsbehə də diktatura və zülmün simvolik obrazı olaraq yanaşmışdır.

İdarəçilikdəki özbaşınalıqları, kef havasını eyham edən obrazlar arasında yan tütəyi də ("Yan tütəyi") vardır. Diktaturanı və məmur özbaşınalığını göstərmək baxımından bu əsərin və bu obrazın özünəməxsus əhəmiyyəti var. Yenicə yan tütəyi çalmağı öyrənən bir məmurun – Mirzə Abbasın səhvi, kefi üzündən yaranan yanlışlıq zorbazor idarəçiliyin qəti qərarı olaraq yerli məmurlar və camaat tərəfindən yerinə gətirələrək böyük bir tənqidi gülüş ortaya çıxarır. Rus kazaklarına yerlərini dəyişmək üçün 54 ədəd araba lazım olduğu halda fikri yan tütəyi yanında qalan dilmanc Mirzə Abbasın səhvindən məktubda araba əvəzinə yan tütəyi yazılaraq gülüş və kədər birgəliyilə faciəvi nəticə ortaya çıxarır. Gərməçataq kəndinin camaatı da elə bu məmur kefinin üzündən "yan tütəyi" axtarmaq dərdinə mübtəla edilmiş, heç nədən zülm çəkməli olmuşdu. Bu baxımdan, fikrimizcə, yan tütəyi adı və mahiyyəti etibarilə diktatura şəraitində idarəçilikdəki özbaşınalığı ifadə etmək baxımından uğurla seçilmişdir.

Cəlil Məmmədquluzadənin məharətlə yaratdığı obrazlardan biri də mifoloji mahiyyətə dayanan, amma realizmlə səciyyələnən şeytan obrazıdır. Ümumiyyətlə, bu obraz müxtəlif plandan – həm romantik, həm realistik, həm də simvolizm etibarilə müxtəlif yazıçı və dramaturqların əsərlərində yaradılmışdı. Xüsusilə, XX əsrin əvvəlləri ziddiyyətli, qanlı-qadalı, mürəkkəb ictimai-tarixi şərait üçün belə obrazın yer alması bədii-estetik etibarilə təbii idi. Bu obraza ilk müraciət edənlərdən biri də Cəlil Məmmədquluzadə olmuşdur. Böyük ədibin bir neçə əsərində şeytana müraciət ön planda dayanır. Həm də bəzi əsərlər sırf şeytana müraciət üzərində qurulmuşdur. Belə əsərlərdən biri "Şeytana cavab" felyetonudur ki, burada şeytan zülmün və sitəmə rəvac verən qüvvələrin ümumiləşmiş obrazı olaraq təqdim edilmişdir. Zeynəb arvadın qardaşı ilə birgə falaqqa altında qəddarlıqla döyülməsi "Allahın mömün bəndələrinin" əllərindəki güc və hakimiyyətin sui-istifadəsi faktı kimi xüsusi məqsədlə əks olunmuşdur. Ədib Zeynəb arvadın zülmünü belə əsaslandırır: "Yadındadırmı (Şeytana müraciət edilir – R,Q,) bir dəfə Rəştin hakimi "Lotu Mehdi"gildə qonaq idi, adam göndərib Zeynəb adlı bir dul övrəti gətirdilər, sonra bu övrətin qardaşı da gəldi, sonra genə bir neçə

övrət gəldi, axırı bilmirəm noldu" [7, s. 102]. Ədibin təsvirindən, mətləbi ifadə məntiqindən və qələm ustalığından anlamamaq mümkün deyil ki, dul Zeynəb arvadın və digər qadınların Lotu Mehdigilə çağırılması ədibin həmişə kəskin tənqid etdiyi, əxlaqsızlıq kimi dəyərləndirdiyi sırf "siğə" məsələsilə bağlı idi. Ədibin lotu adlandırdığı Mehdi də, Rəşt hakimi də lotuluğun tipik obrazı olan Şeyx Nəsrullahdan geri qalmayan obrazlardır. Biz ədibin, demək olar, bütün yaradıcılığında "siğə" məsələsilə insanların "başını piyləyib" özləri üçün şəhvət öldürən pozğun, namus, irz, din düşməni şəriət və əxlaq pozğunlarının iyrənc əməllərilə tanış oluruq. İstər "Ölülər", istərsə də "Dəli yığıncağı", "Ər" əsərlərində şəriəti əxlaqsızlığa çevirən, dini qaydaları şəhvani mənafe ilə əyən belə çoxsaylı şəriət-din xadimləri obrazları ilə tanış oluruq. Əsərdə zülmkara boyun əyməyən namus və irz mücəssəməsi Zeynəb arvadın çəkdiyi zülm də ifadə edilmişdir: "...orası yadımdadır ki, Zeynəb övrəti və qardaşı Kərbəlayı Novruzu mollanın həyətində yıxdılar yerə və bacı ilə qardaşın ayaqlarının qoydular falaqqaya, yazıq övrətin çılpaq qıçlarına boynuyoğun kişilər yaş şivkələrlə çırpırdılar, molla və hakimi-vilayət durub tamaşa edirdilər və gülürdülər və sən də gülürdün, şeytan qardaş" [7, s. 102]. Bu mənada taleləri bir-birinə oxşayan Zeynəb, Pəri kimi dul qadınların çəkdikləri zülm və yaşadıqları faciələr timsalında ədibin məhkəmə qurub zəmanəni, bilavasitə bu faciələrə səbəb olan əmmaməli lotuları və qarnıyoğun, zırrama hakimləri ittiham etdiyinin şahidi oluruq. Buna görə də böyük ədib Şərq aləminin qadın azadlığı problemlərini "Mənim köhnə dərdim" deyə ümumiləşdirmişdi.

Böyük ustadın məşhur "İranda hürriyyət" əsərində Pərinisənin yuxusuna məhz qarpızın girməsi də, fikrimizcə, heç bədii təsadüf deyildi. Bizim fikrimizcə, burda müəllif özünəməxsus məqsəd daşıyır. Əlbəttə, müəllif gözəl bilirdi ki, hürriyyət və azadlıq mücadiləçilərinə gülçiçək dəstəsi deyil, şah rejiminin qılınc-güllə dəstəsi tuş gəlməlidir. Məhz bu səbəblər üzündən ədib Pərinisənin yuxusuna siyasi məna verməyi də bədii məqsəd olaraq həyata keçirmiş, o zamankı dövrdə hürriyyət sevdasına düşən azərbaycanlı balalarının şah rejimi tərəfindən necə sərt və gücləndirilmiş nəzarət edilməsinə diqqət çəkmişdir. Fikrimizcə, qarpız sirdir və bu sirr hürriyyət, azadlıq, inqilab sirridir. Məhəmmədəli necə ki Ərəblərdəki arvadına yalanını gizlətmək qəsdindən elədiyi yanlışın əvəzində evinin içində bombanın partlamasını haqq etmişdi, İran şah rejimi də o vaxtacan avam həmşəriləri – azərbaycanlıları aldada-aldada, nəhayət, cana yığılmış insanların etiraz bombasının partlamasına, azərbaycanlılara qarşı müstəmləkə sirrinin qarpız kimi dağılmasına yol verməli olmuşdu. Bizcə, belə bədii məqsədin məhz belə bədii detalla əsərdə təsvirini tapması tam bədii uyğunluq və mümkünlük idi. Müəllifin də hekayənin sonunu dava-mərəkənin başlaması ilə bitirib "dəxi bilmirəm mərəkənin axırı hara çatdı" [6, s. 166] kimi eyhamla bitirməsi bu inqilabın şiddəti və şah rejiminin bu inqilabın əlində aciz, çarəsiz qalmasına və hələ həllini tapmamış, sona yetməmiş bir savaş, mübarizə olayı olmasına işarəsi idi.

Böyük realist, tənqidi realizmin qüdrətli nümayəndəsi Cəlil Məmmədquluzadənin əsərlərində ideya-bədii ruha açar rolu oynayan obrazların hər birinin özünəməxsus məna yükü və estetik mahiyyəti var. Fikrimizcə, yeni elmi-texniki inkişaf əsrinin tələblərini, milli birlik, həmrəylik və ümumdünya kontekstində bərabərləşmə ideyası çərçivəsində poçt qutusu rabitə, anlaşma mənasını, "Usta Zeynal" əsərində küpə milli dəyərlər və düşüncə sisteminin boxçası [12], "Qurbanəli bəy" hekayəsində at axuru, Mehman Qaraxanoğlunun da doğru izah verdiyi kimi [4], məzar, qəbir kimi və sair anlaşıla, izah edilə bilər. Dəyənək, şallaq Xudayar bəy, Pirverdi kimi zalım məmurların əlində güc və hakimiyyətin simvolu kimi təzahür tapır və

professor Y.Qarayev haqlı olaraq dəyənəyi zülm yolu ilə kütləni idarə etdiyinə görə "dirijor çubuğu", deyə adlandırılmışdır [2].

Bütün bunlar bir daha göstərir ki, qüdrətli tənqidi realist sənətkar C.Məmmədquluzadənin yaradıcılığı timsalında tənqidi realizmdə hər bir bədii detal və vasitənin özünəməxsus bədii-estetik məzmunu, mahiyyəti və yeri vardır.

ƏDƏBİYYAT

1. Həbibbəyli İ. Azərbaycan ədəbiyyatı dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. Bakı: Elm, 2019, 452 s.
2. Qarayev Y. Realizm: sənət və həqiqət. Bakı: Elm, 1980, 260 s.
3. Qasımlı R. Cəlil Məmməquluzadə yaradıcılığında "kiçik" adam obrazlarının ictimai-bədii funksiyası. Bakı: Elm və təhsil, 2012, 216 s.
4. Qaraxanoğlu M. Mirzə Cəlil yanğısı. Bakı: Mücrü, 2020, 268 s.
5. Əliyev K. Danabaş kəndinin əhvalatları povestinin poetikası. I məqalə. "Ədəbiyyat" qəz., 2019, 6 noyabr.
6. Məmmədquluzadə C. Əsərləri: 4 cilddə. I c., Bakı: Öndər nəşriyyat, 2004, 664 s.
7. Məmmədquluzadə C. Əsərləri: 4 cilddə. II c., Bakı: Öndər nəşriyyat, 2004, 584 s.
8. Məmmədquluzadə C. Əsərləri: 4 cilddə. IV c., Bakı: Öndər nəşriyyat, 2004, 472 s.
9. Nazim Ə. Cəlil Məmmədquluzadə və yaradıcılığı / Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1979, 374 s.
10. Talıbzadə K. XX əsr Azərbaycan tənqidi. Bakı: Azərb. SSR Elmlər Akademiysı nəşriyyatı, 1966, 540 s.
11. Dirili Y. Eşşək düşündüyümüz qədər də mədəniyyətsiz deyil / https://ekolojijurnal.wordpress.com/2020/04/10/essək-dusunuduyumuz-qədər-də-mədəniyyətsiz-deyil/
12. Qasımov R. Usta Zeynalın usta sualı / https://strateq.az/edebiyyat/500403/usta-zeynalin-usta-suali.html
13. Sadiq Ş. "Çoşşa"nın müdrikliyi / http://shamilsadig.az/cossanin-mudrikliyi-kitab-yukluessək-əsəri-1/

AMEA Naxçıvan Bölməsi
E-mail: ***ramizqasimli44@gmail.com***

Ramiz Qasimov

ON THE ARTISTIC AND AESTHETIC FEATURES OF SOME IMAGES IN THE REALISM POETIC OF JALIL MAMMADGULUZADEH

The paper discusses the characters and metaphorical images of Jalil Mammadguluzadeh, the founder of Azerbaijan's critical realism. It is noted that such images have a particular artistic and aesthetic meaning in critical realist works. The literary language has a unique structural, ideological, and aesthetic significance in Azerbaijan's poetics of critical realism. The creation of figurative and symbolic artistic images was also important. Prominent master of critical realist works J.Mammadguluzadeh created fascinating images. In "Stories of Danabash vil-

lage" there is a long-eared stick, a stick; in other works, there is a whip, in "Usta Zeynal" there is a stable, in "Yan tutayi" there is a side pipe, in "Khan's rosary" there is a dream and a watermelon, in "Freedom in Iran". The devil and others in the column are very original in terms of metaphorical-symbolic images. Each of these images has a special meaning, artistic and aesthetic purpose, and essence.

Keywords: *Jalil Mammadguluzadeh, poetics, critical realism, metaphorical images.*

Рамиз Гасымов

О ХУДОЖЕСТВЕННО-ЭСТЕТИЧЕСКИХ ОСОБЕННОСТЯХ НЕКОТОРЫХ ОБРАЗОВ В ПОЭТИКЕ РЕАЛИЗМА ДЖАЛИЛА МАМЕДГУЛУЗАДЕ

В статье рассматриваются характеры и метафорические образы в творчестве основоположника критического реализма Азербайджана Джалиля Мамедгулузаде. Отмечается, что такие изображения имеют особую художественную и эстетическую ценность в произведениях критического реализма. В поэтике критического реализма литературный язык в Азербайджане имеет особое структурное, идейное и эстетическое значение. Важной ценностью было также создание образных и символических художественных образов. Выдающийся мастер критического реализма Дж. Мамедгулузаде создавал очень интересные образы. В «Истории села Данабаш» – палка, в других произведениях – хлыст, в «Уста Зейнал» – конюшня, в «Ян Тутэй» – труба, арбуз в «Свобода в Иране», шайтан в фельетоне «Ответ шайтану» и другие очень оригинальны с точки зрения метафорически-символических образов. Каждое из этих изображений имеет особое художественно-эстетическое значение и сущность.

Ключевые слова: *Джалил Мамедгулузаде, поэтика, критический реализм, метафорические образы.*

(Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 30.06.2021
Son variant 07.07.2021

UOT 82-3.512.162

AYGÜN ORUCOVA

MÜSTƏQİLLİK DÖVRÜ HEKAYƏ JANRINDA XOCALI DƏRDİ VƏ QARABAĞ HƏSRƏTİNİN BƏDİİ ƏKSİ (NAXÇIVAN ƏDƏBİ MÜHİTİNDƏ)

XX əsrin sonlarında Azərbaycan xalqının həyatında baş verən soyqırımlar, doğma torpaqlarımızın itirilməsi, müstəqilliyimizin şəhidlərin qanı bahasına əldə olunması, qaçqınlıq, əsirlik və digər hadisələrin insanlarda yaratdığı kədər hissi, bitib-tükənməyən doğma yurd, el, oba həsrəti ümumilikdə Azərbaycan ədəbiyyatında olduğu kimi, Naxçıvan ədəbi mühitində də ana mövzulardan biri olmuşdur. Xocalı soyqırımının insanlıq adına sığmayan vəhşilikləri, vətənin dilbər guşələrindən olan dağlıq Qarabağ və onun ətrafındakı rayonlarımızın erməni-rus hərbi birləşmələri tərəfindən işğalı, insanların bu böyük itkilər səbəbindən keçirdiyi iztirablar bədii dilin imkanları ilə ədəbi yaddaşımıza yazılmışdır. Bu bədii nümunələri birləşdirən ortaq cəhət onların hər birində bir gün mütləq müqəddəs vətən torpaqlarımıza xalqımızın qayıdacağına inam hissi idi.

Açar sözlər: *şəhidlik, qaçqınlıq, əsirlik, elan olunmamış müharibə, azadlıq, qələbəyə inam.*

Qədim tarixə və zəngin ənənələrə malik Naxçıvan ədəbi mühiti Azərbaycan söz sənətinin inkişafına zaman-zaman dəyərli töhfələr bəxş etmişdir. Bu ulu diyarın yetirmələri Azərbaycan ədəbiyyatının yüksəlişində, onun yeni mövzu və ideyalarla zənginləşməsində mühüm rol oynamışlar. XX əsrin 90-cı illərindən vətənpərvərlik, şəhidlik, düşmənə nifrət mövzularının ədəbiyyatda ön plana keçməsi tarixi gerçəkliklərin bədii ədəbiyyata gətirilməsinin məntiqi nəticəsi idi. Azad Azərbaycan uğrunda canından keçən şəhidlər və şəhidlik mövzusu bu zamandan ədəbiyyatın ana mövzularından biri olmağa başlamışdır. "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabında da qeyd olunduğu kimi şəhidlik mövzusu, şəhidlik zirvəsini fəth və tərənnüm edən bədii nümunələr Azərbaycan ədəbiyyatında heç zaman 1990-cı illərdəki qədər olmamışdır. Ümumən Azərbaycan ədəbiyyatında olduğu kimi, Naxçıvan ədəbi mühitinin nümayəndələri də bu faciələri ümumxalq kədəri, matəmi, həm də qəhrəmanlıq tariximiz kimi dəyərləndirmişlər. İctimai əhəmiyyətli mövzuları bədii ədəbiyyata gətirməkdə daim maraqlı olan Naxçıvan ədəbi mühitinin nümayəndələrinin demək olar ki, hər birinin yaradıcılığında hansısa bir janrda Qarabağ kədəri və ya Xocalı harayı öz bədii əksini tapmışdır.

Naxçıvan ədəbi mühitinin nümayəndələrinin yaradıcılığında Qarabağ mövzusundan danışarkən kriminal həyatı əks etdirən dedektiv janrda romanları çap olunan yazıçı Akif Axundovun (1943) "Çətin günün dostu" adlı altıncı kitabındakı hekayələrdə torpağımızda faciələr törətmiş erməni millətçilərinin xisləti, qəddar təbiəti əks etdirilir. Nikbinlik, təmiz duyğular, saf məhəbbət, əsl dostluq kimi ülvi hisslər həmin hekayələrin əsas qayəsini təşkil edir. Akif Axundov "hekayə janrının imkanlarından istifadə edərək böyük mətləblərə toxunur" [2, s. 165]. 1968-ci ildə "İnad bəlası" hekayəsilə bədii yaradıcılığa başlayan Akif Axundovun "Qarabağ hadisələrindən bəhs edən "Tamah" hekayəsində müəllif erməni əxlaqının naqisliklərdən ibarət olduğunu və erməninin hansı məkanda yaşamasından asılı olmayaraq hiyləgər təbiətindən əl çəkə bilməməsini çox ustalıqla açıb göstərir" [4, s. 3]. "Tamah" hekayəsi müstəqillik dövrü hekayə janrı nümunələri arasında maraqlı süjet və kompozisiyası ilə fərqlənən bir kiçik hekayədir. Hekayədə obraz səviyyəsinə qaldırılmış Boz ilanı, bala dovşanı və ermənilərin vəd etdiyi külli miqdarda pula aldanan Klarkı birləşdirən ümumi bir cəhət var: acgözlük və tamahkarlıq, daha çox gəlir əldə etmək arzusu. Həmin bu hiss onların hər üçünü aid olduqları

məkanı və doğmalarını, həmcinslərini tərk edib tamamilə yad yerlərə gətirmiş və hər üçünün də faciəsinə səbəb olmuşdur. Klark milliyyətcə erməni olan dostu Arturun felinə uyaraq guya Qarabağdakı azadlıq uğrunda döyüşən ermənilərə kömək məqsədilə muzdla tutulmuş bir döyüşçüdür. Doğma şəhəri Bostonu və ailəsini, övladlarını tərk edərək Qarabağa gəlmiş, üstəlik də ona vəd edilən və erməni icma başçısının təqdim etdiyi 50000 dolları da Ermənistanda əlindən alıb onu cəbhə bölgəsinə göndərmişlər. Bu səbəbdən o və onun kimi digər muzdlular da "aldandıqlarına görə vuruşmaqdan, adam öldürməkdən çox, qarət barədə düşünürdülər. Onlar bir qayda olaraq, kəndləri zəbt edən kimi evlərə soxulur, qiymətli nə varsa götürürdülər. Ələ keçirdiyi qənimət azı on il gen-bol yaşamağa bəs edərdi. Ancaq bu andıra qalmış müharibə qurtarmaq bilmirdi. Klark artıq beşinci il idi ki, bu yad torpaqlarda yadlar üçün vuruşurdu. Beşinci il idi ki, uşaqlarının üzünü görmürdü" [1, s. 90]. Düşdüyü bu dustaq vəziyyətindən xilas olmağın yeganə yolunu həmyerlisi Cimlə birlikdə qaçmaqda – yəni Araz çayından sərhədi keçməklə başqa dövlətin ərazisinə keçməkdə görən Klarkın bütün planları suya düşür. Olduqları dəstənin atəşə tutulması nəticəsində yeganə sağ qalan Klark da bir qolundan aldığı yaranın ağrısına tab edərək xilas ümidilə hərəkət edərkən Boz ilanın həmləsinə məruz qalır. Boz ilan güc-bəla ilə udduğu xeyli böyük ovunu – bala dovşanı həzm etmək üçün bir ağac və ya qaya parçası tapa bilmədiyindən bu yaralı insana sarıla biləcəyini və onun ikinci bir döyüşə artıq qüvvəsi qalmadığını doğru müəyyən etmişdi. Müəllif insanla ilan arasındakı ölüm-dirim mübarizəsini o qədər canlı və təbii təsvir edir ki, oxucu hər ikisinin daxili aləmini, keçirdikləri hissləri, həyatda qalmaq üçün etdikləri cəhdləri gözlərinin önündə canlandıra bilir: "İlanın əlacı yox idi. Bu mübarizədən o geri çəkilməyəcəkdi. Çünki ilan qələbə çalmazsa özü məhv olacaqdı. İnsan isə... Klark vətəninə can atırdı. İkincisi də bir vəhşi heyvanın əlində ölmək ona ağırdan-ağırdı" [1, s. 92]. Təbii olaraq, bu ölüm-qalım mübarizəsində onların heç biri qalib ola bilmir, əksinə hər ikisi məhv olur, çünki hər ikisi öz tamahına, başqa sözlə Şeytana uyanlardır. Səhər açıldıqda yırtıcılar tərəfindən parçalanmış və təkcə sümükləri qalan Klarka təəssüf ki, dəri heybəsinə topladığı qızıl, gümüş qənimətlər heç bir köməklik edə bilməmişdi. Eynilə Boz ilan da yırtıcıların balaları üçün qənimət olaraq aparılmışdı.

Kiçik hekayənin böyük ustadı Mirzə Cəlildən gələn "klassik satirik hekayə ənənəsini yumoristik məcrada davam etdirməsi ilə də fərdi yaradıcılıq üslubunu meydana qoymuş" [6] Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, filologiya elmləri doktoru Akif İmanlının (1948) "Müharibə başlandı" (2000) novellasının baş qəhrəmanı Murad müəllim vətənpərvər və açıqsözlü, son dərəcə mədəni, düşmənə nifrət edən, itirilmiş torpaqlarımızı geri qaytarmaq üçün müharibəyə qoşulmağa hər an hazır olan bir ziyalı obrazı kimi elə müəllif ideyalarının daşıyıcısıdır. Əsər həm gözlənilməz nəticə ilə qurtarması, həm də maraqlı süjet xəttilə seçilən-dir. Düşmən onun xalqına qarşı necə amansızdırsa, Murad da eyni dərəcədə amansız olmaq gərəkliliyini düşünür. Əsərin əvvəlində həyat yoldaşı Xədicənin telefon zənginə cavab verən Murad sonda da həmin telefon zəngini bitirir. Bütün hekayənin əhvalatları, hadisələri də bu telefon zəngində nəql olunur. "Xalqın kədəri mənim kədərimdir" - fikrində olan Murad müəllim də, Şəmil müəllim də Xocalı faciəsinin acısı təzə olduğu zamanda toy büsatı qurmağı çoxlarından fərqli olaraq uyğunsuz hesab edir. Müəllif buna da təəssüf edir ki, "Xocalının bizə nə dəxli?" [8, s. 10] – deyən insanlar öz niyyətlərini yerinə yetirir, övladının toyunu da edir, camaat da yeyib-içir.

Vətənpərvərlik və vətəni müdafiə etməyin zəruriliyi, Vətən yolunda ölümə cəsarətlə gedən qəhrəmanların mərdliyi mövzularında bənzərsiz şeir və poemaların müəllifi, tanınmış şair, yazıçı Həsən Fətullayevin (Elsevər) (1925-2003) "Qaçmaq igidlik deyil" kitabındakı

"Qaçmaq igidlik deyil" (1994), "Kəşfiyyatçılar" (1994), "Girovlar" (1995) kimi hekayələrində 90-cı illərdə Azərbaycan ərazilərinə erməni hərbi təcavüzlərinin gətirdiyi ağır problemlər, müharibə dəhşətləri və əhalinin birlik və əzmlə apardığı mübarizə əks etdirilmişdir. Birinci hekayə Şuşa şəhərinin işğalı zamanında baş verən, qəhrəmanlıq tariximizə yazılacaq, gələcək nəsillərə nümunə olacaq bir hadisənin təsvirindən ibarətdir. Lirik ədəbi növün janrları ilə birlikdə qəhrəmanının şücaətini bədii şəkildə əks etdirən müəllifin vətənçün döyünən ürəyi, keçirdiyi təlaşlar, həyəcanlar əsl vətəndaşlıq nümunəsi təşkil edir. Hekayənin Azərbaycanın musiqi, elm, mədəniyyət beşiyi olan Şuşaya həsr olunmuş bayatı ilə başlaması təsadüfi deyil:

Şuşa, oğlunam sənin,
Əsgəriyəm vətənin.
Yaz köksünə, eşit, bil,
Qaçmaq igidlik deyil [5, s. 3].

Sözün əsl mənasında igid vətən övladı olan, "ömrünün otuz altıncı baharına qədəm qoymuş Şəmistan camaat arasında cəsarətlə öz sözünü deyirdi, onları cəsur olmağa, şəhəri qorumağa, onun yolunda ölməyə səsləməklə özü də var qüvvəsilə döyüşə hazırlaşırdı" [5, s. 3]. Öz evini, həyətini səngərə, alınmaz qalaya çevirən Şəmistan vəfalı həyat yoldaşı Zülfiyyə həkim və səkkiz yaşlı qızı Qönçə ilə düz 21 gün düşmənə güclü müqavimət göstərir, son nəfəslərinə qədər igidliklə vuruşur, düşmən əlinə keçməmək üçün isə olduqları qazmaya benzin tökərək özlərini əbədiyyətə qovuşdurur. Ata-baba yadigarı olan torpaqlarımızın qorunması üçün son ana qədər olsa da, ölümün üzünə dik baxaraq öz imkanları daxilində çarpışmaq, düşmənin qarşısında məğlub kimi dayanmaq, əyilməkdənsə, özünü və ailəsini də məhv etmək şuşalı Şəmistanın əslində, düşmən üzərində parlaq mənəvi qələbəsidir. Filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov bu hekayə haqqında yazır: "Qeyrətli Azərbaycan övladı Şəmistan təkbaşına günlərlə evini əhatəyə alan onlarla erməni silahlıları ilə qəhrəmanlıqla döyüşür. Düşmən əhatəsindən çıxara bilmədiyi həyat yoldaşı Zülfiyyəni və qızı Qönçəni erməni faşizminin insanlığa zidd vəhşi əməllərindən qorumaq üçün Şəmistan böyük hünər, cəsarət və rəşadət göstərir. İnsanlıq və mərhəmət tanımayan nanəcib düşmənin əlinə keçməmək üçün Şəmistanın ailə üzvləri ilə bir-birlərinə sarılaraq evini yandırması və düşmənə də ciddi zərər yetirməklə öz namus və iffətlərini qoruması Azərbaycan övladı və ailəsinin şərəf, ləyaqət və qeyrət rəmzi olaraq ümumiləşir" [10]. Buna görə akademik İsa Həbibbəyli onun müharibə dövründə Azərbaycan xalqının igid oğul və qızlarının qəhrəmanlıqlarından, vətənpərvərliyindən bəhs edən əsərləri haqqında danışarkən bu əsərlərdə ictimai motivlərin insan mənəviyyatı ilə vəhdətdə təsvir olunduğunu və yazıçının bütün yaradıcılığı boyu cəmiyyət və qəhrəman münasibətlərinin bədii təqdiminə üstünlük verdiyini xüsusi olaraq vurğulayır.

"Bir payız günü", "Günəş həmişə olacaq", "Balaca nağılçı", "Yeddi ilin ayrılığı", "Vaxtla üz-üzə" və s. kitabların müəllifi Bayram İsgəndərlinin (1943) yaradıcılığında orijinal mənsur şeirlərlə yanaşı, hekayə janrının da özünəməxsus yeri vardır. 2013-cü ildə çap olunmuş postmodern üslubda yazılmış nümunələr sırasında filologiya elmləri doktoru Salidə Şərifova Bayram İsgəndərlinin "Tabut şəhər" hekayəsini bədiilik baxımından yüksək qiymətləndirir: "Bayram İsgəndərli "Tabut şəhər" hekayəsində real və qeyri-real aləmlərin qarışması əsasında maraqlı bədii məkan yarada bilmişdir. Əsərin qəhrəmanı yuxuda qaranlıq dünyaya, daha qısası Tabut şəhərinə düşür. Düşdüyü yerin hara olmasını soruşan qəhrəmana: "Heç narahat olma, bu şəhərə gələndə hamımız sənin kimi olmuşuq. Əvvəl qaranlıqda heç nə görməmişik. Sonra qaranlığa alışmışıq...". Tabut şəhəri müəllif tərəfindən müasir cəmiyyətin alleqoriyası kimi istifadə edilir" [12]. "Yuxular o yuxular deyil" hekayəsində Azərbaycanın dilbər guşəsi, elm

və incəsənət mərkəzi olan Dağlıq Qarabağdan məcburi şəkildə köçməli olan Qasım kişinin uzun illərdən bəri hər axşam yuxularında gördüyü doğma el-obasından ayrılmaq istəməməyi və müəyyən zaman keçdikdən sonra artıq yuxularında belə Qarabağını görə bilməməyinin kədəri ümumiləşdirilmişdir. "Ömrümüzə bir gün də qalsa, Qarabağa qayıdacağıq. Öldü var, döndü yoxdur" – deyən Qasım kişi "yerinə girib yuxuya gedən kimi özünü Qarabağda, doğma kənd-kəsəyində, ev-eşiyində görürdü. Həyət-baca işləri ilə məşğul olurdu: yer belləyib lək düzəldirdi, ağac əkirdi, inəyə, dana-doluğa, qoyun-quzuya baxırdı... Kəndin içindəki çay-xanaya gedib tay-tuşları ilə çay içir, oradan-buradan danışırdı. Söhbətləri də əsasən köhnə kişilərdən olurdu, onların igidliklərindən, səxavətlərindən olurdu... Elə ki yuxudan ayılırdı, görürdü, Qarabağ nə gəzir, ev-eşikləri nə gəzir, tay-tuşları nə gəzir... Başlayırdı deyinməyə" [13]. "Öz havasına oynayan qarı" hekayəsinin əsas qəhrəmanı da ürəyi Qarabağ eşqilə döyünən yaşı yüzü adlamış, həyata nikbin baxan və məcburən yaşadığı Bakı şəhərindəki mağarda da Qarabağda oynadığı oyun havalarını – "Heyvagülü"nü, ya da "Naz eləmə"ni çox böyük məharətlə oynayaraq hər kəsi heyran edən Gülxanım nənədir. "Yuxular çin olacaq…" hekayəsində "Qaşqa" inəyinin boynundan açıb götürdüyü ipi və kənddən çıxanda geydiyi rezin qaloşu doğma kəndinə qayıtmamış can verərsə, qəbrinə qoymağı vəsiyyət edən Ballı arvadın vətən həsrəti bədii şəkildə öz ifadəsini tapmışdır.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, vətənpərvər şair Qafar Qərib (1976) bədii yaradıcılığında əsas sahə olaraq poeziyanı seçsə də, bir sıra digər janrlarda da (hekayə, pritça, esse, xatirə, məqalə və s. – A.O.) maraqlı nümunələr qələmə almışdır. Bu əsərlər onun sayca beşinci kitabı olan "İki qapı arasında" kitabında toplanmışdır. Kitaba Vüsalə Vaqifqızı "Qafar Qəribin qəribəlikləri" adlı ön söz yazaraq bu kitabdakı əsərlərin də "ən azı onun poeziyası qədər, şeirləri qədər" [9, s. 4] oxucunun qəlbinə yol tapdığını qeyd edir. "Qanlı gecə" (1992), "Rembo Qarabağda" (1992), "Qəhrəman" (1995) hekayələri qəhrəmanlıq, şəhidlik və vətənpərvərlik kimi ictimai mövzularda qələmə alınmışdır. Hər üç hekayənin qəhrəmanları üçün Vətən sevgisi, Vətən torpaqlarının geri qaytarılması üçün çalışmaq ana məhəbbətindən, şəxsi sevgidən öncə gəlir. Şəhidlərimizin qisası alınmayınca, müharibədə zəfər qazanılmayınca toy, bayram etməyi özünə ar bilən, qəlbləri Vətən eşqi ilə döyünən Gülçöhrə, Arzu kimi gənc qızlarımız, özü də adı kimi qəhrəman olan Qəhrəman, "Rembo" ləqəbli kəşfiyyatçı Elxan Muradov, İsmət ananın bir yaşından atasız böyütdüyü gözünün ağı-qarası, yeganə övladı Ələvsət kimi mərd oğullarımız sayəsində bu gün düşmən üzərində qələbəni qeyd edə bilirik. Hər birinin qəhrəmanlığı bir romana sığa biləcək mövzu haqqında Qafar Qərib kiçik hekayə janrının imkanları daxilində böyük qürur hissilə söz açmışdır. Xüsusən, Elxan Muradovun düşmən səngərinə keçib muzdlu bir zəncini öldürərək uğurlu bir əməliyyat həyata keçirərək düşmən qərargahını yerlə bir edərək, geri qayıtması qururverici bir hadisə kimi bədii ifadəsini "Rembo Qarabağda" hekayəsində tapmışdır. Bölük komandirinin Elxana dediyi sözlər Elxan kimi igid oğullarımıza ümumxalq sevgisinin təzahürüdür: "Dünənki qəhrəmanlığın təqdirəlayiqdir. Bu əməliyyat bütün Ermənistanı lərzəyə salıb, düşməni çox sarsıdıb. Mən qürur hissi keçirirəm ki, mənim başçılıq etdiyim bu bölükdə sənin kimi qəhrəman kəşfiyyatçı var. Sənin kimi oğulları olan bir xalq ağlamaz!" [9, s. 63]. Bu gün Elxan kimi qorxmaz, cəsur oğullarımızın rəşadəti və cənab Ali Baş Komandanımızın həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasətin nəticəsində vətənin işğal altında olan torpaqları azad olunmuşdur.

Azərbaycan milli mücadilə tarixində daha çox müstəqillik sevinci və soyqırım kədərləri ilə xatırlanan XX əsrin qan yaddaşına "şəhid şəhər" kimi yazılan Xocalının tarixi həqiqətlərini ifadə etməyə sözlər, kəlmələr aciz qalır. Bəzən buna görə Azərbaycanla terrorist erməni xalqı

arasındakı bu müharibə və münaqişədən, Qarabağ dərdindən bəhs edən bədii əsərlərin kifayət qədər yazılmamasına dair iradlara rast gəlirik. Öz xalqının günahsız nümayəndələrinin başına gətirilən müsibətlərdən, onlara verilən işgəncələrdən bədii əsər yazmaq, əslində, heç də asan deyil. Lakin nə qədər çətin də olsa, bədii ədəbiyyat xalqın həyatının hər anını, həm acısını, həm də kədərini bir güzgü kimi əks etdirməyi, bugünkü faciələri gələcək nəsillər üçün unutmayacaqları bir ibrət dərsi kimi öyrətməyi qarşısına vəzifə olaraq qoymuşdur. Naxçıvan ədəbi mühitinin istedadlı nümayəndələrindən olan, bədii yaradıcılığa hekayə və mənsur şeirlərlə başlayan, sonralar "Qaçaq Quşdan", "Qarabəkir əfsanəsi", "Kalbalı xan", "Qan içində işıq" irihəcmli tarixi nəsr əsərləri ilə oxucuların rəğbətini qazanan tanınmış yazıçı Güllü Məmmədovanın (1947) əsərlərində "hər hansı hadisənin təsvirindən daha çox onun oyatdığı duyğuları, obrazların hissi-mənəvi yaşantılarını dolğun bədii səviyyədə təqdim etmək başlıca məziyyət kimi ön planda dayanır" [7, s. 3]. Onun "Ağır gün", "Meşə pərisi", "Körpə" hekayələri müstəqillik uğrunda mübarizədə və erməni qaniçənlərin elan olunmamış müharibəsində törədilmiş faciələrdən – Qanlı Yanvar və Xocalı faciəsindən bəhs edir. Bu hekayələr qanlı tariximiz – erməni terrorizminin ifşasıdır. Çarəsizliyin insana yaşatdığı əzabların ifadəsi olan "Meşə pərisi" və "Körpə" hekayələri isə heç bir zaman və məkanla bağlı qeydlər olmasa belə, Xocalı faciəsinin baş verdiyi günlərin hadisələrindən bəhs edir. Hətta yüzlərlə bu mövzuda bədii əsər qələmə alınsa da, real zəmində Xocalıda günahsız insanlara qarşı törədilən insanlıq adına sığışmayan qəddarlıq, qaniçənlik, faşizm, soyqırım aktlarının mindən birini belə bədii şəkildə ifadə etmək mümkün deyil. Birinci hekayədə reallıqdan daha çox müəllif arzularının əksini daha qabarıq hiss edirik. Hekayə Xocalı şəhərinin sakinlərindən olan gənc, nişanlı bir qızın gecənin qaranlığında isti ocağından "hürüküdülmüş vəhşi at kimi baş götürüb" [11, s. 276] şəhərin axırıncı evindən sonra başlayan düzənlik boyu və meşəyə doğru qaçmağının təsviri ilə başlayır. İstər yandırılmış şəhərin, istərsə də qızın aldığı fiziki və mənəvi zərbələrin təsviri insan qəlbini parçalayan, həqiqətən baş vermiş tarixi cinayətin bədii sözlə təsvir edilməsində aciz qalınan ifadəsidir: "Üstünü qar örtmüş çöllük qızın yalın ayaqlarının altında ağappaq tikanlığa oxşayırdı. Çünki qız ayağını haraya qoyurdu, elə bil ayaqlarına yüz yerdən iynə sancılırdı. Göynərtisi topuqlarına qədər işləyirdi. Əgər ürəyi sinəsində qorxudan, vahimədən şiddətlə çırpınmasaydı, sakit-sakit döyünsəydi, bəlkə də özünü meşəyə çoxdan yetirmişdi" [11, s. 276]. Çöllükdə onun kimi ölümlə gizlənpaç oynayanların sayının çoxluğundan xəbərdar olan gənc və qorxmaz qız meşədə qurulan pusqudan xəbərsiz olduğundan orada öz doğma xalqının nümayəndələrindən kimisə tapmaq və birlikdə xilas olmaq ümidiylə dayanmadan irəli qaçırdı. Talada kənardan izlədiyi hadisə - şəhəri qızmar tiyana döndərən erməni şeytanlarından birinin "ovladığı" azyaşlı oğlanı: "Mən türk qanı içməyi xoşlayıram. Səni indi asıb qoyun cəmdəyi kimi parçalayacam. Qanından içib qızışacam" – sözləri ilə cəllad soyuqqanlığı ilə ağacın möhkəm budağından asmağa çalışması gənc qızı hiddətləndirir. İndicə yurd-yuvasını, ev-eşiyini dağıdıb yandırmış, nə qədər insanı qəddarcasına həlak etmiş bu vəhşi dığadan heç olmazsa bir soydaşını xilas etmək arzusu içində baş qaldıran bu gənc qız ona hədəfi nişan almağı öyrədən nişanlısının: "Bir gülləni özün üçün saxla, düşmənə əsir düşməkdənsə, özünü öldür" sözlərini xatırlayır, lakin bu dəqiqə, bu anda özündən çox düşmən əlində olan yaralı soydaşını xilas etməyi daha üstün hesab edir. Erməni cəlladını kəndiri ağaca asmaq istədiyi anda elə əlindən sərrast nişan alaraq yaralayan qız sonra da öz qanını özünə içirərək türk qanına susamış bu vəhşiyə ibrət dərsi verir. Qarşıda meşədə onları sayı-hesabı bilinməyən erməni quduzlaşmış dığalarını gözlədiyini bilə-bilə oğlanın birinci ölüm təhlükəsindən xilas olmağının sevincini müəllif son dərəcə təbii ifadə edə bilmişdir: "Oğlan söz tapıb deyə bilmirdi. Ona elə gəldi qız nağıllardan uçub gəlmiş pəridi. Gəldi və onu şeytanın caynağından

qopardı" [11, s. 276]. Ayaqları yarıdonmuş vəziyyətdə olan "Meşə pərisi" və oğlanın bir-birinə kömək edə-edə meşəyə daxil olmaqları və kölgələrinin ay işığına bürünmüş ağaclıqda gözdən itməsi ilə hekayə tamamlanır. Hər iki obrazın da sonrakı taleyi, meşədə hansı çətinliklərdən keçib-keçmədikləri barədə oxucu məlumatsız qalır. "Körpə" hekayəsində yenə qanlı faciə günlərində qarlı, şaxtalı havada, düşmənin əlinə keçməmək üçün Ermənistan dağlarından adlayıb Azərbaycan tərəfə keçən bir ananın qundaqda bərk-bərk bükülmüş körpəsini kolluğun altında gizlədərək 4 övladından üçünü çox böyük çətinliklə gətirib bu taya çıxarması, lakin ana qəlbinin heç bir vasitə ilə rahatlıq tapa bilməməsi, sonradan xeyirxah insanların köməyilə həmin yerə qayıdıb körpəsini sağ tapa bilməsinin sevinci əks olunmuşdur.

Gənc şairə, jurnalist Təranə Arifqızının (1971) Vətən müharibəsi mövzusunda "Qıfıl", ermənilərin zaman-zaman torpaqlarımıza göz dikməsindən bəhs edən "Sirli təbəssüm", müstəqilliyimizin ilk illərinin çətinliklərini bədii dillə ifadə edən "Keçid", tutduğu vəzifədən suiistifadə edənlərin tənqid olunduğu "Təzyiq", insanın dünyasını dəyişdikdən sonrakı ikinci həyatının təsvir olunduğu "Ürək", "Son nəfəs" və Xocalı faciəsinin dəhşətlərindən bəhs edən "Yaralı qadın" hekayələri müəllifin hekayə janrında olduqca müxtəlif ictimai məzmunlu, milli və hətta bəşəri mövzulara toxunduğunu göstərir. Sonuncu hekayə bədii təsir gücü baxımından diqqəti cəlb etmiş və əski Azərbaycan əlifbası ilə İranda "yeniqapı.com" saytında da verilmişdir. Hekayədə düşmənə qan udduran igidin anası ağbirçək qadının cavan gəlini və nəvələrini vəhşi cəlladların əllərinə verməməkçün etdiyi cəhdlər, gəlini və südəmər körpə də daxil olmaqla 2 nəvəsinin, ətrafdakı digər insanların başına gətirilən faciələr, insanlığa yaraşmayan vandalizm və s. erməni vəhşiliklərinin gələcək nəsillərə tanıtdırılması baxımından əhəmiyyət kəsb edir. Ağbirçək ananın əsərdə bilavasitə iştirak etməsə də, igid, cəsur bir komandir kimi obrazı yaradılmış oğlunu divardan asılmış şəklindən tanıyan saqqallı erməni dığası onun şəklindən belə diksinir: "Gözünün önünə on gün bundan qabaq tək canıyla onların əlliyə yaxın adamını öldürən, iki topunu, bir tankını məhv edən döyüşçü gəldi. Bu, o idi. Onlara qan udduran, ürəklərinə qorxu salan komandir. Son gülləsinə kimi onların gözünün odunu alan qəhrəman tankla bərabər özünü də məhv etmişdi". Ağsaçlı ananın məğrur baxışları, sözləri, mənfur düşmənin qarşısında qürurla dayanmağı, aldığı zərbələrin dözülməzliyinə baxmayaraq, diz çökməmək üçün israrla duruşu əsl Azərbaycan qadınına xas olan cəhətlər kimi səciyyələnir. Ana özü məhv olsa da, saqqallı vəhşini də düz ürəyinin başından bıçaqla yaralayaraq məhv edə bilir. Daha sonra işgəncələrə məruz qalan həmin ananın cavan gəlini və iki uşağı ölür. Müəllif bu vandalizm hadisəsini deyil, onun tükürpədən nəticəsini gözlər önündə canlandırır: "Üz-gözü qana bulaşan körpənin zəif iniltisi donmuş sükutu pozurdu. Qadın balasının hənirini hiss edib, şaxtadan ağaca dönmüş, parça-parça olmuş əlləri ilə onu axtarıb tapdı. Ağrıdan qıvrılaraq, bir əlini yerə dayaq verib dikəlməyə çalışdı. O biri əlilə onu özünə tərəf çəkdi. Anasının qoxusunu almış uşaq boş qalmış yaralı sinəni balaca əlləri ilə qucaqladı. Dəhşətli ağrıdan qadın şüurunu itirdi, amma körpəni buraxmadı. Körpə balaca, titrək dodaqları ilə axtardığını tapmasa da, təzə yaranın ortasından axıb paltarda laxtalanan süd qoxulu qanı acgözlüklə əmməyə başladı. O, qeyri-ixtiyari balasını bağrına basdı. Soyuq hava onu bir az özünə gətirdi. Amma, kaş ki, özünə gəlməsəydi. Qadının gözü biləyinə göy muncuq bağlanmış tək ələ sataşdı. Qan sağılmış gözlərini yumub, bir də açdı. "Demək...oğlumu da..."! Onsuz da nə çığırmağa, nə də ağlamağa heyi qalmamışdı. Nitqi qurudu. Körpəsini bərk-bərk sıxmış qolları yavaş-yavaş boşaldı... Yenidən huşunu itirərkən – "Aman Allah! Allah cəzanızı versin, vəhşilər, əclaflar!" - deyə çığıran doğma səsləri eşitdi" [3]. Daha sonra müəllif "ac qurdların körpə quzuları parçaladığı dumanlı bir qış günü" [3] işgəncələrə məruz qalmış insanların meyitlərinin ürək parçalayan qanlı mənzərəsini canlandırır.

Gənc yazarlardan Leylanın (Səfərova) (1981) "İnsansız küçələr" adlı ilk kitabında müxtəlif illərdə yazdığı "Məsum", "Şəhidin göz yaşı" hekayələri ictimai əhəmiyyətli mövzularda qələmə alınması ilə diqqəti cəlb edir. Birinci hekayənin əsas obrazlarından biri Xocalı faciəsinin ağrılı anlarını lentin yaddaşına köçürərək Xocalı soyqırımı haqqında həqiqətlərini dünyaya yayan Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevdir. Tarixdən məlumdur ki, Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun Vitali Balasanyanla apardığı danışıqlar nəticəsində hərbi operator Seyidağa Mövsümlü və Çingiz Mustafayevin Xocalı hadisələrinin görüntülərini lentə alması mümkün olmuşdur. Hekayədə Xocalı dəhşətlərinin təsviri ilə yanaşı, Ağdama gətirilmiş meyitlərin içindən bir ananın qucağından zorla qoparılmış körpənin sağ qalmasının yaratdığı sevinc hissinin təsviri azacıq da olsa, oxucunun qəlbinə toxtaqlıq verir.

Beləliklə, müstəqillik illərində həm azadlıq uğrunda mübarizə, həm də mübariz bir xalqın şəhidlərinin qanı bahasına azadlığını qazandığı, ədalətsiz müharibənin başlanması dövründən bəhs edən ictimai məzmunlu hekayələr, həm də müstəqillikdən öncə yazılmış, lakin bu illərdə nəşr olunmuş hekayə kitabları kifayət qədərdir. Maraqlı məzmunu qədər, bədii-estetik baxımdan seçilən, simvolik məqamlarla zəngin, şüuraltı düşüncənin, hiss və duyğuların ön planda olduğu, dünyaya və həyata fərqli, orijinal, özünəməxsus münasibət ifadə edən hekayələr bir çox müxtəlif mövzulara həsr olunmuşdur. Müstəqillik illərinin digər irihəcmli epik və ya dramatik janrlara nisbətən olduqca zəngin hekayə mənzərəsində Qarabağ həsrəti və Xocalı soyqırımının bədii ifadəsini əks etdirən nümunələr xüsusilə diqqətəlayiqdir. Bədiilik, təsirlilik baxımından nə dərəcədə uğurlu alınıb-alınmamasından asılı olmayaraq bu əsərlər müasir həyatımızın, müharibə və atəşkəs dövrünün obrazlı ifadəsi, qanlı yaddaşımızın, tariximizin bədii əksidir. Qan yaddaşımızı, tarixi keçmişimizi bədii sözün imkanları ilə əks etdirən bu kimi əsərlərin qələmə alınması həm milli ideologiyaya xidmət baxımından, həm də yaşanan tarixi gerçəklikləri dünyaya çatdırmaq, erməni xalqının iç üzünü açıb ortaya qoymaq baxımından çox mühüm məna və əhəmiyyət kəsb edir. Bu hekayələrin bir çox xarici ölkələrdə nəşri müasir Azərbaycan hekayəsinin uğuru kimi dəyərləndirilə bilər.

ƏDƏBİYYAT

1. Axundov A. Çətin günün dostu: Hekayələr. Naxçıvan: Əcəmi, 2003, 120 s.
2. Axundov A., Vəliyev S. Naxçıvan ədəbi mühiti. Bakı: Nurlan, 2008, 216 s.
3. Arifqızı T. Yaralı qadın. https://kulis.az/news/28352
4. Bağıroğlu H. Həyatı olduğu kimi... / Akif Axundov. Çətin günün dostu: Hekayələr. Naxçıvan: Əcəmi, 2003, 120 s.
5. Elsevər H. Qaçmaq igidlik deyil. Bakı: Gənclik,1998, 84 s.
6. Həbibbəyli İ. Yubiley elmi məqaləsi əvəzinə hekayə // 525-ci qəzet, 2018, 27 dekabr.
7. Həşimli H. Əbədi məhəbbət, ədəbi məharət (Ön söz) / Güllü Məmmədova. Mənim üçün varsan. Bakı: Nurlan, 2004, 304 s.
8. İmanlı A. Müharibə başlandı: Hekayələr. Naxçıvan: Məktəb, 2013, 110 s.
9. Qərib Q. İki qapı arasında. Bakı: ADPU, 2007, 114 s.
10. Qasımov R. Bir imzam vardır mənim… https://naxcivanxeberleri.com/cemiyyet/37808-bir-imzam-vardir-mnim-ramiz-qasimov-yazir.html
11. Məmmədova G. Mənim üçün varsan. Bakı: Nurlan, 2004, 304 s.
12. Şərifova S. Ötən il yazılmış nəsr əsərləri haqqında. http://yarpaq.az/az/salide-serifova-ten-il-yazlms-nesr-eserleri-haqqnda/

13. https://525.az/news/36277-bayram-isgenderlinin-hekayeleri

AMEA Naxçıvan Bölməsi
E-mail: ***orujovaaygun82@gmail.com***

Aygun Orujova

ARTISTIC REFLECTION OF THE KHOJALY MISFORTUNE AND THE GRIEF FOR KARABAKH IN THE GENRE OF A STORY DURING THE PERIOD OF INDEPENDENCE (IN THE NAKHCHIVAN WRITER ENVIRONMENT)

The genocides that occurred in the life of the Azerbaijani people at the end of the 20th century, the loss of their native lands, gaining independence at the cost of the blood of martyrs, feelings of sadness caused by refugees, captivity, and other events, inexhaustible longing for their native land, people, Motherland were among the main topics in Azerbaijani literature in general, and in the writing environment of Nakhchivan. The inhuman atrocities of the Khojaly genocide, the occupation by the Armenian-Russian military formations of one of the corners of the homeland – Nagorno-Karabakh and the surrounding regions, the suffering of people incurred because of these vast losses are written in our literary memory by the capabilities of the artistic language. The common thing that unites these artistic samples is the confidence that the people will return to the Holy Homeland one day.

Keywords: *martyrdom, refugee, captivity, undeclared war, freedom, belief in victory.*

Айгюн Оруджева

ХУДОЖЕСТВЕННОЕ ОТРАЖЕНИЕ ХОДЖАЛИНСКОЙ БЕДЫ И КАРАБАХСКОЙ ТОСКИ В ЖАНРЕ ПОВЕСТИ В ПЕРИОД НЕЗАВИСИМОСТИ (В НАХЧЫВАНСКОЙ ЛИТЕРАТУРНОЙ СРЕДЕ)

Геноциды, произошедшие в жизни азербайджанского народа в конце XX века, потеря родных земель, обретение независимости ценой крови шехидов, чувство печали, вызванное беженством, пленом и другими событиями, неиссякаемая тоска по родной земле, народу, Родине были одними из главных тем как в азербайджанской литературе в целом, так и в литературной среде Нахчывана. Бесчеловечные зверства Ходжалинского геноцида, оккупация армяно-российскими военными формированиями одного из уголков родины – Нагорного Карабаха и прилегающих к нему районов, страдания людей, понесенные из-за этих огромных потерь, написаны в нашей литературной памяти возможностями художественного языка. Общим, объединяющим эти художественные образцы, является чувство уверенности в том, что однажды народ обязательно вернется на Святую родину.

Ключевые слова: *шехидизм, беженство, плен, необъявленная война, свобода, вера в победу.*

(Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 02.08.2021
Son variant 03.09.2021

UOT:82 (100)

NƏRGİZ İSMAYILOVA

ŞƏMİL SADİQİN "ODƏRLƏR" ROMANI POSTMODERN KONTEKSTDƏ

Şəmil Sadiqin "OdƏrlər" tarixi-fəlsəfi romanı postmodernizm kontekstindən çox əhəmiyyətlidir. Əsəri Milli Qəhrəman Mübariz İbrahimovun və "İgidliyə görə" medalı ilə təltif edilmiş şəhid baş leytenant Fərid Əhmədovun əziz xatirəsinə həsr edən müəllif, burada əsərdə qələmə alacağı süjetə diqqət çəkir.

Yazar romanda iki əsas süjet xətti cızır. Birinci süjet xəttində o, "Ulu Şaman" adlı məxfi təşkilatın fəaliyyətini, ikincidə isə – mifoloji yaşanmışlıqları əks etdirən hadisələr zinciri türk mifologiyası, Azərbaycançılıq, postmodernizm kontekstində şərh olunur. Şəmil Sadiq romanına başlayarkən oxucularla bir çox məqamları, romanın ortaya çıxma prosesini, zaman kəsimini və əsərdəki xarakterlər barəsində fikirlərini açıq və gizli kodlarla bölüşür: Əsərdə istifadə olunan nümunələrdən konkret zaman kəsimini müəyyən etmək mümkündür. Bu isə metafiksiyadır.

Əsərin postmodern kontekstdən öyrənilməsi son dərəcə aktual və gərəklidir. Burada Şəmil Sadiq türk mifologiyası kontekstindən çıxış edir. Xüsusilə islam dininə dekonstruktiv yanaşmalar diqqəti cəlb edir. Məqalədə "OdƏrlər" romanı kontekstində Azərbaycan bədii nəsrində yer alan postmodern elementlər və təmayüllər tədqiqata cəlb olunmuşdur. Postmodern nəzəriyyə və monoqrafiyalara əsaslanaraq romanda öz əksini tapmış postmodern elementlər araşdırılmış, intertekstuallıq baxımından edilən istinadlar müqayisəli şəkildə araşdırılmışdır.

Açar sözlər: *Postmodernizm, təmayüllər, müqayisə, elementlər, Şəmil Sadiq, roman, "OdƏrlər".*

Romanda baş verən hadisələrə giriş etməzdən öncə Şəmil Sadiq dahi Cavidin "Ölüm var ki, həyat qədər dəyərli... "fikri ilə oxucuya kosmoqonik bir mesaj ötürür.

Şəmil Sadiq "OdƏrlər"in yazılma məqsədinin fəlsəfi düşüncələrinin çatdırılması və vətənpərvərlik kimi məsələlərə diqqət çəkmək, gənclərdə mübariz ruhun oyadılması kimi konsepsiyalarla bağlı olduğunu qeyd edib.

Əsər "Qısa bir zamanda dünyadan bixəbər ucqar kənddə yaşayan kəndlilər xəbər tutdu ki, kəndə nalyığan gəlib. Hamı bir-birinə dəymişdi. Dağ kəndində heç kimin ağlına gələ bilməyəcəyi bir hadisə baş vermişdi. Şəhərdən gəldi-yi ehtimal edilən bir nəfər nal yığırdı. Həm də köhnə nal. Nala verilən pulla dörd təzə nal almaq olardı" !" [6, s. 8]-kimi girişlə başlayır. Postmodern dönəmdə yazılan əsərin nal hadisəsi ilə açılması da təsadüfi deyil. Türk mifologiyasında "Atla yanaşı, atın nalı da qutlu sayılır, nalın tapılması xoşbəxtlik kimi alqılanır, evin qapısı üzərində asılması da "göz qaytarma" (nəzərlik) sayılmışdır" [1, s. 138].

"Şəmil Sadiqin "OdƏrlər" romanı postmodern üslubunda yazılan və eyni zamanda Qarabağ münaqişəsinə həsr olunan nadir iri bədii nəsr nümunəsidir. Postmodern ədəbiyyat intertekstual əlaqələri ilə xüsusi seçilir. Azərbaycan postmodern romanında da güclü intertekstual əlaqələrə rast gəlirik. Məsələn, Şəmil Sadiqin "OdƏrlər" romanında Hüseyn Cavidin və İsa Hüseynovun əsərləri ilə sıx intertekstual əlaqələr müşahidə olunur" [9, s. 238].

Bundan başqa Arslanın Qoroğlu adlandırılması və Dəmirçioğlu obrazı "Koroğlu dastan"ının özünü və "türk eposlarının özəyində duran "Qoroğlu/Koroğlu" mifinin tarixi köklərinə" [4] istinad, işarə edir: "Tanrının qılıncını simvolizə edirdi. Bütün böyük sərkərdələr daim həmin bu qılıncın axtarışında olmuşdur. Atillanın əldə etdiyi qılınc da, Qoroğlunun (Goroğlunun, Koroğlunun) göylərdən gələn Misri qılıncı da bu qılıncdan idi. – Qoroğlu, yaxın gəl, al bu qılıncı. Bundan sonra son damla qanına qədər haqq yolundan yayınmayacağına and iç!" [6, s. 19].

Göründüyü kimi, romanda "Koroğlu" eposunun variantlarına edilən göndərmələr diqqəti

cəlb edir. Bu səpkidə yazar ümumtürk mövqeyindən çıxış edərək postmodern təmayüllər fonunda əsərini inkişaf etdirir: "– Qoroğlu, aramıza xoş gəldin!

– Siz kimsiniz? Mən hara xoş gəldim?

– Oğul, sən Ata ocağına gəlmisən, narahat olma! İştirakçısı olduğun bu ocağın tarixi çox qədimdir. Türk dünyasının və bəşəriyyətin qurtuluşu üçün çalışır, zaman-zaman böyük zərbələrə məruz qalaraq itirilmiş tarixlərin üzə çıxarılması üçün mübarizə aparır" [6, s. 15].

Postmodern romanda həmçinin tarix obyektiv olmaqdan çıxır, çünki tarixin istinad etdiyi reallıq anlayışlarına şübhə duyulur. Tarixi reallığa sadiq qalmamaq müəllif üçün bir növ var olmaq prinsipidir, azadlıqdır. Buna müvəqqəti təhrif (Temporal distortion) deyilir. Postmodern bədii ədəbiyyatdakı müvəqqəti təhrif tez-tez ironiya naminə müxtəlif yollarla istifadə olunur. Tarixi metafiksiya buna bir nümunədir.

Modern roman tarixdə populyar olanları nəhəng simalar və hadisələr fonunda kimi təqdim edərkən; postmodern romanda adi insanlar tarixi şəxsiyyət kimi bədii ədəbiyyata daxil edilmişdir. Postmodernizmdə fərdi reallıqlar, mətnlər və zamanların məcmusunu əks etdirən həqiqət, mətn və zamana bənzər bir baxış mövcuddur. Zamanın şəxsi quruluşu mədəni kanondan və ayrıca fərdi idosistemdə ortaya çıxan fərdi duyğudan asılıdır.

Salidə Şərifova yazır: "Postmodern romanlarda zamanın "sıxlaşma"sı ("sıxılma") ona gətirib çıxarır ki, bədii əsərdə fasiləli nizamlı zamandan dövrü prosesə keçidi və ya da zamanın "dondurulmasına" ehtimal edilir. Məkan "sıxılma"sı real və sürreal qarşılıqlı nüfuz etmənin güclənməsində özünü göstərir. Zaman çərçivəsində zamansızlığı nəzərə çarpdırmaqla sərbəst hərəkət etmələr əsərin ahəngdarlığına xələl gətirmir.Şəmil Sadiqin "OdƏrlər" romanında fabula Odərlərin Şuşaya yürüşü və Dədə Əfəndinin altı söhbəti əsasında inkişaf edir. Hadisələr pərakəndəlik xarakteri daşısa da, bəzən bir-biri ilə əlaqəli olmasalar da romanın əsas ideyası ilə süjet xətlərinə birləşdirilirlər" [8].

Romanda süjetdəki hadisələrin bir-birinə bənd olunması montaj variantı ilə həyata keçirilmişdir: "Kapitan bu hadisəni həmişə dostları ilə söhbətində Nizaminin "İsgəndərnamə" poemasındakı İsgəndərin zəncilərlə döyüşü ilə müqayisə edirdi. Belə ki, bir gün İsgəndərin ordusu zəncilərlə döyüşdə məğlub olub geriyə qaçır. Döyüşçülər arasında belə bir şayiə yayılır ki, düşmən tərəfin şahı qaniçəndir. Əsir düşmüş əsgərlərin qanını içir. İsgəndər bu hadisəni eşidəndə çox fikirləşdi. Amma yol tapa bilmirdi ki, bilmirdi. Bunun üçün də qaniçən ermənilərə İsgəndər kimi cavab vermək lazım idi." [6, s. 26].

Vurğulayaq ki, Nizaminin haqqında bəhs olunan poemasında gerçəkdən də, belə məqamlar və hadisələr mövcuddur. Məmməd Qocayev yazır: "Döyüş səhnələri geniş şəkildə, bütün xırda təfərrüatları ilə təsvir olunur. Zənci bahadırları adları ilə təqdim olunur (Zəraçə, Pələngər), onların portretləri realist boyalarla təsvir olunur. İsgəndər özü də, hər şeydən əvvəl, bir cəngavər kimi çıxış edir. Heç bir pəhləvanın qalib gələ bilmədiyi qaniçən, filbədənli zənci bahadırının qarşısına İsgəndər özü çıxır və qalib gəlir. O, zəngibarlara öz mənəviyyatının üstünlüyünü deyil, öz gücünün üstünlüyünü göstərir" [11]. "Müqəddəs mətinlərin "Əvvəlcə söz var idi!" anlayışını interstekstuallığın mərkəzinə qoya bilərik. Bu anlayışa görə heç bir mətn bənzərsiz deyil. Mətn əvvəllər bu və ya digər şəkildə yazılmış mətndir. Mətn əvvəllər bu və ya digər şəkildə yazılmış bir mətnin ümumi və ya xüsusi bir parodiyasıdır. İlk baxışdan belə deyilsə, müəyyən hissələr kolajlanmıştır və ya heç olmasa hər hansı bir mətnə istinadlar vardır" [2, s. 378-386].

Görüldüyü kimi Nizaminin "İsgəndərnamə" poemasındakı əsas süjet romana montajdaxil edilib.

Romanda həmçinin islam, mifologiyaya müraciət, folklordan yaradıcı istifadə kimi məsələr də hakim mövqe tutur:

"Belə ki, Dədə Əfəndi, Ata kişi, Dəmirçioğlu ağsaqqal obrazları gözümüzdə Dədə Qorqudu canlandırır. Eyni zamanda romanda "Ulu Şaman" adlı məxfi təşkilatın fəaliyyəti əsasında yeni miflər formalaşdırılır. Postmodern romanlarda reallıqla əlaqəsi olan obrazlarla yanaşı gerçəkliklə əlaqəsi olmayan individual obrazlar romanın açıq mətn olmasına imkan yaradır. Dədə Əfəndinin altı söhbəti bizə ağsaqqal nəsihəti ilə ulularımızı xatırladır" [9, s. 45].

Yaxud: "Quran"da yazılıb ki, Tanrı bu dünyanı 6 günə yaratdı. O nə deməkdi, niyə altı günə? Bunlar da dediyimiz bu beş rəqəmi ilə bağlı idi. Bəs niyə həftənin beşinci günü müqəddəs gün hesab edilir?" [6, s. 53].

Əsərdəki 6 rəqəmi müqqədəs olmaqla yanaşı, postmodernnizmin qurucularından olan Umberto Ekonun "Ədəbiyyat meşələrində altı gəzinti" əsərini xatırladır.

Romanda həmçinin qədim dövrə məxsus, folklorun nəfəsinin özündə əks etdirən gizli simvollarla xəbərləşmə, igidi sınaqdan keçirmə kimi, şamanlıq, müqqəddəs simvollar, xalq inancları kimi məsələlərə də geniş yer verilib. Əsərdəki obrazların hər birinin qanında xanların qanının olması məsələsi də Azərbaycan xalqının milli-qəhrəmanlıq köklərini, tarixini özündə ehtiva edir.

Əsərdəki: "Rəhman və Rəhim Allahın adı ilə. Həmd-səna və tərif aləmlərin Rəbbi olan Allaha məxsusdur. Rəhm edənlərin rəhm edənidir. Qiyamət gününün sahibidir. İlahi! Yalnız sənə ibadət edir və yalnız Səndən kömək diləyirik. Bizi doğru yola hidayət et. O kəslərin yoluna ki, onlara nemət vermisən...

"Fatihə" surəsinin tərcüməsi təqribən belə idi. Amma onlar Uca Tanrıya kitabların təklifinə əsasən Rəbbin tövsiyə etdiyi dildə – ərəb dilində ibadət edirdilər" hissədə "Fatihə" surəsindən olan hissə romana yapışdırılıb. Burada yazar postmodern texnika olan pastişdən istifadə edir. Bu texnikanı istifadə etməkdə müəlliflərin əsas məqsədi əvvəlki müəlliflərin əsərlərinə və üslublarına hörmət etmək və ya parodiya etməkdir. Romanda bir çox dinlər, təriqətlər haqqında tarixi və subyektiv mülahizələr mövcud olsa da, ən çox islam dini ilə məqamlarda yazar, modernist, rasionalist və bəzən postmodern kimi çıxış edir.

"Oğul, "Quran" ayələri Məhəmməd peyğəmbərə heç də göydən o cür gəlməmişdi. Sadəcə həm Məhəmməd peyğəmbər, həm də ondan əvvəlki peyğəmbərlər Tanrının, Yaradanın insanlığa belə bir yaşam qanunları göndərdiyini bilirdilər. Onun dediklərinin əksəriyyəti Tanrının sözüdür, amma bəzi məsələləri dövrə, şəraitə və məkana görə ya dəyişmiş, ya da əlavələr etmişlər" [6, s. 71] – xüsusilə bu məqamda "Qurani-kərimin" dəyişdirilməyən yeganə müqəddəs mətn olduğu konsepsiyası dekonstruksiya olunur. Cavad Heyət "Göktanrı dini həmin şaman dinidir" deyə qeyd edir [3, s. 58].

Əsərdə postmodernizmin Poioumenon və hiperreallıq kimi elementlərindən də, istifadə olunub.

"Poioumenon", Alastair Fovler tərəfindən hekayənin yaradılış prosesi ilə bağlı olduğu metafiksiyanın müəyyən bir növünə istinad etmək üçün önə sürülən bir termindir. Fovlerə görə, "poioumenon, uydurma və reallığın sərhədlərini – mətnin həqiqətinin sərhədlərini araşdırmaq üçün fürsətlər təqdim etmək üçün yaradılır və buna hesablanır!

"Postmodernizmin təməl anlayışlarından biri olan hiperreallıq isə, eyni zamanda gerçəklə gerçək olmayan arasındakı xəttin bulanıqlaşdırıldığı bir vəziyyəti ifadə edir, burada "hiper" prefiksi bir reallıq modeli tərəfindən yaradılan həqiqətin gerçəklikdən daha real olduğunu göstərir" [5, s. 149].

"Quran"ın göydən kəlmə-kəlmə, surələrlə, ayələrlə, gəldiyi fikir də yanlışdır, oğul. Bizi Yaradan, səncə, o qədər dar düşüncəyə malik idi ki, insanlıq üçün fikirlər söyləsin, sonra da onların keçərsiz olduğunu qeyd etsin. İslam tarixini yadına salsan, görərsən ki, Məhəmmədin dövründə neçə-neçə ayənin sonra gələn ayələrdə keçərsiz olduğu qeyd edilir. "Əl-bəqərə" surəsinin 106-cı ayəsini yadına sal: "Biz (zaman və şəraitin tələbinə görə) hər hansı bir ayəni (ayənin hökmünü) ləğv edir və ya onu unutdururuqsa, ondan yaxşısını, yaxud ona bənzərini gətiririk. Allahın hər şeyə qadir olduğunu bilmirsənmi?" Bax, oğul, "Quran"ın özündə belə yazılıb ki, bəzi ayələri sonradan qüvvədən saldıq. Görürsən, nə qədər gülünc görünür?" [6, s. 73].

Çünki Rönesansla birlikdə inkişaf edən humanizm, Tanrı və vəhy mərkəzli bir dünya; kainatdan insan mərkəzli dünya və kainata keçidinə əsaslanmışdır. "Beləliklə, Tanrı və vəhy əsas istinad olmaqdan çıxdı, insan bir istinad sistemi olaraq Tanrı ilə əvəz edildi. Bunun təbii bir nəticəsi olaraq, insanın yaratdığı məlumatlar vəhyin yerini tutmuşdur" [10].

Romanda: "Onda Məhəmmədin kim olduğunu biləcəksən. O da seçilmişlərdən idi. O da Dədə Qorqud kimi seçilmiş, qanı təmizlərdən idi. Gök Tanrı elmini başqa formada ərəblərə satdı. Halbuki dədəmiz Mete xan əllərində olan ideyanı əsas tutaraq deyirdi ki, barış istəyən insanları qurtarmaq üçün Tanrı məni vəzifələndirdi" – kimi məqamlarda Məhəmməd peyğəmbər və Dədə Qorqud eyniləşdirilir.

"Amasiyanın Qarağac kəndində yunan quldurları ağlasığmaz müsibətlər törətmişdilər. Qadınların kürəyinə qaynar su dolu samovarı bağlayıb əzab və işgəncə içində öldürmüş, hamilə qadınların qarnını yararaq körpələri çıxarmışdılar. Üç-dörd azyaşlı uşağı payaya keçirərək, üst-üstə kərpic evlərin fasadına söykəmişdilər..." [6, s. 130] romanda yunanların törətdiyi bu ağlasığmaz faciələr ermənilərin Xocalıda törətdiyi qətillər, vəhşiliklər – Xocalı faciəsi ilə intertekstual əlaqədədir.

Roman postmodernizmin bir çox əsas elementini özündə cəmləndirə bilib "OdƏrlər başsız atlı kimi yürüyürdülər. Fikirlər uzaq-larda, ruhlar isə göylərdə idi. Artıq xeyli məsafə qət et-mişdilər, amma heç biri danışmırdı" [6, s. 144]. Burada yazar "Başsız atlı" – Mayn Rid tərəfindən 1865-cı ildə yazılmış romana göndərmə edir. Qeyd edək ki, Avropa ədəbiyyatında bu kimi göndərmələrə çox rast gəlinir. Yaxud: "Boqomilla uzunboğaz, qara çəkməsini tələsik bağlayıb, ona xüsusi yaraşıq verən qara saçlarını başı ilə arxaya ataraq, telefonunu götürüb hoteldən çıxdı. Amma cazibədar olmaq üçün lazım olan bütün vasitələrdən istifadə etmişdi.

Vurduğu "Hypnose"la tənin vəhdətindən doğan ətirsə Patrik Zuskindin "Ətriyyatçı"sındakı Jan Batist Qrenuyun hazırladığı ətir kimi insanların ağlını başından çıxarırdı" [6, s. 158-159].

Nəticə olaraq qeyd edə bilərik ki, roman Azərbaycançılıq və türkçülük kontekstində yazılan önəmli əsərlərdən biridir. Əsər həm də, postmodernizmin çoxşaxəli diapozuna milli ruh qatan, türk və milli postmodern romançılığın inkişafı üçün atılan mühum addım kimi əhəmiyyətlidir.Burada yazar postmodernizmin bir çox elementlərindən istifadə etməklə klassik mətnlərə münasibət bildirmiş, beləliklə həm də türklərin sirli, ulu, qəhrəmanlıqlarla dolu tarixinə nəzər salmışdır. Bəzi kontekstlərdən müqəddəs mətnlərin və tarixin dekonstruksiyası ilə rastlaşsaq da, xüsusilə din ilə bağlı məsələlərdə yüksək skeptizimin nümayiş olunduğu roman Azərbaycan bədii nəsrində önəmli yerlərdən birini tutacaq.

ƏDƏBİYYAT

1. Cəlilov F.A. İslamöncəsi Türk tarixi: 9 Bitik. V Bitik: Mifologiyada tarix, İstanbul, 2019, 229 s., s. 138.
2. Güven E.B. Romanda postmodern ögeler // RumeliDE Dil ve Edebiyat Araştırmaları Dergisi 2020, № 19 (Haziran), s. 378-386.
3. Heyət C. Türklərin tarixi və mədəniyyətinə baxış. Azərnəşr, 1993.
4. Qafarlı R. Azərbaycan türklərinin mifologiyasında dünya dağına inam. http://anl.az/down/meqale/xalqcebhesi/2017/noyabr/563822.htm
5. Best S., Kellner D. Postmodern Teori-Eleştirel Soruşturmalar / Çev.: M.Küçük. İstanbul: Ayrıntı, 1998, s. 149.
6. Sadiq Ş.K. OdƏrlər. 2-ci nəşr, Bakı: Xan nəşriyyatı, 2014-2017, 224 s.
7. Ramen Sh., Dr. Chaudhary P. Common Themes and Techniques of Postmodern Litera ture of Shakespeare. https://www.ripublication.com/ijepa/ijepav1n211.pdf.
8. Şərifova S.Ş. "Odərlər"in milli yolu // 525-ci qəz., 2014, 17 oktyabr, s. 8.
9. Şərifova S.Ş. Klassiklər və müasirlər söz müstəvisində. Bakı: Elm və təhsil, 2018, 568 s.
10. Tekin M. The Problem of Religion in Postmodernity // MİLEL VE NİHAL, inanç, kültür ve mitoloji araştırmaları dergisi, 2015, c. 12, № 2 (Temmuz-Aralık), s. 7-24.
11. www.kaspi.az/az/isgendername

AMEA Naxçıvan Bölməsi
E-mail: ***ismayilovanargis@gmail.com***

Nargiz Ismayilova

SHAMIL SADIG'S NOVEL "ODERLER" IN POSTMODERN CONTEXT

Shamil Sadig's historical-philosophical novel "OdErler" is significant in the context of postmodernism. Dedicating his work to the memory of National Hero Mubariz Ibrahimov and the martyred senior lieutenant Farid Ahmadov, who was awarded the Medal for Courage, the author draws attention to the plot of this work.

The author draws two main plotlines in the novel. In the first plotline, he interprets the activities of a secret organization called "Great Shaman," and in the second – a chain of events reflecting the mythological experiences in Turkish mythology, Azerbaijanism, postmodernism. At the beginning of the novel, Shamil Sadig shares with readers many points, the process of the novel's emergence, the passage of time, and his views on the characters in work with open and secret codes: It is possible to determine the specific passage of time from the examples used in work. This is metafiction.

As it is known, Meta-theory, or meta-ideology. Metafiction directly explains the process of writing a work in postmodern literature or its perception through allusions in the text. The writer presents the text to the reader by combining the real world, the subconscious, and the fictional.

The study of the work from a postmodern context is highly relevant and necessary. Here Shamil Sadig speaks in the context of Turkish mythology. Deconstructive approaches to Islam

are especially noteworthy. The paper examines the postmodern elements and tendencies in Azerbaijani prose in the context of the novel "OdErler". Based on postmodern theories and monographs, the postmodern elements reflected in the novel are studied, the intertextual references are compared.

Keywords: *postmodernism, tendencies, comparison, elements, Shamil Sadig, novel, "OdErler".*

Наргиз Исмаилова

РОМАН ШАМИЛЯ САДИГА «ОГНЕННЫЕ ВОИНЫ» В ПОСТМОДЕРНИСТСКОМ КОНТЕКСТЕ

Историко-философский роман Шамиля Садига «Огненные воины» очень важен в контексте постмодернизма. Автор, посвятивший свое произведение памяти Национального героя Мубариза Ибрагимова и старшего лейтенанта Фарида Ахмедова, награжденного медалью «За отвагу», обращает здесь внимание на сюжет произведения.

В романе автор проводит две основные сюжетные линии. В первой сюжетной линии он описывает деятельность секретной организации под названием «Великий шаман», а во второй – цепочку событий, отражающих мифологические переживания, тюркскую мифологию, Азербайджанство в контексте постмодернизма. В начале своего романа Шамиль Садиг делится с читателями многими моментами, процессом зарождения романа, течением времени и своим мнением касательно персонажей произведения: из примеров, использованных в романе, можно определить, о каком временном отрывке идет речь. Это называется метафикцией.

Изучение произведения в постмодернистском контексте крайне актуально и необходимо. Здесь Шамиль Садиг ссылается на контекст тюркской мифологии. Особое внимание привлекают деконструктивные подходы к исламу. В статье исследуются постмодернистские элементы и тенденции в азербайджанской прозе в контексте романа «Огненные воины». На основе постмодернистских теорий и монографий исследуются отраженные в романе постмодернистские элементы, приводится сравнение интертекстуальных отсылок.

Ключевые слова: *постмодернизм, тенденции, сравнение, элементы, Шамиль Садиг, роман, «Огненные воины».*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 24.07.2021
Son variant 15.09.2021

UOT: 801. 73

SƏBUHİ İBRAHİMOV

"KƏŞKÜLÜN-NUR" ƏSƏRİNDƏ MƏNTİQİ YANAŞMA ÜSULLARI

Məqalədə məntiqi təfəkkür metodunun əsas predmeti, funksiyaları, formalaşması və həyata keçmək imkanlarını əks etdirən hadisələrlə bağlı yetkin bir mövzu ətrafında bilgilər verilmişdir. Hacı Molla Məhəmməd Naxçıvaninin "Kəşkülün-Nur" kitabında verilən bu məqamlar bir daha əsərin zəngin xüsusiyyətlərindən xəbər verir. Naxçıvana dair əlyazma mətnlərinin filoloji və tekstoloji cəhətdən tədqiqi zamanı aşkar olunan əsərin məzmunu müasir dövrümüzün ən qiymətli mənbələrindən hesab olunur. Əsərdə nəinki məntiqi yanaşma üsulları, həmçinin bəşəri ideyaların, insani prinsiplərin saf və sağlam tərzdə formalaşması, elmi-fəlsəfi idraka söykənərək hərəkət və davranış tərzi, təfəkkür metodunun bir çox zəruri formaları, fəlsəfi funksiyaları, mənəvi-ruhi sferaların, mədəni qaydaların və bütövlükdə əxlaqi prinsiplərin müxtəlif növləri öz əksini tapmışdır.

Açar sözlər: *Naxçıvan, əlyazma, məntiq, üsul, "Kəşkülün-nur", əsər.*

Naxçıvana dair əlyazmaların araşdırılması zamanı müəyyən olmuşdur ki, dərin bilik və bacarığa malik olan Hacı Molla Məhəmməd Naxçıvaninin "Kəşkülün-Nur" ("Nur qabı") kitabı elmi-fəlsəfi və eyni zamanda məntiqi baxımdan çox qiymətli tədqiqat əsərdir. Əsərin məzmunu teoloji cəhətdən izah edilsə də, müxtəlif dünyəvi elm sahələrinin zənginliyindən xəbər verir. Kitabın yazılma tarixi isə XIX əsrin axırlarına təsadüf etsə də, tarixi baxımdan əvvəlki dövrlərin məntiqi hadisələri ilə zəngindir. Məntiqi hadisələrlə bağlı əsərdə seçiləcək bir rəvayətin qeyd edilməsi və ətraflı izah edilməsi daha çox diqqət çəkir. Belə ki, Hacı Molla Məhəmməd Naxçıvani əsərdə hadisələri məntiqi təfəkkür anlamında verir. Müəllif istinadlara əsasən yazır: "Bir gün Peyğəmbər əleyhissalam meyl eylədi Əli əleyhissalamla mülaqat (həmsöhbət) olsun. Gəldi həzrət Əli əleyhissalamın dövlətxanəsinə (mənzilinə) Xatuni-qiyamət (qiyamətin ən xoşbəxt qadını – Fatimeyi-Zəhranın ləqəblərindən biri) salamullah əleyhadan xəbər aldı ki, Əli ibn Əbi Talib əleyhissalam hardadır? Ərz eylədi, bir saat olar ki, xaricə təşrif aparıb (bayıra çıxıb). Həzrət Rəsul (s) buyurdu: Ya Fatimə, Həsəneyni (Həsən və Hüseyn) hazır eylə atalarının ətrini onlardan istişmam (iy, qoxu almaq, ətrin iyini almaq) edərəm. Xatuni-qiyamət salamullahi-əleyha Həsəneyni hazır eylədi. Rəsuli-Xuda (s) Həsəneyni (ə) qucağına alıb çox mərhəmət və nəvazişlər şahzadələrə eylədi. Bu halda Salmani-Farsi hazır oldu. Bəəd izn və salamu-cavab (izn və salamın cavabından sonra) əgləşdi. Sonra Xatuni-qiyamət süfrə gətirib; bir kasa nurani və rövşən ba səfa əsəl (bal) ilə mümillu (usandıran) bir nazik, çox lətif tük əsəlin üstündə o Həzrətin hüzuruna qoydu ki, meyl eylə-sinlər. Həzrət kasaya, əsələ və tükə nəzər edib gördü çox lətif və müsəffadılar (saf, təmiz). Buyurdu: Ya Həsən, ya Hüseyn, ya Fatimə, ya Salman hər birimiz bu kasanı, bu əsəli və bu tükü bir zada təşbih edək, bəəd (sonra) əl onun tərəfinə uzadaq. Bəs Salman, əvvəl sən təşbih (bənzətmə, yozmaq) eylə. Salman ərz eylədi; Dindar şəxs bu kasadan rövşənraxdır və onun iymanı bu əsəldən şirinraxdı, amma vəfat edəndə iymanlı qəbrə getmək bu tükdən nazikraxdı. Həzrət təhsin (tərif, afərin) eylədi" [1, s. 305].

Əsərdə verilən bu deyim kamil insanın mənəvi saflığından xəbər verir. İnsani keyfiyyətlərə malik olan ruhani şəxsin sifəti təbii ki, rövşən və nurlu olmalıdır. Üzüqara olmaq möminin sifətlərindən deyildir. Çünki möminin baldan şirin iymanı onun üzünün nurlu olmasının səbəb və nişanə əlamətlərini bildirir. Həmçinin məntiqi təfəkkür baxımından belə hasil olur ki, kamil

insanın nəfsani istəkləri onun tükdən nazik hesab edilən iymanlı həyatdan köçməsinə böyük əngəldir. Çünki nəfsi istəklər insanın böyük düşmənidir.

Sonra İmam Həsənə işarə edildi: "İmam Həsən əleyhissalam ərz eylədi; Padşahlıq bu kasadan rövşənraxdı, məmləkətin mənafeyini padşahlıqda sərf eyləmək bu əsəldən şirinraxdı və padşahlıqda ədalət eyləmək bu tükdən nazikraxdır" [1, s. 305].

Hər bir rəhbərliyin öz məsuliyyəti olduğu kimi padşahlıq vəzifəsinin də öz ciddi yanaşma metodu və idarəetmə tərzi var. Belə ki, padşahlıq millətin, dövlətin görünən nurlu simasıdır. Ona, idarə etdiyi ölkə, məmləkət və orada yaşayan insanların mənafeyi üçün səy göstərmək nə qədər şirin və şərəflidir. Təbii ki, rəiyyətin hamısını tam özündən razı salmaq çətin və məşəqqətli olduğu üçün əsərdə ədalət prinsipi tükdən nazik və incə olduğu haqlı olaraq qeyd edilir.

"İmam Hüseyn əleyhissalam ərz eylədi; Elm bu kasadan rövşənraxdı və elmi anlamaq bu əsəldən şirinraxdı, amma elmə əməl eyləmək bu tükdən nazikraxdı. Həzrət təhsin buyurdu" [1, s. 305].

Elmin nurlu kasadan daha parlaq olması, elmi anlamağın balın şirinliyindən üstünlüyü və elmə əməl etmək tük qədər nazik olması şair və yazıçılarımız tərəfindən də qələmə alınmışdır. Hətta XV əsr Azərbaycan sufi mütəfəkkirlərindən olan Dədə Ömər Rövşəni özünün "Miskinlik kitabı" əlyazmasında yazırdı:

Əməl eyləməsə elm ilə alim,
Olur cahil, olub nəfsinə zalim [2, s. 34a].

Həmçinin Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvi də əsərlərində elmə çox böyük önəm vermişdir:

Elm ilə, ədəblə tanınar şərəf,
Mirvari olmasa nə lazım sədəf.
Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz.
Hər uca rütbədən biliniz fəqət,
Alimin rütbəsi ucadır əlbət.
Elm öyrənməyi ar bilən hər kəs,
Dünyada mərifət qazana bilməz [3].

"Elm həqiqəti öyrənir, həyatın qanunauyğunluqlarını, təbiətin sirlərini bir-birinin ardınca kəşf edir. Elmlə məşğul olmaq, hər şeydən əvvəl, həqiqəti axtarmaq deməkdir, həqiqəti axtarmaq isə gözəlliyin sorağında gəzmək, onu kəşf etmək deməkdir. Çünki həqiqət gözəllikdən, gözəllik isə həqiqətdən ayrı deyildir. Gözəllik duyğusu varlığın inikası, mövcud həqiqətin idrakıdır. İnsan bütün varlığı ilə gözəlliyə can atır və deməli, həqiqi gözəlliyi duymaq, dərk etmək üçün elm öyrənmək vacibdir.

Elm həm də dünyagörüşüdür, insanı yüksəldən mənəvi ucalıqdır. İnsan yalnız elmi, bacarığı ilə başqalarından fərqlənə, onlara nisbətən üstün mövqeyə malik ola bilər" [3].

Əsərdə verilən bu məntiqi üsul, elmin dəyərindən, onu anlamağın zəruriliyindən və əməl edib həyata keçməsi zərurətini bir məqsəd kimi qarşıya qoyur.

Sonra Fatimeyi-Zəhraya işarə olundu: "Fatimeyi-Zəhra əleyhassalam ərz eylədi; Salehə övrətlər bu kasadan rövşənraxdı və onların nəzərlərində həya və abr bu əsəldən şirinraxdı, amma naməhrəmlərin gözlərindən özlərini saxlamaq və məstur (qapalı) eyləmək bu tükdən nazikraxdı" [1, s. 305].

Həqiqən bu mənalar qadının ismətindən, gözəlliyindən və ana kimi müqəddəsliyindən xəbər verən məntiqi yanaşmalardan biridir.

Sonra Rəsuli-Əkrəm (s) buyurdu: "Əli əleyhissalamın yeri boşdu. Ta görək onun xatiri-şərifinə nə yetişəcək. Bu xüsusda, bu halda Əmirəl Möminin əleyhissalamın avazi-şərifi (şərəfli səsi) gəldi ki, bismillahir-rəhmanir-rəhim deyib daxil olanda nəzəri-ənvarı (nurlu baxışları) Rəsuli-Xuda (s), Həsəneyn əleyhüməssalama, Fatimə salamullahi əleyha, Salman rəziyəllahu ənhu və kasaya düşdü ki, əyləşiblər. Lakin heç biri kasaya əl uzatmayıblar. Əmir əleyhissalam salam edib – Həzrət Rəsul (s) cavab rəddi (salamın cavabın aldı) buyurdu ki, ya Əli xoş gəldin. Gəl ki, əcəb söhbətimiz var. Ərz eylədi, ya Rəsuləllah (s) dörd nəfər əshabdan qapıda durub müntəzir iznidirlər. Rəsuli-Xuda (s) məzun edib onlar da daxil oldular. Fatimeyi-Zəhra (ə) bəs pərdə arxasına təşrif apardı. O əshab, Abuzzər, Əmmari-Yasir, Cabir Ənsari və Abdullah Ənsari idilər. Həzrət izn verib əgləşdilər. Bəs Həzrət Rəsul (s) cəmi əhvalati-sabiqəni (olan əhvalatları) Əmirəl Möminin əleyhissalama dedi. Sonra buyurdu, ya Əli növbə sənindi. Ərz eylədi izn verin əvvəl bu səhabələr təşbihələrin ərz eyləsinlər bəəd mən də ərz edərəm. Həzrət Abuzzərə mütəvəccə olub buyurdu: Əvvəl sən degilən. Abuzzər ərz eylədi, ya Rəsuləllah (s) sənin şəriətin bu kasadan rövşənraxdı, şəriət yolu ilə getmək bu əsəldən şirinraxdı, amma şəriətə əməl etmək bu tükdən nazikraxdı. Həzrət Rəsul (s) təhsin eylədi" [1, s. 305-306].

Bu məntiqi deyimin anlamı onu deməyə imkan verir ki, nə qədər nurlu və parlaq adlandırılan Peyğəmbər şəriəti, o şəriətin yolu ilə gedib onun şirinliyini anlamaq, bu şəriətə əməl etməyin tük qədər nazik və incə tellər üzərində olduğu danılmazdır.

"Əmmari-Yasir ərz eylədi, Quran bu kasadan rövşənraxdı, tilavəti-Quran (Quranı gözəl avazla oxumaq) bu əsəldən şirinraxdı, amma Quranın əhkamına (hökmlərinə) əməl eyləmək bu tükdən nazikraxdı. Həzrət təhsin eylədi" [1, s. 306].

Sonra digər əshaba işarə edildi. Cabir Ənsari ərz eylədi: "Namaz bu kasadan rövşənraxdı, namaz qılmaq bu əsəldən şirinraxdı və namazda hüzuri-qəlbilən olmaq bu tükdən nazikraxdı. Həzrət təhsin eylədi" [1, s. 306].

"Abdullah ərz eylədi, Zəkat bu kasadan rövşənraxdı, zəkatı diqqətilən əda eyləmək bu əsəldən şirinraxdı və zəkatı müstəhəqqə (haqqı olan, ehtiyacı olan, möhtac) yetirmək bu tükdən nazikraxdı" [1, s. 306].

Əmirəl Möminin əleyhissalam ərz eylədi, qonaq bu kasadan rövşənraxdı, qonağa izzəti-ehtiram eyləmək bu əsəldən şirinraxdı, amma qonağı özündən razı salmaq bu tükdən nazikraxdı. Həzrət təhsin eylədi və buyurdu: Həqqən ya Əli. Hər nə ki, səndən eşitdim hamısı cavanmərdlikdən və səxavətdəndi" [1, s. 306].

Məntiqi yanaşmanın ən üstün cəhəti ondan ibarətdir ki, adət-ənənələrimizin rəmzi olan qonaq qarşılamaq və qonağı razı halda yola salmaq keyfiyyətləri əsərdə öz əksini tapmışdır. Belə ki, adət-ənənələrimizə uyğun olaraq qonağın nurlu gəlişi xeyir-bərəkət rəmzi, ona göstərilən izzət və ehtiram şirinlik yozumuna, onu özündən razı salmaq isə incəlik zərurətində qeyd olunmuşdur.

"Bəəd əz an (ondan sonra) Əmir əleyhissalam ərz eylədi, ya Rəsuləllah (s) hala (indi) növbə Siz cənabındı. Rəsuli-Xuda (s) buyurdu: Mərifəti-həqq bu kasadan rövşənraxdı, mərifəti-həqqi anlamaq bu əsəldən şirinraxdı, amma mərifətə əməl eyləmək bu tükdən nazikraxdı. Hamı təhsin eylədi" [1, s. 306].

"Bəs Həzrət istədi ki, mübarək əlin kasaya uzatsın Cəbrayıl (ə) ərz eylədi, ya Rəsuləllah (s) bu təşbihatı (bənzətməni) Sizlər bəyan edən vaxtdan mən Sizin xidmətinizdə hazıram. Mənim də bir təşbihəm (bənzətməm) var. Həzrət Rəsulullah (s) buyurdu: Degilən. Ərz eylədi, Xudavəndi-Təbarak və Təala bu kasadan rövşənraxdı, Allahın əmri və rzası ilə rəftar eyləmək bu əsəldən şirinraxdı, amma Allahı özündən razı eyləmək bu tükdən nazikraxdı" [1, s. 307].

"Bəəd əz an (ondan sonra) ərz eylədi, ya Rəsuləllah (s) bu kasanı mən Allahın hökmü ilə gətirdim Behiştdən. Bu tükü filan Hurüleynin (behiştin huri gözlü qadını) zülfündən coda (ayırmaq) edib bu kasanın üstündən çəkdim. Allahın məqsudi bu idi ki, görsün Siz bu kasanın üstündə nə sözlər bəyan edəcəksiz. Həqqən ki, o zadı ki, Allahın rzasıydı Sizdən birruz (yaxşı iş) zühura gəldi" [1, s. 307].

"Hala Pərvərdigari-Aləm özü bir təşbih edir və buyurur; Ya Məhəmməd (s) Behişt ki, səndən, sənin ümmətindən və Əli ibn Əbi Talib əleyhissalamın dostlarından ötrü xəlq eyləmişəm bu kasadan rövşənraxdı, Behiştin nemətləri bu əsəldən şirinraxdı, amma pole-siratdan (qiyamətdə olan sırat körpüsü) bəndələrimin keçməsi bu tükdən nazikraxdı. Bu söz ki, bu kəlmənin başındaydı ondan sonra əllərin kasaya uzadıb meyl eylədilər. Həzrət Rəsulin məqsudi bu idi ki, istəmirdi Əli əleyhissalam təşrif gətirməmiş meyl eyləsin" [1, s. 307].

Nəticə olaraq belə qənaətə gəlmək olar ki, "Kəşkülün-nur" əsərində məntiqi yanaşma üsulları və onları yaradan amillər milli mentalitetimizi canlandıran, onu həyata keçirən əsas dəyərlərdən biridir. H.M.Naxçıvaninin elmi-fəlsəfi mənbələrə söykənən bu kitabı adət-ənənələrimizi yaşatmaqla bərabər, milli ruhun inkişafına təkan verən və millətimizin milli varlığının qüdrətlənməsində olduqca əhəmiyyətli tədqiqat əsəridir.

ƏDƏBİYYAT

1. نخجوانی حاج ملا محمّد, کشکول النور , 1312 ه.ق. 560 ص
2. Rövşəni Dədə Ömər. Divan. Azərbaycan MEA M.Füzuli adına Əlyazmalar İnstitutu, B-778.
3. https://www.testbook.az › essay › show › quvvet-elmde

AMEA Naxçıvan Bölməsi
E-mail: ***s.ibrahimov71@mail.ru***

Sabuhi Ibrahimov

MEANS OF LOGICAL APPROACH IN "KASHKULUN-NUR" WORK

The paper provides information on a mature topic related to the logical thinking phenomenon, explaining its emergence, formation, and implementation. These points given in Haji Molla Mohammad Nakhchivani's book "Kashkulun-nur" again show the work's richness. This work, discovered during the philological and textual study of manuscript texts about Nakhchivan, is considered one of the most valuable sources of our time. The book reflects not only the methods of the logical approach but also the formation of human principles of human ideas purely and healthily, the way of action and behavior based on scientific and philosophical cognition, many necessary forms of thinking, various types of spiritual spheres, cultural rules and moral principles.

Keywords: *Nakhchivan, manuscript, logic, method, "Kashkulun-nur", work.*

Сабухи Ибрагимов

МЕТОДЫ ЛОГИЧЕСКОГО ПОДХОДА В ТРУДЕ «КАШКУЛУН-НУР»

В статье представлена информация по назревшей теме, связанной с событиями, отражающими основной предмет, функции, формирование и реализацию метода логического мышления. Эти моменты, приведенные в книге Хаджи Моллы Мохаммада Нахчывани «Кашкулун-Нур», еще раз показывают богатство этого произведения. Содержание произведения, обнаруженное при филологическом и текстологическом изучении рукописных текстов о Нахчыване, считается одним из ценнейших источников современности. Работа включает в себя не только логические подходы, но и формирование человеческих идей, человеческих принципов чистым и здоровым образом, действия и поведения, основанные на научном и философском понимании, в целом отражены многие необходимые формы мышления, философские функции, духовные и эстетические сферы, культурные правила и моральные принципы.

Ключевые слова: *Нахчыван, рукопись, логика, метод, «Кашкулун-нур», произведение.*

(AMEA-nın həqiqi üzvü Möhsün Nağısoylu tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 16.01.2021
Son variant 18.07.2021

UOT 801.73

FƏXRƏDDİN EYLAZOV

ORTA ƏSR KİTABLARININ BƏDİİ TƏRTİBATI

Orta əsrlərdə, Yaxın Şərqin digər ölkələrində olduğu kimi Azərbaycanda da mədəniyyətin inkişafı, dünyəvi ədəbiyyata və incəsənətə maraq əlyazma kitablarına bədii tərtibat verilməsi və illüstrə edilməsi ehtiyacını doğurmuşdu. Bu dövrdə Quran və başqa dini kitablarla yanaşı, məşhur alimlərin, şair və yazıçıların təbiət, tarix, habelə ədəbi bədii əsərləri də köçürülürdü. Bədii tərtibatına görə diqqəti cəlb edən əlyazmalarından olan 1333-cü il tarixli "Şahnamə"də "nəsx" xəttilə dörd sütunda yazılmış bölmələrin sərlövhəsi "rüqə" xəttilə işlənmişdir.

Müasir təsəvvürlərə görə, cild kitabın əsas atributlarından biri sayılır. Kitabların cildlənməsinə ilk dəfə qibti və həbəş xalqları başlamışlar. Müsəlmanlarda isə cildə alınmış ilk kitab Quran olmuşdur. Zəmanəmizə qədər gəlib çatmış ən qədim kitab cildi VIII əsrə aid edilir. Bu kitab üzü fil sümüyü və adi sümüklə qaxılmış sidr ağacından düzəldilmiş, onun səthinə sütunlar üzərində duran tağlar (arkalar) çəkilmiş, tağların daxili və yuxarı hissəsi dördbucaq və b. həndəsi fiqurlarla doldurulmuş və palmetta ilə bəzədilmişdir. Dövrümüzə qədər gəlib çatmış ən qədim əlyazmaların cildinə dəri çəkilmişdir. Məqalədə Azərbaycanda bədii əlyazma sənətinin və ilk əlyazma kitablarının yaranması və tərtibatı tarixindən bəhs olunur.

Açar sözlər: *mətnşünaslıq, əlyazma kitabı, orta əsirlər, bədii tərtibat, xətt növü, qədim kitab.*

Yazının meydana gəlməsi ilə mətnlərin hər hansı bir material üzərinə həkk edilməsi eyni vaxta düşmüşdür. Məhz nitqin yazılı formasına olan tələb əlifbanın aktuallaşmasını şərtləndirmişdir. Müəyyən material üzərində yazılmış yazı isə kitabın yaranma tarixinin başlanğıcını qoymuşdur.

İlk yazının meydana gəldiyi ibtidai dövrdə insanlar öz primitiv mətnlərini daşınmaz materiallar üzərində (mağaralarda, qayalarda, iri daşlar üzərində) yazırdılar (piktoqrafik yazını çəkirdilər). Belə materialdan istifadə edilməsi yazının inkişaf etdiyi sonrakı dövrlərdə də təzahür etmişdir. Dövrümüzə gəlib çatmış külli miqdarda kitabələr, qəbirüstü abidələr və müxtəlif məmulatlar üzərində həkk olunmuş yazılar buna misal ola bilər. Ancaq bunların heç biri əslində sözün əsl mənasında əlyazma sayılmır və hər biri həkkaklıq nümunəsidir [1, s. 6].

"Əlyazma" anlayışı hansısa bərk material üzərində oyma, yonma, cızma yolu ilə həyata keçirilən "həkkaklıq" işi anlayışı ilə eyniləşdirilə bilməz. Həm əlyazma, həm də həkkaklıq "yazı" anlayışı ilə birbaşa bağlıdır, lakin əlyazma əllə yazma, həkkaklıq isə əllə həkk etmə işinin məhsuludur [2, s. 32].

XVI-XVII əsrlərdə məzarüstü daşlarda ölən adamın fəlsəfi kəlamları, görkəmli şair və aşıqların sətirləri, dua, şifahi ədəbiyyatdan gəlmə şeirlər də yazılırdı. Metal məmulatların bəzəyi, rəsm və naxışları arasında olan ərəb əlifbası ilə yazılmış yazılar içərisində məmulatın hansı usta tərəfindən, kimin üçün, kimin sifarişi ilə, nə vaxt düzəldiyini bildirən sözlərə, bəzən Qurandan götürülmüş kəlmələrə və yaxud klassik Şərq şairlərinin şeirlərinə də təsadüf olunur [9, s. 65-67].

Əlyazma əllə, əldə tutulmuş xüsusi yazı ləvazimatı (qələm, lələk və s. ilə, başqa sözlə, subyekt-ləvazimatla) digər yazı ləvazimatına (materialından asılı olmayaraq, vərəqlər şəklində olan məmulata, yəni obyekt-ləvazimata) yazı yazmaqdır. Deməli, "əlyazma" anlayışı təkcə yazının yazıldığı materialla deyil, həmin materialın forması ilə də üzvi şəkildə bağlıdır [3, s. 94].

Bəşəriyyət uzun dövrlər ərzində əlyazma üçün daim münasib material axtarışında olmuş, tapdığı və icad (istehsal) etdiyi hər bir yazı materialını getdikcə daha da püxtələşdirmiş, daha

çətin əldə edilən və baha başa gələn bir yazı materialını daha ucuz başa gələn yeni yazı materialı ilə əvəzləmişdir. Nəhayət, üzərində yazıya alınmış informasiyanın (mətnin) bir yerdə cəmləşdirilməsinə, mətnin yazı (oxunuş) ardıcıllığının təmin olunmasına (kitab tərtibinə) imkan verən material forması tapılmışdır. Bu forma – vərəqdir [6, s. 121].

Bütün əlyazma kitabları "əlyazma" anlayışına daxildir, ancaq heç də bütün əlyazmalar kitab sayıla bilməz. Ancaq bu fikir də həmişə mübahisə doğurur. Məsələn, A.A.Qreçixin funksional baxımdan əlyazma kitablarını üç növə bölür:

1) *Praqmatik təxsisatlı kitablar* – işgüzar sənədləşdirmələr.

2) *İdraki təxsisatlı kitablar* – bədii və elmi ədəbiyyat.

3) *Sosial-idarə təxsisatlı kitablar* – dini kitablar, kitabxanalardakı kitabların siyahısı və müxtəlif məcmuələr [11, s. 35-36].

Orta əsrlərdə, Yaxın Şərqin digər ölkələrində olduğu kimi Azərbaycanda da mədəniyyətin inkişafı, dünyəvi ədəbiyyata və incəsənətə maraq əlyazma kitablarına bədii tərtibat verilməsi və illüstrə edilməsi ehtiyacını doğurmuşdu. Bu dövrdə Quran və başqa dini kitablarla yanaşı, məşhur alimlərin, şair və yazıçıların təbiət, tarix, habelə ədəbi bədii əsərləri də köçürülürdü. Orta əsrlərdə üzü köçürülən Quran "nəsx", yaxud "reyhan", nadir hallarda "riqə" xətləri ilə yazılıb, yalnız naxışlarla bəzədilirdisə, dünyəvi məzmunlu əsərlər "nəsx" xətti ilə köçürülür, çox zaman süjetli miniatürlərlə illüstrə olunur, ornamentlərlə bəzədilirdi [7, s. 133].

Yazıların üslubu, miniatürlərin xarakteri və əlyazma kitablarının ümumi tərtibatı Azərbaycanda bu sənətin daim inkişafda olduğunu göstərir. Yüksək vəzifəli şəxslər üçün tərtib edilmiş təmtəraqlı əlyazma nümunələri ilə yanaşı, adi həvəskar oxucular, yaxud elm və ədəbiyyat xadimləri üçün nəzərdə tutulmuş sadə nüsxələr də yaradılırdı. Lakin əlyazma kitablarının bədii tərtibinə ən çox tələbat feodal cəmiyyətinin yuxarı təbəqəsi – padşahlar, şahzadələr, əyanlar arasında olmuşdur. Mahir rəssam, xəttat və cildsazlar tərəfindən uzun müddətə başa çatdırılan bu qiymətli manuskriptlərin əsas sifarişçisi və sahibi də elə onlar idi [4, s. 102].

Kollektiv yaradıcılığın məhsulu olan əlyazma kitablarının meydana gəlməsində əsas vəzifə əsərin həm də redaktorluq işini yerinə yetirən xəttatların üzərinə düşürdü. Xəttat nəinki təkcə mətnin səhifədə yerləşdirilməsini, habelə rəssamın çəkəcəyi illüstrativ şəklin süjetini də müəyyənləşdirirdi. Xəttat ədəbi əsəri köçürərkən miniatür üçün ağ yerlər buraxır, illüstrə olunacaq hekayənin bu və ya digər parçasını buraya köçürürdü [5, s. 63].

Miniatürçü rəssam isə öz növbəsində illüstrasiyada çərçivəyə alınmış düzbucaqlar şəklində bir neçə boş sahə buraxırdı ki, xəttat mətni yazarkən süjetlə əlaqədar buraxdığı parçaları bu boş yerlərə köçürsün. Belə üsul miniatürlərdə əks etdirilən ədəbi süjet təsvirinin anlaşıqlığını artırır, onu tamamlayırdı. Miniatür üçün ayrılan sahənin seçilməsində yəqin ki, bu və ya digər süjet üçün müvafiq kompozisiya müəyyənləşdirən miniatürçü rəssam da iştirak edirdi. Lakin buna baxmayaraq, xəttat bir qayda olaraq, illüstrəçi rəssamı məhdud çərçivədə saxlayır, onu həmin sahə daxilində yaradıcılıq işi aparmağa məcbur edirdi. Məhdud çərçivəyə salınmış rəssam müvafiq süjeti canlandırmaq üçün xəttatın buraxdığı ağ sahə daxilində elə düşünülmüş kompozisiya qurmalı idi ki, verilmiş sahəyə yerləşdirmək şərtilə, ədəbi mətndə nəql olunan epizodu rəsm dilində təsvir edə bilsin. Belə bir məcburi prinsip əlbəttə, rəssamdan böyük məharət tələb edirdi. Orta əsr rəssamları öz istedadları sahəsində çox vaxt buna nail olur, vəziyyətdən ustalıqla çıxırdılar. Onlar bəzən bu işdə hətta son imkana əl atıb, səhifənin geniş kənarlarından da istifadə edirdilər. Çox zaman rəssam illüstrə edəcəyi ədəbi mətndən yayınaraq öz kompozisiyasına əlavə surətlər, yaxud da bütöv səhnələr gətirirdi. Bununla o, illüstrə etdiyi süjeti daha da genişləndirir, zənginləşdirir, müvafiq həyat hadisələri ilə bağlayırdı.

Əlyazmanın tərtibat işlərində nəqqaş da iştirak edir. O, səhifələrdəki mətni çərçivəyə alır, başlıqları, sərlövhə və sonluqları bəzəyir, bəzən də əlyazma səhifələrinin geniş kənarlarında rəsmlər çəkirdi [5, s. 51].

Dövrümüzədək mühafizə olunmuş əlyazma kitablarının ilkin nüsxələri, XIII əsrin ortaları və XIV əsrin əvvəllərinə aiddir. Bu zaman monqol hakimlərinin paytaxtında əlyazma kitablarını köçürmək və tərtib etmək üçün emalatxanalar yaradılmışdı. Elmi-bədii mərkəz olan həmin emalatxanalarda yerli alimlərlə yanaşı, memarlar və rəssamlar, həmçinin monqol hakimlərinin başqa ölkələrdən buraya cəlb etdikləri digər sənətkarlar da işləyib yaradırdılar. Elxanilərin Xoyda, Marağa, Təbriz və Soltaniyyədəki saray emalatxanalarında, ağır vəziyyətdə işləyən incəsənət ustaları və sənətkarlarla yanaşı xəttat və rəssamlar da gözəl tərtib olunmuş dini, elmi və bədii əlyazma kitabları yaradırdılar. XIV əsrin əvvəllərində illüstrasiyalı əlyazmaların yaradılması ilə əsasən Təbrizin yaxınlığında, Rəşidiyyə adlanan universitet şəhərciyində məşğul olurdular. Çox da böyük olmayan bu elmi şəhərcikdə Qazan xanın tarixçisi və vəziri Fəzlullah Rəşidəddin tərəfindən təsis olunmuş universitet və kitabxanada müxtəlif məzmunlu 60 min kitab var idi. Rəşidəddinin kitabxanası nəzdində işləyən bədii emalatxanada müxtəlif ölkə və şəhərlərdən dəvət olunmuş xəttat və rəssamlar da işləyirdilər. Onlar tarixçilərin yazdığı və Rəşidəddinin redaktoru və müəlliflərindən biri olduğu salnamə toplusu "Cami-ət təvarix"in üzünü köçürür, ona illüstrasiyalar çəkirdilər. Rəşidəddinin göstərişi ilə "Cami-ət təvarix"in çoxlu əlyazma nüsxəsi hazırlanır və o zamankı İrana və digər müsəlman ölkələrinə göndərilirdi. Sultan Əbusəidin vaxtında, 1318-ci ildə Rəşidəddin edam edildikdən sonra onun yaratdığı Rubi Rəşidi (Rəşidiyyə) şəhərciyi dağıdılmış, kitabxana isə qarət edilmişdir [10, s. 86].

Saray ustaları tərəfindən Xoyda, Marağa və Təbrizdə köçürülən əlyazmalarının ilk nümunələrindən olan "Vərqa və Gülşa" (XIII əsrin əvvəli), İbn Bəhtuşinin "Mənafi əl-heyvan" (1297-1299) və Rəşidəddinin "Cami-ət təvarix" (1307- 1314) əsərlərinin tərtibatında və yazı tərzində XII-XIII əsrlərdə ərəb ölkələrində, xüsusən Bağdadda hazırlanmış əlyazmaları ilə müəyyən yaxınlıq və ümumilik vardır [13, s. 112].

Azərbaycanda bədii əlyazma sənətinin bu erkən inkişaf dövründə xəttat və digər incəsənət ustalarının yaradıcılıq fəaliyyəti çox geniş idi. Onların çoxu şair, xəttat və rəssam olmuş, çoxlu tələbələr yetişdirmiş, əlyazma kitabları və memarlıq abidələrində yazdıqları dekorativ kitabələr kimi misilsiz sənət nümunələri qoyub getmişlər. Belə məşhur ustalardan biri, Təbrizdə doğulmuş Mübarək şah Zərrinqələm idi. Bu məşhur xəttat o zaman işlədilən altı klassik xətt növünün mahir ustası olmuşdur. 1358-1374-cü illərdə hökmdarlıq etmiş Sultan Üveys Cəlayir tərəfindən Nəcəfdə tikdirilmiş binanın kitabələrini Zərrinqələm yazmışdır. Bu bədii xətt ustasının çox istedadlı və məhsuldar şagirdi olan Abdullah Seyrəfi Təbrizi (1350-ci ildə vəfat etmişdir) bir çox Təbriz binalarının daxili və xaricini bəzəyən dekorativ yazıların müəllifidir [13, s. 74].

XIV əsrin əvvəllərində yaşayıb-yaratmış ustad xəttatlardan biri də Abdullah ibn Əhməd ibn Fəzlullah Marağidir. 1338-ci il tarixli nadir Quran nüsxəsi onun yaradıcılığının məhsuludur.

O zaman yüksək bədii keyfiyyətdə hazırlanan əlyazmaların, xüsusən dini əsərlərin bəzəyi dekorativ sənətlər sahəsində əl qabiliyyəti olan xəttatların özləri tərəfindən yerinə yetirilirdi. Əlyazma kitabların bədii tərtibatında bədii cild ustalarının da mühüm rolu olmuşdur [12, s. 48].

XIV əsrin birinci rübünə aid dini kitablardan 1322-ci ildə Şirvanda yazılmış "Musabexx us-sanna" adlı əsəri xüsusilə qeyd etmək lazımdır. 300 səhifədən ibarət olan həmin nüsxə xəttat Məhəmməd ben Şüca ben Məhəmməd əl-Katib əş-Şirvani tərəfindən "nəsx" xətti ilə köçürülmüş, çox güman ki, tərtibatı da onun özünə aiddir. Əlyazmanın başlanğıcında zəngin ornament bəzəkli qoşa səhifədən ibarət frontispis vardır ki, onun aşağı və yuxarı kartuşlarında müəllifin və əsərin adı yerləşdirilmişdir. Ayrı-ayrı fəsillərin iri xətlə yazılmış sərlövhəsi qara, qırmızı və yaşıl rəngli tuşla ifa edilmişdir. Kolofon ayrıca vərəqədə qırmızı və qara "rüqə" xətti ilə yazılmışdır. Zərifliyi və tərtibat bitkinliyinə görə bu əlyazması XIV əsr Azərbaycan kitab tərtibatı sənətinin nadir nümunələrindən hesab edilir [8, s. 26].

Bu dövrə aid elmi-tarixi və ədəbi-bədii əsərlərin miniatürlərlə bəzənmiş əlyazma nüsxələrindən Əlaəddin Cöveyinin "Monqolların tarixi" (1290-cı il), İbn Bəhtaşinin "Mənafi əl-heyvan" (1297-1299), Rəşidəddinin "Cami-ət təvarix" (1307-1314-cü illər və 1318-ci il), Firdovsi "Şahnamə"sinin 1340-1350-ci il tarixli nüsxəsi ("Demot şahnaməsi") kimi nadir əsərlərini xüsusilə qeyd etmək lazımdır [12, s. 68].

Bədii tərtibatına görə diqqəti cəlb edən əlyazmalarından olan 1333-cü il tarixli "Şahnamə"də "nəsx" xəttilə dörd sütunda yazılmış bölmələrin sərlövhəsi "rüqə" xəttilə işlənmişdir.

Qeyd etmək lazımdır ki, tərtib olunan əsərlərin formasını, yaxud iri bölmələr arasındakı səhifələrini bəzəyən miniatürlü frontispisli əlyazmalara hələ ilk dövrlərdə təsadüf olunur. Məsələn, yuxarıda adı çəkilən 1333-cü il "Şahnamə"sində, poemanın əvvəlində (müqəddimədən sonra) iki vərəqdən ibarət frontispis verilir. Buradakı miniatürlər kompozisiya və mövzusu etibarilə müstəqil xarakter daşıyır, poemanın məzmunu ilə əlaqədar olmur. Onlardan biri ov səhnəsini, digəri isə padşahın saray məclisini təsvir edir. Bu əlyazması üçün səciyyəvi olan cəhətlərdən biri də budur ki, onun axırında əsərin məzmunu ilə əlaqəsi olmayan daha bir miniatür vardır ki, bu da əlyazmasının dekorativ-bəzək elementlərini yekunlaşdırır. Əlyazmanın sonunda, onun kolofonunun altında yerləşdirilən bu miniatür Firdovsinin öz poemasını Sultan Mahmud Qəznəviyə təqdim etməsi səhnəsini təsvir edir [13, s. 32].

XIV əsrin birinci yarısında Azərbaycanda cildsazlıq sənətinin ən yaxşı nümunəsinə misal olaraq İstanbulun Evqaf muzeyində saxlanan (2485 №-li) 1334-cü il tarixli əlyazmasının cildini göstərmək olar. Bu orijinal cild, usta Məhəmməd Əli tərəfindən Təbrizdə hazırlanmışdır. Qırmızımtıl-qəhvəyi rəngli dəridən düzəldilmiş cildin sol qapağının iç tərəfində ustanın adı qızılla yazılmışdır. [9, s. 91].

XV əsrdə Azərbaycanın iqtisadi, ictimai və siyasi həyatında baş verən yüksəliş xalqın mədəniyyəti, ədəbiyyatı və incəsənətinə müsbət təsir göstərir, dövrün qabaqcıl ideyalarını əks etdirən elmi və bədii əsərlərin yaranmasına səbəb olurdu.

ƏDƏBİYYAT

1. Axundzadə A. Xətti-təliq və nəstəliq. Tiflis, 11 vərəq (nəşr ili göstərilməmişdir).
2. Cabbarlı S.H. XVIII-XIX əsrlər Azərbaycan əlyazma topluları (məcmuə, cüng və bəyaz). Bakı: Ozan, 2000, 192 s.
3. Cəfərov N. Eposdan kitaba. Bakı: Maarif, 1999, 187 s.
4. Cəmşidov Ş. Azərbaycan yazılı dastan abidələrinin tədqiqi. Bakı: Nurlan, 2002, 143 s.
5. Darabadi Q.A. Kalliqrafiya. Bakı: ADU nəşri, 1953, 83 s.
6. Əliyev A.M. XVII əsr Azərbaycan əlyazma kitabı (paleoqrafiya və mətnşünaslıq məsələləri). Filol. elm. nam. ... diss. Bakı: Elm, 1997.

7. Əliyev R.Y. İslam və Azərbaycan mədəniyyəti. Bakı: İrşad, 1998, 145 s.
8. Əzizov M. Xətt sənəti və bədii söz. "İncəsənət" qəz., 1994, 10 may.
9. Fərfur Ə. Dəməşq əlyazmalarının paleoqrafik və tekstoloji tədqiqi ("Darül-kütüb əz-Zahiriyyə" kitabxanasının əlyazmaları əsasında). NDA. Bakı: Elm, 1994.
10. İlk Azərbaycan kitabı / Tərtib edən: Aydın Xəlilov. Bakı: Şərq-Qərb, 1995.
11. Qəhrəmanov C.V. Azərbaycan əlyazma kitabı Avropa kitabxanalarında / Azərbaycan filologiyası məsələləri. 3-cü buraxılış, Bakı: Elm, 1991.
12. Qəhrəmanov C.V. Azərbaycan əlyazma kitabı tarixindən. Əlyazmalar xəzinəsində / Azərb. EA Əlyazmalar İnstitutunun Əsərləri. VIII c., Bakı: Elm, 1987.
13. Orta əsr Azərbaycan kitab mədəniyyəti / tərtib edən: C.V.Qəhrəmanov. Bakı: İşıq, 1991.

AMEA Naxçıvan Bölməsi
E-mail: ***eylazov.f@gmail.com***

Fakhraddin Eylazov

DECORATION OF MEDIEVAL BOOKS

In the Middle Ages, as well as in other Middle Eastern countries, in Azerbaijan also there was a need for the development of culture, interest in secular literature and art, decorating and illustrating the manuscripts. During this period, alongside with the Koran and other religious books, nature, history, and literary works by famous scholars, poets and writers were also copied out. According to modern ideas, the cover is one of the main attributes of the book. For the first time, the Copt and Abyssinia peoples began to bind books. In the Muslim world the first bound book was the Koran. The oldest book cover, coming to our time, dates back to the VIII century. This book was made of cedar tree polished with ivory and ordinary bone, in its surface arches were drowning on the columns, the inside and upper parts of the arches were filled with quadrilateral and other geometric shapes and decorated with palmettos. The most ancient manuscripts that came to our time are covered with skin. The paper deals with the history of creation of decoration art and first manuscripts and their decoration in Azerbaijan.

Keywords: *textual criticism, manuscript, Middle Ages, decoration, hand writing type, ancient book.*

Фахреддин Эйлазов

ХУДОЖЕСТВЕННОЕ ОФОРМЛЕНИЕ СРЕДНЕВЕКОВЫХ КНИГ

В средние века, как и в других странах Ближнего Востока, с развитием культуры и интереса к мировой литературе и искусству, в Азербайджане появилась потребность в художественном оформлении и иллюстрации рукописных книг. В этот период, наряду с Кораном и другими религиозными книгами, были переведены также естественно-научные, исторические и литературные произведения известных ученых, поэтов и писателей.

Согласно современным представлениям, одним из главных атрибутов книги считается переплет. Впервые начали переплетать книги копты и абиссинцы. Первой пере-

плетенной книгой мусульман был Коран. Переплет самой древней книги, дошедшей до наших дней, относится к VIII веку. Эта книга сделана из кедрового дерева, обтянутого слоновой и обычной костью, на ее поверхности были изображены расположеные на колоннах арки, внутренняя и верхняя части арок наполнены четырехугольными и другими геометрическими фигурами, а также украшены пальметтой. Обложки самых древних рукописей, дошедших до наших дней, были обтянуты кожей. В статье рассматривается история образования художественного рукописного искусства и оформления первых рукописных книг в Азербайджане.

Ключевые слова: *текстоведение, рукопись, средние века, художественное оформление, тип шрифта, древняя книга.*

Daxilolma tarixi: İlkin variant 29.06.2021
Son variant 26.07.2021

(Filologiya üzrə elmlər doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)

UOT 82- 3.512.162.

ZEYNƏB MƏMMƏDOVA

HAFİZ ŞİRAZİNİN QƏZƏLLƏRİNDƏ BƏZİ TƏSƏVVÜF TERMİNLƏRİNİN TƏHLİLİ

Klassik farsdilli poeziyanın dilini üç səviyyəyə ayırmaq olar. Birinci səviyyədə hər şey öz həqiqi mənasında işlənir. İkinci səviyyə mistik poeziyanın şərti dilidir ki, burada rəmzlər üstünlük təşkil edir. Üçüncü səviyyə isə bu iki səviyyənin qarışaraq həqiqi və məcazi məna hüdudlarının itdiyi bir dildir ki, burada rezonans doğuran sözlər aparıcı rol oynayır. Hafizin dili məhz üçüncü səviyyəli dildir. Məna dərinliyi və ifadə gözəlliyi baxımından şeirləri yüksək zirvələri fəth edən şair Hafiz Şirazi məşhur şair olmaqdan əlavə böyük arif olmuşdur. Hafiz Şirazi yüksək şairlik istedadından başqa, arifliyi ilə də şöhrət tapmışdır. Amma bəzən onun arifliyini şübhə altına alanlar da tapılır. Belələrini qınamaq düzgün olmaz. Çünki arif şairlərin daha çox rəmzlərdən, sətiraltı məna ifadə edən sözlərdən istifadəsi belə düşünməyə əsas vermişdir.

Açar sözlər: *Hafiz, qəzəl, arif, əsəvvüf, termin, sufi.*

Məna dərinliyi və ifadə gözəlliyi baxımından şeirləri yüksək zirvələri fəth edən şair Hafiz Şirazi məşhur şair olmaqdan əlavə böyük arif olmuşdur. Məsələyə aydınlıq gətirmək məqsədi ilə "arif" sözünün mənasını araşdırsaq yerinə düşər. Dilimizdə belə bir misal var: "Arifə bir işarə də kifayətdir". Görəsən, arif sözü bir işarədən hər şeyi bilən insan mənasını verir, ya bu söz daha geniş mənaya malikdir? Bu məsələni araşdırmaq üçün bəzi tədqiqatçıların fikirlərinə diqqət yetirək.

Əbülqasim Əbdülkərim Quşeyri "Quşeyriyyə" risaləsində yazır: علامتعارف آن است که از دنیا وآخرت فارغ بود و گفته اند: هر که خدای را شناسد،رغبت چیزها از وی بشود و وی را نه فصل بود ونه وصل

"Arifin əlaməti dünya və axirətdən azad olmaqdır və deyirlər: hər kim Allahı tanısa, heç nəyə rəğbət bəsləməz, nə onlardan ayrı olar, nə də onlarla bir". Yəni ariflər Allahı nə dünya malı, sərvəti, şan-şöhrətinə görə, nə də cənnət gözəlliklərinə görə tanıyırlar. Onlar Allaha Allah olduğuna görə pərəstiş edirlər. Daha sadə desək, öz nəfsinə qələbə çala bilməyənin Allahı tanımaq imkanı yoxdur.

اگربشناختی خود را به تحقیق هم از عرفان حق یابی تو توفیق
شفای درد دلها گشت عرفان [4, s. 18] ز عرفان روشن آمد جاودان،جان

Əgər təhqiqlə özün tanısan, Haqqı tanımağa nail olarsan.
İrfan ürək dərdlərinin səfası oldu, Can irfanla əbədi nurlu oldu.

Nəzəri islam irfanının atası sayılan Muhyəddin Ərəbi belə yazır: عرفا خدا را به خاطر ترس از دوزخ و یا امید رفتن به بهشت نمی پرستند، بلکه از آن جهت که دوستش دارند و بدوعشق می ورزند و این از وجوه عبادتها و ریاضتهای عرفانی است

"Ariflər Allaha cəhənnəmdən qorxuya görə və ya behiştə düşmək ümidi ilə pərəstiş etmirlər, bəlkə ona görə ki, ona eşqləri var və bu irfani ibadət və yüksək əxlaq üçün dözülən əzab-əziyyətin səbəbidir" [6, s. 79].

Ariflərin çoxu aşağıdakı hədisə görə yaranışın əsasını eşq adlandırırlar.

كُنْتُ كَنْزاً مَخْفِياً فَاَحْبَبْتُ اَنْ اعْرَفَ فَخَلَقْتُ الْخَلْقَ لكَى اعْرَفَ.

Sənayi Qəznəvi bu hədisi belə nəzmə çəkmişdir.

گفت گنجی بدم نهانی من خلاق الخلق تا بدانی من [3, s. 3].

(Dedi: Gizlin xəzinə idim mən, Biləsən məxluqatın xaliqiyəm mən).

Deyilənlərdən belə məlum olur ki, ariflər həm də Allah aşiqidirlər. İrfanda Allahı tanımağın əsas vasitəsi eşqdir. Şeyx Suhrəvərdi "Fi həqiqətul-eşq" və ya "Munisul-uşşaq" əsərində yazır: "Yüksək həddə çatmış məhəbbətə eşq deyərlər eşqi əşəqədən götürüblər və əşəqə elə bir bitkidir ki, bağda ağacın dibində bitər. Əvvəlcə yerdə kökünü möhkəmləndirər, sonra başını qaldırıb tamamilə bürüyənədək ağaca sarılar və ona elə işgəncə verər ki, ağacın damarı arasında nəmişlik belə qalmaz, hava və su vasitəsilə ona yetişən bütün qidanı ağac quruyana qədər mənimsəyər" (6, s. 281). Tədqiqatçılar öz əsərlərində dəfələrlə qeyd edirlər ki, eşq insanın əxlaqının ən yüksək dərəcəsi, torpağı qızıla çevirən kimyadır. Hafiz Şirazi yüksək şairlik istedadından başqa, arifliyi ilə də şöhrət tapmışdır. Amma bəzən onun arifliyini şübhə altına alanlar da tapılır. Belələrini qınamaq düzgün olmaz. Çünki arif şairlərin daha çox rəmzlərdən, sətiraltı məna ifadə edən sözlərdən istifadəsi belə düşünməyə əsas vermişdir. Tutaq ki, biz də razılaşdıq ki, mey, şərab, məstlik, meyxanə sözlərindən istifadə edən adam arif adlana bilməz. Bəs onda aşağıdakı beyt kimi onlarla beytin mənasını necə izah etmək olar?

چه مبارك سحری بود و چه فرخنده شبی آن شب قدر که این تازه براتم دادند. [4, s. 35].

(O qədr gecəsi nə mübarək gecə və nə xoşbəxt səhər oldu,
Ki, günahlardan bağışlanma bəratı mənə verildi(

Belə beytləri oxuyandan sonra arif şairlərin rəmzi mənalardan istifadə etməsi oxucunu düşündürür. Bu barədə çoxsaylı fikirlər mövcuddur. Bəziləri belə izah edirlər ki, əvvəl ariflər öz sözlərini aşkar deyirdilər. Sonralar bu aşkar və birbaşa sözlərin onlar üçün başağrısı yaratdığını gördükdə məcbur oldular ki, örtülü danışsınlar. Guya ariflər fəqih və zahidlər mane olmasınlar deyə rəmzlərdən istifadə etmişlər. Doğurdan da, çox ariflərin yazısında zahir əhlinə etiraz səsi eşidilir. Məsələn, Hafizin bir qəzəlində oxuyuruq:

چومنصور از مراد آنان که بردارندبدین درگاه حافظ را چو می خوانند می رانند [4. s. 25]

(Mənsur təki murada çatanlar dara çəkilirlər,
Bu saraya Hafizi çağırırlar və qovurlar)

Nəsimi "Ağrımaz" rədifli qəzəlində yazır:

"Zahidin bir barmağın kəssən, dönüb həqdən qaçar,
Gör bu gerçək aşiqi sərpa soyarlar ağrımaz".

Cəlaləddin Rumi bir qəzəlində yazır:

گر عشق را نبینی، دلا عاشقان نگر منصوروار شاد سوی دار آمد [4, s. 79]

(Əgər eşqi görmürsənsə,
Mənsur kimi şad dar ağacına tərəf gəlmən aşiqlərə bax)

Amma bu fikirlə razılaşmaq olmur. Çünki arif aşiqin əlaməti budur ki, hadisələrin gedişindən qorxmur: "Həyatın eniş-yoxuşu haqqında düşünmür: ölümdən qorxmur və heç kəs və heç nədən şikayət və giley etmir: onun alçaqlıq, paxıllıq, acgözlük, bədxahlıq və dargözlülüyü yoxdur, hər şeyi öz yerində yaxşı görür" [6, s. 15]. Deməli, belə məlum olur ki, arifin dərisi soyulsa da, dara çəkilsə də ah-nalə etməz. Çünki o yalnız ayrılıqdan nalə çəkir. Əgər aşiqdən bir nalə eşidilsə, hamısı ayrılıq dərdindəndir. Çünki onun üçün dostsuz (məşuqsuz) həyat üzücüdür. Aşiq ayrılıq dərdindən başqa hər əzab-əziyyətə dözür. Bəzi tədqiqatçılar isə belə düşünürlər ki, guya Hafiz və başqa şairlərin "mey", "moğ" "mağbəççe" sözlərindən istifadə etməsinin əsas səbəbi onların İslamdan əvvəlki İrana rəğbətinin nişanəsidir. Murtəza Mütəhhəri

"İrfani-Hafiz" kitabında belə sözləri gülünc sayan Əranidən nəql edərək deyir

بلبل ز شاخ سر و به گلبانگ پهلوی می خواند دوش مرس مقامات معنوی [4, s. 75]

(Bülbül sərv ağacında pəhləvi cəh-cəhilə,
Dünən mənəvi məqamlar dərsini oxuyurdu)

Belə çıxır ki, əgər bu beytdə "pəhləvi" sözü işlənibsə, bu şairin zərdüştliyə, İslamdan əvvəlki İrana məhəbbətini göstərir. Əgər bu beyti qəbul etsək, onda aşağıdakı beytlərə görə deməliyik ki, Hafiz həm yəhudiliyə, həm də xristianlığa meylli olmuşdur

یعنی بیا که آتش موسی نمود گل تا از نکته توحید بشنوی [4, s. 55].

Yəni gəl ki, Musanın atəşi gül oldu, Ta sən ağacdan tovhid məsələsini eşidəsən.

این قصه عجب شنو از بخت و از گونپ ما را بکشت یار به انفاس عیسوی [3, s. 55]

(Bu qəribə nağılı bədbəxtdən eşit, Yar bizi İsa nəfəsləri ilə öldürdü)

Hafizin qəzəlləri onun böyük şairlik qüdrət və istedadına malik olmasının göstəricisidir. Lakin bir şeyi unutmaq olmaz ki, Hafiz Şirazi Quranı əzbər bilmiş və dəfələrlə bunu öz qəzəllərində qələmə almışdır.

صبح خیزی و سلامت طلبی چون حافظ هر چه کریم همه از دولت قرآن کردم [4, s. 34]

(Hafiz təkin tezdən durub, sağlam oldum,
Hər nə etdim hamısını Quran mülkündən etdim)

ز حافظان جهان کسی چو بنده جمع نکرد لطایف حکمی با کتاب نکات قرآنی. [4, s. 52]

(Dünya hafizlərindən kimsə Quran kitabı ilə
hikmət kəlmələrini bəndə kimi cəm etmədi)

عشقت رسد به فریاد ارخود به سان حافظ قرآن ز بر بخوانی در چهارده روایت [4, s. 30]

(Eşqin fəryada yüksələr əgər Hafiz təkin sən də,
Quranı əzbər oxusan on dörd rəvayətdə)

Bu beytlərə əsasən deyə bilərik ki, Quranı əzbər bilmək onun həm şairliyinə, həm də arif-aşiqliyinə böyük təsir etmişdir. Hamıya da məlumdur ki, Quran ən incə fəsahət və bəlağət gözəlliklərinə malikdir. Buna görə də şairlərin öz qəzəllərini fəsahət və bəlağət gözəllikləri ilə bəzəmələri heç təəccüb doğurmamalıdır. Quranın möcüzəliyi onun təkcə zahirində deyil, həm də batinindədir. Bu məntiqlə Hafizin arifliyinə şübhə etmək düzgün olmaz. Fikrimcə onların belə şeir yazma üsuluna müraciət etmələri təbiidir. Çünki ariflər gördüklərini və duyduqlarını adi dillə ifadə edə bilməzlər.

دل می رود ز دستم صاحبدلان خدا را دردا که راز پنهان خواهد شد یشکارا [4, s. 45]

(Ürək sahibləri, and olsun, ürəyim əldən gedir,
Dərd budur ki, gizlin sirr aşkar olacaq)

Onların öz fikirlərini çatdırmaq üçün mənəviyyat aləminə aid olanlara maddi don geyindirməkdən başqa çarələri yox idi. Çünki həqiqəti, ürəyin hallarını, eşqi oxucuya bəyan etmək üçün başqa vasitə mövcud deyil. İbn Ərəbi demişdir: "Hər kəs eşqi tərif etsə, onu tanımamışdır, eşq camından bir qurtum dadan onu tanımamışdır, hər kim desə, eşqin şərab camından susuzluğum yatdı, onu tanımamışdır; çünki eşq elə bir şərabdır ki, heç bir kəsin susuzluğunu yatırmır" [1, s. 27].

Buna görə də Hafiz yazmışdır:

ای آنکه به تقریر و بیان دم زنی از عشق ما با تو نداریم سخن خیر و سلامت [4, s. 18]

(Ey o kəs ki təqrir və bəyanla eşqdən dəm vurur,
Bizim səninlə sözümüz yoxdur, xudahafiz)

سخن عشق نه آن است که آید به زبان ساقیا می ده ز کوتاه کن این گفت و شنفت [4, s. 30]

(Eşqin sözü o deyildir ki, dilə gəlsin,
Ey saqi, mey ver, bu söz-söhbəti bitir (qısalt))

عکس روی تو چو در آینه جام افتاد عارف از خنده می دلا طمع خام افتاد [4, s. 22]

(Elə ki, sənin əksin camın aynasına düşdü,
Arif meyin gülüşündən xam xəyala düşdü)

Bu beytdə arif sözünün işlənməsi haqqa, qəlbə və eşqə geyindirilmiş maddi donu bir daha açıqlayır. "Böyük şəxsiyyətlər demişlər: eşq bir addımdır və o özündən keçmək və öz şəxsiyyətini tərk etməkdir. Budur ki, eşq yolunu çətinləşdirir. Amma eşq yolunda məqsədə nail olunmazsa, o zaman salikin bu yolda fəsadı başqalarından çox olacaq". [6, s. 75-76]. Hafiz və başqa ariflər bu fikirdədirlər ki, eşq "mən"lə uyğunlaşmır və məqsədə nail olmaq üçün şəxsiyyət aradan götürülməlidir. Şair demək istəyir ki, əksin bir an görünməsi arifi aldatmamalı və onu həqiqətə çatmaqdan saxlamamalıdır. Hafiz öz qəzəllərində cam, came-cəm, ayine-ye cam, piyalə sözlərindən çox istifadə etmişdir:

سالها دل طلب جام جم ازما می کرد آنچه خود داشت ز بیگانه تمنا می کرد [4, s. 36]

(İllərdir ürək cami-cəmi bizdən istəyir,
Özünün malik olduğunu yaddan diləyir)

روی خوبت آیتی از لطف بر ما کشف کرد ز آن زمان جز لطف و خوبی نیست در تفسیرما [4, s.12]

(Sənin xoş çöhrən lütfün bir nişanəsini bizə açıqladı,
Təfsirimizdə lütf və yaxşılıqdan savayı bir şey qalmadı)

دیدن روی ترا دیده جان بین باید وین کجا مرتبه چشم جهتن بین من است [4, s. 28]

(Sənin üzünü görmək üçün ruh görən göz lazımdır,
Mənim dünyanı görən gözümün məqamı haradır?)

Çəkdiyimiz misallara əsasən deyə bilərik ki, came-cəm və başqa sözlər arifin sirləri faş edən, qeybi göstərən ürəyinə işarədir. İrfanda həmişə eşqlə ağıl arasında mübarizə getmişdir. Hafizin qəzəllərində də görürük ki, ağıl o qədər də güclü qüvvəyə malik deyil.

حدیث از مطرب و می گو و راز دنیا کمترجو
که کس نگشود و نگشاید به حکمت این معما را [4, s. 30]

(Mütrib və meydən hədis de, dünyanın sirrini az axtar!
Ki, heç kəs hikmətlə bu müəmmanı açmayıb, açmayacaq)

ما را به منع عقل مترسان و می بیار کان شحنه در و لایت ما هیچ کاره نیست [4, s. 43]

(Bizi ağılı itirməklə qorxutma və mey gətir,
Ki o darğanın bizim vilayətdə işi yoxdur)

Hafiz Şirazinin qəzəllərindəki mənalardan danışarkən onun yüksək şairlik istedadına

malik olmasını da unutmaq olmaz. Bu fikrin sübuta ehtiyacı olmasa da, yuxarıda çəkdiymiz misallar bunu bir daha aydınlaşdırır. Həqiqətən onun qəzəllərindəki bədii təsvir vasitələri oxucunu heyrətləndirir.

Klassik Şərq filoloqlarının nəzərində Quran yalnız ilahi kəlam deyildir, həm də bədii kamillyiin ən yüksək nümunəsi idi. Təbii ki, bütün şairlər bu yüksək nümunəyə can atırdılar və "söz ecazı"na nail olmağa çalışırdılar. Bu istiqamətdə ən böyük uğurlara yetişən şair, şübhəsiz, Hafiz olmuşdur. Təsadüfi deyil ki, sonralar o, "Lisanül-qeyb", yəni "Qeybin dili" ləqəbini qazanmışdır.

Hafiz dilinin bu xüsusiyyəti üzərində çoxsaylı araşdırmalar aparılmışdır. Lakin fikrimcə, bu məsələyə ən düzgün baxış fransız şərqşünası J.Lazara məxsusdur. O, klassik farsdilli poeziyanın dilini üç səviyyəyə ayırır. Birinci səviyyədə hər şey öz həqiqi mənasında işlənir. İkinci səviyyə mistik poeziyanın şərti dilidir ki, burada rəmzlər üstünlük təşkil edir. Üçüncü səviyyə isə bu iki səviyyənin qarışaraq həqiqi və məcazi məna hüdudlarının itdiyi bir dildir ki, burada rezonans doğuran sözlər aparıcı rol oynayır. Hafizin dili məhz üçüncü səviyyəli dildir. Odur ki, Hafizin qəzəlləri şəraitə və oxuyan şəxsin istəyinə uyğun olaraq, hər cür yozuma imkan verir. Elə bunun nəticəsində Hafiz divanı həm də fal açmaq vasitəsinə çevrilib ki, bu da dünya ədəbiyyatında analoqu olmayan bir hadisədir.

Hafiz ilk növbədə qəzəli keyfiyyətcə misilsiz bir səviyyəyə qaldırmış sənətkardır. Onun yaradıcılığında o vaxtadək mövcud olan "aşiqanə" və "arifanə" qəzəl tipləri bir-birinə qarışdı və qəzəlin mövzu dairəsi xeyli genişləndi. Lakin qəzəl təkcə məzmun baxımından deyil, formal baxımdan da yeniləşdi. Hafizin qəzəllərində beytlərin müstəqilləşməsi prosesi başa çatdı və onlar tam dezinteqrasiya halına gəldilər. Elə buna görə də Hafizin divanı milyonlar üçün təkcə düşüncə və estetik həzz mənbəyi deyil, həm də ümid mənbəyidir. Onun müqəddəs kitablara bənzər bir status qazanmasını şərtləndirən əsas amil də elə budur.

Aparılan təhlil nəticəsində, Hafizin qəzəllərində işlənən "arif" kəlməsinin irfani mənasını belə formalaşdırmaq olar: "Hər hansı bir çətinliklər qarşısında heç nədən qorxmadan yalnızca öz məqsədinə doğru irəliləmək". Arif yalnız ayrılıqdan nalə çəkir. Aşiq ayrılıq dərdindən başqa hər əzab-əziyyətə dözür. Hafizin Quranı əzbər bilməsi Allahın varlığını daha da dərindən idrak etməsinə əsas vermişdir. Quranı əzbər bilmək onun həm şairliyinə, həm də arif-aşiqliyinə böyük təsir etmişdir. Quranın möcüzəliyi onun təkcə zahirində deyil, həm də batinindədir. Hamıya da məlumdur ki, Quran ən incə fəsahət və bəlağət gözəlliklərinə malikdir.

ƏDƏBİYYAT

1. Zərrinkub Ə. Ba karvane-holle. Tehran, 1374, 246 s.
2. Cami Ə. Nəfəhatül-üns. Tehran, 1336, 368 s.
3. Divane-Hafez. Tehran, 1999, 932 s.
4. Farsca-Azərbaycanca lüğət / Tərtib edən Nəyyerzaman Səqəfi (Hatəmi). Tehran: Naşir, 1999, 1108 s.
5. Moin M. Hafeze-şirinsoxən, Tehran, 1370 celd-e yekkom və dovvom, 966 s.
6. Səccadi Z. Məbaniye-erfan və təsavvof. Tehran, 1372, 840 s.

Naxçıvan Dövlət Universiteti
E-mail: ***zeyneb_mammadova@mail.ru***

Zeynab Mammadova

ANALYSIS OF SOME SUFI TERMS IN HAFIZ SHIRAZI'S GHAZALS

The language of classical Persian poetry divides into three levels. At the first level, everything is processed in its true sense. The second level is the conventional language of mystical poetry, where symbols predominate. Finally, the third level is a language in which these two levels are mixed, and the boundaries of real and figurative meaning are lost, where resonant words play a leading role. Hafiz's language is the third-level language. Hafiz Shirazi, a poet who conquered the highest peaks in terms of depth of meaning and beauty of expression, was a famous poet and a great sage. Hafiz Shirazi is known not only for his high poetic talent but also for his intelligence. However, sometimes some people doubt his wisdom. Nevertheless, it is not right to blame them because wise poets' use of more symbols and subtext gave reason to think so.

Keywords: *Hafiz, gazelle, sufism, sage, term, sufi.*

Зейнаб Мамедова

АНАЛИЗ НЕКОТОРЫХ СУФИЙСКИХ ТЕРМИНОВ В ГАЗЕЛЯХ ХАФИЗА ШИРАЗИ

Язык классической персидской поэзии можно разделить на три уровня. На первом уровне все обрабатывается в истинном смысле слова. Второй уровень – условный язык мистической поэзии, где преобладают символы. Третий уровень – это язык, в котором эти два уровня смешаны, и границы реального и переносного значения теряются, где резонансные слова играют ведущую роль. Язык Хафиза – это язык третьего уровня. Хафиз Ширази, поэт, покоривший высочайшие вершины глубины смысла и красоты выражения, был не только известным поэтом, но и великим мудрецом. Хафиз Ширази известен не только своим высоким поэтическим талантом, но и своим умом. Но иногда встречаются те, кто сомневается в его мудрости. Их нельзя осуждать. Потому что использование мудрыми поэтами большего количества символов и подтекста дало повод такому суждению.

Ключевые слова: *Хафиз, газель, суфизм, мудрец, термин, суфий.*

(AMEA-nın həqiqi üzvü Möhsün Nağısoylu tərəfindən təqdim edilmişdir)

Daxil olunma: İlkin variant 11.03.2021
Son variant 22.04.2021

UOT 398:801.6; 398:82.0; 801.8; 81:0/9

ÇİNARƏ RZAYEVA

RUS VƏ AVROPA TOPONİMLƏRİ NAXÇIVAN FOLKLOR MƏTNLƏRİNDƏ

Bildiyimiz kimi toponimlərin həyatımızda rolu böyükdür. Bu dil vahidləri xalqın tarixini, şanlı keçmişini özündə yaşadaraq müasir dövrümüzə qədər mühafizə edir. Toponimlər aid olduğu bölgənin qədim sakinlərinin milli xüsusiyyətlərini özündə əks etdirir. Həmin bölgənin tarixinin öyrənilməsi üçün ən etibarlı mənbə məhz toponimlərdir. Buna görə də heç bir yeri adsız təsəvvür etmək mümkün deyil. Eləcə də folklor mətnlərini toponimsiz təsəvvür etmək olmaz. Folklor mətnlərində də hər bir hadisə müəyyən yerdə cərəyan edir. Və bu yerlər də müəyyən adlarla qeyd edilir. Həmin adların bir qismini rus və Avropa toponimləri təşkil edir. Məqalədə Naxçıvan folklor mətnlərində işlənən bir sıra rus və Avropa mənşəli toponimlər tədqiqata cəlb edilmişdir. Tədqiqata cəlb edilən bu yer adlarının bir qisminin etimoloji izahı da verilmişdir. Naxçıvan folklor materiallarında işlənən rus və Avropa mənşəli yer adları məqalədə əhatəli araşdırılmış, nümunələr əsasında təhlil edilmişdir. Aparılan tədqiqatlar zamanı məlum olur ki, bu qəbildən olan yer adları Naxçıvan folklor mətnlərində çox az işlənmişdir.

Tədqiqat zamanı yeni, maraqlı faktlar və elmi nəticələr əldə olunmuşdur.

Açar sözlər: *Naxçıvan, rus, Avropa, folklor, toponim.*

Tarixə nəzər salanda görürük ki, bütün dillər bir-biri ilə qarşılıqlı əlaqədə inkişaf edir və zənginləşir. "Rus dili Azərbaycan dilinin leksik tərkibinin inkişafında iki vəzifəyə malik olmuşdur: birincisi, bu dil Azərbaycan dilini öz sözləri ilə müntəzəm zənginləşdirmiş, ikincisi, başqa dillərdən, xüsusən, Avropa dillərindən sözlər almaqda vasitəçi rolunu daşımışdır. Buna görə də rus dili Azərbaycan dili üçün həm vasitəçi, həm də mənbə dil olmuşdur" [6, s. 232]. Dilimizə rus və Avropa dillərindən keçən leksik vahidlər içərisində toponimlər də mövcuddur. Yunan mənşəli söz olan toponimika coğrafi adları öyrənir. Bilirik ki, coğrafi adlar olmadan kainatı heç cürə təsəvvür etmək mümkün deyil. Yer adları ilə bağlı V.A.Nikonovun fikirləri də çox maraqlıdır. O yazır: "Bir anlığa təsəvvür edək ki, planetimizdəki bütün coğrafi adlar-şəhər, kənd, çay, dəniz, dağ, ölkə, küçə adları yox olmuşdur. O saat bütün rabitə işləri dayanar. Bütün nəqliyyat dayanar: heç kim harada mindiyini, hara getdiyini və harada düşdüyünü bilməz. Dünya təsərrüfatı dağılar, bəşəriyyət ibtidai vəziyyətə qayıdar. Yalnız xırdaca bir şeyə-ada görə" [7, s. 8]. Nikonovun bu fikri ilə tamamilə razıyıq. Çünki yer adlarının olması kainatda çox mühüm rol oynayır. Xalqın tarixini, şanlı keçmişini özündə yaşadan, qədim sakinlərimizin milli xüsusiyyətlərini özündə əks etdirən bu dil vahidləri həmin bölgənin tarixinin öyrənilməsi üçün ən etibarlı mənbə sayılır. Məhz bunun nəticəsi olaraq da folklor mətinlərində bir sıra toponimlərə rast gəlirik. Bu toponimlərin bir qismi milli yer adları olsa da, bir qismi də digər dillərə məxsus yer adlarıdır. Folklor mətnlərini araşdırdığımız zaman digər yer adları içərisində rus və Avropa mənşəli yer adlarını az da olsa müşahidə etdik. Bəlkə də rus və Avropa toponimlərinin az olması Naxçıvanla məsafələrin uzaq olmasından irəli gəlir. Çünki dildə işlənən alınma toponimlər əsasını qonşu olan ölkələrin yer adları təşkil edir. Qeyd edək ki, rus və Avropa yer adlarının Azərbaycanın digər bölgələrində toplanan folklor materiallarında işlənmə tezliyi yüksəkdir. Bu da onunla əlaqəlidir ki, həmin bölgələrimiz Rusiya ilə həmsərhəddir. Bu məqalədə ara-ara Azərbaycanın digər bölgələrində də rus və Avropa toponimlərinin işlənmə məqamlarını süzgəcdən keçirəcəyik. Naxçıvan folklor örnəklərində az sayda işlənən belə yer adlarını seçib tədqiqata cəlb etmişik. Məsələn, Fransa, Tiflis, Yunan, Macar və s.

Firəngistan. Mənbələrdə göstərilir ki, Fransanın qədim adı "Firəngistandır" Fransa Respublikası, yaxud qısaca Fransa, köhnə mənbələrdə Firəngistan – Qərbi Avropada dövlət [8] kimi adlandırılır. Folklor mətnlərinin də tarixi qədim olduğu üçün bəlkə də mətnlərdə Fransanın elə qədim adı işlənmişdir. Firəngistan adının işləndiyi bir nümunəyə baxaq. "İynədan" nağılından oxuyuruq:

"Bu xəbər Firəngistan padşahının oğluna çatdı. O, elçilərini həmin qızın evinə göndərdi. Qızın anası elçilərə "hə" cavabı verdi. Vaxt oldu Firəngistan şahının adamları qızı aparmağa gəldilər. Dayə fikrində tutmuşdu ki, onun yerinə öz qızını versin. Ona görə də ancaq dayə bu qızın paltarlarını öz doğma qızına geyindirib verdi Firəng elçilərinə. Elçilərdən biri qıza dedi:" [4, s. 200].

Bu nümunədə Fransa həm Firəngistan, həm də Firəng kimi işlənmişdir. İlk olaraq Firəngistan yer adı olaraq işlənmiş, daha sonrakı cümlədə elçilərin fransız olduğunu vurğulamaq üçün firəng elçiləri deyə müraciət edir.

Qeyd edək ki, bəzi mənbələrdə "firəng sözü bizim bu gün anladığımız mənadakı Fransa deyildir. Orta əsrlərdə firəng ümumiyyətlə avropalı mənasında işlədilmişdir" [1, s. 283]. Biz bu fikirlə tam razılaşmırıq. Çünki firəng sözü mətnlərdə təkcə avropalı mənasında işlənmir. Bizim yuxarıda göstərdiyimiz nümunədən də göründüyü kimi, Firəngistan toponim kimi Fransanın yer adını bildirmiş, firəng də həmin şəhərin vətəndaşının olmasından xəbər verir. Yəni bu nümunədə ümumi söz olaraq avropalı olmasını müşahidə etmirik. Yenə folklor mətnlərindən aldığımız başqa bir nümunədə Firəng Fransa yer adı kimi işlənmişdir. Məsələn,

Bir xalın var heyvad – gəlməz irəngə.
Bir xalın bərgədi – gedər Firəngə,
Bir xalın aləmi salıbdı ləngə:
Bir xalın söhbəti – sazılan gəlir [4, s. 464].

Bu nümunədə işlənən Firəng fikrimizcə indiki Fransanın mənasında işlənmişdir. Fransa olaraq bu toponim folklor dilində çox az işlənmişdir.

Aşağıda göstərəcəyimiz nümunədəki firəng bəlkə də yuxarıda deyilən kimi avropalı mənasında işlənmişdir. "Beçə Dərviş nağılı"ndan oxuyuruq:

"Ayrı əlac yoxdu. Firəng padşahının bizə bağışladığı paltar neçə ildi ki, anbarın küncündə qalır. Bəlkə bu paltar ona gəldi" [5, s. 267].

Verilən nümunələrə diqqət etsək görürük ki, əvvəldə göstərdiyimiz nümunədə Firəngistan padşahı, ikinci nümunədə firəng padşahı kimi işlədilmişdir. Necə ola bilər ki, birində Fransa adı kimi, birində avropalıları bildirən ifadə kimi işlənsin? İlkin baxışda ikisi də Fransanı ifadə edir. Əminliklə deyə bilərik ki, birinci nümunədə Firəngistan Fransa mənasında işlənmişdir. Sonuncu göstərdiyimiz nümunədə bəlkə də mənbələrdə qeyd edildiyi kimi, avropalı mənasında işlənmişdir. Ancaq fikrimizcə hər ikisi Fransa yer adını bildirir. Ehtimal edirik ki, Firəngistan uzun söz olduğuna görə onu qısa variantı olaraq firəng deyə qeyd edilib. Hər iki ehtimalda Fransa yer adının qısa və qədim forması qələmə alınmışdır.

Digər bir nümunə də isə firəng yer adının daha bir variantına rast gəlirik. "Abdulla ilə Mehriban sultan" nağılından oxuyuruq:

"Qız da baxıb gördü ki, Vallah bu atlıların içində bir oğlan var ki, bığ yeri yenicə tərləyib, elə boy-buxunu var ki, heç firəngiərəbi gəzəsən bu nişanda adama rast gəlməzsən" [5, s. 352].

Çox maraqlı gələn bu ifadə sanki Fransa ilə Ərəbistanı birləşdirərək iki böyük yer adının qısa formaya salınmış şəklidir. Firəngərəbi deyə ifadə edilməsi bir çox sual yaradır. Firəngərəbi deməklə nə ifadə etmək istəmişdir? Ehtimal edirik ki, ya burada obraz sözə və zamana

qənaət edərək Fransanı və Ərəbistanı birləşdirərək firəngərəbi toponimini yaratmışdır, ya da Avropa və Asiyanın simvolu kimi yaranmışdır. Maraqlı burasındadır ki, biri Avropa mənşəli digəri ərəb kökənli yer adını bildirən bir-birinə heç cürə yaxın olmayan bu toponim bu nağılda necə birləşdirilərək ifadə edilmişdir.

Tiflis – yer adı Naxçıvan folklor mətnlərində bir neçə janrında işlənmişdir.

Haxıştalara nəzər salaq:

Haxışta mənim olsun, haxışta.
Tafta tumanım olsun, haxışta.
Geyim gedin Tiflisə, haxışta.
Tiflisdə toyum olsun, haxışta [3, s. 399].

Bu nümunədə görünür ki, gəlin toyunun Tiflisdə olmasını istəyir. Ümumiyyətlə folklor mətnlərində alınma toponimlər hadisələrin baş verməsi ilə bağlıdır. Əsasən hər hansısa hadisənin müəyyən bir hissəsi həmin ölkədə, şəhərdə, rayonda, kənddə baş verir.

Tiflis toponiminə bayatılarda da rast gəlirik. Məlumdur ki, bayatılar mövzu dairəsi baxımından çox zəngindir. Ona görə də bu janrda alınma toponimlər çox işlənmişdir. İstər rus və Avropa mənşəli, istərsə də ərəb və fars mənşəli toponimlər. Bayatılardan oxuyuruq:

Araba kisə, göy kisə,
Məni verdilər pisə.
Onu qəbul elədim,
O da getdi Tiflisə [2, s. 33].

Bu yer adının folklor mətnlərində işlənmə səbəbi Tiflisin Azərbaycan ilə qonşu ölkə olmasıdır. Bu da təbii olaraq folklor örnəklərinə yansımışdır. Çünki ta qədimlərdən günümüzə qədər xalqımız qonşu olan ölkələrlə daha sıx əlaqə saxlamış, gediş-gəliş etmişdir. Bu səyahətləri aşıq yaradıcılığında da görürük. Məsələn, Aşıq Abbas Dəhri haqqında danışılarkən "onun kamil bir sənətkar olduğu, tez-tez İrəvan, Gəncə, Şamxor, Tiflis, Ələmdar, Xoy, Təbriz və başqa yerləri dolaşması, aşıqlıq etməsi" [4, s. 437] qeyd edilir.

Yunan – yunanlılara deyilən ifadədir. Lakin folklor örnəklərində bu ad Yunanıstanın qısa forması kimi işlənmişdir. Görünür ki, folklor mətnlərində bir çox toponim qısadılmış formada təqdim olunub. Çünki bölgələrimizdə yaşlı nəsil əsasən sözlərin qısa formada işlənməsinə üstünlük verir. Bəzən də bunun əksi olaraq əlavə sözlər artırılmasının da şahidi oluruq.

"Məlik Məmməd və Məlik Əhməd" nağılında hadisələrin müəyyən bir qismi Yunan şəhərində yaşanır.

"Biri varıdı, biri yoxudu, Yunan şəhərində bir Məmmədhəsən adında padşah varıdı. Bunun heç sonu, züryəti yoxudu. Özü də çox zalım padşahıdı" [3, s. 195].

Bu nümunə də deyilən fikirləri təsdiqləyir ki, folklor materiallarında Yunan yer adı kimi işlənmişdir. Və bu nümunədə Yunan şəhərindən söz getsə də ordakı padşahın adının Məmmədhəsən olması diqqətimizi çəkir.

Digər alınma toponimlərdən biri Dağıstandır. Bu toponim də Azərbaycanla sərhəddir. Bayatılarda müşahidə edirik.

Əzizim Dağıstana,
Yol gedər Dağıstana.
Necəsən bir ah çəkim,
Ahımdan dağ isdana [3, s. 356].

Macarıstan toponimi folklor mətnlərində az işlənsə də, rastımıza çıxır. Macarıstan yer adı da yuxarıda göstərdiyimiz toponimlər kimi qısadılmış şəkildə folklor janrlarında işlən-

mişdir. Haxıştalarda işlənən həmin toponimə nəzər yetirək:

Aftafa dəm-dəm eylər, haxışta.
Bizim yar sizə neylər, haxışta.
Çiyni Macar tüfəngli, haxışta.
Marala sürək eylər, haxışta [3, s. 404].

Bu şeir parçasında tüfəngin Macarıstan malı olduğu qeyd edilir. Macarıstan toponimi də digər toponimlər kimi Naxçıvan folklor materiallarında işlənmə tezliyi çox deyil.

Rus və Avropa mənşəli toponimlərlə bağlı aparılan araşdırmalar göstərir ki, Naxçıvan folklor janrlarında işlənən bu qəbildən olan toponimlərin bir qismi ticarətlə əlaqəli yaranmışdır. Bəzilərində isə hadisələrin bir hissəsi həmin şəhərlərdə baş vermişdir.

Təhlillərdən məlum olur ki, Naxçıvan folklor örnəklərində rus və Avropa mənşəli toponimlərin işlənmə sayı və tezliyi digər alınma toponimlərdən xeyli azdır. Nəzərə alsaq ki, alınma toponimlərin əksəriyyəti qonşu olan ölkələrin yer adları ilə bağlıdır. O zaman Naxçıvan folklor mətnlərində rus və Avropa toponimlərinin az işlənməsi təbii haldır. Folklor janrlarında rus və Avropa mənşəli toponimlərin azlığına baxmayaraq müxtəlif şəhərləri əhatə edir. Bu da xalqın dünyagörüşündən, onunların geniş biliyə sahib olmasından irəli gəlir.

ƏDƏBİYYAT

1. Azərbaycan Nağılları: 5 cilddə, 5 c., Bakı: Şərq-Qərb, 2005, 304 s.
2. Naxçıvan bayatıları. Bakı: Nurlan, 2009, 356 s.
3. Naxçıvan folklor antologiyası: 3 cilddə, I c., Naxçıvan: Əcəmi, 2010, 496 s.
4. Naxçıvan folklor antologiyası: 3 cilddə, II c., Naxçıvan: Əcəmi, 2011, 513 s.
5. Naxçıvan folklor antologiyası: 3 cilddə, III c., Naxçıvan: Əcəmi, 2012, 560 s.
6. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili. I c., Bakı: Nurlan, 2003, 450 s.
7. Yusifov Y.B., Kərimov S.K. Toponimikanın əsasları. Bakı: Maarif, 1987, 204 s.
8. https://az.wikipedia.org/wiki/Fransa#Ad%C4%B1n%C4%B1n_etimologiyas%C4%B1

AMEA Naxçıvan Bölməsi
E-mail: ***cinarerzayeva@yahoo.com.tr***

Chinara Rzayeva

TOPONYMS OF RUSSIAN AND EUROPEAN ORIGIN IN THE TEXTS OF NAKHCHIVAN FOLKLORE

Toponyms of Russian and European origin in Nakhchivan folklore texts, processed in folklore texts, were involved in the study. As is known, the role of toponyms in our lives is excellent. These Language units preserve the history and glorious past of the people until the present time. Toponyms reflect the national characteristics of the ancient inhabitants of the region. The most reliable source for studying the history of this region is toponyms. Therefore, it is impossible to imagine any place without a name. In folklore texts, every event took place in a particular place as well.

In the paper, the area and frequency of usage of the toponyms are determined. We can indicate several toponyms of Russian and European origin involved in the study. Research

has shown that such place names are rarely used in Nakhchivan folklore texts. The article also presents the meaning and emergence of some place names.

New, interesting scientific results were obtained during the research.

Keywords: *Nakhchivan, Russia and Europe, folklore, toponym.*

Чинара Рзаева

РОССИЙСКИЕ И ЕВРОПЕЙСКИЕ ТОПОНИМЫ В ФОЛЬКЛОРНЫХ ТЕКСТАХ НАХЧЫВАНА

Как известно, топонимы играют важную роль в нашей жизни. Эти языковые единицы хранят историю и славное прошлое народа до наших дней. Топонимы отражают национальные особенности древних жителей региона, к которому они принадлежат. Самым надежным источником для изучения истории края являются топонимы. Поэтому невозможно представить какое-либо место без названия. Также невозможно представить фольклорные тексты без топонимов. В фольклорных текстах каждое событие происходит в определенном месте. И эти места также отмечены определенными названиями. Некоторые из этих названий являются русскими и европейскими топонимами. В статье рассматривается ряд топонимов русского и европейского происхождения, используемых в фольклорных текстах Нахчывана. Также дается этимологическое объяснение некоторых географических названий, включенных в исследование. Топонимы русского и европейского происхождения, используемые в фольклорных материалах Нахчывана, всесторонне исследованы и проанализированы на примерах. В ходе исследования выяснилось, что такие топонимы редко используются в фольклорных текстах Нахчывана.

В ходе исследования были получены новые интересные факты и научные результаты.

Ключевые слова: *Нахчыванский, Россия и Европа, фольклорный, топоним.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 30.07.2021
Son variant 09.08.2021

UOT 7(091)

MİRSƏLİM EMİNOV

"XOSROV VƏ ŞİRİN" POEMASINDA SƏNƏTKARLIQ HAQQINDA

Nizami Gəncəvi dahi şair, mütəfəkkir, filosof və bir çox xüsusiyyətləri ilə yanaşı ciddi tədqiqatçı olmuşdur. O, öz poemalarına başlamazdan əvvəl mənbələrdəki məlumatları toplayıb öyrəndiyini yazır. Bu səbəbdən də Nizami Gəncəvinin poemaları bir çox elm sahələri üçün mənbə rolunu oynayır. Bu elm sahələrindən biri də incəsənətdir. O, poemalarında incəsənətin naqqaşlıq, miniatür sənəti, ebru, həkkaklıq, memarlıq, teatr və s. haqqında məlumat verir. Hər bir incəsənət əsərini bir sənətşünas təhlil edir və sənətkarlar üçün zəruri olan xüsusiyyətləri qeyd edir. Eyni zamanda bəhs etdiyi dövrün sənətkarının bacarığını, onun məharətini, ustalıq səviyyəsini bir rəssam kimi sözlə təsvirini yaradır. Bu cəhətdən Nizaminin "Xosrov və Şirin" poeması VI-VII əsr Azərbaycan incəsənətinin, sənətkarlığının öyrənilməsi üçün xüsusi əhəmiyyətə malikdir.

Açar sözlər: *Azərbaycan incəsənəti, sənətkarlıq, ebru, miniatür, həkkaklıq, Xosrov və Şirin.*

Nizami Gəncəvinin Xəmsəsi dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Xəmsəyə daxil olan beş poema-məsnəvisində bütün zamanların ən humanist, ümumbəşəri idealları parlaq şəkildə bədii əksini tapıb. Bütün məziyyətləri ilə yanaşı bədii əsərlərinin tarixi qaynaqları düzgün əks etdirməsinə böyük önəm verən Nizami Gəncəvi poemalarını yazmazdan əvvəl qaynaqları bir alim ciddiliyi ilə araşdırmış, doğru qəbul etdiyi həqiqətləri öz əsərlərində əks etdirmişdir. O, əsərlərində bir çox elm sahəsindən, dövrün elmi-mədəni inkişaf səviyyəsindən bəhs etmişdir. Bu səbəbdən də onun poemaları tədqiqatçılar üçün qaynaq rolunu oynayır. Bu elm sahələrindən biri də incəsənətdir. Poemalarda incəsənətin miniatür, xəttatlıq, musiqi, memarlıq və digərlər növləri haqqında məlumat verilir. Bu cəhətdən "Yeddi gözəl", "Xosrov və Şirin" poemaları diqqəti daha çox çəkir. Yüksək estetik zövqə, sonsuz bədii təfəkkür gücünə malik olan mütəfəkkir şair incəsənət nümunələrindəki gözəlliklərə bu əsərlərində geniş yer vermişdir. Nizami Gəncəvi poemalarında bir sənətşünas kimi rəssamlıq, memarlıq, naqqaşlıq və s. sənətinin incəliklərini vəsf edir, həmin sənətlər üçün zəruri olan keyfiyyətləri sadalayır. Sənətkarlıq sahəsinin və sənət əsərlərinin bu cür aydın, başa düşülən sözlə təsvir olunması Nizaminin bu sənət sahələri ilə yaxından tanış olmasını göstərir. Bütün bunlar şairin musiqi, rəssamlıq, memarlıq və s. kimi incəsənət növlərinə olan estetik marağını da büruzə verir.

Bildiyimiz kimi, Nizami Gəncəvinin "Xosrov və Şirin" poeması Sasani hökmdarlarından Xosrov Pərvizlə Bərdə hakiminin vəliəhdi gözəl Şirin arasındakı məhəbbət haqqındadır. Bu əsərdə ebru sənəti, miniatür, həkkaklıq, daşyonma və başqa sənət sahələri ilə bağlı məlumat verilir. Onlara nəzər salaq. Şair Xosrovun dostu Şapuru incə, zərif işlərdə sənətkar kimi təqdim edir.

Şapur adlı ona yaxın bir adam
Məğribdən Lahura gəzmişdi tamam.
Nəqşində Maninin şöhrəti vardı,
Rəsmində İqlidis qüdrəti vardı.
Zirək, şəkil çəkən, qələmi iti,
Xəyalən çəkərdi min bir surəti.
İncə, zərif işdə xeyli pərgardı,
Suların üstündə naxış salardı [4, s. 89].

Yunan alimi, məşhur "Başlanğıclar" əsərinin müəllifi İqlidis (Evklid) riyaziyyat və həndəsə elminə dərindən bələd olmuşdur. Nizami burada Şapurun nəqqaş olduğunu göstərərək, onu Evklid ilə müqayisə etməsinin səbəbi onun həndəsi naxışları yaratmaqda mahir olmasıdır.

Xosrov və Şirin poemasının daha əvvəlki tərcümələrində bəhs etdiyimiz bənddə belə bir misra var. "Sanki xəyalından naxış fırçasız çəkilirdi" [3, s. 62]. Bildiyimiz kimi ebru sənətində rəsmlər əvvəlcədən düşünülməmiş şəkildə, bədahətən yaradılır və su kimi bilinən məhlulun üzərinə səpələnən boya damcılarına fırça ilə deyil "biz" ilə forma verilir. Tədqiqatçılar bu bənddəki sözlərə əsasən Nizaminin burada ebru sənətindən bəhs etdiyi fikrindədirlər. Nizami bu məqamı göstərməklə ebru sənətinin mövcud olduğunu və saraylarda tanındığını da göstərmişdir.

Qələmi naxışla birləşərkən
Suya sədəf kimi düyün naxış salırdı
Qələmin qarasıdan huri telləri kimi
Kölgənin naxışını nura salırdı [Yeddi].

Yeddi gözəl poemasından olan bu bənddə də hesab edirəm ki, ebru sənətindən bəhs edilir.

Daşyonma və həkkaklıq sənəti haqqında da poemada Şapur Fərhadı Şirinə tərif edərək onun sənətkarlıqdakı bilik və bacarığından danışır.

Dedi: "Fərhad adlı bir cavan vardır,
Usta mühəndisdir, bir sənətkardır.
Həndəsə elmində xariqə saçar
"Məcəsti", İqlidis sirrini açar.
Biz Çində yaşıd olmuşuq,
Bir yerdə oxuyub yaşa dolmuşuq.
Ustamız bilirdi hər bir peşəni.
Mənə qələm verdi ona tişəni.
Külünglə başlarkən sənətkarlığa,
Yeri quş qayırıb yüklər balığa.
Qızıl bir rəng alır işindən güllər,
Daşlara dəmirlə Çin nəqşi çəkər [4, s. 284].

Şapur ilk olaraq Fərhadın mühəndislik, memarlıq bacarığından söz açaraq onun həndəsə elminə bələd olduğunu bildirir. Nizami Fərhadı dəmirlə, külünglə daşlara şəkil çəkməkdə usta olduğunu göstərir. Bildiyimiz kimi həkkaklıq daş, ağac, gəc və s. üzərinə qazma və ya oyma üsulu ilə naxış salma sənətidir. Azərbaycanda Həkkaklıq sənətinin tarixi eramızdan əvvələ aiddir və günümüzə qədər gəlib çatmış V-VI əsrə aid Mingəçevir məbədinin kapitelindəki tovuz quşu təsviri bəhs olunan dövrdəki həkkaklıq sənətini inkişaf səviyyəsini göstərir [2, s. 26]. Nizami Gəncəvinin bəhs etdiyi dövrü bir tədqiqatçı kimi araşdırdığını və bəhs etdiklərinin doğruluğunu göstərir. Bu misralar da Fərhadın mahir həkkaklıq olmasını və hətta insan surəti də oymağı bacardığını söyləyir. Fərhadın Bisütun dağını çapmazdan öncə üzərinə şəkil çəkdiyini yazan aşağıdakı misralar da bu fikri bir daha ifadə edilir və bu misralar Azərbaycan plastik sənət tarixinin öyrənilməsi baxımından əhəmiyyətlidir.

Daşın düz yerindən yonub bir qədər,
Çəkdi gözəl-gözəl nadir şəkillər.
Şirinin şəklini yaratdı qəşəng,

Elə bil ki, çəkdi Mani bir Ərjəng.
İti külüngünün ucuyla sonra
Xosrovla Şəbdizi çəkdi divara [4, s. 303].

Nizami poemaya başlamazdan əvvəldə bu dastanın gerçəkliyi, Xosrovun sarayının, Bisütun dağı və üzərindəki atın şəkilinin onun dövrünə kimi qaldığını yazır.

Xosrovdan, Şirindən qalan Yadigar
Gizlində deyildir, durur aşikar:
Şəbdiz atın şəkili, Bisütun dağı,
Pərviz sarayının eyvanı, tağı...

Daha sonra şair Fərhadın daşyonma sənətindəki məharətini göstərmək üçün onun düzəltdiyi hovuzu Kövsər hovuzu ilə müqayisə edir.

Bir hovuz düzəltdi axırda – göyçək,
Kövsər hovuzu olmaz onuntək.
Daşları düzmüşdü elə diqqətlə
Araya sığmazdı bir tük də belə.
Daşyonan daşdan bir hovuz yaratdı.
Sanki barmağından fəvvarə atdı [4, s. 287].

Bildiyimiz kimi Yaxın və Orta Şərq xalqları incəsənətinin maraqlı və zəngin hissəsini təşkil edən Azərbaycan miniatür sənəti dünya incəsənəti tarixində özünəməxsus yer tutur. Şair VI əsrin ən maraqlı sənət sahəsindən də bəhs edir.

Bir uğurlu kağız alıb, bir anda
Xosrovun şəklini yaratdı onda [4, s. 99].

Əvvəl çəkdiyi tək kağız üstünə
Xosrovun şəklini çəkmişdi yenə [4, s. 102].
Nəqqaşlıqda böyük yerə çatmışam,
Xosrovun şəklini mən yaratmışam.
Rəssam çəkən şəklə oxşayır, fəqət
Cansız olur onun çəkdiyi surət [4, s. 115].

Miniatür sənətinin ən qədim nümunəsi isə XIII əsrə aid olsa da onun tarixi çox daha qədimdir. Bu misralarda Şapurun Xosrovun şəkili bir nəçə dəfə çəkdiyini göstərməklə onun miniatürçü rəssam olduğunu və portret çəkməkdəki xüsusi bacarığını göstərir.

Nizami Gəncəvi özündən bir neçə əsr əvvəli tədqiq etmişdir və öz poemasında bəhs etmişdir. Biz burada Şapur və Fərhadı dövrün bacarıqlı sənətkarı kimi qəbul etsək, təsəvvürümüzdə dövrün incəsənətinin, sənətkarının və sənətkarlıq nümunəsinin, onların şöhrətinin aydın mənzərəsini yaratmış olarıq. Bildiyimiz kimi keçmiş dövrün tədqiqində yazılı mənbələrin və günümüzə gəlib çatmış incəsənət nümunələrinin müstəsna rolu vardır. Daha qədim zamanları tədqiq etdikcə isə yazılı mənbələr daha da azalır. Bu baxımdan Nizaminin yaşadığı dövrün və ondan əvvəlki dövrün incəsənətinin öyrənilməsində Xəmsənin yazılı mənbə kimi əhəmiyyətli rolu vardır.

ƏDƏBİYYAT

1. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 2007, 272 s.

2. Xosrov və Şirin. Bakı: Elm, 1981.
3. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı: Lider, 2004, 392 s.
4. Yeddi Gözəl. Bakı: Elm, 1983 s.

AMEA Naxçıvan Bölməsi
E-mail: *m.selimeminov@mail.ru*

Mirselim Eminov

CRAFTSMANSHIP IN "KHOSROV AND SHIRIN" POEM

Nizami Ganjavi was a brilliant poet, thinker, philosopher, and researcher, along with other characteristics. He wrote in his poems that he collected and studied information from sources. For this reason, Nizami Ganjavi's poems play the role of a source for science. One of these fields of science is art. His poems give information on paintings, miniature art, marbling, engraving, architecture, theater, and others. Each work of art is analyzed by an art critic and notes the features necessary for artisans. At the same time, he described the craftsman's skills, his ability, the level of mastery as an artist. In this regard, Nizami's poem "Khosrov and Shirin" is significant for studying art and craftsmanship in Azerbaijan in the 6th-7th centuries.

Keywords: *Azerbaijani art, craftsmanship, marbling, miniature, engraving, Khosrov and Shirin.*

Мирсалим Эминов

ОБ ИСКУССТВЕ В ПОЭМЕ «ХОСРОВ И ШИРИН»

Низами Гянджеви был великим поэтом, мыслителем, философом и, наряду со многими другими качествами, серьезным исследователем. Он пишет, что перед тем, как создавать свои поэмы, он собирал и изучал информацию из источников. По этой причине стихи Низами Гянджеви играют роль источника для науки. Одна из таких областей – искусство. В своих поэмах он предоставляет информацию о таких видах искусства, как живопись, миниатюры, скульптура, гравюра, архитектура, театр и других. Каждое произведение искусства поэт анализирует как искусствовед и отмечает особенности, необходимые художнику. В то же время он на словах описывает мастерство художников своего времени. В связи с этим поэма Низами «Хосров и Ширин» имеет особое значение для изучения искусства и ремесел в Азербайджане VI-VII веков.

Ключевые слова: *азербайджанское искусство, ремесло, эбру, миниатюра, гравирование, Хосров и Ширин.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 28.07.2021
Son variant 10.08.2021

UOT 388:801.6; 398:82.0; 801.8

AYTƏN CƏFƏROVA, NURİDƏ MUXTARZADƏ

XX ƏSR NAXÇIVAN AŞIQ MÜHİTİNİN TANINMIŞ SİMASI: AŞIQ NABAT

XX əsr Naxçıvan aşıq mühitinin özünəməxsus dəsti-xətti ilə seçilən Aşıq Nabat vətənpərvər duyğularını misralara ustalıqla həkk edən və bu misralarla da yaddaşlarda əbədi yaşayan aşıqlardandır. Qədim türk ənənəsindən irəli gələn mübariz qadın obrazının növbəti ifadəçisi kimi də dövründə olduqca böyük sevgi qazanmışdır. Vətəninin əsrarəngiz təbiətindən, vətən övladlarının cəsurluğu, el qızlarının təravətli gözəlliyindən poetik və real boyalar vasitəsilə söz açması onun coşqun daxili aləminin təzahürüdür. İstər şeirlərində, istərsə də dövrünün bir çox aşıq-şairləri ilə deyişmələrində Nabat dünyanı, aləmi, əsas da elini, obasını dərindən düşünən, humanist duyğuları ilə yaşayan, əhatəsindəki insanlara da humanist nəzərlərlə, qayğıyla yanaşan əsl el anasıdır. Şeirlərində dərin fəlsəfi düşüncələrini ustalıqla poetikləşdirməyi bacaran Nabat həm yeri gəldikcə nəfsi-tərbiyə baxımından da maraqlı təqdimatlar edir. Məqalədə Aşıq Nabatın yaradıcılığına məxsus olan şeirləri bu mövqedən araşdırmaya cəlb olunmuşdur.

Açar sözlər: *Aşıq Nabat, Naxçıvan, aşıq mühiti, el, oba, vətən, əbədi, türk, qadın.*

Aşıq yaradıcılığı şifahi xalq yaradıcılığının ən fəal qollarından birini təşkil edir. Hər bir mühitə məxsus olan aşıq yaradıcılığının tarixin müxtəlif çağlarında tanınmış nümayəndələri olmuşdur. Həmin şəxsiyyətlər istər öz təxəyyülünə uyğun yaradıcılığı, istərsə də aşıq sənətinin qanunlarından qaynaqlanan fəaliyyətləri ilə xalq sevgisini qazanmış, yeri gəldikcə də öz dəyərli yaradıcılıqları ilə sonrakı nəsil aşıqların fəaliyyətləri üçün istiqamətverici qüvvə xarakterini qazanmışlar. Bu mövqedə təkcə bizə məlum olan və olmayan kişi aşıqlar deyil, cəmiyyətin zərif dayağı sayılan qadınlar da şərəflə addımlamışlar. Həmin qadınlar həm də fədakar türk qadını ənənəsindən genetik olaraq bəhrələnmiş, öz fəaliyyətləri ilə xalq mədəniyyətinə əvəzsiz töhfələr vermişlər.

Ümumiyyətlə, qeyd edək ki, qadın hər zaman qarşılaşdığı çətinliklərinə sinə gərən, bu çətinlikləri dəf edərək şərəf qazanan varlıqdır. Demək olar ki, ulu keçmişin keşməkeşli tarixində qadın "kirpiyi ilə od götürən" varlıq kimi yadda qalmışdır. Ailəsinin, nəslinin, keçmişinin, vətəninin, nəhayət, göz-bəbəyi kimi sevdiyi övladının yolunda bitməyən əzabları qəbul etmişdir. Bu əzablardan, ağrı-acılardan zərrə qədər inciməyən qadın gələcəyə ümidlə baxmış, gələcəyin nə vaxtsa onun və əzizi hesab etdiklərinin üzünə parlayacağına sonsuz ümid bəsləmişdir. Elə buna görədir ki, qadınlar müxtəlif dövrlərdə öz fədakarlığı ilə tarixin yaddaşına silinməz talelər yazmışlar.

Qədim türklərdə qadın öz qeyrətinin, namusunun, fədakarlığının dünya qadınları ilə müqayisədə olduqca yüksək mövqedə dayanmağını müxtəlif sahələrdə nümayiş etdirmişdir. Biz bu məqamı qədim türk dastanlarında obrazlaşdırılmış qadınların timsalında da müşahidə edirik. İstər vətənin mübarizəsində, istər məişətində türk qadının əvəzədilməz rolu əbədidir. Və bu fədakarlıq Azərbaycan türklərinin qadınlarının timsalında özünün daha parlaq ifadəsini tapmaqdadır. Saysız-hesabsız Azərbaycan qadını dövrün amansız zərbələrindən üzüağ çıxıb tarixə öz qəhrəmanlıq imzasının möhürünü vurmuşdur. Söylənilənlər yalnız müharibə və döyüş baxımından deyil, hər sahədə Azərbaycan qadınının tükənməz güc-qüvvəyə malik olduğunu təsdiq edir. Güclü olduğu qədər zərif, zərif olduğu qədər həssas, həssas olduğu qədər bacarıqlı, bacarıqlı olduğu qədər qeyrətli, qeyrətli olduğu qədər də yaradıcıdır Azərbaycan qadını...

Sözün əsl mənasında söyləmək olar ki, Azərbaycan qadınları yol göstərmək, məsləhət vermək gücündə olmaqla, ağbirçək "rütbəsini" öz ağıl və fərasətləri, bacarıqları ilə qazanmışlar. Zaman-zaman ağlının, qüdrətinin sayəsində dövlət işlərini idarə etmiş, diplomatik münasibətlər aparmış, Vətənin xeyrinə öz mənafeləri azmış kimi ailəsinin, övladının da mənafeyini inkar etmiş qadınlarımız olmuşdur. Hansı ki məhz belə qadınlarımızın bacarığı və səriştəsi ilə ağır və çətin döyüşlərdən qalib çıxan sərkərdələrimiz olub. Tükənməz qeyrət simvolu olan azərbaycanlı qadınlar yeri gələndə öz daxili aləmlərində tüğyan edən hiss-həyəcanını nəzmə çevirib, yaddaşlara ötürmüşdür. Bunlar şairlikdən aşıqlıq mərtəbəsinədək yüksələn qadınlarımızdır. Unudulmaz yazıçımız Ə.Cəfərzadənin dəyərli fikirləri yada düşür: "Xalqımız qadın – ana adı ilə bağlı gözəl şeir inciləri düzən onlarla qadın aşıq və şairlər yetirmişdir. Hər şeydən artıq diqqəti cəlb edən də elə burasıdır ki, məhz Azərbaycanda, qadınlığın heç bir bəşəri hüququ olmadığı, feodalizm və dini əsarətin hökm sürdüyü bir ölkədə, vaxtilə, başqa məmləkətlərə nisbətən daha çox qadın aşıq və şair yetişmişdir" [3, s. 178].

Tarixdə fədakar, döyüşkən, ağıllı qadınlarımız çox olub və bu qadınlar içərisində həmin keyfiyyətlərə malik yaradıcı, poetik duyğuları tüğyan edən qadınlarımız da olub. Həmin qadınlar içərisində Naxçıvan aşıq mühitinin tanınmış simalarından olan Aşıq Nabatın yaradıcılığı və fəaliyyətinin araşdırılması bu qadının da sələfləri kimi hünər sahibi olduğunu bir daha təsdiq edir.

Aşıq Nabat dövründə hər kəsdən seçilən, istedadı və bacarığı, həm də gözəlliyi ilə məşhur olan aşıq-qadınlardan idi. Rastlaşdığı ağır tale Aşıq Nabatın nə şəxsiyyətinə, nə də yaradıcılığının bol-bəhrəli olmasına təsir etmişdir.

Aşıq Nabat (Nabat Paşa qızı Cavadova) 1914-cü ildə Şərur rayonunun Parçı kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur. Nabat ata-anasını lap uşaqlıq çağlarında itirmişdir. Nabatın uca boyu, qızılgülə bənzər ağlı-qırmızılı yanağı, hələ üstəlik məlahətli səsi çoxlarının diqqətini özünə cəlb edirdi. Nabatı öz kəndlərində sevənlər çox idi. Lakin Nabatın meyli onu sevən gənc bir oğlanda idi. Nabatı polis dəstəsinin başçısı olan həmin oğlan götürüb qaçmışdı. Dərələyəz ellərinə aparmışdı. Bu oğlan o qədər yaraşıqlı, xoşxasiyyət idi ki, Nabatın öz taleyindən şikayət etməyə haqqı yox idi [1, 3]. Bəli, uşaqlığı kasıblıq və yetimliklə keçməsinə baxmayaraq, Nabatın həyat sevgisi coşqun idi. Və gənc vaxtlarında yaşadığı sevgisi də bu coşqunu birə-min artırmışdı. Hansı ki Nabatın yaradıcılığının ən məhsuldar dövrü də məhz bu dövrlər idi. Yaşadığı sevgidən ilham alan Nabat bir-birindən maraqlı və diqqətçəkən şeirlər yaradır. Vətən, el, yurd, ana məkan sevgisi hər zaman Nabatın qəlbinə hakim olan duyğular idi. Ona görə şeirlərinin çoxusunu bu istiqamətdə yaradan aşıq vətən sevgisini böyük coşqu ilə ifadə etmiş olur:

İki gözüm Oğlanqala, Qızqala,
Mən sizdən xəbərsiz sizdən ayrıldım.
Ay Əyricə dağım, a doğma Parçım,
Mən sizdən xəbərsiz sizdən ayrıldım [1, s. 4].

Növbəti bənddə Nabat vətəninin dilbər guşələrini, onlarla bağlı xalq dilində yaşayan əfsanə və rəvayətləri nəzərdə tutaraq onları "üç gözəl" adlandırır və aşıq şeir şəkillərindən olan bağlamadan istifadə edərək yazır:

Üç gözəlin timsalıdır Siyaqut,
Arpa çayı, biri Sara, birin tap?
Nuruyla bağlıdır qanlı hekayət
Mən sizdən xəbərsiz sizdən ayrıldım.

Nabat, yazda gəldim, düşdüm qışa mən
Qürbət eldə döndün qərib quşa mən.
Qoymadılar yarla gəzəm qoşa mən
Mən sizdən xəbərsiz sizdən ayrıldım [1, s. 4].

Vətən sevgisini, yurd nisgilini Nabat təkcə qoşmaları ilə deyil, həm də xalq şeir şəkillərindən olan bayatıları vasitəsilə də ifa edir:

"Oğlanqala", "Qızqala",
Ay ürəyi buz qala.
Nabat yada düşəndə,
Bircə məktub yaz, qala [1, s. 18].

Doğma Yurdu olan Parçı kəndi Nabatın əbədi sevgisidir. Bu elə bir sevgidir ki, Nabat bir an belə bu sevgisiz yaşamır. Getdiyi hər bir məkanda doğma kəndi Parçını xatırladan məqamlar axtarır. Ancaq heç yerdə Parçı şirinliyini duya bilmir və bu baxımdan yazır:

Nabat deyər: Parçıdı,
Doğduğum kənd Parçıdı.
Məndən əmanət qalan,
Bulaq, səhəng, parçıdı [1, s. 18].

Göründüyü kimi, bu şeirində Aşıq Nabat nakam sevgisini ürək yanğısı ilə ifadə etməklə yanaşı vətən, yurd, qəriblik həsrətini də önə çəkir. "Qürbət el" məfhumu Nabat üçün hətta nakam sevgisindən də öndə idi. Lakin çox gözəl xislətli, ona qarşı tükənməz eşqi olan bir şəxslə ailə qurması Nabatın qəriblik həsrətini sanki dondurmuşdu. Nabat elə coşqun ruhlu bir şəxsiyyət – qadın idi ki, bu nisgili boğub saxlamağa çalışsa da qəlbinin dərinliklərində onu bu duyğu yandırırdı. Elə ki, ailə həyatında o məlum faciə baş verdi, Nabatın yurd həsrəti, nisgili bədbəxt taleyi ilə qoşalaşdı. Nabatın dərdi üstünə dərd gəldi. Odur ki, Nabat hər bir nikbin ruhlu, hətta nikbin sərlövhəli şeirində yurd və bəxt nisgilini də ifadə etməyə bilmədi. Çünki bu iki ağrı, iki acı Nabatın yar-yoldaşına çevrildi. Tədricən onları acı-ağrı kimi deyil, onu kamilləşdirən bir nəsib, Tanrı payı kimi qəbul etdi ... Yəni Nabat bu dərdlərlə daha da kamilləşib əsl ərmiş aşığa çevrildi. Nabatın əsl ərmiş aşıq olduğunu "Aşıq Nabat və Musa" dastanında görürük. Musa Nabata deyəndə ki, gəl, biz də "Bülbül" rədifli şeirlər yazaq, Nabat Musanın nəyə eyham vurduğunu anladı. Baxmayaraq qəlbində o da bu istedadlı gəncə aşiq idi. Hisslərini boğaraq belə cavab verir:

- "Musa, şeirində, sözündə yolun altına, üstünə düşmə. Birincisi, bizim yaşımız çox fərqlidir. İkincisi, ağzını süd yandıran qatıqdan da qorxar, qoy bizim sevgimiz bir-biriylə qovuşa bilməyən aşiqlərin, məşuqların sevgisi olsun. Qoy sevgimiz şeir-sənət, saz-söz sevgisi olsun".

Burdan da görünür ki, Nabat əsl Azərbaycan-türk qadını olaraq yerini, yurdunu bilən qadındır. Nəfsini tox saxlamağı o ululari Möminə xatundan, Nigardan, Həcərdən ərməğan alıb.

Bundan sonra Nabatla Musanın "Bülbül" rədifli şeirləri yaranır:

Gecə-gündüz səsin gəlir,
Bir azca da oxu, bülbül.
Dərdin, qəmin, yaman çoxdu,
Qaçıb gözdən yuxu, bülbül.

Soruşma ki, haralıyam.
Şərurdanam – oralıyam.
Mən də yardan yaralıyam,
Bir dərdliyik axı, bülbül.
Bir azca da oxu, bülbül [1, s. 23].

Bu bəndə diqqət edəndə aydın görünür ki, Vətənini nisgili hər an Nabatın aşıq-aşiq qəlbini titrədir. Bənddə "Mən də yardan yaralıyam" deməklə, Nabat həm müqəddəs vətənini, həm də şəxsi sevgisini nəzərə çarpdırır. Və növbəti bənddə də doğma Parçısını bir daha xatırlayır, vurğulayır ki, belə müqəddəs məkanın yetirdiyi övlad da mərd, qədirbilən olar:

O ellərin mərd qızıyam,
Parçı kəndin ulduzuyam.
Neynim ki, qara yazıyam,
Qəmim çoxdu axı, bülbül,
Bir azca da oxu, bülbül.

Sevirəm ilin yazını,
Çəkəmmədim yar nazını,
Bir də çalım qəm sazını,
Yanır qəlbim axı, bülbül,
Bir azca da oxu, bülbül [1, s. 23].

Elindən-obasından ayrı düşən Nabat hər an qəlbini göynədən bu acını, sızıltını ifadə edir. Hətta əlaqəsi olmayan anda belə Vətən nisgilini dilə gətirməkdən yorulmur, usanmır:

Sən düşübsən güldən kənar.
Nabat kimi eldən kənar,
Oxumasan qəlbim yanar,
Şan-şan bağrım axı, bülbül,
Bir azca da oxu, bülbül.

Fələk dərd-qəm verib bizə,
Məcnun edib salıb düzə.
Çox vədəsiz gəldik gözə,
Niyə belə axı, bülbül,
Bir azca da oxu, bülbül.

Alışırsan öz-özünə.
Yanırsan eşqin közünə,
Dünya görünmür gözünə,
"Gül" dərdin var axı, bülbül,
Bir azca da oxu, bülbül.

Musa, halım yaman oldu,
Günlərin ah-aman oldu,
Tüstüm qalxdı duman oldu
Nədir çarəm, axı bülbül,
Bir azca da oxu, bülbül [1, s. 23].

"Bülbül" vasitəsilə müraciət xalq dilində mövcud olsa da, sonradan klassik ədəbiyyatda da dərin eşqin vasitəsi kimi geniş istifadə edilmişdir. Hər iki aşiq "bülbül"ə müraciət etməklə, əslində, öz istəklərini ifadə etmiş olur. Qəlbinin dərinliklərindəkiləri bir-birlərinə söyləməkdə "bülbül" əsl köməkçi üsuldur. Bu barədə alim S.Paşayev də maraqlı fikirlərini təqdim edir:

"Əslində bülbül bir vasitə kimi seçilsə də, Nabatın öz dərdi-səri, Musanın da başqa nisgili vardı..." [1, s. 88].

Nabat özünü əsl aşiq-aşıq hesab edirdi. Nabatın sevgisi, qadın olmağına baxmayaraq, nəfsinə hakim kəsilmiş Məcnun sevgisi qədər dərin idi. Baxmayaraq ki, gənc, yaraşıqlı və ən əsası da ona dərindən aşiq olan Musaya o da biganə deyildi, amma Nabat nəfsinə, coşub-daşan duyğularına böyük iradə ilə hakim kəsilib, Musanı özündən uzaqlaşdırmağa çalışırdı. O bunu o qədər möhkəm iradə ilə edirdi ki, hətta qəlbini didib-parçalayan eşqinin "acığına" Musaya başqa bir qızı nişan verir, onunla evlənməsini tövsiyə edir. Və bu işdə də sonadək mübarizə aparır. Lakin bütün bunlara baxmayaraq Nabat özünün bəzi duyğularına da hörmətlə yanaşır: Nabat çox gözəl qadın idi və bu gözəlliyi ilə də qürur duyurdu. Qadın xislətinə məxsus olan öyünmək, gözəlliyi ilə, necə deyərlər, "aləmə meydan oxumaq" kimi hissləri Nabatdan da bir qadın kimi yan keçməmişdi. Buna baxmayaraq, Nabatdakı bu öyünmə fərqli olaraq təkəbbür doğurmurdu. Nabat öz gözəlliyini Tanrı ərməğanı kimi təqdir-tərif edib Tanrıya şükür edirdi. "Yaraşır" qoşması bu fikri təsdiqləyir:

Mənim gözəlliyim Tanrı payıdır,
Atlas tapılmasa, bez də yaraşır.
Tarzəni tez çağır, ay müğənni qız,
Mənə sədəfsiz saz da yaraşır [1, s. 45].

Və ya digər bənddə Nabat öz gözəlliyini "nur işığına" bənzədərək, elə aşıq sənətindən irəli gələn üslublara müraciət edir. Bənzətmə, təşbeh kimi bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə o mənsub olduğu sənət sahəsinin – aşıqlıq sənətinin sirlərinə peşəkarlıqla bələd olmağını göstərir. "Nə dərdim" qoşması bu baxımdan diqqət çəkir:

Nabat aləm bilir el aşığıdır,
O, toylar, məclislər yaraşığıdır.
Alma yanaqları nur işığıdır,
Yanar soyçırağam, daha nə dərdim [1, s. 45].

Aşıq Nabatın gözəlliyinə digər aşıq və şairlər də şeirlər həsr etmişdirlər. Nabatın həm bacarıqlı, qabiliyyətli, istedadlı olması, həm də gözəlliyi ətrafındakıları ona heyran edirdi. Bu baxımdan elə onun dövründə yaşayıb-fəaliyyət göstərən aşıqlar da bu gözəlliyi vəsf etməyə bilmirdilər. Şəmkirli Aşıq Məsim Nabatın gözəlliyini vəsf edən maraqlı şeir də yaratmışdır. "Onu görüb çiçəklər də bəzəndi, Bir dünyadı gözəlliyi Nabatın", deyən Aşıq Məsim bu gözəlliyi bir neçə şeiri ilə ifadə edir.

Aşıq Nabat doğma yurda, elə-obaya bağlı aşıq olmaqla yanaşı, bütöv Azərbaycan təbiətinə, məkanlarına aşiq aşıqdır. O, Azərbaycanın çox məkanını şeirlərindən də göründüyü kimi, qarış-qarış gəzmiş, gördüyü gözəlliklərdən təsirlənərək bir-birindən maraqlı qoşmalar yaratmışdır. Məsələn, elə "Talıstan dağları", "Kürəkçay", "Sirabın", "Ağbulaq", "Əsrik çayı" kimi qoşmalarda bu yerlərin əsrarəngiz təbiətini real boyalarla bilavasitə təsvir edir. Lakin elə qoşmaları var ki, eşq, məhəbbət mövzuludur, yenə də müəyyən məqamlarda Azərbaycan toponimikası ilə bağlı məqamlar aydın şəkildə görünür. Yəni Nabat öz daxili, şəxsi duyğularını ifadə edəndə yurd-vətən simvolu hesab etdiyi hər bir coğrafi məkanı oxucuya xatırladır. Belə demək mümkündürsə, coğrafi şüur Nabat şəxsiyyəti və yaradıcılığı üçün ön plandadır. Bu qoşmalar "Nə günahı var " – Araza çayının o taylı-bu taylı Azərbaycanı ikiyə bölən çay kimi qınaq obyekti olması, günahkar hesab olunması Nabatı incidən məqamdır və bu münasibətlə yazır ki:

Aşıq qardaş, sən Arazı qınama,
Həsrətin, hicranın nə günahı var?

Savalanın gözlərindən yaş axır,
Həsrətin, hicranın nə günahı var?

Nabat da əzəldən qəmə qardaşdı,
Baxsana, yaylığın ucları yaşdı.
Sən elə bilmə ki, bağrım bir daşdı,
Həsrətin, hicranın nə günahı var? [1, s. 58].

Nabat üçün qəriblik ağır duyğu olsa da, o öz nikbinliyini qəriblik acısına qurban vermir. Çalışır ki, şən əhvali-ruhiyyəsi ilə ətrafındakılara nur bəxş etsin. Lakin doğma yurdu olan Naxçıvanın əsrarəngiz təbiətini Nabat hər zaman vəsf etməklə öz qəlbinə sanki su çiləyir. Bu baxımdan diqqət yetirdiyimiz "Nabatla Teymurun deyişməsi"ndə də qəriblik acısı özünü göstərirsə, "Nabatla Cəvahirin deyişməsi"ndə isə Aşıq Nabat Naxçıvanın təbiətini, qədim mədəni mərkəz kimi tanıdan abidələrini vəsf edir. Əgər Cəvahir Azərbaycanın digər bir çox məkanlarının adını çəkirsə, Nabat təkcə Naxçıvanı vəsf etməklə bu qədim mədəniyyət və əsrarəngiz məkanın təbiətini ürəklə nəzmə çəkir.

Aşıq Nabat mənsub olduğu xalqın folklorunu dərindən bilən, sevən şəxsiyyət idi. Elə şeirlərinin çoxusunu da xalq yaradıcılığı üslubunda, məsələn, bayatı şeir şəklində yazmağı deyilənin sübutudur. Bayatılarında da çox zaman bayatı şeir şəkli üçün xarakterik olan "Əzizinəm", "Mən aşiq" formullarını peşəkarcasına işlədirdi. "Əzizinəm, doymaram, Səni gözdən qoymaram"; Əzizinəm, Saram var, Siyaqutum, Saram var"; "Əzizim, yaxşı dağlar, Yaxşıdan, yaxşı dağlar", – kimi misraları ilə başlayan bayatılarında mənəvi dünyasına aid duyğuları bayatı üslubuna məxsus formullardan faydalanaraq ustalıqla ifadə etməyi bacarmışdır.

Bütün bunlarla yanaşı, Nabat klassik ədəbiyyatı da dərindən bilən bir aşıq idi. Belə ki, klassik ədəbiyyatımızın görkəmli nümayəndələrinin əsərlərini mütaliə etmək Aşıq Nabatın ən sevimli məşğuliyyəti idi. Nabat bu əsərləri oxuyub incələdikcə öz dünyaya baxışını daha da formalaşdırır, təkmilləşdirirdi. Və yeri gəldikcə də, həmin şəxsiyyətlərin əsərlərindəki maraqlı məqamları özünün yaratdığı nümunələrə də gətirirdi. Odur ki, Nabatın ərsəyə gətirmiş olduğu hər bir yaradıcılıq nümunəsində milli kökə bağlılığı aydın görünməkdədir. Bu məqamlardan biri – Molla Pənah Vaqif yaradıcılığını dönə-dönə mütaliə etdiyi qoşmalarından aydın görünür. Hətta şairin məşhur "Hayıf ki, yoxdur" qoşmasını xatırladan "Kür üstünə gəl" adlı şeiri də onun Vaqif yaradıcılığının vurğunu olduğunu sübut edir. Vaqifin zamanında xarabalığa çevrilmiş Kür ətrafı ərazilər Nabatın zamanında artıq gül-çiçək ətirli yazı xatırladır:

Yaşılbaş sonasız yaman darıxdım,
Vaqif, Kür üstünə indi gələydin.
Necə cilvələnir türfə gözəllər.
Vaqif, Kür üstünə indi gələydin.

Sona qızlar nə qəşəngdi, göyçəkdi,
Hər birisi yaz ətirli çiçəkdi.
Kürün sahilinə cəm gələcəkdi,
Vaqif, Kür üstünə indi gələydin.

Nabat qarşıladı sizi sazınan,
Həm xoş ixtilatla, şəkər sözünən,
Sağda, solda dəstə-dəstə qızınan,
Vaqif, Kür üstünə indi gələydin [1, s. 59].

Nabat aid olduğu sənətin sirlərini özündə saxlamaqla kifayətlənmir. O bu sənətin hansı kökdən qaynaqlandığını yaratdığı dəyərli nümunələrlə də sübut edir. Çünki onun yaratdığı bütün əsərlərdə aşıq sənətinin sirlərini özündə mühafizə edən xüsusiyyətlər də qorunub saxlanır. Və Nabat bu sirləri elə özündə saxlayıb, öz yaratdığı əsərlərə köçürməklə kifayətlənmir. O bu sənətin intişar etməsi üçün sonrakı nəsillərin də nümayəndələrini sözügedən sənətin sirlərinə vaqif etməyin vacib olduğunu anlayırdı. Ona görə də Nabatın istedadlı gənc tələbələri – şəyirdləri var idi. Onlardan biri də 1956-58-ci illərdə Nabata şəyirdlik etmiş Aşıq Sayad Qaraxanlı idi. Folklorşünas alim Sədnik Paşa Pirsultanlı Aşıq Nabata həsr etdiyi monoqrafiyasında bu barədə yazır:

"Aşıq Sayad 1936-cı ildə Tovuz rayonunun Xatınlı kəndində dünyaya göz açmışdır. Uşaqlıqdan saza, sözə meyl göstərən gənc Sayad həddi-büluğa çatandan sonra saz götürüb aşıqlığa başlamışdır. Saz çalmağı həmkəndliləri qocaman aşıqlardan öyrənmişdir. Sayad Azərbaycan radiosunda qadın aşıq Nabatın konsertlərinə qulaq asandan sonra onunla görüşməyi qərara almışdır. Elə ilk andan Sayadın zil səsi, zəngulələri, səhnə mədəniyyəti, şirin ləhcəsi Nabatın xoşuna gəlmiş, Sayadı şagirdliyə qəbul etmiş, onu özü ilə bərabər konsertlərə, toy məclislərinə aparmışdır" [1, 60]. Aşıq Nabat Sayadı sonralar da xatırlayarkən deyərdi ki, o zaman "Orta Cəlili" havasını heç kim onun kimi ifa edə bilməzdi. Lakin amansız qəza nəticəsində, 1961-ci ildə Sayad maşın qəzasına düşərək dünyasını dəyişir. Aman-zaman bir qız övladı və sazı yadigar qalır... Aşıq Nabat bu istedadlı şəyirdini heç vaxt unutmamış, ona "Sayad" adlı qoşması ilə sanki abidə ucaldıb:

Elə nalə çəkdi, bağrımı dəldi,
Bayatısı, şikəstəsi Sayadın.
Cəh-cəh vuran bülbülləri susdurdu,
Zildə səsi, zənguləsi Sayadın.

Səhnəyə çıxanda kəkliktək səkər,
Dəhanından ləli-cəvahir tökər.
Fəsillər dalınca fəsillər keçər,
Getməz xəyalımdan səsi Sayadın.

Coşa gəlib, bir "Cəlili" çalanda,
Saza, sözə, gəl qiymət ver, bax onda,
Nabat deyər, tayı yoxdu cahanda
Dünya boyda var həvəsi Sayadın [1, s. 62].

Aşıq Nabat yaradıcılığında insan və onu əhatə edən cəmiyyət, təbiət haqqında düşüncələr özünün həm də fəlsəfi ifadəsini tapır. Buradan da aydın olur ki, Aşıq Nabat təkcə aşıqlıq sənətinin sirlərinə yiyələnməklə kifayətlənməmiş, həm də insan, onu əhatə edən aləm haqda fəlsəfi biliklərə də vaqif olmuşdur ki, yaradıcılığına məxsus olan bir çox örnəklər aşığın dərin fəlsəfi düşüncəyə malik fikirlərdən xəbərdar olduğunu təsdiqləyir. Həm yaradıcı, həm də mükəmməl ifaçılıq bacarığına malik olan Aşıq Nabatın adı bu gün də Naxçıvan aşıq mühitində özünəməxsus dəsti-xətti olan unudulmaz aşıqlar siyahısındadır.

ƏDƏBİYYAT

1. Aşıq Nabat. Əldə xına, gözdə yaş / Toplayanı, tərtib edəni və ön sözün müəllifi: Sədnik Paşa Pirsultanlı. Bakı, 2012, 123 s.

2. Aşıq Nabat yaradıcılığında vətən həsrəti // Axtarışlar, Naxçıvan: ADPU, 2012, № 1, s. 51-54.
3. Azərbaycanın aşıq və şair qadınları. Bakı: Gənclik, 1974, 185 s.
4. Səfərov Y. Naxçıvan aşıqları və el şairləri. Naxçıvan: Əcəmi, 2011, 152 s.

Aytan Jafarova, Nurıda Mukhtarzade

WELL-KNOWN IMAGE OF NAKHCHIVAN ASHUG ENVIRONMENT OF THE 20th CENTURY: ASHUG NABAT

Distinguished by her works in the Nakhchivan ashug environment of the twentieth century, ashug Nabat reflected his patriotic feelings in verses, and she lives forever in the memories with these verses. As another performer of the image of a fighting woman from the ancient Turkic tradition, she gained great love in her time. Description of the mysterious nature of the homeland, the courage of the sons of the homeland, the untouched beauty of the country's girls through poetic and natural colors was a manifestation of her exuberant inner world. In her poems and deyishme (kind of poem composed by ashugs) with many ashug-poets of her time, Nabat was a woman of the people who thought deeply about the world, especially her people and homeland. She lived with humanistic feelings and treated the people with humanistic views and care. Nabat, who poeticized her deep philosophical thoughts masterfully in his poems, made engaging presentations in terms of self-education. In the article, Ashug Nabat's poems were involved in the research from this point of view.

Keywords: *Ashig Nabat, Nakhchivan, ashug environment, people, homeland, eternal, Turkic, woman.*

Айтен Джафарова, Нурида Мухтарзаде

ВИДНЫЙ ПРЕДСТАВИТЕЛЬ АШУГСКОЙ СРЕДЫ НАХЧЫВАНА XX ВЕКА: АШУГ НАБАТ

Ашуг Набат, отличающаяся своим почерком в нахчыванской ашугской среде XX века – одна из ашугов, умело запечатлевших свои патриотические чувства в стихах, чьи строки навсегда сохранились в памяти. Как представительница образа женщины-борца, восходящего к древнетюркской традиции, она в свое время приобрела большую любовь. Раскрытие через поэтические и реалистические краски загадочной природы своей Родины, смелости сынов Отечества, прелестной красоты дочерей народа – проявление ее восторженного внутреннего мира. Как в своих стихах, так и в импровизациях со многими ашугами своего времени, Набат – настоящая мать, которая много думает о мире, о крае, особенно о своем народе, с гуманистическими чувствами относится к людям. В своих стихах Набат, умеющая мастерски поэтизировать свои глубокие философские мысли, делает интересные презентации и с точки зрения воспитания. Статья посвящена изучению с этой позиции творчества Ашуга Набата.

Ключевые слова: *Ашуг Набат, Нахчыван, ашугская среда, народ, край, Родина, вечность, турецкий, женщина.*

(Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 29.07.2021
Son variant 16.08.2021

UOT 793.3; 78.08:801.81; 398; 801.8

TEHRANƏ XUDAVERDİYEVA

ÖZ VƏ YAD MƏKAN ƏKSİNƏLİYİNİN NAĞILLARIN TƏŞKİLİNDƏ ROLU

Nağıllar mifoloji təsəvvürlər və ritual fəaliyyətlərlə sıx bağlıdır. Mifoloji təsəvvürlərdəki xaos-kosmos qarşıdurması nağıllarda öz və yad, yer və göy, işıqlı dünya-qaranlıq dünya şəklində təzahür edir. Nağıl məkanı əks qütblərdən təşkil olunduğundan medial məkanların önəmini artmışdır. Belə məkanlar əks qütblər arasında neytrallaşdırıcı, yumşaldıcı rol oynayır, qütblər arasında keçidi təmin edir. Qəhrəman o dünya varlıqları, sehrli köməkçilərlə bu məkanlarda qarşılaşır, onlara məxsus əşyaları bu məkanlardan əldə edir. Mifoloji mətnlərdə ilahi varlıqlar, mədəni qəhrəmanlar dünyanı xilas etmək üçün necə düşmənə qarşı vuruşursa, nağıllarda da qəhrəman öz dünyasını qorumaq, yad məkandan gələn təhlükəni aradan qaldırmaq üçün o dünya varlıqlarına qarşı mübarizə aparır. Bununla əlaqədar, yad məkana edilən hər bir səfər onun yenidən təşkili, yenidən formalaşması ilə tamamlanır. Həmin fəaliyyət nəticəsində yad məkan xaotik səciyyəsini itirir, qütblər arasında əksinəlik aradan qalxdığından dünya vahid məkan kimi təqdim olunur.

Açar sözlər: *xaos-kosmos əksinəliyi, öz məkan və yad məkan əksinəliyi, mif, nağılı, məkan, mediator, medial məkanlar*.

Dünya haqqında arxaik təsəvvürlər bütün nağıl mətnlərinə səpələnib və nağıl məkanının təşkilində əsas rol oynayır. Nağılların təhlili göstərir ki, dünya haqqında təsəvvürlər bütün nağıllarda eyni deyil, nağılın qrupundan, sosial funksiyasından asılı olaraq dəyişir, fərqli məzmun kəsb edir. Sehrli nağıllarda o, öz və yad, bu və o dünya, işıqlı və qaranlıq dünya, yer və göy, dini nağıllarda isə müsəlman və kafir, pak və çirklənmiş məkan şəklində təzahür edir. Bütün bunların kökündə dünyanın yaranması haqqında mifoloji təsəvvür durur. Mifə görə, dünya yaranmamışdan öncə xaos mövcud olmuşdur, yer üzü başdan-başa su ilə örtülmüşdür. Allah öncə sudan kosmosu yaratmışdır. Qədim insanlar kosmosu "bizim dünya", öz məkan, onun üçün naməlum, qeyri-müəyyən olanı isə xaos, yad məkan adlandırmışlar. Xaosla Kosmos həmişə bir-birilə ziddiyyət təşkil etmiş və onların bu mübarizəsi miflərdə geniş şəkildə öz əksini tapmışdır. Həmin təsəvvürlər sonralar nağıllara keçərək burada öz və yad, bu və o dünya, yer və göy, dini nağıllarda isə dini-əxlaqi məzmun kəsb edərək müsəlman və kafir, pak və çirklənmiş məkan şəklində təzahür etmişdir.

Sehrli nağıllar islamdan əvvəlki təsəvvürləri əks etdirdiyindən burada o dünya dini nağıllarda gördüyümüz cənnət-cəhənnəm kimi qütblərə bölünməyib, vahid məkan kimi təqdim olunur. Dini nağıllarda insanlar bu dünyadakı əməlləri, fəaliyyətləri ilə o dünyalarını qazanırlar. Ona görə də xeyir əməllərlə məşğul olan, dini-əxlaqi dəyərlərə önəm verənlər cənnətlə mükafatlandırılır, bu dəyərlərə zidd hərəkət edənlər isə cəhənnəmlə cəzalandırılırlar. Dini nağıllardan fərqli olaraq, sehrli nağıllarda, E.E.Levkiyevskayanın da ifadə etdiyi kimi, o dünya bu dünyadakı həyatı əvəz etmir, əksinə, yer üzündəki həyatı davam etdirir və həyati cizgilərlə verilir. Orada dağlar, meşələr, daxmalar, evlər, başı buludlara dəyən qalalar, dövlətlər var. Bir sözlə, o dünya yerdəki dünyanın proyeksiyasıdır [10, s. 11].

Nağıllarda məkan üfüqi və şaquli şəkildə təsvir olunur. Bunun bir tərəfində qəhrəmanın doğulduğu, boya-başa çatdığı öz məkanı, digər tərəfində isə demonik güclərin olduğu yad məkan durur. Yad məkan ya yerin altında, ya dağın arxasında, ya dənizin altında, ya da göydə yerləşir. Onun əsas xüsusiyyəti öz məkandan çox-çox uzaqlarda yerləşməsidir. Qəhrəmanın ayağına dəmir çarıq geyinib əlinə dəmir əsa alması və çarıq yırtılıb dəmir əsa yeyilənə qədər

itmiş arvadını axtarması (*Məkan elementlərini yalnız işləndiyi kontekst daxilində təhlil edərək doğru izahını vermək mümkündür. Onu kontekstdən ayırdıqda, nağıl daxilində oynadığı rolu və funksiyasını nəzərə almadıqda yanlış izahlara gətirib çıxarır. Qəhrəmanın itmiş şəxsi axtararkən ayağına dəmir çarıq geyinib əlinə dəmir əsa alması motivi Füzuli Bayat tərəfindən o dünya varlıqlarının dəmirdən qorxması kimi izah olunur [Bayat, s. 170]. Əslində bu, motivin kontekstdən ayrılaraq verilən izahıdır, kontekst daxilində belə bir məna yoxdur. Həmin motivin işlənməsi qət olunan məsafənin uzaqlığını göstərməyə xidmət edir. Dəri çarıq əvəzinə dəmir çarıq geyinilməsi, ələ ağac deyil, dəmir əsa alınması və dəmir yırtılana qədər itən şəxsin axtarılması o dünyanın nə qədər uzaqda yerləşdiyinin bir göstəricisidir*) və yaxud yad məkana gedərkən qət olunan məsafəni ifadə edən "az getdi, çox dayandı, çox getdi, az dayandı, dərələrdən sel kimi, təpələrdən yel kimi" formulu həmin məsafənin nə qədər uzaq olduğunu göstərir.

Nağıllarda öz məkan ətraflı təsvir olunur. Öz məkan şəhər dövlətlərindən təşkil olunur, şəhər qala divarları ilə əhatə olunur. Şəhərin mərkəzində meydan, bazar yerləşir, şəhərdə qonaq gələnlərin gecələməsi üçün karvansaralar, həmçinin çayxana, hamam, dükan kimi sosial obyektlər fəaliyyət göstərir. Öz məkan şəhərin küçələrinə qədər xırda detalları ilə ətraflı təsvir olunduğu halda yad məkan haqqında təsəvvürlər olduqca kasaddır və natamam səciyyə daşıyır. S.Y.Neklyudov bu haqda yazır: "Nisbətən zəif strukturlaşmış demonların dünyası mərkəzi dünyadan uzaq, qaranlıq məkan kimi verilir. Burada funksiya atribut üzərində üstünlük əldə edir, personajların zahiri görünüşü amorf və əlçatmazdır" [13]. O dünya qəhrəmanın gözüylə bizə təqdim olunduğu üçün bizim onun haqqında bildiyimiz qəhrəmanın olduğu məkanlar, onun təmasda olduğu varlıqlardır. Bu məkanlar təkcə münasibətlərinə görə deyil, həm də strukturuna, keyfiyyətinə görə də bir-birindən fərqlənirlər. Öz məkan vahid struktura malikdir, burada bir-birindən ayrılmış fərqli təbəqələr görməyimiz mümkün deyil. Yad məkan isə müxtəlif təbəqələrdən təşkil olunur və xaotik əlamətlərlə verilir. Yad məkanda daim qaranlığın hökm sürməsi, yad məkana gedən yolun od-alovla əhatə olunması, yad məkana yaxınlaşdıqca isti, boğanağın qəhrəmanı hərəkət etməyə imkan verməməsi, demonik valıqların ağızlarından od püskürmələri xaosun əlamətləridir.

E.L.Lvova və digər araşdırıcıların qeyd etdiyi kimi, öz, doğma torpaq yalnız coğrafi anlayış deyil, emosional olaraq qavranılan bir məkandır [11, s. 29]. Bu emosionallıq öz məkanın ideallaşdırılmasında (qəhrəman şəxsi səadətini nə qədər uzaqlarda tapsa da, axırda yenə doğma vətəninə qayıdır) özünü göstərir. Qədim insanların təsəvvüründə öz məkan (ev, şəhər, ölkə və s.) ən güvənli yerdir. Nə qədər ki, qəhrəman onun hüdudlarından çıxmayıb onun üçün heç bir təhlükə yoxdur, əsas təhlükə öz məkanı tərk etməsindən sonra baş verir. "Məlik Məmməd və Məlik Əhməd" nağılında padşahın övladlarını ətraf aləmdən təcrid olunmuş, çöldəki həyatdan bixəbər şəkildə qapalı bir yerdə böyütməsi də bundan irəli gəlir. Aşpazın qardaşların yeməyinə sümüklü ət qoyması ilə bu təcrid pozulur. Əti yeyib sümüyü ilə oynayan qardaşlar pəncərənin şüşəsini qırırlar, ondan sonra qardaşlar çöldə fərqli bir həyatın varlığından xəbər tuturlar. Qardaşlar nə qədər ki evdə idi, onlar güvəndə idilər, amma evi tərk etdikdən sonra onları təhlükə gözləyir [1, s. 54]. Reyhan xanım pencər yığmaq üçün şəhəri tərk etdikdə Əşəş div tərəfindən qaçırılır [4, s. 128]. Qəmər xanım valideynlərinin qadağasına baxmayaraq evi tərk edib bağda gəzməyə çıxır, bu vaxt Tufan div tərəfindən qaçırılır [4, s. 41]. Öz məkanın tərk edilməsi müəyyən zərər və ya ziyanla müşayiət olunur ki, bu da qəhrəmanın evdən ayrılmasına, ziyanı aradan qaldırmaq üçün yad məkana yollanmasına səbəb olur.

Məkan onu təşkil edən elementlərlə birlikdə qavranılır, həmin elementlərin səciyyəsi eyni zamanda məkanın səciyyəsini verir. Yad məkana qeyri-adilik, fantastik səciyyə verən

onu təşkil edən elementlərdir. Ağacın yarpaqları altında yatan şəxsi gizləyir, Şəms Cinlər padşahının oğlu Nurəddünyadan xəbər ağacı vasitəsilə xəbər tutur, meyvələr yad adam onları dərdikdə səs salıb məkan sahibini xəbərdar edirlər. Bu məkanda yetişən meyvələr qeyri-adi xüsusiyyətə malikdir. Cavanlıq almasını yeyən cavanlaşır, Gülüstani-İrəmdə bitən ağacın yarpağı gözün dərmanıdır, narın dənələri ləl-cavahiratdan ibarət olur, almalar gülüb ağlayır və s. Qapı, xalça kimi məkan elementləri də öz təbiətlərinə xas olmayan tamamilə fərqli funksiya yerinə yetirirlər. Qapı, xalça, su kranı elə məkan elementləridir ki, onlar statik bir vəziyyətdə olmurlar, situasiyaya görə açılıb bağlanırlar, amma yad məkanda bu elementlər statik bir vəziyyətdə – ya açıq, ya da örtülü (bağlı) şəkildə təsvir olunurlar. Həmin məkana daxil olan qəhrəman onları statik vəziyyətdən çıxarır – örtülü qapını açır, açıq qapıları örtür, örtülü xalçaları açır, açıq xalçaları örtür, açıq su kranlarını bağlayır və s. Həmin fəaliyyəti sayəsində məkan elementləri onlara şamil olunan funksiyalarını itirir, onlardan yad məkandan qaçan qəhrəmanı tutmaları tələb olunduqda onun üçün heç bir əngəl, maneə yaratmırlar.

"Şah Abbasın arvadı" nağıllar toplusunda çap olunmuş "Torçunun nağılı"nda belə bir motiv vardır. Nağılda deyilənə görə, Novruz bayramında – il təhvil olan ərəfədə kim dilək istəyirsə, çərxi-zəvvarın qarşısında dairə çəkərək onun içinə girir. Bu vaxtı dünyanın bütün həşəratları, heyvanları onun üstünə gəlir. Dairəyə girən şəxs əgər qorxub ayağını ondan kənara qoyarsa, bu onun üçün yaxşı nəticələnməz: ya ölər, ya da dəli olar. Onlardan qorxmayıb dairənin içində qalarsa, onda həmin həşəratlar, heyvanlar gəlib dairənin yanında dayanır, dairənin içinə girməyə ixtiyarları olmadığı üçün heç nə edə bilmirlər. "Torçu nağılı"nda da qəhrəman il təhvil olanda dairəyə girərək çərxi-zəvvardan iki fəriştənin ixtiyarını ona verməsini xahiş edir [8, s. 108]. Bu motiv öz və yad məkan münasibətlərini çox gözəl şəkildə izah edir. Dairənin içi öz məkandır, naxırçıya aid olan, onun sahib olduğu ərazidir, dairədən kənar isə heyvanların, həşəratların hakim olduğu yad məkandır. Naxırçı nə qədər ki ayağını dairədən (öz məkandan) kənara qoymayıb onun üçün heç bir təhlükə yoxdur, yad məkanın sakinlərinin (həşəratların, heyvanların) onun məkanına girməyə ixtiyarı yoxdur. Öz və yad məkan münasibətlərini adi bir dairənin timsalında bizə təqdim edən bu motiv eyni zamanda nağıl məkanının təşkilində sərhəd bölgələrin (bu motivdə o, cızla ifadə olunub) rolunu göz önünə sərir. Sərhəd hər iki dünyanı bir-birindən ayıran məkan elementidir, nağıllarda o xaotik əlamətlərlə təsvir olunur. Belə məkanlar qara təyini ilə verilir (Qara dağ, Qara dərya), orada ot bitmir (yerə tüpürsən diş yerindən çıxar), keçilməz, adam ayağı dəyməyən yer kimi təsvir olunur və s. Belə məkanları keçmək təhlükəlidir. Nağıllarda demonik varlıqların qəhrəmanı sərhədə qədər təqib edib sərhədi keçdikdən sonra təqibi dayandırmaları, yaxud qəhrəmanı bu dünyanın sərhədinə qədər gətirib orada düşürmələri həmin təsəvvürdən irəli gəlir.

Nağıllarda məkan daxilində istənilən yerdəyişmə öz məkan-yad məkan-öz məkan şəklində baş verir. Bu əksliyin əks ucunda fərqli məkanlar – Gülüstani-İrəm, Zülmət dünyası kimi xəyali məkanlar, Misir, Hindistan, Çin kimi real məkanların durmasına baxmayaraq, həmin məkanlara doğru yerdəyişmələr də eyni prinsiplə təşkil olunur. Ona görə də qəhrəmanın öz məkandan Zülmət dünyasına yerdəyişməsi ilə, öz məkandan Hindistana doğru yerdəyişməsi arasında elə bir fərq yoxdur. O dünyaya yollanan qəhrəman necə o dünya varlıqlarının cildinə girirsə (özünü keçəlliyə vurur, o dünyaya quş cildində daxil olur və s.), eynilə yad şəhərə gələn qəhrəman da keçəl qılığına, heyvan cildinə girir. Yaxud, nağıllardan çox yaxşı xatırlayırıq, o dünyaya yollanan qəhrəman yolda qarıya və ya abidə rast gəlir, onlar qəhrəmanı yeməyə qonaq edir, sonra o dünyada necə hərəkət etmək lazım olduğunu ona izah edirlər. Eyni elementi öz məkandan Hindistan, Yəmən, Misir, Çin kimi real məkanlara doğru yer-

dəyişmələrdə də izləyirik. Bu şəhərlərə üz tutan qəhrəman şəhər qırağında yaşayan qarıya qonaq olur. Qarı olan-olmazından onu yeməyə qonaq edir, daha sonra məqsədinə çatmaqda ona kömək edir. Çin padşahının qızının dalınca yollanan Məliklə Keçəl yolda bir qalaçada gecələyirlər. Qara əmmaməli, qara əbalı, qara təsbehli üç dərviş onları yeməyə qonaq edir, daha sonra onlara yoldakı maneələri necə dəf etmək lazım olduğunu öyrədirlər [5, s. 44]. Göründüyü kimi, əks qütbdə fərqli məkanların durmasına baxmayaraq, həmin məkanlara səfər eyni prinsiplərlə təşkil olunur. Qədim insanların təsəvvüründə o dünyaya səfərlə Misirə, Hindistana səfər arasında heç bir fərq yoxdur. Hər ikisi onun nəzərində yad məkandır, ona görə həmin məkanlara doğru yerdəyişmələr eyni prinsiplərlə verilir.

Nağıllarda yad məkandan bəhs olunarkən oranın qəbiristanlıq kimi səssiz olduğu, uçan milçəyin belə vızıltısının eşidildiyi deyilir. Bu məkanın səssizliyi qəhrəmanın ora ayaq basması ilə pozulur. O torpağa ayaq qoyan kimi ətrafdan qulaq batırıcı səs-küy qopur, hər tərəfdən qəhrəmanı adıyla çağırırlar və s. [5, s. 106]. Yad məkana şamil olunan bu xüsusiyyətlər oranın "ölülər diyarı" [S.Y.Neklyudov] olduğunu göstərir. Danışmaq, görmək o dünya sakinlərinə yaddır, onların əlləri insan əlinə bənzəmir. Yad məkanda ancaq o dünya sakinləri hərəkət edə bilər, başqa dünyaya mənsub adam ora ayaq basdıqda ya torpaq onu qəbul etmir, ya da başqa dünyaya məxsus olduğu aşkar olduqda mənfi aqibətlə üzləşir. Ona görə də onların məkanına gələn olduqda onun oranın sakini olub-olmadığını öyrənməyə çalışırlar. Qəhrəmanın yad məkanda uğuru onun öz kimliyini gizlətməyi nə qədər bacarmasından asılıdır. Bunu bacarmayanların aqibəti isə yaxşı qurtarmır, onlar demonik varlıqlar tərəfindən aşkar edilərək öldürülürlər.

Mifoloji təfəkkürdə ölüm həmişə son deyil, keçid kimi qavranılıb [13]. Nağıllarda bu mifologemdən öz məkandan yad məkana, bu dünyadan o dünyaya keçid zamanı istifadə olunur. Fərq ondadır ki, qəhrəmanın ölümü gerçək deyil, simvolik ölüb-dirilmə ilə verilir. "Reyhanın nağılı"nda dostları Ayğır Həsənin kəndirini kəsdikdən sonra o, quyunun dibinə düşərək bir müddət orada huşsuz vəziyyətdə qalır, sonra hərəkət edir [4, s. 138]. Yaxud "Təpəgöz canavar" nağılında divlər onların məkanına ayaq basan qəhrəmanı ağızlarına alıb bir dəfə dolandırdıqdan sonra geri qaytarırlar [8, s. 72]. O dünyaya keçid zamanı verilən hər iki motiv ölüb-dirilmənin simvolik ifadəsidir. Quyuya düşən qəhrəmanın bir müddət huşsuz qalması müvəqqəti ölüm kimi izah olunur, yaxud divlərin qəhrəmanı ağızlarına alıb geri qaytarmaları yenidən doğulmanı simvolizə edir. O dünyaya keçid o dünya sakinlərinin əlamətini qəbul etməklə baş verir. Yeddi dağ almasını gətirməyə gedən qəhrəman əvvəlcə dərvişdən cilddən cildə girmək sənətini öyrənir, ondan sonra quş cildinə girərək yad məkana daxil olur [2, s. 57]. Bildiyimiz kimi, dönərgəlik, cilddən cildə girmək o dünya varlıqlarına məxsus xüsusiyyətdir. Qəhrəmanın yad məkana girərkən həmin xüsusiyyəti öyrənməsi və insan deyil, quş cildində yad məkana daxil olması, o dünya varlıqlarının əlamətini qəbul etməsini göstərir.

Bu dünyadan o dünyaya keçid natamam forma, asimmetrik əlamətlərlə müşahidə olunur ki, bu xüsusiyyət nağıllarda axsaqlıq, keçəllik və s. şəkillərdə özünü büruzə verir. Natamamlıq o dünya varlıqlarına məxsus bir xüsusiyyətdir. "Hatəm" nağılında Loğmanın kitabını oğurlayan ifritə topal təsvir olunur, "Qəhrəmanla Qaytaran" nağılında Qaytaranı oğurlayan divlərdən biri Topal divdir. Həmin xüsusiyyət nağıllarda qəhrəmanın o dünyadan axsaq vəziyyətdə qayıtması şəklində verilib. "Məlikməmməd" nağılında qəhrəman Zümrüd quşunun onu işıqlı dünyaya çıxartması üçün qırx şaqqa ət və qırx tuluq su tədarük görür. Yolda ətin bir şaqqası əlindən düşdüyündən öz baldırının ətini kəsib quşa yedirtməli olur [4, s. 176]. Başqa bir nağılda taxılın sünbülü qonşu həyətə keçir, həyət sahibi qonşunun icazəsini almadan həmin

sünbüldən istifadə edir. O dünyaya getdikdə sünbül sahibi ondan borcunu geri qaytarmasını tələb edir. Borcunu qaytara bilmədiyi üçün onun ağırlığı qədər ayağından ət kəsib götürürlər [7, s. 116]. Hər iki nağılda qəhrəman o dünyadan axsaq vəziyyətdə qayıdır, yalnız sonradan həmin vəziyyətdən çıxarılır. Simurq quşu dilinin altında saxladığı əti qəhrəmanın yarasına qoyub üstündən qanadını çəkməklə onun yarasını sağaldır. Digər nağılda kürəkən ağzının tüpürcəyindən qayınatasının yarasına çəkib onun ayağını sağaldır. Bahadırlıq nağıllarından bilirik ki, bahadır asimmetrik vəziyyətdə doğulduğu üçün toplum tərəfindən dışlanır, adam arasına çıxarılmır ("Siman" nağılında bağban doğulan uşağını övlad həsrəti çəkən padşaha verəcəyinə söz verdiyi halda, onun tüksüz, bir parça ət şəklində doğulduğunu görüb üzə çıxartmaq istəmir), valideynləri onu qəbul etmir ("Qaraqaş" nağılında olduğu kimi). Yalnız asimmetrik vəziyyətdən çıxarıldıqdan sonra toplum onları qəbul edir, sosiumun bir üzvünə çevrilirlər. Bu nağıllarda da öz məkana daxil olarkən qəhrəmanın asimmetrik vəziyyətdən çıxarılması (natamamlığın aradan qaldırılması) göstərir ki, həmin xüsusiyyət "bizim dünyaya" aid deyil, o dünyaya xasdır.

O dünya sakinlərinin bir xüsusiyyəti də gözə görünməzlikdir. Qaşlarından başqa bədəninin heç bir hissəsi görünməyən Qaraqaşı yada salaq. Gözəgörünməzlik ona demonik təbiətindən keçmişdir. Dərvişin tüpürcəyindən doğulduğu üçün Qaraqaş onlara məxsus xüsusiyyəti daşıyır. Gözəgörünməzlik eyni zamanda keçid funksiyası daşıyır. "Şahzadə Mütalib" nağılında qeybə çəkilmiş arvadını axtaran qəhrəmana Süleyman peyğəmbər sehrli papaq (papaq kimin başında olsa, o şəxs gözə görünmür) hədiyyə edir. Qəhrəman yad məkana həmin papağı başına qoyaraq daxil olur. M.V.Yasinskaya slavyan xalqlarında göz və görmə təsəvvürlərindən bəhs edərkən yazır ki, görmə haqqında təsəvvürlər işıq/qaranlıq, həyat/ölüm kimi binar əksliklərlə əlaqəlidir. Qarğışlarda kiminsə kor olmasını arzulamaq faktiki olaraq onun ölümünü istəmək kimi yozulur [15, s.116]. Azərbaycan nağıllarında yad məkana yollanan qəhrəmanın lövhü oxuyaraq gözlərini yumması və ayağı yerə dəyəndə gözlərini açması, yaxud demonik varlıqların belinə mindikdə gözlərini yumması, yalnız gedəcəyi yerə çatdıqda gözlərini açması da həmin təsəvvürdən qaynaqlanır.

O dünya sakinləri özlərindən olana dəymirlər. Ona görə o dünyaya gedən qəhrəman orada sərbəst hərəkət edə bilmək üçün özünü onlara bənzətməyə çalışır. Nə qədər onu çağırsalar da, dönüb geriyə baxmır, salam versələr də, onların salamını almır, meyvələri öz əli ilə deyil, ağacla dərir və s. O dünya üçün səciyyəvi olmayan şeylər onun qarşısına yasaq kimi qoyulur: geriyə baxma, salam alma, meyvələri əllə dərmə və s. Qəhrəmanın o dünyadakı uğuru da həmin yasaqlara nə dərəcə əməl etməsindən asılıdır. Çətin tapşırıqlar əsasında qurulan süjetlər, demək olar ki, o dünya haqqında təsəvvürləri əks etdirir. Qəhrəmandan gətirilməsi tələb olunan əşyalar o dünya sakinlərinə, və ya o dünyaya məxsus əşyalardır. Həmin əşyaları gətirmək üçün qəhrəman "gedər-gəlməz", "qorxulu məkan", "quş uçsa qanad salar, qatır gəlsə dırnaq tökər" kimi formullarla səciyyələndirilən yad məkana üz tutur. Belə bir məkanda fəaliyyət göstərməsi, çətin tapşırığı uğurla icra etməsi üçün o dünyanı yaxşı bilən köməkçiyə ehtiyac vardır. O dünyada ancaq belə bir köməkçiyə sahib şəxslər uğur qazanır. Sehrli nağıllarda da qəhrəman yolda qarşılaşdığı köməkçilərdən aldığı məsləhətlər, onların yol göstərmələri sayəsində o dünyada fəaliyyət göstərir.

Nağıllarda belə bir detal var. Müəyyən məqsəd dalınca evi tərk edən qəhrəman üç yolayrıcına gəlib çıxır: sağ, sol və orta yol. Qəhrəman nə sağ, nə də sol yolla deyil, orta yolla hərəkət edir. Yaxud nağıllarda Ağ div, Qara div obrazları vardır, bunların yanında bir də Sarı div və ya Kərə div obrazı vardır. Sarı div və ya Kərə div əslində medial personajlardır, aralıq

mövqe tutan, neytrallaşdırıcı rol oynayan personajlardır. "Yusiflə Sənubər" nağılında qəhrəman Kərə divi məğlub etdikdən sonra div ona tabe olur: onu divlər padşahının məkanına aparır, öz məkana qaytarır, dara düşdükdə köməyə çağırması üçün öz tükünü qəhrəmana verir [5, s. 76]. Adi bir detal təsviri bağışlasa da, əslində orta, medial anlayışı dual təsəvvürlərdən qaynaqlanır. Bir-birinə ziddiyyət təşkil edən iki qütb arasında orta mövqe tutan, bu tərəflər arasında vasitəçi rol oynayan məkanlar vardır. Medial məkanlar öz və yad məkanı bir-birinə bağlayır, onlar arasında keçidi təmin edir. Nağıllarda çay qırağı, meşə kənarı, dağ ətəyi, dəniz sahili öz və yad məkanı bir-birinə bağlayan, demonik varlıqların nüfuz edə biləcəyi məkanlardır. Qəhrəman demonik varlıqlarla bu məkanlarda qarşılaşır, onlara məxsus əşyaları bu məkanlardan əldə edir. Sehrli nağılların strukturu öz və yad oppozisiyası üzərində qurulduğundan burada medial məkanlar xüsusi aktivliyi ilə seçilir. Onlar sadəcə fon təşkil etmir, həm də süjetin təşkilində mühüm rol oynayır, burada baş verən, yaşanan hadisələr süjetin sonrakı inkişafına təkan verir.

Məkanın əks qütblər şəklində təsviri mediator personajların da önəmini ortaya çıxarır. Miflərdə həmin funksiyanı mədəni qəhrəman yerinə yetirir. O, öz fəaliyyəti ilə hər iki dünya arasında vasitəçilik edir, yad məkan elementlərini öz məkana gətirir, yaradıcı, qurucu rol oynayır. Sehrli nağıllarda həmin funksiyanı qəhrəman, sehrli köməkçilər yerinə yetirir. Nağıl qəhrəmanı öz əlamətlərinə görə (qeyri-adi mənşəyi, cilddən-cildə girməsi, mifik varlıqlarla əlaqəsi və s.) mediator roluna uyğun gəlsə də, bəzi tədqiqatçılar onu bura aid etmir. Onların fikrincə, nağıllarda mifik anlamda (aralıq varlıq kimi) əsl mediator sehrli köməkçilərdir; qəhrəmanla əlaqəli, eyni zamanda ondan uzaqdırlar. Bu personajlar hər iki dünyaya məxsusdurlar, qəhrəmana qarşı xoş münasibətləri ilə seçilirlər. Nağıl qəhrəmanı isə aralıq personaj deyil [12, s. 106]. Fikrimizcə, sehrli nağıl qəhrəmanı qeyri-adi mənşəyi, fəaliyyəti ilə mədəni qəhrəman tipinə uyğun gəlir, fərq ondadır ki, birinci şəxsi maraqları, sosial rifahı üçün fəaliyyət göstərirsə, ikinci ölkəsi, xalqı üçün bunu edir.

Mediator hər iki dünyaya məxsus xüsusiyyətləri özündə cəmləyən, öz və yad məkan arasında vasitəçi rolu oynayan personajdır. Sehrli və bahadırlıq nağıllarında məkan öz və yad əksinəliyi üzərində qurulduğundan buradakı qəhrəman tipləri bütün xüsusiyyətləri ilə bu tələbə cavab verirlər. Onlar qeyri-adi mənşəyə malikdirlər: sehrli nağıllarda qəhrəman adətən o dünya varlıqlarının verdiyi almadan doğulur. Qeyri-adi mənşəyi onun nağıl dünyasında fəaliyyət göstərməsinin, uğur qazanmasının əsas səbəbidir. Qəhrəmanın o dünya varlıqları ilə bağlılığı bahadırlıq nağıllarında daha üzdədir. Burada qəhrəman birbaşa o dünya varlıqlarından törədiyi üçün asimmetrik əlamətlərlə (bədəni tüksüz, gözəgörünməz, yarı insan, yarı heyvan və s.) doğulur, demonik varlıqlardan törədiyi üçün sehr, tilsim onlara kar etmir (Qaraqaşa, Vətənə heç bir tilsim kar etmir), yad məkana ayaq basdıqda torpaq onu özününkü kimi qəbul edir (Tapdıq Gülüstani-İrəmə daxil olduqda torpaq onu kənara atmır). Məhz qeyri-adi mənşəyi, o dünya varlıqları ilə bağlılığı ona hər iki məkanda fəaliyyət göstərməsinə imkan yaradır. Bu cür mediator obrazlar nağıl dünyasında sərbəst hərəkət edir, nağıl qəhrəmanına çevrilirlər. Hətta elə nağıllar vardır ki, üç qardaşın üçü də qeyri-adi mənşəyə sahibdir, bu zaman onların üçü də potensial nağıl qəhrəmanı kimi verilir. Böyük qardaşların yarımçıq qoyduğu, axıra çatdıra bilmədiyi işi kiçik qardaş tamamlayır. "Gül Sənavərə neylədi" nağılını yada salaq. Böyük qardaş qarı tərəfindən daşa döndərildikdən sonra bu dəfə ortancıl qardaş süjet xəttinə qoşulur, o da daşa döndükdən sonra kiçik qardaş süjet xəttinə qoşulur. Uşaq yaşlarından birbirinə deyikli edilən əmi oğlu və əmi qızından bəhs olunan nağıllarda əsas qəhrəman oğlan olsa da, qeyri-adi mənşəyi sayəsində qıza da geniş yer ayrılır, o da qəhrəman səviyyəsinə qaldırılır.

M.Eliadaya görə, ənənəvi cəmiyyətlər üçün öz, mənimsənilən ərazi ilə naməlum, qeyri-müəyyən ərazilər arasında qarşıdurma xarakterikdir. Birinci tərəfdə dünya, kosmos, ikinci tərəfdə isə xaotik məkan, yadların, demonların yaşadığı məkan durur. Qədim insanların təsəvvüründə Allah tərəfindən ilk yaradılan, həm də ilk mənimsənilən ərazi "bizim dünyadır", ondan kənarda qalan bölgələr isə xaosun hakim olduğu məkandır. Həmin məkanı tutmaqla, onu mənimsəməklə insan həm də yad məkanı simvolik olaraq yenidən yaradır, kosmoqoniyanın ritual təqlid yolu ilə onu kosmosa çevirir [14, s. 28]. Eynilə nağıllarda da öz məkan əlamətləri ilə kosmosu xatırladır, yad məkan isə xaosu təmsil edir. Yad məkan öz məkana qarşı həmişə aqressivliyi, dağıdıcı münasibəti ilə seçilir. Əjdaha suyun qabağını kəsərək şəhər əhlini susuz qoyur, div padşahın bağından almaları oğurlayır, bağa gəzməyə çıxmış qızı qaçırdır, yeddiqanad ifritə əmisinin qəhrəmana hədiyyə etdiyi toqqanı oğurlayır və s. O dünya varlıqlarının öz məkana qarşı yönəlmiş bu dağıdıcı fəaliyyəti bu məkanı məhv etməyə, onu xaosa çevirməyə yönəlib. Miflərdə necə ilahi varlıqlar, mədəni qəhrəmanlar dünyanı xilas etmək üçün onlara qarşı vuruşursa, nağıllarda da qəhrəman öz dünyasını qorumaq, yad məkandan gələn təhlükəni aradan qaldırmaq üçün onlara qarşı mübarizə aparır. Ona görə də yad məkana edilən hər bir səfər həmin məkanın yenidən təşkili, onun mənimsənilməsi ilə tamamlanır. Qəhrəmanın yad məkandakı fəaliyyəti, onun tilsimini sındırması simvolik olaraq həmin məkanın mənimsənilməsi, onun yenidən yaradılması kimi başa düşülür. Qəhrəmanın mümkün fəaliyyətindən sonra yad məkan xaotik səciyyəsini itirir, öz məkan üçün artıq təhlükə təşkil etmir. "İbrahim" nağılında qəhrəman yeddiqanad ifritənin yanan tiyanını söndürdükdən sonra məkanın səciyyəsi dəyişir, güllü-çiçəkli bir əraziyə çevrilir, Siman qarının tilsimini sındırdıqdan sonra susuz səhra yamyaşıl bir vadiyə çevrilir. Qəhrəman Oxxayı ödürdükdən sonra onun səltənətini yıxır, daşa döndərdiyi adamları dirildir. Bəni-daş şəhərinin sirrini öyrənməyə gedən qəhrəman qarının çubuğunu ələ keçirdikdən sonra şəhər əhlini yenidən dirildir, ölüm səssizliyinə qərq olmuş şəhərə yenidən həyat gətirir. Güllə Sumanın əhvalatını öyrənmək üçün yad məkana yollanan qəhrəman gördüyü şeyləri tərsinə icra edir: açıq qapıları örtür, örtülü qapıları açır, açıq xalçaları örtür, örtülü xalçaları açır [1, s. 139]. Yaxud itmiş arvadını axtarmağa yollanan qəhrəman yad məkanda açıq su krantlarını bağlayır, yanan şamı söndürür, sönülü şamı yandırır, tərpənən qılıncı dayandırır, sabit qılıncı tərpədir [5, s. 222]. Bu fəaliyyətlər nəticəsində yad məkan öz səciyyəsini itirdiyindən onun üçün heç bir təhlükə təşkil etmir. Ona görə də qəhrəman Sumanın əhvalatını öyrəndikdən sonra yad məkandan qaçdıqda Suman padşah qapıya, xalçaya onu tutmalarını əmr etdikdə, onlar onun tapşırığını icra etmirlər. Qəhrəmanın fəaliyyəti nəticəsində Yad məkan qorxulu, qeyri-müəyyən məkan olmaqdan çıxır, qəhrəman üçün faydalı məkana çevrilir. Bunun nəticəsidir ki, "Hatəm" nağılında İbrahim qardaşları tərəfindən quyuya salındıqda onun köməyinə o dünya sakinləri – pərilər padşahı gəlir.

Beləliklə, nağıl məkanının təhlili göstərir ki, nağıllar qədim insanların ətraf aləmə, dünyaya baxışını, onların dini təsəvvürlərini əks etdirir. Nağıl məkanının təşkilində olduqca əhəmiyyətli rol oynayan öz və yad əksinəliyi də insanların dünyaya baxışını, onun dini təsəvvürlərini yansıdır. Bu əksinəliyin əsasında mifoloji mətnlərdən bizə çox yaxşı tanış olan xaos-kosmos mübarizəsi durur, amma sehrli nağıllarda münaqişələr şəxsi münasibətlər zəminində baş verdiyindən həmin mübarizə burada nisbətən zəifləmiş, yumşalmış şəkildə təqdim olunur.

ƏDƏBİYYAT

1. Azərbaycan nağılları: 5 cilddə, I c. / Toplayıb tərtib edən: Hənəfi Zeynallı, Bakı: Şərq-Qərb, 2005, 360 s.
2. Azərbaycan nağılları: 5 cilddə, II c. / Tərtib edən: Məmmədhüseyn Təhmasib. Bakı: Şərq-Qərb, 2005, 296 s.
3. Azərbaycan nağılları: 5 cilddə, III c. / Tərtib edən: Əhliman Axundov. Bakı: Şərq- Qərb, 2005, 296 s.
4. Azərbaycan nağılları: 5 cilddə, IV c. / Tərtib edən: Əhliman Axundov. Bakı: Şərq- Qərb, 2005, 336 s.
5. Azərbaycan nağılları: 5 cilddə, V c. / Toplayıb tərtib edən: Nürəddin Seyidov. Bakı: Şərq-Qərb, 2005, 304 s.
6. Əsgər Ə. Azərbaycan sehrli nağıllarında qəhrəman. Bakı: Elm və təhsil, 2017, 116 s.
7. Saatlı folklor örnəkləri. I kitab / Tərtib edəni və ön sözün müəllifi İ.Rüstəmzadə. Bakı: Elm və təhsil, 2014, 392 s.
8. Şah Abbasın arvadı / Toplayıb tərtib edən: Füzuli Bayat. Bakı: Yazıçı, 1996, 244 s.
9. Баят (Гезалов) Ф. Структура волшебных сказок (На основе материалов азербайджанских сказок). Казань: РЦРТК, 2018, 200 с.
10. Левкиевская Е.Е. Пространство потустороннего мира в народных представлениях восточных славян // Славяноведение, 2006, № 6, с. 9-15.
11. Львова Э.Л., Октябрьская И.В. и др. Традиционное мировоззрение тюрков Южной Сибири: Пространство и время. Вещный мир. Новосибирск: Наука, 1988, 225 с.
12. Мелетинский Е.М., Неклюдов С.Ю. и др. Проблемы структурного описания волшебной сказки / Труды по знаковым системам. Т. IV, Тарту, 1969, с. 86-135.
13. Неклюдов С.Ю. Образы потустороннего мира в народных верованиях и традиционной словесности // https://www.ruthenia.ru/folklore/neckludov8.htm. Daxil olunub: 07.04.2021
14. Элиаде М. Священное и мирское / Пер. с фр., предисл. и коммент. Москва: Изд-во МГУ, 1994, 144 с.
15. Ясинская М.В. Мифологические представления о глазах и зрении у славян / Человек: образ и сущность. Гуманитарные аспекты. Москва, 2015, № 1 (26), с. 115-123.

Naxçıvan Dövlət Universiteti
E-mail: ***t.salmanova001@gmail.com***

Tehrane Khudaverdiyeva

THE ROLE OF OWN AND ALIEN SPACE OPPOSITION IN THE ORGANIZATION OF FOLK TALES

Tales are closely connected with mythological imaginations and ritual activities. The chaos-cosmos confrontation in mythological imaginations manifests itself in folk tales in the form of its own and alien spaces, earth, and sky, light world-dark world. The importance of medial spaces has increased because the folktale space is made up of opposite poles. Such spaces play a neutralizing, softening role between the opposite poles, providing a transition

between the poles. The hero encounters those worldly beings, magical helpers in these spaces, and gets their belongings. In mythological texts, as divine beings and cultural heroes fight against the enemy to save the world, in folk tales, the hero fights against the creatures of that world to protect his world and eliminate the threats of alien space. In this connection, every visit to a strange place is completed with its reorganization and restoration. As a result of this activity, the alien space loses its chaotic character, and as the opposition of the poles disappears, the world appears as a single space.

Keywords: *chaos-space opposition, own space and alien space opposition, myth, folk tale, space, mediator, medial spaces.*

Техране Худавердиева

РОЛЬ ПРОТИВОПОСТАВЛЕНИЯ СВОЕГО И ЧУЖОГО ПРОСТРАНСТВА В ОРГАНИЗАЦИИ НАРОДНЫХ СКАЗОК

Сказки тесно связаны с мифологическими представлениями и ритуальными действиями. Противостояние хаос-космос в мифологических фантазиях проявляется в народных сказках в виде собственного и чужого пространств, земли и неба, светлого мира-темного мира. Важность медиальных пространств возросла, потому что сказочное пространство состоит из противоположных полюсов. Такие пространства играют нейтрализующую, смягчающую роль между противоположными полюсами, обеспечивая переход между полюсами. Герой встречает этих мирских существ, волшебных помощников в этих пространствах, и получает их вещи в этих местах. В мифологических текстах божественные существа и культурные герои сражаются с врагом, чтобы спасти мир, в народных сказках герой сражается с существами этого мира, чтобы защитить свой собственный мир и устранить угрозы чужого пространства. В связи с этим каждое посещение чужого места завершается его перестройкой и реставрацией. В результате этой активности чужое пространство теряет свой хаотический характер, и по мере исчезновения противостояния полюсов мир представляется как единое пространство.

Ключевые слова: *противостояние хаос-космос, противостояние своего и чужого пространств, миф, народная сказка, пространство, медиатор, медиальные пространства.*

(Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 22.07.2021
Son variant 23.08.2021

УДК 811.1/.8

АРИФ ЗЕЙНАЛОВ

КРЫЛАТЫЕ СТРОКИ РУССКОЙ ПОЭЗИИ ДОПУШКИНСКОЙ ПОРЫ

Статья посвящена крылатым выражениям русских поэтов допушкинской поры.

В статье на основе исследовательского метода нашли отражение ставшие крылатыми поэтические строки русских поэтов допушкинской поры.

Крылатые строки русских поэтов допушкинской поры обогатили русскую речь и сделали ее выразительнее. Особенно обогатили русскую речь крылатые строки русских баснописцев Г.Р.Державина и И.А.Крылова.

Крылатые слова нельзя смешивать с пословицами и поговорками, они во многом отличаются друг от друга. Среди крылатых слов много афоризмов, которые выражают какую-нибудь обобщенную мысль.

Крылатые слова – большое богатство, но пользоваться этим словесным богатством надо умело.

Основная цель данной статьи заключается в правильном отборе крылатых слов, статья может быть предназначена для преподавателей русского языка и студентов-русистов.

Ключевые слова: *крылатые строки, русская поэзия, допушкинская пора, стих, благозвучие.*

«Одним из средств образной и выразительной литературной речи являются крылатые слова». Название это восходит к Гомеру, в поэмах которого («Илиада» и «Одиссея») оно встречается много раз. Термином этим обозначают вошедшие в нашу речь из литературных источников краткие цитаты, образные выражения, изречения исторических лиц, имена мифологических и литературных персонажей, ставшие нарицательными (например, Геркулес, Тартюф, Хлестаков), образные сжатые характеристики исторических лиц (например, «отец русской авиации», «солнце русской поэзии») [1, с. 4].

Вовремя и к месту употребленные крылатые слова придают нашей речи особую меткость и выразительность. Выразительные возможности крылатых слов наиболее полно и ярко раскрываются в произведениях художественной литературы и публицистики. Крылатые изречения великих поэтов, писателей воспитывают уверенность в себе, поддерживают в трудную минуту, отвлекают от неприятностей, заставляют думать и рассуждать. Они играют важную роль в познании культуры, быта, религии, психологии народа.

«Всестороннее освещение истории развития и стабилизации каждой отдельно взятой фразеологической единицы предполагает наличие богатого материала, отражающего всевозможные ее употребления, значительных фактических данных, образующих своего рода обще фразеологический фон этой единицы» [2, с. 5].

В 2005 г. вышел в свет «Словарь культуроведческой лексики русской классической литературы», содержащий более 1000 фразеологизмов, крылатых слов, афоризмов классиков русской литературы [3].

Творчество великого русского баснописца И.А.Крылова афористично по своей сути, что было обусловлено особенностями его поэтического таланта, влиянием эпохи, идейным содержанием. Афоризмы из басен Крылова уже при его жизни возвели в ранг народных речений. Они несли в себе народную мудрость, многоцветность и сочность русского языка. Например: «Ай, Моська! Знать сильна, что лает на слона», «Пой лучше хорошо щегленком, чем дурно соловьем»,

По мне уж лучше пей,
Да дело разумей.

Нередко употребляются в нарицательном смысле сами названия крыловских басен: «Тришкин кафтан», «Демьянова уха», «Лисица и Виноград», «Свинья под Дубом», «Лягушка и Вол», «Слон и Моська» и др.

Хорошо известные строки из басен Крылова стали пословицами и поговорками. Вот некоторые из них:

А вы, друзья, как ни садитесь,
Все в музыканты не годитесь.
(«Квартет», 1811)

А дуги гнут с терпеньем и не вдруг.
(«Трудолюбивый Медведь», 1818)

А жаль, что незнаком
Ты с нашим петухом.
(«Осел и Соловей», 1811)

А ларчик просто открывался.
(«Ларчик», 1808)

А он – дивит
Свой только муравейник.
(«Муравей» 1819)

А он украдкой кивает на Петра.
(«Зеркало и Обезьяна», 1816)

Беда, коль пироги начнет печи сапожник,
А сапоги тачать пирожник.
(«Щука и Кот», 1813)

Ведь я не здешнего прихода.
(«Прихожанин», 1825)

Великий зверь на малые дела.
(«Воспитание Льва», 1811)

Ворона каркнула во все воронье горло.
(«Ворона и Лисица», 1808)

Да наши предки Рим спасли!
(«Гуси», 1811)

Да только воз и ныне там.
(«Лебедь, Щука и Рак», 1816)

Если голова пуста,
То голове ума не придадут места.
(«Парнас», 1808)

Запели молодцы: кто в лес, кто по дрова.
(«Музыканты», 1808)

За что же, не боясь греха,
Кукушка хвалит Петуха?
За то, что хвалит он Кукушку
(«Кукушка и Петух», 1841)

Избави, Бог, и нас от этаких судей.
(«Осел и Соловей», 1811)
И из гостей домой.
Пришла свинья-свиньей
(«Свинья», 1811)
И сделалась моя Матрена.
Ни Пава, ни Ворона
(«Ворона», 1825)
И щуку бросили – в реку!
(«Щука», 1830)
Как Белка в колесе
(«Белка», 1833)
Как под каждым ей листком
Был готов и стол, и дом.
(«Стрекоза и Муравей», 1808)
Когда в товарищах согласья нет,
На лад их дело не пойдет.
(«Лебедь, Щука и Рака», 1818)
Коль выгонят в окно, так я влечу в другое.
(«Муха и Пчела», 1825)
Крестьянин ахнуть не успел,
Как на него медведь насел.
(«Крестьянин и Работник, 1815)
Кто про свои дела кричит всем без умолку,
В том, верно, мало толку.
(«Две Бочки», 1819)
Лебедь рвется в облака,
Рак пятится назад, а Щука тянет в воду.
(«Лебедь, Щука и Рака», 1818)
Мартышка к старости слаба глазами стала.
(Мартышка и Очки», 1815)
Молчи! все знаю я сама;
Да эта крыса мне кума.
(«Совет Мышей», 1811)
Мы, верно, уж поладим,
Коль рядом сядем.
(«Квартет», 1811)
Навозну кучу разрывая,
Петух нашел Жемчужное Зерно.
(«Петух и Жемчужное Зерно», 1809)
Наделала Синица славы,
А моря не зажгла.
(«Синица», 1811)
Но умысел другой тут был.
(«Музыканты», 1808)

Однажды Лебедь Рак да Щука
Везти с поклажей воз взялись.
(«Лебедь, Щука и Рака», 1818)
Одни поддельные цветы
Дождя боятся.
(«Цветы», 1816)
Они немножечко дерут:
Зато уж в рот хмельного не берут.
(«Музыканты», 1808)
Он язва здешних мест!
(«Кот и Повар», 1815)
Орлам случается и ниже кур спускаться;
Но курам никогда до облак не подняться!
(«Орел и Куры», 1808)
Осел мой глупостью в пословицу вошел,
И на Осле уж возят воду.
(«Осел», 1815)
Отколе, умная, бредешь ты, голова?
(«Лисица и Осел», 1825)
От радости в зобу дыханье сперло.
(«Ворона и Лисица», 1808)
Охотно мы дарим,
Что нам не надобно самим.
(«Волк и Лисица», 1816)
Полают, да отстанут.
(«Прохожие и Собака», 1815)
Попался как ворона в суп!
(«Ворона и Курица», 1812)
Попрыгунья Стрекоза
Лето красное пропела.
(«Стрекоза и Муравей», 1808)
Прощай, хозяйские горшки!
(«Обоз», 1812)
Рыльце у тебя в пуху.
(«Лисица и Сурок», 1813)
Сильнее кошки зверя нет!
(«Мышь и Крыс»,1816)
Спой, светик, не стыдись!
(«Ворона и Лисица», 1808)
Ты виноват уж тем, что хочется мне кушать.
(«Волк и ягненок», 1808)
Ты все пела? это дело:
Так поди же, попляши!
(«Стрекоза и Муравей», 1808)
Ты сер, а я, приятель, сед.

(«Волк на псарне», 1812)
У сильного всегда бессильный виноват.
(«Волк и Ягненок», 1808)
Услужливый дурак опаснее врага.
(«Пустынник и Медведь», 1808)
Хоть видит око,
Да зуб неймет.
(«Лисица и Виноград», 1819)
Хоть ты и в новой коже,
да сердце у тебя все то же.
(«Крестьянин и Змея», 1818)
Худые песни Соловью
В когтях у Кошки.
(«Кошка и Соловей», 1825)
Чем кумушек считать трудиться,
Не лучше ль на себя, кума, оборотиться?
(«Зеркало и Обезьяна», 1816)
Чтоб там речей не тратить по-пустому,
Где нужно власть употребить.
(«Кот и Повар», 1815)
Что от Ворон она отстала,
А к Павам не пристала.
(«Ворона», 1825)
Что сходит с рук ворам, за то воришек бьют.
(«Вороненок», 1811)
Я, совсем без драки,
Могу попасть в большие забияки.
(«Слон и Моська», 1815)

Среди жемчужин русской поэзии – в стихах Пушкина и Некрасова, Блока и Маяковского и многих других поэтов – есть строки, которые особенно ярко запечатлелись в памяти народной и начали жить своей собственной жизнью, утратив подчас связь с тем стихотворным контекстом, из которого они вышли. Широко популярны и сотни поэтических выражений и образов, заимствованных из стихов других поэтов, авторство которых нередко забыто или известно ограниченному кругу специалистов.

Своеобразие большинства крылатых строк – их афористичность. Впрочем, подчас эта афористичность – качество не изначальное, а приобретаемое той или иной поэтической строкой вместе с «крылатостью».

Интересно отметить, что отдельные крылатые строки утрачивают с годами свою «крылатость», другие, ранее малопопулярные, вдруг получают широкое распространение. Так, например, в XIX веке большой популярностью пользовался романс на слова К.Н.Батюшкова «Разлука». Первые строки этого стихотворения – «Гусар на саблю опираясь, в глубокой горести стоял» очень часто цитировались. Их можно встретить в «Преступлении и наказании» Ф.М.Достоевского, в «Старой барыне» А.Ф.Писемского, в «Петербургском случае» А.И.Левитова, в ряде литературных воспоминаний XIX века. Однако в наше время «крылатой» стала не эта строка Батюшкова, а другая, открываю-

щая стихотворение «Мой гений», также печатавшееся в различных русских песенниках XIX века и положенное на музыку М.И.Глинкой – «О, память сердца! Ты сильней Рассудка памяти печальной». Если в XIX веке эти строки цитировались редко (их приводит И.А.Гончаров в своих очерках «По Восточной Сибири»), то ныне выражение «память сердца» стало расхожим названием статей в различных периодических изданиях.

Процесс превращения отдельных поэтических строк в «крылатые» –процесс живой. Его нельзя считать завершенным не только потому, что создается новая поэзия, но потому главным образом, что каждое новое поколение открывает в давно написанных стихах новое, близкое себе. Неисчерпаема глубина и свежесть мысли и чувства подлинной поэзии!

Предлагаем подборку «крылатых строк», заимствованных из русской поэзии допушкинской поры.

Батюшков Константин Николаевич

О, память сердца! Ты сильней
Рассудка памяти печальной.
(«Мой гений», 1815)

Я берег покидал туманный Альбиона.
(«Тени друга, 1814)

Богданович Ипполит Федорович

Во всех ты, Душенька, нарядах хороша.
(«Душенька», 1775)

Державин Гаврила Романович

А завтра; где ты, человек?
(«На смерть князя Мещерского», 1779)

Весь мир стал полосатый шут;
Мартышки в воздухе явились.
(«На счастье», 1789)

Гром победы раздавайся!
Веселися, храбрый Росс!
(«Хор» по случаю взятия Измаила, 1791)

Живи и жить давай другим.
(«На рождение царицы Гремиславы», 1796)

И все то благо, все добро!
(«Утро», 1800)

И истину царям с улыбкой говорить.
(«Памятник», 1795)

И словом: тот хотел арбуза,
А тот соленых огурцов.
(«Видение Мурзы», 1783-1784)

Не внемлют – видят и не знают!
(«Властителям и судиям», 1780)

Не может век носить личин,
И истина должна открыться.
(«Вельможа», 1794)

О горе нам, рожденным в свет!

(«На смерть князя Мещерского», 1799)
Осел останется ослом,
Хотя осыпь его звездами;
Где должно действовать умом,
Он только хлопает ушами.
(«Вельможа», 1794)
Отечества и дым нам сладок и приятен.
(«Арфа», 1798)
Поймали птичку голосисту
И ну сжимать ее рукой.
Пищит бедняжка вместо свисту,
А ей твердят: пой, птичка, пой!
(«На птичку», 1792-1793)
Поэзия тебе любезна…
Приятна, сладостна, полезна
Как летом вкусный лимонад.
(«Фелица», 1782)
Река времен в своем стремленьи
Уносит все дела людей.
(«Река времен»), 1816)
Умеренность есть лучший пир.
(«Приглашение к обеду», 1795)
Я телом в прахе истлеваю,
Умом громам повелеваю.
(«Бог», 1784)
Я царь – я раб – я червь – я Бог!
(Там же)
Дмитриев Иван Иванович
..все оды пишем, пишем,
А ни себе, ни им похвал нигде не слышим!
(«Чужой толк», 1794)
Москва, России дочь любима,
Где равную тебе сыскать?
(«Освобождение Москвы», 1795)
Мы пахали!
(«Муха», 1805)
...нехитрому уму
Не выдумать и ввек...
(«Чужой толк», 1794)
О дети, дети! как опасны ваши лета!
Мышонок, не видавший света
Попал в беду.
(«Петух, кот и мышонок», 1802)
Стонет сизый голубочек,

Стонет он и день и ночь.

(«Стонет сизый голубочек...», 1792)

Иврагимов Николай Мисаилович

С милым рай и в шалаше.

(«Русская песня», 1815)

Кантемир Антиох Дмитриевич

Наука содружество людей разрушает.

(«Сатира 1», 1729)

Уме недозрелый, плод недолгой науки!

Покойся, не понуждай к перу мои руки.

(Там же)

Капнист Василий Васильевич

Законы сняты,

Но исполнители – лихие супостаты.

(«Ябеда», 1798)

Зачем читать учился.

(«Автоэпиграмма», 1796)

Карамзин Николай Михайлович

Поэт, писатель, историк Н.М.Карамзин автор двенадцатитомного произведения «История государства Российского» был создателем новых калькированных фразеологизмов: «во цвете юности», «цветы любви», «дух закона», «дух порядка», «цвет счастья», «надежды цвет» и др. [4, с. 146].

Гони природу в дверь: она влетит в окно!

(«Чувствительный и холодный», 1803)

Законы осуждают

Предмет моей любви.

(«Остров Борнгольм», 1793)

Ничто не ново под луною.

(«Опытная Соломонова мудрость» 1796)

Смеяться, право, не грешно

Над всем, что кажется смешно.

(«Послание к А.А.Плещееву», 1794)

Апофегмы (крылатые слова) из «Истории государства Российского» несут различную нагрузку: «Слова принадлежат веку, а мысли векам», «Великодушие действует только на великодушных», «Злодеи не знают благодарности», «ибо злодейство есть несчастие», «Народ в кипении страстей может быть скорее палачем, нежели судиею», «Где нет защиты от правительства, там нет и повиновения», «Главная цель общежития есть личная безопасность и неотъемлемость собственности», «Уставы отцов … бывают не всегда мудры, но всегда священны для народа» и др. [5, с. 344].

Ломоносов Михаил Васильевич

Возлюбленная тишина,

Блаженства сел, градов ограда.

(«Ода на день восшествия на престол Елисаветы Петровны, 1747 года»)

Колумб российский.

(Там же)

Науки юношей питают,
Отраду старым подают.
(Там же)
Открылась бездна звезд полна;
Звездам числа нет, бездне дна.
(«Вечернее размышление...при случае северного сияния», 1743)
Что вы, о поздние потомки,
Помыслите о наших днях?
(«Ода на день восшествия на престол Елисаветы Петровны, 1747 года)
Что может собственных Платонов
И быстрых разумом Невтонов
Российская земля рождать.
(«Ода на день восшествия на престол Елисаветы Петровны, 1747 года»)
Мерзляков Алексей Федорович
Один, один, бедняжечка,
Как рекрут на часах!
(«Песня», 1810)
Среди долины ровныя,
На гладкой высоте.
(Там же)
Пушкин Василий Львович
Прямой талант везде защитников найдет!
(«Опасный сосед», 1811)
Радищев Александр Николаевич
О вольность, вольность, дар бесценный!
(«Вольность», 1783)
Тредиаковский Василий Кириллович
Чудище обло, озорно, огромно, с тризевной и – Лаей.
(«Тилемахида, 1766)
Хемницер Иван Иванович
Веревка! – вервие простое!
(«Метафизик», 1799)
Шаховской Александр Александрович
Да на чужой манер хлеб русский не родится.
(«Сатира 1», 1807)

«Крылатость» многих строк поэтов 20-30-х годов XIX столетия неотделима в духовном сознании нынешнего поколения от романсово-песенного богатства русской культуры. Такие стихи, как «Уймитесь, волнения страсти», «Любил я очи голубые», «Нелюдимо наше море», «На заре туманной юности», «Не искушай меня без нужды...», и многие-многие другие – для наших современников прежде всего строки из популярных романсов и песен.

Крылатые выражения российских поэтов являются средствами художественной выразительности литературного изображения и способствуют широкому распространению мыслей, которые являются важными в данных обстоятельствах. Многие мысли

по праву принадлежат времени, составляют исторический интерес, но в большинстве своем непреходящее значение русской поэзии своей ясностью, душевностью, благородством волнует души современников до сих пор.

Наследие российских поэтов оказало благотворное влияние на развитие общественной мысли России. Лаконизм, емкость крылатых выражений российских поэтов соприкасается с нашим днем, с нравственной, эстетической потребностью современников.

Творчество российских поэтов XVIII-XIX вв. труднообозримо, это не одинокая, хотя бы и величественная, горная цепь со многими вершинами и бесчисленными отрогами. Оно принадлежит к вечно живущим и развивающимся явлениям, продолжающим волновать сердца любителей русской поэзии. Звуковая организация каждой национальной речи неповторимо индивидуальна, по-своему красива и благозвучна. В основе благозвучия и музыкальности русской речи лежат внутренние свойства самого языка:

1. Абсолютное большинство употребляемых в стихотворениях слов – открытые, они придают стихам плавность, музыкальность.
2. Частая повторяемость гласных придает выражениям звучность.
3. Разноместное ударение предупреждает монотонность выражений, соответственно разнообразя их, сообщая ритмичность и гибкость.
4. Аккомодация предотвращает однозвучность, создает в речи своеобразные переливы оттенков.
5. Благозвучию русской речи способствует большое количество мягких согласных. Кроме того, все согласные смягчаются перед гласными переднего ряда (и, э, а).
6. Сонорные *м* и *н* и плавный *л* вносят в русскую речь нежность и музыкальность.

Российские поэты, безусловно, знали факторы, которые усиливали или, наоборот, снижали благозвучие поэтической речи.

Благозвучие русской речи снижают:

1. Обилие шипящих и свистящих звуков, их случайное скопление, ненужное нагромождение. Здесь не следует смешивать поэтический прием, когда при помощи подбора определенных звуков раскрывается особенность описываемого явления.

Снижает благозвучие скопление причастных форм, за исключением их преднамеренного употребления.

2. Скопление в одном слове или близлежащих словах одинаковых согласных или гласных.
3. Стечение одинаковых слогов.
4. Повторение однокоренных слов, употребление тавтологических оборотов. Но повторение однокорневых слов допустимо, если оно усиливает значение.
5. Стечение одних длинных или одних которых фраз создает монотонность, но допустимо их намеренное использование [6, с. 50-56].

Русскому стихосложению присуща силлабо-тоническая, т.е. слого-ударная система, которая основана на равномерном чередовании ударных и безударных слогов, что соответствует строению русского народного стиха. Повторяющиеся сочетания ударных и безударных слогов измеряются стопами. Слова русского языка неоднородны как по количеству слогов, так и по месту ударения, поэтому невозможно строго придерживаться этого деления.

Основных размеров русского классического стиха пять: хорей, ямб, дактиль, амфибрахий и анапест. Первые два размера двусложные, остальные-трехсложные. Использование того или иного размера не безразлично для поэта, но связь размера с содержанием стиха опосредованная. Настоящие российские поэты избегали банальных, стершихся, примелькавшихся рифм, в их стихах большую роль играют разнообразные ритмические элементы.

Российские поэты в своих произведениях широко использовали языковые средства, которые добавляли к логическому содержанию различные экспрессивно-эмоциональные оттенки: тропы, эпитеты, сравнения, метафоры, метонимии, синекдохи, гиперболы, аллегории, иронии, олицетворения, перифразы, стилистические фигуры, анафоры, антитезы, градации риторические вопросы и др. [7, с. 175-177].

Таким образом, учитывая эти факторы, российские поэты создавали свои гениальные произведения.

«Русская поэзия XIX века, ставшая классикой, служила и служит образцом и примером для поэтов всех последующих времен, включая наши дни» [8, с. 15].

ЛИТЕРАТУРА

1. Ашукин Н.С. Ашукина М.Г. Крылатые слова. Москва: Художественная литература, 1987 526 с.
2. Гусейнов Ф.Г. Русская фразеология. Баку: АГУ, 1977, 119 с.
3. Бирюкова С.Н. Словарь культуроведческой литературы. Санкт-Петербург: Просвещение, 2005, 351 с.
4. Ефимов А.И. История русского литературного языка. Москва: Гос. Изд-во, 1961, 322 с.
5. Карамзин Н.М. Об истории государства Российского. Москва: Просвещение, 1990, 383 с.
6. Русская речь. Москва, 1968, № 2.
7. Абрамович Г.Л. Введение в литературоведение. Москва: Просвещение, 1975, 351 с.
8. Русские поэты XVIII-XIX веков: Антология. Москва: Детская литература, 1985, 735 с.

Нахчыванский государственный университет
E-mail: ***arifzeynalov49@gmail.com***

Arif Zeynalov

PUŞKİN DÖVRÜNƏ QƏDƏR RUS POEZİYASININ QANADLI SƏTİRLƏRİ

Məqalə Puşkin dövrünə qədər olan rus poeziyasının qanadlı ifadələrinə həsr olunur.

Məqalədə Puşkin dövrünə qədər rus şairlərinin tədqiqat metodu əsasında qanadlı poetik sətirlər əksini tapmışdır. Puşkin dövrünə qədər olan rus şairlərinin qanadlı sətirləri rus nitqini zənginləşdirdi və gözəlləşdirdi.

Q.R.Derjavinin və İ.A.Krılovun hikmətli sətirləri rus nitqini daha çox zənginləşdirdi.

Qanadlı sözləri atalar sözləri və zərb-məsələləri ilə qarışdırmaq olmaz. Qanadlı sözlər arasında ümumi bir fikir ifadə edən aforizmlər çoxdur. Qanadlı sözlər böyük bir zəngin xəzinədir və onlardan bacarıqla istifadə etmək lazımdır.

Məqalənin əsas məqsədi qanadlı sözlərin düzgün seçilməsindədir. Məqalə müəllimlərin və tələbələrin istifadəsi üçün nəzərdə tutulub.

Açar sözlər: *qanadlı sətirlər, rus poeziyası, Puşkin dövrünə qədər, şeir, ahəngdarlıq.*

Arif Zeynalov

WINGED PHRASES OF THE PRE-PUSHKIN PERIOD'S RUSSIAN POETRY

The paper considers the catchphrases of Russian poets of the pre-Pushkin period.

Based on the research method, the paper reflects pre-Pushkin period Russian poets' poetic lines, which later became famous catchphrases.

The winged words of Russian poets of the pre-Pushkin era enriched Russian speech, made it more expressive. The catchphrases of the Russian fabulists G.R.Derzhavin and I.A.Krylov significantly enriched Russian speech.

Such catchphrases cannot be confused with proverbs and sayings; they differ in many respects from each other. There are many aphorisms among these winged phrases that express some generalized thought.

The catchphrases are great wealth, but one must use this verbal wealth skillfully.

The primary purpose of this paper is the correct selection of winged phrases; the paper can be intended for teachers of the Russian language and students of Russian studies.

Keywords: *winged words, Russian poetry, pre-Pushkin period, verse, euphony.*

Daxilolma tarixi: İlkin variant 23.07.2021
Son variant 25.08.2021

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

İNCƏSƏNƏT

UOT 792.03

ƏLƏKBƏR QASIMOV

AZƏRBAYCAN DRAMATURGİYASINDA GÜRCÜSTAN VƏ GÜRCÜ SURƏTLƏRİ

Məqalədə əsasən Gürcüstanın tərənnüm edildiyi Azərbaycan klassik və müasir dramaturgiyasından nümunələr göstərilir. Həmçinin bu pyeslərdəki müxtəlif gürcü surətləri də xarakterizə olunur.

Eyni zamanda həmin əsərlər əsasında hazırlanmış tamaşalarda Gürcüstanın çeşidli nəzər nöqtəsindən təsvir olunması və gürcülərin iştirakı ilə olan səhnələr xatırlanır.

Burada məxsusi vurğulanır ki, xarici dramaturgiyada, o cümlədən klassik gürcü müəlliflərinin pyeslərində azərbaycanlılar mənfi xarakterli obrazlar olaraq təsvir edilib. Bunun əksinə olaraq Azərbaycan dramaturgiyasında bir qayda olaraq gürcü obrazı müsbət yöndən təqdim olunub.

Açar sözlər: *Gürcüstan, gürcü, dramaturq, tamaşa, obraz.*

Tarixən qonşu, dost və qardaş ölkə sayılan Gürcüstan və gürcü xalqı "Dədə Qorqudun kitabı"ndan üzü bəri Azərbaycanın yazılı ədəbiyyatında daim tərənnüm olunmuş və olunmaqdadır. Əsrlər boyu Azərbaycanda və Gürcüstanda hər iki xalqın dostluq, mehriban qonşuluq şəraitində yaşaması, oxşar adət-ənənənin, musiqi və rəqslərin, milli geyim və mətbəxin, dekorativ-tətbiqi sənət nümunələrinin ta qədim zamanlardan mövcudluğu müxtəlif ədəbi əsərlərdə – şeir, poema, hekayə, povest, roman və dramlarda öz əksini tapmışdır.

Görkəmli ədib, dramaturq, dövlət xadimi Nəriman Nərimanov özündən əvvəlki mütərəqqi fikirli Azərbaycan yazıçılarının və böyük müasirlərinin bu sahədəki ən yaxşı cəhətlərini mənimsəməklə yanaşı, bədii yaradıcılığında buna yeni məna gətirmişdir. "Hələ 1898-ci ildə yazdığı "Nadir şah" adlı tarixi dramında Nəriman Nərimanov namuslu, cəsarətli, doğruçu, igid sərkərdə Gürcü bəy obrazını sevərək yaratmışdı". Bu, gürcü yazıçılarına bir örnək olmuşdu.

O vaxt Tiflisdə çap olunan "Droyeba" qəzetində buna işarə olunaraq yazılmışdı: "… Burasını da qeyd etmək lazımdır ki, bizim gürcü pyeslərində səhnəyə gətirilən tatar (azərbaycanlı – Ə.Q.) tipləri mütləq mənfi obrazlardır. Lakin müsəlmanların "Nadir şah" dramındakı gürcü tipi olan Gürcü bəy namuslu, sədaqətli qəhrəman kimi verilmişdir. Tamaşaçılar həmin Gürcü bəyin səhnəyə gəlməsini alqışlarla qarşılayırlar. Gürcü dramaturqları bunu həmişə yadlarında saxlamalıdırlar" [4, s. 9].

Nəriman Nərimanov özü də 1918-ci il mart ayının 19-da açıq məktubunda yazmışdı: "Mən 15 il bundan qabaq yazılmış tarixi "Nadir şah" dramının müəllifiyəm. Həmin dramda İran padşahı sarayında bütün satqın müsəlman vəzirlər içərisində bir nəfər təmiz, nəcib gürcü zabiti tipi vardır ki, müsəlman dövlətinin səadəti yolunda öz gənc həyatını qurban verir…" [1, s. 498].

"…Gürcü bəy rolunu binöqsan oynayan H.Ərəblinski obrazın mərdliyini, sədaqətliyini, doğruluğunu ön plana çəkmişdi" [5, s. 131].

XX əsrin əvvəllərində romantik əsərlərilə ədəbiyyatımıza gələn dahi şair-dramaturq Hüseyn Cavidin də bir neçə pyesində Gürcüstanın təsvir olunduğunu, gürcü millətindən olan baş və əsas surətləri müşahidə edirik. Bunlardan birinci olaraq "Şeyx Sənan" faciəsinə nəzər yetirək. Yuxusunda gördüyü gözəlin – Xumarın sorağı ilə uzaq Ərəbistandan səhralar, dərələr,

meşələr, çöllər, çaylar, göllər keçərək yaşıl dağlı, ətirli bağlı, səfalı Gürcüstana gəlib çatan Şeyx Sənan gördüyü mənzərədən vəcdə gəlir. Müəllifin ikinci pərdənin birinci səhnəsində təsvir etdiyi kimi

"…Tiflis civarında, kiçik bir dağ ətəyində mənzərəli bir yer… Bir tərəfdə Kür nəhri, digər tərəfdə dağa doğru ucugörünməz əyri bir cığır nəzərləri oxşar… Bahar mövsümü… Qüruba qarşı. Şeyx Sənan Şeyx Sədra ilə bərabər gəzinərək ötüşməkdə olan bülbülləri dinlər və şaşqın halda ətrafa tamaşa edərək deyir":

İştə Qafqaz!... Səfalı bir məva,
Allah, Allah! Nədir bu abü-həva?
Nə qədər şairanə bir xilqət!
Yerə enmişdir adətən cənnət.
Bu tamaşayə qarşı hər insan
Məncə biixtiyar olur heyran.
Nə qədər dilruba yaşıl təpələr!
Seyrə daldıqca ruhi cəzb eylər.
Gülüşür pənbə, al, bəyaz güllər,
Ötüşür hər tərəfdə bülbüllər.
Ninni söylər kiçik sular xəndan,
Görünür hər tərəfdə bir orman.
Qarlı, qartallı bir yığın dağlar,
Ta uzaqlarda bəmbəyaz parlar.
O bulutlar nə, öylə rəngarəng!?
Bu nə qüdrət! Nə dilfərib ahəng?!
Burda qızğın Günəş də pək munis
Gecələr büsbütün nədimeyi-hiss…
Hələ Kür nəhri başqa bir aləm!
Gecə məhtabə qarşı pək həmdəm…" [2, s. 45]

Tamaşanın məhz bu pərdəsindən başlayaraq digər pərdələrdə də bütün hadisələr Tiflisdə cərəyan edir. Yəni Şeyx Sənanın Tiflis həyatı və macəraları başlayır. Sonrakı hadisələrin gedişində biz əsas obrazlardan olan Xumarı, onun atası Platonu, digər müsbət və mənfi gürcü personajlarını – Serqonu, Ninanı, Keşişi, Antonu və Simonu görürük. Finaldakı kütləvi səhnədə də gürcülər görünürlər.

Bu gün də Tbilisidə "Şeyx Sənan dağı" adlanan məkan bəlkə də 1914-cü ildə burada yaşayan dahi Hüseyn Cavidi həmin əfsanəni qələmə almağa təşviq etmişdir. "Şeyx Sənan" faciəsinin əsas qayəsi bu əfsanəni gələn nəsillərə yetirməkdirsə, amalı Dərvişin dililə səslənən bu mesajı bəşəriyyətə yetirməkdir:

"…Din bir olsaydı Yer üzündə əgər,
Daha məsud olurdu cinsi-bəşər!" [2, s. 117]

H.Cavidin qardaş gürcü xalqının XX əsrin əvvəllərindəki həyat və mübarizəsini əks etdirən "Knyaz" dramını da yazmasında onun bir neçə il Gürcüstanda yaşaması mühüm rol oynamışdır. Görkəmli akademik Məmməd Cəfərin qeyd etdiyi kimi: "…əvvəlki əsərlərində də, romantik planda Gürcüstan həyatını və təbiətini məhəbbətlə tərənnüm edən Cavidin bu mövzuda əsər yazması təsadüfi deyildi. Bu da şairin qardaş Gürcüstan xalqına məhəbbətinin yeni bir ifadəsi idi. Dramın ilk səhnələri feodallar, knyazlar zülmünü, son səhnələrisə hakim siniflərin məğlubiyyətini və yeni, azad Gürcüstanı göstərirdi" (3, s, 205).

Burada altmış yaşlı mülkədar knyazı mürtəce cəbhənin ümumiləşdirilmiş nümayəndəsi olaraq görürük. Ciddi müqavimətə baxmayaraq günbəgün genişlənən və qüvvətlənən inqilabi hərəkatın qəhrəmanlarından birisə Antondur.

Uşaqlıqdan knyazın himayəsində böyüyən, sonradan onun fabrikində mütəxəssis-texnik kimi çalışan Anton gizli inqilabi təşkilata qoşularaq bolşevik olmuşdur. Onun anası Marqo da ömrü boyu mülkədarlara xidmətçilik etmişdir.

Knyazın yaxın köməkçisi olan hiyləgər, menşevik Şakro Antonun bolşevik təşkilatının üzvü olduğunu ona çatdırır. Bundan sonra knyaz Antona atəş açıb yaralasa da, o, tezliklə sağalıb yenidən mübarizəsini davam etdirir. Nəhayət, inqilab qalib gəlir. Digər mülkədarlar kimi knyaz da öz ailəsi – arvadı Jasmen, qızı Lena və dayısı Solomon ilə birlikdə xaricə, Almaniyaya qaçır. Sonrakı səhnələrdə bolşevik inqilabından sonra qaçqın düşmüş Berlindəki mühacirlər arasında knyaz, onun ailəsi və yaxın adamı Şakro da görünür. Knyazın qızı Lena buradakı kafe-şantanlardan birində rəqqasəlik edir, arvadı Jasmenin isə halı çox acınacaqlıdır.

Sovet Gürcüstanı üçün sənaye dəzgahları almaq məqsədilə Berlinə göndərilən Anton knyazla və onun ailəsilə rastlaşır. O, artıq böyük bir zavodun mühəndisidir, anası Marqo isə uşaq evində gürcü yetimlərinə analıq edir. Knyaza dərin nifrət bəsləməsinə baxmayaraq Anton Lenanın və Jasmenin halına acıyır, gürcü gözəllərinin Berlində yadelliləri və əksinqilabçıları əyləndirmələri, onlara qulluqçuluq etmələri onun vətənpərvərlik qururuna toxunur. Onunla bərabər yeni Gürcüstana qayıtmağı, orada vətənə xidmət etməyi qadınlara təklif edən Antonun bu məqsədinə knyazın vəhşiliyi mane olur. Köhnə ağalığının geri qayıtmayacağını anlayan knyaz artıq ağlını itirməkdə olan bir dəliyə çevrilir və qəddarcasına Jasmeni öldürdükdən sonra intihar edir.

Hüseyn Cavid bu pyesində xalqının qanını soran knyazların miskin aqibətini göstərməklə, mühacir gürcü qadınlarının acı taleyinə və faciələrinə daha çox yer ayırmışdır.

Azərbaycanın xalq şairi Səməd Vurğunun "Vaqif" dramında da Gürcüstanın tərənnümünə və Tamara, Şaliko və Kiçik gürcü kimi obrazlara rast gəlirik. Ağa Məhəmməd şah Qacarın əsirliyindən qurtulub xalq qəhrəmanı Eldarın yanında sığınacaq tapan gürcülər sevinclə, mehribanlıqla qarşılanır, qayğı ilə əhatə olunurlar.

Onlara xitabən Eldar deyir:

Göz üstə yeriniz var,
Bizim əziz qardaşlar!
Tanıyıram o dağları,
Durna gözlü bulaqları.
Çox keçmişəm hər gölündən,
Gürcüstanın dost elindən.
Var onlarda namus, hünər,
O yediyim duz-çörəklər
Unudulmaz. Bu dünyada
Bir yaxşılıq getməz bada…
Ayə, ay uşaqlar!

(*Ağacdan asılmış toğlu cəmdəyinə işarə edərək*)

Onu düşürün,
Tez olun, yaxşı bir kabab bişirin!
T a m a r a
Sağ olun, çən gəlir hava qaralır;

Sonra gecikərik, gün də daralır…
E l d a r
İxtiyar sizindir, bizim bu dağlar
Sizin evinizdir. İndi uşaqlar
Aparıb ötürsün sizi Tiflisə!
Ş a l I k o
Böyük bir yaxşılıq olar bu, bizə.
E l d a r
Yox, yox. Bu, borcumdur, borcumdur mənim! [6, s. 71-72]

Əlbəttə, bu misalların sayını istənilən qədər artırmaq olar. Ancaq əsas məsələ budur ki, bu olduqca gözəl, gərəkli, əlamətdar keyfiyyəti söyləməklə bir daha xatırlatmağı lazım bildim ki, heç bir milli-mədəniyyət digər xalqların mədəniyyətilə əlaqədə olmadan təkbaşına inkişaf edə bilməz. Bu baxımdan, ümumiyyətlə Azərbaycan mədəniyyəti, o cümlədən ədəbiyyatı, incəsənəti, eləcə də teatr sənəti dünya xalqlarının qabaqcıl, realist sənətilə təmasdan kənarda qala bilməzdi. Odur ki, Azərbaycan teatrı özünün təşəkkülü və tərəqqisi naminə dünya xalqlarının qabaqcıl teatr ənənələrilə tanış olmaqla bərabər, həm də onların dram əsərlərindən seçmələri tamaşaya qoyurdu.

Belə bir ənənə bu gün də davam etdirilməkdədir. Müstəqil Azərbaycan Respublikasında multikultural dəyərlər daha önəmli xarakter almaqla, dövlət səviyyəsində daim diqqət mərkəzində saxlanılmaqdadır. Fərəhli haldır ki, müasir Azərbaycan indi həm də dünyanın ən nümunəvi tolerant ölkəsi olaraq tanınmaqdadır.

ƏDƏBİYYAT

1. Azərbaycan teatrının salnaməsi: 2 cilddə. I c., Bakı: Azərnəşr, 1975, 583 s.
2. Cavid H. Əsərləri: 4 cilddə. II c., Bakı: Yazıçı, 1982, 394 s.
3. Cəfər M. Hüseyn Cavid. Bakı: Azərnəşr, 1960, 263 s.
4. Qasımov Ə. Naxçıvan Teatrında tərcümə əsərlərinin tamaşaları (1883-2013). Bakı: Avropa, 2016, 176 s.
5. Kərimov İ. Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri. Bakı: Maarif, 2002, 576 s.
6. Vurğun S. Əsərləri: 6 cilddə, IV c., Bakı: EA nəşriyyatı, 1963, 383 s.

AMEA Naxçıvan Bölməsi
E-mail: ***elekberqasimov@mail.ru***

Alakbar Gasimov

GEORGIA AND GEORGIAN IMAGES IN AZERBAIJANI DRAMATURGY

The paper mainly showed examples of Azerbaijani classical and modern dramaturgy praised by Georgia. The various Georgian images in these plays were also characterized.

At the same time, the performances prepared based on these works were remembered for their portrayal of Georgia from various points of view and scenes with the participation of Georgians.

It was especially emphasized here that Azerbaijanis were portrayed as evil characters in foreign drama, including plays by classical Georgian authors. On the contrary, in Azerbaijani dramaturgy, as a rule, the Georgian image was presented positively.

Keywords: *Georgia, Georgian, playwright, play, image.*

Алекбер Гасымов

ГРУЗИЯ И ОБРАЗЫ ГРУЗИН В АЗЕРБАЙДЖАНСКОЙ ДРАМАТУРГИИ

В статье приводятся образцы из классической и современной азербайджанской драматургии, где воспевается Грузия. В том числе характеризуются разные образы грузин в этих пьесах.

В том числе здесь рассмотрены изображения Грузии с разных точек зрения и сцены с участием грузин в спектаклях, подготовленных на основе этих произведений.

Здесь особенно подчеркивается, что в зарубежной драматургии, в том числе в пьесах классических грузинских авторов, азербайджанцы были изображены в образах с отрицательным характером. А в азербайджанской драматургии наоборот, образ грузина был представлен с положительной стороны.

Ключевые слова: *Грузия, грузин, драматург, спектакль, образ.*

(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 30.06.2021
Son variant 23.07.2021

UOT 792.03

ƏLİ QƏHRƏMANOV

NİZAMİ GƏNCƏVİNİN ƏSƏRLƏRİNİN SÜJETİ ƏSASINDA YAZILAN PYESLƏR NAXÇIVAN SƏHNƏSİNDƏ

Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Məqalədə dünya ədəbiyyatına ölməz incilər bəxş edən, ədəbi şəxsiyyət Nizami Gəncəvinin həyatı və poemalarının süjetlərini əks etdirən dram əsərlərinin Naxçıvan teatrında tamaşaya qoyulmasından bəhs olunur. Qeyd etmək lazımdır ki, Naxçıvan teatrında dahi sənətkarın həyat və yaradıcılığını əks etdirən Qurban Qurbanovun "Xosrov və Şirin", Səməd Vurğunun "Fərhad və Şirin", Mehdi Hüseynin "Nizami", Abdulla Şaiqin "Fitnə", İslam Səfərlinin "Xeyir və Şər", Kəmalə Ağayevanın "Məhsəti", Nəriman Həsənzadənin "Atabəylər", Məmməd Səid Ordubadinin "Qılınc və qələm" və s. əsərlər dəfələrlə tamaşaya qoyulmuşdur. Məqalədə həmin əsərlərin səhnəyə qoyulma tarixləri, məzmunu, müəllifləri, tamaşaların quruluşçu rejissorları, bədii tərtibatını hazırlayan rəssamlar, bəstəkarlar və obrazları səhnədə canlandıran aktyorlar göstərilmişdir.

Açar sözlər: *Nizami Gəncəvi, şair-filosof, dram, tamaşa, rejissor, rəssam, bəstəkar, aktyor.*

Azərbaycanın dahi şairi Nizami Gəncəvi xalqımızın bəşəriyyətə bəxş etdiyi ədəbi şəxsiyyətlərdən biridir. Nizami poeziyası əsrlərdən bəri öz təravətini saxlamış, əbədiyaşarlıq nümunəsi kimi dünya mədəniyyətinə, ölməz incilər bəxş etməklə, ona şöhrət qazandırmışdır. Nizami irsi uzun zamandan bəri dünya elmi-ədəbi fikrinin diqqət mərkəzində olmuşdur. Ölkəmizdə dahi şairin əsərləri dəfələrlə nəşr olunmuş, ədəbi irsinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüşdür. Bu proseslərin intensiv şəkil almağa başlaması əsasən Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyi ərəfəsinə təsadüf etmişdir. Dahi şairin yubileyinin dövlət səviyyəsində qeyd olunması ilə bağlı ilk qərar 1939-cu ilin 25 iyulunda qəbul edilmiş, lakin İkinci Dünya müharibəsi səbəbindən yubileyin yalnız 1947-ci ildə keçirilməsi mümkün olur.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ilin 6 yanvarında "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" və 1981-ci ilin avqust ayında dahi Nizaminin anadan olmasının 840 illiyi ilə əlaqədar qəbul edilən qərarlar nizamişünaslıqda əsaslı dönüş yaratdı. Eyni zamanda 1991-ci ildə ustad sənətkarın 850 illiyi ilə bağlı yubiley tədbirləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrildi.

Respublika Prezidenti İlham Əliyevin 5 yanvar 2021-ci il tarixli Sərəncamı ilə ölkəmizdə "Nizami Gəncəvi İli" elan olundu. Prezident İlham Əliyevin Nizami Gəncəvi yaradıcılığına xüsusi əhəmiyyət verməsi heç də təsadüfi deyil. Çünki Nizami öz yaradıcılığı ilə yeni bir ədəbi hadisənin başlanğıcının əsasını qoyub. Dahi Nizami təkcə Azərbaycan ədəbiyyatının deyil, dünya ədəbiyyatının inkişafında da müstəsna rol oynayıb. Bəşəriyyətin ədəbi-elmi

fikrində Nizami sənətinə olan maraq daha da geniş vüsət alıb. Bu mənada Respublika Prezidentinin imzaladığı Sərəncam dünya miqyasında Nizami irsinin daha yüksək səviyyədə təbliği istiqamətində böyük əhəmiyyətə malikdir. Eyni zamanda bu Sərəncam 2041-ci ildə dünyada dahi ədibin 900 illik yubileyinin layiqincə qarşılamaq üçün yeni perspektivlər açır.

Nizami yaradıcılığının təsiri təkcə Şərq ədəbiyyatı ilə məhdudlaşmayıb, Qərb ədəbiyyatı və mədəniyyətinə də təsirsiz ötüşməyib. Bənzərsiz yaradıcılığı ilə Şərqdən Qərbədək tanınan şairin poemaları geniş şərhlərlə müxtəlif Avropa dillərinə tərcümə edilib və nəşr olunub. Nizaminin zəngin yaradıcılığı bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətə malik olduğundan Şərqdə təkcə onun "Leyli və Məcnun" poemasına 500-dən çox nəzirə yazılıb.

Təbii ki, Azərbaycan yazıçıları, dramaturqları, şairləri də Nizami irsindən bəhrələnərək, onun keçdiyi zəngin həyat yolunu işıqlandıran çoxlu sayda əsərlər yazıblar. Həmin əsərlər Azərbaycan səhnələrində müxtəlif rejissor, rəssam və bəstəkarların ərsəyə gəlməsində mühüm rol oynayıb. Naxçıvan teatrında isə Nizami Gəncəvinin həyat və yaradıcılığını əks etdirən pyeslər uğurla tamaşaya qoyulub.

Naxçıvan səhnəsində, 1940-cı ilin 26 iyulunda Qurban Qurbanovun "Xosrov və Şirin" pyesinin ilk tamaşası İbrahim Həmzəyevin quruluşunda (rəssam Şamil Qazıyev, musiqi tərtibatçısı Tapdıq Hüseynov, rejissor assistenti Rza Məmmədov (Bacıoğlu) göstərilib [7, s. 119]. Tamaşada İsa Musayev və Nadir Rzayev – Fərhad, Rüxsarə Ağayeva və Xədicə Qazıyeva – Şirin və Məleykə, Mirhəsən Mirişli və Səməd Mövləvi – Şapur, İbrahim Həmzəyev və Əziz Hüseynov – Xosrov, Rza Məmmədov və Tələt Nəcəfov – Şiruyə, Əyyub Haqverdiyev və Sadıq Həsənzadə – Vəzir, Firuzə Əlixanova və Məhbubə Məmmədova – Məlihə, Lalə – Məhunbanu, Lüsya Əlixanova – Laçın, Telli Ələkbərova və Ruqiyə Əliyeva – Qəmər, Rza İsfəndiyarlı – Kəndli, Rza Tumbullu – Qatil, Əkbər Təhmasib – Neqsarud, İzzət Xəlilov – Sərkərdə, Mirzə Ələkbərov – Birinci əyan, Məmməd Həsənov – İkinci əyan, Həmid Mürsəlov – Üçüncü əyan, Yusif Haqverdiyev – Cəmşid, Kazım Hüseynov – Firuz, Yunis Qasımov – Fərrux obrazlarında çıxış ediblər.

Səməd Vurğunun "Fərhad və Şirin" mənzum tarixi dramı Naxçıvan Teatrında ilk dəfə 1942–ci ilin 24 oktyabrında İbrahim Həmzəyevin quruluşunda (rəssam Əyyub Hüseynov, musiqi tərtibatçısı Ənvər Hüseynov, rejissor assistenti Kazım Şeyxov) müharibənin qanlıqadalı günlərində naxçıvanlı sənətsevərlərə göstərilib və layiqli səhnə həllini tapıb [4, s. 164]. Tamaşa gənclərdə vətənpərvərlik duyğularının aşılanmasında mühüm rol oynayıb. Tamaşada İbrahim Həmzəyev – Fərhad, Rza İsfəndiyarlı – Azər baba, Firuzə Əlixanova – Şirin, Səməd Mövləvi – Şapur, Lalə xanım – Fitnə, Əyyub Haqverdiyev – Xosrov, Zəroş Həmzəyeva – Məryəm, Məmmədrza Əliyev (Zəroş Həmzəyevanın qardaşı) – Şiruyyə, Kazım Hüseynov – Vəzir, Ağalar Əliyev – Topal, Sara Azərova – Məhinbanu rollarını canlandırıblar.

Yaratdığı obrazın ümumi xarakterini dərindən duyan, müəllifdən gələn lirik-psixoloji, qəhrəmanlıq, məhəbbət motivlərini ön plana çəkən görkəmli aktyor İbrahim Həmzəyevin yaddaşlara həkk olan Fərhad surəti müharibə illərində yaratdığı ən maraqlı və yaddaqalan obrazlarındandır. O, igid, cəngavər, eşq yolunda əzab və əziyyətlərə sinəgərən Fərhadın mənəvi dünyasını təbii ifa yozumuyla sənətsevərlərə təqdim edirdi. Müqtədir sənətkar Səməd Mövləvi tamaşada Şapurun mənəviyyatsızlığını, rəzilliyini, xain xislətini dolğunluqla canlandırır və xarakter səviyyəsinə yüksəldərək tamaşaçıya təqdim edirdi.

Azərbaycanın dahi şairi Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyi münasibəti ilə Səməd Vurğunun "Fərhad və Şirin" əsəri 1947-ci ilin iyun ayının 11-də yeni quruluşda (Quruluşçu rejissor İbrahim Həmzəyev, rəssam Məmməd Qasımov, bəstəkar Əfrasiyab

Bədəlbəyli, rejissor assistenti Xədicə Qazıyeva) tamaşaya qoyulur [7, s. 148]. İsa Musayev – Fərhad, Zəroş Həmzəyeva – Şirin, Səməd Mövləvi – Şapur , Rza İsfəndiyarlı – Azər baba, Mirhəsən Mirişli və Kazım Hüseynov – Vəzir, Firuzə Əlixanova – Məhinbanu , Pakizə Məmmədova – Fitnə, Ağalar Əliyev– Topal, Lətif Niftəliyev – Şiruyyə, Xədicə Qazıyeva – Məryəm, Rza Tumbullu (Ozan) rollarında, kütləvi səhnələrdə isə Tamara Məmmədova, Sofya Hüseynova, Fatma Fətullayeva və Şərqiyyə İsmayılova (Qızlar), Əsgər Əhmədoğlu, Yaqub Şahtaxtlı, Yusif Haqverdiyev və Mirzə Ələkbərov (İgidlər) iştirak edirdilər.

Musiqidə muğam improvizə səciyyəli xalq mahnı və rəqslərin intonasiyaları, Fərhad və Şirinin sevgisi lirik səpkidə verilirdi.

İbrahim Həmzəyevin yeni quruluşunda "Fərhad və Şirin" 1962–ci ilin iyun ayının 15–də (rəssam Məmməd Qasımov, musiqi tərtibatçısı Ənvər Hüseynov, rejissor assistenti Kazım Hüseynov) səhnəyə qoyulur. Məmməd Quliyev – Fərhad, Roza Cəfərxanova – Şirin, Əkbər Qardaşbəyov – Azər baba, Əyyub Məmmədov – Xosrov, Səməd Mövləvi – Şapur, Zəroş Həmzəyeva – Məryəm, Pakizə Məmmədova – Fitnə, Kazım Hüseynov – Vəzir, Əkrəm Əliyev və Lətif Niftəliyev – Şiruyyə və digərlərinin yaratdıqları obrazları sənətsevərlər rəğbətlə qarşılayırlar. Yenidən hazırlanan "Fərhad və Şirin" tamaşasına yeni ifaçılar cəlb edilmişdi. İstedadlı aktrisa Roza Cəfərxanovanın Şirin rolundakı xoşagəlim ifası onun yaradıcılıq imkanlarını bir daha aşkarladı. "Zəroş Həmzəyeva müxtəlif quruluşlardakı "Fərhad və Şirin" tamaşasında iki monumental obrazla – Şirin və Məryəmlə qarşılaşıb. Aktrisanın gərgin yaradıcı zəhməti sayəsində bu obrazlar arasında kəskin fərq, hər iki obrazın fərdi xüsusiyyətləri, həyata baxış tərzi qabarıq şəkildə tamaşaçılara təqdim olunub. Şirin-Zəroş Həmzəyeva nə qədər incə və zərif duyğularla əhatə olunmuş, sevib-sevilməyə layiq bir qızdırsa, Məryəm - Zəroş Həmzəyeva məğrur və qürurludur" [2, s. 34].

2006-cı ildə şair-dramaturq Səməd Vurğunun anadan olmasının 100 illiyi ilə bağlı Respublika Prezidenti Cənab İlham Əliyevin imzaladığı xüsusi Sərəncamda: "Böyük Azərbaycan şairi və dramaturqu Səməd Vurğun zəngin və ibrətamiz bir yaradıcılıq yolu keçmişdir. Onun istər poetik dünyası, istərsə də əlvan vüsətli dramaturgiyası Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olmuşdur" deyilir.

Xalq şairi Səməd Vurğunun dünyaya gəlişinin 100 illiyi 2006-cı ildə ölkəmizdə geniş miqyasda qeyd edildi. Əsərləri yenidən nəşr olundu, pyesləri teatrların repertuarlarına salındı. Zəngin yaradıcılığı barədə sənədli filmlər çəkildi, elmi-nəzəri konfranslar keçirildi. Bir sözlə onun yubileyi doğma Azərbaycanda böyük sevinc və məhəbbətlə qeyd olundu.

Naxçıvan teatrı da bu əlamətdar yubiley münasibəti ilə şair-dramaturqun "Fərhad və Şirin" mənzum-tarixi dramını müstəqillik illərində – 2006-cı ilin 28 oktyabrında yeni quruluşda (rejissor Kamran Quliyev, rəssam Əbülfəz Axundov, bəstəkar Kamal Əhmədov, rejissor assistentləri Şirzad Abutalıbov, Bəhruz Haqverdiyev) təqdim etdi. Rza Xudiyev – Fərhad, Elmira Kərimova – Şirin, Əli Əliyev – Xosrov, Nəzakət Xudiyeva – Məhin Banu, Həsən Ağasoy – Şapur, Nazlı Hüseynquliyeva – Məryəm, Zəminə Baxşəliyeva – Fitnə, Xəlil Hüseynov – Azər baba, Rövşən Hüseynov – Vəzir, Vidadi Rəcəbli – Topal, Vüsal Rzayev – Şiruyyə rollarında oynayırdılar. Kütləvi səhnələrdə Tofiq Mövləvi, Şirzad Abutalıbov, Yusif Allahverdiyev, Elxan Şeyxov, Bəhruz Haqverdiyev, Zakir Fətəliyev, Cəbrayıl Nəbiyev, Kəklik Novruzova, Günay Qurbanova, Xanım Şirəliyeva, Zəlihə Hüseynquliyeva, Məlahət Abbasova, Humay Bədəlova, Oqtay Əlirzayev, Ziya Həsənov, İlqar Babayev iştirak edirdilər [5, s. 235]. Baş rolun ifaçısı Rza Xudiyev Fərhadın mənəvi dünyasını, zəngin xarakterini ustalıqla canlandırdı. Onun ifasında Fərhad Vətənə, doğma el-obaya bağlı bir cəngavər təsiri bağışlayırdı.

Elmira Kərimovanın məharətlə yaratdığı Şirin obrazı dəyanəti, zərifliyi və məsumluğu ilə diqqəti cəlb edirdi. Onun romantik boyalarla yaratdığı Şirin obrazı əsl məhəbbət aşiqini xatırladırdı.

Tamaşa maraqlı rejissor yozumu, rəssam işi, bəstəkar musiqisi və yaddaqalan aktyor oyunu ilə diqqəti cəlb edirdi. Quruluşçu rejissor Kamran Quliyev müəllif ideyasını müxtəlif sənət yozumlarıyla tamaşaçılara çatdırır, quruluşçu rəssam Əbülfəz Axundov lakonik yollarla tamaşanın bədii siqlətini verdiyi bədii tərtibatda artırır, bəstəkar Kamal Əhmədovun bəstələdiyi musiqi isə tamaşanın ideya-bədii səviyyəsini daha da yüksəldirdi. Tamaşanın premyerasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və müəllifin oğlu Vaqif Səmədoğlu da iştirak etmişdilər.

Müharibə dövrünün yaddaqalan əsərləri içərisində Mehdi Hüseynin böyük şair Nizaminin 800 illik yubileyinə həsr etdiyi "Nizami" pyesi də vardı. Mövzu və süjet xətti etibarı ilə maraqlı olan bu əsərdəki hadisələr, xarakterlər, xalq azadlığı mübarizəsi müasir dövrlə, vətənpərvərlik ruhu ilə həmahəng səslənirdi. Dövrün tarixi hadisələri fonunda ikiüzlü, qəddar, zülmkar saray əyanları ilə dahi Nizaminin mütərəqqi, humanist ideyaları qarşı-qarşıya qoyulurdu. Dramaturq-şair hadisələrin fəal iştirakçısı kimi təsvir edilirdi.

Naxçıvan Teatrında "Nizami" pyesi ilk dəfə 1943-cü il martın 24-də Səməd Mövləvinin quruluşunda (rəssam Şamil Qazıyev, musiqi tərtibatçısı Tapdıq Hüseynov, rejissor assistenti Ağarza Rzayev) tamaşaya qoyuldu [4, s. 126]. İbrahim Həmzəyev – Nizami, Əyyub Haqverdiyev – Qivami, Sara Azərova və Pakizə Məmmədova – Xədicə, Firuzə Əlixanova – Məhsəti, Ağarza Rzayev – Əbdək, Zəroş Həmzəyeva və Xədicə Qazıyeva – Afaq, Kazım Hüseynov – Toğrul, Tamara Məmmədova – Dəstəgül, Həsən Əliyev – Çingiz, Əşrəf Rüstəmov – Yusif, Səməd Mövləvi – Şirvan hökmdarı, Yusif Haqverdiyev – Vəzir, Mirhəsən Mirişli – Vali, Rza İsfəndiyarlı – Yunis, Əli İmanov və Əli Qurbanov – Mühafizəçi, Əli Qurbanov – Birinci cəngavər, Ağalar Əliyev – Qasid və İkinci cəngavər, Gültac Allahverdiyeva – Birinci qız, Əfifə Abbasova – İkinci qız, Səfəralı Möhsümov – Şəhərli rollarını canlandırırdılar. Quruluşçu rejissor xalq qəhrəmanlıq tamaşası yaratmaqla, əsas diqqətini insan xarakterlərinə, mülahizələrinə, eləcə də dahi şair Nizaminin və onu əhatə edən mühitin mürəkkəb qarşılıqlı əlaqəsinə yönəltmişdi. Aktyor Həmzəyevin yaratdığı Nizami obrazı yalnız xalqın səadəti uğrunda mübarizə aparan şair deyil, həm də əsrin mütəfəkkir filosofu kimi təkrarolunmaz oyunu ilə insan şəxsiyyətinin mənəvi gözəlliyini, məlahətini, cazibəsini tamaşaçıya təlqin edirdi.

Dahi Nizaminin 800 illik yubileyi münasibətilə Abdulla Şaiqin "Fitnə" əsərinin Naxçıvan səhnəsində ilk tamaşası 1949-cu il mayın 20-də İsa Musayevin quruluşunda (rəssam Şəmil Mustafayev, musiqi tərtibatçısı Səfər Rəcəbli, rejissor assistenti Kazım Hüseynov) olur [7, s. 153]. Zəroş Həmzəyeva – Fitnə, İsa Musayev – Bəhram şah, Kazım Hüseynov – Vəzir, Firuzə Əlixanova – Gövhər, Əyyub Məmmədov – Bəxtiyar, Əyyub Haqverdiyev – Əyyar, Roza Cəfərova – Afət, Mirhəsən Mirişli – Qulam, Rza İsfəndiyarlı – Qoca, Yusif Haqverdiyev – Vəzirin qulamı, Ağalar Əliyev, Lətif Niftəliyev və Əşrəf Rüstəmov – qara qullar rollarında oynayırlar.

İslam Səfərlinin Nizaminin 800 illik yubileyinə həsr etdiyi "Xeyir və Şər" adlı mənzum dramının ilk tamaşası 1948-ci il noyabrın 16-da İ.Musayevin quruluşunda (rəssam M.Qasımov, bəstəkar Ş.Ələkbərova, rejissor assistenti Y.Şahtaxtlı) zəhmətkeşlərə təqdim olunur. İsa Musayev – Xeyir, Səməd Mövləvi – Şah, Kazım Hüseynov – Şər, Əliheydər Həsənzadə – Ağıl bəy, Rüxsarə Ağayeva – Gülxar, Firuzə Əlixanova – Tərənə, Əkbər Qardaşbəyov – Qoca Kürd, Məmməd Quliyev – Rəhimlər sultanı, Tamara Məmmədova – Arzu, Rza İsfəndiyarlı –

Qoca, Lətif Niftəliyev – Gənc kürd, Əyyub Abbasov və Mirzə Ələkbərov – Təbib rollarında iştirak edirlər [3, s. 64]. Əsərin tamaşaya qoyulması münasibəti ilə "Şərq qapısı" qəzetinin xüsusi buraxılışında "Azərbaycan SSR əməkdar artisti İ.Musayevin "Xeyirxah qüssələrin simvolu", Azərbaycan SSR əməkdar artisti, teatrın direktoru Ə.Haqverdiyevin "Yeni mövsümü "Xeyir və Şər"lə açacağıq, artistlərdən R.Ağayevanın "Gülxar surəti", F.Əlixanovun "Humanist qız", M.Quliyevin "Şər qüvvələrin başçısı" yazıları verilmişdir" [9].

Müstəqilliyin ilk ilində 1991-ci ilin 2 iyulunda İslam Səfərlinin "Xeyir və Şər" mənzum əsəri yeni quruluşda (Quruluşçu rejissor Əsgər Əsgərov, rəssam Hüseynqulu Əliyev, musiqi tərtibatçısı Sevda Əliyeva, rejissor assistenti Bəhruz Haqverdiyev) sənətsevərlərə təqdim olunur [6, s. 586]. Kamran Quliyev – Nağılçı, Əkbər Qardaşbəyov və Kazım Hüseynov – Şah, Yasəmən Ramazanova – Gülxar, Bəhruz Haqverdiyev və Zöhrab İmanquliyev – Xeyir, Əbülfəz İmanov və Tofiq Mövləvi – Şər, Yusif Allahverdiyev və İbrahim Səfiyev – Baş təbib, Məmməd Quliyev – Qoca, Xəlil Hüseynov – Kürd, Nəzakət Xudiyeva – Təranə, Roza Cəfərxanova – Dayə, Şirzad Abutalıbov və Rəfail Abutalıbov – Gənc kürd, Viktoriya Dobrova və Volodya Dobrova – Rəqsçilər rollarında iştirak edirlər.

Kəmalə Ağayevanın "Məhsəti" mənzum pyesi İlk dəfə 1964-cü il oktyabrın 24-də Baxşı Qələndərlinin quruluşunda (rəssam Məmməd Qasımov, bəstəkar Məmməd Ələkbərov, rejissor assistenti Kazım Hüseynov) səhnəyə qoyulur [4, s. 244]. Rollarda: Zəroş Həmzəyeva – Məhsəti, İldırım Cabbarov – İlyas–Nizami, Əyyub Məmmədov – Əşrəf, Əkbər Qardaşbəyov – Əmir Əhməd, İsa Musayev – Pərvər baba, Sofya Hüseynova – Tərgül, Tamara Məmmədova – Rəna, Məmməd Quliyev – Gəncə hökmdarı, Mirzə Ələkbərov – Gəncə xətibi, Xədicə Qazıyeva – Bəlx hökmdarı, Rza İsfəndiyarlı – Vəzir, Yusif Haqverdiyev – Birinci mürid, Əyyub Haqverdiyev – İkinci mürid, İbrahim Məmmədov və Tofiq Mövləvi – Şəhər valisi, Kazım Hüseynov – Möhnət, Mirhəsən Mirişli – Tacir, Məmməd Hümbətov – Qala mühafizəçisi, Əkrəm Mahmudov – Sərkərdə, Müzəffər Səfərov – Xanəndə, Asya Ağayeva, Adil Nəsirov, Elxan Abdullayev, Rəfail Dadaşov (kütləvi səhnələrdə) obrazlarını yaradırlar. "Məhsəti" əsərinə Baxşı Qələndərlinin verdiyi quruluş onun Naxçıvan teatrında ikinci işi idi. Təcrübəli sənətkarın "rejissorluq məharəti, incə zövqü tamaşada hiss olunurdu. Onun səhnə mizanlarında dramatik vəziyyətdən doğan və bu vəziyyətləri qabarıq ifadə edən məntiq və aydınlıq vardır" [1]. Tamaşa üslub-forma estetikasına, mövzuya çağırış yanaşma tərzinə görə teatrın yaradıcılıq yolunda yeni cəhd kimi dəyərli idi. "Məhsəti" tamaşası teatrın hazırladığı tarixi mövzularda yazılmış əsərlər sırasında mühüm yer tutan bitkin səhnə əsəri idi. Tamaşa dramaturji mətn üzərindəki işinə, rejissor quruluşuna və aktyor ifalarına görə teatrın uğurlu sənət nailiyyətiydi.

Tamaşanın başlanğıcında səslənən uvertüra, "Xərabat" mahnısı, Tərgülün mahnısı, "Şah sarayında qızların rəqsi" və b. musiqi nömrələri obrazların və əsərin məzmunun açıqlanmasında müstəsna rol oynayırdı.

1976-cı ilin 30 aprelində "Məhsəti" Baxşı Qələndərlinin yeni quruluşunda (rəssam Məmməd Qasımov, bəstəkar Məmməd Ələkbərov, rejissor assistenti Kazım Hüseynov) tamaşaçılara təqdim edildi [6, s. 580]. Zəroş Həmzəyeva – Məhsəti, Vaqif Əsədov – İlyas, Əkbər Qardaşbəyov – Pərvər baba, İsgəndər Abdullayev – Əmir Əhməd, Aydın Şahsuvarov – Gəncə xətibi, Sofya Hüseynova və Zemfira Əliyeva – Tərgül, Qurban Ələkbərov – Əşrəf, Əyyub Məmmədov – Əşrəf, Tamara Məmmədova – Rəna, Məmməd Quliyev – Gəncə hökmdarı, Yusif Allahverdiyev – Vəzir, Əyyub Haqverdiyev – Birinci mürid, Əyyub Haqverdiyev – İkinci mürid, İbrahim Məmmədov – Vali, Kazım Hüseynov – Möhnət, Roza Cəfərxanova – Bəlx hökmdarı, Qivami Baxşəliyev – Tacir, Müzəffər Səfərov – Xanəndə, Sürəyya Lətifova – Rəqqasə rollarında iştirak edirlər.

Müstəqillik illərində "Məhsəti" 2007-ci ilin 17 fevralında Rövşən Hüseynovun quruluşunda (rəssam Səyyad Bayramov, musiqi tərtibatçısı Yusif Əsgərov, rəqslərin quruluşu Kəklik Novruzova, rejissor assistentləri Şirzad Abutalıbov və Vüsal Rzayev) sənətsevərlərə təqdim edilir [6, s. 591]. Elmira Kərimova– Məhsəti, Vidadi Rəcəbli – İlyas–Nizami, Xəlil Hüseynov – Pərvər baba, Rza Xudiyev – Əmir Əhməd, Kamran Quliyev – Gəncə hökmdarı, Yusif Allahverdiyev – Gəncə xətibi, Günay Qurbanova – Tərgül, Bəhruz Haqverdiyev – Əşrəf, Elxan Şeyxov – Möhnət, Zəminə Baxşəliyeva – Rəna, Şirzad Abutalıbov – Birinci mürid, Vüsal Rzayev – İkinci mürid, Cəbrayıl Nəbiyev – Şəhər valisi, Nazlı Hüseynquliyeva – Bəlx hökmdarı, Zakir Fətəliyev – Ərəb taciri, Rövşən Hüseynov – Vəzir rollarında oynayırlar. Kütləvi səhnələrdə – Kəklik Novruzova, Teyyub Zeynalzadə, Oqtay Əlirzayev, Məlahət Abbasova, Humay Bədəlova, Zülfiyyə Zeynalova, Sabir Hacıyev, Xanım Şirəliyeva, Zəlihə Hüseynquliyeva və Uşaq teatrının aktyorları: Arzu Əliyev, Turqut Vəliyev, İbrahim Nəsirov, Mustafa Musayev, Səyyad Məmmədov iştirak edirlər.

Nəriman Həsənzadənin "Atabəylər" əsəri 1999-cu ilin10 mayında Mərahim Fərzəlibəyovun quruluşunda (rejissor Kamran Quliyev, rəssam Əbülfəz Axundov, musiqi tərtibatçıları Ədalət Yunusov və Cahangir Əliyev, məsləhətçi akademik İsa Həbibbəyli) respublika zəhmətkeşlərinə göstərilir. Həsən Ağasoy – Nizami Gəncəvi, Xəlil Hüseynov – Əcəmi, Kamran Quliyev – Qızıl Arslan, Xuraman Hacıyeva – İnanc Xatın, Rza Xudiyev – Toğrul bəy, Damət Xəlilov – Əbu Bəkir, Vidadi Rəcəbov və Səməd Canbaxşiyev – Mahmud, Rövşən Hüseynov – Ayəba, Bəhruz Haqverdiyev – Ruz, Yasəmən Ramazanova– Gülaçar, Şirzad Abutalıbov – Abuşər, Tofiq Mövləvi – Yad adam, Yusif Allahverdiyev – Bağban, Günay Qurbanova – Kəniz, Kəklik Novruzova – Rəqqasə, İlqar Babayev – Əsgər obrazlarını canlandırırlar.

Bu monumental tarixi pyesdə xalqımızın qəhrəmanlıq salnaməsi, yadellilərə qarşı mübarizəsi yüksək dərəcədə tərənnüm olunurdu. Güclü dramatizm, dolğun və zəngin xarakterlər pyesin dramaturji dəyərini daha da qüvvətləndirirdi. Tamaşadan sonra M.Fərzəlibəyov "Şərq qapısı" qəzetinə verdiyi müsahibəsində demişdir: "Atabəylər" tamaşasını Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr etmişik. Bu əsər başdan-başa Naxçıvan torpağı ilə bağlıdır. Ona görə də mən əsərin ideyasından danışmağı artıq bilirəm. Çünki Azərbaycan oxucusu, Azərbaycan tamaşaçısı "Atabəylər" barədə olduqca geniş məlumata malikdir. Çox adlı-sanlı ədiblər, teatr tənqidçiləri bu əsərə yüksək qiymət veriblər… Tamaşanın quruluşçu rəssamı Əbülfəz Axundovdur. Mən başdan deyim ki, bu rəssam olduqca istedadlı, səhnəni, səhnəqrafiyanı gözəl bilən bir yaradıcıdır. Əbülfəzdə olan yaradıcı fantaziya mənim çox xoşuma gəldi. O, olduqca zövqlü və geniş yaradıcı təxəyyülə malik teatr rəssamıdır… Əgər mən Naxçıvan teatrında yenidən tamaşa qoysam tərəddüd etmədən gözəl teatr rəssamı Əbülfəz Axundovla işlərdim" [8].

"Atabəylər" bərpa olunaraq 2004-cü ilin 12 mayında Naxçıvan Muxtar Respublikanın 80 illiyində Mərahim Fərzəlibəyovun quruluşunda (rejissor Kamran Quliyev, rəssam Əbülfəz Axundov, musiqi tərtibatçıları Ədalət Yunusov, Cahangir Əliyev, məsləhətçi akademik İsa Həbibbəyli) yenidən zəhmətkeşlərə təqdim olunur. Həsən Ağasoy – Nizami, Xəlil Hüseynov – Əcəmi, Kamran Quliyev – Qızıl Arslan, Yasəmən Ramazanova – İnanc Xatun, Rza Xudiyev – Toğrul bəy, Vidadi Rəcəbov – Əbubəkir, Vüsal Rzayev və Səməd Canbaxşıyev – Mahmud, Rövşən Hüseynov – Ayəba, Bəhruz Haqverdiyev – Ruz, Elmira Kərimova – Gülaçar, Şirzad Abutalıbov – Abuşər, Tofiq Mövləvi – Yad adam, Günay Qurbanova – Kəniz, Kəklik Novruzova – Rəqqasə, İlqar Babayev – Əsgər rollarında oynayırlar.

Məmməd Səid Ordubadinin eyniadlı əsəri əsasında Tofiq Seyidovun səhnələşdirdiyi "Qılınc və qələm"in ilk tamaşası 2018-ci ilin 3 iyulunda (Tofiq Seyidovun quruluşunda, quruluşçu rəssam Səyyad Bayramov, musiqi tərtibatçısı Ariz Ağayev, rejissor assistentləri Anar Eyvazov, Uğur Nəsirli) tamaşaya qoyulur. Nəsimi Məmmədzadə – İlyas-Nizami, Səyyad Məmmədov – Fəxrəddin, Səkinə Məmmədova – Rəna, Həcərxanım Cavanşir – Dilşad, Nazlı Hüseynquliyeva – Məhsəti, Ələsgər Quliyev – Atabəy Məhəmməd, Məmməd Mehdiyev – Qızıl Arslan, Anar Eyvazov – Sultan Toğrul, Bəhruz Haqverdiyev – Əmir İnanc, Zülfiyyə Zeynalova – Səfiyyə, Nurbəniz Niftəliyeva – Qətibə, Vəli Babayev – Hüsaməddin, Zəminə Məmmədova – Səba, Rövşən Hüseynov – Toxtamış, Əbülfəz İmanov – Kiçik Buğa, Fatimə Yusifli – Gözəl, Cəbrayıl Nəbiyev – Şəmsəddin, Mehri Nəbiyeva – Dürrə, Vüsal Rzayev – Asəf, Zakir Fətəliyev – Qayıqçı, Şölə Alışova – Teyyubə, Həsən Ağasoy – Xəlifə, Uğur Nəsirli – Müfid, Sənan Hüseynov – Çapar, Elşən Nəcəfov – Fərraş rollarında oynayırlar. Kütləvi səhnələrdə isə Coşqun Əliyev, Fərid Əkbərli, Alim Alışov, Məhərrəm Nadirov, Nahid Eldarlı, Rauf Gülməmmədov iştirak edirlər.

Əminliklə demək olar ki, bundan sonra da Naxçıvan teatrının kollektivi dahi Nizami Gəncəvinin həyat və yaradıcılığından bəhs edən əsərlərə müraciət edəcək, yeni-yeni sənət uğurları qazanacaqlar.

ƏDƏBİYYAT

1. Əyyubov T. "Məhsəti". / "Bakı" qəzeti, 18 iyun 1965-ci il.
2. Qazıbəyov R., Vəzirov C. İbrahim Həmzəyev. Bakı: İşıq, 1982, 49 s.
3. Qəhrəmanov Ə. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı. Bakı: MBM, 2004, 420 s.
4. Qəhrəmanov Ə. Naxçıvan teatrında rejissor sənəti. Naxçıvan: Əcəmi NPB, 2020, 448 s.
5. Qəhrəmanov Ə. Səməd Vurğunun tarixi vətənpərvərlik dramları Naxçıvan səhnəsində // AMEA Naxçıvan Bölməsinin Elmi Əsərləri. İctimai və humanitar elmlər seriyası, Naxçıvan: Tusi, 2021, № 1.
6. Naxçıvan teatrının salnaməsi. Naxçıvan: Əcəmi NPB, 2010, 940 s.
7. Rəhimli İ., Vəzirov C. Naxçıvan teatrı. Bakı: Aspoliqraf LTD MMC NPM, 2008, 352 s.
8. "Şərq qapısı" qəz., 1999, 22 may.
9. "Şərq qapısı" qəz., 1947, 1 iyun.

AMEA Naxçıvan Bölməsi
E-mail: ***aliqehremanov@yahoo.com***

Ali Gahramanov

PLAYS BASED ON THE PLOTS OF NIZAMI GANJAVI'S WORKS ON THE STAGE OF THE NAKHCHIVAN THEATER

The article examines the staging of performances in the Nakhchivan theater, which gave immortal pearls to world literature, reflecting the life and plots of the poems of the writer Nizami Ganjavi. It should be noted that the Nakhchivan theater staged the performances "Khosrov and Shirin" by Gurban Gurbanov, "Farhad and Shirin" by Samed Vurgun, "Nizami"

by Mehdi Huseyn, “Fitna” by Abdulla Shaig, “Good and Evil” by Islam Safarli, “Mehseti” by Kamali Agayeva, “Atabeki” by Nariman Hasanzade, “Sword and Pen” by Mamed Said Ordubadi and other works. The article contains the staging dates, content, authors, stage directors, artists, composers, and actors who embodied the images on the stage.

Keywords: *Nizami Ganjavi, poet-philosopher, drama, play, director, artist, composer, actor.*

Али Гахраманов

ПЬЕСЫ, СОЗДАННЫЕ НА ОСНОВЕ СЮЖЕТОВ ПРОИЗВЕДЕНИЙ НИЗАМИ ГЯНДЖЕВИ, НА СЦЕНЕ НАХЧЫВАНСКОГО ТЕАТРА

В статье рассматривается постановка в Нахчыванском театре спектаклей, отражающих жизнь и сюжеты произведений поэта Низами Гянджеви, подарившего мировой литературе бессмертные жемчужины. Следует отметить, что в Нахчыванском театре были поставлены спектакли “Хосров и Ширин” Гурбана Гурбанова, “Фархад и Ширин” Самеда Вургуна, “Низами” Мехди Гусейна, “Фитна” Абдуллы Шаига, “Добро и зло” Ислама Сафарли, “Мехсети” Камали Агаевой, “Атабеки” Наримана Гасанзаде, “Меч и перо” Мамеда Саида Ордубади и др. произведения. В статье указаны даты постановки, содержание, авторы, режиссеры-постановщики спектаклей, художники, композиторы и актеры, воплотившие образы на сцене.

Ключевые слова: *Низами Гянджеви, поэт-философ, драма, спектакль, режиссер, художник, композитор, актер.*

(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)

Daxil olma tarixi: İlkin variant 26.08.2021
Son variant: 10.09.2021

UOT 72

GÜLNARƏ QƏNBƏROVA

NAXÇIVAN XALÇALARI MƏDƏNİYYƏT ABİDƏSİ KİMİ

Naxçıvan ərazisində arxeoloqlar tərəfindən aparılan arxeoloji qazıntılar zamanı bir sıra xalçalar və xalça toxumaq üçün alətlər aşkar edilmişdir. Arxeoloqlar bunların tarixinin neolit dövrünə aid olduğunu və ibtidai insanların bu dövrdən xalça toxumağa başladığını, eləcə də sənətkarlığın inkişaf etdiyini bildirirlər. Orta əsrlərdə Naxçıvanda xovsuz xalçalarla yanaşı, xovlu xalçalar da toxunurdu. Xalçalar yun, pambıq, ipək iplərdən toxunurdu. Saplar təbii, süni yollarla boyanırdı. Naxçıvan ərazisində yerləşən kənd və şəhərlərdə toxunan xalçalar üzərində salınan kompozisiyalar regiona görə dəyişir. Onların üzərində Qarabağ və Təbriz xalçaçılıq məktəbinə xas olan ornamentlərdəndə geniş istifadə olunurdu. Xalçaların bəzək kompozisiyalarında həndəsi və nəbati naxışlar, insan və heyvan təsvirləri ilə yanaşı memarlıqdan götürülmüş elementlər də üstünlük təşkil edir. Naxçıvan xalçaları üzərində toxunan hər bir ornament və element xalqımızın adət - ənənələrini, mifologiyasını, dinini simvolik olaraq özündə əks etdirir.

Açar sözlər: *xovlu xalça, xovsuz xalça, ornament, bəzək kompozisiyası, memarlıq elementləri.*

Qədim dövrlərdən insanların məskunlaşdığı və sənət sahələrinin inkişaf etdiyi bölgələrdən biri də Naxçıvan ərazisidir. 200 ilə yaxın bir dövrdə Naxçıvan bölgəsində aparılan tədqiqatlar və Sovetlər dövründən başlanan kəşfiyyat xarakterli arxeoloji qazıntılar 2006-cı ildən geniş şəkil aldı.

Babək rayonu ərazisinə daxil olan I Kültəpə ərazisində uzun illər arxeoloji qazıntılar aparan arxeoloq O.H.Həbibullayev ərazidən gildən düzəldilmiş xalça toxumaq üçün dəzgahlar, sümükdən düzəldilmiş cəhrələr, bürünc dövrünə aid kobud parça istehsal edən dəzgahlar, gildən düzəldilmiş qabların içində qırmızı rəng tapılmışdır. Onun fikrincə, boyaq otlarından alınan bu rənglərlə insanlar xalça iplərini boyayırmış. Həbbullayev Kültəpədə yaşayan qəbilələrin ilk dəfə primitiv xalça toxuduqlarını neolit dövrünə aid olduğunu sübut etmişdir [1, s. 230].

Şəkil 1. Arxeoloq V.Əliyev və A. Məmmədova. Naxçıvan MR Babək rayonu, II Kültəpə ərazisindən tapılmış qamışdan toxunmuş həsrin qalıqları (2012-2013).

2011-2013-cü illər aralığında II Kültəpə ərazisindən arxeoloq, Dr. Vəli Əliyev və Aidə Məmmədova tərəfindən yaşayış və sənətkarlıq otaqlarından qablar içərisində tapılmış boyaqlar, qamışdan toxunmuş döşənək qalıqları, insanlar arasında toxuculuq məmulatlarının yun saplarla yanaşı qamışla toxunduğunu da təsdiqlədi [2]. Lətif Kərimovun III cildlik "Azərbay-

can xalçaları" adlı monoqrafiyasında, müəllif insanların yun iplərdən xalça toxumadan əvvəl bitkilərdən toxunmuş döşənəkdən istifadə etdiklərini bildirir [1, s. 6-10].

Arxeoloq Bəhlul İbrahimlinin 20 ildən artıqdır arxeoloji qazıntılar apardığı Ordubad rayonunun Xaraba-Gilan ərazisindən orta əsrlərə aid bir sıra parça və xalça məmulatlarının qırıqlarını aşkarlamışdır. Xalçaya aid məmulatların toxunma texnologiyasının və naxışlarının arxeoloq B.İbrahimli orta əsrlərə aid olduğunu bildirmişdir [3, s. 61].

Şəkil 2. Arxeoloq B.İbrahimli. Naxçıvan MR Ordubad rayonu, Xaraba Gilan (Kiran) ərazisindən arxeoloji qazıntılar zamanı tapılmış ipək xalça və parça qalıqları. Onların üzərində işlənmiş həndəsi, yazı və ağac, buta təsvirləri (Orta əsrlər).

Lətif Kərimov 3 cildlik "Azərbaycan xalçaları" adlı monoqrafiyasında qədim tarixçi və səyyahların, arxeoloqların verdikləri məlumatlara əsaslanaraq Naxçıvanda xalça toxuma sənətinin e.ə. IV-III minilliyə aid olduğunu və orta əsrlərdə Naxçıvan ərazisində çeşnilər əsasında gözəl xalçalar toxunduğunu qeyd etmişdir [1, s. 11].

Naxçıvanda sənətkarlığın inkişafını tədqiqatçı alimlər ərazinin təbii sərvətlərlə zəngin olması ilə əlaqələndirirlər. Naxçıvan xalçaları haqqında ilkin məlumatları ərazidə arxeoloji qazıntılar aparan arxeoloqların əsərlərindən, orta əsrlərdə xalçaçılığın inkişafını səyyahların verdikləri məlumatlardan və tarixi mənbələrdən əldə etsək də, ərazidə apardığımız uzunmüddətli araşdırmalara əsaslanaraq deyə bilərik ki, yun xalçaların yaranma tarixi burada yaşayan insanlar arasında heyvandarlığın inkişafı ilə əlaqədar olmuşdur. Naxçıvan ərazisindən "İpək yolu"nun keçməsi ilə əlaqədar digər sənətlər kimi xalçaçılıq da inkişaf etmiş, yun xalçalarla yanaşı "İpək xalçalar" da istehsal olunmuşdur [4, s. 246-250].

XIV əsrdən sonra Azərbaycanda eləcə də Naxçıvan ərazisində pambığın istehsalı, pambıqdan toxunmuş toxuculuq məmulatlarının [1, s. 102] da meydana gəlməsinə səbəb olmuşdur. Naxçıvan ərazisində günümüzədək gəlib çatmış pambıqdan toxunan xalça və xalça məmulatlarının tarixi XIX-XX əsrlərə aiddir.

Xalçaçılıq sənəti də digər sənətlər kimi zamanla insanların həyatında böyük rol oynamışdır. Naxçıvanda ilkin toxunan xalça məmulatları, xalçalar "keçirmə", "dolama" üsulu ilə toxunaraq, "xovsuz xalça" adını almışdır. Bu toxumalara ədəbiyyatda "düztoxumalar" deyilir. Naxçıvanda xalçaçılıq sənəti bir təkamül yolu keçərək, orta əsrlərdə xalçaçılıq məktəbinin də formalaşmasına gətirib çıxarmış, "ilmə" yolu ilə toxunan xalçaların istehsalı daha da genişləndirilmişdir.

X əsrdə tərtib edilmiş "Hüdud əl-aləm" əsərində "Muğan özünün çuval və parçaları ilə, Naxçıvan, Xoy və Səlmas şəhərləri isə xalça məmulatları ilə şöhrət qazandığını" bildirən müəllif Naxçıvan şəhərini "zili" və "xalı" tipli xalça məmulatlarının əsas istehsal və satış mərkəzlərindən biri kimi xarakterizə edir [1, s. 232]. XIV əsrdə yaşamış Həmdul lah Qəzvini isə Naxçıvan sənətkarlarının çox yüksək və keyfiyyətli xalça toxumaqları barədə məlumat verir [5, s. 5].

Böyük Səlcuqlu İmperiyasının tərkibinə daxil olan Naxçıvan ərazisindən "İpək yolu"-nun keçməsi və Atabəylər-Eldənizlər dövründə paytaxt şəhərə çevrilməsi ilə ərazidə sənətkarlığın bir çox sahələri ilə yanaşı toxuculuq sənəti də inkişaf edir. Burada sənətkarlığın bütün sahələrinin geniş inkişafı şəhərlərin daxilində sənətkarlıq məhəllələrinin formalaşmasına da gətirib çıxarır [6, s. 11-22; 7, s. 15].

Naxçıvan ərazisində uzun zaman arxeoloji qazıntılar və araşdırmalar aparan arxeoloq və tədqiqatçılar qədim və orta əsrlərə aid xalçaların günümüzədək qalmamasının səbəbini xalça materialının tez çürüməsi və XIII-XVII əsrlərə aid xalçaların isə zamanla ərazidə baş verən müharibələr nəticəsində buradan aparılması, bir qisminin isə dağıntılar altında qalaraq məhv olduğunu bildirilər. Naxçıvan şəhərində yaşayan əhali arasında qorunaraq saxlanılan və bizlərə gəlib çatan xalçaların tarixi XVII-XVIII əsrlər və XIX-XX əsrlərə aiddir.

Naxçıvan xalçalarının formalaşması, müxtəlif kompozisiya və çeşnilərin yaranması prosesi bir neçə mənbədən qaynaqlanmışdır. Xalçaçılıq sənətinin təkamülü baxımından bu məmulatların hamısı sadədən mürəkkəbə doğru inkişaf mərhələsi keçmişdir.

1. Bunların ən əsası və zaman baxımından ilkini heyvandarlıqla məşğul olub yarımköçəri həyat tərzi sürən əhalinin toxuduğu xalçalardır. Əsrlər boyu həyat tərzlərinin və təsərrüfat fəaliyyətlərinin nisbətən sabit, dəyişməz qaldığından bu mühitdə hazırlanan məmulatların bədii xüsusiyyətləri, naxış və naxış kompozisiyaları, çeşniləri çox səthi dəyişikliklərə məruz qalmışdır. Bu naxışlar qədim insanların yer və göy haqqında təfəkkürlərindən yaranan kosmoqonik təsəvvürlərin, damğa, totem xarakterli təsvirlərin [8, s. 8-9], mücərrəd formalı təsvirlərin ümumiləşdirilmiş formasından yaranmış və əsas bəzək ünsürlərini təşkil edirdi.

Şəkil 4. Kilim üzərində qoç buynuzu təsviri. Naxçıvan. Xalça muzeyi. XIX əsr.

Şəkil 5. Kilim üzərində qoşa quş təsviri. Naxçıvan. Babək ray. Payız kəndi. XX əsr.

Belə xarakterli təsvirlərə Naxçıvanın Ordubad rayonu ərazisində Gəmiqaya təsvirlərində (e.ə. IV-II min illik) [9, s. 181-196], ərazidə aparılan arxeoloji qazıntılardan tapılmış dulusçuluq qablarının, bəzək əşyalarının üzərində də rast gəlirik. Bu üslublu xalçaların naxış motivlərinin sayı məhdud, ifa tərzi isə xeyli sxematik və həndəsidir. Bu cür xassəli xalça kompozisiyalarının bədii təsir gücünü artırmaq məqsədilə eyni naxış elementləri kompozisiyada ritmik tərzdə bir neçə dəfə təkrarlanır. Belə xalçaların rəng ahəngdarlığı məhdud birbiri ilə ziddiyyət təşkil edən isti-soyuq çalarların vəhdəti sayəsində əldə edilir. Bu arxaik formalı naxışlar emosional təsir gücünə malik olub, özünün bütöv, tamamlanmış eyni zamanda sadə kompozisiya həlli ilə seçilir [10, s. 126-131].

Şəkil 6. U və V bənzəri naxış (damğa); Çəngəlli paxlava (memar G.Qənbərova)



Şəkil 7. 3. Naxçıvan xalçaları üzərində tovuz quşu təsvirləri (memar G.Qənbərova)

2. İkinci qaynaq birinci ilə qarışıq formada olub, daha çox şəhər mərkəzində və onun ətrafındakı yaşayış məntəqələrində formalaşmışdır. Qədim karvan yolları üzərində yerləşən Naxçıvanda toxunan xalçalar üzərində işlənmiş naxışlar arasında Səlcuqlar, Elxanilər dövrünə aid bir sıra damğalar, naxışlar da yer alır. Bəzəklərə çevrilmiş bu motivlər Naxçıvanda müasir dövrdə toxunan xalçalar üzərində də öz əksini tapmaqdadır. Eləcə də orta əsrlərdə Naxçıvan xalçaçılıq məktəbinin digər xalça məktəbləri (Təbriz, Qarabağ, Rəvan (indiki Ermənistan) və s. ilə sıx əlaqəsinin olması bu xalçaçılıq məktəblərinin naxış çeşnilərindən də yararlanmasına səbəb olmuşdur.

Şəkil 9. Heybə üzərində Səlcuqlu dövrünə aid qartal təsviri. Naxçıvan xalça muzeyi. XVIII əsr.

Şəkil 10. Naxçıvanın xovsuz və xovlu xalçaları üzərində qartal və qoşabaşlı qartal təsvirləri.

Zamanla Türkiyənin Anadolu, Cənubi Azərbaycanın (İran) Xoy, Urmiya, Təbriz və s., Rəvan (indiki Ermənistan) və Qarabağ ərazisi tarixi baxımından biz, bəzi dövrlərdə qonşu

olması baxımından da Naxçıvan xalça çeşnilərində bu qarşılıqlı təsiri görməmək mümkün deyildir.

Başqa ölkə və mərkəzlərdə yaranan xalça elementləri digər mədəni mühitdən bura gətirilərək, Naxçıvan xalçaları üzərində öz əksini tapmaqla, yeni forma və motivlərin yaranmasına səbəb olurdu. Bu qədim ənənələrlə yeni üslub gətirməklə, elementlərin vəhdəti şəklini alırdı. Belə tipli xalçalarda həndəsi naxışlarla yanaşı stilizə edilmiş, həndəsi formaya salınmış nəbati, heyvan və quş təsvirlərindən də istifadə olunurdu.



Şəkil 11. Midiya dövlətinin bayrağı üzərində "Qoşabaşlı qartal" təsviri; Səlcuqlu dövlətinin "Qoşabaşlı qartal" emblemi.

Şəkil 12. Naxçıvan xalçası üzərində dəvə karvanının təsviri. Naxçıvan Xalça Muzeyi.

Şəkil 13. Naxçıvan MR, Şahbuz rayonu Biçənək kəndi. 1870-ci ildə toxunub. Xovsuz xalça "Şəddə" və ya "Sərəndaz". Ölçüsü 307×172. Kənarədə Dəvə karvanı təsviri.

3. Çox zaman bu tip xalçaların naxışları digər sənət sahələrindən (memarlıq, saxsı, tikmə və s.) qavranılan naxışlar vasitəsilə də zənginləşmişdir. Naxış yaradıcılığı orta əsrlərdə Yaxın Şərq ölkələrinin çoxunda olduğu kimi Naxçıvanda da bütün sənət sahələrində özünün ən yüksək zirvəsinə çatmışdır.

Şəkil 14. Naxçıvan-Marağa məktəbinə aid Qırmızı günbəz türbəsi. Marağa, 1148. Türbənin xarici səthi üzərində "Cinağı" naxışın qurulma sxemi (memar G.Qənbərova)



Şəkil 15. Un torbası. Naxçıvan Xalça muzeyi. XVIII əsr. 0.80x1.20 sm. Torbanın kənarəsi üzərində romb naxışı. Naxışın həndəsi qurulma sxemi (memar G.Qənbərova)



Şəkil 16. Xovlu xalça. Naxçıvan MR Babək rayon Nehrəm kəndi C.Məmmədquluzadə adına muzey. XVIII əsr. Xalça arasahəsi üzərində medalyon naxışının həndəsi qurulma sxemi (memar G.Qənbərova).

Səlcuqlar dövrü formalaşmış Naxçıvan-Marağa memarlıq məktəbi, Atabəylər-Eldənizlər dövrü bu məktəbdə təhsil almış memarların əsərlərilə özünün daha yüksək zirvəsinə çatmışdır. Bunu Naxçıvan MR ərazisində qalmış bir sıra abidələr – Yusif Küseyir oğlu türbəsi (1162),

Möminə xatun türbəsi (1182), Gülüstan türbəsi (XIII əsr), Qarabağlar türbəsi (XIV əsr) və s. göstərə bilərik. Bu abidələr zamanla dövrünün dini tələblərinə uyğun və burada bir sıra elmlərin (fəlsəfə, həndəsə, cəbr və s.) inkişafı nəticəsində inşa edilmişdir. Abidələrin xarici divarlarını bəzəyən həndəsi, yazı bəzək kompozisiyaları Türk xalqının əsrlər boyu sənət sahəsində yaratdıqları və zamanla da bir-birindən bəhrələndikləri naxış şəklini almış bəzəklərin təkrarıdır da deyə bilərik.

Şəkil 17. Kilim. Naxçıvan xalça muzeyi. XIX əsr. Kilim arasahəsi üzərində romb formalı medalyonlar və kənarələri üzərində həndəsiləşdirilmiş nəbati naxışlar.

Səlcuqlar dövrü memarlığında (XI-XVI əsr) çox geniş yayılmış, "Cinağı" və "Girih" naxış adını almış hörgü sistemi, Naxçıvan memarlıq abidələrinin bəzək kompozisiyalarının inşasında və tərtibatında əsas rol oynamaqla yanaşı, tikilinin möhkəmliyinin artırılmasına da xidmət edirdi. Xovsuz xalça (palaz, kilim) və xalça məmulatları üzərində hörmə, keçirmə yolu ilə uzun zaman toxunmuş naxışlar, memarlıqda "Cinagı" hörgü ilə oxşardır. "Səlcuq üslubu" adını almış və Naxçıvan memarlıq məktəbinin təsiri altında tikilən abidələrdə öz əksini tapmış "Girih" mürəkkəb naxışları sadələşdirilmiş formada xalı-gəbə dəstlərinin, xalı və xalça çeşnilərinin tərtibatında da tətbiq olunmuşdur. Bu dövrdə Naxçıvanda toxunmuş xalçaların bəzək kompozisiyalarının tərtibatında Kufi, Süls, Nəstəlik xətti ilə yazılmış "Quran ayələri", "Allah-Allah" sözləri, dekorativ xalçalarda şairlərin əsərlərinə çəkilmiş "Miniatür təsvirlər", əsərlərindən götürülmüş beytlər də (şəkil 3) yer alır.



Şəkil 18. Möminə xatun türbəsinin xarici divarlarından birinin üzərində işlənmiş həndəsi naxış, (1186). Həndəsi naxışın qurulma sxemi (Q.Əliyev).

"Namazlıq" xalçalar üzərində müxtəlif tağ və sütunların, qəndil və şamdanların, memarlıq abidələrinin təsvirlərinin işlənməsi xalçaçı sənətkarların memarlıq element və naxışlarından bəhrələndiyini göstərir. Səlcuqlar dövrü Naxçıvanda sənətkarlığın eləcə də memarlığın inkişafı, sənət nümunələri üzərində naxışlarının inkişaf etdirilməsi bu prosesi daha da sürətləndirdi. Memarlıqda yaradılan bəzək kompozisiyaları xalçaların tərtibatında böyük rol oynadığı kimi, xalçalar üzərində işlənən rənglərində memarlığa təsirini görməmək mümkün deyil.

Şəkil 19. Xovlu xalça. Naxçıvan. Şəxsi kolleksiya. XVIII əsr; Xalçanın arasahə və kənarəsi üzərində "Çəngəlli paxlava" təsviri; Xalçanın arasahəsi üzərində işlənmiş həndəsi naxışın qurulma sxemi (memar G.Qənbərova).

Bu memarlıq və digər sənət sahələrində olduğu kimi xalçaçılıq sahəsində də yaradılan əsərlərdə özünü daha geniş şəkildə göstərmişdir. Orta əsrlərə aid Naxçıvan xalçaçılıq məktəblərinin istehsal etdiyi məmulatların yüksək texnoloji və bədii keyfiyyətlərini nəzərə alaraq, inamla deyə bilərik ki, bu xalçaların bədii tərtibatında xalçaçı ustalarla yanaşı dövrünün tanınmış sənətkar və memarlarının (Əcəmi Əbubəkir oğlu Naxçıvan və b.) da yaradıcılıq təsiri olmuşdur [11, s. 89-96].

Belə xalçaların bəzək kompozisiyalarının qurulmasında çox zaman naxışlar güzgü simmetriyası əsasında qurulurdu. Xalçalar iki hissədən ibarət olurdu-göl və kənarədən. Xalçanın göl hissəsində toxunmuş medalyon bir neçə dəfə təkrar olunurdu. Kənarələrdə işlədilməsi nəzərdə tutulan naxışlar xalçanın gölü boyunca dəfələrlə təkrar olunurdu. Göldə toxunan medalyonların boşluqları damğa, totem xarakterli motivlərlə bəzədilirdi.

Bu tip xalçaların toxunmasında zərif yun və ipək saplardan istifadə olunmaqla, emalat xanalarda hazırlanırdı. Xalçaların çeşnilərində mürəkkəb kompozisiyaların, çoxfiqurlu süjetli şəkillərin və təsvirin yaranmasına imkan verilirdi. Belə xalçaların bədii tərtibatı kosmopolitik xarakterli olub, milli-etnik xüsusiyyətlərdən daha çox ümumişərq, ümum müsəlman mədəniyyətinin estetik ideyalarını əks etdirirdi.

Şəkil 20. Səkkizbucaqlı ulduz təsviri (Səlcuq dövrü xalı və memarlıq abidələri üzərində geniş yayılmış naxış elementi (memar G.Qənbərova).

4. Naxçıvan xalça çeşnilərinin formalaşmasında mühüm rol oynayan qaynaq peşəkar rəssam və naxış ustalarının yaratdığı kompozisiyalardır. Belə çeşnilər sifarişlə toxunan xalçalardır. Bu çeşnilərin təkamül tapma və yüksəlişi orta əsrlərə, XV-XVIII əsrlərə təsadüf edir.

Şəkil 21. Naxçıvan xalça qrupuna aid Naxçıvan MR bölgələrində toxunmuş xalçalar. Xalçaların göl və kənarələrində salınmış həndəsi formalı naxışlar. Naxçıvan Xalça Muzeyi.
1. Ordubad rayonu Biləv kəndi. 1970, ölçüsü 310× 134;
2. Ordubad rayonu Tivi kəndi. 1910, ölçüsü 316× 132;
3. Şərur rayonu Dərəkənd kəndi. 1959, ölçüsü 217× 140;
4. Babək rayonu Kültəpə kəndi. 1910, ölçüsü 282× 132.

Naxçıvan xalçaçılıq məntəqələrində toxunan "Naxçıvan xalçaları" adını almış xalçalar bədii və texnoloji xüsusiyyətlərinə görə də iki qrupa bölünür:

1. Birinci qrupa müxtəlif dövrlərdə Naxçıvan ustaları tərəfindən yaradılan həndəsi, nəbati, yazı naxışlarından qurulmuş xalçalar. Bu bəzəklər əsrlər boyunca xalçaçı sənətkarlar tərəfindən bədii nöqteyi-nəzərdən mükəmməlləşdirilmiş, onların çalarları daha da təkmilləşərək gözəlləşmişdir. Orta əsrlərin kətan parçalarını xatırladan xalçalar üzərində zərif zolaqlardan-mədaxillər, Naxçıvan zonasına xas olan "buta" naxışlarının təsvirləri bu xalçaların əsas elementlərindəndir.

2. "Naxçıvan xalçaları"-nın ikinci qrupuna XVII-XVIII əsrlərdə toxunan böyük xalılar daxildir. Bunlara "Xalı-Gəbə" dəstləri, böyük həcmli xalçalar aiddir. Belə xalıların bir neçəsi İstanbulda "Türk və İslam əsərləri muzeyi"ndə sərgilənir. Bu xalçalar xalçaçılıq texnikasını mükəmməl bilən peşəkar rəssamların eskizləri əsasında XIV-XVI əsrlərdən toxunmağa başlanmışdır. Əsas istehsal mərkəzləri Naxçıvan, Bərdə daha sonralar isə Şuşa şəhəri olmuşdur.

Şəkil 22. "Rüstəm və Zöhrab" xalçası. XVIII-XX əsrdə Naxçıvanda toxunmuş xalçalar. Xalçanın gölündə – mərkəzdə həyat ağacı və üz-üzə oturmuş insan-sərkərdə təsviri verilmişdir.

Yuxarıdakı şəkillərdən də aydın olur ki, Naxçıvan ərazisində toxunmuş xovsuz xalçaların ən çox yayılan növləri – cecim, palaz, kilim, palaz-kilim, xovlu xalçalardan gəbə, xalı, xalı-gəbə dəstləri, xalça məmulatlarından duz torbası, xurcun, heybə, məfrəc və s. olmuşdur. Bu xalçalar müxtəlif materiallardan-yun, pambıq, ipək saplarla, müxtəlif texniki üsullarla toxunmuşdur.

Müxtəlif üsullarla toxunmasına baxmayaraq Naxçıvan xalçalarını araşdırarkən onların göl və kənarələri üzərində salınmış naxış kompozisiyaların nə qədər zəngin, özünəməxsus işləndiyini görürük. Xovlu və xovsuz xalçalar üzərində toxunan naxışlar, onlardan qurulan bəzək kompozisiyalarının bir qismi uzun zaman içərisində öz formasını dəyişsə də, bu naxış və təsvirlərin hər birinin simvolik və rəmzi mənaları vardır. Uzun illərin yaradıcılıq bəhrəsi olan naxışlar orta əsrlərdə Türklərin İslam dinin qəbul edilməsi və bir sıra elmlərin inkişafı ilə əlaqədar şəklini dəyişsə də, onlar Türk xalqının kosmoqonik düşüncələrinin, mifologiyasının simvollaşmış bir şəklidir [12, s. 475-482]. Azərbaycan xalçaçılıq məktəbinin bir qolu olan Naxçıvan xalçaları qiymətlidir, əvəzolunmazdır və araşdırılması baxımından dəyərlidir.

ƏDƏBİYYAT

1. Керимов Л. Азербайджанский ковер. Т. II, Баку: Гянджлик, 1983, 447 с.
2. 2011-2013-cü ildə II Kültəpə ərazisində aparılan arxeoloji qazıntılar zamanı arxeoloq V.Əliyev və A.Məmmədovanın əldə etdikləri materiallar əsasında.
3. Baxşəliyev V., Seyidov A., Qədirzadə Q., İbrahimli B. Qədim Ordubad. Naxçıvan: Əcəmi, 2014, 312 s.
4. Qənbərova G. Səfəvi dövrü xalçaları // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və Humanitar elmlər seriyası, № 4, s. 246-250.
5. Алиева А. Нахичеванские ковры. Баку: Ишыг, 1988, 28 с.
6. Məmmədov R. Yaxın Şərq və Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi haqqında // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. İctimai elmlər seriyası. 1962, № 4, 11-22.
7. Piriyev V. Naxçıvan tarixindən səhifələr. Bakı: Müəllim, 2004, 125 s.

8. Görgünay N. Oğuz damgaları ve Göktürk harflerinin el sanatlarımızdakı izleri. Ankara: Türk tarih kurumu, 2002, 120 s.
9. Qənbərova G.Orta əsr Azərbaycan memarlıq və xalça bəzəyində Gəmiqaya təsvirlərinin izləri / Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan. 24-25 aprel 2009-cu ildə keçirilmiş beynəlxalq simpoziumun materialları, Naxçıvan, 2010, 375 s.
10. Qənbərova G. Naxçıvan xalçaları // AMEA-nın Naxçıvan bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu Folklorşunaslıq şöbəsi, Axtarışlar elmi toplusu, Naxçıvan, 2011, № 11 (2), 162 s.
11. Qənbərova G. Azərbaycan memarlıq və xalçaçılığında ornament motivlərinin ümumi prinsipləri (XI-XVIII əsrlər). Dissertasiya işi. 2009-cu ildə Azərbaycan Memarlıq və İnşaat Universitetində müdafiə şurasında müdafiə olunmuşdu, 348 s.
12. Qənbərova G. Azərbaycan xalçalarında emblemlər və rəmzi məna daşıyan elementlər / Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyətinin, təbii sərvətlərinin öyrənilməsi. 21-22 may 2004-cü il tarixdə keçirilmiş elmi konfransın materialları. Bakı: Elm, 2004, 512 s.

Naxçıvan Dövlət Universiteti
E-mail: ***gulnare_qenberova65@yahoo.com***

Gulnara Ganbarova

NAKHCHIVAN'S CARPETS LIKE A CULTURAL MONUMENT

During archaeological excavations carried out by archaeologists in the territory of Nakhchivan, many carpets and carpet weaving tools were discovered. Archaeologists say their history dates back to the Neolithic period when primitive people began to weave carpets and develop handicraft skills. In the Middle Ages, it was woven on pile carpets in Nakhchivan, along with lint-free carpets. The carpets were woven from wool, cotton, and silk. The threads were dyed in natural, artificial ways. The composition of woven carpets in the villages and cities of Nakhchivan varied depending on the region. They were widely used in the ornament typical for the carpet weaving schools of Karabakh and Tabriz. Architectural elements prevail in the decorative compositions of carpets, along with geometric and plant patterns and images of people and animals. Each ornament and element weaved on the carpets of Nakhchivan symbolically reflects the customs, traditions, mythology, and beliefs of our people.

Keywords: *nappy carpet, unnappy carpet, ornament, decorative composition, architectural elements.*

Гульнара Ганбарова

НАХЧЫВАНСКИЕ КОВРЫ КАК ПАМЯТНИК КУЛЬТУРЫ

Во время археологических раскопок, проводимых археологами на территории Нахчывана, был обнаружен ряд ковров и инструментов для ковроткачества. Археологи говорят, что их история восходит к периоду неолита, когда первобытные люди начали ткать ковры, и началось развитие ремесленного мастерства. В средние века в Нахчыване наряду с безворсовыми коврами, ткали и ворсовые ковры. Ковры ткались из шерстяных,

хлопковых и шелковых нитей. Нити окрашивались естественным либо искусственным способом. Композиции на тканых коврах в селах и городах Нахчывана варьировались в зависимости от региона. Они широко использовались в орнаменте, характерном для школ ковроткачества Карабаха и Тебриза. В декоративных композициях ковров, наряду с геометрическими и растительными узорами, изображениями людей и животных, преобладают архитектурные элементы. Каждый орнамент и элемент, вытканный на коврах Нахчывана, символически отражает обычаи, традиции, мифологию и верования нашего народа.

Ключевые слова: *ворсовый ковёр, безворсовый ковёр, орнамент, декоративная композиция, архитектурные элементы.*

(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 27.08.2021
Son variant 13.09.2021

UOT 75

FATMA MƏMMƏDOVA

AZƏRBAYCAN ƏDİBLƏRİNİN NİZAMİ GƏNCƏVİ ADINA MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİNDƏKİ PORTRETLƏRİN BƏRPA TARİXİ

Bu il Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi 82 illik yubileyini qeyd edir. 82 il ərzində ölkə hüdudlarını aşaraq bütün dünyada öz kolleksiyası ilə tanınmış muzeyə çevrilmişdir. Bu sənət məbədinin eksponatları arasında Azərbaycan ədiblərinin portretləri çoxdur. İllər keçdikcə şəkillər, materialların tərkibinin təbii korlanması və ya sənət əsərinə tətbiq olunan (təsadüfi və qəsdən) fiziki qüvvələr səbəbindən zədələnir. Muzey əşyalarının vəziyyəti ətraf mühitin təsirinə görə daim təhlükə altındadır.

Ətraf mühitin bu mənfi təsirlərini aşağıdakı kimi ümumiləşdirmək olar: ekstremal temperatur dəyişmələri və nisbi rütubət, yüksək səviyyədə gün işığının təsiri, süni işıqlandırma, ultrabənövşəyi və infraqırmızı şüalanma, həşəratlar və gəmiricilər və muzey ziyanvericilərinin mövcudluğu; yanğın, oğurluq və vandalizm. Rəsmlərin öyrənilməsi zamanı muzey kuratorları tez-tez bərpa, yenidənqurma və texniki ekspertizanın tarixi ilə bağlı məsələlərlə üzləşirlər. Bu məqalədə portret janrı məsələsinin həllində rəsm bərpaçıları ilə qarşılıqlı əlaqələrin artan əhəmiyyətindən bəhs olunur. Bu mövzu 1940-60-cı illərdə Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində tanınmış rəssamların əsərləri əsasında araşdırılmışdır.

Açar sözlər: *portret, rəssam, muzey, bərpa, qoruma.*

Müasir sosial mədəni institutların – muzeylərin, kitabxanaların, arxivlərin fəaliyyəti təkcə abidələrin toplanması tədqiqinə deyil, onların maddi nümunələr kimi, mövcudluğunu saxlamağa və uzatmağa yönəlmişdir. Maddi mədəniyyət nümunələrinin məhz fiziki varlığı onların tədqiqinə və əvvəlki nəsillərin mənəvi təcrübəsi kimi dərkinə imkan verir. Müasir cəmiyyət mədəni irsə varislənərkən eyni zamanda onun qorunması öhdəliyini də qəbul etmiş olur.

Azərbaycanda xalqımızın qədim tarixini və mədəniyyətini əks etdirən, müxtəlif nəsillərdən olan adamların estetik tərbiyəsinin inkişafına təsir göstərən muzeylərin yaranması prosesi bir əsrlik tarixə malikdir. XX əsrin əvvəllərində ayrı-ayrı şəxslərin təşəbbüsü ilə pərakəndə şəkildə həyata keçirilməyə başlayan bu proses XX əsrin ortalarına doğru dövlət qayğısı ilə daha sürətlə, mərkəzləşdirilmiş və məqsədyönlü şəkildə inkişaf etmişdir [3]. Bu dövrdə bu gün respublikamızın aparıcı muzeylərinə çevrilmiş bir sıra muzeylər – Milli Azərbaycan Tarixi Muzeyi, Milli İncəsənət Muzeyi və s yaradılmışdır. Onların sırasında bu il yaranmasının 82-ci ildönümünü qeyd etdiyimiz, Azərbaycanın muzey işi tarixində xüsusi yerlərdən birini tutan, zəngin folklorumuzun janr xüsusiyyətlərini, ədəbiyyat tariximizi, görkəmli sənətkarların, söz ustalarının həyat və yaradıcılığını, bədii irsini əks etdirən eksponatları xüsusi qayğıyla qoruyub saxlayan, tədqiq və təbliğ edən Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi xüsusi yer tutur.

Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1 noyabr 1939-cu il tarixli 4972 №-li sərəncamı ilə yaradılsa da, İkinci Dünya Müharibəsinin başlaması səbəbi ilə açılışı 1945-ci il may ayının 14-nə təsadüf edir.

Muzeyin kolleksiyasında müxtəlif çeşidli rəngarəng və qiymətli eksponatlar – Azərbaycan və başqa Şərq ölkələri sənətkarlarının, şair və alimlərin nadir əlyazmaları, məşhur xəttatların işləri, klassiklərin əsərlərinə çəkilmiş nəfis miniatürlər, nadir çap kitabları, qəzet və

jurnallar, müasir Azərbaycan yazıçılarının əsərləri, Şərqin və Avropanın bir çox dillərində elmi əsərlər, təsviri sənət əsərləri və sənədli fotoşəkillər, yazıçıların şəxsi xatirə əşyaları, xalq yaradıcılığı nümunələri, Azərbaycan ərazisində tapılmış müxtəlif dövrlərə aid sikkələrin kolleksiyası, qədim və süjetli xalçalar, saxsı və bürünc qablar, xalqın çoxəsrlik inkişafı ilə bağlı digər maddi-mədəniyyət abidələri qorunub saxlanılmaqdadır [4].

Muzeyin ekspozisiya zallarında nümayiş etdirilən, N. Vəzirov, C. Məmmədquluzadə, Ə.Haqverdiyev, S.S.Axundov, M.S.Ordubadi, A.Şaiq, T.Ş.Simurq, Y.V.Çəmənzəminli, B.Talıbzadə, Ə.Cavad kimi mütərəqqi fikirli ədiblərimizin həyat və yaradıcılıqları ilə bağlı maraqlı faktları, müxtəlif əsrlərdə yaşayıb yaratmış şair və ədiblərin obrazlarını, onların həyatından alınmış mühüm hadisələri təcəssüm etdirən və eləcə də bəzi əsərlərin mövzusunda çəkilən illüstrasiyalar, istedadlı xalq sənətkarlarının toxuduqları süjetli xalçalar, heykəltəraşlıq, tətbiqi sənət nümunələri, diaqram, xəritə, üç mindən artıq ədəbi-bədii və.s eksponat həm də geniş tədqiqat mənbələridir.

Bundan başqa, muzeyin eksponatları arasında Cəlal Qaryağdının Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasının ölməz qəhrəmanı, uzun əsrlərdən bəri əmək və məhəbbət fədakarlığını təcəssüm etdirən külünglə Bisütunu yaran Fərhadı əks etdirən barelyef, Fuad Əbdürrəhmanovun müəllifi olduğu dahi Azərbaycan şairi Nizami Gəncəvinin heykəli, Azərbaycanın görkəmli fırça ustaları Mikayıl Abdullayevin "Kitabi-Dədə Qorqud" dastanına illüstrasiya, Yusif Hüseynovun "Fatmanın inəyi", Nizaminin "Xəmsə"si əsasında toxunan "İki bayquşun söhbəti" (rəssamlar Lətif Kərimov və Kazım Kazımzadə), "Fərhad dağı yarır" rəssamlar Lətif Kərimov, və Qəzənfər Xalıqov, "Məcnun vəhşi heyvanlar arasında" rəssam Lətif Kərimov, "Bəhram Fitnə ilə ovda" rəssam Əmir Hacıyev, "İsgəndər və Nüşabə gəzintidə" (rəssamlar Lətif Kərimov və Məmmədəli Şirinov) süjetli xalçaları, habelə "Fitnə vərdişinin gücünü isbat edir", "Fərhad Xosrovun sarayında" rəssam Kazım Kazımzadə, "Bəhram və Çoban" rəssam Elbəy Rzaquliyev və digər süjetli, nəfis şəkildə yaradılan tablolar, Mikayıl Abdullayevin "İmadəddin Nəsimi edam qarşısında", Tahir Salahovun "Koroğlu döyüş ərəfəsində", rəssam C.Rəhimovun "Füzuliyə həsr edilmiş vaza", rəssam Sadıq Şərifzadənin "Divani-Hikmət" ədəbi məclisi, habelə Maral Rəhmanzadənin "Ovçu Pirim nağılına" çəkdiyi illüstrasiya və rəssam İsmayıl Axundovun "Məlik Məmməd" nağılına çəkdiyi illüstrasiya da digər qiymətli eksponatlar kimi yer almaqdadır.

Muzeyin zəngin toplusunda xüsusi qayğı ilə qorunub saxlanan, görkəmli rəssamlarımızın ədiblərimizə, yaxud onların əsərlərinə həsr etdikləri rəsm əsərləri – Güllü Mustafayevanın "Məhsəti xanım Gəncəvinin portreti", Elçin Aslanovun "Abbasqulu ağa Bakıxanov", Mikayıl Abdullayevin "Mirzə Fətəli Axundov", "Səməd Vurğun", "Mirzə İbrahimov", Oqtay Sadıqzadənin "Xurşid banu Natəvan", Elmir Saruxanovun "Hüseyn Cavid", Tahir Salahovun "Cəfər Cabbarlı Neva sahilində", Ə.Babayevin "Mehdi Hüseyn", Toğrul Nərimanbəyovun "Rəsul Rza" və s. kimi portretlər bizə ədiblərimizin simalarını xatırlatmaqla yanaşı, həm də Azərbaycan rəngkarlığında peşəkar portret janrının mövcudluğundan və inkişafından xəbər verir [5].

Dünyada və Azərbaycanda portret janrının inkişafı. Ümumiyyətlə, portret (frans, portrait – təsvir etmək) rəngkarlıq, heykəltəraşlıq və qrafikanın əsas janrlarından biri olub, mövcud olmuş, yaxud da hazırda mövcud olan hər hansı bir şəxsin, yaxud bir qrup damın təsviridir. Bu janrın ən zəruri meyarlarından biri təsvirin orijinalla bənzərliyidir ki, buna təkcə təsvir olunanın zahiri görkəminin düzgün verilməsi ilə deyil, eyni zamanda onun mənəvi varlığının, müəllifin subyektiv yanaşması ilə əks olunur. Tarixən portretlərin geniş və çoxplanlı tipo-

logiyası formalaşmışdır: icra texnikası və təyinatı, personajların təsvir xüsusiyyətlərindən asılı olaraq dəzgah (rəsm, qrafik vərəq, büst), monumental (freska, mozaika, heykəl) və s. portretləri, həmçinin medalların, gemmaların üzərində, eləcə də portret miniatürlər mövcuddur. Personajların sayına görə isə portretlər individual, ikili, qrup portretlərə bölünür. Portretin janr sərhədlərinin hərəkətliliyi bir əsərdə onu digər janrların elementləri ilə qarışdırmağa imkan verir. Məsələn, rəsmdə təsvir olunan obraz onu əhatə edən əşyalar aləmi, təbiət, memarlıq, digər şəxslərlə qarşılıqlı əlaqədə təsvir olunur.

Ümumilikdə portret sənəti vacib ictimai hadisələri dərindən əks etdirməyə qadirdir. Qədim zamanlardan yaranan portret janrı qədim Şərq, xüsusən də qədim Misir heykəltəraşlığında yüksək səviyyəyə çatmışdır. Burada əsasən təsvir olunan şəxsin axirət dünyasında "oxşarı" rolunu oynayırdı. Belə dini Qədim Misir portretlərinin möcüzəvi təyinatı müəyyən insanların individual cizgilərinin təsvirinin kanonik tipli proyeksiyasına gətirib çıxartdı. Qədim Yunanıstanda isə klassik dövrdə ideallaşdırılmış şair, filosof, ictimai xadimlərin heykəl portretləri yaradılırdı.

E.ə. V əsrin sonunda qədim yunan portretləri daha da individuallaşır, ellin mədəniyyətində obrazlar daha da dramatikləşir. Qədim Roma portretlərində isə personajın individual cizgiləri dəqiq oturulmuş xarakterlərin psixoloji həqiqiliyi ilə seçilirdi. Orta əsrlər Avropada portret janrının inkişafında xüsusi izlər qoymuşdu. Çox vaxt bu, bədii kilsə ansamblının ayrılmaz hissəsi kimi təqdim olunurdu. Bu dövrdə yapon rəngkarlığı və heykəltəraşlığında, Orta Asiya, Azərbaycan (Kəmaləddin Behzad), Əfqanıstan, İran (Rza Abbasi), Hindistan sənətkarlarının portret miniatürlərində portret obrazları çox cazibədar idi. Portret sənətinin ən yüksək nailiyyətləri İntibah dövrü ilə əlaqədardır. Renessans dövrünün portret janrının prinsipləri XV əsrdə İtaliyada daha da təsdiqləndi. Yüksək İntibah dövrünün Leonardo da Vinci, Rafael, Corconi və Titsian kimi sənətkarları portret obrazlarının məzmununu dərinləşdirir, onlara güclü intellekt, şəxsi azadlıq, mənəvi harmoniya, bəzən isə daxili dramatiklik bəxş edirdi.

XVII əsrə, XVIII əsrin birinci yarısına aid portretlər sifarişçinin obrazının qəsdən ideallaşdırılması, mifolojiləşdirilməsi ilə xarakterizə olunur. XVIII əsr portretləri yeni realistik tendensiyalarla seçilməyə başladı. XIX əsrin birinci yarısında isə portret sənətində romantizm ənənələri ilə yanaşı, satirik portret nümunələri meydana çıxdı. XIX əsrin II yarısında milli portret məktəblərində coğrafiyası genişlənmiş çoxlu üslubi istiqamətlər yaranır. XX əsr portret janrında yeni dövrün incəsənətində mürəkkəb və ziddiyyətli tendensiyalar formalaşır.

Portret Azərbaycan rəngkarlığında da həmişə əsas yerlərdən birini tutmuşdur. Rəngkarlığın peşəkar məktəbi yarandığı vaxtdan portret Azərbaycan rəssamlarının yaradıcılığında nəzər-diqqəti cəlb edir. Azərbaycan rəngkarlığında uzun illər ərzində portretlər əsasən yaradıcı ziyalılarla yanaşı, fəhlələrə, kolxozçulara, əmək qabaqcıllarına da həsr olunmuşdur. 1930-1950-ci illərdə Azərbaycan rəssamlarının yaradıcılığında yazıçıların, musiqiçilərin portretləri çoxluq təşkil edirdi. Xüsusən də orta əsrlər Azərbaycan klassik poeziyasının nümayəndələri olan Nizami, Vaqif, Füzuli, Nəsimi, siyasətdə və elmdə məşhur olan Şah İsmayıl Xətai və Nəsrəddin Tusinin bərpa olunmuş portretlərini göstərmək olar. Bunların yaranması rəssamların öz mədəniyyət tarixinə münasibətindən, həmçinin müsabiqələrin və yubileylərin keçirilməsi ilə əlaqədar olurdu. Bu cür müsabiqələrin əhəmiyyəti həqiqətən böyükdür, biz bu zaman məşhur Azərbaycan şairlərinin, mədəniyyət və elm xadimlərinin obrazları ilə tanış oluruq. Belə müsabiqələrin hazırlıq prosesində rəssamlar dərin elmi tədqiqat işi aparır, həqiqəti olduğu kimi yaratmağa çalışırdılar [2, s. 144].

1960-cı illərdən başlayaraq Azərbaycan rəngkarlığında portret konsepsiyası dəyişir: məşhur mədəniyyət xadimlərinin obrazı ümumiləşdirilmiş formada görünür. Rəssamlar bu və ya digər şəxsiyyətin müəyyən xüsusiyyətlərini qabartmağı üstün tuturdular. Təbii ki, bu tendensiya o dövrdə sovet incəsənətində baş verən ümumi dəyişiklərlə əlaqədar idi. Beləliklə, XX əsrdə görkəmli Azərbaycan rəssamlarından Mikayıl Abdullayevin, Salam Salamzadənin, Tağı Tağıyevin, Güllü Mustafayevanın, Nəcəfqulu İsmayılovun, Toğrul Nərimanbəyovun və başqalarının yaradıcılığında portret janrı mühüm yer tuturdu ki, onların arasında da Azərbaycan ədiblərinin portretlərini xüsusilə vurğulamaq olar. Bu portretlərin bir qismi muzey fondlarında qorunub saxlanılmaqdadır ki, AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi də onların sırasına daxildir.

AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində ədiblərin portretlərinin bərpa tarixi, yarandığı gündən Azərbaycanın görkəmli şair, yazıçı və dramaturqlarının portretlərindən və onların əsərlərinə çəkilmiş süjetli rəngkarlıq əsərlərindən ibarət zəngin kolleksiya formalaşmışdır. Azərbaycan ədiblərinin portretlərinin bərpa tarixi bu rəngkarlıq əsərlərinin kolleksiyasının formalaşması ilə sıx bağlıdır. Özünün bərpa emalatxanası olmadığı üçün muzey keçən əsrdə 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində bir neçə rəngkarlıq əsərlərinin zəruri bərpa və konservasiya əməliyyatlarını həyata keçirməsi üçün o dövrdə bu işi həyata keçirən yeganə ixtisaslı mərkəz olan Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinə müraciət edir. İncəsənət əsərlərinin zaman və təbii təsirlərdən, habelə insanların müdaxilələri nəticəsində yaşlanması qaçılmaz prosesdir.

Elə 1985-ci ildə vaxtilə Azərbaycan N.Gəncəvi adına Ədəbiyyat Muzeyi adlanan müəssisənin rəhbərliyinin müraciəti əsasında bərpa mərkəzinə gətirilən rəngkarlıq əsərlərinin – "Həsən bəy Zərdabi "Əkinçi"nin mətbəəsində" (müəllif N.İsmayılov), "Mirzə Ələkbər Sabir Nur kitabxanasında" tablolarının və "Rəsul Rza"nın (müəllif Toğrul Nərimanbəyov), "Məmməd Arif"in (müəllif B.Mirzəzadə), "Mikayıl Müşfiq"in (müəllif O.Sadıqzadə), "Nəcəf bəy Vəzirov"un (müəllif B.Mirzəzadə). " M F.Axundov"un (müəllif M.Abdullayev) portretlərində ilkin vizual müayinə zamanı onların rəng qatında müşahidə olunan qabarma, qovuqlama və itkilərin də səbəbi kimi zamanla baş verən təbii qocalma ilə yanaşı temperatur və nisbi rütubətin mövsüm dəyişikləri zamanı baş vermişdir [3].

Vaxtilə valideynləri, repressiyaya məruz qalmış Oqtay Sadıqzadənin xəyalları, mənəvi dünyası nakam şairimiz, repressiya qurbanı olmuş Mikayıl Müşfiq haqqında bütün düşüncələrini bu kətana köçürərək onun portretini yaratmışdır. Əsərdə Müşfiq əlində qələm, fikrə getmiş, nəzərləri uzaqlara tikilmiş halda təsvir olunmuşdur. Əsərə baxarkən tamaşaçıda belə hiss yaranır ki, tablonun kətanının arxa üzündə muzey əməkdaşları tərəfindən qara rəngdə əsərin adı "Yenə o bağ olaydı" ... qeyd olunmuşdur. Bütün bərpa proseslərini müvəffəqiyyətlə keçdikdən sonra əsər digər tablolarla birlikdə muzeyə qaytarılaraq fondda öz yerini tutmuşdur. Əsərlərin bir çoxu 1940-ci illərdə muzeyin sifarişi ilə ərsəyə gəlmişdi. Bu barədə 1992-ci ildə nəşr edilmiş "Azərbaycan incəsənəti kitabında yazılır: "Azərbaycan rəssamlığının inkişafında Nizami Gəncəvinin anadan olmasının 800 illiyi ilə əlaqədar tədbirlərin əhəmiyyətini bir daha qeyd etməliyik. N.Gəncəvi. adını daşıyan ədəbiyyat muzeyinin ekspozisiyası üçün rəssamlar bir sıra tematik şəkillər, portretlər, rəsmlər yaratmışlar [1, s. 257].

Həmin illərdə muzeyə daxil olan tematik tablolardan biri olan "Nizami və yaşlı aşıq" əsəri 1996-cı ildə bərpa üçün elmi bərpa mərkəzinə gətirilmiş vizual, müayinədən sonra üzərində təmizləmə, rəng qatının bərkidilməsi, bərpa zəminin vurulması, qoruyucu lakla örtülmə

və tökülmüş rəng qatının tonlaşdırılması kimi bərpa prosesləri həyata keçirilmiş və sonra əsər muzeyə qaytarılmışdır.

Nəticədə muzeyin ekspozisiyasında bu əsərlər tamaşaçılara qüsursuz, tam şəkildə təqdim olunur. Beləliklə, yarandığı ildən AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi həm də Azərbaycanda rəngkarlıq sənətinin, xüsusən də portret janrının müəyyən inkişaf mərhələlərini özündə əks etdirən rəsm əsərlərinin də zəngin xəzinəsinə çevrilmişdir.

ƏDƏBİYYAT

1. Kərimov K., Əfəndiyev R., Rzayev N., Həbibov H. Azərbaycan incəsənəti. Bakı: İşıq, 1992, 344 s.
2. Kərimova R. Azərbaycan sovet portret boyakarlığı: Azərbaycan sovet rəssamlığında portret janrının inkişafı (1946-1960-cı illər). Bakı: Azərbaycan EA nəşriyyatı, 1964, 178 s.
3. MSXƏEBM-in elmi arxivi: J-112 inventar nömrəli əşyanın elmi bərpa pasportu. Bakı, 1985.
4. MSXƏEBM-in elmi arxivi, elmi bərpa pasportları. Bakı, 1987.
5. MSXƏEBM-in elmi arxivi, elmi bərpa pasportları. Bakı, 1990.
6. MSXƏEBM-in elmi arxivi, elmi bərpa pasportları. Bakı, 1993.

AMEA Naxçıvan Bölməsi
E-mail: ***fatma_sahbazova@hotmail.com***

Fatma Mammadova

HISTORY OF RECONSTRUCTION OF PORTRAITS OF AZERBAIJANI WRITERS IN THE NATIONAL MUSEUM OF AZERBAIJANI LITERATURE NAMED AFTER NIZAMI GANJAVI

This year the National Museum of Azerbaijan literature named after Nizami Ganjavi celebrates its 82nd anniversary. In 82 years has grown beyond the local borders to become a well-known museum with its collection in the world. There are many portraits of Azerbaijani litterateurs among the museum objects. Paintings, as they age, become damaged due to the natural degradation of the constituent materials or by physical forces applied (accidental and intentional) to the artwork. Influences from the environment constantly threaten the condition of museum objects. These harmful environmental conditions can be summarized as extreme fluctuations of temperature and relative humidity, exposure to high levels of daylight, artificial light, ultraviolet and infrared radiation, the presence of mold, and museum pests such as insects and rodents; fire, burglary, and vandalism. In studying paintings, museum curators are often confronted with restoration history, reconstruction, and technical examination issues. This article deals with the increasing importance of the interaction with painting restorers in resolving the portrait's genre's questions. The subject is being illustrated by paintings of famous artists of Azerbaijan from 1940-60 at the National Museum of Azerbaijan literature named after Nizami Ganjavi.

Keywords: *portrait, painter, museum, restoration, conservation.*

Фатма Мамедова

ИСТОРИЯ РЕКОНСТРУКЦИИ ПОРТРЕТОВ АЗЕРБАЙДЖАНСКИХ ПИСАТЕЛЕЙ В НАЦИОНАЛЬНОМ МУЗЕЕ АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЫ ИМЕНИ НИЗАМИ ГЯНДЖЕВИ

В этом году Национальный Музей Литературы Азербайджана имени Низами Гянджеви отмечает 82-летний юбилей. За 82 лет музей вышел за пределы местных границ и стал всемирно известным музеем со своей коллекцией. Среди музейных предметов много портретов азербайджанских литераторов. Картины, поскольку они стареют, получают повреждения в результате естественной деградации составляющих материалов или от физических сил, случайно или преднамеренно приложенных к произведению искусства. Состоянию музейных экспонатов постоянно угрожает влияние окружающей среды. Эти негативные экологические факторы можно резюмировать следующим образом: резкие колебания температуры и относительной влажности, интенсивное воздействие дневного и искусственного света, ультрафиолетового и инфракрасного излучения, наличие плесени и музейных вредителей, таких как насекомые и грызуны; пожар, кражи и вандализм. При изучении картин кураторы музеев часто сталкиваются с вопросами, касающимися истории реставрации, реконструкции и технической экспертизы. В данной статье рассматривается возрастающая важность взаимодействия реставраторов с живописью при решении вопросов, связанных с историей портретного жанра. Тема иллюстрируется картинами известных художников Азербайджана, написанных в 1940-60-х годах и выставленных в Национальном Музее Азербайджанской Литературы имени Низами Гянджеви.

Ключевые слова: *портрет, художник, музей, восстановление, охрана.*

(Sənətşünaslıq üzrə elmlər doktoru, professor Sevil Sadıxova tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 14.06.2021
Son variant 26.07.2021

UOT 76

XANIM MƏMMƏDOVA, MƏMMƏD RƏCƏBOV

QRAFİK TƏSVİRİN İNKİŞAF YOLU

Məqalədə qayaüstü təsvirlərdən bu günlərdə beynəlxalq dilə çevrilmiş qrafik təsvirin-çertyojun inkişaf yolundan bəhs olunur. Elmi-texniki və mədəni tərəqqinin inkişafı şəraitində ümumi qrafiki savadlılığa tələbat mühüm əhəmiyyət kəsb edir. Müasir texniki vasitələrin yaradılması və istifadə olunması fəza təsəvvürləri səviyyəsinə ümumi qrafiki savadlılığa tələbatın artdığını göstərir. Qrafiki fəaliyyət təbiət və texnikanı duymağa və səmərəli dərk etməyə imkan yaradır.

Qədim zamanlardan bu günə qədər qrafik təsvir uzun bir yol keçmiş və bu gün kompüter texnikası, texnologiyanın sürətli inkişafı ilə, əl ilə yaradılan layihələr (çertyojlardan) böyük imkanlara malik olan avtomatlaşdırılmış layihə sisteminə keçməsinə şərait yaradılmışdır.

Məqalədə orta əsrlərdə Şərqdə elmin inkişafı ilə islam memarlıq və inşaatında qrafik təsvirlərdən geniş istifadə edilməsi, həndəsi qanunlardan, çevrənin bərabər hissələrə bölünməsi nəticəsində yaranan çoxbucaqlılar sistemindən, düzgün həndəsi quruluşa malik olan abidələrin yaradılmasında həndəsi mütənasiblikdən istifadə olunması göstərilmişdir.

XVIII əsrin axırlarında görkəmli həndəsə bilicisi və mühəndisi, dövlət xadimi Qaspar Monj (1746-1818) özündən əvvəlki proyeksiyalama metodlarını tədqiq edərək onları sistemə salıb "Tərsimi həndəsə" ("Geometrie descriptive") adını daşıyan klassik əsərini yaratmışdır.

Q.Monj yazırdı "Rəsmxət texnikanın dilidir" hazırda isə bu sahədə İSO standartlarının tətbiqi qrafik təsviri beynəlxalq dil səviyyəsinə yüksəltmişdir.

Açar sözlər: *qrafik təsvir, çertyoj, tərsimi həndəsə, rəsmxət, kompüter, tənasüb, harmoniya, memarlıq.*

Giriş. Elmi-texniki və mədəni tərəqqinin sürətli inkişafı şəraitində insan fəaliyyətinin bütün sahələrində əməyin xarakteri dəyişir. İşçilərin biliyinə, texniki mədəniyyətinə, politexniki təhsilinə daha böyük tələblər irəli sürülür.

Müasir texniki vasitələrin yaradılması və istifadə olunması fəza təsəvvürləri səviyyəsinə, ümumi qrafiki savadlılığa tələbatın artdığını göstərir. Qrafiki fəaliyyət təbiəti və texnikanı duymağa və səmərəli dərk etməyə imkan yaradır, predmetləri və əmək vasitələrini dərindən başa düşməyə, müşahidə vasitələri ilə mümkün olmayan prosesin və hadisənin dərk olunmasına kömək edir.

İnsanlarda qrafiki təsvirə ehtiyac onların şüurlu fəaliyyətinin ilk dövrlərindən meydana gəlmişdir. Onlar əvvəl özlərini əhatə edən aləmin, əmək alətlərinin, yaşayış və ibadət yerlərinin yaradılması ilə əlaqədar şüurlu sürətdə qrafiki təsvir etməyə çalışmışlar. Bunu ilk insanlar tərəfindən çəkilmiş mağara və qayaüstü rəsmləri (Qobustan və Gəmiqaya qayaüstü rəsmləri, Nügədi və Kəlbəcər daş kitabələri və s.) əyani sübut edir. Tədricən qrafiki təsvirlərin xarakterində ciddi dəyişəkliklər baş vermiş və onlar əşyaların forma və ölçülərini dəqiqliklə özündə əks etdirən qrafiki təsvirə – çertyojlara çevrilmişdir.

Qrafiki işlərin metodları haqqında ilkin məlumatlar. Anaksaqonun (b.e.ə 500-428 il əvvəl), Demokritin (b.e.ə. 525-456 il əvvəl) adları ilə bağlıdır.

Bu sahədə ilk nəzəri və praktiki qaydaları özündə əks etdirən elmlərə eramızdan əvvəl V-III əsrlərdə Hippokratın, Pifaqorun, Platonun, Demokritin, sonları isə Evklidin, Arximedin və başqalarının əsərlərində rast gəlinir. Qrafiki təsvirin inkişafına Evklidin "Optika" əsəri daha əsəri daha böyük təkan vermişdir.

Orta əsrlərdə Şərqdə elmin inkişafı İslam memarlıq və incəsənətində geniş inkişaf et-

mişdir. Ömər Xəyyam (1048-1131) astronom, filosof və şair olmaqla bərabər hesab, cəbr və həndəsəyə aid bir çox tədqiqatlar aparmış, bir kitabında Evklidin işlərinə baxmış, "kor, iti və düz bucaq hipotezi"nə aid qrafiklər qurmuşdur, hansı ki, indi onlardan qeyri-evklid həndəsəsində istifadə edilir [4, s. 94-95].

Misirdə Həsən İbn əl Heysəm (Alxazena (965-1039) görkəmli müsəlman fiziki, "Optika" sahəsində qərbdə tanınan alim "Alxazena" məsələsini həll etmişdir, hansı ki, dairə sahəsindəki iki nöqtədən elə düz xətt keçirmək tələb olunurdu ki, onlar çevrə üzərində normalla bərabər bucaq altında görüşsünlər. Bu məsələnin həlli dörd dərəcəli tənliklə, hiperbola və çevrənin kəsişməsi ilə həll edilmişdir [4, s. 94-95].

Orta əsrlərdə İslam mədəniyyətinin bir qolu kimi islam memarlığı və inşaat elmi yarandı və inkişaf etməyə başladı. Əl-Fərabinin "Əlverişli həndəsi əməliyyatlar" əsəri memarlıq nümunələrinin həndəsi əsasını təşkil etmişdir ki, memar Əcəmi də bundan bəhrələnmişdir.

Əcəminin fəaliyyət dövrü bütün Şərq ölkələrində, o cümlədən Azərbaycanda riyaziyyat elmləri, həndəsənin yüksək inkişaf dövrü idi.

XII əsrin böyük Azərbaycan alim-astronomu Nəsrəddin Tusinin (1201-1274) riyazi əsərləri, onun yaratdığı Marağa rəsədxanası, ölkədə riyaziyyat elminin inkişaf zəminində yetişmişdi.

Nəsrəddin Tusi Ömər Xəyyamın ənənələrini davam etdirib Evklidin paralellik aksiomunu isbat etməyə cəhd etmiş, mütənasiblik nəzəriyyəsini inkişaf etdirmiş, dünya elm tarixində ilk dəfə triqonometriyaya müstəqil elm sahəsi kimi yanaşmışdır [8, s. 95-96].

Onun həndəsəyə dair 1248-ci ildə yazdığı "Təhriri əqlids" kitabı qeyri-evklid həndəsəsinin yaranmasında mühüm əhəmiyyət kəsb etmiş, yalnız Şərqdə deyil, həmçinin Avropada həndəsə və triqonometriyanın inkişafında mühüm rolu olmuşdur [9, s. 127-130].

Bina, qurğu və abidələri memar layihələndirir, bənna hazırlayır, bu bir elm kimi həndəsə ilə (qrafik təsvirlə) bağlıdır. Həndəsi tənasüblülük təzahür edən bir keyfiyyət xassəsinə malikdir ki, onun sayəsində müəyyən bir bina bənzərsiz vəhdət və ahəngdarlıq qazanır.

Çevrənin bərabər hissələrə bölünməsi nəticəsində yaranan düzgün çoxbucaqlılar sistemi Əcəmi memarlıq formalarının (kvadrat, düzgün altıbucaqlı, düzgün beşbucaqlı, ilahi mütənasiblik, qızıl bölgü) həndəsi əsasıdır və memarlıqda həndəsi mütənasiblik növləri ortaya çıxır. Odur ki, orta əsr müsəlman Şərq fəlsəfəsində düzgün həndəsi quruluşa malik olan abidələrin yaranmasında həndəsi mütənasiblik prinsipi yeni formada təzahür edir.



Şəkil 1. 1. Həndəsi qurmalar (G.Qənbərova). 2. Mömینə Xatun türbəsinin səthlərindən birində qurulmuş həndəsi naxış (Q.Əliyev).

Əcəmi memarlıq məktəbi dəqiq-riyazi hesablama metodlarına və həndəsi qurmalara (qrafiklərə) əsaslanırdı. Əcəmi dərin riyazi biliyi sayəsində abidələrin mütənasibliyi, tağ, günbəz və bəzəklərin mürəkkəb strukturu problemlərini zərgər dəqiqliyi ilə həll edirdi [7, s. 6].

Memarlıqda küfi kitabələri memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən yeni yüksək səviyyəyə qaldırılıb. Küfi kitabələrinin bolluğu mürəkkəbliyi, həndəsi ornamentlərlə qaynayıb-qarışması baxımından Yusif Küseyir oğlu türbəsi və Möminə Xatun türbəsinin Ön Asiya memarlığında tayı, bərabəri yoxdur. Bu abidədə mühüm qovşaqlardan başqa türbə gövdəsinin künc dayaqlarının səthləri də kitabələrlə örtülmüşdür [7, s. 6].



Foto 1. Yüsif Küseyir oğlu türbəsi. Türbə səthlərindən birində yazılmış Küfi xətti və həndəsi naxış.

"Çertyoj" sözü rus dilində ən gəci XVI ərdən başlayaraq müasir mənaya yaxın, yəni hər hansı cismi kağız üzərində təsvir etmək, nəyin isə planı mənasında işlənmişdir.

Çertyojlar bizi əhatə edən real aləmin cisimlərini öyrənmək vasitələrdən biridir. Qrafik təsvirlərin müasir görünüş alması üçün yüzilliklər keçmişdir.

Bu istiqamətdə ən sürətli inkişaf isə intibah dövrünə (1400-1700-cü illər) təsadüf edir, və bunlara Leonardo da Vinçinin (1452-1519), Jerar Dezarqin (1593-1662) əsərlərində rast gəlinir [7, s. 143].

XVIII əsrin axırlarında görkəmli həndəsə bilicisi və mühəndisi, sonralar isə dövlət xadimi Qaspar Monj (1746-1818) özündən əvvəlki proyeksiyalama metodlarını tədqiq edərək, onları bir sistemə salıb Tərsimi həndəsə ("Geometrie descriptive") adını daşıyan klassik əsərini yazmış və onu 1799-cu ildə Parisdə nəşr etdirmişdir. Burada ilk dəfə fiqurların müstəvi üzərində təsvirinin nəzəri və praktik yerinə yetirilməsi qaydası verilmişdir. O vaxtdan tərsimi həndəsə mühəndis kadrların hazırlanmasında çox geniş öyrənilməyə başlanmışdır.

Qaspar Monj yazırdı "Rəsmxət texnikasının dilidir", hazırda isə bu sahədə İSO standartlarının tətbiqi qrafik təsviri beynəlxalq dil səviyyəsinə yüksəltmişdir. Belə ki, texniki biliyə malik olan hər bir şəxs ana dilindən asılı olmayaraq, öz fikrini çertyojda daha yaxşı ifadə edə bilir, çünki çertyoj əşyanın sözlə təsəvvüründən daha mükəmməl və daha dəqiqdir.

Rusiyada "Tərsimi həndəsə" fənnini bu sahədə ilk rus professoru Y.A.Sevostyanov

(1796-1849) fransız dilindən rus dilinə tərcümə etmiş və 1821-ci ildə "Tərsimi həndəsənin əsasları" adlı kitabını nəşr etdirmişdir. "Tərsimi həndəsə" fənni Rusiyada ilk dəfə əsası 1809-cu ildə qoyulmuş Sankt-Peterburq Dəmiryol mühəndisləri İnstitutunda tədris edilmişdir. 1830-cu ildən başlayaraq Rusiyanın bütün ali-texniki məktəblərində əsas fənn kimi tədris edilməyə başlanmışdır.

Tərsimi həndəsə, ümumi həndəsənin (riyaziyyatının) bir bölməsi olmaqla fəza təsəvvürünü inkişaf etdirmək üçün ən vacib və zəruri vasitədir.

Foto 2. Möminə xatun türbəsi. Türbə səthini bəzəyən həndəsi naxışlardan biri.

İnsan təfəkkürünün ən ali ixtirası sayılan çertyojun tərtibinin nəzəri əsasını təşkil edir. Çertyoj özünə məxsus dil olmaqla, nöqtə, düz xətt və məhdud miqdarda həndəsi simvol, hərf və rəqəmlərdən istifadə edərək səth üzərində, xüsusi halda müstəvi üzərində, həndəsi fiqurları və ya onların uzlaşmalarını (maşın, cihaz, mühəndis qurğuları və s.) təsvir edir. Bu beynəlxalq dil, danışıq dilindən asılı olmayaraq müsiqi və rəsm kimi hər bir texniki savadlı insana aydındır.

Müasir dövrdə insan fəaliyyətinin elə bir sahəsi tapılmaz ki, orada az və ya çox dərəcədə çertyojdan istifadə olunmasın.

Hər bir mühəndis, texnik və fəhlələr bir-birindən çox uzaq məsafələrlə yerləşən sənayənin müxtəlif sahələrində tərtib edilmiş çertyojları oxumağı bacarması üçün çertyojların tərtibi vahid bir qaydada olmalıdır. Bu məqsədlə konstruksiya sənədlərinin yerinə yetirilməsi üçün standartlar yaradılmışdır. Konstruksiya sənədlərinin standartlaşmasının (KSS) təşkili ilk dəfə 1917-ci ildə Almaniyada, 1918-ci ildə ABŞ-da və Fransada, 1919-cu ildə Yaponiyada, 1925-ci ildə SSRİ-də həyata keçirilmişdir.

Standartlaşmaya ciddi əməl etməklə yüksək keyfiyyətli avadanlıqların hazırlanma vaxtını azaltmaq və maya dəyərini aşağı salmaq mümkündür.

Hal-hazırda Azərbaycan Respublikasında çertyoj-qrafiki işlərin tərtibində Sovetlər sistemində işlənmiş və bütün Müstəqil Dövlətlər Birliyi tərəfindən qəbul edilmiş qaydalardan istifadə edilir [1, s. 10-16].

Tərsimi həndəsə metodları bəzi riyazi məsələlərin qrafik üsulla həll olunmasına imkan verməklə fizikada, kimyada, mexanikada, kristalloqrafiyada və bir çox digər elmlərdə geniş tətbiq tapır.

Son zamanlar kompüter texnikası və texnologiyanın sürətli inkişafı ənənəvi üsulla çox vaxt və əmək sərf edilən əl ilə yaradılan layihələrdən böyük imkanlara malik olan avtomatlaşdırılmış layihə sisteminə (ALS) keçirilməsinə şərait yaradılmışdır. Bu üsulla yaradılan layihələr Dövlət standartları tərəfindən konstruksiya sistemlərinin vahid sisteminə (KSVS) və beynəlxalq standart təşkilatının (İSO) qoyduğu tələblərə tam cavab verir.

Qrafik sənədlərin yerinə yetirilməsi üçün kompüter tətbiqi, proqramlar paketi (TPP) yüklənir. Bu proqramların funksional təyinatlarına görə ALS-ni 3 sinfə ayırmaq olur.

Bu siniflərdən CAD (Computer Aided Design) EHM-in (kompüterin) köməyi ilə layihələndirmə, konstruktor sənədlərinin hazırlanması üçün qəbul edilmiş proqram sistemidir.

AutoCAD sistemi bu sinfə aiddir. AutoCAD sisteminin rolu ingilis sözündən ibarət "Automated Computer Aided Drafting and Design" cümləsindəki sözlərin baş hərflərinin birləşməsindən əmələ gəlmiş və mənası "Avtomatlaşdırılmış rəsmxət və EHM-nin köməyi ilə layihələndirmə" deməkdir. İlk dəfə bu proqram MicroCAD adı ilə 1982-ci ildə tətbiq olunmuş və sonralar sürətlə inkişaf etməyə başlamışdır [3, s. 146-147].

Nəticə. İnsanlarda qrafik təsvirə ehtiyac onların şüurlu fəaliyyətinin ilk dövrlərindən yaranmışdır.

İlk insanlar əmək alətlərinin və ibadət yerlərinin yaradılması ilə əlaqədar şüurlu sürətdə qrafik təsvirlər etməyə çalışmışlar.

Qrafik təsvirə aid ilk nəzəri və praktiki qaydalara bizim eradan əvvəl V-III əsrlərdə Hipokratın, Pifaqorun, Platonun, Demokritin sonralar isə Evklidin və Arximedin əsərlərində rast gəlinir.

Orta əsrlərdə Şərqdə elmin inkişafı İslam memarlıq və incəsənətinin inkişafına da öz təsirini göstərmişdir. Çevrənin bərabər hissələrə bölünməsi nəticəsində yaranan düzbucaqlılar sistemi memar Əcəmi formasının əsasını təşkil etmiş və memarlıqda həndəsi mütənasiblik və harmoniyanı ortaya çıxarmışdır. Əcəmi memarlıq məktəbi ondan sonrakı memarlıq və inşaata böyük təsir göstərmişdir.

XVIII əsrin axırlarında fransız alimi Qaspar Monj proyeksiyalama metodlarını araşdırmaq, onları sistemə salaraq 1799-cu ildə Parisdə Tərsimi həndəsə adlı kitabını nəşr etdirmişdir.

1830-cu ildən başlayaraq Tərsimi həndəsə fənni Rusiyanın bütün texniki Ali məktəblərində əsas fənn kimi tədris edilmişdir.

Konstruksiya Sənədlərinin Standartlaşması (KSS) nəticəsində çertyoj-qrafik işlərin tərtibi beynəlxalq dil səviyyəsinə yüksəltmişdir.

Kompüter texnikası və texnologiyanın sürətli inkişafı layihələrin böyük imkanlara malik olan avtomatlaşdırılmış layihə sisteminə (ALS) keçirilməsinə şərait yaratmışdır.

ƏDƏBİYYAT

1. Abbasov A.X., Abbasov E.A., Hüseynova E.N. İslam memarlığı və inşaat. Bakı: Qərb universiteti, Poliqrafiya mərkəzi, 2010, 84 s.
2. Əliyev Q. Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq. Bakı: Şərq-Qərb, 1997, 158 s.
3. Həbibov Y.Ə., İsmayılov C.X., Məlikov R.X., Hüseynova V.S. Mühəndis geoloji qrafika. Bakı: ADNA-nın mətbəəsi, 2018, 160 s.
4. Həbibov Y.Ə., Məlikov R.X. Mühəndis qrafikası. Bakı: ADNA-nın mətbəəsi, 2011, 170 s.

5. Qafarov A.M., Muradov A.Ə. Qarşılıqlı əvəzolunma, standartlaşmasında və texniki ölçmələr. Bakı: AzTU-nun mətbəəsi, 1991, 120 s.
6. Qənbərova G. Azərbaycan memarlıq və xalçaçılığında ornament motivlərinin ümumi prinsipləri (XI-XVIII əsrlər). Dissertasiya işi, 2009.
7. Nuriyev M., Kazımov Ş., Hacıyeva B. Böyük Azərbaycan astronomu Şərqin böyük dahisi Nəsrəddin Tusi / 20-21 noyabr 2015-ci ildə keçirilən beynəlxalq konfransın materialları. Naxçıvan: Qeyrət, 2015, 130 s.
8. Гордон В.О. Семенцов-Очиевский. Курс начертательной геометрии. Москва: Наука, 1988, 272 с.
9. Справочное руководство по черчению. Москва: Машиностроение, 1989, 684 с.
10. Стройк Д.Я. Краткий очерк истории математики. Москва: Наука, 1969, 327 с.

Naxçıvan Dövlət Universiteti
E-mail: ***memmedovaxanim290@gmail.com***

Khanım Mammadova, Mammad Rajabov

THE DEVELOPMENT PATH OF THE GRAPHIC IMAGE

The paper discusses the development of graphic design - drawing, which has become an international language these days. In the context of scientific, technical, and cultural development, the need for general graphic literacy is essential.

The creation and use of modern technical means show the growing demand for general graphic literacy at the level of phase perceptions. The graphic activity allows us to feel and effectively understand nature and technology.

From ancient times to the present day, graphic representation has come a long way, and today, with the rapid development of computer technology, conditions have been created to transition from automated design systems to large-scale automated design systems.

The article shows the widespread use of graphic representations in Islamic architecture and construction in the Middle Ages with the development of science in the East, the use of handicraft laws, the system of polygons formed as a result of the division of the circle into equal parts, geometric proportions in the creation of monuments.

At the end of the 18th century, an outstanding geometric scientist and engineer, statesman Gaspard Monge (1746-1818) studied his forecasting methods, systematized them, and created a classic “Descriptive geometry” work. G.Monge wrote, “Drawing is the language of technology,” and now applying standards in this field has raised the graphic description to the level of international language.

Keywords: *graphics, drawing, descriptive geometry, computers proportions, harmony, architecture.*

Ханум Мамедова, Мамед Раджабов

ПУТЬ РАЗВИТИЯ ГРАФИЧЕСКОГО ИЗОБРАЖЕНИЯ

В статье рассматривается разработка графического изображения – чертежа, который в наши дни стал международным языком. В контексте развития науки, техники и

культуры важна потребность в общей графической грамотности. Создание и использование современных технических средств свидетельствует о растущей потребности в общей графической грамотности на уровне базового восприятия. Графические упражнения позволяют прочувствовать и эффективно понять природу и технологии. С древних времен до наших дней графическое изображение прошло долгий путь, и сегодня, с быстрым развитием компьютерных технологий, технологии создали условия для перехода к автоматизированной системе проектирования с большими возможностями. В статье показано использование графических изображений в исламской архитектуре и строительстве, использование геометрических законов, система многоугольников, образованных в результате разделения круга на равные части, использование геометрических пропорций при создании памятников с правосторонней структурой. В конце XVIII века выдающийся геометр и инженер, государственный деятель Гаспар Монж (1746-1818) изучил методы своих более ранних прогнозов, систематизировал их и создал классический труд под названием «Начертательная геометрия». Г.Монж написал: «Рисование – это язык технологий», и теперь применение стандартов в этой области подняло графическое описание на уровень международного языка.

Ключевые слова: *графика, рисунок, начертательная геометрия, компьютерные пропорции, гармония, архитектура.*

(AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 30.08.2021
Son variant 09.09.2021

UOT 784; 78

İLHAM NƏZƏROV

MÜSLİM MAQOMAYEV VƏ ƏLİ HAQVERDİYEVİN TƏFSİRİNDƏ ASLAN ŞAHIN ARİYASININ MÜQAYİSƏLİ TƏHLİLİ

Təqdim edilən məqalədə SSRİ Xalq artisti Müslim Maqomayev və Azərbaycan Respublikasının Əməkdar artisti Əli Haqverdiyevin ifasında səslənən M.Maqomayevin "Şah İsmayıl" operasından Aslan şahın ariyasının vokal ifaçılıq xüsusiyyətlərinə nəzər salınmışdır. Aslan şah Azərbaycan bəstəkarlarının bariton üçün yazdığı ən məşhur partiyalardan biridir. Hər iki sənətkar Aslan şah obrazına müraciət edərək özünəməxsusluqla səsləndirmiş və öz fərqli münasibətlərini bildirməyə müvəffəq olmuşlar. Fərqlilik özünü yaradılan obraz, musiqi mətni, eləcə də istifadə olunan vokal ifaçılıq texnikasında göstərir.

Açar sözlər: *Əli Haqverdiyev, Müslim Maqomayev, Aslan şah, "Şah İsmayıl" operası, bariton, vokal ifaçılıq texnikası, interpretasiya.*

Azərbaycan vokal ifaçılıq sənətinin inkişaf tarixində bariton səs tembrinə malik müğənnilər xüsusi yerə malikdirlər. Bariton səs tembrinə malik ifaçılardan Azərbaycan və SSRİ Xalq artistləri Ağababa Bünyadzadə, Mürsəl Bədirov, Əli Haqverdiyev, Müslim Maqomayev və digərlərini qeyd etmək mümkündür. Bəstəkarlarımızın opera yaradıcılığında da bariton səs tembri üçün nəzərdə tutulan partiyalar mühüm yer tutur. Nofəl, Həsən xan, Aslan şah, Mərdan, Şapur, Yad adam və digər partiyalar milli akademik vokal ifaçılıq sənətimizdə bariton səs tembrinin repertuarını təşkil edir. Vokal ifaçılıq sənətimizin görkəmli nümayəndələrinin hər biri həmin obrazlara müraciət edərək özünəməxsusluqla səsləndirmiş və öz möhürünü vurmağa müvəffəq olmuşlar. Xüsusilə, burada fərdi interpretasiya keyfiyyətlərindən irəli gələn məqamlar həmin obrazların yeni çalarlarla zənginləşməsinə gətirib çıxartmışdır. Bu özünü obrazın fərqli xarakterdə çatdırılmasında, müxtəlif ifaçılıq üsullarında göstərir. Aparılan tədqiqatda da M.Maqomayevin "Şah İsmayıl" operasından Aslan şahın ariyasının M.Maqomayev və Ə.Haqverdiyevin ifasında təfsir xüsusiyyətlərinə nəzər salınmışdır.

Azərbaycan musiqi mədəniyyəti tarixində M.Maqomayevin "Şah İsmayıl" operası mühüm əhəmiyyətə malikdir. Bu operada həm xalq musiqisi ifaçılığına, həm də klassik akademik vokal ifaçılığına yer verilməsi onun əhəmiyyətini artıran məqamlardan biridir. "Şah İsmayıl" operası bəstəkar Müslim Maqomayevin ilk operasıdır. Operanın libretto müəllifi Mirzə Qədir İsmayılzadə Vüsaqi olmuşdur. Bəstəkar operanı dəfələrlə işləmiş və beş dəfə redaktə etmişdir. Opera klassik və muğam ifaçılığına əsaslanaraq bəstələnmişdir. "Şah İsmayıl" operasını S.Qasımova "böyük tarixi-romantik tamaşa" adlandırmışdır [5, s. 27]. "Operanın librettosunun əsasını təşkil edən lirik-epik xarakterli xalq dastanı bəstəkar tərəfindən dramatik-konfliktlərlə dolğunlaşdırılmış, bununla da əsər romantik səpkili tarixi-qəhrəmanı opera cizgiləri kəsb etmişdir. Əsərin dramaturgiyasında bir neçə xətt qovuşur: taxt-tac uğrunda mübarizə, məhəbbət və qəhrəmanlıq. Bu da operanın qəhrəmanlarının qarşılıqlı münasibətləri və fərdi cizgilərinin təcəssümündə öz ifadəsini tapır" [3, s. 62]. Burada Aslan şah obrazı olduqca mürəkkəb partiyalardan biridir. Mürəkkəblik həm obrazın xarakterində, həm də partiyanın vokal ifaçılıq xüsusiyyətlərində özünü göstərir. Aslan şahın partiyası klassik ənənələr əsasında yazılmışdır. Azərbaycan musiqi tarixi kitabında isə Aslan şah partiyası bu şəkildə xarakterizə olunmuşdur: "Aslan şahın uvertüradan dərhal sonra başlanan birinci ariyası

ağır, kədərli hisslərlə doludur. Dinləyicini qəhrəmanın narahat daxili aləmi ilə tanış edən bu ariya, operanın uvertürasında da səslənir və dinləyici üçün bütövlükdə əsərin bir növ simvoluna çevrilir. Ariyanın kədərli xarakteri birinci səhnənin emosional ovqatını təcəssüm etdirir, onun mövzusu və məqamı isə bütün opera boyu obrazın açılmasında böyük rol oynayır" [2, s. 211]. Aslan şah obrazını Azərbaycan musiqi tarixində ilk dəfə M.Terequlov ifa etmişdir.

SSRİ Xalq artisti Müslim Maqomayev və Azərbaycanın Əməkdar artisti Əli Haqverdiyevin də repertuarında Aslan şahın ariyası xüsusi yerə malikdir. Hər iki müğənninin ifasını müqayisə edən zaman bəzi fərqli məqamları müəyyən etmək mümkündür. Qeyd edək ki, verilən təhlillər təqdim olunan ifalar əsasında aparılmışdır [1, 4].

Hər iki ifada başlıca fərqli xüsusiyyət özünü ilk növbədə obraza olan münasibətdə göstərir. Belə ki, SSRİ Xalq artisti, dünya şöhrətli ifaçı M.Maqomayev (1942-2008) Aslan şah obrazını lirik xüsusiyyətlərlə zənginləşdirmişdirsə, Əməkdar artist Ə.Haqverdiyev bu obraza qətiyyət, tünd çalar bəxş etmişdir. Digər bir mühüm məqam kimi Ə.Haqverdiyevin Aslan şahı Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində dəfələrlə canlandırmasını, M.Maqomayevin isə bu obrazı ariya şəklində ifa etməsini vurğulamaq istərdim. Burada əsərə olan fərqli münasibət özünü təkcə xarakterdə deyil, musiqi mətnində də göstərir. M.Maqomayev Aslan şahın birinci və sonuncu pərdədə səslənən ariyalarını birləşdirərək müstəqil şəkildə ifa etmişdir [6]. M.Maqomayev 1971-ci ildə T.Tağızadənin "Oxuyur Müslüm Maqomayev" filimdə Aslan şah partiyasından kiçik hissəni obrazlı şəkildə canlandırılmışdır.

Ə.Haqverdiyevin ifasında ariyanın tempi bir qədər tez səslənir. M.Maqomayev isə ariyanı nisbətən asta tempdə ifa etmişdir. Fərqlilik özünü həm də tonal münasibətdə göstərmişdir. Belə ki, Ə.Haqverdiyev ariyanı orijinal tonallıqda, M.Maqomayev isə yarım ton aşağı səsləndirmişdir. M.Maqomayevin səsində olan parlaqlıq obrazın xarakterinin daha yumşaq şəkildə çatdırılmasına səbəb olur. Ə.Haqverdiyevin səsinin aşağı registri daha dolğun səslənir və qarşılıqlı olaraq partiyanın qətiyyətli səslənməsinə səbəb olmuşdur.

Vokal sənətində ifaçılıq texnikasının əsas komponenti kimi saitlər mühüm əhəmiyyətə malikdir. Vokal pedaqogikasında, eləcə də metodologiyasında saitlərin də nəfəs texnikası kimi vokal ifaçılığının əsas prinsipi olması fikirləri aparıcı mövqe tutur. Saitlər səs çalarının formalaşmasında, bir səsdən digər səsə keçid edilməsində böyük rol oynayır. Ə.Haqverdiyevin ifasında "a", "u", "o", "ə" və digər saitlər qapalı şəkildə səslənir. Bəzən həmin saitlərin modifikasiyaya uğraması hallarına da rast gəlmək olar. M.Maqomayevin ifasında "a" hərfini "o", "i" hərfini "ü", "ı"-nı isə "a" hərfinə yaxın ifa etmişdir.

Ə.Haqverdiyev əsərin ifası zamanı müxtəlif texniki vasitələrdən istifadə etmişdir. Burada cümlələrin qurulması da fərqli şəkildə həyata keçirilir. Belə ki, ifaçı ariyada hər bir musiqi fikrini qısa şəklində ifa etmiş, lakin tam bir fikir yaratmağa müvəffəq olmuşdur. Müğənni bir musiqi cümləsini üç hissəyə bölərək ifa etmişdir. O, burada sərt səs yönləndirilməsindən yararlanmış və əsəri əsasən forte dinamikasında ifa etmişdir. Müğənni əsəri xanənin birinci əsas hissələrinə dayaqlanmaqla səsləndirmişdir. Ə.Haqverdiyevin təfsirini aşağıdakı not nümunəsi əsasında göstərmək olar.

Bu ifa metodunu Ə.Haqverdiyev həmin ariyanın sonuna qədər istifadə etmişdir. Burada qətiyyətlilik, ciddilik, hökmranlıq əsas xarakterik xüsusiyyət rolunda çıxış edir. M.Maqomayev isə leqatolu ifa edir və onun təfsiri lirik-romantik xüsusiyyəti olması ilə seçilir. Hər iki müğənninin qriminə diqqət yetirdikdə fərqli xüsusiyyətləri, çatdırılan əhval-ruhiyyənin müxtəlifliyini müəyyən etmək mümkündür:



Sonuncu pərdədə səslənən ariyada Ə.Haqverdiyev özünü mükəmməl vokal ifaçılıq imkanlarına malik müğənni kimi göstərmişdir. Burada müğənni səhnə hərəkətləri və ifası ilə Aslan şahın qərarsızlığını möhtəşəm şəkildə çatdırmağa nail olmuşdur. “Bir an məni güldürmədin, ey taxt-tac” sözləri ilə başlayan ariyada lirizm özünü aydın şəkildə göstərir. Müğənni burada da sözlərin mənasından irəli gələrək ariyada vurğular etmişdir. “MƏ-ni”, “sən ey tac”, “YE-nə” və s. sözlərini qeyd etmək olar. Qeyd edilən kiçik hissədən sonra gələn reçitativ hissəsində müğənninin aktyorluq keyfiyyətləri mükəmməl formada özünü göstərir. Burada onun natiqlik qabiliyyətini xüsusi olaraq qeyd etmək istərdim.

M.Maqomayev isə “Bir an məni güldürmədin” ifadəsini bir nəfəslə mp dinamikasında ifa edir. Burada o, “MƏ-ni” sözünü vurğu vasitəsilə səsləndirir. O, “Ey taxt, sən ey taxt” cümləsində birinci dəfə səslənən “taxt” sözünü daha qabarıq ifa edir , növbəti gələn “sən ey taxt” sözü isə leqatolu təfsir olunur. İfaçı “lakin yenə ruhum” cümləsində “ruhum” sözünə doğru səsinin gücünü azaldır. “Ah” sözü ilə səslənən kiçik passajda isə “c1” notuna doğru kreşendo

nüansından istifadə edir və həmin səsi dayaq notu kimi səsləndirir. Daha sonra gələn "sənə mail, sənə möhtac" isə fərqli şəkildə təfsir olunmuşdur. Belə ki, müğənni birinci dəfə "sənə mail" ifadəsini diminuendo, ikinci dəfə səslənən "möhtac" ("dis-e" səslərinə doğru) sözündə isə kreşendo ifa edir. Hər iki müğənninin ifasını aşağıdakı not mətni əsasında təqdim etmək mümkündür:



Ariyanın növbəti hissəsi isə daha böyük marağa səbəb olur. Qeyd olunduğu kimi, M.Maqomayev operada səslənən hər iki ariyanı birləşdirmişdir. Onun ifasında "Bir an məni güldürmədin" hissəsindən sonra birinci ariya səslənir. Bu zaman bu hisə kiçik koda təəssüratını bağışlayır və bir oktava yuxarıda səslənir.

Beləliklə, M.Maqomayevin "Şah İsmayıl" operasından Aslan şahın ariyası M.Maqomayev və Ə.Haqverdiyevin yaradıcılığında mühüm əhəmiyyətə malik əsərlərdən biridir. Hər iki ifaçı ariyanı özünəməxsusluqla ifa etmişdir. Burada fərqlilik özünü ifaçılıq texnikasında, yaradılan obrazda, əsərə olan münasibətdə göstərir. Ə.Haqverdiyev ariyanı opera səhnəsində canlandırmış, M.Maqomayev isə müstəqil ariya şəklində ifa etmişdir. Hər iki sənətkar ifası ilə Aslan şah obrazını yeni təfsir xüsusiyyətləri ilə zənginləşdirmişdir. Belə ki, müasir dövrdə ifaçılar əsəri müstəqil ariya şəklində M.Maqomayevin təfsirini nümunə götürərək səsləndirirlər. Ə.Haqverdiyevin yaratdığı Aslan şah obrazı opera səhnəsində ən yaxşı təfsirlərdən biridir.

ƏDƏBİYYAT

1. Gafarzade S. Ali Haqverdiyevin 75 illiyinə həsr olunmuş Musiqi Xəzinəsi verilişi. I hissə 10.07.2014: [Elektron resurs], 2014, https://www.youtube.com
2. Azərbaycan musiqi tarixi. II c. / Red. Z.Safarova, Bakı: Elm, 2017, 584 s.
3. Hüseynova N.S. Azərbaycanda opera ifaçılığı sənətinin inkişaf mərhələləri: Ali musiqi məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2014, 168 s.
4. Mansurov B. Müslüm Maqomayev. "Şah İsmayıl" operası, 1978: [Elektron resurs], 2015, https://www.youtube.com

5. Касимова С.Д. Оперное творчество композиторов советского Азербайджана. Ч. I, Баку: Азгиз, 1973, 101 с.
6. Nazarov I.I. Interpretation peculiarities of opera arias of Azerbaijani and Western European composers performed by Muslim Magomayev // Bulletin of Kyiv National University of Culture and Arts. Series in Musical Art, Kyiv, 2020, v. 3, No 2, p. 204-217. https://doi.org/10.31866/2616-7581.3.2.2020.219170

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
E-mail: ***ilhamnazarov@yahoo.com***

Ilham Nazarov

COMPARATIVE ANALYSIS OF ASLAN SHAH'S ARIA PERFORMED BY MUSLIM MAGOMAYEV AND ALI HAKHVERDIYEV

The presented paper examines the features of the vocal performance of Aslan shah's aria from the opera "Shah Ismail" performed by People's Artist of the USSR Muslim Magomayev and Honored Artist of the Republic of Azerbaijan Ali Hakhverdiyev. Aslan shah is one of the most popular parts written by Azerbaijani composers for baritone. Both artists approached the image of Aslan shah in their way and managed to express different views. The difference is manifested in the created image, the musical text, and the vocal technique used.

Keywords: *Ali Hakhverdiyev, Muslim Magomayev, Aslan shah, opera "Shah Ismayil", baritone, vocal technique, interpretation.*

Ильхам Назаров

СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ АРИИ АСЛАН ШАХА В ИСПОЛНЕНИИ МУСЛИМА МАГОМАЕВА И АЛИ ХАГВЕРДИЕВА

В представленной статье рассматриваются особенности вокального исполнения арии Аслан шаха из оперы «Шах Исмаил» в исполнении народного артиста СССР Муслима Магомаева и заслуженного артиста Азербайджанской Республики Али Хагвердиева. Аслан шах – одна из самых популярных партий, написанных азербайджанскими композиторами для баритона. Оба артиста по-своему подошли к образу Аслан шаха и сумели выразить разные взгляды. Различие проявляется в создаваемом образе, музыкальном тексте, а также в используемой вокальной технике исполнения.

Ключевые слова: *Али Хагвердиев, Муслим Магомаев, Аслан шах, опера «Шах Исмаил», баритон, вокальная техника, интерпретация.*

(Sənətşünaslıq üzrə elmlər doktoru, professor Sevil Sadıxova tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 15.07.2021
Son variant 24.08.2021

İQTİSADİYYAT

UOT 641; 364

ELTUN İBRAHİMOV

NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASININ BAŞLICA İSTİQAMƏTLƏRİ

Ərzaq təhlükəsizliyi insanların keyfiyyətli həyat şəraitinə nail olması üçün qida ehtiyaclarının qarşılanması, kifayət qədər təhlükəsiz və bol məhsullara real olaraq çatdığı zaman mümkün olur. Hər bir bölgədə ərzaq təhlükəsizliyini təmin etmək üçün mühüm faktorlar tələb olunur. Buna təbii və coğrafi amillərlə yanaşı, düzgün qurulmuş hüquqi-iqtisadi sistem, cəmiyyətin çalışqanlığı və başqa amillər təsir göstərir.

Qida təhlükəsizliyinin hərtərəfli təmin olunması təkcə insan sağlamlığı üçün faydalı deyil, həm də iqtisadiyyatda davamlı inkişafın əldə olunmasında geniş imkanlar ortaya çıxarır. Qida təhlükəsizliyini təmin etmək fəaliyyətin bütün sahələrinin bir-biri ilə davamlı əlaqəsini tələb edir. Bunun üçün, kənd təsərrüfatı, sənaye, səhiyyə və digər sosial sahələr hazırda və gələcəkdəki ehtimal olunan problemlərdən yayınmaq istiqamətində kompleks xidmətlər ortaya qoymalıdır. Hər bir regiona məxsus ərzaq təhlükəsizliyi strategiyası olmadan qlobal və regional səviyyədə iqtisadi böyüməyə əngəllər meydana çıxacaq və əlavə problemlər yaranacaqdır. Məqalədə Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində iqtisadi infrastrukturun təşkil olunmasından bəhs olunur.

Açar sözlər: *ərzaq təhlükəsizliyi, muxtar respublika, yardımlar, kənd təsərrüfatı, istehsal.*

Yoxsulluğun yüksək səviyyəsi və qidalanma ilə təminatın aşağı olduğu ölkələrdə davamlı iqtisadi inkişafa nail olmaq yolunda zəruri olan insan kapitalının əldə olunmasında məhdudiyyətlər meydana çıxır. Yüksək səviyyəli yoxsulluq, sosial bərabərsizlik və zəif qida imkanları hökumətləri lazımı proqramları həyata keçirmək yolu ilə qısa müddətə əhəmiyyətli mənbələrə investisiya yatırmağa məcbur edir. Araşdırmalar göstərir ki, ifrat dərəcədə yetərsiz və düzgün qidalanmamaq, Ümumi Daxili Məhsulun hər il 4-5% aşağı düşməsinə səbəb olar. Buna görə də dünya iqtisadiyyatında ümumi böyümə yalnız bütün ölkələrin qida təhlükəsizliyinə sahib olduğu təqdirdə baş verə bilər. Bir ölkə və regiona məxsus qida təhlükəsizliyi strategiyası olmadan, qlobal, regional və ölkə səviyyəsində iqtisadi böyüməyə maneələr meydana çıxacaq və əlavə problemlər yaranacaqdır.

Sabit və davamlı qida təhlükəsizliyi insan kapitalı üzərində mənfi təsirlərin getdikcə artmasına, nəticədə dövlətin maliyyə xərclərini daha da çoxaltmaqla xərclər üzərində nəzarətin itməsinə gətirib çıxaracaqdır. Buna görə də, qida təhlükəsizliyinin təmin olunması həm qısa, həm də uzunmüddətli perspektivdə iqtisadi artımın əsas hədəfi və dövlətin həyata keçirdiyi milli, regional və qlobal aspektdə iqtisadi strategiyanın mərkəzi hissəsidir. Aclıqla mübarizədə irəliləməni ölçmək üçün hökumətlər qarşısında aydın hədəflər durmalı və həyata keçirdikləri siyasəti qiymətləndirmə strategiyalarına sahib olmalıdırlar. Bu hədəflər, həm də dövlət xərclərinin səmərəliliyini ölçməli, büdcə xərclərinin ixtisarı dövründə uzunmüddətli iqtisadi böyüməyə nail olmaqda əsas rol oynamalıdır.

Ərzaq təhlükəsizliyi bütün ölkələrdə əsas prioritet istiqamətlərdən biridir. Ölkəmizdə bu istiqamətdə davamlı olaraq işlər görülməkdədir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən bütün dövlət proqramlarında bu məsələ xüsusi diqqətdə saxlanılır. Bu proqramların qəbulundan keçən illər ərzində ərzaq təhlükəsizliyinin təmin olunması ilə bağlı

kənd təsərrüfatının inkişaf etdirilməsi əsas prioritet məsələlərdən biri kimi olmuşdur. Keçən dövrlər ərzində aqrar sektorun əsas sahələri olan heyvandarlıq və bitkiçilikdə yüksək inkişafa nail olunmuş, regionların ərzaq məhsulları ilə təminat səviyyəsi xeyli yaxşılaşmışdır. Dövlət proqramlarında kənd təsərrüfatı üçün nəzərdə tutulmuş xeyli tədbirlər sadalamaq mümkündür. Bunlardan bəzilərini belə qeyd edə bilərik: məhsul istehsalçıları üçün yanacağın, dərman və mineral gübrələrin dəyərinin təxminən yarıya qədəri dövlət tərəfindən ödənilmiş, taxıl istehsalını stimullaşdırmaq məqsədilə yardımlar verilmiş, toxumçuluq və damazlıq işləri dəstəklənmiş, güzəştli qiymətlərlə lizinq xidmətləri göstərilmiş, Sahibkarlığın İnkişafı Fondu, Kənd Təsərrüfatı Kreditləri Dövlət Agentliyi tərəfindən fermerlərə və sahibkarlara güzəştli şərtlərlə kreditlər ayrılmış, bütün bunlar isə dinamik canlanmanı təmin edən əsas amillər olmuşdur. Bu istiqamətdə iqtisadi təhlükəsizliyi qorumaq üçün tədbirlər önümüzdəki illərdə də davam etdiriləcək və dövlət proqramlarının həyata keçirilməsində başlıca məqsədlərdən olacaqdır. Ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə qarşıdakı illərdə aqrar bölmənin inkişafı istiqamətində bir sıra işlər davam etdiriləcəkdir:

aqrar sektora maliyyə yardımlarının artırılması işlərini sürətləndirmək;

ənənəvi sahələrin inkişafının stimullaşdırılması işlərinin görülməsi;

– intensiv taxılçılıq, toxumçuluq, üzümçülük və bağçılıq təsərrüfatlarının qurulması;

rayonlar üzrə kənd təsərrüfatı məhsulları istehsalının ixtisaslaşma işlərinin aparılması;

ekoloji baxımdan təmiz, keyfiyyət baxımından sağlam ərzaq məhsulları bazarının formalaşdırılması;

təbii ehtiyatlardan (torpaq, su) səmərəli istifadə olunması;

regionlarda məhsulların istehsalı, saxlanması və satışı ilə əlaqədar, soyuducu və istixana anbarlarının qurulması və s.

Ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi, əhalinin keyfiyyətli və sağlam məhsullar ilə özünü təmin etməsinin mərhələli həlli istiqamətində kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi, kənd təsərrüfatına dövlət qayğısının artırılması və bu sahəyə birbaşa yardımların (dotasiyaların, subsidiyaların) ayrılması, məhsul istehsalı və emalını həyata keçirən müəssisələrin yaradılması üçün investisiya mənbələrinin genişləndirilməsi məsələləri 2015-ci ildən bəri əsas hədəf kimi müəyyən edilmişdir. Bu istiqamətdə isə büdcədən 419,4 mln.manat məbləğində vəsait ayrılmışdır [1].

Ərzaq təhlükəsizliyin təmin olunması və əhalinin qida mallarına olan tələbatlarının tam və dolğun qarşılanması Naxçıvan Muxtar Respublikasında da əsas diqqət mərkəzində saxlanılan məsələlərdən biridir. Bunun üçün bütün iqtisadi sistemin birlikdə kompleksliyinin təşkil edilməsi ən vacib tələblərdən hesab olunmaqdadır. Müasir dövrdə muxtar respublikada istər sənaye-aqrar sektorunda, istərsə də digər sahələrdə mühüm təkmilləşmələr və irəliləyişlər meydana çıxmışdır. Özəl təsərrüfatların sayında, istehsal sənayesinin artım dinamikasında, ərzaq təminatının daha çox yerli istehsalın müqabilində ödənilməsində proqressiv meyllər müşahidə olunmaqdadır. Yerli istehsalın təmin edilməsi hər bir bölgənin ərzaqla təmin olunmasında başlıca meyardır. Bu gün qürurla söyləmək olar ki, onilliklər öncədən fərqli olaraq muxtar respublika ehtiyacı olan bütün növ ərzaq məhsullarını özü istehsal edib ödəmək qabiliyyətindədir. Bu isə ilk növbədə, iqtisadi subyektlərin burada səmərəli fəaliyyət göstərməsindən asılıdır. İqtisadi subyektlər həm fərdi təsərrüfatlar, müəssisələr, həm də dövlət orqanları və iqtisadiyyatın digər bölmələri səviyyəsində qarşılıqlı olaraq fəaliyyət göstərməkdədir. Ərzaq təhlükəsizliyi istiqamətində iqtisadi infrastrukturun qurulmasında mühüm dövlət orqanları fəaliyyət göstərsə də, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, aqrar-sənaye-

nin mühüm bölmələri, lizinq orqanları, müəssisələr və banklar xüsusi rol oynayırlar. Ərzaq təminatının gücləndirilməsində bitkiçiliyin və heyvandarlığın inkişaf etdirilməsi, torpaqdan və sudan səmərəli istifadə, baytarlıq xidmətinin yaxşılaşdırılması, təsərrüfat subyektlərinə maliyyə dəstəyinin göstərilməsi, qida məhsullarına keyfiyyətə nəzarətin artırılması əsas tədbirlər hesab olunmaqdadır. Bütün bunlar istiqamətində həm də düzgün qanunvericilik bazası yaradılmış və əhəmiyyətli dövlət proqramları qəbul edilmişdir. Muxtar respublikanın sosial-iqtisadi inkişafı üzrə müxtəlif illərə aid olan dövlət proqramları, tərəvəzçiliyin və meyvəçiliyin inkişafı layihələri, Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı yeni istehsal sahələrinin yaradılmasına xeyli stimul vermişdir. Son illər ərzində muxtar respublika ərazisində kənd təsərrüfatı üçün torpaq islahatları aparılmış, geniş ərazilərdə meyvə bağları və üzümlüklər salınmış, xüsusən də dağlıq və ucqar ərazilərdə böyük təsərrüfatlar, eyni zamanda turizm obyektləri yaradılmışdır. Həyata keçirilən proqramların uğurlu icrası artıq öz nəticələrini göstərməkdədir. Təsadüfi deyil ki, muxtar respublikada daxili tələbatın öyrənilməsi ilə yanaşı müxtəlif məhsullar üzrə ixrac potensialı yaranmış və məhsullarımız bir sıra qonşu ölkələrin bazarlarına da çıxarılmışdır. Göründüyü kimi bu istiqamətdə həm dövlətin, onun əsas strukturlarının, həm də özəl sektorun və fərdi təsərrüfatların üzərinə böyük öhdəliklər düşür. Bu da onların kompleks fəaliyyət göstərməsini tələb edir. Dövlət əsaslı proqramlar qəbul edir, layihələr hazırlayır, nazirliklər və qurumlar öz fəaliyyətləri istiqamətində tədbirlər planı tərtib edərək işlərini qururlar. Əhali və özəl sektor da üzərlərinə düşən öhdəlikləri icra edərək qazanc əldə etməklə yanaşı, iqtisadiyyata öz töhfələrini verirlər.

Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasında aqrar sektorun fəaliyyəti olduqca böyükdür. Hazırda bütün diqqət məhz bu sahənin canlandırılmasına yönəldilmişdir. Region blokada vəziyyətində olduğu üçün qida təminatı baxımından diqqətdə saxlanılır. Əvvəlki illər ilə müqayisədə günümüzdə muxtar respublikaya qonşu ölkələrdən idxal olunan məhsullarda xeyli azalmalar müşahidə olunmuşdur. Bu onunla əlaqədardır ki, kənd təsərrüfatı iqtisadiyyatda başlıca sahələrdən birinə çevrilmişdir. Buradan istehsal olunan məhsullar hesabına mövcud tələbat tam təmin olunur. İqtisadiyyatın əsas sektoru kimi xeyli diqqət tələb edən bir sahə olmaqla kənd təsərrüfatı qida ehtiyaclarının qarşılayır, sənayeni xam maddə ilə təmin edir. Bundan başqa, gəlirlərin yaradılması, ticarət əlaqələrinin formalaşdırılması və digər xidmətlər baxımından milli iqtisadiyyatın dayanıqlığının təmin olunmasında xüsusi əhəmiyyətə malikdir. Kənd təsərrüfatı muxtar respublikamızın iqtisadiyyatında da aparıcı yer kimi, özündə bitkiçilik (taxılçılıq, kartofçuluq, çoxillik bitkiçilik-yonca, soğan, sarımsaq, bostan-tərəvəz, və s.), meyvəçilik, üzümçülük, bağçılıq, heyvandarlıq (iribuynuzlu, xırdabuynuzlu), arıçılıq, quşçuluq təsərrüfatı, meyvə-tərəvəz məhsulları istehsalı və digər sahələri birləşdirir.

Aqrar sektor blokada şəraitində yaşayan muxtar respublikada ərzaq təhlükəsizliyinin bərqərar olunmasının başlıca sahəsidir. Lakin muxtar respublikada coğrafi relyefin mürəkkəb və iqlimin kəskin kontinental olması burada kənd təsərrüfatının inkişaf etdirilməsinin qarşısında böyük problemlər yaradır. Həm yayda, həm də qışda əkilib becərilən meyvə və tərəvəz məhsullarının saxlanması xeyli işlər tələb edir. Buna görə də istənilən mövsümdə istehlak tələbini yerli istehsalın hesabına ödəmək məqsədilə soyuducu anbarlarının, istixana obyektlərinin və sınaq laboratoriyalarının fəaliyyətinin təkmilləşdirilməsi daim diqqət mərkəzindədir. Muxtar respublikada ərzaq təhlükəsizliyin təmin edilməsi və buna müvafiq digər sahələr istiqamətində yaxşı hüquqi baza, əhəmiyyətli proqramlar və layihələr hazırlanmışdır. Onların ən mühümlərini aşağıdakı kimi ümumiləşdirmişik:

1. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf Dövlət Proqramları (2004-2008-ci illər, 2009-2013-cü illər, 2014-2018-ci illər, 2019-2023-cü illər);

2. Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı (2008-2015-ci illər);

3. Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı (2012-2015-ci illər, 2016-2020-ci illər, 2021-2025-ci illər);

4. Kənd təsərrüfatı ilinin elan olunması (2015);

5. Aqrar Sığorta Fondunun yaradılması (2020);

6. Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı tədbirlər proqramı (2017) və s.

7. Ailə Təsərrüfatları ilinin elan olunması (2019);

8. Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010).

Bütün qəbul edilən proqramlar və görülən işlərdə əsas məqsəd muxtar respublikada qida təhlükəsizliyi baxımından etibarlı mühit formalaşdırmaqdır.

Aqrar sahənin heyvandarlıq və bitkiçilik istiqamətləri üzrə statistik məlumatları göstərir ki, 2019-cu ildə muxtar respublikada diri çəkidə 28420,6 ton ət, 85637,4 ton süd, 89629,8 min ədəd yumurta, 1058 ton yun, 1467 ton bal istehsal edilmiş, 115620 baş iri və xırda buynuzlu heyvanlar qeydə alınmış, dənli və dənli-paxlalı bitkilərin əkin sahəsindən 109760 ton məhsul yığılmışdır. Buğda əkini sahəsindən 77261 ton məhsul toplanmış, hər hektardan məhsuldarlıq 31,2 sentner olmuşdur. Bu göstəricilər regionda ərzaq təhlükəsizliyinin qorunması və daxili tələbatın tam ödənilməsi üçün əsas meyarlardır ki, son illər ərzində buna nail olunmanın şahidi olmaqdayıq. Ərzaq təhlükəsizliyinin təmin olunmasında kənd təsərrüfatı əsas rol oynayan sahələrdən biridir. Qeyd etmək lazımdır ki, təsərrüfat subyektlərinin maliyyələşdirilməsində bank kreditlərinin müstəsna əhəmiyyəti vardır. 2019-cu il ərzində iqtisadiyyata kredit qoyuluşu orta hesabla 143 milyon manat olmuşdur. Bu da 2016, 2017 və 2018-ci illərdəki cəmi kredit qoyuluşundan çoxdur [5]. Bu gün muxtar respublikada kənd təsərrüfatı sahəsinə ən aşağı faizlərlə kreditlər təklif olunur. Bundan əlavə, rayonlarda bank filialları yaratmaq və xidmət sahələrini müasirləşdirməklə təsərrüfat subyektlərinin fəaliyyətini asanlaşdırmaq işləri daim diqqətdə saxlanılır ki, bu da iqtisadi fəaliyyətin stimullaşdırılmasına öz töhfəsini verməkdədir.

Qeyd edə bilərik ki, bu gün ölkəmizdə digər sahələrdə olduğu kimi bu sahədə də xeyli innovativ işlərin görülməsi planlaşdırılır. İnstitusional islahatların aparılması, kənd təsərrüfatı konsepsiyasının hazırlanması, aqrar parkların təsis olunması önümüzdəki illərdə təsərrüfat sektorunun qarşısında xeyli geniş imkanlar yaradacaqdır. Ümumiyyətlə, dövlətin aqrar siyasətinin əsas mahiyyəti, bazar iqtisadiyyatı şəraitində əhalinin keyfiyyətli ərzaqla təminatı və ərzaq təhlükəsizliyinin yerinə yetirilməsi məqsədini daşıyır. Bu siyasəti səmərəli həyata keçirmək üçün dövlət hər şeydən əvvəl hüquqi, maddi texniki bazanın ciddi hazırlanması vasitəsinə nail olacaqdır. Aqrar sektor regionda ərzaq təhlükəsizliyinin təmin olunmasında əsas istiqamətdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikasının Qanun layihəsinə və dövlət büdcəsinin icrasına dair illik hesabata Azərbaycan Respublikası Hesablama Palatasının Rəyi http://sai.gov.az/upload/files/ICRA-2016-SON FINAL.pdf.
2. Əhmədov N.H. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 90 ildə. Naxçıvan: Əcəmi, 2015, 272 s.

3. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı. Naxçıvan: Əcəmi, 2020, 224 s.
4. Mahmudov M.M, Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı: İqtisad Universiteti, 2011, 370 s.
5. http://www.statistika.nmr.az/. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi.

AMEA Naxçıvan Bölməsi
E-mail: ***eltunibrahimov@yahoo.com***

Eltun İbrahimov

MAIN DIRECTIONS TO ENSURE FOOD SECURITY IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

Food security is possible when people's food needs are met to achieve quality living standards if they have access to safe and abundant products. Important factors are required to ensure food security in every region. Natural and geographical factors are also influenced by a well-established legal-economic system, the diligence of society, and other elements.

Comprehensive food security benefits not only human health but also offers ample opportunities for sustainable economic development. In this context, it is essential to understand the significance of a food security strategy. Ensuring food safety requires that all fields of activity must be constantly interconnected. For this purpose, agriculture, industry, health, and other social sectors should provide comprehensive services to avoid potential problems now and in the future. Without a food security strategy for regions, there will be obstacles and additional challenges for economic development at the global and regional levels. The article deals with the establishment of economic infrastructure to ensure food security in the Nakhchivan Autonomous Republic.

Keywords: *food security, autonomous republic, aids, agriculture, manufacturing.*

Элтун Ибрагимов

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ОБЕСПЕЧЕНИЯ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

Продовольственная безопасность возможна, когда потребности людей в продуктах питания удовлетворяются для достижения качественного уровня жизни, если у них есть доступ к безопасным и доступным продуктам. Для обеспечения продовольственной безопасности в каждом регионе необходимы важные факторы. С учетом природных и географических факторов, на него также влияют устоявшаяся правовая и экономическая система, усердие общества и другие элементы.

Всеобъемлющая продовольственная безопасность не только приносит пользу здоровью человека, но и открывает широкие возможности для устойчивого экономического развития. В этом контексте важно понимать значение стратегии продовольственной без-

опасности. Обеспечение безопасности пищевых продуктов требует, чтобы все сферы деятельности были постоянно взаимосвязаны. С этой целью сельское хозяйство, промышленность, здравоохранение и другие социальные секторы должны предоставлять комплексные услуги, чтобы избежать потенциальных проблем сейчас и в будущем. Без стратегии продовольственной безопасности для регионов возникнут препятствия и дополнительные проблемы для экономического развития на глобальном и региональном уровнях. В статье рассматривается создание экономической инфраструктуры для обеспечения продовольственной безопасности в Нахчыванской Автономной Республике.

Ключевые слова: *продовольственная безопасность, автономная республика, помощь, сельское хозяйство, производство.*

(İqtisad elmləri doktoru, professor Zahid Məmmədov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variat 31.08.2021
Son variant 08.09.2021

UOT: 479.24; 001.89; 347.77

HƏSƏN MƏMMƏDOV

AZƏRBAYCANDA SAHİBKARLIĞIN İNNOVASİYA YÖNÜMLÜ İNKİŞAFINDA İNNOVASİYA SİSTEMİNİN ROLU

Məqalədə qloballaşma şəraitində ölkəmizdə innovasiya sistemlərinin inkişaf istiqamətləri araşdırılır. Göstərilir ki, müasir dövrdə Azərbaycan iqtisadiyyatının inkişafının təmin edilməsində bilik, texnologiya və məhsul növlərinin tətbiqinə əsaslanan innovasiyalı istehsal fəaliyyəti əsas yer tutur.

Qeyd olunur ki, elmi-texniki və innovasiya fəaliyyəti sahəsində, informasiya təminatının həyata keçirilməsində qarşıya qoyulan hədəflərə çatmaq üçün dövlət siyasəti mühüm əhəmiyyətə malikdir. Burada dövlət siyasətinin istiqamətləri müəyyən edilir.

Azərbaycanda innovasiya texnologiyalarının tətbiqi sistemini yaxşılaşdırmaq istiqamətində tövsiyələr edilir, innovasiya sistemlərinin inkişaf perspektivləri göstərilir.

Açar sözlər: *innovasiya, inteqrasiya, elmi-texniki informasiya, strateji inkişaf, informasiya infrastrukturu.*

Sahibkarlıq dedikdə, mülkiyyət formasından asılı olmayaraq mənfəət əldə etmək və ictimai tələbatı ödəmək məqsədi ilə, riskləri nəzərə almaqla, məhsul istehsal edən, satan, iş görən və xidmətlər göstərən, hüquqi öhdəlikləri öz əmlak cavabdehliyi əsasında yerinə yetirən, qanunvericiliyə müvafiq qaydada yaradılan müstəqil, təşəbbüskar təsərrüfat fəaliyyəti başa düşülür.

Sahibkarlıq, mülkiyyətin mənsubiyyətinə, hüquqi vəziyyətinə, yerinə yetirdiyi funksiyalara, həcminə və yeni ideya və texnologiyaların tətbiqinə görə təsnifləşdirilir.

Yeni ideya və texnologiyaların tətbiqinə görə sahibkarlığın geniş yayılmış formaları innovasiya sahibkarlığı hesab edilir. Müasir dövrdə iqtisadiyyatın davamlı inkişafı və müasir bazar iqtisadiyyatı şəraitində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə innovasiya sahibkarlığı geniş yayılmışdır.

Ötən illər ərzində sahibkarlıq fəaliyyətini tənzimləyən prosedura və qaydalar xeyli liberallaşdırılmış, sahibkarlığa dövlət maliyyə yardımı mexanizmi işə salınmış, ölkədə ixrac rüsumları ləğv edilmiş, idxalda rüsumların 15%-lik maksimal həddi müəyyənləşdirilmişdir. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində ölkədə mikro, kiçik və orta sahibkar subyektlərin sayı artmış, innovasiya yönümlü sahibkarlığın əsası qoyulmuşdur.

Ölkəmizdə 2019-cu ildə 271304 vahid sahibkarlıq subyektləri (mikro, kiçik və orta) fəaliyyət göstərmişdir ki, onun 47,9%-i, yəni 129989 vahidi Bakı şəhərində, 14,0%-i, yəni 37403 vahidi Aran iqtisadi rayonu ərazisində, 8,4%-i, yəni 22786 vahidi Abşeron iqtisadi rayonunda, 9,2%-i, yəni 24825 vahidi Gəncə-Qazax iqtisadi rayonu ərazisində yerləşir. Ölkə ərazisində fəaliyyət göstərən sahibkarlıq subyektləri iqtisadiyyatın bütün sahələrini əhatə edir. Müəssisələrin çox hissəsi topdan və pərakəndə satış; avtomobillərin, motosikletlərin təmiri; kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq; tikinti; emal sənayesi; peşə, elmi və texniki fəaliyyət sahələrində fəaliyyət göstərmişdir.

Ötən illər ərzində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sayı dinamik şəkildə artmaqda davam etmişdir. Fərdi sahibkarların əsas hissəsi ticarət, nəqliyyat, xidmət və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərmişdir [7].

Ölkəmizdə sahibkarlığın innovasiya yönümlü inkişafını stimullaşdırmaq üçün innova-

siya infrastrukturlarının:-sənaye parklarının, sənaye məhəllələrinin və texnologiyalar parklarının yaradılması diqqətdə saxlanılır. Bu məqsədlə, Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırıqlarına əsasən Sumqayıt Kimya Sənaye Parkı, Bakı şəhərində Balaxanı Sənaye Parkı və Sumqayıt şəhərində Yüksək Texnologiyalar Parkı və s. yaradılmışdır [5].

Balaxanı Sənaye, Sumqayıt Kimya-Sənaye və Sumqayıt Yüksək Texnologiyalar parklarının yaradılması xarici və yerli investorların cəlb olunmasına, müasir texnologiyalardan istifadə etməklə rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının artırılmasına və yeni iş yerlərinin açılmasına, ümumilikdə sahibkarlığın innovasiya yönümlü inkişafına müsbət təsir göstərəcəkdir [6].

Müasir istehsal infrastrukturuna malik sənaye parkının yaradılması ölkədə sənaye sahələrinin inkişafının, ölkə iqtisadiyyatının tarazlı inkişafının təmin edilməsini, habelə istehsal sahələrinin və onun innovasiya istiqamətinin inkişafını nəzərdə tutan dövlət siyasətinin reallaşdırılmasına yönəldilmişdir. Sənaye parklarının yaradılması, həmçinin, ölkənin qeyri-neft sektorunun davamlı inkişafı, ölkə iqtisadiyyatının ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli, idxalı əvəz edən məhsulların istehsalının artırılması, ətraf rayonlarda məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi öncül vəzifələrin yerinə yetirilməsi baxımından xüsusilə əhəmiyyətlidir. Bu istiqamətdə işlər davam etdirilmiş, beynəlxalq təcrübə daim öyrənilmiş və müvafiq normativ-hüquqi sənədlər hazırlanmışdır.

Ölkədə sənaye parklarının yaradılması bir sıra dövlət proqramlarında, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 964 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuşdur.

Bununla bağlı, xarici ölkələrin bu sahədəki müsbət təcrübəsinin ölkəmizdə tətbiqi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Həmçinin BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNIDO), Türkiyənin Türk Əməkdaşlıq və İnkişaf İdarəsinin (TİKA) ekspertlərinin tövsiyələri nəzərə alınmaqla bu sahədə müvafiq təkliflər hazırlanmış, bir sıra ardıcıl tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı ilə "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə" təsdiq edilmişdir. Qeyd olunan Fərmanla müəyyən edilmişdir ki, sənaye parkı – sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabət qabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi məqsədləri üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir.

Sənaye parkının yaradılmasının məqsədləri aşağıdakılardır:

– innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi;

– iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi;

– ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin artırılması;

– əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması [6].

Qanunvericiliyə uyğun olaraq, sənaye parklarında aşağıdakı stimullaşdırıcı tədbirlər tətbiq olunur:

– vergi və gömrük sahəsində stimullaşdırıcı tədbirlər;

– sənaye parkının infrastrukturla təmin edilməsi;

– torpaq sahəsinin icarə haqqının aşağı həddində müəyyən edilməsi;

– inzibati proseduraların sadələşdirilməsi;

– sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün xidmətlərin təşkili[5].

Eyni zamanda, sənaye parklarının yaradılması ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi daşıyır [5].

Bazar iqtisadiyyatı sisteminin tətbiq olunduğu inkişaf etmiş ölkələrdə elmi-texniki inkişafın əsasında həmin ölkələrdə fəaliyyət göstərən innovasiya sahibkarlığının formalaşması dayanır. İnnovasiya sahibkarlığı dedikdə, dünyanın qabaqcıl ölkələrində elmi-texniki tərəqqinin nailiyyətləri əsasında yaradılan yeni, müasir tipli texnologiyaların mənimsənilməsi və istehsalata tətbiqi əsasında, tələbata uyğun, rəqabətə davamlı yeni məhsul istehsal edən sahibkarlıq fəaliyyəti başa düşülür. İnnovasiya fəaliyyətini mükəmməl həyata keçirmək üçün elmi-texniki informasiya resurslarını formalaşdırmaq və ondan səmərəli istifadə etmək mühüm əhəmiyyətə malikdir [4].

Göründüyü kimi innovasiya sahibkarlığı elmi-texniki inkişafa təsir etdiyi kimi, elmi-texniki tərəqqinin nailiyyətləri də öz növbəsində innovasiya sahibkarlığının formalaşması və inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. İnnovasiya sahibkarlığı iqtisadi fəaliyyət sahəsi kimi elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalata tətbiqi mexanizmini reallaşdırır.

İnnovasiya fəaliyyəti mürəkkəb proses olmaqla, avadanlıq, maşın-mexanizm, istehsalat qurğuları, əmək cisimləri, istehsalın təşkili mexanizmlərinin, eləcə də idarəetmə prosesinin mütərəqqi texnologiya və elmi-texniki yenilikləri tətbiq etməklə təkmilləşdirilməsi prosesidir.

Yenilikçi mütərəqqi texnologiyaların, təkmilləşmiş maşın və mexanizmlərin istehsal sahələrinə tətbiqi müəssisələrdə yeni rəqabət qabiliyyətli məhsul istehsalına gətirib çıxarır ki, bu da innovasiya sahibkarlığının fəaliyyəti ilə birbaşa bağlıdır. Azərbaycanda və keçid iqtisadiyyatı dövrünü yaşayan digər ölkələrdə bazar iqtisadiyyatını inkişaf etdirmək üçün innovasiya sahibkarlığının rolu əvəzedilməzdir. Çünki bu ölkələrdə istehsal imkanları, məhsulun keyfiyyəti digər ölkələrlə müqayisədə çox aşağıdır. Bu ölkələrin istehsal etdikləri məhsullar dünya bazarında rəqabətə dözmür, hətta bu məhsullar dünya bazarı üçün yararlı deyildir. İnsanların yaradıcılıq potensiallarından istifadə etmək məqsədilə innovasiya sahibkarlığının inkişafı və ona dövlətin yaxından köməyi vacibdir. Eyni zamanda ölkədə innovasiya sahibkarlığını inkişaf etdirib, qabaqcıl ölkələr səviyyəsinə çatdırmaq üçün mükəmməl innovasiya sistemlərinin yaradılmasına ehtiyac vardır.

Qloballaşma şəraitində ölkəmizdə innovasiya sistemlərinin inkişaf istiqamətləri Avropada gedən proseslərə inteqrasiya olunmaqla müəyyənləşdirilir.

Müasir dövrdə Azərbaycan iqtisadiyyatının inkişafının təmin edilməsində bilik, texnologiya və məhsul növlərinin tətbiqinə əsaslanan innovasiyalı istehsal fəaliyyəti əsas yer tutur.

Elmi-texniki informasiya (ETİ) resurslarının formalaşması və səmərəli istifadəsinin əsas məqsədi onların dünya informasiyasına inteqrasiyası, informasiya məhsul və xidmətləri bazasının yaradılmasıdır, əsas funksiyalarından biri isə elmi, elmi-texniki və innovasiya fəaliyyəti sahəsində, informasiya təminatı sahəsində dövlət siyasətinin həyata keçirilməsidir [3].

Elmi-texniki və innovasiya fəaliyyəti sahəsində, informasiya təminatının həyata keçirilməsində qarşıya qoyulan hədəflərə çatmaq üçün dövlət siyasəti aşağıdakı bir sıra məsələlərin həllini zəruri edir:

– Ölkəmizdə innovasiya sistemləri fəaliyyətinin perspektivli inkişafını təmin etmək üçün ilk növbədə elm və texnika sahəsində informasiya resurslarının və informasiya infrastrukturlarının səmərəli fəaliyyətinin optimallaşdırılması;

– Elm və texnika sahəsində mövcud olan relevant informasiyaların toplanılması, emalı və ötürülməsi xidmətlərinin hazırlanması və həyata keçirilməsinin təkmilləşdirilməsi;

– Elm və texnika sahəsində yaranan yeni texniki informasiyalardan səmərəli istifadə məqsədi ilə asan idarə olunan, modernləşdirilmiş şəbəkə texnologiyalarının yaradılması və istehsala tətbiqi;

– ETİ-nin (elmi-texniki informasiya) istifadəçilərinin və bu sahədə fəaliyyət göstərən mütəxəssislərin bilik və bacarıqlarının, intellektual səviyyələrinin, informasiya ilə işləmək mədəniyyət və qabiliyyətlərinin artırılması;

– İstehsala yeni texnologiyaların mükəmməl tətbiqi məqsədi ilə ayrılmış fondların həcminin artırılması üçün müvafiq tədbirlərin görülməsi;

Ölkəmizdə innovasiya sistemlərinin yaradılması və inkişafını təmin etmək məqsədilə Azərbaycanda dövlət səviyyəsində aşağıdakı bir sıra islahatlar artıq həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin bu istiqamətdə qəbul etdiyi Dövlət Proqramları və sərəncamlar, xüsusi ilə əhəmiyyətlidir. "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı"na (2007-2010) əsasən, ölkədə makroiqtisadi siyasətin və sahibkarlığın inkişafı məqsədilə "...elmtutumlu sahələrin inkişafı ilə bağlı xarici ölkələrin qabaqcıl texnologiya və innovasiyalarının öyrənilməsi və bu sahədə məlumat bazasının yaradılması..." [1];

Azərbaycan Respublikası Prezidentinin 10 aprel 2008-ci il tarixli "Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında" sərəncamında isə mövcud vəziyyət ölkənin inkişafının üstün istiqamətlərindən olan elm sahəsində ən qısa zamanda islahatların aparılması və bununla əlaqədar bir çox vəzifələrin təxirə salınmadan sürətlə öz həllini tapması zərurəti olduğunu bir daha təsdiqləmişdir [2].

Bu sərəncamlar ölkəmizin son illər beynəlxalq aləmdə fəaliyyət sahəsini genişləndirmiş, dövlətlərarası elmi-texniki informasiya məkanına çıxışını təmin etmişdir.

Respublikanın elmi-texniki informasiyaya tələbatını təmin etmək üçün dövlət daxilində informasiya məhsul və xidmətləri bazarını təşkil etmək, xarici informasiya bazarına çıxmaq əsas şərt hesab edilir. Bunun üçün isə elmtutumlu məhsulların, xidmətlərin innovasiya texnologiyalarının kataloqlarını nəfis formada hazırlamağa və bülletenlərini çap etdirməyə ehtiyac vardır.

Ölkəmizdə bir çox sahələr üzrə informasiya sistemləri yaradılmış və yaradılmaqdadır. Respublikada innovasiya layihələri və sorğular üzrə məlumatlar müxtəlif vaxtlarda yığılmış və mütəmadi olaraq yığılmaqdadır. Toplanılmış informasiyalar aktuallaşdırılmalı və beynəlxalq tələblərə cavab verəcək səviyyədə kataloqlarda yığılmalıdır.

Azərbaycanda innovasiya texnologiyalarının tətbiqi sistemini yaxşılaşdırmaq, elm sahələrinin inkişafı ilə bağlı xarici ölkələrin qabaqcıl innovasiya texnologiyalarının öyrənilməsi və bu sahədə məlumat bazalarının yaradılması sahəsində görülən işlərin səmərəliliyini artırmaq məqsədi ilə əsas vəzifələr aşağıdakılardan ibarət olmalıdır:

– İnkişaf etmiş dünya ölkələrinin müasir texnoloji proseslərində baş verən mütərəqqi dəyişiklikləri araşdıran, yeni elm sahəsi kimi formalaşan innovasiya texnologiyaları bilgilərinin öyrənilməsi, ölkənin istehsal və digər elmi-texniki sahələrində faydalanması istiqamətlərinə yönəltmək;

– Strateji inkişaf məqsədi ilə qabaqcıl ölkələrin inkişaf istiqamətlərinin prioritetlərini öyrənmək, elmi əsaslar, qabaqcıl texnologiya və innovasiyalar prosesinin nəzəri problemlərini öyrənmək, respublikada innovasiyanın nəzəri təlimini hazırlamaq və bu sahədə məlumat

bazası yaratmaq, ölkələr arası innovasiya şəbəkələrinin yaradılması və onların qabaqcıl texnologiyalarını mənimsəyib, ölkəmizdə istifadəyə yönəltmək;

– Ölkəmizdə geniş istifadə məqsədi ilə elmi-texniki informasiya üzrə müxtəlif innovativ təsnifat cədvəlləri tərtib etmək;

– Ölkəmizdə elmi-texniki inkişaf şəbəkələrinin bazası əsasında innovasiya sistemi şəbəkəsinin yaradılması, respublikada innovasiya layihələri, elmi kadr potensialı, elmi-tədqiqat işlərinin təhlili və proqnozlaşdırılması və marketinqin aparılması, müxtəlif elmi sahələr üzrə ümumiləşdirilmiş fondlar yaratmaq;

– Elmi müəssisələrdə aparılan elmi-tədqiqat işlərinin bir qisminin innovativ texnologiyalar istiqamətinə yönəltmək, sifarişlər əsasında tədqiqatları aparıb, nəticələrini tətbiq etmək;

– Respublikada və xaricdə elm və innovasiya nailiyyətlərinə həsr edilmiş dövri elmi-praktiki jurnalın nəşrində elmi-innovasiya yönümlü tədqiqatlarla iştirak etmək;

– Respublikada informasiya və innovasiya sahəsində yüksək ixtisaslı kadr hazırlığını təmin etmək məqsədi ilə tədris-texniki kursları təşkil etmək;

– Xarici ölkələrin elm ocaqları ilə razılaşma əsasında elmi-texniki tərəqqinin nailiyyətləri ilə bağlı müxtəlif növ informasiya mübadiləsinin aparılmasını təmin etmək;

Azərbaycanda perspektivli innovasiya sisteminin inkişafı məqsədi ilə, eyni zamanda, dünya təcrübəsində mövcud olan normativ hüquqi və metodoloji baza öyrənilməli və təhlil edilməlidir. İnformasiya mübadiləsini aparmaq üçün ölkəmizdə elmi-texniki informasiya mənbələri üzrə tədqiqatlar aparılmalı, resurslar üzrə beynəlxalq standartlara uyğun informasiya xidmətləri bazası yaradılmalı və onun təhlükəsizliyi təmin edilməlidir.

Azərbaycanda innovasiya sisteminin perspektivli inkişafını təmin etmək üçün, yuxarıdakılarla yanaşı, bu sistemin beynəlxalq elmi-texniki informasiya resurslarına çıxışı təmin edilməlidir.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010)".
2. Azərbaycan Respublikası Prezidentinin 10 aprel 2008-ci il tarixli "Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında" sərəncamı.
3. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaradılması, yayılması və inkişaf perspektivləri. Bakı: Elm, 2009, 416 s.
4. Məmmədov H.Ə. Sahibkar subyektlərdə infrastrukturların innovativ yolla modernləşdirilməsi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2018, № 1, s. 277-290.
5. www.economy.gov.az/article/Sənaye parkı/21403
6. e-smb.gov.az.nav.Sənaye Parkı
7. www.stat.gov.az.

Naxçıvan Dövlət Universiteti
E-mail: ***hasan_1961@mail.ru***

Hasan Mammadov

THE ROLE OF THE INNOVATION SYSTEM IN THE INNOVATIVE DEVELOPMENT OF ENTREPRENEURSHIP IN AZERBAIJAN

The paper examines the development trends of innovation systems in our country in the context of globalization. It is noted that innovative production activities based on the application of knowledge, technology, and products play a crucial role in ensuring the development of the Azerbaijani economy in modern times.

It is noted that the state policy is essential in achieving the goals set in the field of scientific, technical, and innovation activities, the implementation of information provision. It defines the directions of state policy.

Recommendations are made to improve the application system of innovative technologies in Azerbaijan, prospects for the development of innovation systems are indicated.

Keywords: *innovation, integration, scientific and technical information, strategic development, information infrastructure.*

Гасан Мамедов

РОЛЬ ИННОВАЦИОННОЙ СИСТЕМЫ В ИННОВАЦИОННОМ РАЗВИТИИ ПРЕДПРИНИМАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ

В статье рассматриваются тенденции развития инновационных систем в нашей стране в условиях глобализации, отмечается, что инновационная производственная деятельность, основанная на применении знаний, технологий и продуктов, играет ключевую роль в обеспечении развития экономики Азербайджана в современное время.

Отмечается, что государственная политика важна в достижении поставленных целей в области научно-технической и инновационной деятельности, реализации информационного обеспечения, определяет направления государственной политики.

Даны рекомендации по совершенствованию системы применения инновационных технологий в Азербайджане, обозначены перспективы развития инновационных систем.

Ключевые слова: *инновации, интеграция, научно-техническая информация, стратегическое развитие, информационная инфраструктура.*

(İqtisad elmləri doktoru, professor Ağarza Rüstəmov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 17.08.2021
Son variant 07.09.2021

UOT: 479.24; 001.89; 347.77

SAMİR ALLAHVERDİYEV

AZƏRBAYCANDA İNNOVASİYA SAHİBKARLIĞININ İNKİŞAF MƏRHƏLƏLƏRİ

Məqalədə Azərbaycanda innovasiya sahibkarlığının mövcud vəziyyəti və onun inkişaf mərhələləri tədqiq olunur.

Müstəqillikdən əvvəl və sonrakı dövrlərdə ölkədə iqtisadi vəziyyət araşdırılaraq qeyd olunur ki,1996-cı ildən etibarən aparılan məqsədyönlü siyasət nəticəsində ölkədə makroiqtisadi sabitlik bərqərar olunmuş, sahibkarlığın təşəkkülü və inkişafı istiqamətində ilk addımlar atılmışdır.

Regionlarda innovasiya yönümlü sahibkarlığın inkişafı istiqamətində təhlillər aparılır, sənayenin inkişafında sahibkar subyektlərin fəaliyyəti araşdırılır.

Sonda ölkə üzrə iqtisadi inkişafın təmin olunması məqsədilə innovasiya sahibkarlığını stimullaşdıran tədbirlərin bundan sonra da davam etdirilməsi məqsədəmüvafiq hesab edilir.

Açar sözlər: *sahibkarlıq, innovasiya, mərhələ, mikro, kiçik və orta sahibkarlıq, sənaye.*

Ötən əsrin əvvəllərindən Azərbaycanın müxtəlif bölgələrində yeyinti və yüngül sənaye sahələri: ipəkçilik, balıqçılıq, kənd təsərrüfatı məhsulları istehsalı, emal sənayesi, texniki dərman bitkiləri istehsalı, mədən və hasilat sənayesi və s. inkişaf etməyə başlamışdır.

1980-1990-cı illərdə Sovetlər birliyini bürüyən iqtisadi böhran Azərbaycan Respublikası iqtisadiyyatından yan keçmədi, digər sahələrdə olduğu kimi bu, sənayenin innovasiya yönümlü inkişafına əngəllər törətdi [4].

Müstəqillik qazandıqdan sonra ölkədə iqtisadi və siyasi vəziyyətin kəskinləşməsi müəssisələr arası əlaqələrin pozulmasına, idarəetmədə boşluqların yaranmasına, müəssisələrin xammal və avadanlıqlarla təchizatının pisləşməsinə gətirib çıxardı. Ölkədə müharibə şəraitinin davam etməsi və ərazinin xeyli hissəsinin işğal altında olması, ölkə ərazisində inkişaf edən yeyinti və yüngül sənaye sahələrinin inkişafında xeyli zaman, durğunluğun yaranması ilə nəticələndi.

Lakin 1993-1996-cı illərdə ölkədə aparılan məqsədyönlü siyasət, həyata keçirilən sistemli tədbirlər nəticəsində ölkədə makroiqtisadi sabitlik bərqərar olundu, nəticədə sahibkarlığın təşəkkülü və inkişafı istiqamətində ilk addımlar atılmağa başlanıldı. 1996-cı ildən etibarən isə bu istiqamətdə ciddi nəticələr əldə olundu. Qısa zamanda ölkə iqtisadiyyatında əsaslı dəyişikliklər yarandı, inflyasiyanın qarşısı alındı və büdcə kəsiri ÜDM-nin 1-2%-i səviyyəsinə endirildi. Ölkə dərin iqtisadi böhran vəziyyətindən dinamik iqtisadi inkişafı təmin edən makroiqtisadi sabitlik dövrünə gəlib çıxdı.

Azərbaycanın əlverişli təbii coğrafi mövqeyi və ərazinin zəngin yeraltı və yerüstü təbii resurs potensialına malik olması xarici ölkə iş adamlarının ölkəyə investisiya qoyuluşuna marağı artırdı. 1994-cü ildə dünyanın aparıcı şirkətlərinin ölkəmizdə "Əsrin müqaviləsi" kontraktlarına qoşulmaları Azərbaycan iqtisadiyyatında əsaslı dönüş oldu. Xarici ölkə sahibkarları innovativ texnologiyanı və yeni, modernləşmiş istehsal üsullarını Azərbaycan neft sənayesinə tətbiq etməyə başladılar.

İqtisadiyyatın inkişafı ilə bağlı yeni-yeni layihələr həyata keçirilərək, iqtisadiyyatda struktur dəyişikliklər yarandı:-energetika, kimya, maşınqayırma, tikinti-inşaat, yeyinti və yüngül sənaye sahələrində inkişaf sürətləndi, sənaye sahələrinin yenidən qurulması məqsədilə

xarici investorların cəlb edilməsi üçün tədbirlər görüldü. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində iqtisadiyyatın ayrı-ayrı sahələrinə investisiya axını gücləndi və sahibkarlığın inkişafı üçün əlverişli zəmin yarandı.

Göründüyü kimi müstəqillik əldə olunduqdan sonra ölkəmizdə sahibkarlıq iqtisadi inkişafın tələbləri və xüsusiyyətləri baxımdan müxtəlif inkişaf mərhələləri keçmişdir. Şərti olaraq bu mərhələləri xüsusiyyətlərinə müvafiq aşağıdakı kimi qruplaşdırmaq olar:

1993-cü ilə qədər olan mərhələ. Bu mərhələni ölkədə iqtisadi islahatların həyata keçirilməsində yol verilən ləngimələr, həyata keçirilən epizodik tədbirlərdə sistemsizlik kimi xüsusiyyətləri ilə xarakterizə etmək olar. Belə bir vəziyyət iqtisadi fəaliyyət sahələrində inkişaf göstəricilərinin səviyyəsinin aşağı düşməsinə, maliyyə və istehsal sahələrində qeyri-sabitliyin hökm sürməsinə səbəb olmuşdur. Bu isə bazar iqtisadiyyatına istiqamətlənmiş sistemli islahatlara başlamağa, özəlləşdirmənin həyata keçirilməsi və sahibkarlığın təşəkkülünə dövlət müdafiə sisteminin formalaşmasına ehtiyac olduğunu ortaya çıxarmışdır [7].

1993-2002-ci ilədək olan mərhələ. Bu mərhələni real islahatlar üçün zəruri şərtlərin təmin olunması, siyasi və makroiqtisadi sabitliyin əldə edilməsi, sahibkarlığın təşəkkülü istiqamətində ilkin tədbirlərin görülməsi, sahibkarlığın inkişafına dəstək istiqamətində tədbirlər görülməsi, özəlləşdirmənin həyata keçirilməsi, idarəetmədə struktur dəyişikliyin aparılması ilə xarakterizə etmək olar.

Bu müddət ərzində ÜDM-in azalmasının qarşısının alınması təmin olunmuş, inflyasiya minimal səviyyədə saxlanılmış, əsas makroiqtisadi göstəricilərin artım dinamikası müşahidə olunmuş, sahibkarlıq subyektlərinin sayı dinamik artmış, xarici investisiya axını güclənmişdir.

2002-2015-ci illəri əhatə edən mərhələ. Bu mərhələ sahibkarlığın inkişafının dövlət müdafiə sistemində köklü dəyişikliklərin aparılması ilə xarakterizə edilə bilər [7].

Sahibkar subyektlərin maliyyə təminatının yaxşılaşdırılması, iqtisadiyyatın dövlət tənzimlənməsi, infrastruktur layihələrinin həyata keçirilməsi, sahibkarların hüquqlarının müdafiəsinin yüksək səviyyədə təmin olunması, insan kapitalının inkişafı kimi tədbirlər bu mərhələdə icra edildi. Nəticədə, ölkə sahibkarlarının istehsal yönümlü inkişafa meylləri artmış, regionlarda işgüzar fəaliyyətin canlanması, sahibkarların cəmiyyətdəki mövqeyinin möhkəmləndirilməsi müşahidə olundu. Sahibkarları inkişaf edən iqtisadiyyata uyğun kadrlarla təmin etmək məqsədilə istedadlı gənclərin qabaqcıl ölkələrə təhsil almaq üçün göndərilməsinə başlanıldı.

Məşğulluğun təmin olunması, regionlarda sənaye, aqrar və turizm kimi sahələrin inkişafı, ixrac potensialının reallaşdırılması, innovasiya sahibkarlığının təşəkkülü və inkişafı bu mərhələyə təsadüf edir.

2015-ci ildən sonrakı mərhələ. Bu mərhələ ölkədə qeyri-neft sektorunun inkişafı istiqamətində köklü islahatların aparılması, innovativ sahibkarlığın inkişafı və təşviq edilməsi, innovasiya infrastrukturunun yaradılması, müxtəlif ərazilərdə sənaye, yaxud texnologiya parkları, sənaye məhəllələrinin yaradılması, sahibkarlığın inkişafına xidmət edən müxtəlif istiqamətlərdə "Strateji Yol Xəritələri"nin hazırlanması, iri layihələrin həyata keçirilməsində dövlət-özəl əməkdaşlığının təmin edilməsi, gömrük (idxal-ixrac) və vergi sahəsində dərin islahatların həyata keçirilməsi, eləcə də sahibkarlığın inkişafına stimul verən bir sıra digər iqtisadi tədbirlərin təmin olunması ilə xarakterizə etmək olar [7].

Bu mərhələdə dövlətin yeritdiyi məqsədyönlü iqtisadi siyasət nəticəsində iqtisadiyyatda, xüsusən də ixracatda qeyri-neft sənayesi üzrə yüksək nəticələr əldə olundu. Belə ki, sahibkarlıq sahəsində aparılan yoxlamaların 2021-ci ilədək dayandırılması, lisenziyaların və bununla bağlı tələb olunan sənədlərin sayının kəskin azaldılması, sahibkarların məhkəməyə

müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə baxılmasının effektivliyinin artırılması, ölkədə gömrük və vergi islahatlarının aparılması sahibkarlığın (kiçik və orta) inkişafına, xüsusilə də, innovativ sahibkarlığın (startapların) inkişafına təkan vermiş, idxal-ixrac əməliyyatlarının kəmiyyət və keyfiyyətcə inkişafı üçün stimul yaratmışdır.

İqtisadi və dövlət idarəetmə aparatında aparılan struktur islahatları ölkədə iqtisadiyyatının bütün sahələrinin, o cümlədən sahibkarlıq sektorunun inkişafına güclü təkan vermişdir. Nəticədə 2015-ci ildə ölkə üzrə 4671,6 min nəfər məşğul əhalinin 75,0%-i, yəni 3495,5 min nəfəri qeyri-dövlət sektorunda sahibkarlıq fəaliyyəti ilə məşğul olmuş, hər il sahibkarlıq subyektlərinin say tərkibi dövlət sektorunda çalışanların azalması hesabına xeyli artmışdır.

Cədvəl 1

Azərbaycanda 2015-2019-cu illərdə əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri

№	Göstəricilər	2015	2016	2017	2018	2019
1.	İqtisadi fəal əhalinin sayı (min nəfər)	4915,3	5012,7	5073,8	5133,1	5190,1
2.	Məşğul əhalinin sayı (min nəfər)	4671,6	4759,9	4822,1	4879,3	4988,5
	O cümlədən; - Dövlət mülkiyyətində (min nəfər)	1176,1	1171,4	1158,4	1154,9	1156,8
	- Qeyri-dövlət mülkiyyətində (min nəfər)	3495,5	3588,5	3663,7	3724,4	3781,7

Mənbə: www.stat.gov.az.saitinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 1-in məlumatlarından görünür ki, əgər 2015-ci ildə 3495,5 min nəfər qeyri-dövlət sektorunda çalışmışdırsa, hər il dinamik artaraq bu göstərici 2019-cu ildə 3781,7 min nəfərə qədər yüksəlmişdir. 2015-ci ildə məşğul əhalinin 75,0%-i, 2016-cı ildə 75,4%-i, 2017-ci ildə 76,0 %-i, 2018-ci ildə 76,3 %-i və 2019-cu ildə isə 75,8 %-i qeyri dövlət bölməsində fəaliyyət göstərmişdir.

Sahibkarlığın inkişafını stimullaşdıran Azərbaycan Respublikasının qanunvericilik bazanın formalaşdırılması, özəlləşdirmənin həyata keçirilməsi bu gün sahibkarlığın bir sistem halında inkişafına şərait yaratmışdır.

Cədvəl 2

2019-cu ildə Azərbaycanda fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi və inzibati rayonlar üzrə bölgüsü

№	İqtisadi rayonlar	Cəmi	Mikro	Kiçik	Orta
1.	Ölkə üzrə cəmi: O cümlədən:	271304	262622	5956	2726
2.	Bakı şəhəri	129989	124317	4026	1646
3.	Abşeron iqtisadi rayonu	22786	22236	365	185
4.	Gəncə-Qazax iqtisadi rayonu	24825	24374	290	161
5.	Şəki-Zaqatala iqtisadi rayonu	13327	13055	164	108
6.	Lənkəran iqtisadi rayonu	13653	13427	151	81
7.	Quba-Xaçmaz iqtisadi rayonu	11270	11047	140	83
8.	Aran iqtisadi rayonu	37403	36664	480	259
9.	Yuxarı Qarabağ iqtisadi rayonu	4287	4178	73	36
10.	Kəlbəcər-Laçın iqtisadi rayonu	381	350	24	7
11.	Dağlıq Şirvan iqtisadi rayonu	5937	5822	75	40
12.	Naxçıvan MR	7446	7158	168	120

Mənbə: www.stat.gov.az.saitinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 2-nin məlumatlarına əsasən deyə bilərik ki, 2019-cu ilin sonuna ölkədə 271304 vahid sahibkarlıq subyektləri fəaliyyət göstərmişdir. Ondan 262622 vahid mikro, 5956 kiçik və 2726 vahid isə orta sahibkar subyektləridir.

Ölkə üzrə sahibkarlıq subyektlərinin 47,9%-i, yəni 129989 vahidi təkcə Bakı şəhərində, 14,0%-i, yəni 37403 vahidi Aran iqtisadi rayonu ərazisində, 8,4%-i, yəni 22786 vahidi Abşeron iqtisadi rayonunda, 9,2%-i, yəni 24825 vahidi Gəncə-Qazax iqtisadi rayonu ərazisində, ən az isə 0,14% sahibkarlıq subyekti 381 vahid olmaqla Kəlbəcər-Laçın iqtisadi rayonun ərazisində yerləşir. Ölkə üzrə sahibkarlıq subyektlərinin qeyri-bərabər yerləşməsinin əsas səbəbi əhalinin mərkəzi şəhərlərdə sıxlığının üstünlük təşkil etməsi və iş yerlərinin kənar bölgələrdə az olması ilə izah olunur. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının həyata keçirilməsi, sahibkarlığın inkişafının stimullaşdırılması üzrə digər normativ-hüquqi aktlar gələcəkdə bölgələrdə sahibkarlığın innovativ yönümdə inkişafı üçün zəmin yaradacaqdır.

Son illərin statistik məlumatlarına əsaslanaraq deyə bilərik ki, Azərbaycanın iqtisadi rayonlarında da sahibkarlıq subyektləri tərəfindən cari qiymətlərlə məhsul buraxılışının həcmi ildən ilə artmışdır. Nəticədə ölkə üzrə cari qiymətlərlə məhsul buraxılışı 2015-ci ildəki 57445,7 mln. manatdan 2019-cu ildə 89106,1 mln. manata çatmışdır ki, bu da 31660,4 mln. manat çox məhsul buraxılışı deməkdir. Bu isə 2015-ci ildə buraxılan məhsulun 55,0%-dən çoxdur.

Cədvəl 3

Azərbaycanın iqtisadi rayonlarında 2015-2020 ci illər ərzində sahibkarlıq subyektləri tərəfindən cari qiymətlərlə məhsul buraxılışı (mln. man.)

№	İqtisadi rayonlar	2015	2017	2018	2019	2020
1.	Ölkə üzrə cəmi: O cümlədən:	57445,7	78185,7	86493,7	89106,1	79256,7
2.	Bakı şəhəri	40355,4	55790,7	62499,9	60910,4	51325,8
3.	Abşeron iqtisadi rayonu	1578,7	2300,4	3062,5	5313,9	5529,4
4.	Gəncə-Qazax iqtisadi rayonu	2757,4	3699,8	3724,2	4150,7	4348,5
5.	Şəki-Zaqatala iqtisadi rayonu	1131,4	1541,1	1639,4	1879,8	1970,1
6.	Lənkəran iqtisadi rayonu	1456,9	1872,6	1887,2	1822,9	1741,6
7.	Quba-Xaçmaz iqtisadi rayonu	1214,4	1611,4	1723,7	2132,7	1950,9
8.	Aran iqtisadi rayonu	4890,5	6459,2	6926,3	7521,1	7076,0
9.	Yuxarı Qarabağ iqtisadi ray.	377,1	598,9	541,7	637,0	632,9
10.	Kəlbəcər-Laçın iqtisadi ray.	70,1	73,8	78,1	97,8	103,4
11.	Dağlıq Şirvan iqtisadi rayonu	589,2	798,8	883,3	1026,1	890,1
12.	Naxçıvan MR	3024,6	3439,0	3527,4	3613,7	3688,0

Mənbə: www.stat.gov.az.saitinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 3-ün məlumatları təhlil edilərkən məlum olur ki, 2015-ci ildən etibarən ölkənin iqtisadi rayonları üzrə cari qiymətlərlə məhsul buraxılışı 2019-cu ilə qədər dinamik olaraq artmış, lakin 2020-ci ildə pandemiya tədbirləri ilə əlaqədar olaraq bəzi iqtisadi rayonlar istisna olmaqla, əksəriyyət iqtisadi rayonlarda 2019-cu illə müqayisədə azalmışdır. Ölkə sahibkarlarının ən çox fəaliyyət göstərdiyi Bakı şəhərində cari qiymətlərlə məhsul buraxılışı 2015-ci ildəki 40355,4 mln. manatdan artaraq 2019-cu ildə 60910,4 mln. manata çatmışdır ki, bu da 20555,0 mln.manat və ya 51,0% çox məhsul buraxılışı deməkdir. Lakin Bakı şəhərində 2019-cu illə müqayisədə 2020-ci ildə məlum tədbirlərlə bağlı sahibkarlıq subyektlərində fəaliyyətin azalması hesabına 9584,6 mln. manatlıq cari qiymətlərlə məhsul buraxılışı azalmışdır.

Ölkədə sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər, sosial-iqtisadi inkişafa dair dövlət proqramlarının tətbiqi, Strateji Yol Xəritələrinin davamlı iqtisadi inkişaf istiqamətində təsiri bütün iqtisadi rayonlarda sahibkarlığın inkişafına şərait yaratmış, nəticədə 2019-cu ilə qədər ölkənin iqtisadi rayonlarında cari qiymətlərlə məhsul buraxılışının həcmi xeyli artmışdır.

2020-ci ildə isə 2019-cu illə müqayisədə Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Kəlbəcər-Laçın və Naxçıvan iqtisadi rayonları istisna olmaqla digər rayonlarda cari qiymətlərlə məhsul buraxılışı nisbətən azaldığından, ölkə üzrə bu göstərici 2019-cu ildəki 89106,1 mln. manatdan 2020-ci ildə 79256,7 mln. manata düşmüşdür. Bu isə ölkə üzrə əvvəlki ilə nisbətən 2020-ci ildə cari qiymətlərlə 9,8 mln. manat dəyərində az məhsul buraxılışı deməkdir.

Azərbaycan iqtisadiyyatında aparıcı sahə neft sənayesi olsa da dövlətin iqtisadi siyasətinin əsas tərkib hissəsi qeyri-neft sektorunun inkişafıdır. İqtisadi fəaliyyət sahələrində sahibkarlığın payının artırılmasına şərait yaradılması bu məqsədi daşıyır[6]. Sahibkarlığın inkişafında diqqətdə saxlanılan sahələr içərisində sənaye məhsullarının istehsal həcminin artırılması xüsusi əhəmiyyət kəsb edir. Aparılan təhlillər göstərir ki, son on il ərzində sənaye məhsulunun istehsal həcmi 1,6 dəfə artmaqla 48 milyard manata çatmışdır.

Cədvəl 4

Azərbaycanda sənaye məhsullarının (iş və xidmətlərin) istehsalı (milyard manat)

№	İllər Göstəricilər	2010	2012	2013	2014	2015	2016	2017	2018
1.	Sənaye məhsulları. Cəmi istehsal	30	35	34	32	26	32	40	48
2.	O cümlədən: Sahibkarlıq sektorunda	24	28	28	25	20	26	32	40
3.	Dövlət sektorunda	6	7	6	7	6	6	8	8

Mənbə: www.stat.gov.az./cource/industru/ saitinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Göründüyü kimi 2010-cu ildə ölkədə cəmi 30 milyard manat məbləğində sənaye məhsulu istehsal edilmiş, ilbəil artaraq 2018-ci ildə ölkədə 48 milyard manatlıq sənaye məhsulu istehsal edilmişdir ki, bu da 2010-cu illə müqayisədə 18 milyard manat çoxdur. 2018-ci ildə istehsal olunmuş sənaye məhsulunun 40 milyard manatlığı və ya 83,3 %-i sahibkarlıq sektorunda istehsal olunmuşdur.

2015-ci ildən sahibkar subyektlərə elmi-texniki yardım göstərmək məqsədilə strukturlar yaradılaraq innovasiya infrastrukturunun formalaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılmağa başlanmışdır. Regionlarda sosial-iqtisadi inkişafın təmin olunması üçün innovasiyaların iqtisadiyyata transformasiya olunması sahibkarlığa innovativ yanaşmanın əhəmiyyətini artırmaqdadır. Bu gün Azərbaycan iqtisadiyyatının inkişafında müasir texnologiya və yeni məhsul növlərinin tətbiqinə əsaslanan innovasiyalı istehsal mühüm yer tutur [2].

Araşdırmalar belə deməyə əsas verir ki, ölkəmizin iqtisadiyyatı bu gün aktiv innovasiya dövrünü yaşayır. İnnovasiya fəallığının təmin edilməsi innovasiya infrastrukturunun inkişafı ilə birbaşa bağlıdır. Bu məqsədlə ölkədə biliyə əsaslanan sahələrin və elmtutumlu texnologiyaların inkişaf etdirilməsi ilə yanaşı, qeyri-neft sektorunun inkişafı da daim diqqət mərkəzində saxlanılmalıdır. Bütün bunlar isə ilk növbədə innovasiyaların idarə edilməsinin mütərəqqi metod və təkmilləşdirilmiş təşkilati-iqtisadi mexanizmlər sisteminin yaradılmasını tələb edir [6].

Azərbaycanda innovativ texnologiyaya əsaslanan sahibkar subyektlərin inkişafı, bazar iqtisadiyyatının hərəkətverici qüvvəsi kimi, xüsusi əhəmiyyətə malikdir. İnnovasiya yönümlü sahibkarlığın inkişafı, xüsusilə, iqtisadiyyatın diversifikasiyasını təmin etməklə, istehsal edilən məhsulların rəqabətqabiliyyətliliyinin artırılmasına, istehlak tələbinin yerli xammallar hesa-

bına ödənilməsinə, iqtisadi fəal əhalinin mobilliyinin artırılmasına və əhalinin məşğulluğunun təmin olunmasına şərait yaratmaqla iqtisadi inkişafı həyata keçirir. Bu baxımdan, sahibkarlığın innovativ inkişafı mütəmadi olaraq dövlət tərəfindən dəstəklənməkdədir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bu ölkələrdə iqtisadi inkişafın təmin olunmasında sahibkarlıq subyektləri əsas rol oynayır. Belə ki, ölkədə iqtisadi artımın yaradılmasında, yeni iş yerlərinin açılmasında bu sektor digər sektorlarla müqayisədə xeyli üstünlüyə malikdir. Aparılan araşdırmalardan məlum olur ki, inkişaf etmiş ölkələrdə ÜDM-in 50-60% dən çoxu sahibkarlıq subyektləri, xüsusilə, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən istehsal olunmuşdur.

İqtisadiyyatın dayanıqlı inkişafının təmin olunmasında inkişaf etməkdə olan dövlətlərdə də sahibkarlıq sektorunun inkişafı istiqamətində geniş miqyaslı iqtisadi tədbirlər həyata keçirilir. Onların bu sahədə başlıca məqsədləri sahibkarlıq subyektlərinin dayanıqlı inkişafının təmin edilməsi ilə yanaşı, eyni zamanda onların yeni iqtisadi inkişaf istiqamətlərinin müəyyən edilməsidir. Bu strateji məqsədə nail olmaq üçün ilk növbədə müəssisələrin rəqabətqabiliyyətliliyini yüksəltmək, sahibkarlıq subyektləri tərəfindən istehsal olunmuş məhsulların bazar payını və innovativ texnologiyalar əsasında istehsalın həcmini artırmaq, istehlakçı tələbatına uyğun keyfiyyətli məhsul istehsalına nail olmaq əsas məsələ kimi qarşıya qoyulur.

Ölkəmizdə iqtisadiyyatın neftdən asılılığını aradan qaldırmaq məqsədilə qeyri-neft sektorunda istehsal olunan məhsulların istehsal həcmini və keyfiyyət göstəricilərini yaxşılaşdırmaqla ixracının stimullaşdırılması, həmçinin, ölkədə məşğulluğun təmin olunması və biznes mühitinin daha yaxşı təşkili kimi əhəmiyyətli məsələlərin həllində sahibkarların innovasiya yönümlü fəaliyyətinə dəstək vermək məqsədilə xüsusi əhəmiyyət kəsb edən silsiləli dövlət tədbirlərinin həyata keçirilməsi bundan sonra da davam etdirilməlidir.

ƏDƏBİYYAT

1. Əhmədov S.T. Kiçik və orta sahibkarlığın inkişafının mövcud vəziyyəti və təkmilləşdirilməsi yolları // AMEA-nın Xəbərləri. İqtisadiyyat elmləri seriyası, 2018 (noyabr-dekabr), s. 134-141.
2. Əliyeva G.O. İnnovasiya və investisiya siyasətinin prioritetlərinin birgəliyi və sənayenin davamlı inkişafı // Azərbaycan Milli Elmlər Akademiyasının Elmi əsərlər toplusu, 2015, № 2, s. 124-130.
3. İsmayılov B.V. Sahibkarlığın çevik idarə edilməsi mexanizminin formalaşdırılması // AMEA-nın Xəbərləri. İqtisadiyyat elmləri seriyası, 2018 (sentyabr-oktyabr), s. 51-58.
4. Hüseynova A. Azərbaycanda innovasiya fəaliyyətinin inkişaf yolu // Azərbaycan vergi jurnalı, 2015, № 4 (124), s. 130-144.
5. Manafov Q.N. Keçid iqtisadiyyatı-sahibkarlıq fəaliyyətinin formalaşmasının zəruri mərhələsidir / "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri" mövzusunda Respublika Elmi-prak tiki konfransın materialları. Bakı, 2010, 982 s.
6. Nəcəfova T.R. Azərbaycanda sahibkarlıq sektorunun müasir inkişaf səviyyəsi // AMEA-nın Xəbərləri. İqtisadiyyat elmləri seriyası, 2020 (yanvar-fevral), s. 62-67.
7. www.stat.gov.az

Naxçıvan Dövlət Universiteti
E-mail: ***allahverdiyev.samir777@gmail.com***

Samir Allahverdiyev

STAGES OF DEVELOPMENT OF INNOVATIVE ENTREPRENEURSHIP IN AZERBAIJAN

The paper examines the current state of innovative entrepreneurship in Azerbaijan and its stages of development.

Examining the country's economic situation before and after independence, we have noted that macroeconomic stability has been established in the country as a result of purposeful policy pursued since 1996. The first steps have been taken in the formation and development of entrepreneurship.

The analysis of the development of innovation-oriented entrepreneurship in the regions is carried out, the activities of business entities in the development of the industry are studied.

In the end, it is considered expedient to continue measures to stimulate innovative entrepreneurship to ensure economic development in the country.

Keywords: *entrepreneurship, innovation, stage, micro, small and medium business, industry.*

Самир Аллахвердиев

ЭТАПЫ РАЗВИТИЯ ИННОВАЦИОННОГО ПРЕДПРИНИМАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ

В статье исследуется современное состояние инновационного предпринимательства в Азербайджане и этапы его развития.

Анализируя экономическую ситуацию в стране до и после обретения независимости, отмечается, что в результате целенаправленной политики, проводимой с 1996 года, в стране установлена макроэкономическая стабильность, сделаны первые шаги в становлении и развитии предпринимательства.

Проведен анализ развития инновационно-ориентированного предпринимательства в регионах, изучена деятельность хозяйствующих субъектов в развитии промышленности.

В конце концов, считается целесообразным продолжить меры по стимулированию инновационного предпринимательства с целью обеспечения экономического развития в стране.

Ключевые слова: *предпринимательство, инновации, этап, микро-, малый и средний бизнес, промышленность.*

(İqtisad elmləri doktoru, professor Ağarza Rüstəmov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 16.07.2021
Son variant 27.08.2021

UOT 314

KAZIM NAĞIYEV

NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ƏHALİNİN TƏBİİ HƏRƏKƏT GÖSTƏRİCİLƏRİ VƏ ONLARIN DƏYİŞİLMƏSİ DİNAMİKASI

Məqalədə Naxçıvan Muxtar Respublikasında əhalinin təbii hərəkətinə dair məlumatlar öz əksini tapmış, həmçinin əhalinin təbii hərəkətində baş verən dəyişikliklər, o cümlədən şəhər və kənd yerlərində əhalinin doğum, ölüm və təbii artım göstəricilərinə dair statistik məlumatlar təhlil edilmişdir. Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, 2000-2019-cu illər ərzində muxtar respublikada əhalinin ölüm səviyyəsi və xüsusilə də 1 yaşınadək uşaqlar arasında ölənlərin həm mütləq sayı, həm də hər 1000 nəfər diri doğulana görə onun səviyyəsi əhəmiyyətli dərəcədə azalmışdır.

Açar sözlər: *insan potensialı, doğum, ölüm, təbii artım.*

Əhali forma və məzmunundan asılı olmayaraq, bütün cəmiyyətlərdə istehsal prosesinin baş verməsi və onun arasıkəsilmədən təkrarlanması üçün zəruri şərtdir. Bu şərtin reallaşması isə əhalinin təbii təkrar istehsal göstəricilərini özündə əks etdirən demoqrafik proseslər vasitəsilə reallaşır. Başqa sözlə desək, konkret ölkə və ərazi daxilində insan potensialının yaranıb inkişaf etməsinin başlıca mənbəyini həmin ölkə və ərazidə yaşayan əhalinin təbii təkrar istehsalı prosesi (doğum, ölüm və təbii artımı) təşkil edir [2, s. 79].

Əhalinin təbii təkrar istehsalı dedikdə, nəslin dəyişilməsi vasitəsilə onun yeniləşməsi prosesi başa düşülür. Onun səviyyəsi isə əhalinin doğum, ölüm əmsalları və bunlar arasındakı nisbətlə müəyyən edilir. Əhalinin təbii təkrar istehsalı səviyyəsinə təsir edən amillər bütünlükdə götürüldükdə onun sayı ilə yanaşı demoqrafik quruluşuna da təsir göstərir. Əhalinin demoqrafik quruluşu dedikdə - onun müəyyən əlamətləri üzrə bölünməsi, daha doğrusu, əhalinin yaş-cins və ailə tərkibi, etnik, təhsil səviyyəsi və demoqrafik hərəkət tərzi tipinə görə quruluşu, sosial və iqtisadi qruplarına görə tərkibi və sair başa düşülür [3, s. 58, 59].

1991-2019-cu illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin doğum səviyyəsi azalmağa doğru meyl etmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikasında əhalinin hər 1000 nəfərinə görə doğum səviyyəsi 59,6% azalaraq 1991-ci ildəki 29,2 nəfərdən 2019-cu ildə 11,8 nəfərə, təbii artım səviyyəsi isə 69,7% azalaraq 24,1 nəfərdən 7,3 nəfərə düşmüşdür. 1991-ci ilə nisbətən 2000-ci ildə Muxtar Respublikada əhalinin hər 1000 nəfərinə görə doğum səviyyəsi 44,9% azalaraq 29,2 nəfərdən 16,1 nəfərə, təbii artım səviyyəsi 55,6% azalaraq 24,1 nəfərdən 10,7 nəfərə düşmüş, 2000-ci ilə nisbətən 2009-cu ildə isə əhalinin hər 1000 nəfərinə görə doğum səviyyəsi 21,7% artaraq 16,1 nəfərdən 19,6 nəfərə, təbii artım səviyyəsi 33,6% artaraq 10,7 nəfərdən 14,3 nəfərə qalxmışdır. 2009-cu ilə nisbətən 2019-cu ildə isə əhalinin hər 1000 nəfərinə görə doğum səviyyəsi 39,8% azalaraq 19,6 nəfərdən 11,8 nəfərə, təbii artım səviyyəsi isə 48,9% azalaraq 14,3 nəfərdən 7,3 nəfərə düşmüşdür.

Naxçıvan Muxtar Respublikasında cins üzrə doğulanlar, ölənlər və təbii artım (ilin sonuna nəfər)

Göstəricilər / İllər	Kişilər			Qadınlar		
	Doğulan-ların sayı	Ölənlərin sayı	Təbii artım	Doğulan-ların sayı	Ölənlərin sayı	Təbii artım
Şəhər və kənd yerləri üzrə						
2000	3093	1035	2058	2712	901	1811
2001	2995	967	2028	2458	1000	1458
2002	2811	1059	1752	2489	986	1503
2003	2920	1055	1865	2484	1073	1411
2004	3100	1063	2037	2715	955	1760
2005	3382	1101	2281	2968	1010	1958
2006	3106	1113	1993	2705	937	1768
2007	4024	1067	2957	3562	966	2596
2008	4126	1131	2995	3576	1016	2560
2009	4167	1050	3117	3685	1059	2626
2010	5733	1031	4702	4383	1013	3370
2011	5287	1087	4200	5117	938	4179
2012	5398	1091	4307	5127	915	4212
2013	5168	1009	4159	4595	992	3603
2014	3536	944	2592	3087	914	2173
2015	3511	954	2557	3120	905	2215
2016	3390	973	2417	3120	877	2243
2017	2899	1016	1883	2782	954	1828
2018	2795	1048	1745	2510	1007	1503
2019	2853	1081	1772	2562	999	1563
Şəhər yerləri üzrə						
2000	717	279	438	653	230	423
2001	776	275	501	535	266	269
2002	716	311	405	574	280	294
2003	717	309	408	635	299	336
2004	730	334	396	630	267	363
2005	750	331	419	647	293	354
2006	729	339	390	650	274	376
2007	1302	331	971	1227	270	957
2008	1049	336	713	883	290	593
2009	1025	310	715	955	297	658
2010	1462	290	1172	1074	272	802
2011	1418	296	1122	1261	270	991
2012	1453	339	1114	1320	246	1074
2013	1353	303	1050	1232	244	988
2014	944	308	636	811	268	543
2015	964	321	643	824	268	556
2016	955	350	605	880	295	585
2017	811	414	397	797	345	452
2018	750	354	396	700	331	369
2019	746	323	423	628	303	325

Kənd yerləri üzrə						
2000	2376	756	1620	2059	671	1388
2001	2219	692	1527	1923	734	1189
2002	3121	755	2366	3049	723	2326
2003	2873	744	2129	2553	642	1911
2004	3038	880	2158	2849	628	2221
2005	2603	698	1905	2300	674	1626
2006	2277	792	1485	2044	712	1332
2007	2329	742	1587	2085	656	1429
2008	2278	688	1590	1805	770	1035
2009	3142	740	2402	2730	762	1968
2010	4271	741	3530	3309	741	2568
2011	3869	791	3078	3856	668	3188
2012	3945	752	3193	3807	669	3138
2013	3815	706	3109	3363	748	2615
2014	2592	636	1956	2276	646	1630
2015	2547	633	1914	2296	637	1659
2016	2435	623	1812	2240	582	1658
2017	2088	602	1486	1985	609	1376
2018	2045	694	1351	1810	676	1134
2019	2107	758	1349	1934	696	1238

Cədvəldən göründüyü kimi 2000-ci illə müqayisədə 2019-cu ildə Naxçıvan Muxtar Respublikasında doğulanlar arasında oğlan uşaqlarının sayı 240 nəfər və ya 7,8% azalaraq 3093 nəfərdən 2853 nəfərə, təbii artım isə 286 nəfər və ya 13,9% azalaraq 2058 nəfərdən 1772 nəfərə düşmüş, qız uşaqlarının sayı isə 150 nəfər və ya 5,5% azalaraq 2712 nəfərdən 2562 nəfərə, təbii artım isə 248 nəfər və ya 13,7% azalaraq 1811 nəfərdən 1563 nəfərə düşmüşdür. Şəhər yerlərində doğulanlar arasında oğlan uşaqlarının sayı 29 nəfər və ya 4,0% artaraq 717 nəfərdən 746 nəfərə qalxmış, təbii artım isə 15 nəfər və ya 3,4% azalaraq 438 nəfərdən 423 nəfərə düşmüş, qız uşaqlarının sayı isə 25 nəfər və ya 3,8% azalaraq 653 nəfərdən 628 nəfərə, təbii artım isə 98 nəfər və ya 23,2% azalaraq 423 nəfərdən 325 nəfərə düşmüşdür. Kənd yerlərində isə doğulanlar arasında oğlan uşaqlarının sayı 269 nəfər və ya 11,3% azalaraq 2376 nəfərdən 2107 nəfərə, təbii artım isə 271 nəfər və ya 16,7% azalaraq 1620 nəfərdən 1349 nəfərə düşmüş, qız uşaqlarının sayı isə 125 nəfər və ya 6,1% azalaraq 2059 nəfərdən 1934 nəfərə, təbii artım isə 150 nəfər və ya 10,8% azalaraq 1388 nəfərdən 1238 nəfərə düşmüşdür.

Naxçıvan Muxtar Respublikasında əhalinin doğum səviyyəsinin azalmasına bir sıra demoqrafik, sosial-iqtisadi, milli-etik xarakterli amillər təsir göstərmişdir. Bu amillərə əhalinin maddi və mədəni həyat səviyyəsinin dəyişilməsi və təhsil səviyyəsinin yüksəlməsi, ailədə uşaqların sayının şüurlu surətdə nizamlanması proseslərinin güclənməsi, nikahların və boşanmaların sayındakı dəyişikliklər və s. daxildir.

Əhalinin təbii təkrar istehsal səviyyəsinə təsir edən digər mühüm amil onun ölüm səviyyəsidir. Demoqrafiya elmində nəslin kəsilməsi prosesi kimi başa düşülən ölüm səviyyəsinə təsir edən amillər də müxtəlif olub, ilk növbədə, əhalinin həyat şəraiti, səhiyyənin inkişafı və əhalinin tibbi kadrlarla təmin edilmə dərəcəsi, qidalanması səviyyəsi, sanitariya və gigiyena xidmətinin vəziyyəti və sairədən asılıdır (3, s. 59). Ölüm doğumdan sonra ikinci mühüm

demoqrafik hadisədir. Demoqrafiyada ölüm dedikdə – nəslin kəsilməsi prosesi başa düşülür və ona müxtəlif yaşlarda baş verən ölüm hallarından əmələ gələn, real və ya şərti nəslin kəsilməsi ardıcıllığının məcmusu ilə müəyyən edilən kütləvi statistik proses kimi baxılır [2, s. 115].

Naxçıvan Muxtar Respublikası əhalisinin sayca dəyişməsinə təsir edən mühüm amillərdən biri də əhalinin ölüm səviyyəsi olmuşdur. 1991-2019-cu illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin hər 1000 nəfərinə görə ölüm səviyyəsi 11,8% azalaraq 1991-ci ildəki 5,1 nəfərdən 2019-cu ildə 4,5 nəfərə düşmüşdür. Muxtar respublikada əhalinin hər 1000 nəfərinə düşən ölüm səviyyəsi 1991-ci ilə nisbətən 2000-ci ildə isə 5,9% artaraq 5,1 nəfərdən 5,4 nəfərə qalxmışdır. Əhalinin hər 1000 nəfərinə düşən ölüm səviyyəsi 2000-ci ilə nisbətən 2009-cu ildə 1,9% azalaraq 5,4 nəfərdən 5,3 nəfərə, 2009-cu ilə nisbətən 2019-cu ildə isə 15,1% azalaraq 5,3 nəfərdən 4,5 nəfərə düşmüşdür.

2009-cu illə müqayisədə 2019-cu ildə Naxçıvan Muxtar Respublikasında ölənlər arasında kişilərin sayı 31 nəfər və ya 2,9% artaraq 1050 nəfərdən 1081 nəfərə qalxmış, qadınların sayı isə 60 nəfər və ya 5,7% azalaraq 1059 nəfərdən 999 nəfərə düşmüşdür. Şəhər yerlərində ölənlər arasında kişilərin sayı 13 nəfər və ya 4,2% artaraq 310 nəfərdən 323 nəfərə qalxmış, qadınların sayı isə 6 nəfər və ya 2,0% artaraq 297 nəfərdən 303 nəfərə qalxmışdır. Kənd yerlərində isə ölənlər arasında kişilərin sayı 18 nəfər və ya 2,4% artaraq 740 nəfərdən 758 nəfərə qalxmış, qadınların sayı isə 66 nəfər və ya 8,7% azalaraq 762 nəfərdən 696 nəfərə düşmüşdür.

Əhalinin təbii hərəkəti nəsillərin arasıkəsilməz bərpası deməkdir. Bu cəhətdən əhalinin doğum, ölüm və təbii artım göstəriciləri ilə bərabər anaların dünyaya gətirdiyi uşaqların qorunması məqsədilə onların 1 yaşa qədər ölənlərin miqdarı da əsas amil sayılır [1, s. 225]. Muxtar respublikada 1 yaşınadək uşaqlar arasında ölənlərin həm mütləq sayı, həm də hər 1000 nəfər diri doğulana görə onun səviyyəsi azalmışdır. Belə ki, 2000-2019-cu illərdə 1 yaşınadək uşaqlar arasında ölənlərin mütləq sayı 49 nəfər və ya 75,4% azalaraq 65 nəfərdən 16 nəfərə, hər 1000 nəfər diri doğulana görə isə onun səviyyəsi 8,2 nəfər və ya 73,2% azalaraq 11,2 nəfərdən 3,0 nəfərə, o cümlədən şəhər yerlərində 1 yaşınadək uşaqlar arasında ölənlərin mütləq sayı 9 nəfər və ya 64,3% azalaraq 14 nəfərdən 5 nəfərə, hər 1000 nəfər diri doğulana görə isə onun səviyyəsi 6,6 nəfər və ya 64,7% azalaraq 10,2 nəfərdən 3,6 nəfərə, kənd yerlərində isə 1 yaşınadək uşaqlar arasında ölənlərin mütləq sayı 40 nəfər və ya 78,4% azalaraq 51 nəfərdən 11 nəfərə, hər 1000 nəfər diri doğulana görə isə onun səviyyəsi 8,8 nəfər və ya 76,5% azalaraq 11,5 nəfərdən 2,7 nəfərə düşmüşdür.

Statistik məlumatların təhlilindən göründüyü kimi Naxçıvan Muxtar Respublikasında əhalinin ölüm səviyyəsi azalmağa doğru meyl etmiş, xüsusilə də 1 yaşınadək uşaqlar arasında ölənlərin həm mütləq sayı, həm də hər 1000 nəfər diri doğulana görə onun səviyyəsi əhəmiyyətli dərəcədə azalmışdır. Naxçıvan Muxtar Respublikasında əhalinin ölüm səviyyəsinin azalmasına bir sıra sosial-iqtisadi amillərin, o cümlədən əhalinin həyat şəraitinin yaxşılaşması, həmçinin muxtar respublikada səhiyyə sisteminin inkişafı, əhaliyə göstərilən səhiyyə xidmətinin yüksəldil-məsi amilinin də təsiri olmuşdur.

2009-2019-cu illər ərzində Naxçıvan Muxtar Respublikasında əhalinin doğum, ölüm və təbii artım göstəricilərində bir sıra dəyişikliklər baş vermişdir. 2009-cu illə müqayisədə 2019-cu ildə isə muxtar respublikada doğulanların sayı 2437 nəfər və ya 31,0% azalaraq 7852 nəfərdən 5415 nəfərə, ölənlərin sayı 29 nəfər və ya 1,4% azalaraq 2109 nəfərdən 2080 nəfərə, təbii artım isə 2408 nəfər və ya 41,9% azalaraq 5743 nəfərdən 3335 nəfərə düşmüşdür.

Naxçıvan Muxtar Respublikasının şəhər və hər bir inzibati rayonunda əhalinin təkrar istehsalı özünəməxsus inkişaf və məskunlaşmasındakı qanunauyğunluqlardan asılıdır. 2009-

2019-cu illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və ayrı-ayrı inzibati rayonlarında əhalinin doğum, ölüm və təbii artım göstəricilərinə nəzər salsaq görərik ki, 2009-cu illə müqayisədə 2019-cu ildə Naxçıvan şəhərində doğulanların sayı 403 nəfər və ya 29,8% azalaraq 1352 nəfərdən 949 nəfərə düşmüş, ölənlərin sayı 28 nəfər və ya 6,9% artaraq 403 nəfərdən 431 nəfərə qalxmış, təbii artım isə 431 nəfər və ya 45,4% azalaraq 949 nəfərdən 518 nəfərə düşmüşdür. Şərur rayonunda doğulanların sayı 512 nəfər və ya 25,6% azalaraq 2003 nəfərdən 1491 nəfərə, ölənlərin sayı 69 nəfər və ya 12,4% azalaraq 557 nəfərdən 488 nəfərə, təbii artım isə 443 nəfər və ya 30,6% azalaraq 1446 nəfərdən 1003 nəfərə düşmüşdür. Babək rayonunda doğulanların sayı 439 nəfər və ya 30,6% azalaraq 1434 nəfərdən 995 nəfərə, ölənlərin sayı 8 nəfər və ya 2,4% azalaraq 331 nəfərdən 323 nəfərə, təbii artım isə 431 nəfər və ya 39,1% azalaraq 1103 nəfərdən 672 nəfərə düşmüşdür. Ordubad rayonunda doğulanların sayı 361 nəfər və ya 41,4% azalaraq 871 nəfərdən 510 nəfərə düşmüş, ölənlərin sayı 22 nəfər və ya 8,7% artaraq 252 nəfərdən 274 nəfərə qalxmış, təbii artım isə 383 nəfər və ya 61,9% azalaraq 619 nəfərdən 236 nəfərə düşmüşdür. Culfa rayonunda doğulanların sayı 344 nəfər və ya 39,0% azalaraq 882 nəfərdən 538 nəfərə düşmüş, ölənlərin sayı 21 nəfər və ya 10,9% artaraq 192 nəfərdən 213 nəfərə qalxmış, təbii artım isə 365 nəfər və ya 52,9% azalaraq 690 nəfərdən 325 nəfərə düşmüşdür. Kəngərli rayonunda doğulanların sayı 131 nəfər və ya 20,9% azalaraq 626 nəfərdən 495 nəfərə, ölənlərin sayı 29 nəfər və ya 16,9% azalaraq 171 nəfərdən 142 nəfərə, təbii artım isə 102 nəfər və ya 22,4% azalaraq 455 nəfərdən 353 nəfərə düşmüşdür. Şahbuz rayonunda doğulanların sayı 136 nəfər və ya 33,4% azalaraq 407 nəfərdən 271 nəfərə, ölənlərin sayı 6 nəfər və ya 4,0% azalaraq 151 nəfərdən 145 nəfərə, təbii artım isə 130 nəfər və ya 50,8% azalaraq 256 nəfərdən 126 nəfərə düşmüşdür. Sədərək rayonunda doğulanların sayı 111 nəfər və ya 40,0% azalaraq 277 nəfərdən 166 nəfərə düşmüş, ölənlərin sayı 12 nəfər və ya 23,0% artaraq 52 nəfərdən 64 nəfərə qalxmış, təbii artım isə 123 nəfər və ya 54,7% azalaraq 225 nəfərdən 102 nəfərə düşmüşdür.

Statistik məlumatların təhlilindən göründüyü kimi 2009-cu illə müqayisədə 2019-cu ildə Naxçıvan Muxtar Respublikasının şəhər və ayrı-ayrı inzibati rayonlarında əhalinin doğum göstəricilərində ən çox azalma Ordubad (41,4%), Sədərək (40,0%) və Culfa (39,0%) rayonlarında, ölüm gostəricilərində artım Naxçıvan şəhərində (6,9%), Sədərək (23,0%), Culfa (10,9%) və Ordubad (8,7%) rayonlarında, ölüm gostəricilərində azalma isə Kəngərli (16,9%), Şərur (12,4%), Şahbuz (4,0%) və Babək (2,4%) rayonlarında, təbii artım göstəricilərində isə ən çox azalma Naxçıvan şəhərində (45,4%), Ordubad (61,9%), Culfa (52,9%), Sədərək (54,7%) və Şahbuz (50,8%) rayonlarında baş vermişdir.

Aparılan təhlillərdən aydın olur ki, 2009-cu illə müqayisədə 2019-cu ildə Naxçıvan Muxtar Respublikasında əhalinin doğum və təbii artım göstəricilərində azalma müşahidə olunsa da lakin ayrı-ayrılıqda illər üzrə muxtar respublikada doğum səviyyəsinin yüksək olması və ölüm səviyyəsinin isə tədricən azalması nəticəsində təbii artımın yüksək olması əhalinin artımını təmin etmişdir. Belə ki, 2009-2019-cu illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin sayı 61,8 min nəfər və ya 15,6% artaraq 397,3 min nəfərdən 459,1 min nəfərə, o cümlədən şəhər əhalisinin sayı 19,1 min nəfər və ya 16,6% artaraq 115,4 min nəfərdən 134,5 min nəfərə, kənd əhalisinin sayı isə 39,7 min nəfər və ya 14,1% artaraq 281,9 min nəfərdən 321,6 min nəfərə, həmçinin kişilərin sayı 29,9 min nəfər və ya 15,1% artaraq 197,8 min nəfərdən 227,7 min nəfərə, qadınların sayı isə 28,9 min nəfər və ya 14,5% artaraq 199,5 min nəfərdən 228,4 min nəfərə çatmışdır.

2019-cu ildə Naxçıvan Muxtar Respublikasında doğulanların sayı 5415 nəfər (kişilər üzrə 2853 nəfər, qadınlar üzrə 2562 nəfər), ölənlərin sayı 2080 nəfər (kişilər üzrə 1081 nəfər,

qadınlar üzrə 999 nəfər), təbii artım isə 3335 nəfər (kişilər üzrə 1772 nəfər, qadınlar üzrə 1563 nəfər) olmuşdur. Həmçinin şəhər yerlərində doğulanların sayı 1374 nəfər (kişilər üzrə 746 nəfər, qadınlar üzrə 628 nəfər), ölənlərin sayı 626 nəfər (kişilər üzrə 323 nəfər, qadınlar üzrə 303 nəfər), təbii artım isə 748 nəfər (kişilər üzrə 423 nəfər, qadınlar üzrə 325 nəfər) olmuşdur. Kənd yerlərində isə doğulanların sayı 4041 nəfər (kişilər üzrə 2107 nəfər, qadınlar üzrə 1934 nəfər), ölənlərin sayı 1454 nəfər (kişilər üzrə 758 nəfər, qadınlar üzrə 696 nəfər), təbii artım isə 2587 nəfər (kişilər üzrə 1349 nəfər, qadınlar üzrə 1238 nəfər) olmuşdur.

Yuxarıda qeyd olunan statistik məlumatlara əsasən doğulanlarla ölənlərin sayını müqayisə etsək görərik ki, 2019-cu ildə muxtar respublikada ümumi əhali üzrə doğulanların sayı ölənlərin sayından 2,6 dəfə, kişilər və qadınlar üzrə də həmçinin 2,6 dəfə çox olmuşdur. Həmin müqayisəni şəhər yerlərində aparsaq görərik ki, doğulanların sayı ölənlərin sayından 2,2 dəfə, kişilər üzrə 2,3 dəfə, qadınlar üzrə isə 2,1 dəfə, kənd yerlərində isə doğulanların sayı ölənlərin sayından 2,8 dəfə, kişilər və qadınlar üzrə də həmçinin 2,8 dəfə çox olmuşdur. 2019-cu ildə Naxçıvan Muxtar Respublikasının şəhər və ayrı-ayrı inzibati rayonlarında isə əhalinin doğum, ölüm və təbii artım göstəricilərinə nəzər salsaq görərik ki, həmin dövrdə Naxçıvan şəhərində doğulanların sayı (949 nəfər) ölənlərin sayından (431 nəfər) 2,2 dəfə çox olmuş, təbii artım isə 518 nəfər təşkil etmişdir. Şərur rayonunda doğulanların sayı (1491 nəfər) ölənlərin sayından (488 nəfər) 3,1 dəfə çox olmuş, təbii artım isə 1003 nəfər təşkil etmişdir. Babək rayonunda doğulanların sayı (995 nəfər) ölənlərin sayından (323 nəfər) 3,1 dəfə çox olmuş, təbii artım isə 672 nəfər təşkil etmişdir. Ordubad rayonunda doğulanların sayı (510 nəfər) ölənlərin sayından (274 nəfər) 1,9 dəfə çox olmuş, təbii artım isə 236 nəfər təşkil etmişdir. Culfa rayonunda doğulanların sayı (538 nəfər) ölənlərin sayından (213 nəfər) 2,5 dəfə çox olmuş, təbii artım isə 325 nəfər təşkil etmişdir. Kəngərli rayonunda doğulanların sayı (495 nəfər) ölənlərin sayından (142 nəfər) 3,5 dəfə çox olmuş, təbii artım isə 353 nəfər təşkil etmişdir. Şahbuz rayonunda doğulanların sayı (271 nəfər) ölənlərin sayından (145 nəfər) 1,9 dəfə çox olmuş, təbii artım isə 126 nəfər təşkil etmişdir. Sədərək rayonunda doğulanların sayı (166 nəfər) ölənlərin sayından (64 nəfər) 2,6 dəfə çox olmuş, təbii artım isə 102 nəfər təşkil etmişdir. Son illərdə Naxçıvan Muxtar Respublikasında tibbi tədbirlərin geniş vüsət alması və hər cür xəstəliyə qarşı aparılan mübarizə nəticəsində ölüm halları azalmağa doğru meyl etmiş, xüsusilə də 1 yaşınadək uşaqlar arasında ölənlərin həm mütləq sayı, həm də hər 1000 nəfər diri doğulana görə onun səviyyəsi əhəmiyyətli dərəcədə azalmış-dır. Daha doğrusu muxtar respublikada ölümün, xüsusilə də uşaq ölümünün qarşısının alınmasında böyük uğurlar əldə olunmuş və ölüm səviyyəsinin aşağı düşməsi ilə yanaşı əhalinin sayında artım baş vermişdir.

Naxçıvan Muxtar Respublikasında əhalinin sayı və quruluşu demoqrafik, sosial-iqtisadi, milli-mədəni və digər amillərin təsiri nəticəsində ayrı-ayrı tarixi inkişaf mərhələlərində müxtəlif forma və istiqamətlərdə dəyişmişdir. Belə ki, 2000-2020-ci illəri əhatə edən 20 il ərzində Naxçıvan Muxtar Respublikasında əhalinin sayı 100,8 min nəfər və ya 28,1% artaraq 358,8 min nəfərdən 459,6 min nəfərə, o cümlədən şəhər əhalisinin sayı 39,4 min nəfər və ya 40,9% artaraq 96,2 min nəfərdən 135,6 min nəfərə, kənd əhalisinin sayı isə 61,4 min nəfər və ya 23,4 % artaraq 262,6 min nəfərdən 324,0 min nəfərə, həmçinin kişilərin sayı 52,6 min nəfər və ya 29,7% artaraq 177,0 min nəfərdən 229,6 min nəfərə, qadınların sayı isə 48,2 min nəfər və ya 26,5% artaraq 181,8 min nəfərdən 230,0 min nəfərə çatmışdır. Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələrini əhatə edən davamlı inkişaf, həmçinin sosial sahələrin və səhiyyə sisteminin kompleks şəkildə inkişafı, yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluq səviyyə-sinin yüksəldilməsi, yoxsulluğun azaldılması və digər sosial-iqtisadi tədbirlərin uğurla həyata keçirilməsi, həmçinin əhalinin ölüm səviyyəsinin və xüsusilə də 1

yaşınadək uşaqlar arasında ölənlərin həm mütləq sayının, həm də hər 1000 nəfər diri doğulana görə onun səviyyəsinin əhəmiyyətli dərəcədə azalması muxtar respublikada əhalinin sayının artması ilə nəticələnmişdir.

ƏDƏBİYYAT

1. Əhmədov N. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, 452 s.
2. Muradov Ş.M. İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər. Bakı: Elm, 2004, 660 s.
3. Muradov R.Ş. Müasir mərhələdə əhalinin məşğulluq quruluşunun formalaşması və təkmilləşdirilməsi problemləri. Bakı: Elm, 2006, 216 s.
4. www.statistika.nmr.az

AMEA Naxçıvan Bölməsi
E-mail: ***kazımnagiyev0000@gmail.com***

Kazim Nagiyev

NATURAL POPULATION MOVEMENT INDICATORS AND THEIR DYNAMICS IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The paper contains information on the natural movement of the population in the Nakhchivan Autonomous Republic and changes in the natural movement of the population, including statistics on births, deaths, and natural increases in urban and rural areas. As a result of the research, it was found that between 2000 and 2019, the death rate of the population in the autonomous republic, especially the absolute number of deaths among children under one year of age, and its level per 1000 live births decreased significantly.

Keywords: *human potential, birth, death, natural growth.*

Казим Нагиев

ПОКАЗАТЕЛИ ЕСТЕСТВЕННОГО ДВИЖЕНИЯ НАСЕЛЕНИЯ И ИХ ДИНАМИКА В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

В статье содержится информация о естественном движении населения в Нахчыванской Автономной Республике, а также об изменениях в естественном движении населения, в том числе статистические данные о рождаемости, смертности и естественном приросте в городской и сельской местности. В результате исследования было установлено, что в период с 2000 по 2019 год уровень смертности населения в автономной республике, и особенно абсолютное количество смертей среди детей до 1 года, и ее уровень на 1000 живорождений снизились значительно.

Ключевые слова: *человеческий потенциал, рождение, смерть, естественный рост.*

(İqtisad elmləri doktoru, professor Nazim Əhmədov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 14.07.2021
Son variant 30.08.2021

UOT 33

KƏMALƏ TƏHMƏZBƏYOVA

BEYNƏLXALQ REGİONAL İNTEQRASİYA VƏ QLOBAL GÖSTƏRİCİLƏR

Tədqiqatlar göstərir ki, inteqrasiya dövlətlər arasında sədləri, yəni adət-ənənələri, milli dəyərləri, qloballaşma isə investisiya, texnologiya, əmək resurslarının tətbiqi sahəsindəki və s. məhdudiyyətləri aradan qaldırır. Demokratikləşmə isə bu proseslərin beynəlxalq səviyyədə qəbul olunmuş standartlar və prinsiplər əsasında azad, maneəsiz şəkildə baş verməsini nəzərdə tutur. Belə qənaətə gəlmək olar ki, ölkələrin demokratikləşmə səviyyəsi inteqrasion prosesləri sürətləndirən başlıca amillərdən biridir. Əslində demokratiya özü də inteqrasiyanın məhsuludur.

Açar sözlər: *investitsiya, texnologiya, qloballaşma, milli dəyərlər, əmək resursları.*

Regional dövlət birliyinin əhəmiyyəti durmadan artır. Bu bazar iqtisadiyyatı şəraitində beynəlmiləşmənin təzahürü kimi çıxış edir. İnteqrasiya dünya ölkələrinin bir-birinə çoxşaxəli istiqamətdə yaxınlaşması, qovuşması deməkdir. Latıncadan "inteqratio – bərpa olunma, inteqrationus tam vahid kimi ifadələrdən formalaşır". Tarixən inteqrasiya kortəbii şəkildə baş verir. Bu siyasi və dövlətlərarası düşünülmüş münasibətlərdən kənar fəaliyyət hesab olunur. Bu kortəbii fəaliyyətin əsas səbəbi təbii əmək bölgüsünün mövcudluğudur. Belə əmək bölgüsü milli təsərrüfatları və bazarları bir-birindən asılı vəziyyətə salır. Məsələn: Çindən Azərbaycana qədər uzanıb gedən ipək yolu ölkədən ölkəyə keçərək müxtəlif xalqların mədəniyyətlərinin daşıyıcılarına və kortəbii inteqrasiyasına səbəb olurdular. Tədqiqatlar göstərir ki, müharibələr, işğalçılıq müstəmləkəçilik siyasəti özü də müəyyən mənada inteqrasiya törədir. Belə ki, hər hansı bir dövlət zəbt etdiyi əraziyə və ölkələrə öz adət və ənənələrini gətirir və istər-istəməz yerli adət və ənənələrdən nəyi isə mənimsəyir. Araşdırmalara əsasən deyə bilərik ki, bir ölkədə digər ölkənin əsgərləri yerləşdirilirsə, o zaman əsgərlər onların ailələri uşaqları ilə yerli əhali arasında kortəbii adaptasiya baş verir. Məsələn: Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan MR-in VII əsrdə ərəb işğalına məruz qalması islam dininin qəbuluna bir sıra ərəb adət-ənənələrinin ölkəmizin mədəniyyətində, məişətində bu günə qədər yaşaması danılmaz həqiqətdir. Naxçıvan MR-nin 1828-ci il Türkmənçay müqaviləsindən sonra Rusiyanın tərkibinə qatılması və car Rusiyanın yetirdiyi siyasəti, daha sonra sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MR-in Rus hökuməti tərəfindən Azərbaycanın ərazisinə birləşdirilməsi ölkəmizin ictimai, siyasi, mədəni həyatında böyük rol oynamışdır. Ən çox bu dövrdə mədəniyyətimiz, dilimiz, adət və ənənələrimizdə, incəsənətimizdə rus meyli hiss olunmuşdur. Tədqiqatlar göstərir ki, sonralar bu inteqrasiya prosesi Hakim dövlətlər müstəmləkələrdə müstəmləkəçi dövlət, zorakı inteqrasiya siyasəti yeridərək həmin dövlətləri, xalqları özününküləşdirmək istəmişdir. Tədqiqatlara əsasən Əli Həsənovun bir fikrini xatırlamaq yerinə düşər: "Öz ölkəsinin siyasi-iqtisadi inkişafını təmin etməyi qarşısına məqsəd qoyan dövlətlər məcburiyyət qarşısında bu kortəbii və obyektiv proseslərə müvafiq olaraq müdaxilə edir, müəyyən ümumi razılığa gəlir və hamı üçün məqbul hesab edilən qaydalar yaradır və bu qaydalara nəzarət edən dövlətlərarası institutlar yaradır. Bu da təsir altında münasibətlərin qurulması deməkdir. Deməli kortəbii başlanan regional inteqrasiya prosesi dövlətlərin və dövlətlərarası təşkilatların idarəsinə alınır və tənzimlənir". Beləliklə, deyə bilərik ki, inteqrasiya formalaşmasına görə 3 qrupa bölünür: Kortəbii, zorakı və tənzimlənən inteqrasiya. İnteqrasiya prosesləri müəyyən zəmində baş verir. Onun başvermə səbəblərinin əsasında maddi və mənəvi maraqlar və ya tələbat durur. Bu tələbləri doğuran səbəblər isə təbii sərvətlərin qeyri-bərabər paylanması buna əsasən təbii əmək bölgüsünün olması, ixtisaslaşma, əmək ehtiyatlarının qeyri-bərabərliyi, təbii iqlim şəraitinin müxtəlifliyi və s. daxildir. Tədqiqatlara əsasən deyə bilərik ki, bütün bu deyi-

lənlər qlobal inteqrasiya münasibətlərini formalaşdırır. Beynəlxalq əlaqələrin formalaşması mexanizmi çoxşaxəli olsa da, onu 3 qrupda birləşdirmək olar: 1. İstehsal sahəsində baş verən inteqrasiya (assosiasiyaların, konsernlərin və korporasiyaların yaranması); 2. Qeyri istehsal sahələrində baş verən inteqrasiya (maarif, mədəniyyət, idman, səhiyyə); 3) Xidmət sahələrində baş verən inteqrasiya (nəqliyyat, rabitə, ticarət,). Lakin inteqrasiya iqtisadiyyat yönümlü olduğu qədər də siyasi bir prosesdir. Belə ki, inteqrasiyanın əlaməti kimi iqtisadiyyat sferasında ümumi siyasətin formalaşdırılması və reallaşdırılması çıxış edir. Tədqiqatlar göstərir ki, beynəlxalq iqtisadi siyasət bir neçə istiqamətdə aparılır: 1) Xarici ticarət siyasəti; 2) Ödəmə balans siyasəti; 3) İnvestisiya siyasəti; 4) Xarici yardım siyasəti.

Lakin inteqrasiya prosesini dünyada baş verən digər dövlətlərarası sosial, iqtisadi və siyasi proseslərdən fərqləndirən bir neçə faktor mövcuddur. Bunlar aşağıdakılardan ibarətdir. 1. İnteqrasiya regionda və qlobal aləmdə vahid təsərrüfat sisteminin bəzi sahələrdə yaranmasından və onun birgə idarəçiliyindən ibarətdir; 2. İnteqrasiya baş verən regionlarda regionlararası sərhədlərin götürülməsini tələb edir; 3. İnteqrasiya vahid region daxili bazar formalaşdırır, istehsal və xidmət sahələrini də inkişaf etdirir; 4. İnteqrasiya milli adət-ənənələrinin, mədəniyyətlərin qovuşmasını tələb edir. Göründüyü kimi, inteqrasiya bir elm kimi formalaşır, genişlənir, özünün predmet və metodlarını yaradır. Professor Əli Həsənov yazır: "İnteqrasiyanın predmeti-ictimai-iqtisadi, elmi-texniki və informasiya formasında götürə bilərik. Coğrafiyasına görə isə qlobal, regional, subregional formada təzahür edir." Bütün deyilənləri və araşdırmaları nəzərə alaraq deyə bilərik ki, "Elmin predmeti dövlətlərarası ictimai-siyasi və sosial-iqtisadi münasibətlərin qovuşması yəni inteqrasiya proseslərini doguran səbəblərin elmi əsaslarla öyrənilməsidir." Məhz bu elmin obyekti, ictimai, iqtisadi, siyasi, elmi-texniki hadisə və proseslərin inkişafı, inteqrasiyası, subyekti isə bu hadisə və prosesləri tənzimləyən dövlətlər, BHAT və BQHT hesab olunmalıdır.

Kortəbii inteqrasiyadan fərqli olaraq, obyektiv tənzimlənən inteqrasiya iqtisadi ədəbiyyatlarda 5 mərhələdən keçir: 1. Azad ticarət zonası; 2. Gömrük ittifaqı; 3. Ümumi bazar; 4. İqtisadi ittifaq; 5. Valyuta ittifaqı.

Araşdırmalar göstərir ki, inteqrasiya özlüyündə qloballaşma doğurduğu kimi, regionlaşmanın da əhəmiyyətini artırır və yeni istehsal əlaqələri, münasibətləri törədir. İnteqrasiya prosesində qloballaşma və regionlaşma tam vəhdət halında çıxış edir. Elşən Hacızadə bu haqda yazır: "Müasir iqtisadi inteqrasiya modeli açıq regionalizmdə tərənnüm olunur, onun məqsədinin fövqündə azad ticarət sferasının genişlənməsi, insan və kapital axının sərbəst hərəkət missiyası dayanır". Araşdırmalar göstərir ki, regional inteqrasiya ilk dəfə Avropada başlanmışdır. Müasir zamanda inteqrasiya elə bir iqtisadi kateqoriyadır ki, heç kim onun qarşısını almaq iqtidarında deyil. Tədqiqatlar göstərir ki, hər bir inkişaf etmiş ölkə qlobal və regional inteqrasiya prosesini öz mənafeləri axarına yönəldə bilir. Belə ki, zəif inkişaf etmiş ölkələr yeni iqtisadi, siyasi və digər cəhətdən inkişaf etmiş ölkələrin təsiri altında olur. Zənnimizcə beynəlxalq regional inteqrasiya və qloballaşma prosesində fəal iştirak etmək üçün hər hansı bir dövlət iki əsas şərtə malik olmalıdır: bunlardan biri müstəqillik, ikincisi isə demokratiyadır. Demokratiya ölkədə o zaman baş verə bilər ki, ölkə siyasi və iqtisadi cəhətdən azad olsun. İqtisadi ədəbiyyatlarda demokratiyanın beynəlxalq aləmdə bugünkü standartları:- hakimiyyətə gəlmənin, onun idarəçiliyinin, rəqabət prinsiplərinin açıq və demokratik siyasi mübarizəyə söykənməsi, dövlətin vətəndaşlarının hüquq və azadlıqlarının konstitusiya qanunları ilə təmin edilməsi, hakimiyyət bölgüsü, prinsiplərinin bərqərar olması, vətəndaşların dövlət həyatında iştirakı, azad seçkilərin keçirilməsi və s. ilə ölçülür. Zənnimizcə demokratiya dövlətlərin və insanların inkişaf səviyyəsindən asılı olaraq şüurda formalaşan bir prosesdir. Belə ki, insanlar intellektual səviyyələrindən asılı olaraq fərdi qaydada demokratik münasibətləri formalaşdıraraq cəmiyyətə şamil etmiş sonrakı mərhələdə ən düzgün demokratik prinsiplər

seçilmiş və ümumxalq səsverməsi yolu ilə konstitusiyada öz əksini tapmışdır. Əslində demokratiya özü də inteqrasiyanın məhsuludur. Belə ki, demokratiyanın beşiyi ABŞ sayılır. Demokratiya anlayışı ABŞ prezidenti V.Vilsonun tərəfindən "Dünyanı demokratiya üçün təhlükəsiz edək" çağırışından sonra başlandığını və yayıldığını hesab etmək olar. Araşdırmalar göstərir ki, Azərbaycan müstəqillik qazandıqdan sonra demokratik inkişaf yolunu seçməsi HAQT və BQHT-u ilə əməkdaşlığı qlobal münasibətlərin sürətlə baş verməsinə səbəb olmuşdur. Azərbaycanın Beynəlxalq regional inteqrasiya və qlobal münasibətlərdə sərbəst iştirak etmək üçün müstəqillik və demokratiyadan başqa üçüncü şərt sosial resursları da nümayiş etdirməsidir. Sosial resurslara aiddir: vətəndaş birliyi, ölkə rəhbərliyinin yeritdiyi daxili və xarici siyasətə əhalinin münasibəti, milli maraqların və ölkədaxili sabitliyin qorunmasında ölkə əhalisinin birgə nümayiş etdirdiyi iradə, xalqın dövlət siyasətinə verdiyi dəstək və s. Araşdırmalara əsasən müstəqil Azərbaycanın konstitusiyasında göstərilir ki, Azərbaycan Respublikası başqa ölkələrlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına əsasən həyata keçirir. Beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər Azərbaycanın üzv olduğu qlobal təşkilatların BMT, ATƏT-in "Helsing Aktında", Paris-İstanbul Xartiyasında regional təşkilatlar olan Avropa şurası, Qara dəniz hövzəsi ölkələrinin əməkdaşlıq təşkilatı GUAM, MDB, İslam təşkilatı ölkələri EKO və s. təşkilatların da nizamnaməsində öz əksini tapmışdır. Belə ki, 1995-ci il noyabrın 12-də ölkənin yeni konstitusiyası demokratik və hüququ dövlətin təməlini qoydu. Konstitusiyanın 12-ci maddəsinin I və II bəndləri, 29,60,63,65,71 və 1514-cü maddələri məhz insan hüquqları və insan azadlığının konstitutsion əsasını təşkil edir. Deməli demokratiya nəinki ölkə daxili, eyni zamanda qlobal səviyyədə insan hüquq və azadlığının siyasi plüralizm söz mətbuat azadlığına yönəldilən bir prosesdir. Qeyd etmək yerinə düşər ki, Azərbaycanda demokratik dövlətçilik ənənələrinin əsası XX əsrin əvvəllərində yəni 1918-ci il may ayının 28-də yaranmış Azərbaycan Xalq Cümhuriyyəti Demokratik Respublikası tərəfindən qoyulmuşdur. Araşdırmalar göstərir ki, Azərbaycan Respublikası indiyə qədər insan hüquqları sahəsində bir çox beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur. Onların da sırasına "Mülki və siyasi hüquqlara dair" beynəlxalq pakt, BMT qadınların siyasi hüquqlarına dair və BMT-nin uşaq hüquqları konvensiyasında irqi ayrı-keçiciliyinin bütün formalarının ləğv olunmasına dair Beynəlxalq konvensiyada və s. göstərmək olar. Ölkəmizin müstəqil dövlət kimi möhkəmlənməsindən sonra yəni 2001-ci ilin yanvar ayının 25-dən Avropa şurasının tam hüquqlu üzvü olan Azərbaycan Avropa hüquq məkanına inteqrasiya olunur. Avropa insan hüquqları konvensiyası özündə 46 dövləti birləşdirir.

Heydər Əliyev 1998-ci il 22 fevral tarixli "İnsan və vətəndaş" hüquq və azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında, 1999-cu ildə kütləvi informasiya tədbirləri haqqında qanun qəbul etmişdir. Verilən qanun və qərarlar əsasında Azərbaycanda demokratik qloballaşma bir çox sahələrə nüfuz edərək cəmiyyətin sivil səviyyəyə çatmasına, məhsuldar qüvvələrin sərbəst hərəkətinə, lokal, regional və qlobal səviyyədə istehsal, bölgü, mübadilə və istehlakın uzlaşmasına, tədricən birləşməsinə və qlobal təşkilatlar tərəfindən tənzimlənməsinə şərait yaradacaq və zənnimizcə buna nail olmaq üçün müasir qloballaşma özünün infrastrukturunu yaratmalıdır. Bu infrastruktur əlaqələndirici sahələrdə yaradılır ki, bu komponentlərə aiddir: Qlobal və regional nəqliyyat, internet kommunikasiya, ayrı-ayrı gömrük təşkilatları və bu təşkilatlara xidmət edən sahələr və s. Avropa birliyi son zamanlar ona üzv olan dövlətlərlə bu və digər sahələrdə çox ciddi iş aparılır. Araşdırmalar göstərir ki, Avropa ittifaqının İNTERREQ (beynəlxalq region) proqramı xüsusi yer tutur. Proqramın əsas məqsədi vahid iqtisadi sərhəd kommunikasiya sistemi ilə bir-birinə bağlanmış beynəlxalq regionlar yaratmaq və s. ibarətdir. Çağdaş dünyanın inteqrasiya olunmasında informasiya iqtisadi kateqoriya kimi dəyərləndirilir. Qloballaşmanın əsas əlaqələndirici komponenti olan informasiya kommunikasiya texnologiyaları inteqrasiyaya can atan dövlətlərdə lokal çərçivədə, beynəlxalq

standartlar səviyyəsində tətbiq olunmalıdır. İlham Əliyev qloballaşan dünyada ölkələrin rəqabət qabiliyyətinin ilk növbədə informasiya kommunikasiya texnologiyalarından səmərəli istifadə ilə bağlı olmasını nəzərə alaraq demişdir. "Mən informasiya-kommunikasiya texnologiyalarının Azərbaycanda tətbiqini prioritet məsələ elan edirəm". Bu gələcəkdir, gələcəyin inkişafıdır". Azərbaycan xalqının gələcəyinin təməl daşını qoyan möhtərəm Heydər Əliyev "Azərbaycan Respublikasının inkişafı naminə informasiya kommunikasiya texnologiyaları üzrə milli strategiya"sını (2003-2012) təsdiq etmişdir. Məhz elə həmin ildə cənab İlham Əliyev 2003-cü ildə ilk dəfə olaraq İsveçrənin Cenevrə şəhərində keçirilən "İnformasiya cəmiyyəti üzrə dünya sammitində iştirak etmiş, sammitdə çıxış edərək bildirmişdir ki, Azərbaycan dövləti informasiya cəmiyyətinin qurulması istiqamətində bütün imkanlardan istifadə edəcəkdir." Qloballaşan dövlətin rəqabət qabiliyyətinin artırılmasını informasiya kommunikasiya texnologiyalarından səmərəli istifadə olunması ilə bağlı olmasını dəyərləndirərək, onun ölkədə sürətli tətbiqini yüksək qiymətləndirmişdir. Araşdırmalar göstərir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin 15 iyul 2012-ci il tarixli NMR-in dövlət orqanlarının Elektron xidmətlər göstərilməsinin təşkili haqqında fərmanı, elektron hökumətin formalaşması ilə bağlı işləri daha da sürətləndirmişdir. Araşdırmalar göstərir ki, cəmiyyətin lokal və inteqrasiya olunmasında mobil telefonların rolu böyükdür. Məhz buna görə də mobil telefonlara olan tələb günü-gündən artmaqdadır. Son dövrlər mobil telefonlara olan tələbat 95% ödənilmişdir. MR-da mobil telefonla silahlanma səviyyəsi %-lə qrafikdə göstərilmişdir.

1 yanvar 2006-cı il 20%	1 yanvar 2015-ci il 45%	1 yanvar 2019-cu il 95%

Əhalinin rifah halının yaxşılaşması ilə əlaqədar olaraq ailələrin kompüterlə təminat % yüksələn xətt üzrə artırılmaqdadır.



1 yanvar 2006-cı il 15%	1 yanvar 2009-cu il 35%	1 yanvar 2010-cu il 85%

İnternet texnologiyaları, elektron kommunikasiya və biznes genişliyi iqtisadiyyatın bütün sahələrinə nüfuz edərək onu daha da genişləndirilmiş və informasiya axını daha da sürətlənmişdi. Araşdırmalar göstərir ki, real bazar ölkələrində UDM-un dinamik hissəsi informasiya yönümlü sahələr proqram təminatlı sferasında telekommunikasiya kompüter sistem-

lərindən hasil edilir. Son dövrlər NMR-da da informasiya sahəsində göstərilən xidmətlərin, ötürülən informasiyaların həcmi xeyli dərəcədə artmışdır. Araşdırmalar göstərir ki, dünyada baş verən qlobal tendensiyalar, inteqrasiyanın dərinləşməsi və birliklərə əsaslanan müasir "informasiya iqtisadiyyatının dövriyyəyə çıxarılması vergi sistemində də islahatların aparılmasını tələb edir. Prezident Cənab İlham Əliyevin 21 oktyabr 2005-ci il tarixli və 11 avqust 2010-cu il sərəncamı ilə tətbiq edilmiş Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə dövlət proqramını rəhbər tutaraq 2006-cı ildə vergi inzibatçılığı proseslərinin elektron qaydada aparılmasına imkan verən avtomatlaşdırılmış vergi informasiya sistemi (AVİS0) 2007-2012-ci illərdə vergi ödəyiciləri üçün elektron bəyannamə, elektron vergi hesab faktorların göndərilməsi "onlayn kargüzarlığı" fiziki və hüquqi şəxslərin elektron qeydiyyatı sistemləri tətbiq edilmişdir. Bu sahədə Azərbaycanın dünyaya inteqrasiya olunmasının əyani sübutu özünü 2002-ci il də Avropa Daxili Vergi Assambleyası təşkilatına (İOTA) üzv olmasıdır. 2012-ci ildə Fransada keçirilmiş və burada 44 ölkənin vergi assambleyasınınn 160 nümayəndəsi Avropa ittifaqı, iqtisadi əməkdaşlıq və inkişaf təşkilatı BVF və digər beynəlxalq təşkilatlar iştirak etmişdir. Məhz Azərbaycan Assambleyasında, fəaliyyətin qiymətləndirilməsi prosesində tətbiq edilən "innovasiyalar" Azərbaycan təcrübəsi mövzusunda təqdimatla çıxış etmişdir. 2011-ci ildə beynəlxalq kooperasiyaların investisiya rəhbəri İrina Migerberq Elektron qeydiyyatın işə salınması nəticəsində Azərbaycan biznesi başlama proseduraları sahəsində dünyanın ən inkişaf etmiş ölkələri ilə müqayisə edərək ciddi irəliləyiş əldə etdiyini vurğulamışdır. 2008-ci ildən Azərbaycanda bir pəncərə prinsipinin tətbiqinə başlanmışdır. Dünya bankının "Biznes, başlama" hesabatında ön sıralardan birini tutmasına səbəb olmuşdur. Beynəlxalq Maliyyə Kooperasiyası və Dünya Bankı vergilər nazirliyinin biznesə bir pəncərə prinsipi ilə qeydiyyatını dünyanın aparıcı ölkələrinə nümunə və ən yaxşı təcrübə kimi göstərməyə başlamışdır. Məhz "bir pəncərə" prinsipinin tətbiqi hər il təqribən 10-13 milyon dollar vasitəsilə qənaət etməyə imkan verir. Göründüyü kimi, Müstəqil Azərbaycan hazırda özünün ən sürətli inkişaf və dünya iqtisadi sistemin fəal inteqrasiya dövrünü yaşayır. Hazırda Azərbaycan 1998-ci ildə yaradılan Tivininq layihəsinin Avropa ittifaqına qoşulmaq istəyən ölkələr üçün nəzərdə tutulmuşdur. Bu layihənin məqsədi həmin ölkələrdə qanunvericilik və digər normativ sənədləri Avropa standartlarına və ənənələrinə yaxınlaşdırmaqdır. Azərbaycanda başa çatmış, belə layihələrdə müsbət uğurlar qazanılmışdır. Belə ki, ölkəmizdə vergilər nazirliyinə daxil olan bəyannamələri: gəlir vergisi üzrə 90%, mənfəət vergisi üzrə 95%, ƏDV üzrə 98% elektron formada ödənilir. Qlobal münasibətlər ölkələrin iqtisadiyyatına və makroiqtisadi göstəricilərinə də müsbət təsir göstərən əsas amillərdəndir.

Ölkə iqtisadiyyatının inkişafı UDM artımı, adambaşına düşən UDM artımı və sosial siyasət səhiyyənin inkişafı NMR-də də 2018-ci ildə 2 milyard 773 milyon manat olmuşdur. UDM-tərkibində ilk yeri sənaye məhsulu 27,4% ,maddi istehsalın payı 58,6% təşkil edibdir. Adam başına düşən UDM isə 6101 manat olmuşdur. Həmin ildə kənd təsərrüfatı məhsulu 1,3%, nəqliyyat sektorunda yük daşıması 1,9%, rabitəxidməti 3,3%, mobil rabitə xidməti 2%, sənaye məhsulu 1,3%, əsas kapitala yönəldilən investisiya. Ümumilikdə Azərbaycan üzrə 2019-cu ildə UDM həcmi 2,2% artaraq cari qiymətlərlə 81,7 milyard manat olmuşdur. Adam başına düşən UDM həcmi isə 8247 manat olmuşdur. Ölkədə əsas kapitala yönəldilən investisiyalar 68,1% qeyri neft sektoruna 31,9% isə neft bölməsinə yönəldilmişdir. İxrac 17655,8% milyon ABŞ dolları, idxal isə 12384,7 milyon man ABŞ dolları olmuş və 5271,1 milyon ABŞ dolları həcmində müsbət saldo yaranmışdır. Göründüyü kimi baş verən müvəffəqiyyətlərin əsl səbəbi düzgün lokal və qlobal iqtisadi siyasət və uzlaşma meyllərinin beynəlxalq səviyyə ilə əlaqələndirilməsidir.

ƏDƏBİYYAT

1. Ağarza A. Rüstəmov Əhalinin rifah halının yaxşılaşdırılmasında sosial-iqtisadi inkişafın istiqamətləri. Bakı, Nurlan, 2002, s.105, 200 s.
2. Əhmədov N. Azərbaycanda xarici iqtisadi əlaqələrin inkişafı və istehlak bazarlarının formalaşması. Bakı, Nurlan, 2005, s. 80, 450 s.
3. Abbasov T. Naxçıvan Muxtar Respublikasında Aqrar Bazarın formalaşması və inkişafının xüsusiyyətləri. Bakı, Nurlan, 2005, s. 180, 301 s.
4. Əlirzayev Ə. İqtisadiyyat düşüncələr, baxışlar. Bakı nəşriyyatı, 2002, 464 s.
5. Məmmədov H. Bazar münasibətlər şəraitində istehsal infrastrukturun inkişafı. Naxçıvan, Qeyrət, 2007, s. 155, 375 s.
6. Şirəliyev A., Rüstəmov A. Bazar və bazar mexanizmi. Bakı, Nurlan, 2012, s. 145, 300 s.

Naxçıvan Dövlət Universiteti
E-mail: ***kamalatehmezova75@yahoo.com***

Kamala Tahmazbeyova

INTERNATIONAL REGIONAL INTEGRATION AND GLOBAL INDICATORS

Studies show that integration is a barrier between states, ie, traditions, national values, and globalization is a barrier in investment, technology, labor resources, et cetera removes restrictions. Democratization means that these processes take place freely and unhindered based on internationally accepted standards and principles. Therefore, we can conclude that the level of democratization of countries is one of the main factors accelerating the integration process. Democracy itself is a product of integration.

Keywords: *investment, technology, globalization, national values, labor resources.*

Камала Тахмазбекова

МЕЖДУНАРОДНАЯ РЕГИОНАЛЬНАЯ ИНТЕГРАЦИЯ И ГЛОБАЛЬНЫЕ ИНДИКАТОРЫ

Исследования показывают, что интеграция снимает ограничения между государствами, т.е. традиции, национальные ценности, а глобализация – барьеры в области инвестиций, технологий, трудовых ресурсов и т. д. Демократизация означает, что эти процессы происходят свободно и беспрепятственно на основе международно признанных стандартов и принципов. Можно сделать вывод, что уровень демократизации стран является одним из основных факторов, ускоряющих интеграционный процесс. Фактически, демократия сама по себе является продуктом интеграции.

Ключевые слова: *инвестиции, технологии, глобализация, национальные ценности, трудовые ресурсы.*

(İqtisad elmləri doktoru, professor Teymur Abbasov tərəfindən təqdim edilmisdir)

Daxilolma tarixi: İlkin variant 23.08.2021
Son variant 09.09.2021

KİTABLAR, RƏYLƏR...

İLK MONOQRAFİYANIN UĞURU

XX əsrin 50-90-cı illərində Naxçıvan ədəbi-mədəni mühitinin görkəmli simalarından biri olan Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, şair, nasir, dramaturq və tərcüməçi Hüseyn Razinin ədəbi irsinin bir hissəsini də publisistik əsərləri təşkil edir. H.Razinin publisistik yazıları hələ gənc yaşlarından mətbuatda görünməyə başlamışdı. Onun məqalə və oçerklərinin əksəriyyəti əməkdaşı olduğu "Şərq qapısı" qəzetində işıq üzü görmüşdür. Bununla yanaşı onun yazıları Bakıda nəşr olunan bir sıra qəzet və jurnallarda, həmçinin müxtəlif kitab, almanax və toplularda çap olunmuşdur.

İndiyədək H.Razinin həyat yolu və yaradıcılığı haqqında xeyli məqalə, bir neçə diplom işi yazılmış, Nadir İsmayılov "Hüseyn Razinin yaradıcılıq yolu" mövzusunda fəlsəfə doktorluğu dissertasiyası müdafiə etmişdir. Onun eyni adlı monoqrafiyası da çap olunmuşdur. Jurnalist Rafiq Odayın tərtib etdiyi "Xatirələr işığında" (2004) və filologiya elmləri doktoru Fərman Xəlilovun "Hüseyn Razi. Biblioqrafiya" (2015) adlı kitabları da şairə həsr olunan dəyərli mənbələrdir.

H.Razinin ədəbi irsinin öyrənilməsi işi bu gün də davam etdirilir. Bu baxımdan gənc tədqiqatçı Sahab Əliyevanın "Əcəmi" NPB tərəfindən çap edilən "Hüseyn Razinin publisistikası" adlı monoqrafiyası öz aktuallığı və yeniliyi ilə diqqəti cəlb edir. Monoqrafiyanın elmi redaktoru filologiya elmləri doktoru Fərman Xəlilov, rəyçiləri AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Əbülfəz Quliyev və filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımovdur.

Monoqrafiyanın əsas hissəsi "Giriş", iki fəsil və "Nəticə"dən ibarətdir. "Əlavələr" hissəsində isə H.Razinin "Şərq qapısı" qəzetinin müxtəlif illərdə nəşr olunan nömrələrində çıxan 15 məqaləsi daxil edilmişdir.

"Giriş"də müəllif H.Razinin ədəbi-bədii yaradıcılığı, xüsusilə publisistikası haqqında ümumiləşdirilmiş dolğun məlumat verməyə nail olmuşdur.

Birinci fəsil "İctimai-siyasi məzmunlu məqalələri" adlanır. Bu fəsildə müəllif sayca xeyli çox olan belə məqalələri müxtəlif mövzular üzrə qruplaşdıraraq təhlilə cəlb etmişdir. Müəllifin H.Razinin ictimai-siyasi məzmunlu məqalələri haqqında fikir və mülahizələri öz yeniliyi və orijinallığı ilə diqqəti cəlb edir. Onun araşdırmalarından aydın olur ki, H.Razinin həmin yazıları Naxçıvan Muxtar Respublikasının tərəqqisi, gözəlliyi, sənaye, kənd təsərrüfatı və mədəni quruculuq sahəsindəki nailiyyətləri, Cənubi Azərbaycan, Arpaçay dəryaçasının inşası, İkinci Dünya müharibəsi və orada iştirak edən naxçıvanlı döyüşçülər, beynəlxalq məsələlər; ədəbiyyat, incəsənət və mədəniyyət məsələləri, Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr, 90-cı illərin qanlı qırğınları kimi öz dövrü üçün aktual olan mövzulara həsr edilmişdir.

Monoqrafiyanın "Ədəbi-tənqidi məqalələri" adlı ikinci fəslində müəllif H.Razinin Azərbaycan ədəbiyyatının görkəmli söz sənətkarları, Naxçıvan ədəbi mühitinin yetişdirdiyi gənc yazarların yaradıcılığı, keçmiş Sovet İttifaqı xalqları və dünya ədəbiyyatının ayrı-ayrı nümayəndələri, teatr sənəti, tanınmış incəsənət xadimlərinin həyat və yaradıcılıq yolu, teatr tamaşaları və müxtəlif kitab və monoqrafiyalar haqqında yazdığı məqalə və resenziyaları tədqiqat obyektinə çevirmişdir.

H.Razinin müxtəlif illərdə "Azərbaycan müəllimi", "Azərbaycan gəncləri", "Kommunist", "Azərbaycan pioneri", "Möhtəşəm Azərbaycan", "Güney", "Ədəbiyyat və incə-

sənət", "Sovet kəndi", "Leninçi", "Şərq qapısı", "Sovet Naxçıvanı", "Советская Нахичевань", "Бакинский рабочий" qəzetlərində, "Kənd həyatı", "Azərbaycan", "Ulduz", "Elm və həyat" jurnallarının səhifələrində dərc olunan publisistik məqalələrinin sayı 1000-dən çoxdur. Monoqrafiyaya ön söz yazan F.Xəlilovun qeyd etdiyi kimi "Bunları tapmaq, oxumaq və təhlilə cəlb etmək böyük səbir və zəhmət tələb edir. S.Əliyeva belə bir zəhmətə qatlaşaraq şairin, demək olar ki, mövzu ilə bağlı bütün yazılarını gözdən keçirmiş, onların məzmunu və mahiyyəti haqqında dəyərli elmi qənaətlərə gəlmişdir".

H.Razinin monoqrafiyanın "Əlavələr" hissəsinə daxil edilən 15 publisistik yazısı onun jurnalistlik səriştəsi haqqında oxucularda əyani təsəvvür yarada bilir.

S.Əliyevanın "Hüseyn Razinin publisistikası" monoqrafiyası təkcə H.Razinin ədəbi irsinin öyrənilməsində yox, həm də Naxçıvan ədəbi mühitində meydana çıxan publisistikanın inkişaf yolunu izləmək baxımından da tədqiqatçılar üçün qiymətli elmi mənbə ola bilər.

Elmi yeniliyi ilə diqqəti cəlb edən "Hüseyn Razinin publisistikası" gənc tədqiqatçı S.Əliyevanın ilk monoqrafiyasıdır. Şübhə etmirik ki, bu monoqrafiya elmi ictimaiyyət tərəfindən maraqla qarşılanacaqdır. Müəllifə bundan sonrakı elmi fəaliyyətində uğurlar arzulayırıq.

Bibixanım Nağdəliyeva
AMEA Naxçıvan Bölməsi

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalın əsas məqsədi elmi keyfiyyət meyarlarına cavab verən orijinal elmi məqalələrin dərc edilməsindən ibarətdir.
2. Jurnalda başqa nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və mükəmməl redaktə olunmuş elmi məqalələr dərc edilir.
3. Məqalənin həmmüəlliflərinin sayının üç nəfərdən artıq olması arzuolunmazdır.
4. Məqalələrin keyfiyyətinə, orada gostərilən faktların səhihliyinə müəllif birbaşa cavabdehdir.
5. Məqalələr AMEA-nın həqiqi və müxbir üzvləri və ya redaksiya heyətinin üzvlərindən biri tərəfindən təqdim edilməlidir.
6. Məqalələr iki dildə – Azərbaycan və rus dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi və hər xülasədə açar sözlər verilməlidir.
7. Məqalənin mətni jurnalın redaksiyasına fərdi kompyuterdə, A4 formatlı ağ kağızda, "12" ölçülü hərflərlə, səhifənin parametrləri yuxarıdan 2 sm, aşağıdan 2 sm; soldan 3 sm, sağdan 1 sm məsafə ilə, sətirdən-sətrə "defislə" keçmədən, sətir aralığı 1,5 interval olmaq şərti ilə rus və Azərbaycan dilində Times New Roman şriftində yazılaraq, 1 nüsxədə çap edilərək, CD-də jurnalın məsul katibinə təqdim edilir. Mətnin daxilində olan şəkil və cədvəllərin parametri soldan və sağdan 3,7 sm olmalıdır.
8. Səhifənin ortasında "12" ölçülü qalın və böyük hərflərlə müəllifin (müəlliflərin) adı və soyadı yazılır.
9. 1 sətir boş buraxılmaqla aşağıda "12" ölçülü böyük hərflərlə məqalənin adı çap edilir. Sonra məqalənin yazıldığı dildə "10" ölçülü hərflərlə, kursivlə xülasə və açar sözlər yazılır. Daha sonra müəllifin işlədiyi təşkilatın adı, elmi dərəcəsi və e-mail ünvanı, "12" ölçülü kiçik hərflərlə qalın və kursivlə ədəbiyyat siyahısından sonra sağdan yazılır. (məs.: AMEA Naxçıvan Bölməsi; e-mail: tusinesr@gmail.com).
10. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat xülasələrdən əvvəl "12" ölçülü hərflərlə, kodlaşdırma üsulu və əlifba sırası ilə göstərilməlidir. "Ədəbiyyat" sözü səhifənin ortasında qalın və böyük hərflərlə yazılır. Ədəbiyyat siyahısı yazıldığı dildə adi hərflərlə verilir. İstifadə edilən mənbələrin sayı 15-dən çox olmamalıdır. Məs.:
Kitablar: Qasımov V.İ. Qədim abidələr. Bakı: İşıq, 1992, 321 s.
Kitab məqalələri: Həbibbəyli İ.Ə. Naxçıvanda elm və mədəniyyət / Azərbaycan tarixində Naxçıvan, Bakı: Elm, 1996, s. 73-91.
Jurnal məqalələri: Baxşəliyev V.B., Quliyev Ə.A. Gəmiqaya təsvirlərində yazı elementləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 74-79.
11. Məqalənin xülasəsində müəllifin adı və soyadı "12" ölçülü kiçik, qalın hərflərlə; mövzunun adı böyük, qalın hərflərlə; xülasənin özü isə adi hərflərlə yazılır. Xülasə məqalənin məzmununu tam əhatə etməli, əldə olunan nəticələr ətraflı verilməlidir.
12. Məqalədəki istinadlar mətnin icərisində verilməlidir. Məs.: [4, s. 15]
13. Məqalələrin ümumi həcmi, qrafik materiallar, fotolar, cədvəllər, düsturlar, ədəbiyyat siyahısı və xülasələr də daxil olmaqla 5-8 səhifədən çox olmamalıdır.
14. Məqaləyə müəlliflər haqqında məlumat (soyadı, adı və atasının adı, iş yeri, vəzifəsi, alimlik dərəcəsi və elmi adı, ünvanı, e-mail adresi, əlaqə telefonu) mütləq əlavə olunmalıdır.
15. Məqalənin məzmununa əsaslanan UOT kodu yuxarı sol tərəfdən mütləq qeyd olunmalıdır.
16. Təqdim olunan məqalə üçün müəlliflər antiplagiat arayışı təqdim etməlidirlər.

QEYD: *AMEA Naxçıvan Bölməsinin "Elmi əsərlər" jurnalına təqdim olunan məqalələrin sayının çoxluğunu və "Tusi" nəşriyyatının imkanlarının məhdudluğunu nəzərə alaraq bir nömrədə hər müəllifin yalnız bir məqaləsinin çap edilməsi nəzərdə tutulur.*

INFORMATION FOR AUTHORS

1. The primary purpose of this journal is to publish original scientific papers that meet scientific criteria.
2. The journal publishes compact and perfectly edited scientific papers, which are the results of new research and have not been published in other publications previously.
3. The number of collaborators exceeding three is undesirable.
4. The author is directly responsible for the quality of papers and the accuracy of the facts presented.
5. The papers must be submitted by full members and corresponding members of ANAS or one of the Editorial Board members.
6. The papers can be published in two languages – Azerbaijani and Russian. In addition to the language of a paper, an abstract should be provided in two other languages; keywords should be pointed.
7. A paper text is submitted to the editor-in-chief of the journal along with an electronic copy, it must be printed on a personal computer, on white A4 paper, in Times New Roman font, font size "12", page parameters 2 cm above, 2 cm below, 3 cm on the left, 1 cm on the right, without hyphenation, the interval of 1.5, and in one of the languages mentioned above. Margins for figures and tables inside the text should be 3.7 cm left and right.
8. The name and surname of the author (authors) are indicated in bold and capital letters in the center of the page, font size "12".
9. Below, after one blank line, the title of the paper is indicated in capital letters, font size "12". Then there is abstract including keywords in the language of the paper, font size "10", italics. The organization name, the author's scientific degree, the email address should be written below the references in lowercase letters, font size "12", bold italics (for example, Nakhchivan branch of ANAS; Email: tusinesr@gmail.com).
10. Reference should be made to scientific sources on the subject, the list of references should be given before the abstract, following the encoding rules, in alphabetical order, the font size "12'. The word "references" in the middle of the page is highlighted in bold and in capital letters. References are in lowercase letters in the language in which this edition has been published. The used sources must not be more than 15. Eg.:
Books: Gasymov V.I. Ancient monuments. Baku: Light, 1992, 321 p.
Book papers: Habibbeyli I.A. Science and culture in Nakhchivan / Nakhchivan in the history of Azerbaijan. Baku: Science, 1996, p. 73-91.
Journal papers: Bakhshaliev V.B., Guliev A.A. Writing elements in the drawings of Gemigaya // Proceedings of the Nakhchivan Branch of ANAS, 2005, № 1, p. 74-79.
11. In the abstract, the author's name and surname are indicated in lowercase letters in bold font, size "12"; the title of the paper is capitalized in bold; the abstract itself is in lowercase letters. The abstract should correspond to the full content of the paper; the results should be reported in detail.
12. The links in the paper should be in the text. Eg.: [4, p. 415].
13. The total amount of a paper, including graphic materials, photographs, tables, formulas, references, and reviews, should not exceed 5-8 pages.
14. Authors' data must be specified additionally (last name, first name, patronymic, place of work, position, degree, academic title, address, email address, work, and home phone numbers).
15. A paper's code based on UDC should be indicated on the left.
16. Authors must provide Antiplagiat certificates for submitted papers.

NOTE: *Considering the large number of papers submitted to the "Scientific works" journal of the Nakhchivan Brunch of ANAS, and the limited capabilities of the "Tusi" Publishing house, it is assumed that only one paper of each author can be published in one issue.*

К СВЕДЕНИЮ АВТОРОВ

1. Основной целью журнала является публикация оригинальных научных статей, соответствующих критериям научного качества.
2. Журнал публикует компактные и в совершенстве отредактированные научные статьи, являющиеся результатами новых исследований и не опубликованные ранее в других изданиях.
3. Желательно, чтобы число соавторов не превышало трех.
4. Автор несет прямую ответственность за качество статей, достоверность представленных в них фактов.
5. Статьи должны быть представлены действительными членами и членами-корреспондентами НАНА или одним из членов Редколлегии.
6. Статьи могут быть представлены на двух языках – азербайджанском и русском. Резюме и ключевые слова необходимо представить на двух других языках.
7. Статьи представляют в редакцию журнала в печатном виде, в электронной форме (CD), на бумаге формата А4, шрифт Times New Roman, кегль шрифта 12 пт, параметры страницы: верхнее поле – 2 см, нижнее – 2 см левое – 3 см, правое – 1 см, без переносов, межстрочный интервал – 1,5. Поля страниц для рисунков и таблиц внутри текста слева и справа должны быть по 3,7 см.
8. По центру страницы, кеглем 12 пт, жирным шрифтом и заглавными буквами указывается имя и фамилия автора (авторов).
9. После одной пустой строки указывается название статьи заглавными буквами, кегль шрифта 12 пт. Затем приводится аннотация с ключевыми словами на языке статьи (кегль шрифта – 10 пт, курсив). Название организации, ученая степень и адрес электронной почты автора указываются обычными строчными буквами, жирным курсивом, кегль шрифта 12 пт, справа после списка источников (например: Нахчыванское отделение НАНА; E-mail: tusinesr@gmail.com)
10. Следует указать ссылки на научные источники по данному предмету. Список использованной литературы указывается перед резюме, в соответствии с правилами кодировки, в алфавитном порядке, кегль шрифта 12 пт. Слово “Литература” пишется посередине страницы, заглавными буквами и жирным шрифтом. Список литературы приводится строчными буквами на языке публикации приведенного издания, в количестве не более 15. Напр.:
Книги: Гасымов В.И. Древние памятники. Баку: Ишыг, 1992, 321 с.
Книжные статьи: Хабиббейли И.А. Наука и культура в Нахчыване / Нахчыван в итории Азербайджана. Баку: Наука, 1996, с. 73-91.
Журнальные статьи: Бахшалиев В.Б., Гулиев А.А. Элементы письменности в рисунках Гемикая // Известия Нахчыванского отделения НАНА, 2005, № 1, с. 74-79.
11. В резюме имя и фамилия автора указываются строчными буквами жирным шрифтом кеглем 12 пт, название статьи – заглавными буквами жирным шрифтом, само резюме строчными буквами. Резюме должно соответствовать полному содержанию статьи с подробным представлением полученных результатов.
12. Ссылки должны быть представлены в тексте в виде [4, с. 15].
13. Общий объем статьи, включая графические материалы, фотографии, таблицы, формулы, список литературы и отзывы, не должен превышать 5-8 страниц.
14. Обязательно указываются данные об авторах (фамилия, имя, отчество, место работы, должность, ученая степень и звание, адрес, адрес электронной почты, контактный номер).
15. Необходимо указать УДК статьи слева в верхней части.
16. Авторы должны предоставить сертификат Антиплагиат на присланную статью.

ПРИМЕЧАНИЕ: *Принимая во внимание большое количество статей, представленных в журнал “Научные труды” Нахчыванского отделения НАНА и ограниченные возможности издательства “Туси”, в одном номере может быть опубликована только одна статья каждого автора.*

AMEA Naxçıvan Bölməsinin elmi nəşri
№ 3 (67)

Baş redaktor – Zülfiyyə Məmmədli
Redaktor – Sara Cəfərova
Korrektor – Yelena Muxtarova
Operatorlar – İlhamə Əliyeva,
– Aynur Təhməzova,
– Taleh Maxsudov

Yığılmağa verilmişdir: 02.09.2021
Çapa imzalanmışdır: 28.09.2021
Kağız formatı: 70 x 108 1/16
19,1 çap vərəqi. 306 səhifə
Sifariş № 158. Tiraj: 150

AMEA Naxçıvan Bölməsinin “Tusi” nəşriyyatında çap edilmişdir.
Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35.
E-mail: tusinesr@gmail.com